AZƏRBAYCAN CÜMHURİYYƏTİNİN 80 İLLİYİNİN
KEÇİRİLMƏSİ ÜZRƏ DÖVLƏT KOMİSSİYASI
AZƏRBAYCAN RESPUBLİKASI ELMLƏR AKADEMİYASININ
A.A.BAKIXANOV adına TARİX İNSTİTUTU

# *AZƏRBAYCAN CÜMHURİYYƏTİ (1918-1920)*

Azərbaycan Respublikası Prezidentinin
İşlər İdarəsinin
KİTABXANASI

18862

"ELM" nəşriyyatı
Bakı - 1998

*Redaksiya hey'əti:* F.Maqsudov,
İ.Əliyev, N.Ağamalıyeva, Ş.Alışanlı

*Məs'ul redaktor:* N.Ağamalıyeva

ISBN-5-8066-0925-1

Azərbaycan Cümhuriyyəti. - Bakı: "Elm", 1998, 336 s.

**Kitab Azərbaycan Respublikasının prezidenti Heydər Əliyevin 30 yanvar 1998-ci il tarixli sərəncamı ilə yaradılmış Azərbaycan Cümhuriyyətinin 80 illiyini keçirmək üzrə Dövlət Komissiyasının qərarı ilə çap olunur.**

**Kitabda XX əsr Azərbaycan milli hərəkatının təşəkkülünün əsas mərhələləri və bunun məntiqi nəticəsi kimi yaranmış milli dövlət nəzərdən keçirilir.**

**Gənc Azərbaycan Cümhuriyyətinin müxtəlif sahələrdə apardığı fəaliyyət, onun süqutunun səbəbləri, tarixi əhəmiyyəti elmi şəkildə araşdırılır.**

$\frac{0503020907-716}{655(07)-98}$ Sifarişlə

© **"Elm" nəşriyyatı, 1998**

**"Azərbaycan Xalq Cümhuriyyətinin 80 illiyinin keçirilməsi haqqında" Azərbaycan Respublikası Prezidentinin**

# SƏRƏNCAMI

**1998-ci il mayın 28-də Azərbaycan Xalq Cümhuriyyətinin yaradılmasının 80 ili tamam olur. Bu tarixi gün Azərbaycan xalqının həyatına böyük və əlamətdar hadisə kimi daxil olmuşdur. Şərqdə ilk demokratik dövlət quruluşunu yaratmış Azərbaycan Xalq Cümhuriyyəti istiqlaliyyətimizi e'lan edərək xalqımızın müstəqillik əzmini nümayiş etdirmişdir.**

**Azərbaycan Xalq Cümhuriyyəti ölkənin daxilində və xaricində yaranmış gərgin və mürəkkəb ictimai-siyasi şəraitdə fəaliyyət göstərmişdir. Bu dövlətin qısa bir müddətdə həyata keçirdiyi tədbirlər xalqımızın tarixində böyük iz buraxmışdır. Milliyyətindən, siyasi və dini mənsubiyyətindən, cinsindən asılı olmayaraq bütün vətəndaşlara bərabər hüquqlar verilməsi, dövlət sərhədlərinin müəyyən olunması, Azərbaycan dövlətçiliyi atributlarının qəbul edilməsi, ana dilinin dövlət dili e'lan olunması Azərbaycanın gələcək müstəqilliyi üçün möhkəm zəmin yaratmışdır. Demokratik dövlət quruculuğu, iqtisadiyyat, mədəniyyət, təhsil, hərbi quruculuq sahələrində atılmış addımlar Azərbaycan Xalq Cümhuriyyətinin 23 aylıq fəaliyyətini əks etdirən əsas istiqamətlərdir.**

**Azərbaycan Xalq Cümhuriyyəti 1920-ci ilin aprelində süqut etdi. Azərbaycanda sovet hakimiyyəti quruldu. 1922-ci ilin dekabrında Sovet Sosialist Respublikaları İttifaqı yarandı və Azərbaycan bu ittifaqa daxil oldu. SSRİ-nin tərkibində olduğu dövrdə Azərbaycan bir çox dövlətçilik atributlarını saxlaya bilmiş, iqtisadiyyatını, elmini və mədəniyyətini inkişaf etdirmişdir. 1918-ci ildə Azərbaycanda yaranmış respublika müstəqil dövlət kimi süqut etsə də, respublika quruluşu yaşamış, müstəqillik hissləri xalqımızı heç vaxt tərk etməmişdir.**

**1991-ci ildə dövlət müstəqilliyini bərpa edən xalqımız Azərbaycan Xalq Cümhuriyyətinin qısamüddətli fəaliyyətinin zəngin ən'ənələrindən istifadə etmiş və bu tarixi varislik üzərində müstəqil Azərbaycan dövlətini yaratmışdır.**

**Azərbaycan Xalq Cümhuriyyətinin yaranmasının xalqımızın tarix salnaməsində xüsusi yer tutduğunu nəzərə alaraq qərara alıram:**

**1. Azərbaycan Xalq Cümhuriyyətinin 80 illiyi respublikada geniş qeyd edilsin.**

**2. Yubiley tədbirlərinin hazırlanıb həyata keçirilməsi məqsədilə Dövlət Komissiyası yaradılsın.**

**3. Azərbaycan Respublikasının Nazirlər Kabineti bu sərəncamdan irəli gələn məsələləri həll etsin.**

**Heydər Əliyev**
**Azərbaycan Respublikasının Prezidenti**

**Bakı şəhəri, 30 yanvar 1998-ci il**

# SÖZÖNÜ

Bu gün müstəqilliyə və suverenliyə qovuşmuş Azərbaycan xalqı dövlət həyatını qurmaq, iqtisadi islahatları həyata keçirmək kimi məsələləri həll edir. Uzun onilliklərin fiziki və mə'nəvi repressiyalarından sonra yenidən öz kökünə, tarixinə, ən'ənələrinə qayıdır, gözümüzün qarşısında baş verən hadisələr, proseslərlə yaxın keçmişimiz arasında bir oxşarlıq, paralel axtarır, tarixi təcrübədən faydalanmağa çalışır. Azərbaycan Prezidenti Heydər Əliyevin dediyi kimi, "dövlət quruculuğunda nəinki tarixi və milli ən'ənələrimiz nəzərə alınır, həm də dünya təcrübəsindən, demokratik prinsiplərdən istifadə edilir". Təbii olaraq, yaddaş, tarixi şüur daha çox öz keçmişimizə, milli-mə'nəvi sərvətlərə üz tutur. Bu baxımdan son ilə qədər istər geniş ictimaiyyət, istərsə də tarix elmi üçün qaranlıq bir səhifə kimi qalan, yaddaşımızdan tamamilə silinmiş 1918-20-ci illər dövrünün obyektiv-elmi şəkildə öyrənilməsi böyük maraq kəsb edir.

Bu, hər şeydən əvvəl, onunla əlaqədardır ki, 1918-20-ci illərdə Azərbaycan bütün müsəlman Şərqində ilk parlamentli, demokratik respublika formasında dünyəvi dövlət qurmuşdur.

İndiki mədəni dünyada əsas demokratik normalar sayılan xalq hakimiyyəti, insan haqları, milli və irqi bərabərlik, söz, mətbuat, ittifaqlar azadlığı kimi dəyərlər Yaxın və Orta Şərqdə ilk dəfə olaraq, Azərbaycan Xalq Cümhuriyyətində e'lan edilmiş və əməli həyata keçirilmişdi.

Çar Rusiyasının dağılmasından sonra onun ucqarlarında yaranmış siyasi qurumlar içərisində Azərbaycan Xalq Cümhuriyyəti ən demokratik dövlətlərdən biri idi,

onun dövlət strukturlarında Azərbaycanda fəaliyyət göstərən bütün siyasi partiyalar, milli azlıqlar və az-çox əhəmiyyətli ictimai təşkilatlar təmsil olunmuşdu. Azərbaycan Xalq Cümhuriyyəti milli mənlik şüurunun və milli demokratik hərəkatın inkişafının ən yüksək nöqtəsi olmuş, hər işdə azərbaycanlılıq qayəsi, milli mənafelərin aliliyi rəhbər tutulmuşdu.

Azərbaycan Xalq Cümhuriyyətinin tarixi təcrübəsinin öyrənilməsi həm də ona görə böyük elmi-nəzəri və əməli əhəmiyyətə malikdir ki, bu gün Azərbaycan dövlətinin həyata keçirdiyi bütün tədbirlər: dövlət aparatının təkmilləşdirilməsi, siyasi və iqtisadi suverenliyin tə'min edilməsi, bərabərhüquqlu, qarşılıqlı faydalı xarici əlaqələrin yaradılması, ictimai həyatın bütün sahələrinin - dövlət idarə sisteminin, təhsilin və s. milliləşdirilməsi, mədəniyyət sahəsində zəruri tədbirlər görülməsi, xarici təcavüzdən müdafiə - bunların hamısı o zamankı milli qüvvələrin əməli olaraq məşğul olduğu məsələlər idi. Bu cəhətdən Azərbaycan Cümhuriyyətinin uğurları diqqətəlayiq olduğu kimi, uğursuzluqları da ibrətamizdir.

Tarixi keçmişimizə və onun müasirliklə əlaqəsinə dair Azərbaycan Respublikasının Prezidenti Heydər Əliyevin aşağıdakı fikri tariximizin və bu günümüzün qiymətləndirilməsi baxımından mühüm əhəmiyyət kəsb edir: "1918-ci ildə yaranmış Azərbaycan Demokratik Cümhuriyyəti bizim milli sərvətimizdir, tariximizin parlaq səhifəsidir. Ondan sonrakı illər, onilliklər də həyatımızın böyük mərhələləridir, parlaq səhifələridir, xalqımızın böyük nailiyyətidir. Məhz bunlar hamısı birlikdə indiki müstəqil Azərbaycanın həm iqtisadi, həm intellektual, həm də mədəni potensialını yaradıbdır".

Beləliklə, Azərbaycan Xalq Cümhuriyyətinin fəaliyyəti ilə bağlı məsələlərin obyektiv və elmi şəkildə öyrənilməsi bu günkü tarix elminin ən mühüm vəzifələrindəndir. Bu baxımdan Azərbaycan Prezidenti Heydər Əliyev cənablarının aşağıdakı klassik ifadəsi son dərəcə



diqqətəlayiqdir: "Tariximizi bilməyən gənc, vətənpərvər ola bilməz, millətini sevən adam ola bilməz".

Azərbaycan Xalq Cümhuriyyətinin tarixinin öyrənilməsində müşahidə edilən birtərəflilikdən - onun siyasətini, fəaliyyətini mütləqləşdirmək, ideallaşdırmaq meylindən də uzaq olmaq lazımdır.

Azərbaycan Xalq Cümhuriyyətinin yaranması və fəaliyyəti Azərbaycan milli-azadlıq hərəkatı ilə qırılmaz surətdə bağlı, onun qanunauyğun nəticəsi olub, yeni tarixi şəraitdə onun öz qarşısına qoyduğu tarixi vəzifələrin həyata keçirilməsini nümayiş etdirirdi. "Demokratik Respublikanın yaranması əsrimizin əvvəlindən Azərbaycan xalqında, onun mütəfəkkir insanlarında oyanmış müstəqillik, milli azadlıq ideyalarının, arzularının, istəklərinin həyata keçirilməsi idi". Demokratik Respublikanın yaranması Azərbaycanın müstəqilliyini ilk dəfə olaraq, dünyaya nümayiş etdirdi, Azərbaycan xalqının öz dövlətçiliyinə nə qədər bağlı olduğunu əks etdirdi.

XX əsrin əvvəllərində Azərbaycanda genişlənən milli azadlıq hərəkatı milliyyət, hürriyyət, türkçülük ideyalarının güclü tə'siri altında idi. İslamçılıq meylləri və şüarları ilə qarşılıqlı tə'sir və müqayisədə türkçülük ictimai fikirdə getdikcə daha çox üstünlük qazanırdı. Milli Azərbaycan hərəkatının rəhbərləri, xalqımızın tarixi və mədəni ən'ənələrinə istinad edərək, bu hərəkatın ideologiyası kimi azərbaycanlılıq tə'limini işləyib hazırlamışdılar. İdeoloji mənşəyi e'tibarı ilə milli Azərbaycan hərəkatı, Şərqdəki cəmiyyətin məqbul şəkildə quruluşu ideyaları ilə Qərbdəki mədəniyyət və demokratiya dəyərlərini özündə birləşdirirdi.

Milli Azərbaycan hərəkatında bu ideya təkamülü, onun dinimizə, milli-mə'nəvi dəyərlərimizə bağlılığı və müasirliyi, yeni tarixi şəraitə uyğunluğu respublikamn üçrəngli bayrağında əks olunmuşdu.

Azərbaycan Xalq Cümhuriyyətində azərbaycanlılaşmaq, müasirləşmək, islamlaşmaq tələblərinə cavab verən daxili və xarici siyasət həyata keçirilmişdi.

Rusiyada 1917-ci il Fevral inqilabından sonra Cənubi Qafqazda, o cümlədən Azərbaycanda, milli ziyalılar, xüsusən onların demokratik hissəsi siyasi və mədəni həyatda mühüm, aparıcı rol oynayırdılar. Azadlıq hərəkatının güclü yüksəlişi dövrü Azərbaycan xalqına iste'dadlı, yüksək peşəkar ictima-siyasi xadimlərin parlaq bir nəslini bəxş etdi. Onların həyat amalı millətin mənafeyini, azadlığını və müstəqilliyini müdafiə etmək idi. 1918-1920-ci illər Azərbaycanda ziyalıların hakimiyyəti dövrü oldu. Azərbaycan Xalq Cümhuriyyətinə vurulan müxtəlif yarlıqlara - "bəy-xan hökuməti", "burjua-mülkədar hökuməti" və s. kimi ideoloji ştamplara baxmayaraq onun mövcudluğu müddətində ümummilli tələblər ön planda olmuş, milli dirçəliş, maarifin, mədəniyyətin, xalqın rifahı ilə bağlı olan problemlərin həlli üçün o zamanın dağıntı, anarxiya və iqtisadi böhranı şəraitində mümkün olan çox şey edilmişdir. Cümhuriyyətin tarixini tədqiq edən bir çox Qərb alimləri onu düzgün olaraq, "maarifçi hökumət" kimi təqdim edirdilər.

Bu gün müstəqil Azərbaycan Respublikası Xalq Cümhuriyyətinin xəttini və ən'ənələrini davam etdirərək, dövlət və cəmiyyət həyatında ziyalıların rolunu və yerini yüksək qiymətləndirir, onları Azərbaycan xalqının əvəzsiz sərvəti hesab edir: "Ziyalıların, mədəniyyət xadimlərinin, elm xadimlərinin cəmiyyətdə hörmətini qaldırmaq lazımdır. Xalqımız öz böyük şəxsiyyətləri vasitəsi ilə Azərbaycanın milli-mə'nəvi dəyərlərini qoruyub saxlamış, zənginləşdirmiş və bu gün onlar ümumbəşəri dəyərlərin bir hissəsinə çevrilmişdir."

Azərbaycan Xalq Cümhuriyyətinin yaranmasının ilk vaxtlarında dövlət və cəmiyyət həyatının milliləşdirilməsi, Azərbaycanın beynəlxalq aləmdə tanınması, Azərbaycan dilinin dövlət dili səviyyəsində işlədilməsi, kadr hazırlığı, təhsil və mədəniyyətin inkişafı məsələlərinə dair zəruri, radikal, bə'zən də kifayət qədər hazırlanmamış qərarlar qəbul edilirdi. Lakin vaxt keçdikcə, respublikanın müstəqilliyi möhkəmləndikcə, daxili sabitliyin yaranması ilə sosial-mədəni sahəyə, maarifin, ixtisas təhsilinin inkişafına, ordu quruculuğuna dair məqsədyönlü, konkret siyasət işlənib hazırlanmış və həyata keçirilməyə başlanmışdı. Azərbaycan Cümhuriyyətinin milli ordusunun yaradılması üçün mühüm tədbirlər görülmüş, təhlükəsizlik orqanlarının əsası qoyulmuş, dövlət rəmzləri qəbul edilmişdi. Dövlət aparatı, təhsil və mədəniyyət institutları Avropa standartlarına uyğun olaraq qurulurdu. Burada biz ictimai-siyasi düşüncə səviyyəsinin yüksəkliyinin, məsələlərə peşəkar yanaşmanın şahidi oluruq.

Azərbaycan Xalq Cümhuriyyətinin sonrakı totalitar rejimindən mühüm fərqi onda idi ki, burada hər şey dövlətin nəzarəti altına alınmamışdı, unifikasiya yox idi, dövlət, cəmiyyət həyatının bütün sahələrinə xırdaçı müdaxilə etmirdi. Dövlət siyasətinin işlənib hazırlanmasında və həyata keçirilməsində qabaqcıl ictimaiyyət yaxından iştirak edirdi. Milli-mədəni intellektual qüvvələr azsaylı olsa da, onların qaynar, çoxcəhətli fəaliyyəti öz bəhrəsini verir, bütövlükdə dövlət siyasətinin istiqamətini müəyyən edirdi.

Azərbaycan Cümhuriyyətinin fəaliyyətini qiymətləndirərkən, belə bir cəhətə xüsusi diqqət yetirmək lazımdır. Onun fəaliyyətini, sosial-mədəni tədbirlərini səciyyələndirən zaman kəmiyyət göstəricilərinə deyil, keyfiyyətə, problemin qoyuluşuna, onun həlli üçün təklif edilən qeyri-ən'ənəvi metodlara üstünlük vermək daha düzgün yanaşma tərzi olardı.

Azərbaycan Cümhuriyyətində XIX əsrin son rübündən başlayaraq oyanmış və getdikcə güclənən ümummilli şüur inkişaf etmiş, azərbaycanlılıq ümumşərq və ümummüsəlman zehniyyətindən ayrılaraq, xalqın düşünən hissəsinin fikrində özünə möhkəm yer tutmuşdu. Nəticədə milli mənlik şüuru güclənmiş, onun inkişafı düzgün, yaradıcı istiqamətə yönəlmişdi.

Demokratik Cümhuriyyətdə milli ən'ənələrə, xalqımızın çoxəsrlik mə'nəvi sərvətlərinə qayğıkeş, insani münasibət nümunəsi göstərilmiş, klassik Şərq mədəniyyəti ilə müasir Avropa sivilizasiyasını birləşdirməyə, onların ən yaxşı nailiyyətlərini mənimsəməyə çalışan Azərbaycan mədə-

niyyətini hər vasitə ilə inkişaf etdirmək xətti yeridilmişdir.

Çoxlu sayda müxtəlif xalqların yaşadığı Azərbaycan Cümhuriyyətində dövlət və cəmiyyət həyatının əksər problemlərinin həlli milli rəng alırdı. Ümumi mədəni səviyyənin yüksəkliyi, kompromisslərə getmək bacarığı, hökumətin göstərdiyi dəyanət meydana çıxan ziddiyyətlərin tezliklə aradan qaldırılmasına kömək edir, bunların həllinin sivilizasiyalı yollarını tapırdı. Ümumiyyətlə, başqa xalqların hüquqlarına və azadlıqlarına təcavüz etmək mə'nasında milli döyüşkənlik Azərbaycan Cümhuriyyətinə xas deyildi, burada Azərbaycan miqyasında milli mənafelərin ahəngdarlığı gözlənmiş, milli həmrə'ylik şüarı xalqlar arasındakı münasibətlərə də aid edilmişdi.

Bu gün Azərbaycan Respublikasının milli münasibətlər sahəsində siyasəti bu xəttin yeni tarixi şəraitdə davam və inkişaf etdirilməsidir. Prezident Heydər Əliyevin dediyi kimi: "Dövlət nə qədər çox xalqı birləşdirsə, bir o qədər zəngin olur, çünki onların hər biri ümumdünya mədəniyyətinə və sivilizasiyasına öz töhfəsini verir. Azərbaycanda millətlər arasında olan əlaqələr mehriban dostluq əlaqələridir, bir-birinə hörmət, ehtiram əlaqələridir. Ona görə də Azərbaycanın xüsusiyyətini, çoxmillətli ölkə xüsusiyyətini, çoxdilli ölkə xüsusiyyətini qoruyub saxlamaq bizim borcumuzdur, gənclərimizin vəzifəsidir".

Bu günkü Azərbaycan dövlətini Azərbaycan Xalq Cümhuriyyəti ilə müqayisə edərkən, çox zaman ən'ənələrə sədaqətdən, varislikdən danışılır, həm də bu zaman unutmaq olmaz ki, söhbət hüquqi varislikdən deyil, prinsiplərin, ən'ənələrin varisliyindən gedir. Bu varislik missiyasını layiqincə yerinə yetirmək üçün Xalq Cümhuriyyətinin təcrübəsini mexaniki surətdə dövrümüzə köçürmək deyil, yeni tarixi-siyasi və mədəni reallıqları, konkret şəraiti nəzərə almaqla müasirliyə uyğunlaşdıraraq tətbiq etmək lazımdır.

Daxili ziddiyyətlər və başlıcası isə xarici təcavüz nəticəsində Azərbaycan Xalq Cümhuriyyəti süqut etsə də, onun fəaliyyəti Azərbaycan xalqının sonrakı tarixi



taleyi üçün mühüm əhəmiyyətə malik idi. 1920-ci ilin aprelində e'lan edilmiş Azərbaycan Sovet Sosialist Respublikası siyasi müstəqilliyini qoruyub saxlayacağını bildirmişdi. SSRİ-nin yaranması ilə Azərbaycan müstəqilliyini faktiki olaraq itirsə də, formal olaraq, öz müstəqilliyini saxlamışdı, həmçinin dövlətin atributları olan konstitusiyaya, əraziyə, sərhədlərə malik idi. Məhz dövlətçilik ən'ənələrinin mövcudluğu, icbari təhsil, mədəni səviyyənin və kadr potensialının olması Azərbaycan xalqına öz dövlətini, mədəniyyətini, milli mənliyini qorumağa imkan verdi. Prezidentimiz Heydər Əliyevin dediyi kimi, "xalqımız bu dövrdə - XX əsrin əvvəlindən indiyədək çox şərəfli bir yol keçmişdir. Bu yol da ondan ibarətdir ki, xalqımızın mədəni, təhsil səviyyəsi artmış, mədəniyyətimiz yüksəlmiş, elmimiz, böyük iqtisadi potensialımız yaranmışdır. Xalqımızın həyat tərzində, dünyagörüşündə böyük dəyişikliklər əmələ gəlmiş, böyük bir siyasi-ictimai proses başlanmışdır."

Əgər XX əsrin əvvəlində xalqımız milli azadlıq, dövlət müstəqilliyi yolunda ilk dəfə böyük addım atıbsa, XX əsrin sonunda milli azadlığa, dövlət müstəqilliyinə tam nail olmuşdur.

Azərbaycan xalqının öz ruhundan doğan, milli-azadlıq hərəkatınm yekunu kimi yaranan Azərbaycan Cümhuriyyəti xalq hakimiyyətli respublika formasını, ümumbəşəri tərəqqinin həm Qərb, həm də Şərq meyllərini özündə birləşdirdi. M.Rəsulzadə "Əsrimizin Səyavuşu" əsərində yazırdı: "Azərbaycan Cümhuriyyətinin əsas idarəsi bütün vətəndaşların bərabərhüquqla yaşaması üzərində qurulmuşdu... Millət məclisi, məmləkətin bütün sinif və millətlərini təmsil edib, dövlətin tamamən taleyinə hakim idi. Onsuz heç bir məsrəf yapılmaz, heç bir müharibə başlanmaz, heç bir barışıq bağlanmazdı. Hökumət məclisin e'timadını qazananda qalır, itirəndə düşürdü. Ortada hakim olacaq vasitə - vəzifə də yox idi. Parlament hakimiyyəti mütləq idi. Burada Avropada tətbiq edilməyən həqiqi bir Xalq Cümhuriyyəti qurulmuşdu".

Xalq Cümhuriyyəti devrildikdən sonra Azərbaycan 70 il Sovet totalitarizmi və bolşevik eksperimentləri şəraitində yaşadı. Respublikaçılıq ideyası xalqın fikrində dərin iz buraxdığından ondan bütövlükdə imtina edilmədi. Formal olaraq Azərbaycan Sovet Sosialist Respublikası adlanan dövlət Sovetlər Birliyi idarəçilik mexanizminin tərkib hissəsinə çevrilmişdi. 80-ci illərin ikinci yarısında genişlənən Azərbaycan milli və demokratik hərəkatı 1918-1920-ci illərdə olmuş Xalq Cümhuriyyətinin tarixinə və ən'ənələrinə qayıdış fonunda baş verdi. 1918-ci ildə ucaldılmış üç rəngli, ay-ulduzlu milli bayraq çağdaş müstəqillik hərəkatının cazibə qüvvəsinə çevrildi. 1990-cı ilin mayında demokratik qüvvələrin tələbi ilə 1918-ci ildə Azərbaycan Xalq Cümhuriyyətinin yarandığı gün - *28* may günü - Azərbaycan dövlətçiliyinin bərpası günü e'lan edildi. 1991-ci ilin fevralında Azərbaycan Xalq Cümhuriyyətinin üçrəngli bayrağı çağdaş Azərbaycan Respublikasının Dövlət bayrağı kimi təsdiq edildi. Elə həmin ilin 30 avqustunda Azərbaycan Respublikası Ali Soveti 1920-ci ilin aprelində itirilmiş "Azərbaycan Respublikasının dövlət müstəqilliyini bərpa etmək haqqında bəyanat", oktyabrın 18-də isə "Azərbaycan Respublikasının Dövlət Müstəqilliyi haqqında Konstitusiya aktı" qəbul etdi. Beləliklə, XXI əsrin astanasında Azərbaycan öz tarixi yolunu birdəfəlik müəyyənləşdirdi. Bu, müstəqillik, azadlıq və demokratiya yoludur. Həmin yolun başlanğıcını *bu il dövlət* başçısının fərmanı ilə 80 illiyi geniş qeyd edilən Azərbaycan Xalq Cümhuriyyəti qoymuşdur.

*FƏRAMƏZ MAQSUDOV,*

**Azərbaycan Elmlər Akademiyasının Prezidenti**



## REDAKTORDAN

Bu əsər Şərqdə və bütün türk dünyasında yaranmış ilk demokratik respublikanın - Azərbaycan Xalq Cümhuriyyətinin tarixinə həsr olunmuş ilk ümumiləşdirilmiş və nisbətən tamamlanmış əsərdir.

Azərbaycan Xalq Cümhuriyyətinin tarixi əhəmiyyətinin səciyyələndirilməsində Azərbaycan Respublikasının möh*tərəm* Prezidenti Heydər Əliyev cənablarının "Müstəqillik yolu: "Seçilmiş fikirlər" (Bakı, 1997) və 3 cildlik "Müstəqilliyimiz əbədidir" (Bakı, 1997) əsərlərində ifadə olunmuş mülahizələri bizim üçün əsas istiqamət olmuşdur.

Kitabın yazılması prosesində müəlliflər kollektivi o dövrün tarixinə həsr olunmuş çoxsaylı tədqiqatlardan bəhrələnmişdir. Respublika arxivlərinin - Azərbaycan Respublikası Dövlət Arxivinin (ARDA), Azərbaycan Respublikası Dövlət Tarix Arxivinin (ARDTA), Azərbaycan Respublikası Dövlət Siyasi Partiyalar və İctimai Hərəkatlar Arxivinin (ARDSPİHA), Azərbaycan Respublikası Dövlət Ədəbiyyat və İncəsənət Arxivinin (ARDƏİA), habelə Gürcüstan Respublikası Dövlət Tarix Arxivinin (GÜRDTA), Rusiya Federasiyası Dövlət Arxivinin (RFDA) və Rusiya Ordusu Dövlət Arxivinin (RODA) materialları əsərin yazılmasında əsas mənbə bazası olmuşdur.

Əsərdə o dövrün çoxsaylı mətbuat materiallarından da geniş istifadə edilmişdir. Kitabda təsvir olunan hadisələrin obyektiv işıqlandırılması məqsədilə, müəlliflər kollektivi "Azərbaycan" (Azərbaycan və rus dillərində), "Kaspi", "Znamya truda", "İskra", "Açıq söz", "Naş put", "Zarya", "İttihad" (Azərbaycan və rus dillərində), "Nabat", "İstiqlal" və s. kimi rəsmi və partiya mətbu

orqanlarından, onların səhifələrində verilmiş mə'lumatlar üzərində müqayisəli təhlil aparmaqla istifadə etmişdir.

"Azərbaycan Xalq Cümhuriyyəti" kitabı Azərbaycan Respublikası Elmlər Akademiyası A. Bakıxanov adına Tarix İnstitutunun 1917-1920-ci illər Azərbaycan tarixi şö'bəsi tərəfindən hazırlanmışdır. Bununla yanaşı, kitabın yaradılması prosesində ölkənin bir sıra başqa tarixçilərinin də yaradıcılıq əməkdaşlığı və qarşılıqlı köməkliyi özünü göstərmişdir.

Əsərin yazılmasında aşağıdakı müəlliflər iştirak etmişlər:

Giriş: t. e. d. D. Seyidzadə, t. e. d. İ. Bağırova.

I Fəsil: § 1 - t.e.n. N. Ağamalıyeva, t.e.n. R. Xudiyev; § 2-3 - t.e.n. N. Ağamalıyeva; § 4 - t.e.d. professor C. Həsənov, t.e.n. N. Ağamalıyeva, § 5 - t.e.n. N. Ağamalıyeva.

II Fəsil: t.e.n. N. Ağamalıyeva; § 2 - t.e.d. C. Həsənovla birlikdə.

III Fəsil: § 1-2 - t.e.n. N. Ağamalıyeva, t.e.n. R. Xudiyev, Tarix İnstitutunun elmi işçisi K. İsmayılov; § 3 - t.e.n. N. İsayev, t.e.n. H. Abdullayeva; § 4 - t.e.d. İ. Musayev.

IV Fəsil: t.e.n. N. Ağamalıyeva, elmi işçi K. İsmayılov, 1917-1920-ci illər Azərbaycan tarixi şö'bəsinin aspirantı E. Hacıbabayev.

V Fəsil: t.e.d. C. Həsənov.

VI Fəsil: § 1 - t.e.n. N. Ağamalıyeva, elmi işçi K. İsmayılov; § 2-3 - t.e.n. N. Ağamalıyeva.

VII Fəsil: t.e.n. N. Ağamalıyeva.

Əsərin nəticə hissəsini Azərbaycan Respublikası EA akademiki C. B. Quliyev yazmışdır.

Xəritənin hazırlanmasına me'marlıq doktoru V. Kərimov köməklik etmişdir.

1917-1920-ci illər Azərbaycan tarixi şö'bəsinin aspirantları R. Rüstəmov və N. Məmmədzadə elmi-yardımçı işlərdə iştirak etmişlər.

1917-1920-ci illər Azərbaycan tarixi şö'bəsinin müdiri t. e. n. N. Ağamalıyeva kitab üzərində elmi-təşkilatçılıq



işləri görmüş və təqdim olunmuş hissələri redaktə etmişdir.

Kitabın hazırlanmasında göstərdiyi böyük diqqət və yardıma görə Azərbaycan Respublikasının möhtərəm Prezidenti H. Ə. Əliyev cənablarına dərin minnətdarlıq edirik.

Kitabın nəşrə hazırlanmasında Elmlər Akademiyasının rəhbərliyi - prezident F. Q. Maqsudov və Tarix İnstitutunun direktoru, Azərbaycan EA müxbir üzvü İ. H. Əliyev mühüm rol oynamışdır.

Müəlliflər kollektivi Azərbaycan Respublikası Nazirlər Kabineti yanında Baş Arxiv İdarəsinin əməkdaşlarına da öz təşəkkürünü bildirir.

Kitabın mətni rus dilində nəşr olunmuş "Азербайджанская Демократическая Республика (1918-1920)" - (Bakı, "Elm", 1998) kitabı ilə identikdir.

# GİRİŞ

## *Müstəqilliyə doğru: Yolun başlanğıcı*

XX əsrin əvvəllərində Rusiyadakı sosial titrəyişlər cəmiyyətdə siyasi qüvvələrin ayrılması prosesini sür'ətləndirdi, bu da imperiyanın müstəmləkələrində güclü əks-sədaya səbəb oldu. Bu hadisələr tam genişliyilə Azərbaycanı da əhatə etdi. Əsrin əvvəlləri burada milli hərəkatın yüksəlişi, siyasi partiyaların yaranması və sonralar Şərqdə ilk Xalq Cümhuriyyətinin yaradılmasında böyük rol oynamış parlaq ictimai-siyasi xadimlərin böyük dəstəsinin meydana çıxması ilə nəticələnmiş iqtisadi və siyasi həyatdakı sür'ətli hadisələrlə əlamətdardır.

Hələ XIX əsrin *əvvəllərində* Rusiya imperiyası tərəfindən işğal edilmiş zəngin ucqar olan Azərbaycan siyasi, iqtisadi və milli zülmün bütün ağırlıqlarına mə'ruz qalmışdı.

Vahid Ümumrusiya bazarının yaranması əhalinin sosial strukturunda ciddi dəyişikliklərə səbəb oldu. İctimai-siyasi həyata yeni qüvvələr-sahibkarlar və *muzdlu* fəhlələr çıxdılar. Lakin Azərbaycanda bu qüvvələrin azad inkişafı yolunda sün'i əngəllər yaradılırdı. Bu, müxtəlif millətlərdən olan işçilərin əməyinin qeyri-bərabər ödənilməsi kimi müstəmləkəçilik prinsipində, milli sahibkarlar qarşısında onların çox çətinliklə aradan qaldırmağa çalışdığı güclü maneələr yaradılmasında özünü göstərirdi.

Milli kapitalın tədavül sahəsindən istehsal sahəsinə keçməsi XIX əsrin ikinci yarısı və XX əsrin əvvəllərində Azərbaycanın sosial-iqtisadi inkişafının xarakterik xüsusiyyətini təşkil edirdi. Nisbətən qısa müddət ərzində milli kapital iqtisadiyyatın bir sıra ən mühüm sahələrində



və xüsusilə neft sənayesində kifayət qədər güclü mövqelər ələ keçirdi.

500 min puddan 1 milyon puda qədər neft çıxarılan Bakıda hələ XIX əsrin sonlarında "Bakı - Rusiya nefti cəmiyyətinin" direktorlarından biri olmuş məşhur sahibkar və xeyriyyəçi H. Z. Tağıyevdən əlavə, 1913-cü ildə neft sənayeçiləri sırasına M. Nağıyev, Ş. Əsədullayev, A. S. Məlikov, M. T. Mirbabayev, İ. Hacınski, M. Muxtarov, Aşurbəyov qardaşları və Q. K. Ələkbərov da daxil olmuşdular. Bakı rayonunda hasil edilən neftin 1/6 hissəsi xüsusi çəkisi 15 faiz təşkil edən milli müəssisələrin payına düşürdü.[1]

Azərbaycan burjuaziyası neft e'malı (Q. Z. Qəniyev, M. Nağıyev, A. M. Nuriyev, M. Q. Səlimxanov, Q. M. Vəzirov), metalişləmə və maşınqayırma (H. Z. Qazıyev, M. Muxtarov, Cavanşirov qardaşları, A. Dadaşov, İ. Vəliyev), ipəkçilik (A. Q. Məmmədov, Mehdi Hacı Əbdül oğlu, Sərdarov qardaşları, Məmmədrəsulov qardaşları, Səlimov qardaşları, Bünyadov qardaşları, Q. İ. Hacıyev, Q. Fərəcov və başqaları), pambıqtəmizləmə (H. Z. Tağıyev, M. S. Əliyev, X. B. Hacılasanski, M. X. Mehdiyev), unüyütmə - düyütəmizləmə sənayesində (A. B. Quliyev, H. Z. Tağıyev, Q. A. Rzayev, M. S. Kərimov, Rəsulov qardaşları və başqaları), tütünçülük sahəsində (M. Q. Dadanov, Novruzov, Q. Abdullayev və başqaları), balıqçılıq sahəsində (H. Z. Qazıyev, Sultanov, Əhməd Mustafa oğlu və başqaları) və digər sənaye və ticarət sahələrində kifayət qədər güclü mövqe tuturdu.[2] Xəzər dəniz nəqliyyatı gəmilərinin xeyli hissəsi və Bakı yaşayış evlərinin 82,3 faizi azərbaycanlılara məxsus idi. Azərbaycan burjuaziyasının iqtisadi mövqelərinin genişlənməsi onun cəmiyyətin siyasi həyatına tə'sirini gücləndirməsinə imkan verirdi. Bu dövrdə səxavətlə öz kapitalının bir hissəsini milli kadrların təhsili və hazırlanmasına yönəldən milli sahibkarların kömək etdiyi yüksək bilikli görkəmli Azərbaycan ziyalılarının bütöv bir dəstəsi millətin mənafeyi uğrunda fəal mübarizəyə qoşuldu.

18362
Azərbaycan Respublikası Prezidentinin
İşlər İdarəsinin
KİTABXANASI

Məhz həmin dövrdə cəmiyyətin başqa bir hissəsi - Bakının çoxmillətli fəhlə sinfinin, demək olar ki, yarısını (45%) və onun ən aşağı əmək haqqı olan hissəsini təşkil edən Azərbaycan proletariatı siyasi səhnəyə çıxdı.[3] 1903-1904-cü illərdə azərbaycanlı fəhlələrin tə'til və nümayişlərdə fəal iştirakı göstərdi ki, Azərbaycan proletariatı artıq real qüvvədir və onunla hesablaşmamaq olmaz. Artıq əsrin əvvəllərində Azərbaycan ziyalıları içərisində özlərini yerli millətin fəhlələri arasında iş aparmağa həsr etmiş adamlar meydana çıxdı. Bunlar M. Ə. Rəsulzadə, S. M. Əfəndiyev, A. Axundov, M. H. Hacınski, M. Ə. Əzizbəyov və başqaları idi.[4] Sonralar tale onları barrikadanın müxtəlif tərəflərinə atsa da, məhz onların birgə səyləri nəticəsində 1904-cü ilin II yarısında müsəlman dünyasında ilk sosial-demokratik təşkilat olan "Hümmət" öz fəaliyyətinə başladı və həmin vaxt eyni adlı qəzetin ilk sayı da çapdan çıxdı.[5] RSDFP Bakı komitəsi nəzdində fəaliyyət göstərən bu təşkilat azərbaycanlı fəhlələri maarifləndirmək, millətlərarası toqquşmalara son qoymaq üçün böyük işlər görür, İran inqilabında və həmçinin çar hökumətinə qarşı bütün e'tiraz aksiyalarında fəal iştirak edirdi.

Azərbaycan ziyalılarının və fəhlələrinin müəyyən hissəsinin məhz sosial-demokratiyaya meyl etməsi onunla izah olunur ki, çar hökumətinin yeritdiyi böyük dövlətçilik siyasəti və milli azlıqların hüquqlarının hər vasitə ilə azaldılması şəraitində sosial-demokratiya proqramının milli məsələyə dair bölməsi, xüsusilə millətin öz müqəddəratını tə'yin etmək hüququ haqqındakı məşhur 9-cu § inqilabi əhval-ruhiyyədə olan Azərbaycan ziyalıları və fəhlələrinin müəyyən hissəsi üçün, şübhəsiz, böyük cazibə qüvvəsinə malik idi. Bu şüarın cazibədarlığı, sosial-demokratların hakimiyyətə müxalif olması öz xalqını hər şeydən əvvəl milli zülmdən azad etmək ümidilə yaşayan ziyalıların mütərəqqi hissəsini sosial-demokratların sıralarına cəlb edirdi. Azərbaycanlıların gənc inqilabçı nəsli haqqında M. Ə. Rəsulzadənin dediyi "onlar çarizmə qarşı mübirizədə inqilabçı sosializmi ən sadiq olmasa da ən münasib bir müttəfiq olaraq



götürdüyndən sosial-demokratlarla yaxın işbirliyinə keçmişdilər"[6] sözləri bunu bir daha təsdiq edir.

İmperiyada o vaxta qədər görünməmiş sosial partlayış və azadlıq mübarizəsinin nəhəng inkişafı ilə əlamətdar olan 1905-ci il cəmiyyətin bütün təbəqələrinin siyasi fəallığının artması üçün obyektiv şərait yaratdı, ümummilli tələb və ehtiyacları ifadə edən proqramların formalaşması üçün imkanlar açdı.

Çarizmin böyük dövlətçilik siyasəti, imperiyanın milli ucqarlarında yaşayan xalqların hüquqlarının hər vəchlə pozulması cəmiyyətin milli məsələnin tezliklə həll edilməsində maraqlı olan bütün təbəqələrini bu məsələ ətrafında birləşdirdi. Cəmiyyətin mütərəqqi hissəsi getdikcə daha qətiyyətlə mövcud quruluşun yeniləşdirilməsi məsələsini ortaya qoyur, islahatlar keçirilməsini tələb edirdi. Qanunvericilik təklifləri hazırlamaq üçün xalq nümayəndələrinin toplanması haqqında 1905-ci ilin əvvəllərində oktyabr manifestinə qədər verilmiş çar fərmanları Azərbaycan cəmiyyətinin qabaqcıl nümayəndələrində Qafqazın idarə olunma sisteminin kökündən dəyişilməsi və onun əhalisinin hüquqlarının bütün Rusiya əhalisinin hüquqları ilə bərabərləşdiriləcəyinə ümid yaradırdı. Gələcək qanunvericilik məclisinə Bakı Şəhər Duması nümayəndələrinin daxil ediləcəyi haqda daxili işlər naziri Bulıginin və'dlərindən, həmçinin Qafqaza canişin tə'yin edilmiş qraf İ.İ.Vorontsov-Daşkovun Qafqazda zemstvo tətbiq etmək və'dindən ruhlanan Azərbaycan liberal ziyalılarının ən fəal xadimləri imperiyanın ən yüksək vəzifəli şəxslərinin ünvanına göndəriləcək ərizə kampaniyasına başladılar. "Zaqafqaziya müsəlman əhalisinin səlahiyyətli nümayəndələrinin" ilk şikayət ərizəsi (petisiyası) 1905-ci ilin aprelində Ə.Topçubaşov tərəfindən yazıldı və Nazirlər Kabinetinə təqdim edildi. Cəmiyyətin yuxarı dairələrinin nümayəndələri Ş.Əsədullayev, Ə.Ağayev, A.Ziyadxanov, Q.Zülqədərov tərəfindən imzalanmış bu petisiya əslində Qafqazın və xüsusən Azərbaycanın qanunvericilik əsasında yenidən qurulmasının ilk ümummilli proqramı oldu.[7] Müsəlman-

ların ictimai və təsərrüfat həyatında mə'ruz qaldığı məhdudiyyətlər haqqında açıq fikir yürüdən petisiya bu məhdudiyyətlərin ləğvini, o cümlədən şəhər özünüidarəsində üzvlərin (qlasnıların) sayının artırılması, pedaqoji işlə məşğul olmağa icazə verilməsini, müsəlmanların ali məktəblərə qəbul edilməsini, tam özünüidarə əsasında "zemstvo"ların yaradılmasını tələb edirdi. Petisiyada eyni zamanda vicdan, söz və mətbuat, yığıncaqlar və ittifaqlar, şəxsiyyət və mənzil toxunulmazlığı prinsipi kimi demokratik azadlıqların müsəlmanlara da aid edilməsi, ana dilində pulsuz ümumi ibtidai sisteminin tətbiq olunması məsələlərinə toxunullurdu.[8]

Çar hökuməti petisiyaya cavab olaraq müsəlmanlara dini başçılar seçmək və etiqad azadlığı verilməsi haqqında fərman verdi. Bu cavab Azərbaycan cəmiyyətini, təbii ki, qane edə bilməzdi və petisiya kompaniyası bütün 1905-ci il ərzində davam etdirilirdi. 1905-ci ilin iyun ayında Ə.Topçubaşovun qraf N.İ.Vorontsov-Daşkovun ünvanına göndərdiyi yeni petisiyada "müsəlman əhalisinin, siyasi, mülkü və dini hüquqlarının yerli rus əhalisinin hüquqları ilə bərabərləşdirilməsi" məsələsi xüsusi vurğulanırdı.[9] Canişin ana dilində məktəblər açılmasına, qəzet və jurnalların buraxılmasına kömək göstərəcəyini və'd edirdi. Artıq bu zaman Ə.Ağayev və Ə.Hüseynzadənin redaktorluğu ilə "Həyat" qəzetinin, bir qədər sonra - 1906-1907-ci illərdə "İrşad" qəzeti və "Füyuzat" jurnalının nəşrinə icazə alındı. Nüfuzlu "Kaspi" ilə yanaşı bu orqanların səhifələrində Azərbaycan ictimai fikrinin bütün istiqamətləri, o cümlədən həmin dövrdə çox cəsarətli olan müsəlman hüquqlarını müdafiə edən çıxışlar öz parlaq əksini tapırdı. Lakin qəzetlərin buraxılmasına icazə verilməsi istisna olmaqla, çar hökuməti petisiyada qoyulan tələblərin heç birini yerinə yetirmədi.

Petisiya kampaniyalarının arzu olunan nəticələr vermədiyini görən Azərbaycanın liberal ziyalıları Rusiya imperiyasının digər hissələrinin müsəlman əhalisi ilə sıx əlaqələr yaratmağa çalışır və bütün müsəlmanların



qüvvələrini birləşdirməklə öz hüquqları uğrunda mübarizədə daha böyük nəticələr əldə etməyə cəhd göstərirdilər. Bu cəhdləri Krım və Qazanın türk ziyalıları müdafiə etdilər. Sonralar partiyaya çevrilmiş "Ümumrusiya müsəlman ittifaqı" ("İttifaqi-müslimin") yaradıldı. Azərbaycan nümayəndələri bu ittifaqın yaradılmasında fəal iştirak edirdilər. Ə.Topçubaşov 1905-ci ilin avqustunda Nijni Novqorodda bu təşkilatın I qurultayının çağırılmasında bilavasitə iştirak edirdi. O, İttifaqın sonrakı fəaliyyətində böyük sə'ylə iştirak edirdi, 1906-cı ilin avqustunda III qurultayda həmin ittifaq əsasında yaradılmış Müsəlman konstitusiya partiyasının daimi MK bürosuna daxil oldu, eyni zamanda partiyanın proqram sənədlərinin müəlliflərindən biri idi.[10] Bu dövrdə Azərbaycanın bilavasitə siyasi həyatı son dərəcə zəngin və rəngarəng idi. Cəmiyyətə bə'zi siyasi azadlıqlar verən 1905-ci il 17 oktyabr tarixli çar manifesti dərc olunduqdan sonra Bakıda rəsmi olaraq kadetlər və oktyabristlər partiyalarının şö'bələri tə'sis olundu. Azərbaycan liberal ziyalılarının və burjuaziyasının nümayəndələri Ə.Topçubaşov, İ.Hacınski, K.Səfərəliyev, İ.Hacıyev və başqaları kadetlərin Bakı bürosuna seçildilər.[11]

Çoxlu mədəni-maarif və xeyriyyə cəmiyyətləri yarandı. İlk dəfə olaraq Azərbaycan milli partiyaları təşəkkül tapmağa başladı. RSDFP BK-nın güclü tə'siri altında fəaliyyət göstərən "Hümmət"dən əlavə, federalist istiqamətli partiyalar da yaranmağa başladı. Onlardan birincisi 1905-ci ilin sonlarında Gəncədə yaradılmış türk-sosial-federalist "Qeyrət" partiyası idi. Bu partiya müsəlman əhalisinə muxtariyyət verilməklə Qafqazın Rusiyadan ayrılmasını tələb edirdi. Partiyaya məşhur ictimai xadimlər A.Rəfibəyov, N.Usubbəyov, Ə.Xasməmmədov başçılıq edirdilər.[12] Hər cür seperatizm təzahürlərindən qorxan hakimiyyət orqanlarının tə'qibləri üzündən partiya cəmi bir həftə yaşadı. O, yenidən 1917-ci il Fevral inqilabından sonra müstəqil Azərbaycanın ictimai-siyasi həyatının gedişinə böyük tə'sir edən daha dəqiq

proqramla "Türk federalistlər partiyası" adı altında siyasi səhnəyə çıxdı.

Həm Bakıda, həm də Azərbaycanın digər qəzalarında fəaliyyət göstərən və əhali içərisində böyük nüfuzu olan "Difai" milli partiyası 1906-cı ilin ikinci yarısında yarandı. 1905-ci ildə erməni-azərbaycanlı ziddiyyətlərinin kəskinləşməsi bu partiyanın yaranmasında mühüm rol oynadı. Partiyanın Mərkəzi komitəsi, onun mətbu orqanı olan "İrşad" qəzeti Bakıda yerləşdirildi və onlara görkəmli ictimai xadim və publisist Əhməd bəy Ağayev başçılıq edirdi. Partiyanın əsas fəaliyyəti Bakıdan kənarda özünü göstərirdi və qısa müddət ərzində Azərbaycanın qərb qəzalarını-Şuşa, Zəngəzur, Karyagin, Cavanşir qəzalarını və Gəncə şəhərini əhatə etmişdi.[13] Partiya üzvlərlnin ümumi sayı 1000 nəfərdən çox idi və 1917-ci ilə qədər "Difai" Azərbaycanın ən iri siyasi partiyası idi. Partiyanın sosial bazasını tacirlərin, şəhər və kənd ziyalılarının nümayəndələri, xırda sahibkarlar, kəndlilər, həmçinin bəy silkinin nümayəndələri təşkil edirdilər. Eyni zamanda partiya sıralarına ruhanilərin də nümayəndələri daxil olmuşdular, bu da partiyanın şəriət qanunlarını təbliğ etməsində özünü göstərirdi.[14]

Döyüşkən təşkilat kimi yaradılmasına baxmayaraq "Difai" partiyası təkcə hərbi məqsədlər güdmürdü. Bu, layihəsi Ə.Ağayev tərəfindən "İrşad" qəzetində dərc olunmuş proqramdan da görünürdü.[15] Partiya Azərbaycan xalqını son vaxtlar onun üzərinə düşən bədbəxtliklərdən - hər iki xalqın həyat tərzini pozan erməni-müsəlman toqquşmalarından xilas etməyi və həm də müsəlmanların geriliyi ilə mübarizə aparmağı özünün başlıca və əsas məqsədi e'lan etdi. Bu məqsədləri həyata keçirmək üçün iki şərt-təhsil və güc lazım idi.[16]

1907-ci ilin mayında yeni bir Azərbaycan təşkilatı - öz tə'sirini Qazax qəzasına və Tiflis quberniyasının bə'zi qəzalarına yayan "Müdafiə" təşkilatı yarandı. Təşkilatın rəhbər özəyinə podpolkovnik M.R.Vəkilov, A.Qiyasbəyov və Q.K.Saniyev daxil idilər.[17] Partiyanın müraciətində deyilirdi ki, onun fəaliyyətinin əsas istiqamətini



müsəlmanlar içərisində ictimai təşkilatların yaradılması və müsəlmanların maarif və mədəniyyətinə qayğı göstərmək təşkil edəcəkdir. Təşkilat 1908-ci ilə qədər fəaliyyət göstərdi və həmin ildə hökumət orqanları tərəfindən darmadağın edildi.

1911-ci ildə yaradılmış milli-demokratik "Müsavat" partiyası azadlıq hərəkatının rəmzi və əsas rəhbəri oldu. Partiyanın ilk özəyini hümmətçilər A.Kazımzadə, T.Nağıoğlu və Məmmədəmin Rəsulzadə (Rəsuloğlu) tə'sis etdilər. Həmin ildə K.V.Mikayılzadə, T.Şərifzadə, Y.Ziya, S.Musəvi və M.Q.Tahirzadə partiyanın işinə cəlb edildilər.[18]

"Müsavatın" ilk proqramı və nizamnaməsi 1912-ci ildə gizli kitabça şəklində nəşr olundu. Proqram bütün müsəlman xalqlarını birləşdirmək, öz müstəqilliyini qorumaq və ya bərpa etmək uğrunda mübarizə aparan müsəlman ölkələrinə mə'nəvi və maddi yardım göstərmək vəzifələri də daxil olmaqla 8 maddədən ibarət idi. O dövrdə partiyanın əsas vəzifəsi öz sıralarını artırmaq yolu ilə gələcək mübarizə üçün qüvvə toplamaq e'lan edilirdi.[19] Bütün bunlar gizli şəkildə həyata keçirilirdi, çünki Balkan müharibələrinin başlanması ilə əlaqədar olaraq hakimiyyət orqanları "panislamizm təhlükəsinə" qarşı mübarizəni gücləndirmişdi.

1913-cü ildə Romanovlar sülaləsi hakimiyyətinin 300 illiy ilə əlaqədar olaraq verilən ümumi əfv (amnistiya) nəticəsində bu dövrdən "Müsavat" partiyasının dəyişməz lideri olmuş Məmmədəmin Rəsulzadə Bakıya qayıtdı. Bu vaxt onun siyasi baxışları və dünyagörüşündə əhəmiyyətli dəyişikliklər baş vermişdi. Bu işdə onun Türkiyə ədəbiyyatı və publisistikasının görkəmli nümayəndəsi Ziya Göyalpın başçılıq etdiyi "Türk ocağı" dərnəyinin işində fəal iştirak etməsi və həmçinin milli mənafeyi islam birliyi amilindən üstün tutan, islam və türk dünyasının tanınmış şəxsiyyəti filosof Şeyx Cəmaləddin əl-Əfqaninin əsərlərilə tanışlıq böyük rol oynamışdı. 1913-1914-cü illərdə "İqbal" və "Yeni İqbal" qəzetlərinin, özünün nəşr etdiyi, "Müsavatın" mərkəzi orqanına çevrilmiş və müsəlman dünyasında ilk dəfə

olaraq "gündəlik türk qəzeti" adlandırılan "Açıq söz" qəzetinin səhifələrində M.Rəsulzadə millətlərin eyniliyi probleminə baxışlarını çox böyük inadkarlıqla müdafiə edirdi.[20] 1917-ci ilə qədər hökumətin hər cür "panislamizm" və "pantürkizm" təzahürlərini amansızlıqla tə'qib etməsi nəticəsində "Müsavat" partiyasının fəaliyyəti əslində dayandırılmışdı və buna görə də partiya liderlərinin görüşlərini işıqlandıran yeganə mənbə "Açıq söz" qəzeti idi. Senzura məhdudiyyətlərinə baxmayaraq, qəzet demokratik ideyalara sadiq qalır, həm Rusiyanın bütün müsəlman əhalisinin problemlərini, həm də yerli müsəlmanların problemlərini işıqlandıran məqalələr dərc edirdi.

XX əsrin əvvəllərini Azərbaycan mətbuatının çiçəklənməsi dövrü adlandırmaq olar. Hələ XIX əsrin 70-ci illərində "Əkinçi" qəzeti və onun redaktoru Həsən bəy Zərdabi tərəfindən əsası qoyulmuş ən'ənələri davam etdirən bir çox Azərbaycan qəzetləri öz səhifələrində milli mədəniyyətin ən mühüm problemlərini qaldırırdı. Sərt senzura tə'qiblərinə baxmayaraq parlaq publisist iste'dadlarını nümayiş etdirən Azərbaycan ədəbiyyatı və mədəniyyətinin görkəmli nümayəndələri Əhməd bəy Ağayevə, Əli bəy Hüseynzadəyə, Əlimərdan bəy Topçubaşova, Sultan Məcid Əfəndiyevə, Həsən bəy Vəzirova, Hüseyn Minasazova, Eynalı Sultanova, Firudin bəy Köçərliyə, Nəriman Nərimanova, Məmmədəmin Rəsulzadəyə "Həyat", "İrşad", "Bakı həyatı", "İqbal", "Təkamül", "Füyuzat", "Tərəqqi", "Şəlalə", "Dirilik" və bir çox başqa qəzet və jurnalların səhifələrində Azərbaycanın ictimai-siyasi və mədəni həyatının bütün ən mürəkkəb məsələlərinə öz münasibətlərini bildirməyə mane ola bilmədi. Milli özünüdərketmə şüurunun formalaşması və inkişafında onların çox böyük rolu olmuşdur.

Bu problemlər və onların içərisində ən kəskin məsələ olan müsəlmanların siyasi hüquqsuzluğu məsələsi azərbaycanlı deputatlar tərəfindən Rusiya imperiyasının dörd dəfə seçilmiş ali nümayəndəli orqanı olan Dövlət Dumasında da qaldırıldı.



1906-cı il may seçkiləri nəticəsində Bakı və Yelisavetpol quberniyalarından görkəmli ictimai-siyasi xadimlər Ə.Topçubaşov, İ.Ziyadxanov, A.Muradxanov, M.Haqverdiyev I Dumaya deputat seçildilər. Azərbaycan deputatları Ə.Topçubaşovun sədr seçildiyi müsəlman parlament fraksiyasına daxil oldular.[21] "İttifaqi-Müslimin" qurultayının qərarını yerinə yetirərək fraksiya özünü kadetlərin platforması ilə həmrəy e'lan etdi. Müsəlman fraksiyasının siyasi prinsipi Ə.Topçubaşov tərəfindən çox dəqiq müəyyənləşdirildi: "Ciddi konstitusiya tələblərinə əsaslanan müsəlman proqramı torpağın əyalətlərdə milliləşdirilməsi, dini işlərdə tam muxtariyyət, imperiyanın bütün ərazisində kiçik özünüidarə vahidləri və əyalət yığıncaqları tə'sis etməklə yerlərdə geniş idarə muxtariyyət prinsipini irəli sürdü".[22]

Ə.Topçubaşova ilk dəfə olaraq müsəlmanların bütün ehtiyac və istəklərini Rusiya imperiyasının bütün vətəndaşlarına çatdırmaq imkanı verilmişdi. Azərbaycan nümayəndələri öz xalqının ümdə tələbləri və problemlərini şərh etmək üçün Duma tribunasından istifadə edirdilər. XX əsrin əvvəllərində Azərbaycan cəmiyyətinin ərizə və xahişlərində irəli sürülən tələblərin, demək olar ki, hamısı, o cümlədən aqrar məsələ, çarizmin köçürmə siyasəti, erməni-azərbaycanlı toqquşmalarında hökumət orqanlarının fitnəkar rolu və s. deputatların çıxışlarında (İ. Ziyadxanovun nitqi) öz əksini tapırdı. I Dövlət Duması cəmi 72 gün fəaliyyət göstərdikdən sonra qovuldu. Bununla əlaqədar olaraq e'tiraz edən deputatlar sırasında Azərbaycan deputatları Ə.Topçubaşov və İ.Ziyadxanov da vardı. Vıborq müraciətini imzalamış bu deputatlar məhkəməyə verildilər, məhkəmə onlara üç aylıq həbs hökmü çıxardı, onlar bir çox hüquqlardan, o cümlədən Dövlət Dumasına seçilmək hüququndan məhrum edildilər.[23]

Azərbaycandan II Dövlət Dumasına F.Xoyski, X.Xasməmmədov, İ.Z.Tağıyev, M.M.Şahtaxtinski, M.Q.Mahmudov, Z.E. Zeynalov deputat seçildilər.[24] Onlar da öz

xələfləri kimi Müsəlman fraksiyasına daxil oldular və fraksiya bu dəfə öz proqramını dərc etdi. Dövlət quruluşu forması kimi fraksiya konstitusiyalı parlament monarxiyasını qəbul edirdi. Müsəlmanlar üçün proqram demokratik azadlıqlar, ana dilində təhsil almaq, ibtidai məktəblərdə ümumi və pulsuz təhsil hüququ tələb edirdi. Yerli nümayəndəli orqanlarda dövlət dili ilə yanaşı həmin əyalətdə əksəriyyət təşkil edən xalqın dili işlənilməli idi. Əslində bu milli-mədəni muxtariyyət proqramı idi. Lakin həm I, həm də II Duma qarşıda duran məsələlərin heç birini həll edə bilmədi.

III və IV Dumalarda Azərbaycan nümayəndəliyi kəskin şəkildə məhdudlaşdırıldı: Bakı, Yelizavetpol və İrəvan quberniyalarının əhalisi cəmi I nəfər nümayəndə göndərə bilərdi. III Dumaya X.Xasməmmədov, IV Dumaya isə M.Y.Cəfərov deputat seçildilər. Lakin belə məhdud nümayəndəliyə baxmayaraq yüksək peşəkarlıq keyfiyyəti, dərin hüquqi biliklər nümayiş etdirən hər iki azərbaycanlı deputat bərabərlik, maarifçilik və özünüidarə tələblərini daim müdafiə etməklə üzərlərinə düşən vəzifələri layiqincə yerinə yetirdilər. Azərbaycanlı deputatın öz fikrini aşağıdakı şəkildə açıq ifadə etməsini də məhz dördüncü çağırış Duma deputatlarının müxalifçiliyinin güclənməsilə izah etmək olar. M. Y. Cəfərov öz çıxışında qeyd edirdi ki, "...milli zülmün kədərli təcrübəsi heç vaxt indiki azadlıq müharibəsi dövründəki həddə çatmamışdı. Heç vaxt rəhmsiz mərkəzləşmiş bürokratik mexanizm indi olduğu qədər qeyri-rusların milli hisslərini bu şəkildə alçatmamış, onların əxlaqi və mə'nəvi dəyərlərini bu cür şikəst etməmişdir".[25]

IV Dövlət Duması 1917-ci il fevralın 26-a qədər, öz miqyaslarına görə görünməmiş I dünya müharibəsinin sonunda baş verən növbəti sosial inqilab tərəfindən Rusiyada monarxiya quruluşuna son qoyulana qədər yaşadı. Bütün tərəddüdlərinə və kifayət qədər fəal olmamasına baxmayaraq əsrin əvvəllərindəki dörd çağırış Rusiya dumaları mütləqiyyətin təməlinin dağıdılmasında mühüm rol oynadı. Onlar cəmiyyətin yaralarının üstünü



açdı, təmsil olunan partiya və fraksiyaların mahiyyətini hamı qarşısında nümayiş etdirdi və bununla birlikdə təkcə Rusiyada deyil, həm də onun keçmiş müstəmləkələrində parlament üsul-idarəsinin əsaslarını yaratdı. Demək olar ki, bütün azərbaycanlı Duma deputatları gələcək Müstəqil Azərbaycan Cümhuriyyəti parlamentinin üzvü oldular və parlament fəaliyyəti təcrübəsi onlara çox qısa müddət ərzində öz müstəqil dövlətini yaratmağa, onun rəhbər orqanlarına başçılıq etməyə, cəmiyyətdə qanunçuluq və hüquqi normaları bərqərar etməyə imkan verdi.

### QEYDLƏR


1. Сеидзаде Д. Б. Общественно-политическая деятельность азербайджанской буржуазии. Авт. док. дисс. 1993, с.46.

2. Ибрагимов М. Д. Нефтяная промышленность Азербайджана в период империализма. Баку, 1984, с.104; Исмайлов М. А. Промышленность Баку в начале XX в. Баку, 1976, с. 29, 31.

3. Ларин Ю. Рабочие нефтяного дела. М., 1909, с.22.

4. Эфендиев С. М. Из истории революционного движения тюркского пролетариата. В сб.: Из прошлого. Баку, 1923, с.40.

5. Там же, с.41.

6. Resulzade M. E. Milli Azerbaycan hareketinin Karakteri, Azerdaycan Yurt Bilgisi mecmuasi, Sayı 29, İstanbul, 1934, s.18.

7. Сеидзаде Д. Б. Из истории азербайджанской буржуазии в начале XX века. Баку, 1978, с.54.

8. Там же, с.61

9. Баку, 1906, 21 июля.

10. Сеидзаде Д. Б. Авт. док. дисс. с.24-25.

11. Баку, 1906, 8 января.

12. Багирова И. С. Политические партии и организации Азербайджана в начале XX века. Баку, 1997, с. 164,166.

13. Документы по русской политике в Закавказье. Вып. 1, Баку, 1920, с.25.
14. Багирова И. С. Указ. соч., с.172.
15. Иршад, 1905, 13 октября.
16. Там же.
17. Документы по русской политике в Закавказье, с.14.
18. Resuloglu M. A. Musavat partiyasının Kuruluşu-Azerbaycan, 1966, N 2, Ankara, s.39.
19. Гусейнов М. Д. Тюркская демократическая партия "Мусават" в прошлом и настоящем. Баку, 1927, с.73.
29. Açıq söz, 1915, 2 oktyabr.
21. Сеидзаде Д. Б. Азербайджанские депутаты в Государственной думе России. Баку, 1991, с.42-43.
22. Каспий. 1907, 31 января.
23. Сеидзаде Д. Б. Азербайджанские депутаты. с.50.
24. Сеидзаде Д. Б. Авт. док. дисс., с. 32.
25. Там же. с.33.



# BİRİNCİ FƏSİL

## MÜSTƏQİLLİK ƏRƏFƏSİNDƏ AZƏRBAYCANDA VƏ CƏNUBİ QAFQAZDA SİYASİ VƏZİYYƏT

### *§ 1. Azərbaycan Fevral inqilabından sonra*

1917-ci ilin əvvəli rus çarizminin tam iflası ilə əlamətdar oldu. 1917-ci il fevralın 27-də Rusiyada burjua-demokratik inqilabı qalib gəldi. Dövlət Duması bundan sonra çar hakimiyyətinə tabe olmaqdan imtina etdi və onun Müvəqqəti Komitəsi çarın taxt-tacdan əl çəkməsini rəsmi olaraq tələb etdi. Bir qədər tərəddüddən sonra II Nikolay bu tələblə razılaşmağa məcbur oldu. Bununla da Romanovlar sülaləsinin hakimiyyətinə və Rusiyada monarxiya quruluşuna son qoyuldu. Ali hakimiyyət gələcəkdə demokratik yolla seçiləcək Müəssislər Məclisi çağırılana qədər fəaliyyət göstərməli olan Müvəqqəti hökumətin əlinə keçdi.

Mütləqiyyətin devrilməsi xəbəri bütün Bakı əhalisini təlatümə gətirdi. Artıq martın 3-də səhərdən hazırlıqsız keçirilən mitinqlərdə ölkənin siyasi vəziyyəti müzakirə olunurdu. Bütün ölkədə vəziyyət belə idi. Müvəqqəti hökumətin sərəncamı ilə bütün siyasi məhbuslar azad edilirdi.[1]

Yeni quruluşun ilk aktlarından biri dini e'tiqad və ya milli mənsubiyyət əsasında Rusiya vətəndaşlarının hüquqlarını məhdudlaşdıran bütün qanunların ləğv edilməsi oldu. Bundan əlavə, yerli idarə orqanlarında əhali nümayəndələrinin daha geniş iştirakını tə'min etmək üçün Müvəqqəti hökumət tə'cili surətdə ölkənin etnik cəhətdən qeyri-rus rayonlarının idarə işinə yenidən baxmağa başladı.

Martın 9-da diyarda mülki hakimiyyət yeni yaradılmış Xüsusi Zaqafqaziya Komitəsinə (OZAKOM) verildi. Komitə regionun milli qruplarını Dövlət Dumasında təmsil edən deputatlardan ibarət idi. OZAKOM-un sədri rus kadet V.A.Xarlamov, üzvləri - azərbaycanlı kadet (sonralar müsavatçı) M.Y.Cəfərov, gürcü menşeviki A.İ.Çxenkeli, gürcü federal-sosialisti knyaz K.Abaşidze və erməni kadeti M.İ.Papacanov idilər. Lap əvvəldən OZAKOM burada Cənubi Qafqaz millətlərinin qeyri-bərabər təmsil olunması, həm də aqrar məsələdə müəyyən mövqe tutmadığına görə xalq kütlələrinin ona e'tibar etməməsi üzündən tənqid hədəfinə çevrildi.

Siyasi partiyaların liderləri yeni hakimiyyət orqanlarının təşkilinə başladılar. Lakin bu məsələyə baxışlar müxtəlif idi. Menşeviklər belə hesab edirdilər ki, bu orqanlar mərkəzdə olduğu kimi, yə'ni inqilabi demokratiya orqanlarının (əsgər və kəndli Sovetlərinin) burjuaziya nümayəndələrilə əməkdaşlığı əsasında yaradılmalıdır. Eserlərin fikrincə, Müvəqqəti hökumətin yaranmaqda olan yerli orqanlarına fəhlə və əsgər deputatları Sovetləri nəzarət etməli idi. Sonralar təkcə Sovetlərin özlərinin təkhakimiyyətliyi deyil, həm də Sovetlərdə özlərinin təkhakimiyyətliyinə tərəfdar çıxan bolşeviklər hələlik eserlərin mövqeyində dururdular.

1905-1907-ci illər inqilabı dövründə və 1917-ci ilin martında Sovetlərin yaradılması uğrunda hərəkatın fəal iştirakçıları olan fəhlələr onların artıq hakimiyyət orqanı kimi dirçəldilməsi ideyasını müdafiə edirdilər. Bununla yanaşı, onların xeyli hissəsi özlərinin Müvəqqəti hökumətə və onun yerlərdə formalaşmış orqanlarına e'timadını bildirirdilər. Buna görə də həm fəhlə deputatları Sovetləri, həm də Müvəqqəti hökumətin yerli orqanları (ictimai təşkilatların İcraiyyə komitələri) demək olar ki, eyni vaxtda yaradılırdı, bu da əslində Azərbaycanda ikihakimiyyətliyə gətirib çıxardı. Martın 7-nə keçən gecə 52 min nəfər fəhlə və qulluqçu tərəfindən seçilmiş 52 deputatdan ibarət (bunların 9 nəfəri bolşeviklər, qalanları isə menşeviklər və eserlər



idi) Bakı rayonu fəhlə deputatları Soveti qəti şəkildə formalaşdı.[1] Seçkilərdə Bakı fəhlə əhalisinin 2/3-dən çoxu iştirak etdi.[2]

Sovetin birinci iclasında menşevik Q.Ayollo sədrlik edirdi, o dövrdə hələ menşevik olan M.N.Mandelştam isə katib idi. Yalnız martın 8-də Saratov sürgünündən qayıtmış S.Şaumyan qiyabi olaraq Sovetin sədri seçildi. Onun seçilməsi sosialist dairələrindəki şəxsi populyarlığı ilə bağlı idi.[3] Sovetin İcraiyyə Komitəsinə 2 bolşevik (İ.Fioletov və İ.Ter-Qabrielyan) və bir eser daxil oldu.[4] Həmin gün Bakı qarnizonunun bütün hərbi hissələrində əsgər deputatları Sovetləri də yarandı. Onun sədri eser M.Nikitin seçildi.[5] Azərbaycanlı əhali ilk Sovetdə təmsil olunmamışdı. İnqilabdan sonrakı ilk günlərdə Sovet əslində bütün siyasi təşkilatları əvəz edirdi və müəyyən dərəcədə onların funksiyasını öz üzərinə götürmüşdü.[6] Sovet özünün fövqəl'adə səlahiyyətləri haqqında bəyanət verdi və fəhlələri hər cür çıxışlardan çəkinməyə, öz işlərini davam etdirməyə çağırdı.

Burjua hakimiyyət orqanı - İctimai təşkilatların Bakı İcraiyyə Komitəsi eyni çağırışla əhaliyə müraciət etdi.[7] Buraya həm fəhlə deputatları Sovetlərinin, həm də şəhər dumasının və digər ictimai təşkilatların nümayəndələri daxil oldu. Sağ menşevik "Edinstvo" təşkilatının üzvü L.L.Bıç sədr, həmin təşkilatın üzvləri A.K.Leontoviç, Y.İ.Smirnov, kadet İ.D.İonesyan, menşevik İ.Y.Anşeles komitənin üzvləri seçildilər.[8] Fəhlə deputatları Sovetlərindən fərqli olaraq İcraiyyə komitəsində yerli əhalinin nümayəndələri də var idi. Komitəyə müsəlman neft sənayeçiləri maddi yardım göstərirdilər.

Bütövlükdə, inqilabın əvvəllərində bütün siyasi cərəyanlar, müxtəlif sinfi qüvvələr birinci Müvəqqəti hökumətə tam e'timad və onu müdafiə etmək əsasında birləşdilər. Bolşeviklərin sonralar özünü göstərən Sovetlərin partiya tərkibini dəyişdirmək taktikasının başlanmamasını da bu nisbi birliyin saxlanılmasına kömək edən amil hesab etmək olar. Hələlik bütün yerli

hakimiyyət orqanları "bütün demokratiyanın vəhdəti" bayrağı altında formalaşırdı. Sovetlərin burjuaziya hakimiyyətinin yerli orqanları ilə o qədər də sabit olmayan qarşılıqlı münasibətlərinin özünəməxsusluğu da buradan irəli gəlirdi. Bu münasibətlər dövlət orqanizminin qeyri-sabit vəziyyətini əks etdirir, qüvvələr ayrıldıqca və partiyalararası mübarizə kəskinləşdikcə formasını dəyişirdi. Onu da unutmaq olmaz ki, o dövrdə Sovetlərdə eserlər və menşeviklər əsas rol oynayırdılar, bu da, öz növbəsində, Sovetlərlə İcraiyyə komitəsinin münasibətlərinə tə'sir göstərirdi.

Beləliklə, 1917-ci ilin mart-aprel dövrünü cəmiyyətin bütün demokratik qüvvələrinin birləşməsi, Müvəqqəti hökuməti müdafiə etməsi, iki mövcud hakimiyyət orqanlarının fəaliyyətinin əlaqələndirilməsi, demokratik seçkilər keçirilməsində Sovetlərin kifayət qədər təcrübəsinin olmaması, onların daxilində fraksiya mübarizəsinin yoxluğu, Sovetlərdə eser-menşevik çoxluğunun bərqərar olunması dövrü kimi xarakterizə etmək olar.

Bu mərhələdə sosial-demokratiyanın siyasi qüvvələrinin birləşməsi prosesi ciddi ixtilaflar doğurmadı. 1917-ci il martın 10-da bolşevik və menşevik nümayəndələrinin birləşmiş ümumşəhər yığıncağında RSDFP-nin birləşmiş Müvəqqəti Komitəsi - "Ümumşəhər mərkəzi" seçildi. Mərkəzin tərkibinə 10 nəfər ümumşəhər yığıncağı və 10 nəfər Bakı fəhlə deputatları Sovetinin partiya fraksiyalarının nümayəndələri daxil oldular. Birləşmiş komitədə menşeviklər üstünlük təşkil edirdilər.

Eyni zamanda sakit birləşmə prosesi heç də vahid sosial-demokrat təşkilatının iki fraksiyasının (bolşeviklərin və menşeviklərin) dinc yanaşı yaşaması demək deyildi. Təşkilatın mövcud olduğu bütün 4 ay ərzində bütün məsələlərinin həllində bolşeviklər və menşeviklər müxtəlif yollar seçirdilər. İki fraksiya arasındakı daimi mübarizə Müvəqqəti Komitənin mətbuat orqanı - "Bakinski raboçi" qəzetinin səhifələrində öz əksini tapdı (5-ci saya qədər qəzet birləşmiş Müvəqqəti Bakı partiya komitəsinin



orqanı idi). Qəzetin 5-ci sayı artıq sırf bolşevik qəzeti kimi çıxdı.[9] Menşeviklər ilk sayı 1917-ci il iyunun 11-də çapdan çıxmış, özlərinin mətbuat orqanı olan "Sosial-demokrat" qəzetini nəşr etməyə başladılar.[10] Beləliklə, Bakıda bolşeviklərin və menşeviklərin ayrılması müxtəlif partiya komitələrinin yaranmasından əvvəl mətbuatda baş verdi.

1917-ci il martın 25-də menşeviklərə xəbər vermədən bolşeviklər fəhlələr içərisində daha çox nüfuzları olduğu Balaxanıda özlərinin ayrıca konfransını keçirdib xüsusi qətnamə ilə menşevikləri komitənin tərkibindən kənarlaşdırdılar.[11] 1917-ci il iyulun 1-də birləşmiş RSDFP adlanmaq haqqında qərar qəbul etdi. 14 nəfərdən ibarət müstəqil menşevik komitəsi seçildi.[12]

Mə'lum olduğu kimi, mütləqiyyətin devrilməsi ərəfəsində eserlər Azərbaycanda kütləvi təşkilat deyildilər. Yalnız inqilabın gedişində sosial-vətənpərvərlik, müdafiəçilik ideyalarına, çoxşaxəli proqrama qoşulan əhalinin geniş kütlələri bu təşkilata can atdıqda o, nüfuzlu və kütləvi partiyaya çevrildi.

1917-ci ilin martında Bakıda eserlər partiyasının Müvəqqəti İcraiyyə Komitəsi yaradıldı. Eserlər Almaniya ilə sülh bağlanana qədər müharibə aparmağa və Müvəqqəti hökumətə hərtərəfli kömək etməyə çağırırdılar. Onlar inqilabda kəndlilərin roluna xüsusi yer verirdilər. Sosial-inqilabçılar Qafqazda kəndli ittifaqlarının təşkilində fəal iştirak etməyi zəruri hesab edirdilər. Cənubi Qafqazda milli məsələdən danışarkən eserlər yalnız sosialist partiyaların şəxsində ayrı-ayrı millətlərin nümayəndələri ilə taktiki saziş bağlamağın mümkünlüyünü iddia edirdilər. Bu cəhətdən düşmən panislamizm obrazı yaratmaqda onlar xüsusi "rol" oynayırdılar. Onların fikrincə, əzilən millətlərin (o cümlədən müsəlmanların) hüquqlarının müdafiəsi "xüsusi hüquqlar və imtiyazlar uğrunda" mübarizə demək idi.[13]

Fevral inqilabı geniş müsəlman kütlələrini hərəkətə gətirdi. Əvvəlcə söhbət Cənubi Qafqaz ilə məhdudlaş-

mayaraq Ümumrusiya miqyasında səpələnmiş qüvvələrin birləşdirilməsindən gedirdi. Ümumrusiya Müsəlman Şurası yaradıldı. Özünün çoxsaylı şö'bələrinə əsaslanan Şura Rusiyada yaşayan müsəlmanların siyasi mərkəzinə çevrilməyə çalışırdı. İnqilabın ilk günlərindən Azərbaycan müsəlman hərəkatının formalaşdığı mərkəzlərdən biri oldu. 1917-ci il martın 27-də Bakıda Ümumrusiya Şurasının ilk filialı olan Müsəlman milli komitəsinin Müvəqqəti İcraiyyə Komitəsi yaradıldı. "Müsavat" partiyasının üzvü, hüquqşünas M.H.Hacınski onun sədri seçildi.[14]

Komitənin irəli sürdüyü ciddi tələblərdən biri müsəlmanların yerli özünüidarə orqanlarında və gələcəkdə Müəssislər Məclisində proporsional təmsil olunması tələbi idi. Bu tələb həm bolşeviklər, həm də menşeviklər və eserlər tərəfindən kəskin e'tiraza səbəb oldu. Onların fikrincə, gizli səsvermə şəraitində ümumi, birbaşa və bərabər seçki hüququ müsəlmanların öz iradəsini tam ifadə etməsinə tə'minat verir. Lakin bu cür baxış müsəlmanlar içərisində savadsızlığın yüksək faizini, onların baş verən inqilabi proseslərə hazırlıqlı olmamasını nəzərə almırdı.

Bir şey aydın idi: bu prinsipə əməl edildiyi halda, müsəlman əhalisinin böyük hissəsi oyundan kənarda qalırdı. 1917-ci ilin martında fəhlə və əsgər deputatları Sovetlərinə ilk seçkilərdə müsəlmanların bu orqanlarda heç bir yer almaması da, görünür, bu amillə bağlı idi. Bu mərhələdə baş verən hadisələrə Rusiya demokratiyası nümayəndələrinin münasibəti əsasən mövcud real müsəlman siyasi və ictimai qüvvələrini əksinqilabçılıqda günahlandırmaqda öz ifadəsini tapırdı. "Bakı Soveti Xəbərləri", demək olar ki, hər gün baş məqalələri müsəlman məsələsinə həsr edirdi.Bu məqalələrdə müsəlman ictimai təşkilatlarının inqilab işi üçün zərərindən və "müsəlman millətçiliyindən" danışılırdı. Tədricən düşmən panislamizmi obrazı yaradılır və müsəlman liderləri azadlıq düşmənləri e'lan edilirdilər.



Lakin Müsəlman ictimai təşkilatlarının Bakı komitəsi özünün ilk intibahnaməsində xalqların suverenliyi və hüquq bərabərliyi prinsiplərini, onların milli haqlarını qoruyub saxlamağa çalışır, bununla da müsəlman cəmiyyətinin müxtəlif təbəqələrini öz tərəfinə çəkirdi. Bu mərhələdə milli intibah qayəsi azərbaycanlıların şüurunda az da olsa iz buraxmış türkçülük ideyalarında ifadə edilirdi. Bu ideologiyanı milli mərkəzlərdə - Bakı və Gəncədə yerləşən ayrı-ayrı qruplar həyata keçirirdilər.

Fevral burjua-demokratik inqilabının qələbəsindən sonra leqal fəaliyyət göstərməyə başlayan "Müsavat" partiyası kütlələri ələ almaq, onları öz tərəfinə çəkmək üçün geniş siyasi və təşkilati işi görməyə başladı. 1917-ci ilin payızında "Müsavat" Azərbaycan demokratiyasının konsolidasiyasına nail ola bilmiş, milli-demokratik hərəkata başçılıq edən, sinfi və sosial mənsubiyyətindən asılı olmayaraq Azərbaycan cəmiyyətinin müxtəlif təbəqələrini öz arxasınca apara bilən güclü siyasi partiya oldu. Partiyanın əsas taktiki məsələlərindən biri onun xarakteri haqqında fikir yürütməyə imkan verən dövlət quruluşu məsələsi idi.

"Müsavat" partiyası federativ demokratik Rusiya tərkibində Azərbaycan milli-ərazi muxtariyyəti və 20 yaşına çatmış Azərbaycan vətəndaşlarına seçki hüququ verilməsi ideyasını irəli sürürdü. Monarxiyanın süqutundan cəmi bir neçə gün sonra Gəncədə "Türk federalistlər partiyası" yarandı, partiya Rusiya dövlətinin muxtar ərazilərin federasiyasına çevrilməsi ideyasını irəli sürürdü. Partiyanın yaradıcısı və ideya rəhbəri N.Usubbəyov idi.

1917-ci ilin sentyabrında "Rusiyada müsəlmanlıq" dini partiyasını yaratmış və siyasi həyatın əks qütbündə dayanan dini-mühafizəkar dairələr gözləmə mövqeyi tutdular. Bunlar Gəncə "İttihadi islam" təşkilatı ilə birləşərək vahid "Rusiya müsəlmanlıq - İttihad" partiyasını yaratdılar. Partiya bəyanatlarında öz siyasi fəaliyyətində şəriət tə'limini rəhbər tutacağını bildirirdi. Azərbaycan qayəsinə qarşı xüsusi düşmənçilik münasibəti

başlayan ittihadçılar türkçülük ideyalarını rədd edirdilər. Partiya üzvləri eyni zamanda separatçılıq meyllərinə qarşı çıxır, bütün Rusiya müsəlmanlarını onların dini mənafelərini qoruya biləcək bir təşkilatda birləşməyə çağırırdı.

1917-ci il martın 3-də "müsəlman kütlələrin psixologiyasını və özünün xüsusi tarix olduğunu" nəzərə alan bolşevik "Hümmət" partiyası öz fəaliyyətini bərpa etdi.[15] N.Nərimanov partiyanın müvəqqəti komitəsinin başçısı, M.Əzizbəyov, M.N.İsrafilbəyov və N.M.Sultanov komitənin üzvləri seçildilər. N.Nərimanov başda olmaqla Bakı hümmətçiləri özlərini bolşevikpərəst e'lan etdilər, halbuki əyalətlərdəki komitələr regionun başqa yerlərində, xüsusilə Gürcüstanda üstünlük təşkil edən menşeviklərə meyl edirdilər.

Qafqaz müsəlmanlarının 1917-ci il 15-20 apreldə Bakıda keçirilən qurultayında yeni inqilabi yüksəliş şəraitində azərbaycanlıların istəklərini müəyyənləşdirmək üçün ilk təşəbbüs göstərildi. Qurultay ərəfəsində müsəlman ictimai təşkilatlarının Bakı Müvəqqəti Komitəsi Qafqaz müsəlmanlarına müraciət dərc etdi. Müraciətdə deyilirdi: "Ümummüsəlman qurultayı çağırmaqdan, milli-siyasi proqramı irəli sürməkdən imtina edən komitə millət kimi müsəlmanların mənafeyini ən yaxşı tə'min edə biləcək dövlət idarəsi haqqında fikrini bildirməyi zəruri hesab edir... Belə idarə forması yalnız demokratik respublikadır."[16]

Beləliklə, qurultay açılana qədər Azərbaycanın siyasi təşkilatları Rusiyanın siyasi quruluşu haqqında öz proqramlarını e'lan etdilər. Digər Rusiya siyasi təşkilatları və hərəkatları içərisində Azərbaycanın siyasi təşkilatları Rusiya tərkibində demokratik respublika ideyasını irəli sürən ilk təşkilatlardan biri idi. Qurultayda Azərbaycanın siyasi partiyaları və ictimai təşkilatlarından başqa, Şimali Qafqaz, Gürcüstan və İrəvan müsəlmanlarının nümayəndələri iştirak edirdilər.



Qurultayda əsas məsələ Rusiyanın gələcək siyasi quruluşu və kiçik xalqların hüquqları məsələsi idi. Rusiyanın siyasi quruluşu haqqında M.Ə.Rəsulzadə mə'ruzə etdi. O göstərdi ki, "dövlətə daxil olan müxtəlif millətlərin möhkəm birliyini onların dövlət ittifaqı haqqında azad ifadə olunmuş arzusundan başqa heç bir qüvvə tə'min edə bilməz."[17] Qafqaz müsəlmanlarının milli-siyasi idealları haqqında M.Rəsulzadənin mə'ruzəsi üzrə qurultay qətnamə qəbul etdi. Qətnamədə deyilirdi: "Federativ əsaslarla demokratik respublika Rusiya dövlət quruluşunun müsəlman xalqlarının mənafeyini ən yaxşı tə'min edən forması kimi tanınsın."[18]

RSDF(b)P BK-nin qərarına əsasən qurultayın işində iştirak edən bolşevik-hümmətçilər N.Nərimanov, M.Əzizbəyov, H.Sultanov və R.Nağıyev nümayəndələr qarşısında öz tələblərini irəli sürdülər. Bu tələblər sosialist inqilabının Ümumdünya miqyasında qələbəsi haqqında sırf inqilabi şüarlardan ibarət olub hamını proletar Rusiyası bayrağı altında birləşməyə çağırırdı. N.Nərimanov deyirdi: "Rusiyada inqilab ümumdünya imperialist müharibəsindən sonra bütün dünyada inqilabın başlanması deməkdir". O, kiçik xalqların taleyini yalnız fəhlə-kəndli Rusiyasının taleyi ilə bağlayırdı.[19]

Qurultay 20 aprel tarixli iclasında Qafqaz müsəlmanlarının Müvəqqəti hökumətə, habelə müharibə və Rusiyanın digər xalqlarına münasibəti məsələlərini müzakirə etdi.

Qafqaz müsəlman qurultayı Rusiya Müvəqqəti hökumətinin bütün tədbirlərini hər vəchlə müdafiə etməyin zəruriliyini göstərdi, çünki "bu hökumət özünün əsgər və fəhlə deputatları sovetinin razılığı ilə dərc etdiyi 6 mart 1918-ci il tarixli bəyannaməsinin prinsipiərini ardıcıl və dönməz şəkildə həyata keçirəcəkdir".[20]

Müharibəyə münasibət məsələsində qurultay Rusiya demokratiyasının müharibəni ilhaqsız və təzminatsız qurtarmağı tələb edən hissəsinə qoşulmağı qərara aldı.

Qurultayın başqa xalqlara münasibət məsələsinə aid qərarında deyilirdi: "Rusiya dövlətinin bütün xalqlarına

demokratik başlanğıclara, o cümlədən Qafqaz xalqlarına münasibətdə demokratik başlanğıclara əsaslanan milli-siyasi ideallarını həyata keçirmək cəhdləri hər vəchlə müdafiə olunmalıdır". Qurultay qarşılıqlı hörmət əsasında ümumi demokratik idealları həyata keçirmək məqsədilə onlarla yaxınlaşmağın zəruriliyini e'tiraf etdi.[21] Qurultayda həmçinin Qafqazda qadınların vəziyyəti haqqında məsələ müzakirə edildi. M.Rəsulzadə müsəlman qadımnın azad edilməsini müsəlman xalqlarının milli-azadlıq mübarizəsinin ən mühüm məsələlərindən biri kimi qiymətləndirdi. M.Rəsulzadə deyirdi: "Bütün digər xalqların qadınları kişilərlə bərabər ictimai-siyasi hərəkatda iştirak etdiyi və bununla da öz millətinin uğurlarına kömək etdiyi bir vaxtda müsəlman qadın dustaqlıqda qala bilməz və qalmamalıdır". Siyasi komissiyanın qətnaməsi müsəlman qadının siyasi və iqtisadi hüquqlarımn kişilərlə bərabərləşdirilməsinin zəruriliyini müəyyən etdi.[22] Bu, Rusiyada, ölkənin bütün imctimai həyatında kişilərlə qadınların hüquqlarını bərabərləşdirən ilk siyasi sənəd idi.

Qurultayın gündəliyinə fəhlə və torpaq haqqında məsələlər daxil edilmişdi. Lakin qurultay bu məsələlər üzrə qətnamə qəbul etmədi və onların həllini Müəssislər Məclisi çağırılana qədər tə'xirə saldı. Buna baxmayaraq bu məsələlərə dair qurultayda bə'zi məsələlər irəli sürüldü. Fəhlə və torpaq komissiyası tərəfindən mə'ruzəçi H.Sultanov idi. O, qurultay nümayəndələrini komissiyanın fəhlə məsələsinə dair qətnaməsi ilə tanış etdi. Qətnamədə fəhlələrin həyatında bir sıra sosial islahatların keçirilməsi təklif olunur və qeyd edilirdi ki, bütün bu məsələlər yalnız Müəssislər Məclisində qanunvericilik yolu ilə həll edilə bilər.

Torpaq məsələsi üzrə komissiya aşağıdakını təklif edirdi: "Qafqazda əməkçi kəndlilərin torpaq ehtiyaclarını ödəmək məqsədilə bütün dövlət, udel və idarə torpaqlarının müsadirə olunması və xüsusi torpaq mülkiyyətlərinin ədalətli qiymətlərlə məcburi şəkildə özgələşdirilməsi zəruri hesab olunur".[23]



Mə'ruzəçi belə hesab edir ki, torpaqdan istifadə edilməsi məsələsində meydana çıxa biləcək bütün mübahisələr və anlaşılmazlıqlar kəndlilərin, torpaq sahiblərinin və qəza icraiyyə komitələrinin nümayəndələrindən ibarət barışdırıcı komissiya tərəfindən həll edilməlidir.

Qurultayın son məsələsi əhalinin əsas kütləsinin savadsız olduğu Qafqaz xalqları üçün çox böyük əhəmiyyəti olan xalq təhsili məsələsi idi. Qurultay E.Əfəndiyevin mə'ruzəsi üzrə "türk dilində ümumi, məcburi və pulsuz təhsilin zəruriliyi haqqında" qətnamə qəbul etdi. Müəllim kadrlarının yetişdirilməsi üçün müəllim seminariyaları və institutların açılması nəzərdə tutulurdu.[24]

Qurultayın sonuncu günündə Qafqazda müsəlman milli komitələrinin təşkili və mərkəzi Vladiqafqazda olmaqla Şimali Qafqaz və mərkəzi Bakıda olmaqla Cənubi Qafqaz üçün iki mərkəzi büronun yaradılması haqqında qərar qəbul edildi. Müsəlmanların Ümumqafqaz qurultayı Rusiya müsəlmanlarının siyasi həyatında mühüm rol oynadı. Qurultay Rusiyanın özündə siyasi hadisələrin inkişafının bu mərhələsində müsəlman xalqlarının mənafeyini ifadə edərək Rusiya müsəlmanlarının milli hərəkatının inkişafı, demokratik respublika prinsiplərinə söykənən dövlət quruluşu seçiminin yollarını müəyyən etdi.

Lakin bu qurultayda müsəlman qüvvələrinin birliyi heç də bütün Rusiya müsəlmanlarının birləşməsi məsələsində, onların etnik və dini xüsusiyyətlərinin tanınması məsələsində müxtəlif mövqelərdə duran Rusiya müsəlmanları başçılarının sazişə gəlməsi demək deyildi.

Regionlar çərçivəsində toplanmış etnik qrupların (Cənubi Qafqaz, Başqırdıstan, Krım, Qırğızıstan və s.) nümayəndələri bütövlükdə Rusiya dövlətinin həyati mənafelərinə toxunmamaqla bütün məsələlər üzrə özünüidarə təklif edən ərazi muxtariyyəti tərəfdarı idilər. Rusiyanın müxtəlif hissələrinə səpələnmiş tatarlara gəldikdə onlar tamamilə əks mövqedə dayanırdılar.[25] Bu ixtilaflar 1917-ci il mayın 11-dən 17-nə qədər

Moskvada keçirilmiş Ümumrusiya müsəlman qurultayında özünü göstərdi.

Rusiya dövlətinin ərazi-federativ əsasda təşkilinin əleyhinə çıxan Dağıstan menşeviki Əhməd Salikov iddia edirdi ki, belə quruluş aqrar məsələnin həllini çətinləşdirəcək, müsəlman fəhlələr ümumrusiya sosial qanunvericiliyinin bəhrələrindən istifadə edə bilməyəcək, çünki ərazi-federativ quruluş şəraitində bu qanunvericilik müxtəlif regionlarda fərqli xarakter daşıyacaqdır. Onun təklif etdiyi qətnamə layihəsində göstərilirdi ki, ərazi federalizmi müsəlmanların tam parçalanmasına gətirib çıxaracaq və milli məsələni həll etməyəcəkdir. Onun fikrincə, federalizm prinsipi Rusiyada müsəlmanları siyasi cəhətdən parçalayacaq, buna görə də milli məsələnin həlli ümumi, birbaşa, bərabər və gizli seçki hüququ əsasında mərkəzi orqan - müsəlman milli-mədəni parlamenti yaratmaqla müsəlman milli-mədəni muxtariyyəti formasında həyata keçirilməlidir.[26]

Ərazi muxtariyyəti blokundan əsas mə'ruzəçi M.Rəsulzadə idi. O, belə hesab edirdi ki, vahid ümumrusiya təşkilatının yaradılmasına mane olan mədəni muxtariyyət proqramı türk xalqlarının yüksələn milli özünüdərketmə şüuruna ədalətli şəkildə cavab verə bilməz. "Sual olunur: millət nədir? Mən əminəm ki, millətin ən mühüm xüsusiyyətləri dil və tarixi əlaqələrdən, adət və ən'ənələrin ümumiliyindən ibarətdir. Bə'zən deyirlər ki, İslam millətin təcəssümüdür, çünki türk-tatardan milləti soruşduqda o, "mən müsəlmanam" - deyə cavab verir. Lakin bu, səhv baxışdır. Xristian milləti yoxdur və eləcə də İslam milləti mövcud deyildir. Bu böyük müsəlman evində türklər və ərəblər üçün ayrı-ayrı otaqlar olmalıdır."[27]

271 səsə qarşı 446 səs üstünlüyü ilə qurultay qərara aldı ki, milli-ərazi-federativ əsasda demokratik respublika Rusiya dövlət quruluşunun müsəlman xalqlarının mənafeyini tam tə'min edən ən yaxşı dövlət formasıdır.

Moskva görüşündən sonra müsavatçılar artıq "Ədəmi mərkəziyyət"lə birləşmək məsələsini açıq şəkildə irəli sürürdülər, çünki onların idarə formasına baxışları ümumi



idi, hər iki partiya proqramlarının qalan maddələri demək olar ki, fərqlənmirdi. Birləşmə 1917-ci il iyulun 3-də baş verdi.[28]

Yeni partiya "Türk Ədəmi-mərkəziyyət Müsavat partiyası" adlandı. Partiyanı əməkçi kütlələrə, həmçinin Rusiyanın türk və digər müsəlman xalqlarının sə'ylərinə əsaslanan demokratik partiya e'lan edən bəyannamə birləşmənin əsasını təşkil etdi.[29]

Birləşmə nəticəsində "Müsavat" partiyası 1917-ci ilin yayında Azərbaycanın ictimai-siyasi həyatının bütün sahələrində böyük nüfuzu olan qüdrətli siyasi qüvvəyə çevrildi. Partiya Azərbaycan xalqının milli-azadlıq hərəkatı ideyalarının daşıyıcısı oldu.

1917-ci ilin yayı və payızında Rusiyada kütlələrin genişlənən güclü inqilabi hərəkatı Cənubi Qafqaz bölgəsində vəziyyətə tə'sir göstərməyə bilməzdi. Azərbaycanda inqilabi hərəkat üçün siniflərin və partiyaların dəqiq mövqeləri, partiya-təşkilat qruplarının müxtəlif istiqamətli hərəkətləri səciyyəvi xarakter aldı. Müxtəlif nəzəriyyələr, rəqabət aparan siyasi qüvvələrin siyasi, intellektual və fərdi imkanları sınaqdan keçirdi. Bolşeviklərlə menşeviklər arasında siyasi mübarizə daha da kəskinləşdi. Eser-menşevik bloku kütlələri öz tərəfinə çəkmək üçün qətiyyətli mübarizə aparır, öz baxışlarını fəal şəkildə təbliğ edirdi.

1917-ci ilin yayında bütün ciddi məsələlərin həlli zamanı daşnakların da tez-tez qoşulduğu eser-menşevik birliyi özünü açıq göstərirdi. Çox halda bolşeviklər təcrid olunurdular. RSDFP Bakı təşkilatının qəti parçalanmasının da əhəmiyyəti az deyildi.

1917-ci il iyulun 26-da Petroqradda bolşeviklər partiyasının VI qurultayı öz işinə başladı. Qurultayda Bakı bolşevik təşkilatını təmsil edən P.Caparidze və A.B.Yusifzadə[30] Azərbaycanda, o cümlədən Bakıda siyasi qüvvələr nisbətinin real vəziyyətini göstərmədilər. P.Caparidze Bakının timsalında sübut edirdi ki, bolşeviklərin həyata keçirdiyi siyasət kütlələrin inqilabiləşməsini tə'min edir, halbuki Bakı əhalisinin əhval-ru-

hiyyəsi bunun əksini göstərirdi. A.B.Yusifzadəyə gəldikdə o, öz mə'ruzəsində Azərbaycan zəhmətkeşlərinin bolşeviklər partiyası ətrafında birləşməsi işində "Hümmət"in rolunu xeyli şişirdirdi.

VI qurultay V.İ.Leninin hakimiyyəti silahlı üsyan yolu ilə ələ almaq xəttini qəbul etdi. Bu xətt bolşeviklərin iyul hadisələrindən sonra ölkədə yaranmış siyasi vəziyyətin təhlili və bu vəziyyətin ümummilli böhrana keçəcəyi haqqında proqnozundan irəli gəlirdi. Başqa sözlə, onlar hakimiyyəti ələ almağa tələsirdilər.

Digər sosial-demokrat partiyaları da hakimiyyətə gəlmək imkanlarını nəzərdən keçirirdilər. Bütün iyul ayı ərzində Bakı menşeviklərinin partiya komitələri iclaslar keçirirdilər. Lakin bütövlükdə öz sayına görə və fəhlələr içərisindəki nüfuzuna görə menşeviklər getdikcə öz mövqelərini itirirdilər.

Eserlər kütlələr içərisində ən populyar partiya idi. Onlar öz partiya təcrübələrindən və nüfuzlarından geniş istifadə edir, mitinqlərdə Petroqrad hadisələrinin əsl mahiyyətini kütlələrə izah edirdilər. Eserlərin iştirak etdikləri bütün yığıncaqlarda Müvəqqəti hökuməti müdafiə edən qətnamələr qəbul olunur, möhkəm inqilabi hakimiyyətin yaradılması, demokratiyanın yerlərdə bütün hökumət orqanlarına nəzarət etməsi tələbləri irəli sürülürdü.

1917-ci ilin iyulunda cəmiyyətin bütün təbəqələrini özündə birləşdirmək məqsədilə Bakı müsəlman ictimai və siyasi təşkilatları İcraiyyə komitəsini yenidən təşkil etmək qərara alındı. Komitə 33 nəfərdən ibarət idi.[31] Belə fikirlər irəli sürülürdü ki, İcraiyyə komitəsi respublikaçılıq, demokratiya və federasiya ideyalarının təbliğ olunması haqqında müsəlmanların birinci Ümumqafqaz qurultayının qətnaməsini həyata keçirməkdə rəhbər rolu öz üzərinə götürən milli-siyasi təşkilat olmalıdır.

Komitənin yeni hey'əti seçildikdən sonra onun aqrar və fəhlə məsələlərilə məşğul olması, yaxud bu məsələlərin siyasi partiyaların səlahiyyətinə aid olması haqqında



mübahisələr qızışdı. Komitənin siyasi məsələlərlə məşğul olmaması fikrinin formalaşmasına baxmayaraq onun fəaliyyəti getdikcə daha çox siyasiləşirdi. Tezliklə komitəyə təzə sədr seçildi. Bu vəzifəni Ə.Topçubaşov tutdu.

Tezliklə yeni komitənin üzvlərindən biri olan F.Xoyski Müəssislər Məclisinə seçkilər üzrə xüsusi müşavirədə iştirak etmək üçün Petroqrada göndərildi. Paytaxtda olarkən F.Xoyski Ümumrusiya Müsəlman Şurasının fəaliyyəti ilə tanış oldu və qayıtdıqdan sonra bu Şuraya Qafqazdan, o cümlədən ictimai təşkilatların Bakı komitəsindən bir neçə nəfər nümayəndə göndərilməsini tə'kidlə tələb etdi.[32]

Komitə çoxsaylı mitinqlər keçirirdi və bu mitinqlərdə hümmətçilər, müsavatçılar, din xadimləri və müsəlman ictimaiyyətinin nümayəndələri çıxış edirdilər. Onların hamısının fikrincə, müsəlmanlar birliyi itirməmək şərtilə bütün hakimiyyət orqanlarında geniş təmsil olunmalıdırlar. Bu tələbin fövqəl'adə əhəmiyyəti onunla izah olunur ki, bir çox orqanlarda və ictimai təşkilatlarda, Cənubi Qafqaz müsəlmanlarının hətta daha sıx yaşadıqları yerlərdə nümayəndələri yox idi. Bundan əlavə, növbəti dəfə "yuxarıdan" Qafqaza qeyri-müsəlman mənşəli iki yeni komissar göndərildi.[33] Eyni zamanda yerlərdə müsəlmanlar içərisindən çıxmış təcrübəli hüquqşünaslar, görkəmli ictimai xadimlər fəaliyyət göstərirdilər. Həm də Rusiyanın müsəlman əhalisi yaşayan, demək olar ki, bütün geniş rayonlarında inqilab dövründə meydana çıxan və fəaliyyətlərini davam etdirən müxtəlif demokratik təşkilatlar: Ümumrusiya müsəlman şurası, Ümumrusiya müsəlman hərbi ittifaqı ("Şuro"), Şimali Qafqaz və Dağıstanın birləşmiş dağlılarının mərkəzi komitəsi, Türküstan diyar şurası, Krım vilayət komitəsi, Qırğızıstan və Başqırdıstan əyalət Sovetləri vardı.[34] Bakıda isə Zaqafqaziya Mərkəzi Komitəsinin funksiyalarını yerinə yetirən Müsəlman ictimai və siyasi təşkilatlar komitəsi fəaliyyət göstərirdi.

1917-ci ilin sentyabrında bu komitəyə seçkilər keçirildi. Onun müsəlman sosial-demokratlarını müdafiə edən üzvləri komitənin tərkibinə hər siyasi partiyadan bir nəfər, kəndlilərin 3 nəfər, fəhlələrin 3 nəfər nümayəndəsini daxil etmək təklifi ilə çıxış etdilər. İclaslardan birində çıxış edən N.Nərimanov fəhlə və kəndli nümayəndələri iştirak etmədiklərinə görə yeni seçkiləri tə'xirə salmağı təklif etdi. Lakin ümumi yığıncaq M.Rəsulzadənin təklifini müdafiə etdi və seçkiləri keçirdi.[35] Yeni hey'ətdə müsavatçıların, ittihadçıların, müsəlman eserlərin, həmçinin Bakıda fəaliyyət göstərən Volqaboyu tatarlarının "Birlik" təşkilatının nümayəndələri vardı. Avqustun sonlarında müharibənin əldən saldığı Rusiyada iqtisadi və siyasi vəziyyət pisləşdi. Bu şəraitdə L.Q.Kornilov Müvəqqəti hökuməti devirməyə cəhd göstərdi. General Kornilovun qiyamı demək olar ki, bütün siyasi partiyalar tərəfindən pisləndi. Eserlər yaxınlaşan təhlükə qarşısında bütün qüvvələri əksinqilabla mübarizəyə yönəltmək üçün sosialistləri köhnə ixtilafları unutmağa, bütün rayonlarda onların daxil olacağı xüsusi Sovetlər yaratmağa çağırırdı. Menşeviklərin və eserlərin tə'kidi ilə Bakı Sovetinin İcraiyyə Komitəsi İctimai təşkilatların İcraiyyə Komitəsinə tabe olan "Əksinqilaba qarşı mübarizə üzrə Mərkəzi büro" yaradılması haqqında qərar qəbul etdi. Bu qərar büronun müstəqil orqan olmasını tələb edən bolşeviklərin e'tirazına səbəb oldu. Mübarizə qızışdı. Bolşeviklər Sovetin 1917-ci il 30 avqust tarixli iclasında öz təkliflərini yenidən irəli sürdülər və eserlərin tərəddüdü onlara 63 səsə qarşı 94 səslə bu təklifi keçirməyə imkan verdi.[36]

1917-ci il sentyabrın 1-də Sovetin qapalı iclasında menşeviklərin təşəbbüsü ilə bolşevik qətnaməsi ləğv olundu. Sovet müvəqqəti hökumətə tam e'timad göstərdiyini bildirdi.[37] Bu halda menşeviklər Kornilov qiyamına qarşı çıxış edən burjuaziya qrupları ilə birgə hərəkət siyasəti yeridirdilər.



Eserlər partiyası Şurası özünün 1917-ci il 30 avqust tarixli iclasında əksinqilabla mübarizə üçün büro yaradılması haqqında Bakı Soveti İcraiyyə Komitəsinin təşəbbüsünü müdafiə etdi. Milli partiyalara münasibətdə öz taktikasına sadiq qalan Sovet öz eser nümayəndələrinin bu komitədə iştirakını arzuolunmaz hesab edirdi. Ancaq hadisələrin sonrakı gedişi kornilovçuluğa qarşı mübarizədə Komitənin qətiyyət göstərdiyini sübut etdi. Müsəlmanlar, xüsusilə Cənubi Qafqaz müsəlmanları üçün Kornilov qiyamı son dərəcə narahatçılıq mənbəyinə çevrildi, çünki onun baş tutacağı təqdirdə, müsəlmanların muxtariyyət ümidlərinə son qoyula bilərdi.

Müsəlman ictimai təşkilatları Şurasının Bakı İcraiyyə Komitəsi 1917-ci il avqustun 29-da əksinqilabi qiyamı qətiyyətlə pislədi və Müvəqqəti hökuməti tamamilə müdafiə etdiyini bildirdi.

Bakının müsəlman rayonlarında "Müsavat" partiyası tərəfindən mitinqlər təşkil edildi, onun sentyabrın 1-də keçirilən konfransında isə inqilabı müdafiə etmək üçün partiya Mərkəzi Komitəsinin lazım gəldikdə partiya üzvlərinə silaha əl atmaq çağırışı da daxil olmaqla bütün zəruri tədbirləri görməsi haqqında qərar qəbul etdi. Lakin bu da eser və menşeviklərin Azərbaycan milli hərəkatına münasibətinə dəyişiklik gətirmədi. Kornilov günlərində təşkil olunmuş əksinqilaba qarşı mübarizə Bürosuna müsavatçıları daxil etmədilər. Buna baxmayaraq, "Müsavat" fəal mövqe tutdu. Kornilovun fitnəkarlığı uğursuzluqla qurtardı, lakin bu hadisə Müvəqqəti hökumətin mövqeyini sarsıtdı. Kornilova qarşı inqilabi qüvvələrin səfərbərliyi gedişində yaranmış şərait, bolşeviklərin nüfuzunun güclənməsinə kömək edirdi. Onlar fəhlələrin hüququ uğrunda Rusiya sosialist partiyalarının mübarizə proqramına tərəfdar çıxdılar və sentyabrın sonlarında Bakıda başlanmış ümumi tə'tili tam müdafiə etdilər. Bakı Sovetində vəziyyət gərginləşdi. Bütün ölkə kimi, Sovet də həyəcan içində idi. Siyasi hadisələr çox sür'ətlə dəyişilir və kütlələr tərəfindən tam dərk olunmurdu. Azərbaycanın siyasi xəritəsində fəallıq

ocaqları da müxtəlif şəkildə yerləşirdi. Ən yüksək fəallıq, şübhəsiz, Bakıda hiss olunurdu. Burada əhalinin müxtəlif təbəqələrinə müxtəlif tə'sir göstərən siyasi partiyalar fəaliyyət göstərirdi.

Bu cəhətdən qəzalar mürəkkəb vəziyyətdə idilər. Baş verən siyasi hadisələr haqqında mə'lumat qəza sakinlərinə çox nadir hallarda çatırdı. Sovetin İcraiyyə Komitəsinin başqa şəhərlərlə iş üzrə komissiyası yayın ortalarına qədər təkcə Bakı quberniyasını gəzib qurtardıqdan sonra belə nəticəyə gəlmişdi ki, inqilabi prinsiplər hələ əhalinin geniş təbəqələrinin şüuruna daxil olmamış və baş verən hadisələrdən onların əsla xəbəri yoxdur. Ruhanilərin, bəylərin nüfuzu hələ böyük idi. Yerli icraiyyə komitələri öz tərkibinə görə zamanın tələblərinə cavab vermirdi və onların heç bir nüfuzu yox idi.[38] Ərzaq məsələsi əvvəlki kimi kəskin qalırdı. Bu istiqamətdə Bakı Sovetinin tədbirləri ancaq narazılıq törədirdi. Qənaət haqqında, möhtəkirliklə mübarizə haqqında qərarlar kağız üzərində qalırdı. Sovet hər dəfə çörək paylarının azaldılmasını qanuniləşdirirdi. Sovetlərin öz sistemi açıq-aşkar axsayırdı.

Vaxtaşırı hər bəhanə ilə Sovetlərə öz e'timadını bildirən fəhlələr əslində Sovetlə hesablaşmırdılar. Demokratik qüvvələrin səpələndiyi inqilabın ilk dövründə Sovetlər bu qüvvələri birləşdirirdilər, onların bə'ziləri əhalinin geniş təbəqələrinin istəklərini əks etdirirdi. Hər şeydən ötrü Sovetlərə müraciət edirdilər. Sovet qanunverici, icraedici, məhkəmə hakimiyyətlərini, şəhər özünüidarəsini, ərzaq təşkilatlarını, peşə ittifaqlarını əvəz edirdi. Lakin siyasi partiyalar gücləndikcə Sovetlər bütün hakimiyyətin mərkəzi rolunu itirirdilər.

Bakı Sovetinin yenidən seçilməsi vaxtı çatmışdı. Hamı yeni Sovetə seçkiləri demokratik əsaslarla keçirmək fikrinə həmrə'y olsa da, struktur məsələsi və seçkilər sisteminin özü siyasi partiyalar arasında ixtilaflara səbəb olurdu. 1917-ci il oktyabrın 22-də Sovetə keçirilən



seçkilərin nəticələri qeyri-sosialist partiyalarının rolunun gücləndiyini sübut etdi.

Onların cəmiyyətdə artan nüfuzunun qarşısını almaq məqsədilə, S.Şaumyan başda olmaqla Bakı Sovetinin İcraiyyə Komitəsi, milli partiyaların seçkilərdə iştirakını zəiflətmək üçün, yeni seçkiqabağı kompaniya prosesi tətbiq etməyə çalışdı. Axırıncı günə qədər seçkilərin keçirilməsi vaxtı haqqında heç bir mə'lumat verilmirdi. "Müsavat"ın mərkəzi bürosu son anda öz xüsusi seçki nömrəsini alsa da, fəhlələr içərisində kifayət qədər təbliğat aparmağa imkan tapmadı.[39]

Seçkilərin nəticələri tamamilə gözlənilməz oldu: "Müsavat" 9617, eserlər 6305, bolşeviklər 3823, menşeviklər 687, daşnaklar 528 səs topladılar. Beləliklə, seçkilərin nəticəsində, Zabrat rayonu istisna olmaqla, bütün neft-mə'dən rayonlarında "Müsavat" partiyası qalib gəldi.[40]

Seçkilərin nəticələri bolşeviklərin neft-mə'dən rayonlarında guya güclü tə'siri olması haqqında xülyaları dağıtdı.

1917-ci il oktyabrın 25-dən 29-a qədər davam etmiş "Müsavat" partiyasının I qurultayı Azərbaycanın və "Müsavat" partiyasının siyasi tarixində əhəmiyyətli hadisə oldu. Qurultayda partiyanın rəhbər hey'əti seçildi və ilk proqramı qəbul edildi. M.Rəsulzadə partiya Mərkəzi Komitəsinin sədri seçildi.

"Müsavat" partiyasının proqramı fəhlə məsələsi, milli və dini məsələlər, vətəndaş hüquqları, aqrar və s. məsələləri əhatə edən 9 bölmə və 76 maddədən ibarət idi.

"Müsavat"ın I qurultayı partiyanın sonrakı siyasi mübarizəsinin və Azərbaycana milli ərazi muxtariyyəti verilməsinin taktika və strategiyasını müəyyən etdi.[41]

"Dövlət quruluşu və mütləqiyyət" adlanan I fəsildə vətəndaşların hüquq və azadlıqlarının Konstitusiya tərəfindən qorunması, demokratik federativ respublika kimi təqdim edilən dövlət quruluşunun prinsipləri bəyan edilirdi. Proqramda dövlət quruluşunun federasiya və

mədəni-milli muxtariyyət formaları müəyyən edilmişdi. Federasiyaya daxil olan muxtar qurumlar öz aralarında əsasən iqtisadi sahədə ittifaq bağlaya bilərdilər, müdafiə, pul və gömrük sistemi, xarici siyasət, dəmir yolları və s. məsələlər mərkəzi hakimiyyətin səlahiyyətinə daxil idi.

Hər bir muxtar vilayətdə rəsmi dil, yerli, yə'ni vilayət əhalisinin əksəriyyətinin danışdığı dil hesab olunmalı idi. Cinsindən, milliyyətindən və dini e'tiqadından asılı olmayaraq, 20 yaşına çatmış bütün vətəndaşlar parlamentə seçə və ya seçilə bilərdilər.

Proqram Rusiya ərazisində yaşayan bütün türk xalqlarının milli-mədəni ittifaqının yaradılmasını nəzərdə tuturdu. Partiyanın proqramı dini məsələlərə də toxunurdu. Milli və dini fərqlərə baxmayaraq bütün Rusiya müsəlmanlarının Muftisi (Şeyx-ül-İslam) seçilirdi. Onun rəhbərliyi ilə dini təşkilatların fəaliyyətinə nəzarət edən və bütün əyalətlərin nümayəndələrinin daxil olduğu komissiya yaradılırdı. Maraqlıdır ki, bu sənədə əsasən komissiyaya kürdlər, osetinlər, inquşlar, çərkəslər və s. kimi qeyri-türk mənşəli müsəlmanların da nümayəndələri daxil olurdu.

Mülki hüquq sahəsində partiya milliyyətindən, dini e'tiqadından, siyasi mənsubiyyətindən asılı olmayaraq federativ respublikanın bütün vətəndaşlarının qanun qarşısında bərabərliyini irəli sürürdü. Bununla da partiya dinin dövlətdən ayrılmasını nəzərdə tuturdu. Partiya Rusiyanı dünyəvi dövlət kimi tanıyırdı, lakin bu dünyəvilik dini e'tiqad azadlığını istisna etmirdi. Proqramda pasport sisteminin ləğvi nəzərdə tutulurdu, bu da ölkə hüdudlarında və onun kənarlarında sərbəst hərəkətlər etmək imkanı yardırdı. Mə'lumdur ki, artıq pasport sistemi Müvəqqəti hökumətin dekreti əsasında ləğv edilmişdi.

İqtisadi və maliyyə siyasəti sahəsində, gəlir vergisi istisna olmaqla, bütün vergilər ləğv olunurdu. Partiya yeni vergi növü-vərəsəlikdən vergi alınması məsələsini qoyurdu. İqtisadi inkişafı sür'ətləndirmək məqsədilə



partiya gömrük vergilərinin minimuma endirilməsinə çalışırdı. Əsas məsələlərdən biri, təbii ki, aqrar məsələ idi. Partiyanın kütlələr içərisində nüfuzu əhəmiyyətli dərəcədə bu məsələnin həllindən asılı idi.

Bütün xəzinə və sahibkar torpaqları pulsuz və əvəzsiz kəndlilərə paylanırdı. Torpaq kəndlilərin tam mülkiyyətinə keçirdi. Torpaq sahibliyinin minimum həcmi müəyyən edilirdi. Xüsusi mülkiyyət yalnız torpağın üstünə aid olunurdu. Torpağın tərki dövlətə məxsus olmalı idi.

Fəhlə məsələsində "Müsavat" partiyası əsasən RSDFP-nin II qurultayında (1903-cü il) qəbul edilmiş fəhlə proqramını qəbul etdi.

Bu proqramda əsasən bütün fəhlə və qulluqçular üçün 8 saatlıq iş günü və həftədə 24 saat fasiləsiz istirahət müəyyən edilirdi. Əlavə işlər qadağan olunurdu.

16-18 yaşlı uşaqlar üçün 6 saatlıq iş günü müəyyən edilirdi, eyni zamanda məktəb yaşlı uşaq və yeniyetmələrin muzdlu əməyə cəlb edilməsi qadağan olunurdu. Qadın əməyinin istifadə olunduğu fabrik və zavodlarda südəmər uşaqlar üçün körpələr evi açılmalı idi. Fəhlələrin mənafelərini müdafiə məqsədilə həftəlik maaş verilməsi tətbiq olunurdu. Qanuna əməl olunmasına nəzarət üçün müəssisələrdə fəhlə müfəttişlikləri yaradılmalı idi. Sahibkarlar əmək qanununu pozduqları halda cinayət məs'uliyyətinə cəlb edilirdilər.

Məhkəmə quruculuğu sahəsində "Müsavat" partiyası məhkəmə orqanlarının yerli hakimiyyət orqanlarından tam müstəqil olması tələbini irəli sürürdü. Məhkəmələr yalnız qanuna tabe olmalı idi. Əhali hesabına bütün məhkəmə xərcləri ləğv olunurdu.

Xalq təhsili sahəsində ibtidai və ali məktəblərdə pullu təhsil ləğv olunurdu. Təhsil hər bir muxtar vilayət əhalisinin əksəriyyətinin danışdığı dildə aparılmalı idi.

Ali məktəblərdə dərslər Azərbaycan (türk) dilində keçirilməli idi. Ali təhsil müəssisələrinə tam muxtariyyət verilirdi.[42]

## § 2. *Rusiyada Oktyabr çevrilişi və Azərbaycan*

Bolşeviklərin Petroqradda hakimiyyəti ələ keçirməsi xəbəri alındıqdan sonra 1917-ci il oktyabrın 27-də Bakı fəhlə və əsgər deputatları sovetinin fövqəladə geniş yığıncağı keçirildi. Yığıncaqda 166 səsə qarşı 246 səslə eser, menşevik və daşnak bloku üstünlük qazandı. 3 siyasi partiya (eserlər, menşeviklər və daşnaklar) adından Sovet bəyan etdi ki, inqilabın müdafiəsi Petroqradda başlanmış üsyanın qansız və dinc yolla ləğv olunmasını tələb edir, ölkədə bütün hakimiyyət Müəssislər Məclisinə verilməli, o vaxta qədər mövcud hakimiyyətin kifayət qədər inqilabi gücü olmazsa bütün hakimiyyət demokratiya daxilində koalisiyaya verilməlidir.[43] Beləliklə, xırda burjua partiyaları günün yeni şüarını - "demokratiya daxilində koalisiya" şüarını irəli sürdülər. Koalisiya bolşeviklərin də iştirakını nəzərdə tuturdu. Xırda burjua partiyalarının müsəlman demokratiyasına mənfi münasibəti yenə də özünü göstərdi. Bakı Sovetinə oktyabr seçkilərində "Müsavat"ın xeyli uğur qazanmasına baxmayaraq xırda burjua partiyaları müsəlman demokratiyasını real siyasi qüvvə kimi inkar edirdilər. Bu işdə eserlər partiyası xüsusi canfəşanlıq göstərirdi. Eserlər öz tərkibinə görə fəhlə partiyası idi və bu partiyada rus millətçiliyi az rol oynamırdı. Onlar müsəlman demokratiyasının nəzərdə tutulan koalisiyaya daxil olunmasına qəti şəkildə e'tiraz edirdilər. Eyni zamanda, onlar Bakı daşnak təşkilatının təmsil etdiyi digər milli qüvvəyə heç də mənfi münasibət bəsləmirdilər. Sovetin oktyabr iclaslarının bütün menşevik-eser qətnamələri məhz daşnaklarla ittifaqda qəbul olunmuşdu. Bakı Soveti üzvləri arasında sayca az olsalar da, bolşeviklər onlara rəğbət göstərən başıpozuq kütlələrə və öz partiya mərkəzinə itaətdən imtina edən sol eserlərə arxalanırdılar.

Fəhlə, əsgər və kəndli deputatları Sovetinin Diyar mərkəzi də baş verən hadisələrdən kənarda qalmadı.



Bütün Cənubi Qafqaz əhalisinə müraciət olunmuş xüsusi bəyanatında mərkəz Petroqrad bolşeviklərinin hərəkətlərini hakimiyyətin zorla ələ keçirilməsi kimi qiymətləndirdi. Mərkəz əhalini diyarda tam sakitliyə və inqilabi intizamı saxlamağa, Müəssislər Məclisi çağırmaq üçün Diyar mərkəzi ətrafında birləşməyə çağırdı. Cənubi Qafqazda vəziyyətə nəzarət etmək məqsədilə Diyar mərkəzi bütün inqilabçı təşkilatların - Qafqaz qoşunları Diyar sovetinin, kəndli, fəhlə və əsgər deputatları Diyar mərkəzinin, Zaqafqaziya dəmir yolları Mərkəzi Komitəsinin, mülki və hərbi hakimiyyətin birləşmiş Diyar Mərkəzinin, partiyaların (menşeviklər, eserlər, "Daşnaksütyun", Gürcüstan sosialist-federalist partiyası və müsəlman təşkilatları) nümayəndələrindən ibarət Müvəqqəti ictimai təhlükəsizlik Komitəsi təşkil etdi. Yeni yaradılmış komitə diyarın əhalisini özbaşına çıxışlardan çəkinməyə və yalnız komitənin sərəncamlarına danışıqsız əməl etməyə çağırdı.[44]

Lakin Bakıda hadisələr başqa istiqamətdə inkişaf edirdi. Piter bolşeviklərinin uğurları onların Bakıdakı partiya dostlarını daha qəti hərəkətlərə ruhlandırdı. Bolşeviklər öz qüvvələrini birləşdirməyə başladılar. Onların mətbuatı iddia edirdi ki, 1917-ci il sentyabrın 27-də qəbul olunmuş eser-menşevik qətnaməsi yalnız sağ eserlərdən hələ qəti şəkildə ayrılmamış sol eserlərin tərəddüdləri nəticəsində baş tutdu. Bolşeviklər 1917-ci il oktyabrın 27-də onları müdafiə etməyən, eserlərin qalan üzvlərilə birlikdə menşeviklər və daşnaklarla bloka girmiş, Suxartsevin başçılıq etdiyi sol eserlərə qarşı hücuma keçdilər.[45]

Mə'dən-zavod komitələri üzvləri tərəfindən müdafiə olunan bolşeviklər 1917-ci il oktyabrın 31-də yenə də Sovetin artıq sınaqdan çıxmış geniş iclasını çağırmaq taktikasına əl atdılar. İclasda əslində mə'dən-zavod, alay və donanma komitələrinin cəlb olunmuş nümayəndələri Sovet üzvlərindən dəfələrlə çox idi. Sovetin geniş iclasının ilk dəqiqələrindən onun həqiqi üzvlərinin sayının kənardan cəlb olunan nümayəndələrlə qeyri-mütənasib

olduğunu bildirən eserlər və menşeviklər həmin iclasın qeyri-qanuniliyi məsələsini qoydular. Lakin bolşeviklərin təzyiqi nəticəsində konfrans özünü yerli inqilabi orqan e'lan etdi.[46]

Konfransda iştirak edən müsavatçılar bolşevik təkliflərinə qarşı açıq çıxış etmədilər.

İclas çox qızğın şəraitdə keçirdi. 30-a qədər müxtəlif qətnamələr təklif edilmişdi. Hərbi-inqilabi komitənin ləğv olunması haqqında qətnamə qəbul edildi. Bolşeviklər "Hakimiyyətin Sovetlərə verilməsi" vəzifəsini hələlik "sovetin hakimiyyətinin genişləndirilməsi" prosesi şəklində çox ehtiyatla həll edirdilər. Bolşeviklər hakimiyyəti ələ alamaq üçün hələ özlərini kifayət qədər güclü hesab etmirdilər. Yalnız bütün digər siyasi institutların ləğvi yolu ilə bütün hakimiyyəti ələ keçirməyin mümkün olduğunu başa düşən bolşeviklər tam qətiyyətlə İctimai təşkilatlarm İcraiyyə Komitəsinin buraxılması məsələsini qoydular. Alay, batalyon, rota və gəmi komitələrinin onları hərtərəfli müdafiə etdiklərini görən bolşeviklər Sovetlərin hakimiyyətini və Sovetlərdə öz üstünlüyünü bərqərar etmək üçün Bakı Sovetinin yeni iclasının keçirilməsini tə'kidlə tələb edirdilər. Bu mə'nada hakimiyyətin Sovetlərə keçməsi ilə razılaşmadıqlarını bildirən menşevik və eserlərin iclas zalından çıxıb getməsi bolşeviklərə sərfəli idi. Zalda iştirak edən 468 deputat və nümayəndədən 344 nəfəri qaldı. Onların yalnız az bir hissəsinin səsvermə hüququ vardı, lakin bu, artıq əhəmiyyətli bir şey deyildi, çünki bolşeviklərə öz qətnamələrini keçirmək üçün kifayət qədər səs toplamaq lazım idi.

Bu şəraitdə münaqişənin aradan qaldırılmasına çalışan müsavatçılar bolşevikləri müdafiə etdilər. Müsavatçılar münaqişəyə demokratik partiyalar üçün son dərəcə zərərli bir hal kimi baxırdılar. Özlərinin hakimiyyət strukturlarında iştirakını artırmaq məqsədilə müsavatçılar bir neçə təklif və bəyanatlar təqdim etdilər. Bu təklifi müzakirə edən "Müsavat" 1917-ci il noyabrın 7-də aşağıdakı qətnaməni qəbul etdi: "Yerli demokratiya



daxilində yaranmış münaqişənin bolşevikləri inqilabi demokratiyanın qalan hissəsindən təcrid etmək yolu ilə həllini bütün demokratiyanın ümumi məqsədləri üçün son dərəcə zərərli hesab edirik, çünki inqilabın sol qanadının zəifləməsi, eyni zamanda əksinqilabın sağ qanadının güclənməsi deməkdir."[48] Buna görə də "Müsavat" özünün iki rəsmi nümayəndəsinin daxil olduğu İcraiyyə Komitəsində bolşeviklərlə bir yerdə işləyirdi.

Siyasi böhranı dinc yolla aradan qaldırmağın zəruriliyini vurğulayan "Müsavat" partiyası inqilabi ictimai təhlükəsizlik komitəsinin hərəkətlərini barışıq və saziş siyasəti üçün zərərli hesab edirdi: Bununla əlaqədar olaraq, müsavatçılar özlərinin həmin komitədə iştirakının qeyri-mümkün olduğunu bildirdilər.[49]

Bolşeviklər, "Müsavat" partiyasından əlavə, Xəzər ticarət donanması, həmkarlar və şəhər qarnizonunun da köməyini ala bildilər. Beləliklə, Sovet Bakıda siyasi hakimiyyətin mərkəzi kimi hamı tərəfindən tanındı. Sovet fəhlə və əsgər deputatları Soveti adlandırıldı.

Son vaxtlara qədər tarixi ədəbiyyatda 2 noyabr 1917-ci il Bakıda Sovet hakimiyyətinin e'lan edilməsi günü kimi qəbul edilirdi. Lakin, bu hakimiyyət real deyildi. Bunu S.Şaumyanın özü də e'tiraf edərək yazırdı: "Bizim Sovet hakimiyyəti adlandırılan hakimiyyətimiz əslində, öz iqtisadi siyasətinə görə burjuaziya hakimiyyəti idi. Bu uyğunsuzluğun səbəbi bizim zəifliyimizdir".[50] Görünür, bu dövrdə Bakıda Sovetlərin təkhakimiyyətliliyindən deyil, yalnız Sovetlərdə bolşeviklərin üstünlük qazanmasından danışmaq olar. Digər real hakimiyyət tə'sisatları (İctimai təşkilatların İcraiyyə Komitəsi, Şəhər Duması) hələ qalırdı. Lakin, bu da mə'lumdur ki, 1917-ci il noyabrın 2-dən demokratik qüvvələr daxilində hər iki cəbhədə səfərbərliklə müşayiət edilən açıq parçalanma başlamr. Xırda burjua partiyaları ilə müsavatçılar arasında ixtilafdan, müəyyən dərəcədə anataqonizmdən istifadə edən bolşeviklər, bu iclas nəticəsində dinc yolla Sovetdə hakimiyyəti ələ keçirə bildilər. Bu, daha çox

əsgər və matrosların əsas kütləsinin bolşeviklərin tərəfinə keçməsi sayəsində mümkün oldu. Bakı və Yelisavetpol quberniyasında, həmçinin Cənubi Azərbaycan ərazisində yerləşdirilmiş qarnizonların əsgərləri Petroqradda inqilabın qələbəsi və Bakıda hakimiyyətin Sovetlərin əlinə keçməsi xəbərini rəğbətlə qarşıladılar.

Eyni zamanda, 1917-ci il noyabrın 2-dən e'tibarən, bir çox təşkilatlarda və müəssisələrdə keçirilən iclaslarda "Daşnaksutyun" partiyasının üzvü olan Bibi-Heybət fəhlələri, Bakı Həmkarlar ittifaqları şurası, bank işçiləri, mühəndis və texniklər ittifaqı və s. bolşeviklərin fəaliyyətini pislədilər.[51] 1917-ci ilin mart ayından bolşeviklərin hakimiyyəti ələ keçirdiyi vaxta qədər mövcud olduğu müddətdə Bakı Soveti qarşıda qoyulan vəzifələrin heç birini həll edə bilmədi. Onun fəaliyyəti kütlələrdə getdikcə daha çox narazılıq törədirdi. Eser-menşevik blokunun Sovetdən çıxması bu prosesi daha da sür'ətləndirdi. Aydın olurdu ki, dinc yolla Sovetdə üstünlüyü saxlamaq çətin olacaqdır. Bütün siyasi orqanların ləğv edilməsi prosesi başlandı. 1917-ci il noyabrın 22-də burjuaziyanın hakimiyyət orqanı İctimai təşkilatlar Komitəsi ləğv olundu. Bununla da Sovetlərin təkhakimiyyətliliyinin bərqərar olmasına doğru daha bir ciddi addım atıldı. Bolşevik Sovetinin yeganə mümkün rəqibi kimi, F.Xoyskinin rəhbərliyilə fəaliyyət göstərən Şəhər Duması qaldı. Başqa sözlə Sovetdə bolşeviklərin hegemonluğu və təkpartiyalı sistemin yaranması uğrunda mübarizə başlandı.

Mə'lum olduğu kimi, Fevral inqilabından sonra Dumanın statusunda dəyişiklik, yə'ni bu hakimiyyət tə'sisatının onu tədricən siyasi mübarizə səhnəsinə cəlb edən demokratikləşməsi prosesi baş vermişdir. Seçkiqabağı kampaniyada iştirak edən 12 müxtəlif partiya və qruplar qeydiyyata alındı.[52]

Cəmiyyətin bütün təbəqələrinə bu və ya başqa dərəcədə tə'sir edən ümumi demokratikləşmə prosesi bütün siyasi partiyaların munisipal proqramlarında



seçkilərə eyni münasibətin - yerli idarə orqanlarına seçkilərin gizli səsvermə yolu ilə ümumi, bərabər və birbaşa seçki hüququ əsasında keçirilməsi prinsipini müəyyənləşdirən amil idi. Bütövlükdə isə proqramlarda çoxlu fərqlər vardı. Belə ki, sosialist blokunun (eserlərin və menşeviklərin) və Müsəlman ictimai təşkilatları Komitəsinin (bunların proqramı müsavatçılarla tam üst-üstə düşdüyündən, seçkilərdə vahid siyahı ilə çıxış etdilər) bələdiyyə proqramlarının həyata keçirilməsi mövcud quruluş şəraitində nəzərdə tutulduğu halda bolşeviklər bildirirdilər ki, onların munisipal proqramının həyata keçirilməsinin ən mühüm şərti siyasi hakimiyyətin proletariatın əlinə keçməsidir.

Hakimiyyət uğrunda mübarizə aparılan oktyabr günlərində yalnız şəhərdən olan seçicilərin iştirakı ilə Dumaya seçkilər keçirildi, şəhər idarəsi dairəsinə daxil edilməyən şəhərətrafı sənaye zonalarının əhalisi şəhər əhalisi siyahısına daxil edilmədi. Heç bir partiya üstünlük qazana bilmədi, lakin bolşeviklər 16 faiz səs toplaya bildilər, bu da başqa partiyaların topladığı səslərdən bir qədər çox idi. Digər təşkilatlar ayrı-ayrı deyil, siyasi bloklar formasında çıxış edirdilər: müsəlman təşkilatları 10 mindən sox səs aldılar.[53]

Lakin Dumanın sonrakı iş prosesi göstərdi ki, başlanmış demokratikləşmə prosesləri Dumanın özü tərəfindən ləngidilir. Onun iclaslarında tez-tez Dumanın köhnə rejimdə fəaliyyətinin qeyri-mümkünlüyü barədə siyasi xadimlərin - Duma fraksiyaları nümayəndələrinin səsləri eşidilirdi. Vəziyyətdən çıxmaq üçün Dumanın bağlanmasından başqa heç bir təklif verilmirdi. Eyni zamanda, hələ 1918-ci ilin əvvəllərində heç bir siyasi partiya, o cümlədən bolşeviklərin özləri, 1918-ci ilin yazında şəhərdə hakimiyyətin bolşeviklərin ələ keçirəcəyini güman etmirdilər.

1917-ci il dekabrın 12-13-də bolşeviklərlə müsavatçılar arasında münasibətlərin gərginləşdirilməsi şəraitində dəyişdirilmiş seçki qaydası əsasında Bakı Sovetinə seçkilər keçirildi. Nəticələr müsavatçılar üçün heç də

ümidverici deyildir. Bolşeviklərin 51 səsinə qarşı müsavatçılar 21 səs aldılar. 41 səs almış daşnaklar, 38 səs almış sol eserlər və 28 səs almış sağ eserlər də müsavatçılardan irəlidə idilər. Cəmi 11 səs alan menşeviklər müsavatçılardan geridə qaldılar.[54] Seçki ilə əlaqədar Sovetin 1917-ci il 31 dekabr tarixli iclasında çıxış edən M.Rəsulzadə bəyan etdi ki, "Sovet demokratik əsaslarla seçilmədiyinə və kəndlilər burada təmsil olunmadığına görə, partiya, hakimiyyəti indiki Sovetə verməkdən imtina edir."[55] Lakin həmin iclasın sonunda müsavatçılar öz qərarlarım dəyişərək bildirdilər ki, onlar tənəffüs zamanı bu məsələni müzakirə edərək hakimiyyəti Sovetə vermək məsələsini müsbət həll etmək və İcraiyyə komitəsinə daxil olmaq qərarına gəlmişlər.[56]

Yeni İcraiyyə Komitəsinə 6 nəfər bolşevik, 5 daşnak, 4 sol eser, 3 sağ eser, 2 "Müsavat" nümayəndəsi daxil oldu.[57]

Beləliklə, 1917-1918-ci illərin qışı bütövlükdə Cənubi Qafqazdakı hadisələrin gedişində, o cümlədən siyasi partiyaların hərəkətində əks olunan rəngarəng siyasi hadisələrlə xarakterizə olunur. Bu dövrdə diyarı siyasi baxımdan iki hissəyə - Cənubi Qafqazda Rusiya bolşevizminin dayağına çevrilən Bakı və qalan bütün Cənubi Qafqaza bölmək olardı. Aydın olurdu ki, hakimiyyəti ələ keçirən bolşeviklər Azərbaycana muxtariyyət verilməsi üçün islahatlar keçirmək fikrində deyildirlər. Bunun əvəzində onlar bütün inqilabi-demokratik qüvvələrin Xalq Komissarları Soveti ətrafında birləşməsi haqqında məsələyə təkrar-təkrar qayıdırdılar.

1917-ci il dekabrın 18-də V.Lenin S.Şaumyanı Zaqafqaziya işləri üzrə xüsusi komissar tə'yin etdi, P.Caparidze isə onu Bakı Sovetinin sədri vəzifəsində əvəz etdi. Bu dövrdə müsavatçılar, xüsusilə Gəncə müsavatçıları öz fəaliyyət mərkəzlərini Bakıdan getdikcə Rusiyadan uzaqlaşan bütöv Cənubi Qafqaz regionuna keçirməyə başladılar.

RSFSR XKS-ə tabe olmaq istəməyən və diyarı anarxiyadan qorumağa çalışan Gürcüstan sosial-demokratik partiyasının (menşeviklərin), "Müsavat"ın, "Daşnaksütyun"un və sağ eserlərin nümayəndələri noyabrın 11-də Tiflisdə keçirdikləri müşavirədə Rusiya bolşevik hökumətinin hakimiyyətini tanımaqdan imtina etdilər və "Müstəqil Zaqafqaziya hökuməti" yaratmaq haqqında qərar çıxartdılar. Noyabrın 15-də Zaqafqaziya Komissarlığı yaradıldı. Onun tərkibinə Gürcüstandan Y.Qeqeçkori (sədr) və A.Çxenkeli, Azərbaycandan F.Xoyski, M.Y.Cəfərov, X.Məlik-Aslanov, ermənilərdən T.Ter-Qazaryan, X.Karçiqyan, A.Aqacan, sağ eserlərdən D.Donski və s. daxil oldu.[58]

RSFSR tərəfindən təhlükəni nəzərə alan Zaqafqaziya Komissarlığı Donda və Şimali Qafqazda ağqvardiyaçı hərəkatın rəhbərləri Kaledin, Karaulov, Filimonov və başqaları ilə ittifaq bağlamaq məqsədilə onlarla əlaqə yaratdı. Noyabrın 28-də Tiflisdə Qafqaz, Cənubi Rusiya və Ukrayna antibolşevik qüvvələrinin hərəkət birliyi yaradılması məsələsinə dair müşavirə keçirildi. Dekabrın 6-da Zaqafqaziya Komissarlığının iclasında Bakıda və Dağıstanda vəziyyət müzakirə edilərkən, bolşeviklərə qarşı qəti tədbirlər görmək barədə fikirlər irəli sürüldü.

Milli Şuralar bütün vətənpərvər qüvvələri öz ətrafında birləşdirir və yerlərdə hakimiyyəti ələ alırdılar. Bu cəhətdən, Bakı Müsəlman Şurasının vəziyyəti çətin idi, çünki onun qarşısında bolşeviklərin başçılıq etdiyi Bakı Soveti kimi güclü bir düşmən dayanmışdı.

Yerli milli şuralar milli hərbi hissələr yaratmaqla məşğul olurdular. İlk milli dəstələrdən biri əvvəllər çar ordusu birləşmələrindən birinə - "Qafqaz yerli süvari diviziyası"na daxil olan Azərbaycan süvari alayı ("tatar süvari alayı") idi. Çar ordusu dağıldıqdan sonra bu alay Azərbaycana qayıtdı və yaradılan milli silahlı qüvvələrin tərkibinə daxil oldu.

Yeni silahlı dəstələrin yaradılması üçün silah çatmırdı. Buna görə də, Gəncə müsəlman şurası şəhərdə olan keçmiş ordunun 219-cu alayını, həmçinin Qafqaz cəbhəsindən Rusiyaya qayıdan bir neçə hərbi eşelonunu

tərksilah etməli oldu. Bunun nəticəsində 15 min tüfəng, 70-ə yaxın pulemyot və 20 top ələ keçirildi.[59] Bu əməliyyatın həyata keçirilməsində Gəncə milli şurasına Zaqafqaziya Komissarlığının göndərdiyi zirehli qatar kömək etdi.

Daxili siyasət sahəsində Zaqafqaziya Komissarlığı bu dövrdə xeyli kəskinləşmiş aqrar məsələni həll etməyə cəhd göstərdi. Hələ 1917-ci il dekabrın 16-da "Dövlət keçmiş udel, kilsə, monastır, hüquqi şəxslər və sahibkar torpaqlarının torpaq komitələrinə verilməsi haqqında" qanun verilmişdi. Bu qanuna əsasən kəndlilərin alacağı torpaqlar torpaq komitələrinin sərəncamına verilirdi, kəndlilər isə torpağı həmin komitələrdən icarəyə götürməli idi. Lakin Azərbaycanda bu komitələr yaradılmamışdılar.

Zaqafqaziya komissarlığının fəaliyyəti Antanta və ABŞ tərəfindən başlanan hərbi müdaxilə ilə eyni vaxta düşdü. İngiltərə, Fransa və ABŞ hökumətləri Cənubi Qafqazda antibolşevik qüvvələrə kömək etməyə xüsusi diqqət yetirirdilər. Onların nümayəndələri (ABŞ konsulu Smit, ingilis generalı Şor, fransız polkovniki Şardinyi və s.) Zaqafqaziya Komissarlığının yaradılması ilə bağlı 1917-ci il noyabrın 11-i və 15-də keçirilən iclaslarda iştirak edirdilər. Özünün Vaşinqtona məktubunda Smit Zaqafqaziya Komissarlığını de-fakto tanımağı və antibolşevik qüvvələrə maliyyə yardımı etmək üçün Tiflisə 10 milyon dollar göndərməyi təklif edirdi.[60]

Xarici siyasət sahəsində Zaqafqaziya Komissarlığının fəaliyyəti əslində diyarı bolşevik Rusiyasından ayırmaq istiqamətində atılmış addım demək idi.

1917-ci il dekabrın 5-də Zaqafqaziya Komissarlığı Ərzincanda barışıq haqqında saziş bağladı, 1918-ci il yanvarın 14-də isə türk komandanlığı ona separat sülh müqaviləsi bağlamaq haqqında danışıqlara başlamağı təklif etdi.[61]

1917-ci ilin sonunda Azərbaycanın və ümumiyyətlə Cənubi Qafqazın siyasi həyatında ən əlamətdar



hadisələrdən biri Ümumrusiya Müəssislər məclisinə seçkilərin keçirilməsi oldu. Bu işə hazırlıq hələ Oktyabr çevrilişinə qədər başlanmışdı. 1917-ci il iyulun 2-də Xüsusi Qafqaz Komitəsi nəzdində Müəssislər Məclisinə seçkilər üzrə Mərkəzi Zaqafqaziya Komissiyası yaradıldı.[62] Azərbaycanda Müəssislər Məclisinə seçkilər üzrə komissiyaya F.Xoyski rəhbərlik edirdi.

Seçkilərin hazırlanması və keçirilməsi işində həm siyasi (seçkiqabağı kampaniyanın gedişində müxtəlif məsələlər üzrə siyasi partiyalar arasında aşkara çıxan ixtilaflar), həm də sırf texniki xarakterli çoxlu çətinliklər vardı.

Tiflisdən hələ də nə pul, nə material, nə də tə'limat göndərilirdi. Əhalinin siyahıya alınması işində böyük çətinliklər meydana çıxırdı. Yerli əhalinin yüksək savadsızlıq faizi aşkar edildi. (Müəssislər Məclisinin işində iştirak etməyə cəlb olunan əhalinin 50 faizdən çoxu savadsız idi).[63] Sentyabrın sonlarında qəzalarda iş qaydaya düşürdü. Bakı şəhəri mə'dən-zavod rayonlarının vəziyyəti mürəkkəb idi. Bolşeviklər əhalinin tərkibinə görə fəhlə rayonlarının və mə'dənlərin şəhərə birləşdirilməsi üçün geniş təbliğat aparırdılar. Bu tədbirin həyata keçirilməsi həmin əhaliyə seçkilərdə iştirak etmək hüququ verməliydi. Müsavatçılar bu tədbirin fəal tərəfdarları kimi çıxış edirdilər. OZAKOM-un xüsusi göstərişilə mə'dənlər şəhərə birləşdirildi.

"Müəssislər Məclisinə seçkilər haqqında əsasnamə" öz dövrünün burjua dövlət hüququ standartları baxımından çox demokratik bir sənəd idi. Qadınların, hərbi qulluqçuların səsverməyə buraxılması, dairələrin çoxunda proporsional seçki sistemi və s. buna dəlalət edirdi. Məsələn, müsəlman qadınları seçki kampaniyasından kənarda qoymamaq üçün Müəssislər Məclisinə seçkilər üzrə komissiya onların səs verməsi üçün 9 seçki dairəsində xüsusi binalar ayrılmasına icazə verdi.[64]

1917-ci il noyabrın 26-da bütün Cənubi Qafqazda olduğu kimi Azərbaycanda da Müəssislər Məclisinə seçkilər keçirildi.[65]

Zaqafqaziya dairəsi üzrə seçkilərdə 15 partiya iştirak etdi, bunların içərisində seçkilərin 73 faizdən çox səsini toplamış menşeviklər, müsavatçılar və daşnaklar üstünlük təşkil edirdilər. Bütövlükdə Zaqafqaziya dairəsi üzrə bolşeviklərə cəmi 4,4 faiz səs verdilər.[66] Bakıda onlara əhalinin 20 faizi və qarnizon əsgərlərinin 70 faizdən çoxu səs verdi. Eserlərə seçicilərin 16,9 faizi, menşeviklərə isə cəmi 5,1 faizi səs verdi.[67]

Rəqəmlərdən belə nəticəyə gəlmək olar ki, seçkilərin nəticələri əhalinin əhval-ruhiyyəsinə uyğun idi. Bütün Cənubi Qafqaz ilə müqayisədə bolşeviklərin Bakıda aşkar qələbəsi fonunda "Müsavat" və "Daşnaksütyun" partiyaları daha əlverişli mövqe tuturdular.

## § 3. *Zaqafqaziya Seymi tərəfindən diyarın müstəqilliyinin e'lan edilməsi*

1918-ci ilin əvvəllərində Cənubi Qafqazda vəziyyət son dərəcə mürəkkəb olaraq qalırdı. Rusiyanın Almaniya ilə Brest-Litovskda sülh danışıqları başa çıxdıqdan sonra 1917-ci il dekabrın 6-da alman-türk qoşunları hücuma keçdilər. 1918-ci il yanvarın əvvəllərində türk qoşunları Ərdəhan, Qars və Batum əyalətlərini tutdular. Türk qoşunlarının irəliləməsi Zaqafqaziya Komissarlığını 1918-ci il fevralın 6-da Qafqaz cəbhəsinin komandanı Vahib paşaya özünün Türkiyə ilə sülh danışıqlarına hazır olması haqqında teleqram göndərməyə məcbur etdi. Regionda heç bir nüfuzu və kifayət qədər güclü hakimiyyəti olmayan Zaqafqaziya Komissarlığı özünü buraxmağa məcbur oldu. 1918-ci il fevralm 22-də Cənubi Qafqazdan Ümumrusiya Müəssislər Məclisinə seçilmiş deputatların yığıncağında Zaqafqaziya Seyminin yaradılması və yerli hakimiyyətin bu orqana verilməsi haqqında qərar qəbul edildi.[68]



1918-ci il fevralın 23-də 3 əsas partiya fraksiyalarının nümayəndələrindən ibarət olan Zaqafqaziya Seymi açıldı. Seymdə Gürcüstandan - sosial-demokratlar (menşeviklər) - 32 nəfər, Azərbaycandan - "Müsavat" partiyası və ona qoşulmuş bitərəf demokratlar qrupundan - 30, Ermənistandan - "Daşnaksütyun" partiyasından 27 nəfər deputat iştirak edirdi.[69] Bundan əlavə, Seymdə sosial-inqilabçılar (eserlər), milli demokratlar, erməni xalq azadlıq partiyası, Müsəlman sosialist bloku - 7 deputatla, Rusiyada müsəlmanlıq fraksiyası "İttihad" - 3 deputatla və bolşevik-hümmətçilər partiyası - 4 deputatla təmsil olunmuşdular.[70]

Beləliklə, sıx birləşmiş Gürcüstan və Ermənistan fraksiyalarından fərqli olaraq, Azərbaycan Zaqafqaziya Seymində bir-birindən ayrılmış 4 partiyadan 44 deputatla təmsil olunurdu.

Zaqafqaziya Seymi Y.H.Qeqeçkori başda olmaqla Zaqafqaziya hökumətini təşkil etdi. Qafqaz cəbhəsində vəziyyət və Cənubi Qafqazın müstəqilliyinin e'lan edilməsi məsələləri onun fəaliyyətində əsas yer tuturdu. Zaqafqaziya Seymində müsəlman fraksiyasının lideri M.Rəsulzadə bununla bağlı olaraq yazırdı: "Seymdə müsəlmanların bütün sə'yləri cəbhə məsələsinin dinc yolla həlli və Qafqazın müstəqilliyinin dərhal həyata keçirilməsinə yönəldilmişdi." Müstəqil Qafqazın möcudluğu təkcə Qafqaz müsəlmanlarının deyil, həm də Rusiyanın daimi təhlükəsi qarşısında qalan digər müsəlman ölkələrinin də mənafeyinə uyğun idi.[71]

Seymin tərkibinə daxil olmuş müsəlman fraksiyası gələcəkdə bu məsələnin həllinə ümid bəsləməklə Azərbaycanı iki yerə bölən sərhədləri tanımağa məcbur oldu. N.Usubbəyov Türkiyəyə birləşmək məsələsinə xüsusi sə'y göstərmədi. Müsəlmanların mövqeyi müstəqilliyə can atan gürcü nümayəndələrini ruhdan salırdı.

Seym yaxınlaşan sülh danışıqları üçün hüquqi əsas hazırlamağa məcbur oldu. Seymin qəbul etdiyi qərar onun siyasətinin mürəkkəb və ziddiyyətli olmasının daha bir təzahürü idi: Cənubi Qafqazı müstəqil dövlət e'lan

etməyən Seym özünün xarici dövlətlərlə sülh bağlamaq səlahiyyəti olduğunu bildirirdi. Türkiyə ilə danışıqlara dair Seymin qəbul etdiyi proqramında göstərilirdi ki, 1914-cü ildəki dövlətlərarası sərhəd bərpa olunmalıdır. Bundan əlavə, Cənubi Qafqaz nümayəndə hey'əti Şərqi Anadolu, o cümlədən Türkiyə dövləti tərkibində Türkiyə Ermənistan üçün öz müqəddəratını tə'yin etmək hüququnu əldə etməyə çalışırdı. Danışıqlar üçün nümayəndə hey'əti üç Cənubi Qafqaz millətinin parlament fraksiyalarından olan siyasətçilər qrupu kimi təşkil olunmuşdu. Nümayəndə hey'ətinə gürcü Akaki Çxenkeli başçılıq edirdi. Nümayəndəliyin azərbaycanlı hissəsi iki müsavatçı - M.Hacınski və X.Xasməmmədov və bütün digər partiyaların hər birindən bir nəfər: sosialist blokundan İ.Heydərov, ittihadçı Mir Yaqub Mehdiyev və Ələkbər Şeyxülislamzadədən (menşevik-hümmətçi) ibarət idi. Bütün bu qrup martın 12-də danışıqların başlanacağı Trabzona gəldi.[72]

Zaqseym Türkiyə ilə sülh danışıqlarına hazırlaşdığı vaxtda Brestdə Rusiya və Almaniya arasında separat müqavilə imzalandı. Bu müqaviləyə əsasən, Ərdəhan, Qars və Batum Türkiyəyə keçirdi. Zaqseym Brest sülhünü qəbul etmədi və Petroqrada XKS adına teleqram göndərərək bildirdi ki, "Brest sülhünü *tanımır*, çünki Zaqafqaziya heç vaxt bolşeviklərin və Xalq Komissarları Sovetinin hakimiyyətini qəbul etməmişdir." Brest sülhünün qərarlarına əsaslanan Türkiyə Qarsın, Batumun və Ərdəhanın dərhal təmizlənilməsi haqqında Zaqseymə ultimatum verdi. Bu şəraitdə 1918-ci il martın 14-də Trabzonda Türkiyə ilə Cənubi Qafqaz arasında sülh konfransı açıldı.[73]

Konfransda Türkiyə nümayəndələri bildirdilər ki, Cənubi Qafqaz öz müstəqilliyini e'lan etmədiyinə görə, Zaqseymin nümayəndə hey'əti danışıqlar aparmaq üçün hüquqi şəxs ola bilməz. Danışıqlar zamanı Axalsıx qəzası və Axalkələk qəzasının bir hissəsinin müsəlman əhalisinin nümayəndələri adından bu qəzaların Türkiyəyə birləşdirilməsini tələb edən sənəd daxil oldu.



Seymdə müşahidələr getdiyi bir vaxtda türklər qətiyyətlə bildirirdilər ki, sülh Brest-Litovsk müqaviləsi əsasında bağlanacaqdır.

1918-ci il 25 mart tarixli iclasda çıxış edən Cənubi Qafqaz nümayəndə hey'ətinin üzvü M.Y.Mehdiyev Türkiyə nümayəndə hey'ətinin təklifinin qəbul olunmasını tələb etdi və əks halda azərbaycanlıların danışıqlarda iştirak etməyəcəyini bildirdi.[74] Lakin X.Xasməmmədov Türkiyəyə güzəştə gedilən ərazilər siyahısından bir rayonun adının çıxarılmasını təklif etdi. O, Bakı neft kəmərinin son məntəqəsi olan Batumun Cənubi Qafqaz tərkibində saxlanmasını Azərbaycan neft sənayesinin mənafeyinə uyğun hesab edirdi.

Danışıqlarda nümayəndə hey'ətinin tərkibinə daxil olan müsavatçılar türkpərəst mövqe tutdular və Türkiyənin ultimatumunu qəbul etməyi tələb etdilər. Əks halda, onlar Cənubi Qafqaz tərkibindən çıxacaqlarını və Azərbaycanın müstəqilliyini e'lan edəcəklərini bildirdilər.[75] Cənubi Qafqazın müsəlman hissəsinin tamamilə Türkiyəyə birləşdirilməsi haqqında "Müsavat" partiyası nümayəndəsinin təklifinə baxmayaraq, Türkiyə nümayəndə hey'ətinin başçısı Rauf bəy və Qafqaz cəbhəsinin komandanı Vahib paşa cavab verdilər ki, "... Türkiyənin böyük siyasəti konfederasiya şəklində özünün müəyyən qədər müstəqilliyini saxlamaqla, Azərbaycanın qalan Zaqafqaziya xalqlarından ayrılmasını və onlarla ümumi dövlət formasını saxlamağı tələb edir".[76]

Trabzon danışıqları zamanı hərbi əməliyyat davam edirdi. Türk qoşunları irəliləyirdilər. Nəhayət, aprelin 10-da Çxenkeli Brest-Litovsk sülhünü sonrakı danışıqların əsası kimi qəbul etdiyi zaman, Batum istisna olmaqla, qalan ərazi türklərin əlinə keçdi və onlar Batumun verilməsini tələb etdilər. Region liderlərinin gizli müşavirəsində bu ultimatumu rədd etmək qərara alındı. Bu qərar Qara dəniz limanının Cənubi Qafqaz və Azərbaycan üçün saxlanmasında israr edən Ş.Rüstəmbəyov tərəfindən müdafiə edildi.

Apreldə antitürk. əhval-ruhiyyə şəraitində Seym toplandı. İclasda çıxış edən A.Sereteli əmin olduğunu bildirdi ki, Zaqafqaziya ordusu uğurla türklərə qarşı dayana biləcəkdir. Öz mövqeyini dəyişən Ş.Rüstəmbəyov indi hərbi əməliyyatların davam etdirilməsinin əleyhinə çıxır və münaqişəni dinc yolla həll etmək üçün bütün vasitələrə əl atmağı təklif edirdi. Seymin qeyri-müsəlman çoxluğu Türkiyəyə müharibə e'lan etməyin lehinə səs verdi.

Hələ 1918-ci il aprelin 4-də Seymin iclasında müsəlman fraksiyasına müraciət edən menşevik fraksiyasının üzvü V.Cuqeli qeyd etdi ki, yalnız rus inqilabi hüdudlarında müsəlmanlar azadlıq əldə edə bilərlər.[77] Bununla da o, müsəlman demokratiyasının tutduğu türkpərəst mövqeyinin təhlükəli olması haqqında fraksiyanın fikrini bir daha vurğuladı. Gürcü menşeviklərinin fikrincə türk qoşunlarının gəlməsini şadlıqla gözləyən "Müsavat" partiyası nümayəndələri daha çox tənqidə tutuldu. Cavab nitqində müsəlman fraksiyasının menşevik üzvü S.Ağamalıoğlu Seym üzvlərini müsəlman demokratiyasını Cənubi Qafqaz demokratiyası sıralarından ayırmamağa çağırdı və qeyd etdi ki, türk qoşunları basqın edərsə, başqa millətlərin demokratiyasının mənafeyindən daha çox, müsəlman demokratiyasının mənafeyi zərər çəkəcəkdir.

Həmin iclasda çıxış edən Müsavat partiyasının nümayəndəsi Ş.Rüstəmbəyov bildirdi ki, "... onun fraksiyası inanır ki, Türkiyə Zaqafqaziya dövlətçiliyini dağıtmaq istəməyəcək və Zaqafqaziya hökumətini tamamilə müdafiə edən müsavatçılar müharibəyə səs verəcək və ona bütün qüvvələrilə kömək göstərəcəkdir".[78] Lakin, türkpərəst mövqeyə münasibətdə müsəlman fraksiyası üzvləri arasında yekdillik yox idi, bundan əlavə hadisələrin sonrakı gedişi göstərdi ki, Azərbaycan hökuməti yaradılarkən türklər müəyyən təzyiq göstərmişdilər.[79] Bu isə, Azərbaycanda demokratik proseslərə təzyiq göstərməkdən başqa bir şey deyildi.

Türkiyə hərbi əməliyyatı davam etdirirdi. 1918-ci il aprelin 14-də türk qoşunları Ərdəhan, Qars və Batumu



tutdular. Bu dövrdə, Bakıdakı mart hadisələri ilə əlaqədar olaraq, Cənubi Qafqazda siyasi vəziyyət son dərəcə gərginləşdi.

## § 4. *1918-ci ilin yazı: Azərbaycan xalqının soyqırımı. Zaqafqaziya Respublikasının dağılması*

1918-ci ilin yanvarından martına qədər bolşeviklər və bir sıra erməni milli partiyaların müsəlman qırğını törətmək üçün müxtəlif fitnəkarlığa əl atır, Sovet orqanları Bakının idarəçiliyində həlledici postları ermənilərin ixtiyarına verirdi.

Azərbaycanın qabaqcıl xadimləri gözlənilən təhlükəni irəlicədən duyurdular. Birinci dünya müharibəsinin sonlarında Qafqazın xristian əhalisi məqsədyönlü şəkildə silahlandırılırdı. Mart qırğınları ərəfəsində Rus Milli Şurasının Cənubi Qafqaz xristian əhalisinə müraciəti e'lan edildi. Müraciət mart ayının 11-dən 18-nə qədər 19-25 yaşlı bütün rus gənclərinin hərbi səfərbərliyə alındığı bildirilirdi. Hərbi səfərbərlik mart ayının 31-də başa çatmalı idi.[80] Qafqaz cəbhəsinin ləğv olunması nəticəsində vətənə qayıdan rus alayları silah və sursatları dəyər-dəyməzinə ruslara (molakanlara), xüsusilə ermənilərə satırdılar. Vətəndə əsgərləri yaxşı bir şey gözləmədiyindən onlar çox vaxt bir qarın çörəyə Bakıda qalmağı üstün tuturdular. Sonralar S.Şaumyan və kompaniyası bu qüvvələrdən çox məharətlə müsəlman əhalisinə qarşı istifadə etdilər. Bakıda erməni və rus siyasi qüvvələrinin silahlandığını görən yerli əhali 1918-ci ilin fevralından şəhərdən çıxırdılar. Mart qətllərindən hələ bir həftə əvvəl, Daşnaksütyun partiyası, Bakıda vəziyyətdən "narahat" olaraq, hakimiyyəti ələ almağın zəruriliyini bildirmişdi. Bu təhlükəni hiss etdiyindən, Müsəlman cəmiyyətləri özünümüdafiə qüvvələrinin yaradılmasını zəruri hesab edirdilər. Onların təşəbbüsü ilə

Gəncədə, Bakıda, Lənkəranda müsəlman hərbi hissələrinin yaradılmasına, Bakı kadet məktəbində müsəlman zabitlərinin hazırlanması işinə başlandı. Lakin bütün bu işlər çox ləng gedirdi. O biri tərəfdən, Qafqazın xristian əhalisinin silahlanmasında Antanta ölkələri də maraqlı idi. İngilislər Mesopotomiyadan gələnə qədər Qafqazda türk ordusunun dayandırılmasında yerli xristianlara böyük ümid bəslənilirdi. Rus imperatorluğu dağılandan sonra erməni siyasətçiləri ingilispərəst təbliğat apardıqları üçün müsəlman qəzaları fevral ayının axırlarında Zaqafqaziya Seyminə ingilis ordusunun Qafqaza müdaxiləsinin əleyhinə olduğunu bildirir və tələb edirdilər ki, ingilis nümayəndələri ilə danışıqlar kəsilsin.[81]

Lakin, nə qədər ki, Antanta qüvvələri uzaqda idi, ermənilər öz məqsədlərinə bolşeviklərin əli ilə nail olmaq istəyirdilər. Onların belə dəyişkən mövqeyi haqqında N.Nərimanov yazırdı ki, "Böyük Ermənistan" xülyalarını həyata keçirmək üçün daşnaklar hər cür maska geyməyə, hər sifətə girməyə hazırdırlar. N.Qolitsın dövründə onlar özlərini inqilabi partiya hesab edirdilər, sonra V.Vorontsov-Daşkovun ayaqlarını öpüb qatı əksinqilab cəbhəsinə keçdilər, indi Qafqazda Sovet hakimiyyəti qurulsa, daşnaklar o dəqiqə maskalarını dəyişib, bu dəfə kommunist maskası geyəcəklər.[82]

Uzun müddət bolşevik adı altında maskalanan və 20-ci illərdə Sovetləşmə adı altında Azərbaycanda türk əhalisinə qarşı "proletariat diktatura"sının ən qatı terroruna fitva verən L.Mirzoyan sonralar yazırdı: bir çox yoldaşlar, səhv olaraq, belə fikirləşirlər ki, guya 1918-ci ildə Bakıda Sovet hakimiyyəti daşnaklara söykənib. Bu, səhvdir. Əslində, Sovet hakimiyyəti daşnaklardan öz məqsədləri üçün istifadə edib. Belə "səhvlərə" tez-tez S.Şaumyanın da yazılarında rast gəlmək mümkündür.

Azərbaycanda milli hərəkatın genişlənməsi, milli azadlıq partiyası olan "Müsavat"ın nüfuzunun artması, "Böyük Ermənistan" yolunda ciddi maneəyə çevrilə



bilərdi. Mart qırğınını törətməklə, daşnaklar, "Müsavat"ın sosial bazasını, yə'ni şəhərin müsəlman əhalisini məhv etməyi planlaşdırmışdılar. Bu məqsədlə təxminən 7 min erməni əsgəri müxtəlif cəbhələrdən Bakıya gətirilmişdi. Bundan əlavə, "Qırmızı qvardiya" adı ilə yaradılan 10-12 minlik ordunun da 70 faizi ermənilər idi.[83] Əsasən ruslardan ibarət olan Xəzər donanması içərisində xüsusi təbliğat işi aparılmışdı. Bunlardan əlavə, Şamaxı və Muğanda ehtiyat rus-molokan silahlı dəstələri də yaradılmışdı. Bu hadisələrin fəal iştirakçısı olan "bolşevik" N.Əsiryants sonralar öz xatirələrində yazırdı: "1918-ci ilin fevralında T.Əmirov bizi yığıb bildirdi ki, S.Şaumyan və A.Caparidzenin tapşırıqlarını yerinə yetirməliyik. S.Şaumyan əvvəlcədən bizə xəbər vermişdi ki, gecə saat 1-də siqnal olacaq, bu xəbərdaredici siqnaldan sonra biz hücum edib "Müsavat"ın qərargahını tutmalı idik və belə də oldu".[84]

Lakin bütün bunları başlamaq üçün bəhanə lazım idi. "Evelina" münaqişəsi həmin bəhanə rolunu yerinə yetirdi. Azərbaycan milyonçusu H.Z.Tağıyevin Lənkəranda xidmət edən oğlu Məhəmməd Tağıyev təsadüfən öz əlində açılan atəş nəticəsində həlak olduğundan müsəlman alayının zabitləri onun dəfnində iştirak etmək üçün Bakıya gəlmişdilər. Dəfn mərasimindən sonra zabitlər "Evelina" gəmisi ilə Lənkərana qayıtmalı idilər. Əlverişli məqamın yetişdiyini görən ermənilər gizli şəkildə Rus Milli Şurası, Xəzər matrosları, eser və menşevik partiyaları arasında belə şayiə yaydılar ki, guya "Evelina" ilə gedən zabitlər tapşırıq almışlar ki, Lənkəranda olan müsəlman hərbi dəstələri ilə birlikdə Muğandakı rus-molokan kəndlərini məhv etsinlər.[85] Bu təxribat öz nəticəsini verdi, Bakıda olan bütün qeyri-azərbaycanlı siyasi və hərbi qüvvələr "Evelina" gəmisinin tərksilah edilməsinə tərəfdar oldu. Tə'cili şəkildə martın 30-da Bakı şəhəri və onun rayonlarının İnqilabi Müdafiə Komitəsi yaradıldı. Komitəyə S.Şaumyan, A.Caparidze, Q.Korqanov, İ.Suxartsev, S.Saakyan,

M.Yolçiyan, N.Nərimanov daxil edildi.[86] İnqilabi Komitənin təşəbbüsü ilə "Evelina" komitəsinin Lənkərana yola düşməsi dayandırıldı və gəmidəki zabitlər tərksilah edildi. Müsəlman əhalisi məscidlərə toplanaraq silahların qaytarılmasını tələb etdilər. Vəziyyətin çox ciddi xarakter aldığını görən milli türk təşkilatının nümayəndələri inqilabi komitəyə gəlib alınmış silahları "Hümmət" müsəlman bolşevik komitəsi vasitəsilə qaytarmağa cəhd göstərdilər. Martın 30-da N.Nərimanovun evində S.Şaumyanla keçirilən görüşdə və həmin gün İnqilabi Müdafiə Komitəsində M.Rəsulzadənin keçirdiyi görüşdə müəyyən razılıqlar əldə edilsə də, silahları qaytarmağa söz verilsə də erməni-bolşevik koalisiyası buna əməl etmədi, çünki "Hümmət"ə o qədər də e'tibar etmirdilər, onlar N.Nərimanovun çoxluğu öz ətrafmda birləşib "sağa meyl etməsindən" narazı idilər.[87] Beləliklə, əvvəlcədən sövdələşmə əsasında bolşevik-erməni koalisiyası, S.Şaumyanın dediyi kimi, həlledici döyüşlərə "hər cür hazırlıq görmüşdü və dərhal bütün cəbhə boyu hücuma başladı." Martın 30-da axşam saat 5 00-da Bakıda ilk atəşlər açıldı. Mart qırğını başlanana qədər aldadıcı şəkildə özlərinin bitərəfliyini e'lan etmiş "Daşnaksütyun" və Erməni Milli Şurası ilk atəşdən sonra Bakı Sovetini müdafiə etdilər. Nəinki silahlı erməni əsgərləri, habelə Bakıdakı erməni ziyalıları da Sovet tərəfindən döyüşlərdə iştirak edirdilər. Bu hadisə ilə bağlı M.Rəsulzadə yazır: "Milli türk təşkilatının əzmkar müdaxiləsi ilə hadisə az bir zərərlə yatışdırılmaq üzrə ikən sayğısız bir taqım cəhlənin qərəzkar müftənlərə alət olması ilə fitnə təkrar olunmuş, zatən günlərdən bəri qətala hazırlanmış bulunan bolşevik erməni qüvveyi-müsəlləhəsi müharibə bir vəziyyət olaraq şəhərin müsəlman məhəlləsini bombardman etməyə başlamışdır."[88] Tarixə qanlı facıə kimi daxil olan mart qətlləri üç gün davam etdi.

İlk atəşdən sonra şəhər silahlı dəstələrlə doldurulmuşdu. Ermənilər cənub hissədə səngərlər qazıb, torpaq və daşlardan sədlər ucaltmağa başlamışdılar. Martın



30-da Erməni Milli Şurasının və "Daşnaksütyun" rəhbərlərinin Müsəlman Cəmiyyətləri ilə danışıqları, az sonra mə'lum oldu ki, təxribat xarakteri daşıyırmış. Belə təhlükəli məqamda Bakı menşeviklərinin lideri Ayollo e'lan etdi ki, onlar Soveti müdafiə edəcəklər. Eserlərin başçısı S.Saakyan panislamizmə qarşı vuruşacaqlarını bildirdi. Hətta bolşeviklərə dərin nifrət bəsləyən kadetlər belə, "rus işi" uğrunda mübarizə aparan bolşevikləri müdafiə edəcəklərinə söz verdilər. Uzun müddət menşeviklərə qarşı mübarizə aparan bolşeviklərin mart günlərində menşevik və eserlərlə, hətta kadet və daşnaklarla birləşməsi dini və milli zəmində baş verdi. Lakin, əsas rəhbərləri ermənilər olan bolşevik və daşnaklardan başqa heç kim hadisələrin belə qanlı xarakter alacağını gözləmirdi. Onlar müsavatçılara qarşı öz yardımını təklif etmişdilər, həqiqətdə isə, birləşmiş qüvvələrdən şəhərin bütün müsəlman əhalisini məhv etmək üçün istifadə edildi. Martın 30-da axşam tə'cili şəkildə Bakı Soveti hərbi dəstələrinin başçılarının iclası keçirildi. Döyüşə başlamaq haqqında qərar qəbul edildi və Erməni Milli Şurasına, daşnak liderlərinə müraciət edildi ki, öz hərbi dəstələrini fəaliyyətə gətirsinlər. Tə'cili şəkildə "Kazino" mehmanxanasında toplanış-tə'lim qərargahı açıldı. Bu işin təşkili A.Mikoyan və N.Anançenkoya tapşırıldı. Müsəlman silahlı dəstələrinin toplandığı yerə qəfil hücumlar onların məğlubiyyəti ilə başa çatdı. Xəzər donanması gəmilərindən müsəlman məhəllələrinin atəşə tutlması şəhərdə vahiməli vəziyyət yaratdı. Hərbi gəmilərə xüsusi təbliğatçılar göndərilmişdi. Gəmi hey'ətlərinin çoxu nə ermənilərin, nə də bolşeviklərin tə'siri altında olmadığından martın 30-da onlara bildirildi ki, guya müsəlmanlar şəhərdə rus əhalisini qırır. Bir neçə saatlıq bombardmandan sonra rus matrosları bunun təxribat olduğunu, "Müsavat" adı altında bütün müsəlman əhalisinin öldürüldüyünü bildikdə atəşi dayandırdılar. Eynilə, həmin təxribatla aldadılaraq, Muğandan xeyli rus-molokan hərbi dəstələri də şəhərə

gətirilmişdi. Şəhərdə ayrı vəziyyətin şahidi olub döyüşdən imtina etdikləri üçün Sovet və erməni qoşunları onları tərksilah etdilər. Molokanlardan alınan silahlar növbə gözləyən erməni "könüllülərinə" paylandı. Vəziyyəti belə görən "Müsavat" liderləri daha çox hisslərin tə'siri altında hərəkət edən məhəllə "qoçularından" fərqli olaraq, əhalini xilas etmək üçün İnqilabi Müdafiə Komitəsinin ultimatumunu qəbul etdilər. M.Rəsulzadə qeyd edir ki, Mart hadisələrindəki müvəffəqiyyətsizliyin ən böyük səbəbi... camaatımızın başsızlığı, o vaxta qədər bildiyi camaat xadimlərinə və siyasi firqə rəislərinə deyil, qeyri-məs'ul adamlara, əqlindən ziyadə hissiyyatına tabe şəxslərə uyduğu olmuşdur". Martın 31-də danışıqlar aparmaq üçün müsəlman nümayəndələri Sovetin İcraiyyə Komitəsinə gəldilər. İnqilabi Komitənin ultimatumunun qəbul edilməsinə baxmayaraq, İcraiyyə Komitəsində A.Caparidze ilə aparılan danışıqlar heç bir nəticə vermədi və danışıqlardan qayıdarkən müsəlman hey'ətindən üç nəfər yolda güllələndi...[89]

Martın 31-i səhərə yaxın bütün erməni hərbi dəstələrinin başçıları və silaha sarılan erməni ziyalıları İnqilabi Komitənin qərargahına gəldilər. Qısa tə'limatdan sonra bu dəstələr müsəlman məhəllələrinə göndərildi. Sənəddə göstərilir ki, "Yaxşı silahlanmış və tə'lim görmüş erməni əsgərləri... müsəlmanların evlərinə soxulur, sakinləri öldürür, onları xəncər və süngü ilə doğrayır, uşaqları yanan evlərin içinə atır, üç-dörd günlük uşaqları süngülərin ucuna keçirirmişlər". Müsəlman qadınlarını daha ağır formada qətl edirdilər. Arxiv fondlarındakı sənədlər təsdiq edir ki, şəhərin təkcə bir yerindən qulaqları, burunları kəsilmiş, qarınları yırtılmış, cinsi orqanları doğranmış 57 müsəlman qadınının meyidi tapılmışdır. Çoxlu gənc qadınları diri-diri divara mıxlamışlar. Qaçıb canını qurtarmağa çalışan əhalini gülləyə tutmaq üçün əvvəlcədən şəhərin müvafiq yerlərində pulemyotçular qoyulmuşdu.[90] Qərargahı komissar Martıkyanın evində yerləşən, N.Anançenkonun



başçılıq etdiyi "bolşevik dəstəsi" Marinski, Bazarnı, Nikolayevski küçələrində, "Metropol" mehmanxanası və "Kaspi" qəzeti redaksiyasında yerləşdirilmişdi. Bunlar həm liman tərəfə qaçanları, həm də İçəri şəhərdən çıxmaq istəyənləri məhv edirdilər. Digər müsəlman məhəllələri məhv edildikdən sonra, martın 31-də axşamüstü İçəri Şəhər əməliyyatına başlanıldı. Qalanın alınması əməliyyatında N.Anançenko başda olmaqla, gənc Suren Şaumyan, Ovçiyan, Qalstyan, Sarkis, Qaber-Kori, Artak, Manuçarov, Akopov və başqa "qırmızı qvardiyaçılar" fəal iştirak etdilər. Müsəlman meyitlərinin yandırılması və iyrənc formada təhqir edilməsinin erməni ziyalıları və kilsə xadimləri tərəfindən törədildiyini təsdiq edən onlarca sənəd mövcuddur. Fövqəl'adə istintaq komissiyası sədrinin Ədliyyə Nazirliyinə təqdim etdiyi mə'ruzəsində göstərilir: "Nikolay küçəsilə hücuma keçmiş erməni əsgərlərinə başlıca olaraq erməni ziyalılarının nümayəndələri rəhbərlik ediblər. Belə dəstələrdən biri evə girib səkkiz qadın və uşağı güllələmişdir. Başqa dəstə Fars küçəsində Bala Əhməd Muxtarovun evinə girərək, doqquz ziyalı müsəlmanı küçəyə çıxarmış və kilsə meydanında güllələmişlər, meyitlərin ikisini "Dağıstan" mehmanxanasının alovu içinə atmışlar".[91]

Beləliklə, üç günün (18-21 mart) 30 mart - 1 aprel qətl və qarətlərindən sonra Fövqəl'adə istintaq Komissiyasının ümumiləşdirdiyi hesabatına görə Bakıda əksinqilabçı adı ilə 12 min türk-müsəlman əhalisi qətlə yetirildi.[92] Mart qırğınından sonra şəhərdəki vəziyyəti təsvir edərək menşevik qəzeti "Naş qolos" yazırdı: "Hər yerdə meyitlər, qıc olmuş, eybəcər hala salınmışdı. Təzə Pir məscidinin yanında ağır mənzərə var. Məscid atəşdən zərər çəkmişdir. Ziyarətgahın təhqiri geniş kütlələrin qəlbini ağrıdır, meyitlər onları daha çox həyəcanlandırır... Nifrət və təhqir zəhərinin necə dərinliyə işlədiyi hiss olunur. Bu düşmənçiliyi aradan qaldırmaq, bu nifrətin qəzəbli intiqam hissinə çevrilməsinin qarşısını almaq üçün çox iş görmək lazım gələcəkdir."[93] Martın 31-də

müxtəlif bəhanələrlə danışıqları pozan İnqilabi Müdafiə Komitəsi aprelin 1-də artıq məsələni həll edilmiş görüb yenidən ultimatumla çıxış etdi. Ultimatumda göstərilirdi ki, İMK-nın tələbləri gündüz saat 3-ə kimi qəbul edilməsə, onlar müharibəni davam etdirəcəklər. Saat 4-də Azərbaycan partiya və cəmiyyətlərinin nümayəndələri A.Aşurov, Ə.Topçubaşov, Molla Hacı Mir Möhsün, Hacı Hüseyn Tağıyev, Əbdül Kazımzadə danışıqlar aparmaq üçün "Astara" mehmanxanasına getdilər. Bir saat sonra A.Caparidzenin açdığı "sülh konfransında" Fioletov, Dudin, Suxartsev, Erməni Milli Şurası tərəfindən L.Atabəyov, Ter-Mikaelyan və İranın Bakıdakı konsulu Həbibulla xan iştirak edirdi. İclasa sədrlik edən Caparidzenin e'lan etdiyi ultimatum bütövlükdə "Müsavat" partiyasına qarşı yönəlmişdi. Ə.Kazımzadə baş vermiş hadisələrdə "Müsavat"ın günahlandırılmasına öz e'tirazını bildirdi və qeyd etdi ki, törədilən faciə üçün sovet qoşunları və daşnak hərbi hissələri məs'uliyyət daşıyır. Uzun sürən mübahisələrdən sonra axşam saat 9-da İMK-nın ultimatumu qəbul edildi. Orada göstərilirdi: 1. Bakı fəhlə, əsgər və matros deputatları Sovetinin hakimiyyəti qəbul edilir; 2. Əksinqilabi "vəhşi diviziya" Bakı və onun rayonlarından çıxarılır, yerdə qalan başqa müsəlman əsgəri hissələri, habelə erməni milli qoşun hissələri ya Bakıdan çıxarılır, ya da tamamilə fəhlə, əsgər və matros deputatları sovetinə tabe edilir, əhalinin bütün silahlanma işi Bakı Sovetinin nəzarətinə verilir; 3. Bakıdan Tiflisə və Petrovska dəmir yolunun açılması üçün tə'cili tədbirlər görülür.[94] Atəşin kəsilməsi haqqında sazişin bağlanmasına baxmayaraq erməni və Sovet hərbi dəstələrinin hücumları aprel ayının 2-i axşama qədər davam etdi. Şiddətli külək əsdiyindən tüstüsü ərşə qalxan "İsmailiyyə"dəki yanğını söndürməyə gələn müsəlman əhalisi sazişdən sonra yenidən atəşə tutuldu. Bütün bunlardan sonra sağ qalan türk əhalisi kütləvi surətdə şəhəri tərk etməyə başladı. Aprelin 2-də Caparidze S.Şaumyana yazırdı ki, Daşkənddən və Şimaldan bizə



kömək gəlir, artıq indi müsəlmanları sakitləşdirmək üçün onlara muxtariyyət və'd etmək olar. Üç gündən artıq davam edən faciəli hadisələrə inqilabi don geyindirmək üçün M.Əzizbəyov şəhərin onsuz da boş qalmış müsəlman hissəsinin komissarı tə'yin edildi. O, müsəlman əhalisinin şəhərdən çıxmasını və yerdəyişməsini qadağan etsə də, bunun elə bir əhəmiyyəti olmadı.[95] Azərbaycan xalqının ağır məğlubiyyətindən sonra imzalanmış saziş haqqında Bakı Sovetinin yığıncağına mə'lumat verən İ.Suxartsev böyük sevinc içərisində e'lan etdi ki, "Müsavat" firqəsi darmadağın edildi və "Türkiyənin Bakı cəbhəsi alındı".[96] Mart qətliamından sonra müxtəlif koalisiyalarda olmasına baxmayaraq 1918-ci ilin sentyabrına qədər Bakı ermənilərin əlinə keçdi. İmkansızlıq ucbatından şəhəri tərk edə bilməyənlər və ətraf kəndlərin əhalisi bu dövr ərzində ermənilərin terroruna mə'ruz qaldı.

Bakıda törədilən türk-müsəlman soyqırımının saxtalaşdırılmasına, ona "vətəndaş müharibəsi" donu geyindirilməsinə, qətl edilənlərin sayının azaldılmasına ilk cəhdi bu hadisələri törədən S.Şaumyan edib. Aprel ayının 13-də Moskvaya - XKS-yə göndərdiyi hesabatda o yazırdı: "Üç gün - martın 30, 31 və aprelin 1-də Bakı şəhərində şiddətli vuruşma olmuşdur. Bir tərəfdən Sovet Qırmızı Qvardiyası, bizim təşkil etdiyimiz beynəlmiləl Qızıl ordu, Qırmızı donanma və erməni milli hissələri, o biri tərəfdən "Müsavat" partiyasının başçılıq etdiyi... müsəlman "dikaya diviziya"sı və silahlı müsəlman quldur dəstələri vuruşdular... Bizə aviasiya məktəbinin hidroaeroplanları da kömək edirdi... Biz döyüşlərdə parlaq nəticələr əldə etmişik. Düşmən tamamilə darmadağın edilmişdir... Hər iki tərəfdən öldürülən üç mindən artıqdır... Onlar Bakıda üstün gəlsəydilər, şəhər Azərbaycanın paytaxtı e'lan edilərdi, bütün qeyri-müsəlman ünsürləri tərksilah edib qırardılar".[97] M.Rəsulzadə qeyd edirdi ki, qurban getmiş müsəlmanlarm sayı təqribn 10 min nəfərə çatmışdı, onların içində minlərlə qadın, uşaq və qoca var idi.[98]

Mart soyqırımından bir il sonra ermənilər bu hadisəni bolşeviklərlə müsəlmanlar arasında baş vermiş hakimiyyət mübarizəsi kimi təqdim etməyə başladılar. 1919-cu ilin payızında Bakıya gəlmiş ABŞ missiyasının başçısı general Harborda təqdim etdiyi sənəddə Bakıdakı erməni yepiskopu Baqrat ermənilərin mart hadisələrində iştirakını inkar edirdi. S.Şaumyandan da irəli gedərək o, Bakıda həmin hadisələr vaxtı 1000 nəfərin - 300 nəfər erməni və rus, 700 nəfər müsəlmanın öldürüldüyünü iddia edirdi.[99]

Mə'lum olduğu kimi, türk-müsəlman soyqırımı təkcə Bakı ilə məhdudlaşmadı. Aprel ayının ilk günlərindən e'tibarən Bakıda törədilmiş cinayətlər eyni ilə Bakıya yaxın olan Şamaxıda, Quba-Xaçmazda, Lənkəranda, Hacıqabul və Salyanda törədildi. Azərbaycanın qəzalarına Sovet qoşunları adı altında göndərilən cəza dəstələrinə erməni "sərkərdələri" T.Əmiryan, S.Lalayan, Amazasp rəhbərlik edirdilər. Daşnak cəlladlarından ən ağır ziyan çəkən Şamaxı qəzası oldu. Aprel ayının birinci yarısında Şamaxı şəhərinin və onun kəndlərinin müsəlman əhalisi böyük itki verdi, sağ qalanlar isə Şamaxını tərk etdi. Fövqəl'adə istintaq komissiyasının sənədlərində göstərilirdi ki, hələ yanvar ayında Bakıdan Mədrəsəyə 5 araba silah gətirmişdilər. Martın ortalarında isə Bakı Soveti tərəfindən Şamaxıya 2 min erməni, 60 araba silah göndərilmişdi. Yerli ermənilərlə danışıqlardan sonra bir neçə gün sakitlik oldusa da, bu çox çəkmədi. Martın 30-da (Bakıda hadisələr başlanan gün) səhər tezdən Mədrəsə tərəfindən Şamaxı topa tutuldu.[100]

Şamaxıda tam üstünlüyə malik olan ermənilər bu qəzanı azərbaycanlılardan təmizləməyə başladılar. Erməni milli dəstələrinin əməliyyatlarına S.Şaumyanın köməkçiləri və ondan bilavasitə tə'limat alan S.Lalayev başçılıq edirdi. Erməni əsgərlərinin böyük bir dəstəsinin başında Şamaxıya gələn S.Lalayan əmr vermişdi ki, birinci olaraq, müsəlmanların qocaları, qadınları və uşaqları yerləşdikləri bütün məscidləri mühasirəyə alsınlar, küçəyə çıxanları



güllələsinlər və məscidləri yandırsınlar. Bir neçə gün ərzində Şamaxı şəhərinin bütün müsəlman hissəsi dağıdıldı. Qəzanın müsəlman kəndləri ağır terrora mə'ruz qaldı. Nəticədə mart ayında Şamaxı qəzasının 53 kəndi Bakı Sovetinin erməni qoşunları tərəfindən dağıdıldı. 7 minə qədər adam öldürüldü ki, bunun da 1653 nəfəri qadın, 965 nəfəri uşaq idi. Şamaxıda yerli müsəlman əhalisinə dəyən ziyan o dövrün qiymətləri ilə bir milyard rubldan çox idi.[101]

Qanlı hadisələri yaşamış Şamaxı şəhəri uzun müddət özünə gələ bilmədi. 1918-ci ildə 15 min əhalisi (80 faizdən çoxu türk idi) olan Şamaxıda 1921-ci ildə vur-tut 1700 nəfər yaşayırdı.[102] Quba qəzasında cəza dəstəsinə S.Şaumyandan xüsusi səlahiyyəti olan Amazasp rəhbərlik edirdi. Aprel ayında qəzanın 122 müsəlman kəndi dağıdılmış, yüzlərlə türk və ləzgi əhalisi məhv edilmişdi.[103] Göyçay, Kürdəmir, Salyan və Lənkəran da erməni cəza dəstələrindən ziyan çəkmişdi. 2 min nəfərlik erməni qoşununun Lənkəranda həyasızlığı o dərəcəyə çatmışdı ki, bölgədə olan gürcü silahlı dəstələri onların soyğunçuluğunun qarşısını almışdı.

Sənədlər təsdiq edir ki, Bakıda və qəzalarda Azərbaycan əhalsinə qarşı yönəldilmiş soyqırımı siyasətində erməni kilsəsi fəal iştirak etmişdir.

Azərbaycanda mart-aprel aylarında kütləvi qırğınlar törətməklə Bakı quberniyasında qələbə çaldıqdan sonra məqsəd Gəncəyə hücum edib bütün Azərbaycanı işğal etmək idi. Bakı, Şamaxı, Kürdəmir, Salyan, Quba, Lənkəran şəhərləri tutulduqdan sonra silahlı yadellilərin hədəfi Yelisavetpol idi. Onlar bu dəfə Qarabağ erməniləri ilə sövdələşərək qüvvələrini birləşdirib Yelisavetpola hücum etməyə hazırlaşırdılar. Bunu S.Şaumyan may ayında Xalq Komissarları Sovetinə mə'lumatında e'tiraf edirdi. Onun fikrincə, Sovet qoşunlarını Yevlax körpüsünü ələ keçirib Kür boyunda müdafiə xətti tutduqdan sonra tez Yelisavetpola yeritmək lazımdır ki, orada, sonra isə başqa yerlərdə ermənilər üsyan etsinlər".

Lakin 1918-ci ilin mayında Azərbaycan Xalq Cümhuriyyətinin yaranması milli dövlətçiliyin bərpası, Azərbaycanın ərazi bütövlüyü uğrunda ölüm-dirim mübarizəsinin başlanması yadelli düşmənlərin bu planlarını pozdu. Bakı hadisələri ilə əlaqədar olaraq, müsəlman fraksiyası Zaqafqaziya Seymindən Bakıya müsəlman əhalisini müdafiə etmək üçün qoşun göndərməyi tələb etdi. 1918-ci il aprelin 3-də Zaqafqaziya Seyminin Bakı hadisələrinə həsr olunmuş iclasında Fətəlixan Xoyski bildirdi ki, "... müsəlman əhalini müdafiə etmək üçün tədbirlər görülməsə, müsəlman nazirlər hökumətin tərkibindən çıxacaqlar".[104]

1918-ci il aprelin 7-də Zaqafqaziya Seyminin iclasında müsəlman nazirlərin hökumətin tərkibindən çıxması haqqında bəyanatı ilə əlaqədar olaraq, Fətəli xan Xoyski bildirdi ki, "... müsəlman fraksiyası belə hesab edir ki, yaranmış şəraitdə, xüsusilə Bakı hadisələrilə əlaqədar, müsəlman nazirlər Bakının müsəlman əhalisini qorumaq üçün hökumətdən heç bir şey əldə edə bilmirlər və bu, onların qərar qəbul etmək üçün əsasını gücləndirir".[105]

1918-ci il aprelin 17-də Fətəlixan Xoyski Zaqafqaziya hökuməti qarşısında mə'ruzə ilə çıxış etdi. Mə'ruzədə deyilirdi: "Bakı hadisələri Yelisavetpol quberniyasının hər yerində müzakirə olunurdu və bütün qətnamələrdə türk qoşunlarının Bakıya buraxılması haqqında maddələr vardır, əgər hökumət Bakı məsələsini ləğv edə bilməsə, onda Yelisavetpol quberniyası müsəlmanlarının bu tələbini dinləməli olacaqdır. Və elə bir an yetişə bilər ki, xalq kütləsi özü hərəkət etməyə başlayır, bu da faciəvi vəziyyət yaradar, çünki Bakı məsələsi Respublikanm olum və ya ölüm məsələsidir".[106]

1918-ci il aprelin 22-də müsəlman fraksiyasının təzyiqi altında Zaqafqaziya Seyminin geniş iclası keçirildi və müstəqil Zaqafqaziya demokratik federativ respublikasının e'lan olunması haqqında qətnamə qəbul edildi. Bu iclasda Y.P.Qeqeçkorinin başçılıq etdiyi Zaqafqaziya



hökuməti iste'fa verdi. Bu, aprelin 20-də Bakı hadisələrilə bağlı məsələnin müzakirəsi zamam yaranmış hökumət böhranının nəticəsi idi. 1918-ci il aprelin 22-də Zaqafqaziya Seymi aşağıdakı tərkibdə yeni Zaqafqaziya hökumətini təsdiq etdi: 1.A.Çxenkeli - baş nazir və xarici işlər naziri; 2.N.Ramişvili - daxili işlər naziri; 3.Z.A.Xatisyan - maliyyə naziri; 4.X.Məlik-Aslanov - yollar naziri; 5.F.Xoyski - ədliyyə naziri; 6.Q.Georqadze - hərbi nazir; 7.N.Xomeriki - kənd təsərrüfatı naziri; 8.N.Usubbəyov - maarif naziri; 9.M.H.Hacınski - ticarət naziri; 10.A.Saakyan - ərzaq naziri; 11.R.Kaçaznuni - ictimai məişət xidməti naziri; 12.A.Erzikyan - əmək naziri və 13.İ.Y.Heydərov - dövlət nəzarəti naziri.[107]

Zaqafqaziya hökumətinin sədri A.İ.Çxenkeli Qafqaz cəbhəsinin komandanı Vahib paşaya teleqram göndərdi. Teleqramda deyilirdi: "Zaqafqaziya artıq müstəqil federativ respublika e'lan edilmiş və bu barədə dövlətlərə mə'lumat verilmişdir, deməli, Osmanlı nümayəndə hey'ətinin 1918-ci il 18 mart tarixli bəyanatının şərti də yerinə yetirilmişdir."[108]

Beləliklə, Zaqafqaziya Seymi diyarın müstəqilliyinin e'lan olunması barədə Türkiyənin Trabzon konfransında Azərbaycan nümayəndə hey'əti tərəfindən müdafiə edilən təklifin həyata keçirildiyini Türkiyəyə bildirdi. Bununla yanaşı, mart hadisələri ilə əlaqədar olaraq, Azərbaycanda vəziyyət pisləşməkdə davam edirdi. Bir sıra şəhərlərdə bolşeviklərə qarşı e'tiraz dalğası baş verdi. Məsələn, 1918-ci il aprelin 15-də Gəncədən Zaqafqaziya Seymi üzvləri Xəlil bəy Xasməmmədov və M.Y.Cəfərovdan "Bakı bolşeviklərinə qarşı cəza tədbirləri görməyən hökumətə (Zaqafqaziya hökumətinə - red.) qarşı müsəlmanlar içərisində təbliğat aparılması haqqında" teleqram alınmışdı.[109]

Yelisavetpol quberniyasında silahlı müdaxilə və Bakı Xalq Komissarları Soveti üzvlərinin həbs edilməsi tələbi ilə kütləvi mitinqlər başlandı.

Hələ 1918-ci il aprelin əvvəllərində knyaz Maqalovun komandanlığı altında Zaqafqaziya Seyminin 2 min nəfərdən çox əsgəri Bakıya hərəkət etdi. Onlarla eyni vaxtda Nəcməddin Qotsinskinin dağlı dəstələri Dağıstandan Bakıya hücuma başladılar. Knyaz Maqalovun dəstələri Hacıqabul stansiyasına, Qotsinskinin dəstələri isə Bakının 10 km-də yerləşən Xırdalana çatdılar.[110]

1918-ci il aprelin 10-da Qotsinskinin dəstələri Bakı Soveti qoşunları tərəfindən məğlub edildi, knyaz Maqalovun dəstələri isə aprelin 20-də Kürdəmirə geri çəkilməyə məcbur oldu.

1918-ci il aprelin 20-də Zaqafqaziya Seymi sədrinin müavini S.O.Tiqranyan Seymin üzvü İ.Heydərovla birlikdə Zaqafqaziya Seyminin tapşırığına əsasən Bakı Soveti ilə danışıqlar aparmaq üçün Bakıya yola düşdülər. Bakıya gələndən dərhal sonra İ.Heydərov bolşeviklər tərəfindən həbs edildi. Bununla əlaqədar olaraq, Zaqafqaziya Seyminin üzvü Camo Hacınski İ.Heydərovun azad edilməsi üçün tə'cili tədbirlər görməyi təklif etdi.[111]

1918-ci il mayın 3-də S.Şaumyanla dilbirliyinə girmiş S.O.Tiqranyan Bakıdan qayıdaraq, Bakıya qarşı yönəldilmiş hərbi əməliyyatların dayandırılması və iğtişaşların dinc yolla həll edilməsi üçün tədbirlər görməyi təklif etdi.[112] Milli Şuranın bütün daxili imkanları tükənmişdi. Milli Şuranın əsas vəzifəsi Osmanlı qoşunlarını çağırmaq idi.[113]

Cənubi Qafqaz regionunun müstəqilliyinin e'lan olunması və türk qoşunlarının sür'ətlə Ermənistana doğru irəliləməsi ilə əlaqədar olaraq, A.İ.Çxenkelinin başçılıq etdiyi Zaqafqaziya Respublikasının hökuməti Trabzon sülh danışıqlarının yenidən başlanması haqqında Türkiyəyə müraciət etdi.[114] Trabzonda danışıqların yenidən başlanması ərəfəsində siyasi vəziyyət son dərəcə mürəkkəb idi.

Cənubi Qafqazda vəziyyət həm də ona görə pisləşirdi ki, müstəqillik e'lan olunduqdan sonra diyarın nə daxili, nə də xarici siyasətində heç bir dəyişiklik olmadı. Siyasi partiyaların nümayəndələri Zaqafqaziya Seymində ümumi



dil tapa bilmirdilər, onların ümumi proqramı yox idi və hər bir fraksiya öz siyasi xəttini həyata keçirməyə çalışırdı.

1918-ci il mayın 11-də Batumda Zaqafqaziya nümayəndə hey'əti ilə Türkiyə arasında danışıqlar davam etdirildi. Zaqafqaziya nümayəndə hey'ətinə hökumətin sədri və xarici işlər naziri A.Çxenkeli başçılıq edirdi. Danışıqlarda Azərbaycan tərəfindən M.Rəsulzadə və M.Hacınski iştirak edirdilər. Türkiyə nümayəndə hey'ətinə ədliyyə naziri Xəlil paşa, Qafqaz cəbhəsi komandanı Vahib paşa və hərbi nazir Ənvər paşa başçılıq edirdilər.

Batum konfransında müşahidəçi kimi general Otto fon Lossovun başçılığı ilə Almaniya nümayəndələri də iştirak edirdilər. Lossov Batumda gürcü nümayəndələri ilə gizli görüşlər keçirmiş və Gürcüstana hərbi və iqtisadi yardımın göstərilməsini və'd etmişdi.[115]

Batum konfransında Zaqafqaziya Seyminin nümayəndə hey'əti Türkiyənin Qars, Ərdəhan və Batum vilayətləri üzərində qəyyumluğunu tamamilə tanımış və bununla da Brest-Litovsk müqaviləsinin qərarlarını təsdiq etmişdi. Bundan əlavə, Türkiyə Axalsıx, Axalkələk, Aleksandropol, Sürməli və Naxçıvan qəzalarının daxil olduğu ərazini də tələb edirdi.[116]

Batum konfransının gedişində general fon Kressin komandanlığı ilə 3 min nəfərlik alman qoşunu Gürcüstanın Poti limanına çıxarıldı. Onlar yalnız Gürcüstanı tutmaq, Azərbaycan və Ermənistanı isə Türkiyəyə saxlamaq niyyətində idilər. Eyni vaxtda hücumu müvəffəqiyyətlə davam etdirən türk qoşunları 1918-ci il mayın 17-də Aleksandropolu ələ keçirdilər və Culfa istiqamətinə çıxdılar. Almaniya və Türkiyə tərəfindən aparılan hərbi əməliyyatlar nəticəsində Batum konfransında gürcülər, azərbaycanlılar və ermənilər Türkiyə ilə müstəqil danışıqlar aparmağa başladılar.

Digər tərəfdən, Batum konfransında Almaniya nümayəndələri ilə separat danışıqların gedişində və general fon Kressin təzyiqi nəticəsində Seymin gürcü fraksiyası Gürcüstanın Zaqafqaziya Federativ Respublikası tərki-

bindən çıxmağı və öz müstəqilliyini e'lan etməyini qərara aldı. Bununla əlaqədar olaraq, 1918-ci il mayın 25-də Zaqafqaziya Seymi müsəlman fraksiyasının iclası keçirildi. İclasda Cənubi Qafqazda siyasi vəziyyətin dəyişməsi ilə əlaqədar olaraq, oxunulmuş rəsmi bəyanatda deyilirdi: "... Zaqafqaziya Seyminin gürcü fraksiyası Batumda gürcü sülh nümayəndə hey'əti üzvlərilə gizli damşıqlar aparır, ayrılmağa və Gürcüstanın müstəqilliyini e'lan etməyə hazırlaşır".[117]

Fətəli xan Xoyskinin sədrliyi ilə 1918-ci il mayın 25-də keçirilən axşam iclasına Zaqafqaziya Seyminin sədri K.Çxeidze və Seymin üzvləri A.Sereteli və Q.Qeqeçkori gözlənilmədən gəldilər. A.Sereteli gürcü fraksiyası adından bəyanat verdi və xüsusi qeyd etdi ki, "... müstəqillik" şüarı ətrafında Zaqafqaziya xalqlarını birləşdirmək mümkün olmadı və Zaqafqaziyanın parçalanması faktı gözümüzün qarşısındadır. Seymin sabahkı iclasında biz Zaqafqaziya Respublikasının parçalanması faktını təsdiq edəcəyik."[118]

Cavab nitqində Fətəli xan Xoyski bildirdi ki, "...gürcü xalqının iradəsi belədirsə bizim ona mane olmağa heç bir hüququmuz yoxdur. Azərbaycan türklərinə isə yeni vəziyyətlə bağlı olaraq müvafiq qərarlar qəbul etməkdən başqa bir şey qalmır."[119]

Gürcüstan nümayəndə hey'əti getdikdən sonra Zaqafqaziya Seyminin müsəlman fraksiyası qətnamə qəbul etdi. Qətnamədə deyilirdi: "... Gürcüstan öz müstəqilliyini e'lan etdiyi halda biz də öz tərəfimizdən Azərbaycanın müstəqilliyini e'lan etməliyik".[120]

1918-ci il mayın 6-da Zaqafqaziya Seyminin son iclası oldu. Gürcü fraksiyası Zaqafqaziya Respublikasının dağılmasının bütün günahını müsəlman fraksiyasının üzərinə qoydu. Gürcülərin fikrincə, müsəlman fraksiyası türkpərəst mövqe tutduğu üçün elə vəziyyət yaranmışdır ki, gürcülər onlarla artıq əməkdaşlıq edə bilməz.[121]

Zaqafqaziya Seyminin üzvü Şəfi bəy Rüstəmbəyov gürcü fraksiyası ünvanına kəskin tənqidlə çıxış etdi. O dedi: "... hesab edirik ki, Zaqafqaziyanın birgə siyasi



mövcudluğunun indiki mürəkkəb və məs'uliyyətli anında ayrılmaq üçün tutarlı və obyektiv əsaslar yoxdur və burada gürcü xalqının nümayəndələri tərəfindən irəli sürülən amillər, fikrimizcə, az inandırıcıdır. Eyni zamanda gürcülər Zaqafqaziya xalqlarının birgə işləməsini qeyri-mümkün hesab edir və siyasi cəhətdən ayrı yaşamağa can atırlarsa, belə halda Seymin mövcudluğu üçün heç bir əsas qalmır".[122] Buna görə də müsəlman fraksiyası belə vəziyyətdə Seymin özünü buraxmasına e'tiraz etmirdi.

Uzun davam edən qarşılıqlı ittihamlardan sonra Zaqafqaziya Seymi Zaqafqaziya Respublikasının parçalanmasını təsbit edən qətnamə qəbul etdi.[123]

Beləliklə, Türkiyənin təzyiqi altında yaradılmış Zaqafqaziya Respublikası daxili ziddiyyətlər nəticəsində parçalandı.

## *§ 5. Bakı kommunarlarının Azərbaycana zidd fəaliyyəti*

Mart hadisələrindən sonra Bakı şəhərində və onun rayonlarında Bakı Sovetinin hakimiyyəti gücləndi. Aprel ayı ərzində Azərbaycanın şərq qəzalarında - aprelin 14-də Lənkəranda, aprelin 21-də Salyanda, aprelin 23-də Qubada və s. - Sovet hakimiyyətinin yaradılması prosesi gedirdi. Bu regionu idarə etmək üçün ali İcraiyyə hakimiyyəti orqanı - Bakı Xalq Komissarları Sovetində kəskin mübarizə başlandı.

1918-ci il aprelin əvvəllərində o dövrdə Bakıda fəaliyyət göstərən bütün partiya komitələri nümayəndələrinin daxil olduğu 308 nəfərdən ibarət Bakı fəhlə, əsgər və matros deputatları Sovetinin köhnə tərkibi hələ qalırdı. Sovetin müxtəlif tərkibli olması bolşevikləri qane edə bilməzdi. Onlar yalnız sol eserlərlə koalisiyaya üstünlük verirdilər. Doğrudur, əvvəlcə başda P.Caparidze olmaqla sağ qanad onlara 1-2 komissar vəzifəsi verməklə sağ eserlər və daşnakları hökumətin tərkibinə salmağı tələb edirdi. Lakin S.Şaumyanın tərəfdarları yalnız sol

eserlərin və "beynəlmiləlçi" daşnakların cəlb olunmasını mümkün hesab edirdilər. Beləliklə, sağ partiyaların hökumətə daxil olmaq hüququ rədd edildi. Ancaq sağları, xüsusilə daşnakları hakimiyyətdən məhrum edən bolşeviklər onları real qüvvədən məhrum etmədilər. Belə ki, erməni milli şurası S.Şaumyanın şəxsi himayəsi altında idi.[124] Əksinqilabın əsas mənbələrindən biri kimi bu şuranı ləğv etmək haqqında müxtəlif partiyaların bolşeviklərin liderinə müraciəti cavabsız qaldı. Bununla yanaşı Xalq Komissarları Soveti digər ictimai və siyasi strukturlarla münasibətdə daha çox qətiyyət göstərirdi. Bolşeviklərin fikrincə mart hadisələri gedişində qorxaqlıq göstərən Bakı hərbi donanmasının MK-i yenidən seçildi.

Növbəti addım mətbuat üzərinə hücum oldu. Demək olar ki, bütün qəzetlər - "Baku", "Kaspi", "Bakineç", "Naş qolos" və s. qəzetlər bağlandı. Bakı qradonaçalnikliyi də ləğv olundu. Eyni zamanda daşnak B.Avakyan şəhərin komendantı tə'yin olundu. Bolşevik hökuməti tərəfindən Şəhər Dumasının buraxılması demokratik orqana qarşı növbəti hücumun təcavüzü idi. Dumanın funksiyaları şəhər təsərrüfatının xüsusi şö'bəsinə təhvil verildi. Fəhlə-kəndli milisi təşkil edildi. Ləğv olunmuş məhkəmə aparatının yerində "xalq məhkəmələri" fəaliyyət göstərməyə başladı. Beləliklə, 1918-ci ilin yazında bolşeviklərin demokratik orqanlara qarşı yürüşü müvəffəqiyyətlə həyata keçirilmiş, bolşevik mənafeyinə uyğun gəlməyən ictimai-siyasi qurumlar ya darmadağın edilmiş, ya da bağlanmışdı. Hakimiyyət uğrunda aparılan yarımillik mübarizə sona yetdi və demokratik təşkilatların qalıqları əsasında XKS yüksəldi.

1918-ci il mayın 1-də Bakı XKS-nin funksiyalarını və fəaliyyət proqramını açıqlayan deklarasiya çap edilmişdi. Həmin sənəddə qeyd edilirdi ki, bu qurum Ümumrusiya hakimiyyət orqanları ilə sıx bağlı olduğundan RSFSR XKS-nin dekret və sərəncamlarını həyata keçirmək niyyətindədir.[125]

Beləliklə, Bakı Xalq Komissarları Soveti faktiki olaraq Sovet Rusiyası hökumətinin yerli orqanı olmuş, bilavasitə



Moskvaya tabe olmuş və bununla da müxtəlif sosial-iqtisadi tədbirlərin görülməsi cəhdləri bütövlükdə rus maraqları ilə diktə olunurdu.

Sovet tarixşünaslığında komissarlar tərəfindən həyata keçirilmiş dekretlər sırasında bankların milliləşdirilməsi haqqında dekretin adı çəkilirdi. Ancaq bankların milliləşdirilməsi keçirilməmişdi, çünki bunu etmək praktiki olaraq qeyri-mümkün idi. Bakıdakı kommersiya banklarının hansıelesa milliləşdirilməsini təsəvvür etmək çətin idi. Ona görə, bankların yalnız müsadirəsi barədə danışmaq lazımdır. Belə ki, 1918-ci il aprelin 29-da Bakı Xalq Komissarları Soveti A.Mikoyana pul və qiymətli şeylərin götürülməsi məqsədilə Rus xarici ticarət bankını ələ almağı tapşırmışdı.[126] Bundan əlavə, Rusiya Dövlət Bankı Bakı şö'bəsinin pul vəsaiti Moskvaya aparılmışdı.[127] Azərbaycan neft sənayesinin milliləşdirilməsi haqqında 1918-ci il 2 aprel tarixli digər dekretinin Azərbaycan iqtisadiyyatına vurduğu ziyanı da xüsusi qeyd etmək lazımdır.

Bu dekretin qəbul edilməsi onunla əlaqədar idi ki, vətəndaş müharibəsi və iqtisadi blokada şəraitində Sovet Rusiyasının Bakı neftinə xüsusi ehtiyacı vardı və Rusiya Bakını öz əlində saxlamağa çalışırdı. RSFSR hökuməti, şəxsən Lenin Bakı XKS-dən neft təchizatını tə'min etməyi tələb edirdilər. Məsələn, mayın 28-də Bakıda V.İ.Leninin "ilk növbədə şübhəsiz neft hasilatını tə'min etmək" haqqında teleqramı alındı.[128] İyunun 5-də Lenin S.Şaumyana "nefti ilk sıraya qoymaq" tapşırığını vermişdi.[129] 2 gün sonra o, yenə də teleqram göndərdi: "Tezliklə Bakıdan neft göndərilməsi üçün tədbirlər görün".[130]

Dekretin həyata keçirilməsi dəhşətli tələsiklik şəraitində baş verirdi və yeganə məqsəd Bakıdan mümkün qədər çox neft daşınması məqsədini güdürdü. Ümumiyyətlə, 408 neft istehsalı müəssisəsi milliləşdirildi və onlar Bakı Xalq Komissarları Sovetinin orqanı olan Xalq Təsərrüfatı Şurasının idarəsinə verildi. Bakı neft

sənayeçiləri və beynəlxalq maliyyə inhisarları bu dekretin həyata keçirilməsinə inadlı müqavimət göstərirdilər. Böyük Britaniya və Fransa hökumətlərinin təşəbbüsü ilə İspaniya, Hollandiya, Norveç, Danimarka, İsveçrə və İranın Moskvadakı diplomatik nümayəndələri neft sənayesinin milliləşdirilməsinə qarşı e'tiraz etdilər, lakin bu e'tiraz "RSFSR hökumətinin daxili işlərinə qarışmaq" kimi rədd edildi.

Bakı neftinin Rusiyaya daşınmasına xidmət edən "Xəzər ticarət donanmasının milliləşdirilməsi haqqında" dekret də neft sənayesinin "milliləşdirilməsi" ilə sıx surətdə bağlı idi. 1918-ci il aprelin 5-də gəmi sahiblərinin e'tirazlarına baxmayaraq bu tədbir də zorakılıqla həyata keçirilməyə başladı. Bütövlükdə 1918-ci ilin aprel-iyul ayları ərzində Bakı Xalq Komissarları Sovetinin qəbul etdiyi tədbirlər nəticəsində Bakıdan Sovet Rusiyasına 1,3 milyon tona yaxın neft və neft məhsulları göndərildi.[131]

İqtisadi proqramın həyata keçirilməsində yeni hökumət yaranmış ərzaq böhranı ilə əlaqədar olaraq ərzaq məsələsinə ciddi diqqət verməyə məcbur oldu. Mə'lum olduğu kimi, əsas ərzaq orqanlarına menşeviklər və eserlər nəzarət edirdilər. Ərzaq məsələsinin həlli bilavasitə kənddəki vəziyyətdən, yə'ni kəndlinin əsas kənd təsərrfatı istehsalçısının kimin tərəfində olmasından asılı idi. Sün'i surətdə yaradılmış çoxsayh qəza kəndli sovetlərinin olması haqqında mə'lumatlar heç də kəndlilərin yeni hakimiyyəti müdafiə etməsi demək deyildi və əslində ərzaq probleminin yaxşılaşdırılmasına kömək etmirdi. 1918-ci ilin may-iyul aylarında bir çox quberniyalarda keçirilmiş kəndli qurultayları kompaniyası da kömək etmədi. Bə'zi quberniyalarda kənd əhalisinin şəhərə yardım etmək zəruriyyətinə inandırmaq mümkün olmadı. Bundan əlavə, Bakı Kommunasının tarixi, Azərbaycan kəndlilərini öz tərəfinə səfərbər etmək üçün bolşeviklərin və onların müttəfiqlərinin bütün sə'ylərinin tam iflasını sübut etdi.



Fəhlə əhalisi içərisində şəraiti də sakit hesab etmək olmaz. Faktlar göstərir ki, artıq 1918-ci il aprelin 18-də Qara şəhərdə ixtisash fəhlələr arasında izahat işlərini gücləndirmək lazım gəlirdi.[132] Sonrakı həftələr çoxminli fəhlə mitinqlərilə müşayiət olunurdu.[133]

Fəhlələrin irəli sürdükləri tələblər kifayət qədər sərt idi: Sovetin yenidən seçilməsi, koalision hökumətin yaradılması, ərzaq məsələsinin tezliklə həll edilməsi, dərin böhrandan çıxmaq. Tələblərin yerinə yetirilmədiyi halda fəhlələr son tədbirə əl atmaqla - Bakıdan çıxmağa qədər sabotajla hökuməti hədələyirdilər. Söhbət ixtisaslı fəhlələrdən getdiyinə görə onların şəhərdən çıxması neftin çıxarılması və daşınması işini dayandıra bilərdi, bu da öz növbəsində Sovet Rusiyası üçün ölümcül zərbə demək idi. Bununla əlaqədar olaraq S.Şaumyan hətta dekret verdi. Dekretə görə, şəhəri tərk etməyin zəruriliyi barədə tibbi arayış təqdim edən adamlardan başqa bütün adamlara şəhərdən çıxmaq qadağan olunurdu.[134] Fəhlə müxalifətini mövcud hakimiyyətə qarşı çıxış edən müxtəlif həmkarlar ittifaqlarının üzvləri müdafiə edirdilər. Sovet hakimiyyətinə müqavimət göstərən ən inadlı əhali qrupu müəllimlərin həmkarlar ittifaqları oldu. 1918-ci ilin may ayında Bakı Sovetinin iclasında çıxış edən maarif komissarı N.Kolesnikova müəllimlərin həmkarlar ittifaqının onun bəyanatına cavab verməməsindən, onların yeni hakimiyyətlə əməkdaşlığa hazır olmamasından şikayətlənirdi. N.Kolesnikovanın şəhərin müəlliflər kollektivilə görüşmək cəhdinə müəllimlər sabotajla və komissarın çağırdığı yığıncağı pozmaqla cavab verdilər.[135]

Beləliklə, yeni hakimiyyət təkcə liberal ünsürləri deyil, həm də orta təbəqəni və mülayim sosialistlərin qalan hissəsini, onların ardınca gedən fəhlələri təcrid edirdi. Sovet hakimiyyətindən üz döndərmiş əhalinin müsəlman hissəsi ilə hökumətin münasibətindən isə danışmağa dəyməz. Tezliklə həm Bakının özündə, həm də bütövlükdə Azərbaycanda vəziyyət bolşeviklərin xeyrinə

olmayan istiqamətdə dəyişildi, bu da nəticədə Bakı Kommunasının süqutuna gətirib çıxardı.

QEYDLƏR

### § 1. Azərbaycan Fevral inqilabından sonra

1. Баку, 1917, 5 марта.
2. Там же, 9 марта.
3. Багирова И.С. Указ. соч., с.304.
4. Баку, 1917, 9 марта.
5. Там же.
7. Там же, 6 марта.
8. Там же.
9. Bu barədə bax: Везиров Х.Г. Деятельность большевиков в Баку по налаживанию издания своих печатных органов в 1917 г. - Труды азербайджанского филиала ИМЭЛ, т.29, Баку, 1972, с.98-117.
10. Бакинский рабочий, 1917, 14 июня.
11. Yenə orada, 28 iyul.
12. Социал-демократ, 1917, 13 июля.
13. Знамя труда, 1917, 18 апреля.
14. ARDA, f.794, s.10, iş 148, v.23.
15. Гуммет, 1917, 6 марта.
16. Каспий, 1917, 6 апреля.
17. Там же, 19 апреля.
18. ARDA, f.970, s.I, iş 18, v.3.
19. Нариманов Н. Статьи и письма. М., 1925, с.17.
20. ARDA, f.970, s.I, iş 18, v.3; Каспий, 1917, 19 апреля.
21. ARDA, f.970, s.I, iş 18, v.3.
22. Баку, 1917, 23 апреля.
23. Там же.
24. Балаев А. Азербайджанское национально-освободительное движение в 1917-1920 гг. Баку, 1990, с.8.
25. Mirzə Bala. Milli Azərbaycan hərəkatı. Bakı, Nicat, 1992, s.56.



26. Программные документы мусульманских политических партий 1917-1920 г. Оксфорд, 1985, с.13-15.
27. Azərbaycan dosyesi, Ankara, 1990, s.67. (türk dilində).
28. ARDA, f.894, s.10, iş 176, v.1-2
29. Yenə orada.
30. Очерки истории Коммунистической партии Азербайджана. Баку, 1985, с.305.
31. Агамалиева Н.А. Комитет бакинских мусульманских общественных организаций в политической системе Азербайджана в 1917 г. В кн: Труды научной конференции, посвященной Дню восстановления Азербайджанской государственности. Баку, Элм, 1991, с.115.
32. Каспий, 1917, 29 июля.
33. Там же, 3 августа.
34. Агамалиева Н.А. Комитет бакинских мусульманских общественных организаций..., с.116.
35. Каспий, 1917, 13, 15 июня.
36. Бакинский рабочий, 1917, 1 сентября.
37. ИБС, 1917, 3 сентября.
38. Там же, 1 августа.
39. Каспий, 1917, 25 октября.
40. Там же.
41. Программные документы мусульманских политических партий.., с.76-77.
42. Там же.

### § 2. Rusiyada Oktyabr çevrilişi və Azərbaycan

43. ИБС, 1917, 31 октября.
44. Там же, 28 октября.
45. ARDSPİHA, f. 276, s.I, iş 172, v.I.
46. ИБС, 1917, 2 ноября.
47. Açıq söz, 1917, 15 noyabr.
48. Бакинский рабочий, 1917, 14 ноября.
49. Açıq söz, 1917, 15 noyabr.

50. Шаумян С. Статьи и речи 1917-1918 гг. Баку, 1929, с.185.
51. Известия революционного комитета общественной безопасности, 1917, 6 ноября.
52. Народная свобода (орган местного комитета партии кадетов), 1917, 20 октября.
53. Знамя труда, 1917, 3 ноября.
54. Попов А.Л. Из истории революции в Восточном Закавказье 1917-1918 гг. Журнал "Пролетарская революция", 1924, N 5, с.108.
55. ИБС, 1918, 3 января.
56. Там же.
57. Попов А.Л. Указ. соч., с.108.
58. Победа Советской власти в Закавказье. Тбилиси, 1971, с.207-208.
59. История Азербайджана. Т.III, ч.I, с.92.
60. Из истории иностранной интервенции и гражданской войны в Азербайджане. Баку, 1957, с.39.
61. Победа Советской власти в Закавказье, с.245.
62. RFDA, f.1810, s.I, iş 235, v.29.
63. Известия Совета рабочих, военных и солдатских депутатов Бакинского района, 1917, 13 апреля.
64. RFDA, f.1810, s.I, iş 235, v.8.
65. Агамалиева Н.А. О выборах в Учредительное собрание по Азербайджану. Известия АН Азербайджана. Серия истории, философии и права. 1990, N 4, с.22.
66. Спирин Л.М. Итоги выборов во Всероссийское Учредительное собрание в 1917 г. Журнал "История СССР", 1988, N 2, с.96.
67. Агамалиева Н.А. О выборах в Учредительное собрание по Азербайджану, с.23.

## § 3. *Zaqafqaziya Seymi tərəfindən diyarın müstəqilliyinin e'lan edilməsi*

68. Жвания Г. Великий Октябрь и победа Советской власти в Грузии. Тбилиси, 1987, С.200.



69. Победа Советской власти в Закавказье, с.206.
70. Адрес-календарь Азербайджанской республики на 1920 г. Баку, 1920, с.3.
71. ARDA, f.894, s.10, iş 148, v.33.
72. Борьба, 1918, 3 марта.
73. Жвания Г. Указ соч. с.207.
74. Документы и материалы по внешней политике Закавказья и Грузии. Тифлис, 1914, с.145.
75. ARDA, f.970, s.I, iş 7, v.4.
76. Yenə orada.
77. ARDSPİHA, f.276, s.3, iş 116, v.7.
78. Yenə orada.
79. Yenə orada, s.8.

## § 4. *Azərbaycanda 1918-ci ilin yazı: Azərbaycan xalqının soyqırımı. Zaqafqaziya Respublikasının dağılması*

80. ARDSPİHA, f.276, s.7, iş 212, v.I.
81. Yenə orada, iş.175, v.I
82. Yenə orada, f.609, s.I, iş 428, v.16.
83. Yenə orada, f.276, s.2, iş 20, v.44.
84. Yenə orada, v.76.
85. Yenə orada, iş 22, v.74.
86. ИБС, 1918, 11 апреля.
87. ARDSPİHA, f.276, s.2, iş 20, v.47.
88. Yeni Qafqaziya, 1924, 31 mart.
89. ARDSPİHA, f.276, s.2, iş 20, v.69.
90. Yenə orada, iş 22, s.75-77.
91. Azərbaycan, 1992, 17 oktyabr.
92. Azərbaycan Demokratik Respublikası (tarix, ictimai-siyasi və mədəni həyat). Bakı, 1992, s.173.
93. Наш голос, 1918, 24 марта.
94. Бюллетень КРО г.Баку и его районов, 1918, 4 апреля.
95. Там же, 7 апреля.
96. Yeni Qafqaziya, 1924, 31 mart.

97. Шаумян С.Г. Избранные произведения, изд.2, Баку, 1978.
98. ARDA, f.894, s.10, iş 148, v.30.
99. ARDSPİHA, f.276, s.9, iş 3, v.25.
100. ARDA, f.1061, s.I, iş 105, v.12-17.
101. Yenə orada, iş 108, v.7.
102. Новый Восток, 1922, N 3, с.184.
103. ARDA, f.1061, s.I, iş 95, v.5-8.
104. Yenə orada, f.894, s.10, iş 144, v.14.
105. Yenə orada.
106. Azərbaycan dosyesi. Ankara, 1980, s.82 (türk dilində).
107. Документы и материалы по внешней политике Закавказья, с.224.
108. ARDA, f.894, s.10, iş 147, v.7.
109. Yenə orada, iş 144, v.11.
110. Токаржевский Е.А. Бакинские большевики-организаторы борьбы против турецко-германских и английских интервентов в Азербайджане в 1918 г. Баку, 1949, с.85.
111. ARDA, f.894, s.10, iş 144, v.9.
112. Yenə orada, v.10.
113. Rəsulzadə M. Azərbaycan Cümhuriyyəti. Bakı, 1990, s.39.
114. Азербайджан, 1918, 13 ноября.
115. Azərbaycan dosyesi, s.84.
116. Yenə orada, s.39.
117. Азербайджан, 1919, 28 мая.
118. Там же.
119. Адрес-календарь, с.13.
120. Агамалиева Н., Худиев Р. Азербайджанская Республика, Страницы политической истории. Баку, Сабах, 1994, с.16.
121. Азербайджан, 1919, 28 июня.
122. ARDSPİHA, f.276, s.3, iş 177, v.19.
123. Агамалиева Н., Худиев Р. Указ. соч., с.17.



### *§ 5. Bakı kommunarlarının Azərbaycana zidd fəaliyyəti*

124. Социал-демократ (Тбилиси), 1918, 8 июля.
125. ИБС, 1918, 25 апреля.
126. Большевики в борьбе за победу социалистической революции в Азербайджане, с.382-383.
127. Керимов А., Ибрагимов З. Генезис денежно-кредитной системы Азербайджана. Баку, 1997, с.11.
128. Бакинский рабочий, 1918, 25 мая.
129. Ленинский сборник, XXI, с.177.
130. Вестник Бакинского Совнаркома, 1918, 1-2.
131. История Азербайджана, т.III, ч.I, с.112-113.
132. Дубнер А. Бакинский пролетариат в годы революции (1917-1920 гг.). Баку, 1931, с.65.
133. ИБС, 1918, 13 мая.
134. Социал-демократ, 1918, 8 июля.
135. Бакинский рабочий, 1918, 25 мая.

# İKİNCİ FƏSİL

## AZƏRBAYCAN XALQ CÜMHURİYYƏTİNİN E'LAN EDİLMƏSİ

### *§ 1. Birinci dünya müharibəsinin başa çatması dövründə böyük dövlətlərin Azərbaycan uğrunda mübarizəsi*

Müstəqil Azərbaycan dövlətinin yaranması Zaqafqaziya Federativ Respublikasının parçalanması şəraitində baş vermişdir.

1918-ci il may ayının 27-də artıq keçmiş Zaqafqaziya Seyminin müsəlman fraksiyası yaranmış siyasi vəziyyəti müzakirə etmək üçün Fövqəl'adə iclas çağırdı. Uzun sürən müzakirələrdən sonra Müvəqqəti Milli Şura yaratmaq qərara alındı. Müvəqqəti Milli Şuranın sədri vəzifəsinə M.Rəsulzadə ("Müsavat" partiyasının MK sədri), İcra Komitəsinin sədri vəzifəsinə isə Fətəlixan Xoyski (bitərəf) seçildi.

1918-ci il may ayının 28-də Milli Şuranın birinci iclası keçirildi və iclasda Azərbaycanın müstəqil dövlət e'lan olunması haqqında tarixi qərar qəbul edildi. Beləliklə, 100 ildən artıq fasilədən sonra Azərbaycanın Şərqi və Cənubi Zaqafqaziya hüdudlarında milli dövlətçiliyi bərpa olundu. Elə həmin iclasda yeni demokratik dövlətin yaranması faktını hüquqi cəhətdən təsbit edən "Azərbaycanın istiqlaliyyəti haqqında Akt" qəbul edildi.

Bir saatlıq fasilədən sonra iclas öz işinə yenidən başladıqda, ilk Azərbaycan hökumətini təşkil etmək haqqında tapşırıq almış Fətəlixan Xoyski müvəqqəti hökumətin tərkibini e'lan etdi: Nazirlər Şurasının sədri və Daxili İşlər naziri - Fətəlixan Xoyski (bitərəf);



maliyyə naziri və xalq maarifi naziri - Nəsib bəy Usubbəyov ("Müsavat"); xarici işlər naziri - Məhəmməd Həsən Hacınski ("Müsavat"): yollar naziri və poçt və teleqraf naziri - Xudadat bəy Məlik-Aslanov (Müsəlman sosialist bloku); ədliyyə naziri - Xəlil bəy Xasməmmədov ("Müsavat"); əkinçilik naziri və əmək naziri - Əkbər Şeyxül-islamov ("Hümmət"); hərbi nazir - Xosrov Paşa bəy Sultanov ("İttihad"); ticarət və sənaye naziri - Məmməd-Yusif Cəfərov (bitərəf): dövlət nəzarəti naziri - Camo Hacınski (Müsəlman sosialist bloku).[1]

Beləliklə, 1918-ci ilin yayında Azərbaycanda siyasi vəziyyət ikihakimiyyətliliklə səciyyələnirdi və istiqlaliyyət uğrunda mübarizə bu şəraitdə gedirdi. Azərbaycanın şərq hissəsində - Bakı və Bakı quberniyasında Bakı Xalq Komissarları Soveti fəaliyyət göstərirdi. Bölgənin qərb hissəsi isə (Gəncə və Gəncə quberniyası) Azərbaycan Xalq Cümhuriyyəti milli hökumətinin hakimiyyəti altında idi.

Suveren Azərbaycan Cümhuriyyətinin e'lan edilməsi mühüm tarixi hadisə idi. Bu, milli dövlətçiliyin dirçəlişi demək idi və Azərbaycan xalqının geniş kütlələrinin öz istiqlaliyyəti və azadlığı uğrunda birləşməsinin əsasını qoydu. Azərbaycanın yerli əhalisi Cümhuriyyət hökumətinin milli mənafeyi müdafiə edən yeganə qanuni hökumət sayırdı.

1918-ci ilin yayında Azərbaycanın beynəlxalq vəziyyəti son dərəcə mürəkkəb idi. Üç ən iri dövlətin - Böyük Britaniya, Almaniya və RSFSR-in siyasi və iqtisadi maraqları onun ətrafında bir-birinə dolaşaraq çətin bir düyün yaradırdı. Onların hər biri Bakı neftinə yiyələnmək istəyirdi və bu cəhətdən onlar bir-biri ilə rəqabət aparırdı. Davam edən Birinci dünya müharibəsi şəraitində mübarizə obyektlərindən biri Azərbaycan və onun ayrılmaz hissəsi olan neft Bakısı idi. Onlar üçün həmçinin Xəzər dənizində öz hökmranlığını bərqərar etmək cəhdi səciyyəvi idi.

O zaman Yaxın Şərqdə böyük hərbi qüvvəsi olan və Sovet Rusiyasına qarşı hərbi müdaxilə keçirən İngiltərə Bakını onun əlindən almağa və Almaniyanı Bakıya yaxın

qoymamağa çalışırdı. O dövrdə baş nazir olmuş Lloyd-Corc öz memuarlarında yazırdı ki, "Biz o vaxt əli qoynunda oturmamışdıq".[2] Sonralar ingilislərin Bakıya qarşı 1918-ci ildəki hərəkətlərindən yazan İngiltərənin "Tayms" qəzeti bu cəhətdən olduqca mühüm e'tirafla çıxış etdi: "Biz getdik ki, Bakının neft mə'dənlərini zəbt edək".[3]

İngilis komandanlığı Bakının işğalı üzrə əməliyyatı həyata keçirməyi İranın Ənzəli limanında cəmlənmiş Britaniya hərbi dəstəsinin komandanı general Denstervilə tapşırmışdı. Denstervil şəhərin işğalını hazırlamaqda ona kömək edən Bakı eser, menşevik və daşnakları ilə əlaqə yaratdı.

Daşnak, menşevik və eserlər cəbhədə və cəbhə arxasında intizamsızlıq yaradılması məqsədi ilə öz fəaliyyətlərini gücləndirir, şəhərdə vəziyyətin ağır olmasından, kəskin ərzaq böhranının yaranmasından istifadə edərək, ingilis ordusunun Bakıya də'vət edilməsi üçün təbliğatı artırır, mətbuatda və mitinqlərdə bu tələblə çıxış edib inandırırdılar ki, ingilislər nəinki Bakını qoruyub saxlamağa kömək göstərəcək, həm də əhalini ərzaqla tə'min edəcək. Bu təbliğat əhalininn bir qismi arasında uğurla nəticələnirdi.

İyun ayında İngiltərənin konsulu Mak-Donnelin fəal iştirakı ilə Bakıda eserlər tərəfindən qəsd cəhdi edildi, lakin o, uğursuzluqla nəticələndi.[4]

Neft mənbələrinin zəbt edilməsi o zaman neftə kəskin ehtiyac duyan Almaniya hökumətinin də planlarında böyük yer tuturdu.

General Lüdendorf belə hesab edirdi ki, Qafqazın zəbti nəticəsində Antanta tərəfindən iqtisadi blokadanı yarmaq və Almaniyanı təsərrüfat cəhətdən gücləndirmək, almanlarda qələbəyə inam oyatmaq mümkün olacaq. Lakin bunun üçün, onun açıqcasına e'tiraf etdiyi kimi, almanlara "Bakıya gəlib çıxmaq" lazım idi.[5]

Bu cəhdlər özünü Almaniyanın Baş qərargahının 1918-ci ilin iyul ayında Belçikanın Spa şəhərində keçirilmiş məxfi müşavirəsində xüsusilə aşkar şəkildə



göstərdi. Müşavirədə kayzer II Vilhelm, Hindenburq, Lüdendorf və digər generallar iştirak edirdi.

Lüdendorfun çıxışında qeyd olunurdu ki, Almaniyanın strateji vəzifələrinin həlli üçün neft məsələsi fövqəl'adə əhəmiyyət kəsb edir və buna görə də Bakını almaq lazımdır. Bu fikrə tərəfdar olan donanma idarəsinin stats-katibi bildirirdi ki, Almaniya donanmasının neftə olan tələbatı artır və sualtı müharibənin sonrakı gedişi onun ödənilməsindən asılıdır.[6]

Lakin Almaniya Bakını öz hərbi qüvvələri ilə zəbt edə bilməzdi, çünki onun ordusu Qərbi Avropa cəbhəsində idi. Buna görə də o, bu işdə yalnız öz müttəfiqinə - qoşunları Qafqaz İslam ordusu tərkibində Bakıya hücum edən Türkiyəyə ümid ola bilərdi.

Qeyd etmək lazımdır ki, Almaniyanın bu hücuma münasibəti ikili və olduqca ziddiyyətli mahiyyət daşıyırdı. Bir tərəfdən, Almaniya onu dəstəkləyir, digər tərəfdən isə ondan ciddi ehtiyat edirdi.

Almaniyanın hakim dairələrində Qafqaz İslam Ordusunun Bakını ala biləcəyinə inam yox idi. Eyni zamanda, onlar qorxurdu ki, hərbi əməliyyatlar gedişində neft mə'dənləri məhv edilə bilər. Bu məsələ Almaniyanın İstanbuldakı konsulunun 1918-ci il iyul ayının əvvəlində təqdim etdiyi hesabatında öz əksini tapmışdı. Hesabatda bolşeviklərin Bakını möhkəm mühafizə etdiyi göstərilir və onu almağın qeyri-mümkün olduğu ifadə edilirdi.[7] Bu mülahizələrə əsaslanaraq, konsul Sovet Rusiyası ilə Bakı məsələsi üzrə danışıqlar aparmağı təklif edirdi. O yazırdı: "Əgər biz bolşeviklərlə sazişə gələ bilsək, onda Bakının neft mənbələri və neft ehtiyatları bizim əlimizə sağ-salamat keçəcək. Əgər bunun əksinə olaraq bolşeviklər şəhəri tərk etməyə məcbur olsalar, mə'dənləri yandıracaqlar və onda nə biz, nə də türklər neft ehtiyatlarından istifadə edə bilməyəcəyik. Onlarsız isə Qafqaz dəmir yollarının istismarı tezliklə dayanacaq".[8]

1918-ci ilin iyul ayında İstanbula göndərilmiş Azərbaycan diplomatik nümayəndə hey'əti bu cür mürəkkəb

və ziddiyyətli beynəlxalq vəziyyətlə rastlaşdı. Hey'ətin başçısı M.Rəsulzadə, üzvləri isə Şeyxülislamov, X.Xasməmmədov və başqaları idi.[9] Nümayəndə hey'ətinə konfransın digər iştirakçıları (Türkiyə, Almaniya, Avstro-Macarıstan, Bolqarıstan, Gürcüstan, Ermənistan və Dağlıq Respublikası) ilə siyasət, iqtisadiyyat, maliyyə məsələləri və hərbi problemlər üzrə danışıqlar aparmaq tapşırılmışdı.[10]

Bundan başqa, nümayəndə hey'əti üzvlərinə Türkiyə tərəfi ilə qapalı danışıqlar aparmaq və mümkün ola bilən separat müqavilə bağlamaq üçün səlahiyyət verilmişdi.

Azərbaycan nümayəndə hey'ətinə başçılıq edən M.Rəsulzadə özünü məharətli diplomat kimi göstərdi. O, həmin vaxt RSFSR, Almaniya və Türkiyə arasında Bakı neftindən istifadə etmə uğrunda gedən və diplomatik dairələrdə "Bakı məsələsi" adlandırılan siyasi mübarizənin mərkəzində oldu. Azərbaycan hökumətinə hesabatlarında o, yaranmış vəziyyəti açıb göstərir, onun dərin təhlilini verir və konkret tədbirlər təklif edirdi. M.H.Hacınskiyə məktubunda o qeyd edirdi: "Sizə mə'lumdur ki, neft haqqında məsələ Azərbaycandan çox Türkiyə-Almaniya məsələsidir".[11]

Öz ölkəsinin hakim dairələrinin ehtiyatını ifadə edərək Almaniyanın İstanbuldakı səfiri Bernsdorf M.Rəsulzadədən Bakının bolşeviklər tərəfindən dağıdılması təhlükəsi haqqında mə'lumat verməsini xahiş etmişdi.[12] İstanbul konfransının keçirilməsində Almaniya öz məqsədlərini güdürdü. Alman qoşunlarının Gürcüstanda yerləşən məhdud kontingenti Türkiyəyə müqavimət göstərmək və Bakını tutmaq üçün kifayət deyildi. Buna görə də Qafqaz siyasətində Almaniya yalnız diplomatik kanallardan istifadə etməyə çalışırdı.

M.Rəsulzadə o günlərdə M.H.Hacınskiyə yazırdı ki, Almaniya və Türkiyə Bakı məsələsinə müxtəlif cür yanaşır. Neft mə'dənlərinin bolşeviklər tərəfindən dağıdılacağından ehtiyat edərək, almanlar onlarla neftin alınması haqqında sazişə gəlməyə meyl göstərirdi. Daha sonra o, türklər və almanlar arasında Qafqaz haqqında məsələyə dair ziddiyyətlərin olduğunu da qeyd edirdi.[13]

İstanbuldan göndərdiyi digər mə'lumatında M.Rəsulzadə yazırdı ki, "neft məsələsində vasitəçilik edərək, türklər almanlardan istifadə etmək istəyir, halbuki almanlar belə sövdəyə razılığını vermir".[14]

Bakı nefti uğrunda mübarizənin fəal iştirakçısı olan Sovet Rusiyası isə onu yalnız hərbi deyil, həm də diplomatik yolla öz əlində saxlamağa çalışırdı.

Kifayət qədər qoşun göndərmək imkanı olmayan Leninin rəhbərlik etdiyi RSFSR hökuməti buna diplomatik xarakterli tədbirlər vasitəsi ilə nail olmaq ümidində idi. O, Almaniya və onun müttəfiqlərindən Brest müqaviləsinin şərtlərinə əməl olunması və Qafqaz İslam ordusunun Bakıya hücumunu dayandırılmasını tələb edirdi. Eyni zamanda o, Bakını Almaniyaya müəyyən iqtisadi güzəştlər, o cümlədən Bakıdan aldığı neftin bir hissəsinin verilməsi bahasına öz əlində saxlamağa çalışırdı.

Yuxarıda göstərilmiş mülahizələri nəzərə alaraq, Almaniya hökuməti Sovet Rusiyası ilə Bakı məsələsi üzrə danışıqlardan imtina etmirdi. Danışıqlar hələ 1918-ci ilin iyun ayında başlanmışdı. Onun gedişində Almaniya hökuməti sovet səfirinin nəzərinə çatdırdı ki, o, Türkiyəni Bakıya hücumu dayandırmağa yalnız müəyyən həcmdə Bakı nefti alacağına tə'minat verildiyi halda məcbur edəcək.

İyulun 7-də Lenin Tsaritsında olan Stalinə göndərdiyi teleqramda yazırdı ki, o, Şaumyanı Berlində sovet səfirinə almanların onlara neftin bir hissəsini alacaqlarına tə'minat verilərsə, Bakıya türklərin hücumunu dayandırmağa razı olacaqları haqqında etdiyi təkliflərdən xəbərdar etsin. "Əlbəttə, biz razı olarıq" Lenin yazırdı.[15]

Stalinin Şaumyana göndərdiyi məktubda deyilirdi: "Zaqafqaziya məsələsində bizim ümumi siyasətimiz ondan ibarətdir ki, biz almanları gürcü, erməni və Azərbaycan məsələlərinin Rusiyanın daxili işləri olduğunu rəsmən

tanımağa məcbur etməliyik".[16] Bundan sonra o bildirdi ki, Bakının RSFSR-də qalması ilə razılaşaraq, almanlar onlara müəyyən qədər neft ayrılmasını istəyir və bunu yerinə yetirmək olar.[17]

Beləliklə, döyüşən Qafqaz İslam Ordusunun arxasında gizli sövdə baş verirdi və bu yolla Almaniya və RSFSR Bakının taleyini həll etmək fikrində idilər.

Yaranmış vəziyyətdə Azərbaycan hökumətinin Bakı barəsində qanuni hüquqlarının gerçəkləşdirilməsi olduqca çətin idi. Türkiyə və Almaniyanın maraqları ilə hesablaşmaq, onlarla kompromisə nail olmaq lazım gəlirdi.

Almaniya və Türkiyə ilə bu danışıqlar haqqında məsələ Azərbaycanın Baş Naziri ilə İstanbuldakı diplomatik nümayəndə hey'ətinin başçısı arasında sonrakı məktublaşmada da əsas yeri tuturdu. M.Rəsulzadənin məktublarının birində deyilirdi: "Görünür, biz almanlara Bakıda mə'lum iqtisadi güzəştlər təqdim etməli olacağıq."[18]

Xarici işlər naziri M.H.Hacınskinin 1918-ci il iyul ayının əvvəlində İstanbula göndərilmiş məktubunda M.Rəsulzadəyə təklif edilirdi ki, o, Almaniya və Türkiyəni Azərbaycan hökumətinin onların maraqlarının ödənilməsinə kömək etməyə hazır olduğuna inandırsın: "Türkiyə, Azərbaycan və Almaniyanın maraqlarının uzlaşdırılması üçün zəmin tapın. Bu zəmin Bakı nefti haqqında iqtisadi razılaşmadan ibarətdir. Burada güzəştlərə getmək olar".[19]

Azərbaycanın ərazi bütövlüyünün tə'min olunması məqsədilə M.Rəsulzadə Türkiyə hökumətinin rəhbərləri Ənvər Paşa və Tə'lət Paşa ilə, həmçinin Almaniyanın səfiri Bernsdorfla xüsusi olaraq görüşürdü. Məsələn, söhbətlərin birində bu məsələyə yüksək maraq göstərən Bernsdorf ondan soruşdu: "Siz İstanbuldakı konfransda Azərbaycanın sərhədlərini müəyyən etməyi lazım bilmirsinizmi?" Azərbaycanın daxili işlərinə bu cür müdaxiləni arzuolunmaz hesab edərək, M.Rəsulzadə cavab verdi ki, Azərbaycan hökuməti bu məsələni müstəqil həll edəcək və öz qərarını müttəfiqlərə bildirəcək.[20]



Azərbaycan Cümhuriyyətinin qərb sərhədləri haqqında məsələ xüsusilə müzakirə olunurdu. Müzakirə üçün əsas M.H.Hacınskinin göndərdiyi xəritə idi. Eyni zamanda, bu haqda Azərbaycanın Tiflisdəki diplomatik nümayəndəsi M.Y.Cəfərov və Almaniyanın Gürcüstandakı qoşunlarının komandanı general fon-Kress arasında görüşdə də söhbət gedirdi.[21]

Azərbaycanın şərq hissəsi respublikadan müvəqqəti olaraq qoparıldığından, hökumət ciddi maliyyə çətinliyi çəkirdi. 1918-ci ilin iyul ayında F.Xoyski İstanbulda olan M.Rəsulzadəyə belə yazırdı: "Hökumətimizin hazırda pula çox böyük ehtiyacı var. İndi normal borc almaq çox çətindir. Əsasən, ona görə ki, Bakı bizim əlimizdə deyil".[22] Onun sözlərinə görə, ssuda kimi 3 milyon lirəyə qədər vəsait ayıra bilən Türkiyənin köməyinə ümid olmaq lazım idi.[23]

Sonralar da maliyyə məsələsi kifayət qədər kəskin olaraq qalırdı. "Bizim ən başlıca qayğımız maliyyə vəsaitinin olmamasıdır: göndərdiyimiz nümayəndə hey'əti ilə birlikdə bu istiqamətdə ən tə'cili tədbirlər görmək lazımdır"[24] - deyə F.Xoyski digər məktubunda yazırdı. O, M.Rəsulzadədən borc əldə etməyə çalışmasını və dərhal heç olmasa 1 milyon Türkiyə lirəsi göndərməyi xahiş edirdi.

Bu maliyyə çətinlikləri gedişində Azərbaycan hökuməti e'lan etdi ki, 1918-ci il iyul ayının 1-dən Türkiyə lirəsi başqa pullar kimi Azərbaycan ərazisində işlənə bilər və 20 manata bərabərdir.

## *§ 2. Azərbaycanın istiqlaliyyəti və ərazi bütövlüyü uğrunda müharibənin başlanması. Osmanlı ordusunun Bakıdakı düşmən qüvvələrin məhv edilməsində köməyi*

Azərbaycanda hərbi əməliyyatlar cəbhənin müxtəlif yerlərində, o cümlədən şimal rayonlarında - Quba və Xaçmazda gedirdi. Azərbaycan dəstələri "Bakı-Petrovsk" dəmir yolu boyunca fəaliyyət göstərirdi. Korqanov e'tiraf

etməyə məcbur idi ki, müsavatçılar bizə qarşı partizan müharibəsi aparır, arası kəsilmədən dəmir yolunu dağıdırlar"[25]

Azərbaycan könüllü dəstələri və Bakı XKS-nin qoşunları arasında Quba uğrunda gərgin döyüşlər gedirdi. Şəhər iki dəfə əldən-ələ keçmişdi. Əsasən Amazaspın komandirlik etdiyi daşnaklardan ibarət sovet hökumət orqanları azərbaycanlı əhaliyə amansız divan tuturdu. Tanınmış erməni qulduru daşnak Amazaspın dəstəsi Quba rayonunda dəhşətli vəhşiliklər törədirdi.

Bu hadisələr Azərbaycan hökumətinin yaratdığı Fövqəl'adə istintaq komissiyasının üzvü Novatskinin həmin komissiyanın sədrinə "Quba və Quba qəzası kəndlərinin dağıdılması və adı çəkilmiş şəhər və kəndlərin sakinləri üzərində edilmiş zorakılıq haqqında"[26] adlı mə'ruzəsində təfərrüatı ilə ifadə olunub.

Sənəddən mə'lum olur ki, "1918-ci ilin aprel ayında, Bakı quberniyası bolşeviklərin əlində olan zaman, 187 silahlı əsgərdən ibarət dəstə ilə bolşeviklərin nümayəndəsi David Gelovani Qubaya gəldi və özünü Quba qəza komissarı e'lan edərək əhaliyə dərhal Sovetlərin hakimiyyətini tanımağı təklif etdi. Qubalılar bu tələbi yerinə yetirməyə məcbur oldular.

Çox keçmədən, ləzgilərin ona qəfil hücumu səbəbindən, Gelovani şəhəri tərk etdi və bütün xristian əhalisini də zor gücünə özü ilə aparırdı. Ləzgilər geri çəkilənləri tə'qib edir və onları atəşə tuturdu. Atışma zamanı mülki əhalidən bir neçə adam öldürüldü.

1918-ci il may ayının 1-də daşnaksakan Amazaspın başçılıq etdiyi və yalnız ermənilərdən ibarət olan dəstə şəhəri əhatə etdi və onu atəşə tutmağa başladı. Şəhərin alınması müsəlman əhalisinin kütləvi surətdə öldürülməsi və onun üzərində hər cür zorakılıqla müşayiət olunurdu. Ümumiyyətlə, iki minə qədər kişi, qadın və uşaq öldürüldü.

Qubaya gəlib çatana qədər Amazaspın dəstəsi hərəkət etdiyi yol boyunca dəmir yolunun hər iki tərəfində yerləşmiş müsəlman kəndlərinə hücum edir, onları



yandırır, darmadağın edir, əmlakını talayır, nə qadın, nə də uşaqlara rəhm etməyərək, qaçmağa macal tapmamış sakinləri öldürürdü (ümumiyyətlə Quba qəzasının 122 kəndi viran edilmişdi).[27]

Lakin cəbhənin ən mühüm hissəsi Kürdəmir istiqaməti idi. Bakı XKS-nin əsas qüvvələrinin Gəncəyə hücumu məhz burada gedirdi.

Azərbaycan hökumətinin hərbi qüvvələri hücum edən sovet qoşunlarından müdafiə olunmaq üçün kifayət qədər deyildi. Bu cür şəraitdə kənardan hərbi kömək tələb olunurdu.

Sonralar M.Rəsulzadə yazırdı ki, o zaman yaranmış şəraitdə yalnız Türkiyəyə ümid qalırdı və bu qardaş millət Azərbaycanı düşmənlərin əlindən qoparıb almalı idi.[28]

Bir sıra mətbuat orqanlarında qeyd olunduğu kimi, Azərbaycan hökuməti dərk edirdi ki, öz qüvvəsi ilə Azərbaycanda hüquqi dövlət, qayda-qanun yaratmaq mümkün deyil. "Partiya mənsubiyyətindən asılı olmayaraq, Milli Şuranın bütün üzvləri əmin idilər ki, xalqı Bakıdakı bolşevik hərəkatından və dağıdıcı anarxiyadan yalnız kənar qüvvə xilas edə bilər, bütün fikir və sə'ylər Bakını tez bir zamanda düşmən qüvvələrdən xilas etməyə yönəlmişdi: Milli Şuranın bütün daxili imkanları tükənmişdi".[29]

N.Usubbəyov da belə fikirdə idi. Yaranmış vəziyyəti səciyyələndirərək, o deyirdi: "Təkcə biz Azərbaycan türklərində deyil, həm də Zaqafqaziyanın bütün ərazisində mövcud olan bu cür böyük miqyaslı anarxiya bizim öz qüvvələrimizlə yatırdıla bilməz: şərqdən bolşeviklərin hücumu isə vəziyyəti daha da ağırlaşdırır. Belə bir vəziyyətdə, bu cür acizliyimiz şəraitində bizim xarici müdaxiləyə müraciət etməkdən başqa çarəmiz qalmır. Bu halda biz sevinə bilərik ki, buraya gəlməli olan xarici qüvvə dost və qardaş qüvvəsi - Türkiyədir".[30]

İyun ayının 4-də Osmanlı imperiyası ilə Azərbaycan Cümhuriyyəti arasında dostluq haqqında müqavilə imzalandı. Bu, Azərbaycan Cümhuriyyətinin xarici dövlət

ilə bağladığı ilk müqavilə idi. Onun müqəddiməsində deyilirdi: "Bir tərəfdən, Osmanlı imperiyası və digər tərəfdən, suverenliyini e'lan etmiş Azərbaycan Cümhuriyyəti hökuməti öz ölkələri arasında siyasi, hüquqi, iqtisadi və intellektual əsasda səmimi dostluq münasibətlərinin təsbit edilməsi üzrə qarşılıqlı sazişə gəlir".[31]

Müqavilənin birinci maddəsi Osmanlı imperiyası və Azərbaycan Cümhuriyyəti arasında daimi sülh və möhkəm dostluğun yaradılacağını təsdiq edirdi. İkinci maddə Osmanlı imperiyası və Azərbaycan, Gürcüstan, Ermənistan arasında dövlət sərhəd xəttinin müəyyənləşdirilməsinə aid idi, həm də Azərbaycan və Türkiyə arasında geniş dövlət sərhəddi zolağının olması nəzərdə tutulurdu. Müqavilənin üçüncü maddəsinə, əsasən, Azərbaycan, Gürcüstan və Ermənistan dərhal öz aralarında sərhədləri müəyyənləşdirən və həmin müqavilənin bir hissəsini təşkil edən protokollar imzalamalı və bu barədə Osmanlı hökumətinə mə'lumat verməli idi.

Azərbaycan üçün ən əhəmiyyətli olan dördüncü maddədə göstərilirdi ki, əgər zəruri olarsa, Osmanlı hökuməti sülh və əmin-amanlığın möhkəmləndirilməsi, ölkənin təhlükəsizliyinin tə'min edilməsi məqsədi ilə Azərbaycan Cümhuriyyətinə hərbi kömək göstərməyi öz üzərinə götürür.

Müqavilənin beşinci maddəsinə əsasən, Azərbaycan hökuməti Azərbaycan Cümhuriyyətinin sərhədboyu ərazilərində mövcud quldur dəstələrinin tərksilah edilməsi və qovulmasını öz öhdəsinə götürürdü.

Müqavilənin altınca maddəsində tərəflərin dəmir yolu yüklərinin daşınması üzrə öhdəlikləri, yeddinci maddəsində konsulluqlar konvensiyası, ticarət müqaviləsi və digər aktların hazırlanması, səkkizinci maddəsində ölkələrə sərbəst gəlmə, doqquzuncu maddəsində Azərbaycanın Beynəlxalq Poçt-Teleqraf Birliyinə daxil olmasına qədər qarşılıqlı poçt-teleqraf əlaqələri, onuncu maddəsində tərəflər arasında həmin müqaviləyə zidd



olmayan Brest sülh müqaviləsinin qüvvədə olması haqqında deyilirdi. Sonuncu, on birinci maddədə göstərilirdi ki, müqavilə bir ay ərzində ratifikasiya olunacaq və ratifikasiya olunmuş mətnlərin mübadiləsi İstanbulda həyata keçiriləcək.[32]

Osmanlı imperiyası ilə müqavilənin bağlanması Azərbaycan dövlətçiliyinin beynəlxalq nüfuzuna şəhadət etməklə bərabər, Azərbaycan türk millətinin müstəqilliyinin saxlanılmasında zəruri addım idi. Müqaviləyə hərbi kömək haqqında maddənin salınması əslində o demək idi ki, Qarabağın dağlıq hissəsində azğınlıq edən erməni quldur dəstələri məhv ediləcək və xarici düşmənlərdən təmizlənmiş Bakıda əmin-amanlıq və təhlükəsizlik bərqərar olacaq.

Beləliklə, Türkiyə öz üzərinə bir hissəsi bolşevik diktaturasının əlində olan Azərbaycana öz torpaqları üzərində siyasi hakimiyyəti və ərazi bütövlüyünü tam bərpa etməsi işində kömək etmək öhdəliyini götürürdü.

Azərbaycan tərəfindən müqaviləni Milli Şuranın sədri M.Rəsulzadə və xarici işlər naziri M.H.Hacınski, Türkiyə tərəfdən isə ədliyyə naziri Xəlil bəy və Qafqaz cəbhəsinin Baş komandanı Vəhib Paşa imzaladı.

Bütövlükdə, Batum konfransı Tiflis quberniyasının Axalkələk və Axalsıx qəzalarını, Batum və Kars vilayətlərini, İrəvan quberniyasının, əsasən müsəlmanların məskunlaşdığı, əhalisi 1.250 min nəfər olan Sürməli qəzasını özünə birləşdirən Türkiyənin xeyrinə başa çatdı.[33]

İyunun 23-də F.Xoyski Azərbaycan əhalisinə çağırışla müraciət etdi və milli hökumətin təsbit olunması üçün dost Türkiyənin dəstəyinin əhəmiyyətini vurğuladı.[34]

Elə həmin gün hökumət respublikanın bütün ərazisində hərbi vəziyyət e'lan etdi. Batum müqaviləsinə əsasən, Azərbaycan Cümhuriyyətinə kömək üçün Türkiyə ordusunun ümumi sayı 15 min nəfərə qədər olan 5-ci və 15-ci diviziyaları göndərildi.

Əvvəlcə Türkiyənin ordusunda ən yaxşı diviziyalardan biri sayılan 5-ci diviziya gəldi. Birinci dünya müharibəsi

zamanı Dardanelin müdafiəsinə görə o, Çanaq-qala adını almışdı. Vəhib Paşa Nuru Paşaya göndərdiyi teleqramda xüsusilə qeyd etmişdi ki, ona ən yaxşı diviziyanı göndərmək lazımdır.[35] Onun ardınca gəlmiş 15-ci diviziya da ən mübariz hissələrdən biri idi, 1914-1915-ci illərdə o, Süveyş cəbhəsində döyüşlərdə iştirak etmişdi.[36]

May ayının sonunda türk qoşunları Gəncə quberniyasına daxil oldu və başda Nuru Paşa olmaqla onların qərargahının da gəldiyi Gəncəyə toplaşmağa başladı.

Azərbaycan əhalisi müttəfiq türk qoşunlarını böyük mehribanlıq və sevinclə qarşıladı. Yevlax və Gəncədə Nuru Paşanı duz çörəklə qarşıladılar. M.Ə.Rəsulzadlənin sözlərinə görə, onu "göydən enmiş xilaskar-mələk" hesab edirdilər.[37]

1918-ci il iyun ayının 16-da Azərbaycan hökuməti Tiflisdən Gəncəyə köçdü. Müttəfiq Azərbaycan və türk qoşunları "Qafqaz İslam ordusunda" birləşdirildi, ona komandanlıq etmək Nuru Paşaya həvalə edildi.

Qoşunlar birləşdirilən zaman topçu hissələri "Müsəlman korpusunun" 23 topunun onlara verilməsi yolu ilə qüvvətləndirildi.

Azərbaycan Hərbi Nazirliyi müvəqqəti olaraq ləğv edildi, onun vəzifələri Qafqaz İslam Ordusunun komandanlığına keçdi.

Nuru Paşanın qərargahı nəzdində onun siyasi müşaviri Əhmədbəy Ağayev başda olmaqla Mülki hissə İdarəsi təşkil edildi.[38]

Öz qoşunlarına müraciətdə Nuru Paşa yazırdı: "Bizim məqsədimiz - Bakıdır".[39] Eyni zamanda, 1918-ci il iyun ayının 18-də Kazım Qarabəkir Paşanın komandanlıq etdiyi türk qoşunları daşnak quldur dəstələrinin təhlükə yaratdığı Naxçıvanı tutdu.[40]

Kürdəmir cəbhəsində iyunun 16-18-də Göyçaydan 20 verst şərqdə yerləşən Qaraməryəm kəndi yaxınlığında ilk döyüşlər baş verdi. Burada 10-cu türk alayı döyüşürdü. Düşmən Qaraməryəmi ala bildi, lakin türk qoşunları əks hücumlara keçirdilər.



İyunun 19-da Nuru Paşa xüsusi qatarla cəbhəyə gəldi. Elə həmin gün o, şərq qrupu qoşunlarının komandanına sovet qoşunlarının hücumunun 52-ci diviziyanın xeyli itkisi bahasına müvəqqəti olaraq dayandırıldığı haqqında mə'lumat verdi. Lakin sonrakı günlərdə Bakı XKS-nin qoşunları yenidən Göyçaya tərəf irəlilədi.

Cəbhədəki vəziyyətlə əlaqədar olaraq xarici işlər naziri M.H.Hacınski M.Rəsulzadəyə yazırdı: "Cəbhədə vəziyyətimiz yaxşı deyil. İrəli gedə bilmirik". Bundan sonra o, Ənvər Paşa qarşısında tə'kidlə tez bir zamanda daha bir türk diviziyasının göndərilməsi barədə məsələ qaldırmağı xahiş edirdi.[41] Cavabında M.Rəsulzadə bildirirdi ki, Ənvər Paşanın sərəncamı ilə Azərbaycana yeni alaylar göndərilir və Nuru Paşa artıq təsdiq edib ki, hücumu davam etdirmək üçün kifayət qədər qüvvə vardır.[42]

Qafqaz İslam Ordusunun komandanlığı cəbhəyə yeni qüvvələr göndərirdi. Məsələn, iyunun 19-da dağ-artilleriya divizionu ilə 130-cu türk piyada alayı gəldi.

Bu çətin anda gəlmiş yeni qüvvələr arasında Azərbaycan Ordusunun da hissələri var idi. Belə ki, iyunun 19-da cəbhəyə 600 adamdan ibarət Azərbaycan dəstəsi göndərilmişdi.[43] Bundan sonra Dəllər və Zəyəmdən olan Azərbaycan könüllüləri gəldi.[44]

Yeni qüvvələr aldıqdan sonra Qafqaz İslam Ordusunun komandanlığı hücuma hazırlaşmağa başladı. 5-ci türk diviziyasının komandiri Mürsəl Paşa bu barədə öz mülahizələrini Nuru Paşaya bildirdi. O, xahiş etdi ki, birbaşa cəbhəyə yollanmaq üçün ona əlavə olaraq 5100 əsgər verilsin. Göyçay və Bərdədən olan dəstələri o, düşmənin cinahlarından zərbə endirməyə yönəltməyi, Şəkidən olan hissələri isə 5-ci diviziyanı cəbhə arxasından tə'min etmək üçün göndərməyi təklif edirdi.[45]

Nuru Paşa bu planı bəyəndi. Əsas zərbənin endirilməsi ilə eyni zamanda o, Şuşaya doğru irəliləməyi qərara aldı. Bu şəhəri almaq üçün artilleriyalı piyada batalyonlarını yeritmək nəzərdə tutulurdu.[46]

Döyüşlər həmçinin Müsüslüdən şərqdə - Qaraməryəm -Ağsudan cənubda şose xətti üzrə də gedirdi. Bu döyüşlərdəki uğur sabit deyildi.

İyunun 30-da Sovet qoşunları çıxış mövqelərinə - Qaraməryəmdən şərqə geri oturuldu. İyulun 1-də Sovet hissələrindən biri Göyçaya soxuldu, lakin orada qala bilmədi.[47] Türk-Azərbaycan qoşunları yenidən Göyçayı azad etdi. Sovet qoşunları geri çəkilməyə məcbur idi.

Qafqaz İslam Ordusunun Göyçay ətrafmdakı döyüşlərdə qələbəsi Azərbaycanın birləşdirilməsi, Bakının azad edilməsi uğrunda silahlı mübarizədə dönüş nöqtəsi oldu. Bakı kommunasının qoşunlarına elə ağır zərbə vurulmuşdu ki, onlar bundan sonra özlərinə gələ bilmədi. Strateji təşəbbüs Qafqaz İslam Ordusunun komandanlığına imkan verdi ki, qazamlmış müvəffəqiyyəti artırsın.

İyulun 7-dən Kürdəmir uğrunda 3 gün davam edən döyüşlər başlandı. Onların birində düşmən hücuma Moskvadan gəlmiş zirehli avtomobillər dəstəsini göndərdi, lakin türk artilleriyasının sərrast atəşi ilə onların ikisi sıradan çıxarıldı. İyulun 10-da türk və Azərbaycan əsgərləri Kürdəmiri azad etdi. İyulun 14-də isə türk alayı vuruşa-vuruşa Kərar stansiyasını aldı.

İyulda Qafqaz İslam Ordusunun qüvvələri cəbhədə bu cür yerləşmişdi. Sol cinahda (Şamaxı istiqamətində) və sağ cinahda Seldi istiqamətində türk hissələri fəaliyyət göstərirdi. Mərkəzdə (Kürdəmir istiqamətində), əsasən, Azərbaycan qoşunları hücum edirdi.[48]

Bu zaman Qafqaz İslam Ordusunun tərkibində Azərbaycan qoşunlarının sayı xeyli artdı. 18 yaşından 45 yaşına qədər hərbi vəzifəli şəxslərin yeni səfərbərliyi nəticəsində[49] o, 5000 əsgərə qədər çoxaldı.[50] Onlara Kürdəmir və Hacıqabula olan hücumlara fəal surətdə rəhbərlik edən polkovnik Səlimov komandanlıq edirdi.[51] 150 əsgərdən ibarət süvarilər dəstəsi də cəbhənin elə həmin sahəsində vuruşurdu. Onun komandiri Məmməd Qaxi idi.[52]

Kürdəmirin, sonra isə Hacıqabulun alınması zamanı gedən döyüşlərdə Azərbaycan əsgərləri 6 top, 18



pulemyot, böyük silah və döyüş sursatı anbarları ələ keçirdi.[53]

İyulun 7-dən Axsu, Meysarı, Mədrəsə və Mərəzə kəndləri yaxınlığında Şamaxı istiqamətində döyüşlər gedirdi. İyulun 20-də Qafqaz İslam Ordusunun hissələri Şamaxını azad etdi.

Cəbhənin cənub sahəsində mayor Həmid bəyin türk dəstəsi iyulun 18-də Bankə balıq vətəgələrini tutdu. 1918-ci il iyul ayının sonunda Bakı cəbhəsində vəziyyət belə idi.

## *§ 3. Azərbaycan Cümhuriyyəti hakimiyyətinin Azərbaycanın bütün ərazisində bərqərar edilməsi*

1918-ci il iyun ayının 16-da Milli Şuranın üzvləri və Azərbaycan Cümhuriyyəti hökuməti Tiflisdən siyasi vəziyyətin çox ziddiyyətli olduğu Gəncəyə köçdü.

Aydın oldu ki, onun bütün xalq tərəfindən dəstəklənmədiyini israr edən türklər Milli Şuraya təzyiq göstərir. Türk generalı Nuru paşanın müşaviri Əhmədbəy Ağayev F.Xoyski ilə söhbəti zamanı Şuranın buraxılması və yeni hökumət kabinetinin yaradılmasını israr edir və həm də vurğulayırdı ki, əks təqdirdə, türklər hökuməti dəstəkləməyəcək.[54]

Türk komandanlığının hərəkətləri Milli Şuranın radikal cinahının üzvləri N.Usubbəyov, M.Y.Cəfərov və D.Vəkilov tərəfindən e'tiraz doğurdu. Bu məsələdə onları sosialistlər dəstəkləyirdi. İttihadçılar türkiyəpərəst mövqe tutmuşdu. Milli Şuranın buraxılması ərəfəsində e'tiraz əlaməti olaraq "Hümmət" fraksiyası onun tərkibindən çıxdı. Bütün bunlar siyasi vəziyyəti daha da kəskinləşdirdi. 1918-ci il iyun ayının 17-də Milli Şuranın iclası keçirildi və Milli Şura türk komandanlığının təzyiqi altında yeni hökumət təşkil etməyə və özünün bütün vəzifələrini ona verməyə məcbur oldu. Beləliklə, 1918-ci il iyun ayının 18-də keçirilmiş iclasda Milli Şuranın

qalan üzvlərinin iştirakı ilə "Müsavat" fraksiyası, bitərəflər və ittihadçılardan ibarət tərkibdə yeni kabinet təsdiq edildi.[55]

İclasda, ümumiyyətlə, Şuranın 24 üzvü iştirak edirdi, lakin "Hümmət" fraksiyası və sosialistlər bloku onun tərkibindən çıxdıqdan sonra cəmi 13 adam qaldı, onların 12-si yeni kabinetə daxil oldu və təbii ki, səsvermədə iştirak etmirdi. Kabinetin tərkibi 1 nəfər qalmaqla (Milli Şura sədrinin müavini Seyidov) 6 səslə təsdiq edildi.[56]

"Müsavat" partiyasının lideri M.Rəsulzadə bu vəziyyəti "demokratiyadan geri çəkilmək və mürtəce qüvvələrin müəyyən müvəffəqiyyəti"[57] kimi qiymətləndirdi. Eyni zamanda o, Azərbaycanda demokratik qüvvələrin tezliklə qalib gələcəyinə ümidvar olduğunu bildirdi.[58]

Beləliklə, Fevral inqilabından sonra olduğu kimi, Azərbaycanda yenidən ikihakimiyyətlilik yarandı: Bakı Xalq Komissarları Soveti, sonra isə Sentrokaspi Diktaturası Bakıda və Milli Azərbaycan hökuməti Gəncədə.

Milli Şuranın qanunvericilik vəzifələrini öz üzərinə götürərək, Azərbaycan hökuməti dövlət hakimiyyəti strukturlarını yaratmağa başladı. Bu istiqamətdə atılan ilk addımlar yeni dövlətin xarici və daxili siyasətinə aid bir sıra qanunların qəbul edilməsindən ibarət idi.

Hökumətin 24 iyun 1918-ci il tarixli qərarına əsasən, Azərbaycanın dövlət bayrağı kimi qırmızı fonda ağ aypara və səkkizguşəli ulduzun təsvir edildiyi qırmızı parçadan hazırlanmış bayraq qəbul olundu. Sentyabrın 9-da bu bayraq, ağ aypara və səkkizguşəli ulduzun təsvir olunduğu mavi, qırmızı və yaşıl rəngli bayraqla əvəz edildi. Azərbaycan Cümhuriyyətinin dövlət bayrağının üç rəngi "türk milli mədəniyyətini, müasir Avropa demokratiyasını və islam sivilizasiyasını təmsil edirdi".[59]

Qafqaz İslam Ordusunun əks hücumu Bakıdakı siyasi və iqtisadi böhranı daha da dərinləşdirdi. Fəhlələrin uzaqlaşması günü-gündən artırdı. Qorxu və aclıq onların loyallığını getdikcə daha çox azaldırdı. Sovetin menşevik-eser-daşnak bloku Bakıya general L.Denstervilin



komandanlığı altında Böyük Britaniyanın ekspedisiya qüvvələrinin yeridilməsi uğrunda təşviqata başladı. Britaniya qoşunları ilə şəhərin müdafiəsini möhkəmləndirmək imkanı Bakıda bir müddət ərzində müzakirə edildi, lakin bolşeviklər tərəfindən artan müxalifətlə qarşılandı. Bakı Xalq Komissarları Soveti ingilislərlə birlikdə Kiçik-xana qarşı vuruşmuş keçmiş çar kazak zabiti polkovnik Lazar Biçeraxovun xidmətlərindən istifadə etmək qərarına gəldi. Biçeraxov 1,5 min nəfərlik dəstənin başında iyulun 7-də döyüşə girdi və Bakının müdafiə xəttinin sağ cinahında komandanlığı öz üzərinə götürdü. Şəhərin vəziyyəti getdikcə daha da ümidsiz olduğundan, iyulun sonunda Biçeraxov öz dəstəsi ilə cəbhəni tərk etdi və şimala, Petrovsk istiqamətində irəlilədi.

Son həddə qədər gərginləşmiş siyasi şəraitdə 1918-ci il iyul ayının 25-də Bakı Sovetinin iclası keçirildi və bu iclasda səsvermə nəticəsində ingilis qoşunlarının Bakıya də'vət olunması haqqında qərar qəbul edildi. Bu qərara tabe olmaqdan imtina edərək Bakı Xalq Komissarları Soveti öz səlahiyyətlərini üzərindən atdı. Bakıda bolşevik hakimiyyətinin devrilməsi inandırıcı tərzdə sübut edirdi ki, bolşevizm ideyaları buraya zorla daxil edilmiş və burada heç bir real zəminə malik deyildi.

Bakıda hakimiyyət sağ eser-menşevik-daşnak blokunun əlinə keçdi və həmin blok avqustun 1-də "Sentrokaspi Diktaturası və fəhlə və əsgər deputatlarının Müvəqqəti İcra Komitəsinin Rəyasət Hey'əti" hökumətini təşkil etdi. Yeni hökumət Lenin rejiminə qarşı qoyulan demokratik Rusiya barəsində özünün loyallığını bəyan etdi.

Elə həmin gün Diktatura öz nümayəndələrini ingilis komandanlığının İrandakı qərargahına göndərdi. 1918-ci il avqust ayının 4-də Ənzəlidən gəlmiş polkovnik Stoksun komandanlıq etdiyi ilk Britaniya dəstəsi Bakıya girdi. İngilislərin yerli xırda burjua partiyaları ilə sıx bağlı olduğu heç bir şübhə doğurmur. Yeri gəlmişkən, ingilislər

bu əlaqələri heç gizlətmirdilər də. Bu barədə general Denstervil yazırdı: "Mən proqramları məqsədlərimizə daha çox müvafiq olan sosialist-inqilabçılarla dəfələrlə danışıqlar aparmışam. Onlar bizdən kömək, xüsusilə, maliyyə köməyi istəyir. Onlar bilir ki, hakimiyyəti öz əllərinə alsalar, bir çox şeylərdə bizə arxalana bilərlər".[60]

İngilislər avqustun 9-17-də 3 batalyon, səhra artilleriyası və bir neçə zirehli maşından ibarət qüvvə çıxardılar. Bu, gözlənildiyindən çox az və hətta Qızıl Ordunun qüvvələrindən zəif qüvvələr idi. Bolşevik kommunarlarının siyasətinin iflasa uğraması, beynəlxalq vəziyyətin mürəkkəbliyi, Rusiyanın özünün vəziyyətinin ağır olması və nəhayət, müxalifətin göstərdiyi qətiyyət sonuncuya Bakıda hakimiyyəti çox qısa müddətə ələ almağa imkan verdi. Lakin onların hakimiyyətə gəlməsinə hakimiyyətə demokratik qüvvələrin gəlməsi kimi baxmaq olmaz. Yeni hökumətin yaradılmasını sosialist partiyalarının hakimiyyət uğrunda çox ağır, heç də həmişə aşkar olmayan mübarizəsinin nə isə bir nəticəsi kimi nəzərdən keçirmək olar. Şübhəsiz, bu iki qüvvə Azərbaycan xalqının arzularına qətiyyən cavab vermirdi və Azərbaycanı müstəqilliyə apara biləcək hərəkətverici qüvvə deyildi.

Diktatura ilə ingilislər arasındakı münasibətlər lap əvvəldən qarşılıqlı ittiham və inamsızlıq əsasında qurulmuşdu. Bakının yeni iqtidarı aldıqları köməyin cüz'iliyindən mə'yus olmuşdu, halbuki ingilislər hər şeyi intizamın olmamasına və yerli əsgərlərin düşkünləşməsinin üzərinə atırdı. Şəhəri xilas etmək üçün heç bir şey etmək mümkün olmadığını görən Denstervil sentyabrın 1-də köçməyə hazırlaşırdı. Lakin Diktatura sahildən aralanan hər bir gəmini atəşə tutacağı ilə hədələdi. Denstervil e'tiraf etməli oldu ki, onun sonuncu hücumu gözləməkdən savayı ayrı çıxış yolu yoxdur.

1918-ci ilin sentyabr ayının 6-da İstanbulda M.Rəsulzadə, X.Xasməmmədov və A.Səfikürdskidən ibarət Azərbaycan nümayəndə Hey'ətini Ənvər Paşa Türkiyədə yenicə hakimiyyətə gəlmiş Sultan VI Məhmədə təqdim



etdi. M.Rəsulzadə sultanı ən səmimi dostluq münasibətlərində bulunduğuna inanırdı və Azərbaycanın azad edilməsi işində Türkiyənin qardaşlıq köməyini xüsusi olaraq vurğuladı. Cavab nitqində sultan ümumi düşmənlə mübarizəni son qələbəyə qədər çatdırmağa söz verdi və Azərbaycan xalqına ən səmimi arzularını göndərdi.[61]

Döyüş əməliyyatlarında bir qədər sakitlikdən sonra artıq bilavasitə Xəlil Paşanın komandanlığı altında olan və gəlib çıxmış 36-cı diviziya ilə qüvvətləndirilmiş türk qoşunları avqustun 26-dan fəal döyüş aparmağa başladı. Şəhərə həlledici hücum sentyabrın 15-də səhər başlandı. Günün sonuna Denstervilin adamlarını göyərtəsinə almış gəmilər buxtanı tərk edirdi. Onların arxasınca diktaturanın üzvləri və on minlərlə erməni qaçırdı. Türk qoşunları sentyabrın 16-na qədər şəhərə daxil olmaqdan çəkindi. Yerli müsəlmanlara, Azərbaycan partizanlarına və könüllülərinə şəhərin ermənilər yaşayan rayonlarında tam hərəkət sərbəstliyi verildi.[62]

"Mart faciəsini yaşamış" azərbaycanlılarda qisas almaq arzusu çox qüvvətli idi. Lakin sentyabrın 17-də Bakıya daxil olmuş Azərbaycan hökuməti kütləvi qırğının qarşısını aldı. Sonradan, Azərbaycan parlamentinin açılışı zamanı hesabatla çıxışında həmin məsələyə toxunaraq, qeyd edirdi ki, "Düzdür şəhər alınan zaman yalnız ürək acısı və təəssüf doğuran bə'zi hadisələr baş verirdi. Hökumət bunu gizlətmir və kədərləndirici faktların gizlədilməsini şərəfsiz sayır. O da düzdür ki, bir çoxları ağır hisslər keçirib... Lakin hökumətin bu hadisələrin qarşısını tamamilə ala bilməsi mümkün idimi? Bizə elə gəlir ki, onlara haqq-ədalət gözü ilə baxanlar e'tiraf edir ki, dünyada heç bir hökumət onların qarşısını ala bilməzdi. Axı burada müsəlmanlar qətlə yetirilmiş, onların insan hüquqları tapdalanmışdı. Şəhər üç ay davam edən döyüşlərdən sonra alınmış və əhalinin qəzəbi son zirvəyə çatmışdı əlbəttə ki, əhalinin, hökumətin yox. Burada əskər, əfsus, heç nə edə bilməzdi, həm də ki, hökumət şəhərə yalnız üç gün keçəndən

sonra daxil olub. Buna qədər nə olubsa, ondan sonra baş verməyib. Şəhərə daxil olan kimi hökumət qəti tədbirlər görüb və nəticədə əmin-amanlıq və təhlükəsizlik yaradılıb.[63] Hökumət mə'lumatında şəhər və onun ətrafının əhalisinə bildirilirdi ki, respublika paytaxtına daxil olmuş Azərbaycan hökumətinin fikrincə, Azərbaycanda yaşayan bütün vətəndaşlar milliyyəti və dinindən asılı olmayaraq bərabər hüquqlara malikdir. Hökumət bütün vətəndaşların həyatı, əmlakı və hüquqlarını eyni dərəcədə qoruyacaq. Qarətçi, cani və ümumiyyətlə əmin-amanlığı, ictimai qayda-qanunları pozan şəxslər, ölüm cəzası da daxil olmaqla, müharibə dövrü qanunlarının bütün ağırlığı ilə cəzalandırılacaq.[64] F.Xoyskinin imzaladığı bu bəyanat uzun müddət anarxiya və hərc-mərcliyin hökm sürdüyü, daxili çəkişmələr və bolşeviklərin və onların arxasınca sentrokaspiçilərin avantürist siyasətindən əldən düşmüş şəhərdə qayda-qanunun bərpa edilməsində mühüm addım oldu. Sentyabrın 18-də şəhərin divarında olan türk qoşunları Bakıya daxil oldu. Şəhərin əsl sahibi olan azərbaycanlı əhali onları ruh yüksəkliyi ilə, xilaskarı kimi qarşıladı. Osmanlı qoşunları bildirdi ki, onlar Bakının azad edilməsində Azərbaycan hökumətinin iradəsinə uyğun olaraq iştirak edib. 1918-ci il mayın 28-dən sonra Azərbaycanın həyatında ikinci mühüm hadisə baş verdi: Bakı azad edildi və Azərbaycan hökuməti tam hey'ətdə əsl paytaxtda qərarlaşdı. Bu haqda Almaniyanın "Volksrherbeobasterin" sonradan Azərbaycan haqqındakı məqalələrinin birində yazırdı: "1918-ci il 15 sentyabr Azərbaycan tarixi üçün müstəsna dərəcədə əhəmiyyət kəsb edir. Bu zaman Avropada Azərbaycan Cümhuriyyətinə kömək edilməsi və ona yaşamaq imkanı verilməsinin zəruriliyi haqqında səslər ucalırdı. Lakin bu, Azərbaycana Bakısız Azərbaycan bəxş etməkdən başqa bir şey deyildi. Bu cür nəzər, başsız kukla ilə kukla tamaşasına bənzəyir. Bədənin başsız yaşayacağını təsəvvür etmək mümkün olmadığı kimi, Azərbaycan da



Bakısız təsəvvüredilməzdir. Azərbaycanın süqutu və tərəqqisi Bakının taleyi ilə bağlıdır".[65] Bakının azad olunması ilə Azərbaycan hökuməti respublika hüdudlarında öz hakimiyyətini bərqərar etdi. Bu münasibətlə hökumətin yerləşdiyi oğlan gimnaziyasının qarşısında şəhər ictimaiyyətinin əzəmətli nümayişi keçirildi. Hökumət üzvləri nümayişçilər qarşısında təbrik nitqi ilə çıxış etdi.

Bakının ingilislərə söykənən mürtəce Sentrokaspi qüvvələrindən qurtulması ilə əlaqədar olaraq F.Xoyski deyirdi: "Bizim də yaşamaq, azad yaşamaq haqqımız var. Heç bir zirehli maşın, hidroplan, kanonerka, tikanlı məftil, mina və digər texniki qurğular, heç bir ingilislər və onların əlaltıları, ümumiyyətlə heç bir qüvvə tarixin təbii gedişini dayandıra bilmədi. Əlli minlik ordu və texnika ilə birlikdə Bakının kiçik qüvvələrin həmləsi altında süqut etməsi öz rifahı və səadətini başqasının fəlakəti və öz bədbəxtliyi üzərində qurmağa çalışanlara ibrət dərsi olmalıdır".[66]

Bakıya köçdükdən sonra Azərbaycan hökuməti Bakı Xalq Komissarları Sovetinin bütün tədbirlərinin ləğv olunduğunu e'lan etdi və özünün sosial islahatlarını həyata keçirməyə başladı.

Azərbaycan hökumətinin respublikanın bütün ərazisində hakimiyyətini bərpa etməsi hələ onun tam suverenlik əldə etdiyi demək deyildi. Türk qoşunlarının burada olması vəziyyəti mürəkkəbləşdirirdi. Azərbaycan hökuməti ilə türk hərbi komandanlığı arasında münasibətlər sadə deyildi.

Real hərbi qüvvəyə malik olaraq, Nuru paşa bölgədə baş verən bütün hadisələri öz nəzarəti altında saxlamağa çalışırdı və bununla hesablaşmaq lazım gəlirdi. Müxtəlif yaşayış məntəqələrində türk qarnizonlarının rəisləri bir çox hallarda Azərbaycan mə'murları ilə hesablaşmır və öz bildikləri kimi hərəkət edirdilər. Gəncə qubernatoru hökumətə mə'ruzəsində bildirirdi ki, türk zabitləri vəzifəli şəxslərin sərəncamlarına müdaxilə edir və hətta sonuncuları özləri tə'yin edir. Şuşa qəza rəisinin 1918-ci

ilin sentyabrında Xarici İşlər Nazirliyinə göndərdiyi teleqramda deyilirdi ki, "Şuşanın türk komandantı bütün hakimiyyəti öz əlinə alaraq heç kimi tanımaq istəmir".[67]

Türk hərbi hakimiyyət nümayəndələrinin bu cür hərəkətləri respublika hökumətinin e'tirazını doğururdu. Hələ 1918-ci il avqust ayının 23-də F.Xoyski M.Rəsulzadləyə yazdığı məktubunda qeyd edirdi: "Nuru paşanın siyasəti bizim daxili işlərimizə getdikcə daha çox qarışmağa meyl edir".[68]

Bir həftə bundan sonra F.Xoyski bu haqda belə yazırdı: "Mən belə hesab edirəm ki, bütün üsul-idarə Azərbaycan hökumətinin əlində cəmləşməlidir, türk hərbi hissələri isə özünün bütün arzu və tələblərini hökumətə yönəltməli və onun vasitəsi ilə həyata keçirməlidir və hazırda baş verdiyi kimi, bilavasitə idarəetmə işlərinə qarışmamalıdır".[69]

Yaranmış vəziyyəti səciyyələndirərək, Nuru paşaya müraciətində F.Xoyski sonradan yazırdı ki, Azərbaycan qəzalarında ikihakimiyyətlilik müşahidə olunur. "Son zamanlar Osmanlı imperiyasının hərbi qulluqçularının Azərbaycanın daxili idarəetmə işlərinə qarışması və Azərbaycan hökumət orqanları ilə tamamilə hesablaşmaması halları getdikcə artır".[70]

O, həmçinin türk hərbi hakimiyyət nümayəndələrinin müntəzəm olaraq Dəmir Yolu İdarəsinin işlərinə qarışdığını və bununla da ona ziyan vurduğunu göstərirdi.[71]

Birinci dünya müharibəsi illərində Türkiyənin iqtisadiyyatı ağır vəziyyətdə idi və neftə ehtiyac duyurdu. Tamamilə aydındır ki, Türkiyə hökuməti Bakı neft mə'dənlərinə böyük maraq göstərirdi. Bakı azad edildikdən sonra türk komandanlığının ilk sərəncamlarından biri bütün mə'dən işçilərinin dərhal işə çıxması haqqında əmr idi.[72] Türkiyə hökumətinin maliyyə müşaviri Həmid bəy M.Rəsulzadə ilə söhbətində mə'dənləri satmağı və icarəyə verməyi ləğv edən və bu cür sövdələri qüvvədən düşmüş e'lan edən qanun



qəbul olunmasını təklif etdi.[73] O, həm də bildirdi ki, tezliklə özü Bakıya gələcək.

Yaranmış şəraitdə Azərbaycan hökuməti Türkiyə ilə bir sıra müqavilələr imzaladı.

1918-ci il 16 sentyabr tarixli müqaviləyə əsasən, Azərbaycan Türkiyə hökuməti adından fəaliyyət göstərən Gelcas Dəmir Yolları Şirkəti İdarəsinə 2 milyon türk lirəsi həcmində müxtəlif mallar, o cümlədən ərzaq malları verməli idi. Bundan başqa, Osmanlı Dəmir Yolları və hərbi Limanlar İdarəsi ilə imzalanmış xüsusi müqavilənin şərtlərinə görə Azərbaycan Türkiyəyə 1 milyon türk lirəsi məbləğində neft, pambıq, yun və digər məhsullar verməli idi.[74]

Türk komandanlığı tərəfindən neft məhsullarının daşınması üçün Bakı-Batum ağ neft kəmərinin tə'miri üçün tədbirlər görüldü. Eyni zamanda, Batumdan keçməklə Bakıdan Türkiyə və Almaniya üçün gündə ən azı 23 neft sisternindən ibarət qatarlar yola salınmağa başlandı.[75]

Azərbaycandan neft gətirilməsi Türkiyə iqtisadiyyatının vəziyyətini bir qədər yüngülləşdirməyə kömək etdi. Türk tarixçisi Əhməd Rəfiqin qeyd etdiyi kimi, o günlər neftdoldurma gəmiləri bir-birinin ardınca Batumdan İstanbula yola düşürdü.[76] Bakıdan neft və ağ neftin kütləvi surətdə gətirilməsi nəticəsində İstanbulda onların qiyməti 10 dəfə azaldı.[77]

Türkiyə Azərbaycandan neft deyil, həm də pambıq və ipək də alırdı. 1918-ci il sentyabr ayının sonuna Batumdan təqribən 200.000 pud Azərbaycan pambığı daşındı. Bundan başqa Qars-Ərzurum karvan yolu ilə böyük miqdarda pambıq çıxarıldı.[78]

Azərbaycan Cümhuriyyəti müttəfiq türk qoşunlarının təchizatını tə'min etməli idi ki, bu da xeyli maddi vəsait tələb edirdi. Hökumətin 21 iyun 1918-ci il tarixli qərarına görə müttəfiq ordunun saxlanılması üzrə bütün xərclər Azərbaycan əhalisinin üzərinə qoyulurdu. Bu məqsədlə hökumət 1918-ci il sentyabr ayının 26-dan

noyabr ayının 5-nə qədər türk komandanlığına 11 milyon manat ayırdı.[79]

Azərbaycan kəndliləri türk ordusunun saxlanılmasına xüsusi vergi-zəkat verirdi. Kəndlilər yalnız yığdıqları bütün taxıl məhsulunun 1/10 hissəsini deyil, həm də yığılmış üzüm, pambıq, ot və s. məhsulların bir qismini zəkat kimi verməli idi. Kəndlidə olan mal-qaraya da zəkat alınırdı. Yığılmış məhsullar türk intendantının sərəncamına daxil olurdu. Əldə olan mə'lumata görə, Azərbaycanda olan türk ordusunun ərzaqla tə'minatına 1,3 milyon puda qədər taxıl tələb olunmuşdu.[80]

Hökumətin Bakıya köçməsi ilə milliləşdirilmiş neft sənayesinin əvvəlki sahiblərinə qaytarılmasına hazırlıq başlanıldı. Sentyabrın 22-də bu məsələ üzrə xüsusi komissiyanın ilk iclası oldu. Ona hökumət və ən iri firmalarm nümayəndələri daxil idi. Komissiya neft sənayesinin tezliklə əvvəlki sahiblərinə qaytarılması haqqında xüsusi dekret e'lan olunmasını zəruri saydı. O, sahibkarlara fəhlə və qulluqçuların işə götürülməsi və işdən çıxarılması üzrə müstəsna hüququn verilməsi, sənaye üzərində fəhlə nəzarətinin ləğv olunmasını təklif etdi.[81]

Oktyabrın 5-də Azərbaycan Nazirlər Şurası neft sənayesinin əvvəlki sahiblərinə qaytarılması haqqında qərar qəbul etdi. Bunun əsasında, oktyabrın 7-də neft mə'dənləri və zavodların, Xəzər Ticarət donanması gəmilərinin neft firmaları və gəmi sahibkarlarına qaytarılması haqqında dekret qəbul etdi və bununla da bolşeviklərin pozduğu özəl mülkiyyət prinsipini bərpa etdi.[82]

Səkkizsaatlıq iş günü, kollektiv müqavilə və istehsal üzərində fəhlə nəzarəti ləğv olundu. Bununla əlaqədar, 1918-ci il oktyabr ayının 12-də neft sənayeçilərinin nümayəndələrini qəbul edərkən ticarət və sənaye naziri Behbudxan Cavanşir dedi: "Hökumət fikir verəcək ki, fəhlələr öz işi ilə məşğul olsun və müəssisələrin idarə olunmasına qarışmasın. İstehsal üzərində fəhlə nəzarəti



və müdiriyyətin sərəncamlarına qarışmağa yol vermək olmaz".[83]

Bakı XKS-nin torpaq haqqında dekretinin ləğvi hökumətin aqrar məsələdə atdığı mühüm addım idi. Torpağın torpaq sahibkarlarının mülkiyyəti olduğu təsdiq edildi. Bununla belə, əkinçilik naziri Xosrov bəy Sultanov "Kaspi" qəzetinin əməkdaşı ilə söhbətində bildirdi ki, kəndlilərə torpaq pulu əsasında torpaq veriləcək, həm də ki, torpaq pulunu onların əvəzinə hökumət verəcək.[84]

Hökumətin gördüyü tədbirlərə baxmayaraq, Azərbaycanda siyasi vəziyyət getdikcə kəskinləşirdi və bu, xeyli dərəcədə, beynəlxalq şəraitin dəyişməsi ilə əlaqədar idi.

Almaniya və Türkiyənin Birinci dünya müharibəsinin cəbhələrində məğlubiyyəti Azərbaycan üçün əlavə çətinliklər doğurdu. Oktyabrın 30-da Türkiyə Antanta ilə Mudrosda barışıq imzaladı. Mudros müqaviləsinin 2-ci maddəsinə əsasən, Türkiyə Cənubi Qafqazdan öz qoşunlarını çıxarmalı idi, 14-cü maddədə isə Antantanın hərbi qüvvələrinin Bakı və Batuma daxil olması, həmçinin bu ərazinin bütün dəmir yolu, o cümlədən Azərbaycan dəmir yolu şəbəkəsi üzərində nəzarəti nəzərdə tutulurdu.

Müqavilənin göstərilmiş maddələri Azərbaycan Cümhuriyyətinin razılığı və xəbəri olmadan imzalandığı üçün müqavilə onun tərəfindən müvafiq münasibət doğurmaya bilməzdi.

Azərbaycanın fövqəl'adə səlahiyyətli naziri kimi Ə.Topçubaşov 1918-ci il noyabr ayının 4-də Türkiyənin xarici işlər nazirinə "mövcud hüquq və qaydaların pozulduğu" həmin müqaviləyə qarşı e'tirazını bildirdi. Onun fikrincə, müqavilə "Azərbaycanm işğalını asanlaşdırır və bu, ölkəni təhlükə qarşısında qoyur". Ə.Topçubaşov qeyd edirdi ki, Azərbaycan Cümhuriyyətinə məxsus olan dəmir yolunun xarici dövlətə verilməsi beynəlxalq hüquq normaları ilə bir yerə sığmır, yalnız Azərbaycan və Türkiyə hökumətləri arasında bundan əvvəl imzalanmış müqavilə yalnız türk qoşunlarının daşınmasına aid idi.

Əlbəttə, e'tiraz yaranmış beynəlxalq vəziyyətdə heç bir dəyişiklik edə bilməzdi. Cavab notasında Türkiyə Xarici İşlər Nazirliyi göstərirdi ki, Antanta ilə barışıq şərtlərini yerinə yetirərkən, Sultan hökuməti ingilis qoşunlarının Bakını tutması ilə bağlı yarana biləcək münaqişədən kənarda qalmaq istəyir.

Türkiyənin arxasınca, 1918-ci ilin noyabr ayında Almaniya da məğlub oldu, kayzer II Vilhelmin hökuməti devrildi. Atlanta ilə sülh şərtlərinə görə, Almaniya öz qoşunlarını Gürcüstandan çıxartmalı idi.

1918-ci ilin noyabr ayında türk və alman qoşunları Cənubi Qafqazdan çıxarıldı. Bu zaman türk hərbi eşolonları rəislərinin özləri ilə böyük miqdarda ərzaq apardığı hallar da olurdu.

Bir sıra bu cür halları qeyd edərək, Nuru Paşaya müraciətində F.Xoyski yazırdı: "Mahiyyət e'tibarilə, bu məhsulların çıxarılmasına qarşı e'tiraz etməyərək, bununla belə, mən hesab edirəm ki, bu, ölkədə mövcud olan müvafiq qanun və hökumət qərarlarının gözlənilməsi ilə yerinə yetirilməlidir". O, əmin olduğunu bildirirdi ki, həmin qanunların gözlənildiyi təqdirdə Azərbaycan hökumət orqanlarının özləri "Azərbaycan türklərinin həyatı və əmlakı naminə hər cür məhrumiyyətə dözən, qanlarını axıdan və həyatlarını qurban verən türk hərbi hissələrinin ehtiyaclarının ödənilməsi üçün tədbirlər görəcək".[85]

Baş nazirin bu sözlərində Azərbaycan tarixinin ən ağır anlarından birində onun köməyinə gəlmiş türk əskərlərinə dərin minnətdarlıq ifadə olunmuşdu.

## *§ 4. Böyük Britaniya qoşunlarının Azərbaycana gəlməsi*

Mudros müqaviləsinin şərtlərinə əsasən, Azərbaycana ingilis qoşunları yeridildi. İngilis komandanlığının Azərbaycan Cümhuriyyətinin müstəqilliyi ideyasına necə yanaşacağını heç kəs bilmirdi. Hələ Ənzəlidə olarkən, ingilis qoşunlarının komandanı general-mayor V.İ.Tomson rus "müttəfiqlərini" hər cür inandırmağa çalışırdı ki, o, Rusiyanın 1914-cü ildəki sərhədləri daxilində bərpa olunması tərəfdarıdır və yeni yaranmış dövlət qurumlarını tanımır.[86]

Əvvəlcə ingilis komandanlığı Azərbaycan hökuməti ilə hesablaşmamağa cəhd edirdi. Belə ki, ingilislərin Bakıya gəlməsindən bir qədər əvvəl Ənzəliyə getmiş Azərbaycan nümayəndə hey'əti (N.Usubbəyov, M.Hacınski və b.) general Tomsona respublika hüdudlarına daxil olmamışdan əvvəl Azərbaycanın müstəqilliyini tanımağı təklif etdikdə, o, bu tələbi, "Azərbaycan Cümhuriyyəti adı altında bizə yalmz xalq kütlələri içərisində heç bir dayağı olmayan, türklərin intriqaları ilə yaradılmış hökumət mə'lumdur"[87] bəhanəsi ilə yerinə yetirməkdən qəti surətdə imtina etdi.

Bu zaman Xoyski diplomatik məharət üsullarını nümayiş etdirdi. 1918-ci il noyabrın 16-da Azərbaycan Nazirlər Şurasının sədri Fətəlixan Xoyski Ənzəlidə olan V.İ.Tomsona məktubla müraciət edərək ingilis qoşunlarının Bakıya daxil olmasının "Azərbaycan müstəqilliyinin və onun ərazi bütövlüyünün pozulmasına xidmət" etməyəcəyinə ümidvar olduğunu bildirdi.[88]

Azərbaycan nümayəndə hey'əti və general V.İ.Tomson arasında Ənzəlidə imzalanmış müqavilənin şərtlərinə görə, müttəfiq qoşunların komandanlığı hakimiyyətini yalnız Bakı quberniyasına aid etməyi söz verirdi. İngilislər Azərbaycan hökumətinin daxili işlərinə qarışmayacaqlarına söz verirdilər. Strateji məntəqə kimi, Bakı Denikinin ağqvardiyaçı ordusuna kömək edən Antantanın planlarında mühüm rol oynayırdı.

1918-ci il noyabr ayının 17-də özünü şəhərin hərbi qubernatoru e'lan etmiş general Tomsonun başçılığı ilə ingilis qoşunları Bakıya daxil oldu. Polkovnik F.P.Kokkerel müttəfiq dövlətlərin Bakıda komissarı tə'yin edildi. Bakıda ingilis qoşunlarının ümumi sayı 5 min əsgərdən ibarət idi.[89]

Qoşunlar Bakıya daxil olan zaman, general Tomson limanda İngiltərə, ABŞ, Fransa, İtaliya bayraqları ilə birlikdə Xalq Cümhuriyyətinin də bayrağının asıldığını gördükdə, onu dərhal götürmək əmrini verdi.[90]

M.Rəsulzadə öz xatirələrində yazırdı: "17 təşrini-sanidə iki Bakı vardı: Məhzun müsəlman Bakısı ilə məmnun xristian Bakısı".[91] İki gündən sonra komandanlıq müsəlman əhalisini kədərləndirən müraciətnamə dərc etdi. Burada "qalib e'tilaf ordusunun məmləkətə dönmədən əvvəl zəfəri-müştərəkə bunca xidmətləri dəyən fədakar rus xəlqinə ədai-dinşüküran etmək vəzifələrindən olduğu və bu vəzifənin iflası üçün Rusiyadan qoparılmış Qafqasiyanın düşməndən təxliyyəsi üçün Ufada təşəkkül edən rus hökuməti ilə bile'tilaf buraya gəlindiyi"[92] qeyd edilirdi.

Bu müraciətnamənin bağışladığı ağır təəssürat, ingilis qoşunları ilə gəlmiş biçeraxovçu və erməni dəstələrinin qalıqları, Azərbaycan bayrağının götürülməsi haqda əmr - bütün bunlar hər dəqiqə təxribata çevrilə bilərdi. Bu qədər siyasi çətinliklər qarşısmda Azərbaycan siyasi xadimləri üçün istiqlaliyyətin əsaslarına sadiq qalmaq, müvazinəti saxlamaq və sarsılmaz olmaq həqiqətən çətin idi. "Bu müşkülat məvvacihəsində istiqamətlərini 360 dərəcə dəyişənlər vardı. Milliyyətpərvərliklərinə şübhə edilməyən bə'zi zəvati möhtərəm belə hasil olan və xaməti anlamaq üçün "istiqlaldan istinkaf" təklifini tədqiq etmək zə'finə düşdülər".[93] - deyə M.Ə.Rəsulzadə yazırdı. Əhmədbəy Ağayev "vahid və bölünməz Rusiya uğrunda" Rusiya Milli Şurası ilə tələsik danışıqlara başladı və açıqcasına ərz etdi ki, guya Azərbaycan müstəqil yaşamağa qadir deyil. Lakin demokratiyanın yenilməzliyi və dəstəyi Azərbaycan istiqlaliyyəti prinsipinin özünü müdafiə etməyə kömək etdi.

General Tomsonun əmri ilə Bakıda "mülki hakimiyyətin gücü ictimai asayişin qorunması üçün ordunu məs'uliyyətdən azad edə biləcək dərəcədə güclü olana"[94] qədər hərbi vəziyyət e'lan edildi.



1918-ci il noyabr ayının 19-da general Tomson hərbi dövr qanunlarının pozulmasına görə cəzalar haqqında əmr verdi. Bu əmrə görə, müttəfiq orduların hərbi rütbəli şəxsləri və Rusiya hökumətinə xidmət edən şəxslər (ağqvardiyaçı zabitlər nəzərdə tutulurdu) istisna olmaqla, xüsusi icazə olmadan silah gəzdirmək, iclas və tə'til keçirmək qadağan edilir, xüsusilə ciddi cinayətlərə görə ölüm cəzası nəzərdə tutulurdu.[95]

Bakıda hərbi vəziyyətin e'lan edilməsi ilə ingilis komandanlığı əslində şəhərdə və Bakı quberniyasında bütün inzibati hakimiyyəti öz əlinə alırdı. Bütün məhkəmə və icra hakimiyyəti də general Tomsonun sərəncamına verilirdi.

Bunun təsdiqi olaraq, 1918-ci il noyabr ayının 29-dan Xəzər Donanmasının bütün ticarət gəmiləri ingilis komandanlığının sərəncamına keçdi.[96] Ticarət Donanmasını idarə etmək üçün başda mayor Braun olmaqla "İngiltərə Dəniz Nəqliyyatı" şirkəti tə'sis olundu. Bununla ingilislər "vahid, bölünməz Rusiya"nın bərpası işində Denikin ordusuna kömək etmək məqsədilə Xəzər dənizi üzərində nəzarəti bütünlüklə öz əllərinə aldılar.

Bakıdan başqa, Mudros sülhü şərtlərinə görə, ingilislər Batumu tutdular və Zaqafqaziya Dəmir Yolunu öz nəzarətləri altına götürdülər. Beləliklə, Qara dənizdən Xəzər dənizinə qədər mühüm strateji əməliyyat meydanı onların əlinə keçdi.

Bununla əlaqədar Böyük Britaniyanın o zamankı hərbi-dəniz naziri U.Çörçill yazırdı: "Britaniya qoşunları Batuma çıxarıldı və cəld Qara dənizdən Xəzər dənizinə qədər, başqa sözlə, Bakıya qədər Qafqaz dəmir yolunu tutdu. Britaniyalılar tezliklə Xəzər dənizində onlara üstünlük tə'min edən donanma yaratdılar. Britaniya qoşunları dünyanın ən böyük strateji xətlərindən birinə sahib oldu.[97]

Bu məqsədlə "Britaniya Neft İdarəsi"ni tə'sis edərək, ingilislər neft sənayesini də öz nəzarəti altına almağa çalışırdılar. Britaniya "Bibiheybət" neft şirkətinin sədri Herbert Alen 1918-ci ilin dekabr ayında Londonda

bildirirdi: "Britaniya rəhbərliyi altında lazımi surətdə təşkil olunmuş və geniş maliyyələşdirilən Rusiya neft sənayesi Britaniya imperiyası üçün dəyərli gəlir mənbəyi ola bilər".[98]

Doqquz ay ərzində (1918-ci ilin dekabrından 1919-cu ilin avqustuna qədər) ingilislər tərəfindən Bakıdan 113,5 milyon manatlıq, 30 milyon puda qədər neft çıxarılıb.[99] İngilislərin Bakıdan apardığı bütün neft məhsullarına heç bir aksiz rüsumları qoyulmur və onlar yubandırılmadan buraxılırdı. Tomson Azərbaycan Cümhuriyyəti Dəmir Yolu işçilərinə ingilis zabitlərinin yükünü, həmçinin qatarda gedən zaman onların sənədlərini yoxlamağı qadağan etdi.

Bundan başqa, ingilislər Azərbaycan hökumətinin üzərinə Bakının, həm də onların əlində olan ticarət limanının maliyyələşdirilməsini qoymuşdu. Bütün bunlar yerli hökumətin olduqca ağır vəziyyətinə şəhadət edirdi və bu vəziyyət, şübhəsiz, daxili müxalifətin fəallaşması ilə daha da çətinləşdirilirdi. Artıq noyabrın 17-də axşam, müttəfiq qoşunlarının Bakıya gəldiyi gün, Rus Milli Şurasının üzvləri M.Podşibyakin, Y.Smirnov, V.Baykov və A.Leontoviç özlərini şəhərin əsl sahibləri kimi qələmə verməyə çalışıraq, general Tomsonun qəbuluna tələsirdilər. "Vahid və bölünməz Rusiya"nın tərəfdarları kimi çıxış edərək, kadetlər öz adlarından və Erməni Milli Şurasının adından lap əvvəldən güman edilən koalisyon hökumətində iştirakdan imtina etdilər. Rus kadetlərinin təkəbbürlü şüarı belə idi: "Rusiya vahid və bölünməzdir, Azərbaycan onun tərkib hissəsi olub və olaraq qalacaq".

Lakin general-qubernatora Bakıdakı siyasi vəziyyətlərlə tanış olmaq üçün bir neçə gün kifayət idi ki, kadetlərin Azərbaycan Cümhuriyyətinin guya bir neçə yüz siyasi fırıldaqçılarının uydurması olduğu haqda iftiralarını təkzib etsin. Tomson qeyd edirdi ki, "F.Xoyskinin hökuməti ölkədə fəaliyyət göstərən yeganə mülki hakimiyyət olaraq qalır". İngilislərdə "onlara səmimi kömək edənlərdən biri"[100] adlandırdıqları Azərbaycan baş naziri haqqında yüksək fikir formalaşmışdı.



QEYDLƏR

## *§ 1. Birinci dünya müharibəsinin başa çatması dövründə böyük dövlətlərin Azərbaycan uğrunda mübarizəsi*


1. Искендеров М.С. Из истории борьбы коммунистической партии Азербайджана за победу Советской власти. Баку, 1958, с.345.
2. Ллойд Джордж Д. Военные мемуары, т.VI, с.98.
3. The Times, 1926, July 10.
4. Соловьев О.Ф. Великий Октябрь и его противники. Москва, 1966,с.222-223.
5. Людендорф Э. Мои воспоминания о войне 1914-1918 гг. Москва, т.I, с.200.
6. Папия Т. Политика Германии в Закавказье 1918 г. Тбилиси, 1971, с.58-59.
7. Там же.
8. Там же.
9. Борьба, 1918, 22 июня.
10. Həsənov C. Azərbaycan beynəlxalq münasibətlər sistemində. 1918-1920. Bakı, 1993, s.101.
11. ARDA, f.894, s.10, iş 30, v.2.
12. Yenə orada, f.970, s.1, iş 7,v.52-53.
13. Yenə orada, f.894, s.10, iş 30, v.2.
14. Yenə orada, f.970, s.11, iş 153, v.4.
15. Большевик (журнал), 1938, N 2, с.30.
16. Документы по истории гражданской войны в СССР, т.1, с.289-290.
17. Там же.
18. ARDA, f.970, s.1, iş 7, v.51.
19. Yenə orada, v.41-45.
20. Yenə orada, v.53.
21. Yenə orada, v.51.
22. Yenə orada, s.3, iş 38, v.4.
23. Yenə orada.
24. Yenə orada, s.1, iş 7, v.37-38.

## § 2. *Azərbaycanın istiqlaliyyəti və ərazi bütövlüyü uğrunda müharibənin başlanması. Osmanlı ordusunun Bakıdakı düşmən qüvvələrin məhv edilməsində köməyi*

25. ARDA, f.1061, s.1, iş 95, v.59.
26. RFDA, f.1, s.2, iş 8, v.417.
27. Наджафов Б. История армянского национализма в Закавказье в конце XIX - начале XX в. Баку, 1994,c.75.
28. Rəsulzadə M.Ə. Azərbaycan Cümhuriyyəti, s.37-38.
29. Азербайджан, 1918, 13 ноября.
30. Там же.
31. ARDA, f.894, s.2, iş 88, v.1.
32. Yenə orada, v.1-3.
33. Грузия, 1919, 18 января.
34. ARDA, f.970, s.2, iş 1, v.13.
35. Askeri mecmua, 1934, N 34, c.6.
36. Ларше М. Участие Турции в мировой войне. c.420.
37. Борьба, 1918, 30 июня.
38. ARDA, f.970, s.1, iş 7, v.43.
39. Лудшвей Е. Турция в годы первой мировой войны. Москва, 1966, c.219.
40. Мадатов Г.А. Победа советской власти в Нахичевани и образование Нахичеванской АССР. Баку, 1967, cçh.52.
41. ARDA, f.970, s.1, iş 7, v.43.
42. Yenə orada, v.51.
43. Askeri mecmua, N 34, 1934, c.19-20.
44. Борьба, 1918, 30 июня.
45. Askeri mecmua, 1934, N 34, c.27.
46. Yenə orada, s.24.
47. Борьба, 1918, 4 июля.
48. Там же, 20 июля.
49. Там же.



50. Дарабади П.Г. Военные проблемы политической истории Азербайджана начала XX века. Баку, Элм, 1991, c.117.
51. Azərb.EA Tarix İnstitutunun elmi arxivi, f.1, s.9, i.ş 47, v.22.
52. Yenə orada.
53. Борьба, 1918, 20 июля.

## § 3. *Azərbaycan Cümhuriyyəti hakimiyyətinin Azərbaycanın bütün ərazisində bərqərar edilməsi*

54. Mirzə Bala Məmmədzədə. Azərbaycan milli hərəkatı. Bakı, 1992, s.99.
55. Искра, 1918, 14 августа; Заря, 1919, 14 мая.
56. Rəsulzadə M.Ə. Azərbaycan Cümhuriyyəti, s.40.
57. Yenə orada.
58. Азербайджан, 1918, 10 декабря.
59. Rəsulzadə M.Ə. Azərbaycan Cümhuriyyəti, s.41.
60. Денстервил. Британский империализм в Баку и Персии в 1917-1918 гг. Тифлис, 1925, c.163-164.
61. ARDA, f.970, s.1, iş 30, v.1.
62. Светоховский Т. Русский Азербайджан. Хазар, N 3, c.37.
63. Azərbaycan, 1918, 9 dekabr.
64. ARDSPİHA, f.276, s.7, iş.253, v.1.
65. Mehmetzade. M. Milli Azerbaycan hareketi, p.98.
66. Азербайджан, 1918, 19 сентября.
67. ARDA, f.82, s.2, iş.28, v.1a.
68. Yenə orada, f.970, s.3, iş 7, v.22.
69. Yenə orada.
70. Yenə orada, f.894, s.10, iş 47, v.1.
71. ARDSPİHA, f.277, s.3, iş 17, v.1.
72. Жизнь национальностей, 1918, 9 декабря.
73. Там же.
74. ARDSPİHA, f.277, s.2, iş 336 v.34.
75. Yenə orada, s.1, iş 1, v.28.

76. Шамсаддинов А. Участие Турции в интервенции против России в 1918 году. Ученые записки Института востоковедения, т.XIV. М., 1956, с.193.
77. Жизнь Национальностей, 1918, 8 декабря.
78. Пания Г. Указ. соч., с.202-203.
79. ARDA, f.24, s.1, iş 32, v.32.
80. Yenə orada, f.77, s.1, iş 270, v.13.
81. Заря Востока, 1928, 1 апреля.
82. Азербайджан, 1918, 7 октября.
83. Заря Востока, 1928, 1 апреля.
84. Грузия, 1918, 4 октября.
85. ARDA, f.894, s.10,. iş 30, v.3.

## § 4. *Böyük Britaniya qoşunlarının Azərbaycana gəlməsi*

86. ARDA, f.894, s.10, iş 98, v.8.
87. Rəsulzadə M.Ə.Azərbaycan Cümhuriyyəti. s.45.
88. Азербайджан, 1918, 18 ноября.
89. Токаржевский Е.А. Из истории иностранной интервенции и гражданской войны. с.232.
90. Там же.
91. Rəsulzadə M.Ə. Azərbaycan Cümhuriyyəti, s.45.
92. Yenə orada, s.45-46.
93. Yenə orada, s.47.
94. Азербайджан, 1918, 29 ноября.
96. Там же.
97. Черчилль У. Мировой кризис. Москва, 1932, с.105.
98. Токаржевский Е.А. Указ. соч., с.185.
99. Azərbaycan arxivi, 1989, N 1-2, s.230.
100. Həsənov C. Azərbaycan beynəlxalq münasibətlər sistemində, s.150.



# ÜÇÜNCÜ FƏSİL

## AZƏRBAYCAN MİLLİ DÖVLƏTÇİLİYİN TƏŞƏKKÜLÜ VƏ İNKİŞAFI DÖVRÜNDƏ

### § 1. *Azərbaycan cəmiyyətində demokratik dəyişikliklərin başlanması. Azərbaycan parlamentinin formalaşması. F.Xoyskinin ikinci hökumət kabinetinin yaradılması*

Respublikanın mürəkkəb xarici siyasi şəraiti Avropa demokratiyası ilə sıx rabitə yarada biləcək nümayəndəli orqanın sür'ətlə formalaşdırılması zərurətini diktə edirdi.

Hələ 1918-ci il iyunun 17-də Milli Şuranın özünü buraxması haqqında qətnamə qəbul olunmuş və altı ay müddətində Azərbaycanın ali qanunverici orqanının - ümumi, gizli və birbaşa səsvermə əsasında seçilmiş Müəssislər Məclisinin çağırılması vəzifəsi irəli sürülmüşdü. Milli Şuranın müəyyən etdiyi müddət 1918-ci il dekabrın 16-da başa çatırdı.

1918-ci il sentyabrın 14-də hökumət Müəssislər Məclisinə seçkilər üzrə (F.Xoyskinin sədrliyi ilə) komissiya yaratmış, oktyabrın 21-də isə Müəssislər Məclisinə seçkilər haqqında qanun hazırlamaq üçün əvvəlkindən daha geniş təmsil olunmuş bir komissiya (M.Rəfiyevin sədrliyi ilə) tə'sis etdi, amma müxtəlif səbəblərə görə bu komissiyalar əməldə heç bir şey edə bilmədilər.

Birinci dünya müharibəsinin qurtarmasından sonra beynəlxalq münasibətlərdə yeni sistem yaratmalı olacaq sülh konfransının vaxtı yaxınlaşırdı. Bu vəziyyət tələb edirdi ki, Azərbaycanın bu konfransında onu təmsil edə

biləcək hansısa bir siyasi orqanı olsun. "Kaspi" qəzetinin yazdığı kimi "Sülh konfransı və ümumiyyətlə, siyasi məsələlərin müharibə edən ölkələr tərəfindən həll edilməsi Azərbaycanın Müəssislər Məclisinə seçkilər keçirilməsini gözləməyəcəkdir. Biz kənarda qala bilərik, orada isə, məsələn, Bakı şəhərinin Azərbaycanın tərkibindən çıxarılması və ya bundan da daha pis qərar qəbul edə bilərlər."[1]

Müəssislər Məclisinə seçkilər üzrə komissiya bu nöqteyi-nəzərdən çıxış edərək müvəqqəti parlament yaratmağı təklif etdi. Noyabrın 5-də komissiya özünün ilk iclasında "Milli Şuranın tə'yin etdiyi vaxtda Müəssislər Məclisini çağırmağın qeyri-mümkün olduğunu, lakin siyasi şəraitin xalq nümayəndələrinin siyasi məsələlərin həll olunmasında iştirakını tələb etdiyindən, bu qənaətini bildirdi ki, tə'cili olaraq sadələşdirilmiş şəkildə müvəqqəti Azərbaycan parlamenti çağırılsın".[2]

Əsas çətinlik bu parlamentin yaradılmasında idi. Mürəkkəb siyasi şəraitdə onun ümumxalq seçkilər yolu ilə formalaşdırılması mümkün deyildi. Kooptasiya və ya tə'yinetmə metodu da bu dövrdə qərb ölkələrində mövcud olan seçki prinsiplərinə uyğun gəlməyəcəkdi, belə ki, həmin halda dünya ictimaiyyəti onu bütün xalqın mənafeyini təmsil edən orqan kimi tanımayacaqdı.

Buna görə də yeganə mümkün hal, üzvləri Ümumrusiya Müəssislər Məclisinə ümumxalq seçkiləri əsasında seçilmiş Milli Şuranın əvvəlki tərkibdə bərpa olunması ola bilərdi.

Buna əsaslanaraq, respublika hökumətinin 1918-ci il 9 noyabr qərarı ilə Milli Şuranın çağırılması noyabrın 16-a tə'yin edildi. Seçki qanunu hazırlamaq üçün M.Rəsulzadə, M.T.Rəfiyev və H.T.Ağayevdən ibarət xüsusi komissiya təşkil edildi.

Beş aylıq fasilədən sonra - 1918-ci il noyabrın 16-da yığışan Milli Şura hazırkı fövqəl'adə şəraitdə Müəssislər Məclisinin çağırılmasının qeyri-mümkünlüyü ilə əlaqədar olaraq özünü parlamantə çevirməyi qərara aldı.



Yaradılmış komissiya Azərbaycan parlamenti yaradılması haqqında qanun hazırladı və o, 1918-ci il noyabrın 19-da Milli Şura tərəfindən qəbul olundu.

Qanuna görə, bir palatalı parlamentə seçkilər gizli keçirilirdi. Azərbaycanın liderləri çox böyük həssaslıq göstərərək ingilislərin demokratiyaya aludəçiliyini nəzərə alaraq, seçkilərin əsasən milli təmsilçilik prinsipini daxil etmişdilər. Bununla, onlar respublikada milli barışığın əldə edilməsii üçün real şərait yaratmış olurdular.

Buna əsaslanan Azərbaycan Milli Şurası noyabrın 25-də Erməni və Rus Milli Şuralarına öz nümayəndələrini parlamentə göndərmək təklifi ilə müraciət etdi. Əvvəlcə hər iki şura mənfi cavab verdi. Ermənilər siyasi və milli-mədəni talelərindən gileylənərək, öz şuralarını bütövlükdə ermənilərin mənafeyini təmsil etmək hüququnda olmadığını bildirdilər.[3] Cənubi Qafqaz respublikalarının öz müstəqilliklərini e'lan etmələrinə baxmayaraq Rus Milli Şurasının əsas dəlili bundan ibarət idi ki, o, Ümumrusiya Müəssislər Məclisi və Sülh konfransının qərarınadək bütün Cənubi Qafqazı Rusiya dövlətinin bir hissəsi kimi hesab edir. "Rusiyanın iradəsini bilmədən bizim, nə Azərbaycan Cümhuriyyətini, nə də onun parlamentinin tanımağa haqqımız yoxdur".[4] Lakin milli azlıqların sabotajı Azərbaycan hökumətinin əzmini qıra bilmədi, və o, bəyan etdi ki, hətta milli azlıqlardan heç birisi də parlamentdə iştirak etmək istəməsə belə, yenə də o, parlamenti yaradacaq, ona görə ki, ölkənin taleyinin məs'uliyyəti çoxluğun üzərinə düşür. Bu çoxluq, əgər azlıqlar bundan imtina etsə belə ölkəni təklikdə idarə etməlidir.[5] Yalnız general Tomsonun F.Xoyskinin yaratdığı və 1918-ci il dekabrın 26-da[6] parlamentin təsdiq etdiyi hökumətə müttəfiqlər komandanlığın hərtərəfli yardım edəcəyi haqqında bəyanatından sonra Erməni Milli Şurası və Slavyan-rus cəmiyyətləri şurası parlamentə daxil olmaq haqqında qərar qəbul etdilər. Şura Azərbaycan dövlətçiliyini tanımasa da rus əhalisinin mənafeyi naminə, Ümumrusiya Müəssislər Məclisi

çağırılanadək "tərkibinə daxil olan cəmiyyət və təşkilatların üzvlərinin marağının müdafiəsi üzrə birgə iş xatirinə[7] Azərbaycan parlamentinə daxil olmağı mümkün saydı. Beləliklə, bu qüvvələr parlamentə daxil olmaqla, Azərbaycan ideyası ilə olmasa da, Azərbaycan dövlətçiliyi faktı ilə razılaşmalı oldular.

Parlamentin əsas özəyini sabiq Milli Şuranın 44 üzvü təşkil edirdi. Daha 36 müsəlman deputat isə keçmiş milli komitələrin xətti ilə şəhər və qəzalardan seçilmişdi. Şəhər özünüidarəsi və milli komitələri olmayan qəzalarda deputatlar kənd icmaları nümayəndələrinin qurultayı tərəfindən seçilə bilərdilər.[8] Nəzərdə tutulan 120 deputatdan 80 müsəlman əhalisini, 21 erməni, 10 rus, 4 milli azlıqları (alman, yəhudi, gürcü və polyakları) təmsil etməli idilər. Həmkarlar təşkilatlarına 3 yer, neft sənayeçiləri şurası və ticarət-sənaye ittifaqına 2 yer ayrılmışdı. Qanunla ərazi proporsiyası da müəyyənləşdirilirdi:

a) müsəlman əhalisindən - 80 nəfər.
1. Bakı - 5 nəfər
2. Göyçay - 2.
3. Cavad qəzası - 2.
4. Quba qəzası - 2.
5. Lənkəran qəzası - 2.
6. Şamaxı qəzası - 2.
7. Gəncə qəzası - 3.
8. Ərəş qəzası - 2.
9. Cavanşir qəzası - 1.
10. Zəngəzur qəzası - 2.
11. Qazax qəzası - 1.
12. Cəbrayıl qəzası - 1.
13. Nuxa qəzası - 2.
14. Şuşa qəzası - 2.
15. Zaqatala qəzası - 2.
16. İrəvan quberniyasının Azərbaycan hissəsi - 3.
17. Tiflis quberniyasının Azərbaycan hissəsi - 1.



b) Erməni əhalisindən 21 nəfər, Gəncə və Şuşanın hərəsindən 8 nəfər və Bakı Erməni Milli komitəsindən 5 nəfər.
v) Bakı Rus Milli Şurasından - 10- nəfər;
q) Alman Milli Təşkilatından - 1 nəfər;
d) Yəhudi Milli Şurasından - 1 nəfər;
e) Gürcü Milli Şurasından - 1 nəfər;
ə) Polyak Milli Komitəsindən - 1 nəfər;
j) Bakı Həmkarlar İttifaqlarından - 3 nəfər;
z) Bakı neft sənayeçiləri Şurası və Ticarət-sənaye ittifaqından 2 nəfər (müştərək).[9]

Milli Şura, sonra isə Azərbaycan parlamenti bütün siyasi partiyaları da parlamentin işində iştirak etməyə də'vət etdilər. Siyasi partiyaların gələcək parlamentə münasibəti 1918-ci il dekabrın 6-14-də keçirilən və bolşeviklərdən başqa bütün partiyaların iştirak etdikləri demokratik müşavirədə aydınlaşdı. Eser S.Saakyanın tələbi ilə müşavirə vahid və bölünməz Rusiya haqqında məsələni müzakirə etdi. Rus partiyalarının əksəriyyəti - kadetlər, menşeviklər, bölünməz vahid Rusiya ideyasını müdafiə etdilər və yeni yaranmış dövlətlərin tanınmasından və yerli hökumətdə iştirakından imtina etməyə çağırdılar. Azərbaycan milli partiyaları - "Müsavat", "İttihad", "Hümmət" və "Müsəlman sosialist bloku" Rusiya ilə yenidən birləşmək ideyası əleyhinə kəskin çıxış etdilər. Bunu da Azərbaycan milli partiyalarının mövqeyinə yaxın mövqedən çıxış etdi. O, parlamentin və hökumətin yalnız milli təmsilçilik prinsipi əsasında təşkil edilməsini təklif edirdi. Bolşeviklər fəal boykat taktikası e'lan etdilər. Menşeviklərin idarə etdikləri Həmkarlar İttifaqları Şurası da parlamentə qarşı müxalifətə keçdi. Şura əksəriyyəti 6 nəfərin bitərəf qalması ilə parlamentdə iştirak etməmək haqqında qərar qəbul etdi.[10] Hümmətçi menşeviklər parlamentin açılmasına kömək etsələr də, bunun məcburiyyət qarşısında edildiyini bildirirdilər, belə ki, hakimiyyəti öz əllərinə almağa hazır deyildilər. Buna görə də onlar parlament-

dəki fəaliyyətlərini özlərinin inqilabi təbliğat forması kimi qiymətləndirirdilər.[11]

Eserlər partiyası da parlamentdə iştirak etməyin mümkünlüyünü nəzərdən keçirirdi. Bu partiyanın Bakı komitəsi Azərbaycanın öz müqəddəratını tə'yin etməsi ideyasını, yalnız vahid Federativ Rusiya tərkibində mümkün sayırdı. Bu partiyaya görə, Azərbaycan Cümhuriyyəti böyük Rusiya Federasiyasının bərabərhüquqlu üzvü olmaqla zəhmətkeş xalqın normal inkişafını tə'min edə bilər; parlament isə yalnız demrokratik seçkilər keçirilməsi əsasında nüfuzlu orqan ola bilərdi.[12] Demokratik seçkilərin əsası kimi onlar milli təmsilçiliyi deyil, yalnız partiya prinsiplərini qəbul edirdilər. 1919-cu il yanvarın 25-də parlament eser partiyasının Bakı komitəsinin ona 5 yer ayrılması haqqında xahişini müzakirə etdi. "Əhrar" fraksiyası və "bitərəflər" bu xahişi o şərtlə qəbul etdilər ki, onlar sosialist fraksiyasma daxil olsunlar, çünki bu yerlər milli azlıqlar üçün ayrılmışdır. Eserlər özlərini beynəlmiləlçi partiya hesab etdiklərindən heç bir milli komitəyə girməmişdilər. Amma parlamentin partiya prinsipi ilə deyil, milli əsas üzrə yaradılmasına görə qərara alındı ki, milli azlıqlar hesabına eserlərə yer ayrılsın.[13]

Eserlərin parlamentdə iştirakını müdafiə edən M.Rəsulzadə müxalif qüvvənin orada olmasının zəruriliyini bildirdi. "Bizim fəaliyyətimizin tənqid olunması və bizim mövqelərimizə qarşı e'tiraz parlament binasmdan kənarda deyil, parlament tribunasından bildirilməli və həmin tribunadan da ona cavab alınmalıdır".[14] Bununla belə, eserlər parlamentin fəaliyyətində iştirak etmədilər.

Parlamentin işə başlaması ərəfəsində Azərbaycanda siyasi qüvvələrin ümumi düzümü bu cür idi. Azərbaycan parlamentinin açılışı dekabrın 3-nə nəzərdə tutulmuşdu. Parlamentin açılmasının ləngiməsi ingilis komandanlığının Azərbaycan hökumətinə etdiyi təzyiqlərlə bağlı idi. Britaniya ordusu baş qərargahının rəisi S.Stoksun mayor Rolansona göndərdiyi məktubunda ona tapşırılırdı ki,



koalisiyon hökuməti müttəfiqlər komandanlığı tərəfindən tanınmayınca parlamentin açılmasına imkan verməsin.[15]

Belə mürəkkəb şəraitdə Azərbaycan parlamenti dekabrın 7-də H.Z.Tağıyevin qızlar gimnaziyası binasında öz işinə başladı. Onun birinci iclasını Milli Şuranın sədri və "Müsavat" fraksiyasının sədri M.Rəsulzadə açdı. O, ümidvar olduğunu bildirdi ki, müstəqillik xalqımızı sür'ətlə inkişaf etməyə və azad xalqların gələcək birliyinin müstəqil üzvi olmağa imkan verəcək. O, parlament üzvlərinə müraciət edərək onları vətənin mənafeyini və xalqın əmin-amanlığını partiya mənafelərindən üstün tutmağa çağırdı.[16] Sonra M.Rəsulzadə parlamentin sədrini və onun müavinini seçməyi təklif etdi. "Müsavat" fraksiyası adından çıxış edən Ş.Rüstəmbəyov Ə.Topçubaşovu sədrliyə və onun müavinliyinə isə H.Ağayevin namizədliyini irəli sürdü. Ən gənc deputat Rəhim bəy Vəkilov parlamentin katibi seçildi. Bütün namizədlər parlament tərəfindən təsdiq olundular. Topçubaşovun Bakıda olmadığından onun vəzifəsi müvəqqəti olaraq H.Ağayevə həvalə olunmuşdu. Parlamentin cari işlərini idarə etməkdən ötrü sədr, onun müavini və fraksiya nümayəndələrindən ibarət senyor-konvent (məsləhət şurası) seçildi.

"İttihad" partiyasının təklifi ilə parlamentin açılması münasibətilə siyasi məhbuslara amnistiya e'lan edildi.

Sonra baş nazir F.Xoyski hökumətin daxili və xarici siyasəti haqqında hesabat mə'ruzəsi ilə çıxış edib hökumətin səlahiyyətlərini təhvil verilməsi və bütün hakimiyyətin parlamentə keçməsini e'lan etdi. H.Ağayevin təklifi ilə mandat, reqlament və təsərrüfat komissiyalarına seçkilər keçirildi.

Fraksiyaların gələcək fəaliyyətinin əsas prinsip və proqramları onların bəyanatlarında ifadə olundu. Bu bəyanatlarda bütün fraksiyaların müstəqilliyi qorumaq və ölkədə demokratik quruluş bərqərar etmək kimi ümumi istəkləri ifadə olunsa da, bu məqsədlərə nail olmağın yolları və vasitələri fraksiyalar tərəfindən

müxtəlif cür başa düşülürdü. Onlar dövlət hakimiyyəti sistemində parlamentin rolunu da müxtəlif cür şərh edirdilər.

Parlamentdə 9 fraksiya və qrup təmsil olunmuşdur. 1910-cu ilin əvvəlində parlamentin cəmi 79 üzvü var idi. "Müsavat" fraksiyanın 23, "İttihad"ın 11, "Əhrar"ın 9, "Hümmət"in 5, "Müsəlman sosialist blokunun"5, "bitərəflər"in 15, "Milli azlıqlar"ın 4, "Rus-slavyan cəmiyyəti"nin 3, "Erməni fraksiyası"nın 4 üzvü var idi.[17]

Parlamentin yaranmasından sonra yeni nazirlər kabinetinin təşkil olunmasına başlanıldı. Parlamentin sədrinin müavini Həsən bəy Ağayev 1918-ci il dekabrın 13-də Fətəli xan Xoyskiyə hökumət təşkil etmək xahişi ilə müraciət etdi. H.Ağayevin müraciətində deyilirdi: "Fraksiyaların arzusu, habelə Sizin siyasi təcrübəniz. Vətənə və Millətə xidmət işində göstərdiyiniz mühüm fəaliyyət və fədakarlığınız məni vadar edir ki, Sizi vacib və çətin bir işə, baş nazir vəzifəsini öz üzərinizə götürməyə koalisiyon kabinet təşkil etməyə də'vət edim".[18]

Xoyski yalnız ikinci dəfə ona təklif olunduqdan sonra kabinet təşkil etmişdi. Kabinetin təşkil olunması parlamentin özündəki sinfi qüvvələrin düzümü ilə bağlı idi. Hökumət koalisiyası fe'lən böyük çətinliklərdən sonra, "İttihad"dan başqa, bütün qrupların iştirakı ilə yaradıldı. "İttihad"ın koalisiyadan kənarda qalması onunla bağlı idi ki, ittihadçılar başqa partiyalar tərəfindən vəzifəsinə müvafiq hesab edilən Fətəli xan Xoyskinin əleyhinə idilər. Respublikanın yaranmasının başlanğıcında mərkəzçi mövqe tutan "Müsavat" partiyası indiki mərhələdə parlamentin sol cinahına, yə'ni sosialistlərə arxalanaraq, onların torpağın kəndliyə pulsuz verilməsi ideyalarını müdafiə edirdi. Bunu isə yalnız Müəssislər Məclisi edə bilərdi. Sosialistlər özlərinin bir üzvünün - Aslan bəy Səfikürdskinin ("Xalqçı" partiyası) daxil olması ilə kabineti müdafiə etdilər. Buna görə də hökumət kabinetinin şəxsən hökumət başçısına və onun proqramına e'timad prinsipi üzrə təşkil olunduğunu hesab etmək olar.[19]

Baş nazir F.Xoyski əsasını Azərbaycanın müstəqilliyi ideyası təşkil edən hökumət proqramı ilə parlament iclasında çıxış etdi. Bu tezis bütün fraksiyalar tərəfindən müdafiə olundu. Öz mə'ruzəsində o, dövlətin daxili siyasəti üzərində dayanaraq, onun uğurlarının işçi və aqrar məsələlərinin həlli ilə əlaqələndirdi.[20]

1918-ci il dekabrın 28-də F.Xoyski koalisiya əsasında təşkil olunmuş yeni Nazirlər Kabinetinin tərkibini parlamentin təsdiqinə təqdim etdi. Respublikanın partiyalı, eləcə də bitərəf xadimlərinin təmsil olunduqları hökumətin tərkibi Azərbaycan parlamentinin demokratikliyini xarakterizə edir. Fəaliyyətinin ilk mərhələsində F.Xoyskinin, əsas e'tibarı ilə, çoxu heç bir partiyaya mənsub olmayan "işgüzar adamlardan" ibarət kabineti ittihadçılardan başqa, parlament fraksiyaları tərəfindən müdafiə olunurdu.

Yeni təşkil olunmuş hökumətin tərkibinə Fətəlixan Xoyski - Baş nazir, xarici işlər naziri (bitərəf), daxili işlər naziri - Xəlil bəy Xasməmmədov ("Müsavat") xalq maarifi və dini e'tiqad naziri - Nəsib bəy Usubbəyov ("Müsavat"), hərbi nazir - Səmədağa Mehmandarov (bitərəf), ticarət və sənaye naziri - Mirzə Əsədullayev ("Müsavat") yollar naziri - Xudadat bəy Məlikaslanov (bitərəf), poçt, teleqraf və əmək naziri - Aslan bəy Səfikürdski (sosialist), dövlət nəzarəti naziri - Mehdi bəy Hacınski ("İttihad"), tə'minat naziri - R.X.Xoyski ("Müsavat"), ziraət naziri - Xosrov bəy Sultanov ("İttihad") daxil idilər.[21] 1919-cu ilin yanvarında müvafiq olaraq maliyyə və ərzaq nazirləri partfellərini İ.Protasyev və K.Lizqar aldılar, bir qədər sonra isə doktor Gindes səhiyyə naziri oldu.[22]

Yeni koalisyon hökumətin təşkili başa çatan kimi general Tomson bu hökuməti yeganə qanuni hakimiyyət kimi tanıdığı haqqında bəyanat verdi.[23]

İngilis komandanlığının siyasəti təkcə Azərbaycan hökumətinin "yeganə qanunu hakimiyyət kimi tanımaqla

başa çatmadı. Öz siyasi mənafelərində çıxış edən ingilislər, əslində Rusiyanın birləşdirilməsinə deyil, onun parçalanmasına çalışırdılar, yalnız bu halda onlar sabiq Rusiya imperiyasını bir sıra müstəqil kənar dövlətlər tərəfindən əhatə olunmuş Velikorusiyanın öz sərhədlərinin daxilinə sığınmağa məcbur edə bilərdilər. Bununla onlar, bir tərəfdən öz müstəmləkələrinin təhlükəsizliyini tə'min etməyə, digər tərəfdən isə Rusiyanı zəiflətməyə və sabiq Rusiya əyalətlərinin bütün iqtisadiyyatını öz əllərinə keçirməyə imkan qazanmağa çalışırdılar.[24]

Bununla belə, ingilislər hər halda yenə də Azərbaycan dövlətinin daxili işlərinə qarışmaqda davam edirdilər. Məsələn, 1919-cu il yanvarın 28-də ingilis hərbi polisinin komissarı polkovnik Q.Kokkerel Azərbaycanın daxili işlər nazirindən tələb etmişdir ki, polis işçilərinin tə'yin olunmasını şəxsən onunla razılaşdırsın ki, "polis rütbəli hey'ətdə və ya tə'yinatlardakı hər cür dəyişikliklər onun dəftərxanasından keçsin ".[25] Azərbaycan Cümhuriyyətinin daxili işlər naziri bunun cavabında Nazirlər Şurasının sədrinə aşağıdakı məzmunda məktubla müraciət etmişdir: "Müttəfiq dövlətlərin polis komissarı bütün Bakı rayonu polisinin rəhbəri tə'yin edilmiş və polisin bütün üzvləri ona tabe edilmişdir. Bu komissarın sərəncam və əmrləri tez-tez Azərbaycan Cümhuriyyəti hakimiyyət dairələrinin sərəncam və əmrlərini ləğv etsə də, polis mə'murları tərəfindən qeyri-şərtsiz icra olunurdu. İşlərə müdaxilə o həddə çatıb ki, hətta polis komissarı tələb edir ki, polis hey'ətindəki dəyişikliklər və tə'yinatlar yalnız onun dəftərxanası vasitəsilə aparılsın".[26]

Özlərini Bakı şəhərinin sahibləri kimi hiss edən ingilis zabitləri yerli əhaliyə münasibətdə kobud və ədəbsiz davranırdılar. 1919-cu il aprelin 7-də Bakı əhalisindən Azərbaycan Cümhuriyyəti daxili işlər nazirinin adına ingilis əskərləri tərəfindən törədilən biabırçılıqlar haqqında şikayət daxil olmuşdu. "Əskərlər özlərini o qədər sırtıq, biabırçı və ədəbsiz aparırlar ki, qadınlar ingilis əskəri küçədə olanda, oraya qətiyyən çıxa bilmirlər."[27]



İngilis hərbçiləri tərəfindən yerli vətəndaşların döyülməsi halları da olmuşdu. Bakı kəndləri sakinlərindən də yerli əhaliinin ingilis əskərləri tərəfindən qarət edilməsi, onlardan pul və ərzaqlarının zorla alınması haqqında şikayətlər daxil olurdu. İngilislərin saymamazlığı o dərəcəyə çatmışdı ki, onlar hətta Xarici işlər Nazirliyinin ünvanına daxil olan diplomatik məktubları da açırdılar.[28]

Siyasi vəziyyət həddən ziyadə mürəkkəb idi. Xırda burjua partiyaları liderlərinin rəhbərlik etdikləri Bakı fəhlə konfransı (BFK) yeni təşkil olunmuş hökumət üçün ciddi müxalifətə çevrilmişdi. 1918-ci il dekabrın 18-də BFK öz iclasında siyasi tələblər təqdim etməklə - tutulanların azad edilməsi, mətbuat həmkarlar ittifaqları, yığıncaq azadlığının bərqərar edilməsi haqqında və s. tə'til keçirmək barədə qərar qəbul etdi.[29]

1918-ci dekabrın 24-də BFK-nın rəhbərliyi altında tə'til başlandı. Tə'tilin gedişində menşevik Çurayevin sədrliyi ilə BFK-nın xüsusi iclası keçirildi. Hökuməti tanımamaq mövqeyində duran xırda burjua partiyalarının liderləri konfransın qərarını ingilis komandanlığına göndərdilər. BFK ingilis komandanlığından tələb edirdi ki, kollektiv müqavilənin bərpası üçün sənayeçilərin və fəhlə konfranslarının nümayəndələrindən ibarət saziş komissiyası yaratsınlar. İclasda iştirak edən M.Rəsulzadə BFK liderlərinin bu cür fəaliyyətləri ilə əlaqədar kəskin e'tirazını bildirdi. O, xüsusilə qeyd etdi ki, bu cür ciddi məsələlərin həllində ingilis komandanlığını deyil, parlamentə arxalanan qanuni Azərbaycan hökumətini yeganə səlahiyyətli orqan sayır.[30]

1918-ci ilin üçgünlük dekabr tə'tili Bakı fəhlələrinin qələbəsi ilə qurtardı. Tə'til fəhlə kütlələri arasında bolşevik nüfuzunun qüvvətlənməsindən əlavə həm də onu göstərdi ki, ingilis komandanlığı indiyədək Bakı proletariatının qüvvəsi haqqında tam təsəvvürə malik deyilmiş. İndi ingilis komandanlığı onun mübarizə qabiliyyətini nəzərə alaraq daha ehtiyatlı olmağa və onun tələblərinə daha diqqətlə yanaşmağa başladı. İngilis

komandanlığı həbs edilənləri buraxmağa məcbur oldu. Yaranmış vəziyyətlə əlaqədar olaraq parlament 1918-ci il dekabrın 25-də keçirilən iclasda siyasi dustaqların amnistiyası üzrə komissiya yaratmaq haqqında qərar çıxartdı. Komissiyaya A.Qardaşov, A.Əfəndiyev, Ə.Tağıyev, A.Səfikürdski, S.Ağamalıoğlu daxil oldular. Komissiya inzibati qaydada azadlıqdan məhrum edilən bütün şəxsləri tə'xirəsalınmadan azad etməyə çağırdı.[31]

İşçi məsələsi hökumətin daxili siyasətində ən ciddi məsələlərdən biri idi, buna görə də o, istər parlament iclaslarının, istərsə də BFK iclaslarının gündəliyindən düşmürdü. Dekabr tə'tilindən sonra fəhlə konfransının iclasları daimi xarakter aldı - həftədə bir çağırıldı və gündəliyə, başlıca olaraq, siyasi xarakterli məsələlər çıxarıldı. 1919-cu ilin yanvarında rus fəhlə kütlələrinin kommunistlərə tərəf meyl etməsi artıq aşkar hiss olunmağa başlayırdı. Bolşeviklər daha tez-tez konfransda çıxışlar edir, fəhlələr arasında bolşevik proklamasiyaları yayırdılar. Həmin ilin mart ayında bolşeviklər fəhlə konfransında çoxluq qazandılar və öz nümayəndələrini onun rəyasət hey'ətinə daxil etdilər (Rəyasət hey'ətinin 10 üzvündən 7-i kommunist, hümmətçi və ədalətçi idi).

1919-cu il yanvarın 8-də A.K.Kazımzadə parlament iclasında əmək nazirinə müsavat fraksiyasının fəhlələrin çox ağır vəziyyəti haqqında sorğusunu oxudu: kollektiv müqavilə ləğv olunmuş, əmək haqqı azaldılmış və xərclərin yarısını zorla ödəyirdi.[32] Müsavat fraksiyasının sorğu-sual naziri A.Səfikürdski cavab verdi. O, fəhlələrin vəziyyətinin ağırlığı faktının doğruluğunu e'tiraf etdi və söz verdi ki, hökumət onların vəziyyətinin yaxşılaşdırılması üçün bütün tədbirlərə əl atacaqdır.[33]

Bununla əlaqədar olaraq, A.Səfikürdskinin sədrliyi altında müttəfiqlər komandanlığı, neft sənayeçiləri, banklar və əmək haqqlarının artırılması üzrə fabrik inspeksiyası nümayəndələrinin iştirakı ilə müşavirə keçirildi. Müşavirə qərara aldı ki, 1919-cu il yanvarın 1-dən əmək haqqına əlavə olaraq ayda subaylara 120



rubl, ailəlilərə isə 360 rubl müavinət verilsin. Neft sənayesinin vəziyyətini yaxşılaşdırmaq üçün neft sənayeçilərinə də 10 mln. rubl.ssuda və'd edildi.[34]

Bu istiqamətini davam etdirən Əmək Nazirliyi 1919-cu il yanvarın 25-də işçi məsələsi üzrə funksiyasına fəhlələrin əməyinin mühafizəsi və məişət şəraitinin daxil olduğu xüsusi müşavirənin təşkilinə başladı. Xüsusi müşavirə, tərəflərin bərabər təmsil olunması şərti ilə, fəhlələr və müəssisə sahibləri daxil olmaqla 19 nəfərdən ibarət olmalı idi.[35] Lakin işçi məsələsi üzrə xüsusi müşavirənin statusu Azərbaycan parlamenti tərəfindən yalnız 1919-cu il martın 10-da təsdiq edildi.[36]

Respublika hökuməti fəhlələrin həyat şəraitinin yaxşılaşdırılması üçün imkanlar arayırdı, iqtisadi böhrandan çıxmağa yollar axtarırdı.

İstehsalın səviyyəsinin aşağı düşməsi ilkin tələbat mallarının qiymətinin artmasına səbəb olurdu. Bu, fəhlələrin yarıac vəziyyətində qalması ilə yanaşı gənc respublikanı maliyyə böhranı təhlükəsi ilə qarşılaşmasına aparırdı.

1919-cu il yanvarın sonlarında Əmək Nazirliyi sənayenin dirçəldilməsi məqsədilə sahibkarlara müraciət edərək istehsalata nəzarəti gücləndirməyə çağırdı. Hökumət öz növbəsində zəhmətkeşlərin əmək və məişət şəraitinin, hüquqi vəziyyətinin yaxşılaşdırılacağını və'd etdi.[37] Əmək naziri A.Səfikürdski eyni zamanda qeyd etdi ki, hökumət fəhlə və sahibkarlardan mövcud böhran vəziyyətindən yeganə çıxış kimi əmək məhsuldarlığının yüksəldilməsini tələb edəcək.[38]

1919-cu il fevralın 4-də növbəti parlament iclasında parlamentin əmək haqqının artırılması haqqında qanun layihəsi ilə çıxış edən işçi komissiyası[39] bu artımın zəhmətkeşlərin vəziyyətini əslində yaxşılaşdırmayacağını qeyd edən sosialistlərin tənqidinə mə'ruz qaldı. Qanun layihəsi müsavatçılar tərəfindən müdafiə olundu, "İttihad" isə sosialistləri müdafiə etdi[40] və bununla da hökumətə e'timad göstərməyənlərin öncüllərindən biri oldu.

Əvvəlki kimi torpaq məsələsi başlıca məsələlər sırasında qalırdı. Hökumət onu həll etməyə tələsmirdi. Parlamentin iclasında çıxış edən Azərbaycamn baş naziri F.Xoyski torpaq məsələsinin həllini Müəssislər Məclisinin çağırılmasına qədər tə'xirə saldığını bildirdi. Bununla bərabər aqrar məsələnin tam həll olunmasına qədər mülkədar torpaq sahibliyinin toxunulmazlığını qorumaq e'lan edilirdi. Hökumətə tapşırılırdı ki, onların kəndlilər tərəfindən tam toxunulmazlığı tə'min edilsin.[41] Amma kəndlilərin ağır vəziyyəti hökuməti aqrar məsələni parlamentin müzakirəsinə çıxarmağa məcbur etdi. 1919-cu il fevralın 4-dəki iclasında Azərbaycan parlamenti ilk dəfə olaraq aqrar məsələyə baxmış və parlamentin tapşırığı ilə hümmətçi-menşevik Səməd bəy Ağamalıoğlunun başçılığı ilə aqrar komissiya yaradılmışdır.

## § 2. *N.Usubbəyovun başçılığı ilə dördüncü hökumət kabineti*

Dövlət hakimiyyətinin əsas strukturlarının - parlament və hökumətin təşkil edilməsinin başa çatmasına baxmayaraq, parlamentdə təmsil olunan əsas partiyalar arasında mövcud olan barışmaz ziddiyyətlər hökumətə ən zəruri məsələlərdən heç birinin həll etməyə imkan vermirdi. Respublikanın ağır sosial-iqtisadi və qeyri-sabit siyasi vəziyyəti şəraitində uzun sürən hökumət böhranı başlandı.

Yanvarın 28-də parlamentin on birinci iclasında İttihad fraksiyası 3 bənddən ibarət sorğu ilə - neft möhtəkirliyi ilə mübarizə; 1918-ci ildə yığılmış taxıl məhsulunun talanması; H.Z.Tağıyev firmasında bezlə bağlı cinayətlər, - hökumətə müraciət etdi.[42] "İttihad" fraksiyasının rəhbəri Q.Qarabəyov bu məsələlərin nizamlanması üçün xüsusi müşavirə çağırmağı təklif etdi. Parlamentin növbəti iclasında sosialistlər də hökumətə - Tağıyev fabriki fəhlələrinin işdən çıxarılması haqqında, qonşu Ermənistanla əlaqələrin olmaması haqqında,[43] - sorğularını irəli sürdülər. Hökuməti tənqid edən müsəlman sosialistləri göstərirdilər ki, hələ də nə seçki orqanları, nə zemstvovalar, nə də həqiqi demokratik şəhər özünüidarəsi yoxdur. Torpaq əvvəlki kimi varlı sinfin əlindəydi. Ticarət və sənaye getdikcə daha çox möhtəkirlərin toruna düşürdü.

İnzibati özbaşınalığı və anarxiya sisteminin bütün məhvediciliyini dərk edən sosialist fraksiyası bir sıra qubernatorlar tərəfindən hakimiyyətlə bağlı cinayətlərə yol verilməsini göstərir, qəza rəisləri, pristavlar öz sahələrində, starşinalar öz cəmiyyətlərində özbaşına divan tutur və hökm çıxarırdılar.

Hər iki fraksiyanın təqdim etdiyi sorğu üzrə parlament müzakirələri başlandı və son nəticədə ittihadçıların tələbi ilə hökumətə birinci e'timadsızlıq göstərilməsinə səbəb oldu.

Sorğuda gətirilən faktların mövcudluğunu hökumət üzvlərinin özləri də e'tiraf edirdilər, lakin iki aylıq iş müddətində hökumət mövcud çatışmazlıqları aradan qaldırmaq, daxili idarə mexanizmini tənzimləmək imkanına malik deyildi.

Fevralın 4-də verilən sorğularda əlaqədar hökumət üzvlərindən daxili işlər naziri X.Xasməmmədov, ərzaq naziri K.Lizqar, ticarət və sənaye nazirinin müavini T.Səfərəliyev çıxış etdilər. Hətta müxalifətin tələbi ilə hökumət başçısı F.Xoyskinin özü də parlament qarşısında çıxış etdi. Buna baxmayaraq Q.Qarabəyov öz fraksiyası adından hökumətin izahatını qeyri-qənaətbəxş hesab etdi və təklif etdi ki, bir daha ona e'timadsızlıq göstərilsin. "Müsavat" fraksiyası, bitərəflər və milli azlıqlar hökuməti müdafiə etdilər. Müsavatçılar müxalifəti bütün məs'uliyyəti hökumətin üzərinə yıxmaqda günahlandırdılar. Partiyanın iclasında çıxış edən M.Rəsulzadə göstərdi ki, bez və qorodovoylarla bağlı e'timadsızlıq məsələsi qoymaq olmaz. Nəyin bahasına olursa-olsun hökuməti yıxmaq daha çox, bizim müstəqilliyimizin düşmənlərinə sərfəlidir.[44]

Müzakirələr göstərdi ki, təkcə "İttihad" partiyası hökumətə tam e'timadsızlıq göstərilməsini istəyir. Sosialistlər isə F.Xoyskinin kabinetinə kəskin münasibətdə olmalarına baxmayaraq, hakimiyyətin sağların əlinə keçəcəyindən qorxaraq hökumətin iste'fasına qarşı çıxdılar və kabinetin tərkibində edilən bə'zi fərdi dəyişikliklərlə kifayətlənirdilər. Bu məqsədlə onlar cinayət və möhtəkirliklə bağlı məsələləri təhlil etmək üçün geniş səlahiyyətli xüsusi parlament komissiyası tə'sis etmək haqqında və vəzifə cinayətləri, habelə möhtəkirlik və ölkədəki əksinqilabi cinayətləri mühakimə edəcək ali tribunalın əsaslarını işləyib hazırlamaq üzrə xüsusi komissiya haqqında özlərinin qətnamə layihələrini təklif etdilər.[45] Lakin, parlament "Müsavat" fraksiyasının təklif etdiyi hökumətin fəaliyyətini qənaətbəxş sayan qətnaməni qəbul etdi. Bununla belə, sosialistlərin tələbi ilə ölkədə ərzaq məsələsini tənzimləyəcək xüsusi komissiya yaradıldı.[46] Bütün cinayətlərin, möhtəkirlik və ölkədə əksinqilabla bağlı işlərin mühakimə ediləcəyi, ali tribunal haqqında qaydaların işlənməsi üzrə sosialistlərin təqdim etdikləri layihə isə parlament tərəfindən ləğv edildi.[47]

"Müsavat"ın hökuməti xilas etməsinə baxmayaraq aydın oldu ki, parlament üzvlərinin bu cür nisbəti hökumətin uzun müddətli fəaliyyətinə imkan verməyəcək. Fevralın 25-də hökumətin başçısı F.Xoyski səhhətini əsas gətirərək, səlahiyyətlərini təhvil verməsi haqqında bəyanatla çıxış etdi. M.Rəsulzadənin təklifi ilə parlament bu iste'fanı müzakirəsiz qəbul etdi. F.Xoyski yeni hökumət yaradılanadək icra hökumətinə rəhbərlik etdi.

Yeni hökumətin təşkil olunması, namizədliyi "İttihaddan" başqa bütün fraksiyalar tərəfindən müdafiə edilən "Müsavat" fraksiyasının üzvü N.Usubbəyova tapşırıldı. Gələcək hökumətin nəzərdə tutulan tərkibi üzrə fraksiyalar arasında kəskin fikir ayrılığı mövcud idi. 1918-ci ilin dekabrında F.Xoyskinin hökuməti yaradılan zaman, ona nazirləri seçməkdə müstəsna hüquq verilmişdi və bu şübhəsiz ki, N.Usubbəyov ilə müqayisədə



ona daha əlverişli imkanlar yaratmış, kabinetin təşkil olunmasını sür'ətləndirmişdi. İndi isə hökumətin tərkibi yalnız bütün parlament partiyalarının razılığından asılı idi. Bu da öz növbəsində baş nazirin təşəbbüskarlığını məhdudlaşdırır və yeni kabinetin təşkili prosesini ləngidirdi.

Parlamentdə mütləq çoxluğa malik olmayan "Müsavat" müstəqilliyin müdafiəsi şərtlərini qəbul edən, yubanmadan Müəssisələr Məclisini çağırmağı, demokratik özünüidarəni və ölkəni hərbi qüdrətini möhkəmləndirilməsini istəyən digər partiyalarla bloka girməyə məcbur idi.[48] Buna görə də "Müsavat", "Əhrar" və sosialistlərin koalisiyası güman edilirdi.

Müsəlman sosialistləri hesab edirdilər ki, təşkil olunacaq hökumət geniş əhali təbəqələrinin tələblərini tə'min edən əsl demokratik hökumət olmalı idi. Onların fikrincə, bunun üçün mərkəzin demokratik hissəsi ilə son qüvvələrin koalisiyası labüd idi. Bununla, yanaşı onlar hökumətdə onun siyasətinə tə'sir etmək imkanına malik olmaq üçün kifayət qədər (DİN vəzifəsi də daxil olmaqla hökumətin tərkibinin yarısına qədər) yer almaqla çalışırdılar.

"Müsavat" ümumən sosialistlərlə razılaşsa da, hesab edirdi ki, portfellərin bölüşdürülməsi müstəsna olaraq baş nazirin səlahiyyətində qalmalıdır.[49] Sonra mərkəz, bitərəf və milli azlıqlar qrupları da daxil edilməklə, yeni koalisiya ideyası irəli sürülməyə başladı. Sosialistlər bitərəfləri "parlamentdə özlərinə yuva quran ən mürtəce ünsürlər"[50] kimi qiymətləndirib onların koalisiyaya daxil edilməsinin əleyhinə çıxış etdilər. Bitərəflər adından çıxış edən Yusif Əhmədzadə öz qrupunun daxili işlər naziri vəzifəsinə sosialisti, kabinetə isə daşnaqları buraxmamaq haqqında mövqelərini parlamentə çatdırdı. Onlar bütün qalan məsələlərdə baş nazirə fəaliyyət azadlığı verilməsini nəzərdə tuturdular.[51] Eyni zamanda bitərəflər özləri üçün konkret olaraq iki nazir portfelini-ticarət və sənaye və ziraət naziri portfelini

tələb edirdilər. Üç hökumət vəzifəsi, eləcə də yeni hökumətin fəaliyyətinin Rusiyanın mənafeyinə zidd olmayacağı haqqında tə'minat tələb edən Rus-slavyan cəmiyyəti də hökumət portfellərinin bölgüsü üzrə danışıqlardan kənarda qalmaq istəmirdi.[52]

"İttihad" da kabinetə daxil olmaq ehtimalını nəzərdən keçirirdi. Buna görə o, Azərbaycanın müstəqilliyi ideyasını müdafiə edən, rus-slavyan və erməni fraksiyalarından başqa bütün partiyaların parlament mərkəzini təklif etdi və bildirdi ki, "müsavat" - sosialist mərkəzi" adlandırılan mərkəz əgər baş tutarsa ölkəni səhvlərdən və müxalifətdən xilas edə bilməyəcək.[53]

Beləliklə, partiya fraksiyaları ilə ümumi razılıq əldə olundu. Kabinetə daxil olmaq haqqında sosialistlər ("Hümmətsiz"), "Əhrar" və bitərəflər də razılıq verdilər. Lakin bu rəqəm mütləq çoxluq üçün kifayət deyildi. Ona görə də erməni və rus-slavyan fraksiyalarının hərəsinə bir yer verildi. Daxili işlər naziri vəzifəsi mübahisələrə səbəb olduğunu hiss edən N.Usubbəyov mövqeləri barışdırmaq məqsədi ilə bu vəzifəni öz üzərinə götürdü.

Parlament üzvləri qarşısında çıxış edən baş nazir N.Usubbəyov hökumətin bəyanatını e'lan edərək, bir daha bildirdi ki, Azərbaycanın varlığının əsas prinsipi müstəqil suveren dövlət prinsipidir. N.Yusifbəyli, onun kabinetinin həllini birinci dərəcəli saydığı əsas məsələlər üzərində dayandı. Bunlardan biri Azərbaycanın ərazi bütövlüyünün tə'min edilməsi idi. Dağlı respublikasına münasibət xarici siyasətdə çox mühüm yer tuturdu. Onu müdafiə etmək və Denikinin təcavüzünə qarşı onunla ittifaqda olmaq haqqında qəti qərar çıxarıldı.

Milli siyasətdə Azərbaycanda yaşayan milli azlıqların hüququnun qorunmasına xüsusi diqqət yetirildi və bu onların e'tiqad azadlığı əldə edə bilmələri, öz mədəni və milli xüsusiyyətlərini saxlaya bilmələri ilə əlaqələndirildi. Hökumət milli toqquşmalara yol verməyəcəyini öhdəsinə götürürdü. İşçi məsələsində, azad əməyə tə'minat verən qanunvericiliyə xüsusi fikir verilirdi.



Bəyannamədə ciddi məsələ olan aqrar məsələyə də toxunulmuşdur. Amma N.Usubbəyovun hökuməti əvvəlki hökumətin dövründə olduğu kimi, onun həllinin Müəssislər Məclisinin səlahiyyəti olduğunu bildirdi.

Hər cür vicdan, mətbuat, yığıncaq azadlığına həmkarlar azadlıqlarına tə'minat verilirdi ki, bu da əlbəttə, hüquqi demokratik dövlətin əsasını təşkil edirdi. Bu istiqamətdə hökumət tə'cili olaraq demokratik əsaslar üzrə zemstvolar yaradılmasını və şəhər özünüidarəsinin yaxşılaşdırılmasını ilk addımlarından biri hesab edirdi. Xalq təhsili sahəsində nəzərdə tutulan tədbirlər haqqında da danışıldı.

Ümumi icbari təhsil haqqında qanun layihəsinin işlənməsi, ibtidai və orta məktəblərin milliləşdirilməsi və xüsusilə də milli azlıqlara rus və ana dillərində təhsil almaq hüququ üçün tə'minat verilməsi tələb olunurdu.[54]

1919-cu il aprelin 14-də Azərbaycan parlamenti aşağıdakı tərkibdə 4-cü hökumət kabinetini təsdiq etdi: Nazirlər Şurasının sədri və daxili işlər naziri N.Usubbəyov ("Müsavat"), maliyyə naziri - Əliağa Həsənov (bitərəf), ticarət və sənaye naziri - Ağa Əminov ("Müsavat"), xarici işlər naziri - M.Y.Cəfərov (bitərəf), poçt və teleqraf naziri - Cəmo Hacınski (sosialist), ədliyyə və əmək naziri - A.Səfəkürdski (sosialist), hərbi nazir - S.Mehmandarov (bitərəf), tə'minat naziri - V.V.Klenovski (Rus-slavyan cəmiyyəti), səhiyyə naziri - A.N.Dostakov (bitərəf), maarif və dini e'tiqad naziri - Rəşidxan Kaplanov ("Əhrar"), ziraət naziri - A.Qardaşov ("Əhrar"), portfelsiz nazir - X.Amaspür ("Daşnaksütun"), nazir-müfəttiş - N.Nərimanbəyov ("Müsavat").[55]

Qeyd olunduğu kimi, parlament öz fəaliyyətinin ilk mərhələsində əsas qanun layihələrinin qəbul edilməsinə qadir deyildi. Bunun əsas səbəblərindən biri də partiyalar arasında işbirliyin olmamasında idi ki, bu da öz növbəsində məsələlərin həllini və hakimiyyətin təşkilini çətinləşdirirdi. Çoxluğu təşkil etmək üçün bir neçə partiyanın razılığa gəlməsi lazım idi; bu isə praktik

cəhətdən çox çətin idi. Hazırlanmış sistem üzrə yerlərdə keçirilən əlavə seçkilər nəticəsində parlament işlərinə əsasən az hazırlıqlı, özünün müəyyən siyasi proqramı olmayan deputat kontingenti seçilmişdi. Bununla belə, parlament fəaliyyətin bu mərhələsində də hakimiyyətə nəzarət orqanı kimi, sözsüz ki, respublikanın siyasi həyatında böyük rol oynamışdır.

N.Usubbəyovun yeni hökuməti öz proqramını e'lan etdikdə, aydın oldu ki, parlamentin mövcud tərkibi nəzərdə tutulan məsələləri həll etmək üçün ona imkan verməyəcək. Parlament özünün ilk 4 ayı ərzində yalnız xırda qanun layihələrinə baxmaqla məşğul oldu, günün başlıca məsələləri isə həll olunmamış qaldı. Aqrar komissiya yalnız indi torpağın ödəncsiz müsadirə olunması məsələsinə gəlib çatdı. Parlament müzakirələri partiya konfranslarına keçirildi. 1919-cu il mayın əvvəllərində hümmətçi menşeviklərin 3-cü konfransı oldu. Konfrans "İndiki parlament fəhlə və kəndlilərin maraqlarının həqiqi müdafiəçisi olmadığını, lakin hazırkı siyasi şəraitdə parlament tribunasının əhəmiyyətini nəzərə alaraq, konfrans öz yoldaşlarına parlamentdə müvəqqəti qalmaq hüququ vermişdi.[56]

Əvvəlki hökumətdən fərqli olaraq, yeni kabinet iqtisadi siyasət sahəsində Azərbaycanın ən'ənəvi iqtisadi tərəfdaşlarına münasibətdə öz mövqelərini yenidən nəzərdən keçirdi. Söhbət, neftə kəskin ehtiyacı olan və Azərbaycan neftinin əsas bazarı olan Sovet Rusiyasından gedirdi.

Neft məhsullarının külli miqdarda yığılıb qalmış ehtiyatlarının (təxminən 150 mln.pud)[57] respublikadan ixracının imkansızlığı neft hasilatının aşağı düşməsinə səbəb oldu, bu isə öz növbəsində mə'dənlərdə işlərin azalmasına və fəhlələrin işdən çıxarılmasına, dəhşətli bahalığa, kağız pulların sür'ətlə qiymətdən düşməsinə gətirib çıxardı. Ağır iqtisadi vəziyyət Bakıda tə'til hərəkatının güclənməsi ilə müşaiyət olunurdu.

Fabrik inspeksiyasının mə'lumatına görə, 1919-cu ilin yanvarında 790, fevralında 2765, martında isə 4710 nəfər tə'til etmişdi.[58] Bütövlükdə tə'tillərin əksər hissəsi



1919-cu ilə təsadüf edirdi - 6189 fəhlə; 1918-ci ildə 849 fəhlə, 1920-ci ildə 3263 fəhlə tə'til etmişdi.[59] Bütün tə'tillər əsasən sırf iqtisadi xarakter daşıyırdı.

Parlamentin 1919-cu il 14 aprel tarixli iclasında ağır iqtisadi vəziyyət barədə çıxış edən baş nazir qeyd etmişdi ki, "...bizim mə'ruz qaldığımız həyati çətinliklərin hamısı, ticarətimizin mə'lum qeyri-normal vəziyyətdə olmasının nəticəsidir. Ölkəmizin sərvəti və əmin-amanlığı neftdir və bizim neftin əsas istehlakçısı olan Rusiya ilə əlaqə yolları kəsilmişdir; bu vəziyyət bizi çox çıxılmaz vəziyyətdə qoya bilər".[60]

İqtisadi böhranın artması şəraitində fəhlə hərəkatının güclənməsinin müşahidə olunması bu dövrdə respublikanın daxili vəziyyətini daha da gərginləşdirdi. BFK bolşeviklərin tə'siri ilə siyasi tə'til keçirmək haqqında qərar qəbul etdi. Hökumətin konkret antiböhran proqramının olmasına baxmayaraq bolşeviklər fəhlələrə ümumi tə'til e'lan etmək çağırışı ilə müraciət etdilər və bu zaman təkcə iqtisadi (kollektiv müqavilənin bərpa olunması) deyil, sırf siyasi (Sovet Həştərxanına neft məhsulları aparılması) tələblər də irəli sürdülər. 1919-cu il 1 may nümayişi ümumi may siyasi tə'tilinin başlanğıcı oldu. Bolşeviklərin 1 may nümayişinin hökumət əleyhinə güclü tədbirə çevirmək cəhdləri boşa çıxdı. Bolşevik təbliğatına baxmayaraq azərbaycanlı fəhlələr bir may bayramında özlərinin, qalan fəhlə kütləsinin şüarları ilə uzlaşmayan ayrıca şüarları ilə çıxış etdilər. Həmin gün azərbaycanlı fəhlələr özlərinin 1 may nümayişində fəal iştirak edən müsavatçılara olan e'timadlarını bir daha sübut etdilər.[61]

Azərbaycanlı fəhlələrin yeni hökumətin xəttini müdafiə etmələri göstərirdi ki, onlar gənc milli dövlətin mənafeyini qəbul edirlər. Nümayişdə günün rus-fəhlə kütləsini birləşdirən şüarı "Yaşasın Sovet Rusiyası" idi.

Tə'tilin keçiriləcəyi haqda mə'lumatı olan hökumət ona imkan verilməməsi üçün bir sıra qəti tədbirlərə əl atdı. Bununla əlaqədar olaraq, Azərbaycan parlamenti

baş nazir N.Usubbəyovun tə'tilin ləğvi üzrə görülmüş işlər haqqında mə'ruzəsini dinlədi və bu sahədə hökuməti müdafiə etdiyi barədə qərar qəbul etdi.

1919-cu il mayın 5-də Azərbaycan hökuməti daxili işlər nazirinin mə'ruzəsi üzrə qətnamə qəbul etmişdir: "...fəhlə konfransının e'lan etdiyi siyasi tə'til kimi qəbul edərək, baş nazirə, fəaliyyəti Azərbaycan dövlətçiliyinin əleyhinə yönəlmiş hesab olunan şəxslərin həbs olunması və Azərbaycan ərazisindən çıxarılması da daxil olmaqla, tam fəaliyyət sərbəstliyi verilsin, əmək nazirinə tapşırılsın ki, iqtisadi tələbləri sahibkarlar və fəhlələrlə birlikdə müzakirə etsinlər".[62]

Azərbaycan hökumətinin qadağalarına baxmayaraq, BFK-nın bolşevik liderləri 1919-cu il mayın 6-da tə'til etdilər. Tə'tilin e'lan olunması anından azərbaycanlı fəhlələr onun ləğv olunmasında çox fəal iştirak etdilər. Məsələn, azərbaycanlı dəmiryolçular siyasi tə'til e'lan etməyə qarşı ciddi e'tiraz etdilər və bununla da tə'tilçilərin sırasında qarışıqlığa səbəb oldular. Azərbaycanlı fəhlələrin sayəsində dəmiryolunda tə'til baş tutmadı. Tə'tilçiləri müdafiə etməyən çapçıların xidməti sayəsində də qəzetlərin nəşri davam etdirildi.[63] Su kəməri və teleqraf fəhlələri də tə'til etmədilər.

Tə'til keçirməyə münasibətdə fəhlələrin özlərinin arasında birliyin olmaması, BFK-nın xırda burjua və bolşevik liderləri arasındakı ixtilaf, müsəlman sosialist partiyalarının hökumətin xəttini müdafiə etmələri, hökumətin qətiyyəti və ingilis komandanlığının onu müdafiə etməsi ilk başlanğıcdan tə'tilin aqibətini heçə endirdi. Tə'til hərəkatı tezliklə yatmağa başladı. Obyektiv gerçəkliklə barışmaq istəməyən bolşeviklər tə'tilin davam etdirilməsinə çalışırdılar. Tə'tildə bolşeviklərə Xəzər donanması dənizçiləri daha çox yardım etdilər. Tə'til hər yerdə yatan zaman, dənizçilər hələ də tə'til edirdilər.

Parlament və ingilis komandanlığı tərəfindən müdafiə olunan hökumət mayın 9-da tə'til edənləri həbs etdi. 43 nəfər fəal iştirakçı, tə'til komitəsinin əsas rəhbərləri



- A.Mikoyan, A.Anaşkin, A.Çurayev və Qubanov həbs olundular.

Hökumətin xəttini müdafiə etdiyini bir daha nümayiş etdirmək istəyən müttəfiq qoşunların Cənubi Qafqazdakı baş komandam general Q.F.Mil dəmir yolları, rabitə sistemi, körpülər və hərbi anbarların və s. işinin pozulmasında iştirak edən adamların hərbi məhkəməyə veriləcəyi və ölüm hökmü ilə cəzalandırılacağı barədə əmr verdi.[64]

Yaranmış şəraitlə əlaqədar olaraq BFK Həştərxanla mal mübadiləsinin bərpa edilməsi haqqında tələbi gündəlikdən çıxarmağı qərara aldı və həbs olunanların buraxılması, tə'til müddətində işdən çıxarılanların işə bərpa olunması, tə'til etdikləri günlərin pulunun ödənilməsi və əmək haqqına əlavələr edilməsi haqqında tələblər irəli sürdü.

Hələ mayın 9-da hökumət əmək nazirinə tapşırmışdı ki, fəhlə konfransı nümayəndələri və sahibkarlara tə'tilin dayandırılması və fəhlələrin həyatının yaxşılaşdırılması haqqında danışıqlar aparsın. Elə həmin gün hökumət maliyyə nazirinə də "...ağır vəziyyətləri ilə əlaqədar olaraq may ayı üçün istisna hal kimi fəhlələrə ssuda verilməsi və neft sənayeçilərindən borcun ödənilməsi haqqında tə'minat tələb"[65] etməsini tapşırmışdı.

1919-cu il mayın 13-də tə'tilin tam məğlubiyyətlə qurtarması göstərdi ki, fəhlələrin əsas hissəsi, xüsusilə də müsəlmanlar, hökumət xəttini müdafiə edir və Azərbaycan milli dövlətçiliyinin müdafiəsinə qalxır. Tə'tilin müvəffəqiyyətsizliyə uğramasının əsas səbəbləri müttəfiq qoşunlarının hökuməti tam müdafiə etməsi, proletariatın azərbaycanlı hissəsinin milli hökumətlə həmrə'yliyi və BFK-nın (tə'tilin əsas qızışdırıcısı) özündə birliyin olmaması idi. Menşevik-eser cinahı ilk başlanğıcda gözləmə mövqeyi tutdu, sonra isə tə'tilə münasibətdə əks mövqeyə keçdi.

Tə'tilin məğlubiyyətə uğraması bolşeviklərin məğlubiyyətə uğraması ilə birbaşa bağlı olsa da onlar sabitliyin pozulması xəttindən əl çəkməmişdilər. Onların BFK-nı yenidən qurmaq cəhdi uğurla nəticələndi - eser -

menşevik rəhbərliyi bolşeviklərlə əvəz olundu. Həmkarlar ittifaqlarına nəzarət etmək uğrunda mübarizə başlandı. Həmkarlar ittifaqları bolşevik marağı üçün təsadüfi obyekt deyildi. Ən mühüm iqtisadi problemlər, o cümlədən Rusiyaya neft göndərilməsi həll olunmadığından fəhlələr narazılıqlarını bildirdilər, çünki bolşeviklər həmkarlar ittifaqlarına fəhlə psixologiyasına məhz siyasi tə'sir aləti kimi baxırdılar. Xüsusilə də ona görə ki, hökumətin möhkəm treyd-yunionçu xətti yox idi, başqa sözlə desək onun həmkarlar ittifaqları ilə tənzimlənmiş əlaqəsi yox idi. Bolşevik liderlərinin fəhlələrin həyatının birbaşa siyasi quruluşun dəyişilməsi ilə bağlı yaxşılaşdırılması haqqında bəyanatları, BFK və həmkarlar ittifaqlarında xırda burjua müxalifətinin zəifləməsinə və 1919-cu ilin yazında bolşevikləri həmkarlar ittifaqları üzərində tam nəzarətinə səbəb oldu. Azərbaycan, Dağıstan və Zakaspi həmkarlar ittifaqlarının 1919-cu ilin aprelində keçirilən qurultayı bolşevik platformasında durdu.[66] Həmin ilin yayında Bakı həmkarlar ittifaqlarının, demək olar ki, hamısının idarə hey'ətində kommunistlər çoxluq təşkil edirdilər. Sentyabrda onlar sağ sosialistlərin də son dayağı olan Bakı Həmkarlar İttifaqları Şurasını ələ keçirdilər. Az sonra Azərbaycan kooperasiyasının da aqibəti belə oldu.[67]

Yazın əvvəlindən Azərbaycan kəndliləri arasında çıxışlar başladı, kəndlilər tərəfindən xüsusi sahibkar torpaqlarının tutulması müşahidə olunurdu.

1919-cu il mayın ortalarında "Azərbaycan" qəzeti Gəncə quberniyasının Qazax qəzasında aqrar məsələ ilə bağlı baş verən iqtişaşlar haqqında yazırdı. Çox hallarda torpaq sahibləri xüsusi sahibkar torpaqlarının alqı-satqı və ya icarəyə verilməsi zamanı kəndliləri aldadır, onlara haqqı müəyyən qədər ödənilmiş torpaqlar verirdilər. Aqrar məsələdə yaranmış vəziyyəti nəzərə alan Azərbaycan DİN, özünün Bakı quberniyasında keçirdiyi təftiş əsasında 1919-cu il mayın 14-də kəndlilərə müraciət edərək tələb etdi ki, torpaq sahələrinin alqı-satqısı və habelə icarəsi ilə bağlı hər cür əməliyyatı dayandırsınlar. Respublika DİN-in Ziraət nazirinə göndərdiyi tə'limnamədə deyilirdi: "... icarəyə verilən torpaqlar əvvəlcə



kənd təsərrüfatı ilə heç bir əlaqəsi olmayan xüsusi möhtəkirlərin əlinə keçir, onlar isə öz növbəsində bunları mənfəətlə zəhmətkeş əhaliyə satırlar. Güman edilir ki, Ziraət nazirliyi kənd əhalisinin haqlı narazılığına səbəb olan bu cür qeyri-normal hadisənin qarşısını almaq üçün tədbir görəcəkdir."[68]

Yaranmış mürəkkəb şərait, Ermənistandan daşnak hökumətinin azərbaycanlı əhalini deportasiya etməsi ilə bağlı böyük qaçqınlar axınının gəlməsi ilə daha da dərinləşdi. İstintaq komissiyasının üzvü Mixaylovun mə'lumatına görə, yalnız 1918-ci ilin yayı, payızı və qışında daşnaklar 115 kəndi dağıtmışdılar. Natamam mə'lumatlara görə bu kəndlərdə 7729 azərbaycanlı öldürülmüşdür. Bunlardan 3252 kişi, 2276 qadın və 2196 uşaq idi. 50 min azərbaycanlı qaçqına çevrilərək Zəngəzur ərazisini tərk etməyə məcbur olmuşdur.[69] Zəngəzurdan və Ermənistandan azərbaycanlı qaçqınların ümumi sayı 150 min nəfər idi.[70]

Bu mürəkkəb dövrün hər cür çətinliklərinə baxmayaraq, gənc respublika öz həmvətənlərini darda qoymadı. Qaçqınlara yardım işində əsas rolu tə'minat nazirliyi öz üzərinə götürdü. Bakıda iaşə və bölgü məntəqələri təşkili vasitəsilə qaçqınlara hər ay əvəzsiz pul yardımı göstərilirdi.[71] Qaçqınlar üçün pulsuz və ya cüz'i qiymətə çörək verilir, habelə ilkin tələbat malları maya dəyərinə satılırdı. Nazirlik həm də ictimai işlərin təşkili layihəsini də, məsələn, xalça toxuma e'malatxanalarının yaradılmasını işləyib hazırlamışdı. 1919-cu ildə 50 min qaçqın yerləşdirmək üçün dövlət xəzinədən 18 mln.rubl vermişdir.[72] 1919-cu ildə qaçqınlar şö'bəsinə ayrılan maliyyə yardımının ümumi məbləği 3.082.000 rubla bərabər idi.[73]

Dövlət maliyyə yardımından əlavə müxtəlif xeyriyyə cəmiyyətləri də - "Bakı müsəlman xeyriyyə cəmiyyəti", "Qarabağ müsəlman vətəndaşları cəmiyyəti", "Tərəqqi", "İran xeyriyyə cəmiyyəti", "Rus xeyriyyə cəmiyyəti" və s. kasıb əhaliyə böyük yardım göstərirdilər.

Azərbycanda daxili həyatın hər cür çətinliklərinə baxmayaraq, onun bütün taleyi daha çox dünya səhnəsində baş verən hadisələrlə, ilk növbədə Rusiya ilə bağlı idi.

O dövrdə Rusiyanın özünün taleyi isə, bir çox halda hansı qüvvələrin burada qələbə çalmasından asılı idi. Bu faktın dərk olunması ilə azərbaycanlılar üçün belə bir sual ortaya çıxırdı: vətəndaş müharibəsində iki tərəfdən hansı onlar üçün daha az təhlükəli idi.

1919-cu il ərzində Rusiyada düşmənçilik edən iki tərəfdən azərbaycanlılar üçün daha çox təhlükə törədən Cənubi Rusiyada general Denikinin komandanlıq etdiyi könüllü ordusu ("Ağ ordu") idi. "Vahid və bölünməz" Rusiya uğrunda vuruşan mühafizəkar hərbçilər çətin ki, müqəddəratını tə'yin etmiş dövlətlərin suverenliyinə hörmət bəsləyirdilər.[74] Beləliklə, Denikinin qüvvələri daha qorxulu təhlükə idi.

Petrovskini tutan Denikin ordusu cənuba doğru hərəkət edirdi. Dağlı respublikasının parlamenti və hökuməti özünü buraxmağa məcbur oldular. Azərbaycanla Sovet Rusiyası arasında bufer dövlət rolunu oynayan Dağlıq Respublikasının ləğv edilməsi artıq Azərbaycanın özünün mövcudluğu üçün bilavasitə təhlükə idi, buna görə də respublikanın rəhbərliyi Denikinin hərəkətlərini çox təşvişlə izləyirdi. Xarici İşlər Nazirliyi müttəfiq qoşunların komandanlığından könüllü ordunun qoşun hissələrinin Dağıstandan çıxarılması üçün hər cür qəti və tə'xirəsalınmaz tədbirlər görülməsini tələb etmişdi.[75]

İngilislərin Denikini müdafiə etməyə meylli olmalarına baxmayaraq, onlar heç də Bakının tutulmasında ona yardım etmək fikrində deyildilər.[7] Hələ 1919-cu ilin yanvarında Tomson Qafqaz dağları boyunca və Dağıstanın Şimal hissəsindən keçən demarksiya xəttini müəyyənləşdirmişdi. Bundan əlavə, martda ingilislər Bakının yaxınlığında yerləşmiş "Rus Xəzər donanması" adlandırılan hərbi birliyin tərksilah olunması haqqında fərman vermiş, general Prjevalski isə tə'cili olaraq Azərbaycan ərazisini tərk etmişdi. İngilislər Biçeraxovun dəstəsinin də tərksilah edilməsinə çalışırdılar, polkovnikin



özü isə təltif olunmaq bəhanəsilə İngiltərəyə də'vət olunmuşdur.

Beləliklə, ingilis komandanlığı Denikinin Cənuba doğru irəliləməsinə münasibətdə özünün qətiyyət nümayiş etdirdiyini büruzə verməyə çalışırdı. Lakin hadisələrin sonrakı gedişi bunun A.Denikinin planlarına tə'sir göstərmədiyini təsdiqlədi. Bununla əlaqədar olaraq milli hökumətin vətənin taleyi uğrunda təlaşı artdı. Güman edildi ki, Bakı nefti ağqvardiyaçıların növbəti məqsədinə çevrilə bilər.

Hökumətin sədri yeni diplomatik tədbirlərə əl atdı, o cümlədən general Şatelvortla və Bakıdakı İtaliya nümayəndəliyi ilə danışıqlar aparıldı. Könüllü ordunun ingilis qərargahı yanındakı nümayəndəsi general Lazarev hökuməti əmin etdi ki, "Denikin ordusu Azərbaycana münasibətdə heç bir təcavüzə əl atmaq fikrində deyil və onun müstəqilliyini mümkün hesab edir və tanıyır".[76] Bu Denikinin əsl niyyətlərini yaxşı təsəvvür edən hökuməti sakitləşdirmədi.

Dərbəndin tutulması ingilis komandanlığının Azərbaycanla Denikin ordusu arasında qoyduğu demarkasiya xəttinin birbaşa pozulması oldu.

1919-cu il mayın 26-da parlament öz iclasında " Müsavat" fraksiyasının, könüllülər tərəfindən Petrovski və Dərbəndin tutulması ilə bağlı sorğusunu və respublikanın müstəqilliyinin müdafiəsi üzrə tədbirləri müzakirə etdi. Bu məsələ ilə bağlı çıxış edən fraksiya lideri M.Rəsulzadə bildirdi ki, müstəqilliyimizi qorumaq zərurəti aydındır, çünki Dağıstan Azərbaycanın və yeni yaranan dövlətlərin qapısıdır.[77] Sorğuya cavabla çıxış edən baş nazir Usubbəyov hökumətin sərhədlərin təhlükəsizliyini tə'min etmək üçün atdığı konkret addımlar haqqında danışdı. Parlament hökumətin qəbul etdiyi bütün tədbirləri bəyəndi və ona yardım edəcəyini bildirdi.[78] Ölkənin müdafiəsi məqsədilə o, hökumətin tərkibindən ölkəni və ya onun bir hissəsini fövqəl'adə hərbi və ya mühasirə şəraitində e'lan etməyə, könüllü dəstələr təşkil etməyə və digər səlahiyyətləri olan xüsusi

bir orqan tə'sis etdi. 1919-cu il iyunun 14-də yaradılmış və N.Usubbəyovdan (sədr), A.Səfinurdəkidən, X.Məlik-Aslanovdan, M.Y.Cəfərovdan və S.Mehmandarovdan ibarət tərkibdə yaradılmış Dövlət Müdafiə Komitəsi, belə bir orqan oldu.[79] Dövlət Müdafiə Komitəsi Azərbaycanın bütün ərazisində hərbi vəziyyət e'lan etdi. Baş nazirin imzası ilə Denikinlə mübarizəyə yönəlmiş icbari qərar dərc olundu.[80]

Denikinin və müttəfiiq komandanlığının Azərbaycana qəsd edilməyəcəyi haqqında və'dlərinə baxmayaraq, onlar Azərbaycanla yeni demarkasiya xətti Zaqatala-Qızılburun xətti haqqında damşmağa başladılar. Hökumətin adına göndərdiyi teleqramda polkovnik Lazarev öz ordusunun əsl məqsədlərini belə açıqlamışdı: "Cənubi Rusiya silahlı qüvvələrinin komandanlığı Azərbaycanı Rusiyadan ayrılmış hesab etmir. O, Rusiyada adi hakimiyyətin bərpa olunacağından sonra bu məsələnin həll ediləcəyinə qədər Azərbaycanın müstəqilliyinin mövcudluğunu mümkün sayır və onu tanıyır.[81] Beləliklə, çar generalları Azərbaycanı Rusiyanın tərkib hissəsi kimi görməkdə davam edirdilər.

Bu təşvişləri nəzərə alan parlament iyunun 5-də bir daha həmin məsələnin müzakirə olunmasına qayıtmağı və hökumətdən dövlət maraqlarının müdafiəsi üçün daha əməli və qəti tədbirlər görməyi tələb etməyə məcbur olmuşdu. Baş nazir N.Usubbəyov müttəfiq qoşunlarının yeni komandanı, onlar üçün Azərbaycanın sərhədlərinin toxunulmazlığı haqqında tə'minat verən general Q.Kori ilə görüşlərindən danışmışdı. Lakin baş nazirin sözlərinə görə, hökumət bu və'dlərə inana bilməzdi və əsasən, öz gücünə bel bağlayırdı.[82]

N.Usubbəyovun mə'ruzəsi üzrə çıxışlarda bütün fraksiyalar ümumi düşmənə qarşı vahid cəbhədən çıxış etmək fikrində birləşdilər. Parlamentin qəbul etdiyi bəyanatda deyilirdi ki, Denikinin dövlətçiliyimiz əleyhinə yönəlmiş niyyəti kiçik xalqları əsarət altına alıb, azadlıqsevər demokratiyanı məhv etməyə çalışan keçmiş çar generallarının imperialist niyyətinin nəticəsidir.



Parlament Azərbaycanın bütün vətəndaşlarını hökumətin ətrafında birləşməklə ordunun və hökumətin yaxınlaşmaqda olan düşmənə qarşı mübarizədə müvəffəqiyyət qazanmağa yardım etməyə çağırdı. Parlament ümidvar olduğunu bildirdi ki, Cənubi Qafqazın bütün xalqları özlərinin azad inkişafı və müstəqilliklərinin qorunması uğrunda mübarizədə birləşəcəklər. O öz müqəddəratlarını tə'yin etmiş xalqları müdafiə etmək üçün dünya xalqları və parlamentlərinə müraciət edərək onları Denikinin yürüşünə qarşı öz e'tirazlarını bildirməyə çağırdı.[83]

Xüsusi parlament komitəsi dağıstanlılara, silahlı könüllülərin göndərilməsi və hətta pul vəsaiti də daxil oolmaqla bütün yardımları əlaqələndirirdi.

Böyük Britaniyanın Denikinə güzəştə getmək hesabına vəziyyəti nizamlamağa çalışması da işi çətinləşdirirdi. 1919-cu il iyunun 11-də ingilislər Petrovskdən cənubda yeni demarkasiya xətti ilə müəyyənləşdirilən sərhədləri qeydə aldılar. Bu da prinsipcə onların, Denikinin bütün Dağıstanı işğal etməsi faktı ilə razı olduqları demək idi. Bu, könüllü ordunu Azərbaycan sərhədlərinə daha yaxınlaşdırdı.

Buna baxmayaraq, sosialist bloku, hökumətin gördüyü tədbirlərin lazımınca qətiyyətli olmadığını bəyan edərək bildirdi ki, hökumət ağqvardiyaçıları müdafiə edən ingilislərin fəaliyyətinə reaksiya vermir. İngilislərin bu mövqeyi bütün Azərbaycan əhalisi arasında narazılığa səbəb oldu. Hələ 1919-cu il iyunun 8-də Bakı şəhərinin Balaxanı, Zabrat, Ramanı rayonları fəhlələrinin böyük mitinqi oldu və onlar hökumətdən Bakının və Azərbaycan sərhədlərinin müdafiə olunması üzrə tə'cili tədbirlər görülməsini tələb etdilər. Fəhlələrin qəbul etdikləri qətnamədə deyilirdi: "... Bakı limanından Denikinə mərmilər göndərilir və buna Zaqafqaziyada, o cümlədən də Bakıda, həyasız ikiüzlü siyasət yeridən ingilis komandanlığı kömək edir".[84]

Bakıda təkcə Denikin təhlükəsinə qarşı deyil, həm də ingilis komandanlığının ikiüzlü siyasətinə qarşı e'tiraz mitinqləri keçirilirdi.

Hələ 1919-cu ilin əvvəllərindən Azərbaycanın hökuməti Bakıda general-qubernatorluq sisteminin özünün ləğv edilməsi uğrunda mübarizə aparırdı. Azərbaycan xarici işlər nazirinin bu vaxt İstanbulda olan Azərbaycan diplomatik missiyasının başçısı Ə.Topçubaşova göndərdiyi teleqramında göstərilirdi: "Nəyin hesabına olursa-olsun Bakıda ingilis general-qubernatorluğunun ləğv edilməsinə nail olmaq lazımdır. Əks təqdirdə idarəçilik nöqteyi-nəzərindən dözülməz hesab edilən ikihakimiyyətlilik alınır".[85]

1919-cu il iyunun 13-də Bakıda zəhmətkeşlərin ingilis qoşunlarının Azərbaycanda saxlanılmasına qarşı yönəlmiş izdihamlı mitinqi oldu.[86]

Sərhədlərin möhkəmləndirilməsi məqsədi ilə hər iki respublikanın dövlət bütövlüyünün birlikdə qorumaqla bağlı Azərbaycanla Gürcüstan arasında imzalanmış müqaviləni parlament 1919-cu il iyunun 27-də yekdilliklə təsdiq etdi.[87] Onun təsdiqindən sonra hökumət tərəfindən Tiflisdən 12 yüngül, 12 dağ topu, 24 "Maksim" tipli pulemyot və onun üçün xeyli miqdarda sursat və hərbi ləvazimat alınmışdı. Müqaviləyə uyğun olaraq, bir qrup azərbaycanlı hərbi təhsil müəssisələrində oxumaq üçün Gürcüstana getdi. 1919-cu ilin axırlarında İtaliyanın hərbi naziri ilə Azərbaycana avtomobil, aeroplan, projektor və s. göndərmək haqqında da danışıqlar aparılırdı.[88] Müqavilənin böyük siyasi əhəmiyyəti var idi və o, təkcə iki suveren dövlət arasında dostluq münasibətlərinin möhkəmləndirilməsinə deyil, həm də Denikin təhlükəsinə qarşı müəyyən tə'minat olmasına kömək etdi.

Azərbaycan parlamentinin bütün fraksiyaları müqaviləni bəyəndilər. Yalnız bolşeviklər bu müqaviləni heç bir əhəmiyyəti olmayan "kağız parçası" adlandıraraq ratifikasiyasına qarşı çıxdılar.

Cənubi Qafqaz respublikalarının qüvvələrinin cəmləşdirilməsinə, bu müqaviləni imzalamayan daşnak Ermənistanı ciddi pozuculuq törətdi. İrəvan hökuməti özünü



heç bir vəchlə hansısa antirusiya blokunda təsəvvür edə bilmirdi.

Bununla belə, Azərbaycanda xidmətlərinin uzandığına görə narazılıq edən və vətənə qayıtmalarını istəyən bir çox ingilis əsgərlərinin özlərinin də sıralarında pozğunluq güclənirdi. Bununla əlaqədar olaraq, ingilislərin tədrici təxliyəsi prosesi başlandı və ingilis komandanlığı hərbi ləvazimatı Denikin ordusuna verdi. 1919-cu il avqustun əvvəllərində Britaniya komandanlığının sərəncamında olan Xəzər hərbi donanması da Denikinə verildi. Bu Azərbaycan hökumətinin kəskin e'tirazına səbəb oldu. Hökumət notasında göstərilirdi ki, "... Xəzər hərbi donanması hissələrinin Könüllü orduya verilməsi Azərbaycanın müstəqilliyi və bütövlüyü üçün birbaşa təhlükədir və onun əhalisinin təbii narahatlığına səbəb olmaya bilməz."[89] İngilis komandanlığı hökumətin e'tirazına cavabında yalnız Xəzər donanması gəmilərinin Denikinə verildiyini bildirdi. Eyni zamanda 1919-cu il avqustun 4-də komandanlıq Azərbaycanla Gürcüstan sərhədləri boyunca üçüncü demarkasiya xətti keçirdi. Denikin Zaqafqaziyadakı hərbi fəaliyyətini müvəqqəti dayandırdı, lakin bu onun əsas qüvvələrinin Qızıl Ordunun yürüşünə qarşı Şimala aparılması ilə birbaşa bağlı idi. Özünün regiondakı nümayəndəsi general N.Baratova verdiyi tə'limatında o, yazırdı ki, "Zaqafqaziya, Rusiyamn tərkib hissəsi kimi sayılmalı olsa da, yerli hökumətə hələlik dözmək olar".[90]

Avqustun sonlarında ingilislər Qafqazdan çıxdılar. Sonuncu ingilis hərbi birləşmələri Azərbaycanı tərk etdi. Bu barədə respublika hökuməti Gürcüstan hökumətinin Parisdəki səlahiyyətli nümayəndəsi Qambaşidze vasitəsi ilə Azərbaycan hökumətinin Parisdəki nümayəndəsinə göndərdiyi hesabatda xəbər verilirdi.[91] Bundan əvvəl avqustun 23-də ingilis generah Şatelvort müttəfiq qoşunların komandanlığı adından Bakı əhalisinə "vida çağırışı" ilə müraciət etdi. Müraciətdə deyilirdi: "Fürsətdən istifadə edərək indi Bakını tərk edən Britaniya qoşunları adından Azərbaycan, xüsusilə Bakı şəhəri, əhalisindən üzr istəyirik. Qəlbən təəssüf edirik ki, biz çoxlu dostlarımız və tanışlarımızla vidalaşırıq,

onlara ürəkdən sülh və səadət arzulayırıq. Britaniya ordusunun bütün qulluqçuları özlərilə Azərbaycanda olduqları günlər haqqında ən yaxşı xatirələrini aparırlar".[92] İngilis qoşunlarının Azərbaycan ərazisində (noyabr 1918-ci - avqust 1919-cu illər) olmasına dair sovet tarixşünaslığında yayılmış fikrin əksinə olaraq, bir daha qeyd etmək lazımdır ki, bu heç də işğal xarakteri daşımırdı. Bununla belə yuxarıda göstərildiyi kimi, demokratik prinsiplərin ingilis komandlanlığı tərəfindən pozulmasına dair bir sıra faktlar var idi.

Təsadüfi deyildi ki, Adilxan Ziyadxanlı 1919-cu ildə Bakıda nəşr olunmuş "Azərbaycan" soraq kitabçasında yazırdı: "Artıq ilk gündən müttəfiqlərin bizə hörmətli münasibəti aşkar oldu. Axır nəticədə mədəni millətlərin nümayəndələri əyani surətdə əmin oldular ki, Azərbaycandakı bütün ictimai-siyasi hadisələr əhalinin iradəsinə müvafiq şəkildə gedir və əsil vəziyyəti daha yaxından dərk etdilər. Mən cür'ətlə və inamla deyə bilərəm ki, bizim digər mədəni xalqlarla qarşılıqlı əlaqələrimiz nə qədər sıx və mehriban olarsa biz bir-birimimzi bir o qədər yaxşı tanıyacağıq."[93]

Qafqazdakı ingilis ordusu təkcə Denikinin yolunu kəsmir, həm də Cənubi Qafqaz respublikaları arasında sülh və sabitliyin bərqərar olmasına şərait yaradırdı. U.Çörçillin belə bir fikri ilə razılaşmamaq olmaz ki, "Qara dənizdən Xəzərədək bütün Qafqazı tutmuş Britaniya diviziyası bir-biri ilə düşmənçilik edən xalqlar arasında sülhün az qala yeganə tə'minatçısı idi".[94]

İngilislərin Bakıdan getməsi münasibəti ilə Azərbaycan Nazirlər Şurasının sədri "Metropol" mehmanxanasında general Kori və digər yüksək rütbəli şəxslərin şərəfinə ziyafət verdi. General Kori ziyafətdəki çıxışında qeyd edirdi ki, belə çətin keçid dövründə Azərbaycan hökumətinin və xüsusən də Azərbaycan Xarici İşlər Nazirliyinin fəaliyyəti adamı heyrətə salır.[95]

İngilislər Bakını tərk edərkən şəhər limanının idarəsini hərbi hissələrin radiostansiyalarını, ordunun hərbi sursatını və hərbi gəmilərin bir hissəsini Azərbaycan hökumətinə verdilər.



## § 3. *Respublikada mədəni quruculuq*

Şərqdə ilk respublika formalı dövlət - Azərbaycan Xalq Cümhuriyyəti Azərbaycan xalqınm çoxəsrlik tarixində, milli dövlətçiliyin əsaslarının yaradılmasında, milli özünüdərkin inkişafında mühüm rol oynadı. Xalq Cümhuriyyətinin təhsilin, milli mədəniyyətin, ədəbiyyat və incəsənətin inkişaf etdirilməsi sahəsində fəaliyyəti xüsusi yadda qalmışdır. Faktlar Azərbaycan Xalq Cümhuriyyəti parlamenti və hökumətinin sosial-mədəni sahənin inkişafı üzrə sistemli və məqsədyönlü işinə dəlalət edir. Müharibələr və daxili qarma-qarışıqlıqlar nəticəsində dağıdılmış məktəblər şəbəkəsinin bərpa edilməsi, məktəblərin yeni şəraitə uyğunlaşdırılması, təhsil müəssisələrinin milliləşdirilməsi, milli incəsənətə kömək göstərilməsi üzrə hökumət tərəfindən mühüm tədbirlər görülürdü.

Azərbaycan Cümhuriyyətinin yaradılması ərəfəsində sosial-mədəni sahədə dəhşətli vəziyyət mövcud idi. Əgər 1914-cü ildə Azərbaycanda bütün tiplərdən olan 976 məktəb var idisə və bunlarda 73,1 min şagird təhsil alırdısa, 1919/1920-ci təhsil ilində cəmisi 643 ibtidai və 23 orta məktəb fəaliyyət göstərirdi. İbtidai məktəblərdə 48078, orta məktəblərdə isə 9611 şagird oxuyurdu.[96] Belə şəraitdə məktəb sisteminin dağılmasını dayandırmaq Azərbaycan Cümhuriyyətinin qarşısında mühüm vəzifə kimi dururdu.

Digər mühüm vəzifə maarif sisteminin işini milli mənafelərə, Azərbaycan milli hərəkatı və dövlətçiliyinin tələblərinə uyğun vəziyyətə gətirməkdən ibarət idi.

Azərbaycan hökumətinin ilk tədbirlərindən biri təhsil müəssisələrinin milliləşdirilməsi oldu.

Nazirlər Şurasının 1918-ci il 28 avqust tarixli qərarı ilə bütün ibtidai tədris müəssisələrində təhsil şagirdlərin ana dilində aparılır, bununla yanaşı dövlət dili icbari qaydada tədris olunurdu.[97] Bütün ibtidai məktəblərdə və orta təhsil müəssisələrində tədris dövlət dilində

aparılırdı, özü də tədrisin qeyri-dövlət dilində aparıldığı bütün hazırlıq sinifləri ləğv olunurdu. Orta məktəblərin beşinci sinifindən şagirdlər tədris müəssisəsini bitirənə qədər tədris rus dilində aparılırdı, Azərbaycan dili isə məcburi fənn kimi tədris olunurdu. Hökumət bu milliləşdirmə tədbirlərinin şagirdlərin bir hissəsini məktəbdən kənarda qoya bilməsi ehtimalını nəzərə alaraq, 1918-ci ilin noyabrında öz qərarlarında dəyişikliklər etdi. Müəyyən edildi ki, cəmisi bir təhsil müəssisəsi olan şəhərlərdə yuxarı hazırlıq siniflərindən başlayaraq tədrisi rusca aparılan paralel siniflər açılır, eyni tipli bir neçə tədris müəssisəsi olduqda isə, onların bir hissəsi milliləşdirilir, qalanlarında isə, dövlət dilinin icbari tədrisi tətbiq olunmaqla, tədris rusca aparılır.[98]

Milliləşdirmə siyasəti çətinliklərlə qarşılaşırdı. Buraya pedaqoji kadrların çatışmamasından, kifayət qədər dərsliklərin olmamasınadək bir çox problemləri aid etmək lazımdır. Tələsiklik, səhvlər və əhalinin müəyyən hissəsinin - Azərbaycan dilini, Azərbaycan dövlətçiliyini tanımayan, qəbul etməyən hissəsinin müqaviməti bu çətinliklərdən idi. Lakin hökumət bu məsələdə qəti mövqe tutdu və bütün çətinliklərə baxmayaraq milliləşdirmə siyasətini davam etdirdi. 1919-cu ilin sonuna olan mə'lumatlara görə, Bakı politexnik və kommersiya məktəbləri, iki kişi və üç qız gimnaziyası istisna olunmaqla, bütün orta məktəblər milliləşdirilmişdi.[99]

Hökumət çarizmin müstəmləkə siyasətinin ağır nəticələrini tezliklə aradan qaldırmaq məqsədi ilə azərbaycanlı şagirdlərin təhsilinə xüsusi diqqət yetirirdi. Xalq Maarifi Nazirliyinin orta məktəb rəislərinə 1919-cu il 7 sentyabr tarixli xüsusi sərəncamında azərbaycanlı uşaqların ancaq milliləşdirilmiş əlifba, hazırlıq və birinci siniflərə qəbul olunması göstərişi verilirdi. Azərbaycanlı uşaqların tədrisi rusca olan həmin siniflərə qəbuluna isə ancaq müstəsna hallarda, nazirin icazəsi ilə yol verilirdi.[100] Tədris müəssisələrinə qəbul zamanı azərbaycanlılara bə'zi güzəştlər verilirdi. Görülmüş tədbirlər



nəticəsində şagirdlərin ümumi sayı içərsində azərbaycanlıların xüsusi çəkisi artdı. Əgər 1914/1915-ci tədris ilində 9643 nəfər orta məktəb (müəllimlər seminariyaları çıxılmaqla) şagirdindən ancaq 1137 nəfəri azərbaycanlı idisə, 1919/20-ci tədris ilində 9611 şagirddən 3115-i azərbaycanlı idi.[101]

Məktəb şəbəkəsinin bərpa edilməsi məqsədi ilə hökumət onun maddi-texniki bazasının möhkəmləndirilməsi, məktəb binalarının tə'miri, bərpası və yeni məktəblərin tikintisi üçün vəsait ayrılması üzrə tədbirlər görürdü. Nazirliyin göstərişi ilə müxtəlif qəzalarda məktəblərin bərpa edilməsinin smetaları hazırlanıb təqdim olunurdu. Zaqatalada, Göyçay və Şuşa qəzalarında, başqa yerlərdə yeni məktəblər açılırdı. Nəticədə köhnə məktəblərin xeyli hissəsinin bərpasına, bir sıra yeni məktəblər açılmasına və nəzərdə tutulmuş layihələrin qismən yerinə yetirilməsinə nail olundu. Məsələn, əgər 1918-ci ildə Şamaxı və Göyçay qəzaları xalq məktəbləri müfəttişliyində uçotda olan 108 məktəbdən ancaq 10-u fəaliyyət göstərirdisə, 1919/20-ci tədris ilində belə məktəblərin sayı 70-ə çatdırıldı.[102] Bakı şəhər idarəsinin məktəb şö'bəsinin mə'lumatlarına görə, şəhər artıq ibtidai təhsil ehtiyaclarının ödənilməsi üçün kifayət qədər məktəblər şəbəkəsinə malik idi.

Maarifin milliləşdirilməsi ilə əlaqədar olaraq bütövlükdə məktəb islahatı məsələsi ortaya çıxdı. İslahatın mahiyyəti məktəbi yeni şəraitə uyğunlaşdırmaqdan, onu Azərbaycan dövlətçiliyi ideyalarına və milli mənafelərə yaxınlaşdırmaqdan, milli tərbiyəli yeni bir nəsil hazırlamaqdan ibarət idi. Bu məqsədlə orta məktəblərin yeni proqramlarının hazırlanması üçün komissiyalar yaradılırdı. Komissiyalar ümumi tarix və coğrafiya, türk dili və ədəbiyyatı, riyaziyyat, ilahiyyat üzrə proqramlar hazırladırdılar. Tədris müəssisələrinin proqramına türk xalqları tarixi kursunun daxil edilməsi də cəmiyyətin həyatında baş verən milliləşdirmə prosesi ilə bağlı idi. 1919-cu

ildə türk xalqları tarixi kursu üzrə proqramlar və izahat qeydləri hazırlandı.

Qadınların təhsilinə xüsusi diqqət yetirilirdi. Orta təhsil müəssisələrində azərbaycanlı qızların sayı artırdı. Məsələn, əgər 1918/1919-cu tədris ilində Gəncə gimnaziyasında cəmisi 4 azərbaycanlı qız oxuyurdusa, 1919/1920-ci tədris ilində onların sayı 296 nəfərə çatmışdı.[103]

Azərbaycan hökuməti qarşısında duran ən kəskin məsələlərdən biri də maarif işçilərinin maddi tə'minatı, onların güzəranının yaxşılaşdırılması idi. 1919-cu ilin sentyabrında parlament Azərbaycan Cümhuriyyəti qulluqçularının məvacibinin artırılması və maaşların müvafiq şəkildə sistemləşdirilməsi barəsində qanun qəbul etdi. Bu qanuna görə, müəllimlər xeyli imtiyazlar aldılar. Əlavə işlərə görə onlara əmək haqqı xüsusi cədvəl üzrə ödənilirdi.[104]

Yaşlı əhali və qeyri-türk mənşəli vətəndaşlar içərisində savadın yayılması və dövlət dilinin öyrənilməsi üzrə tədbirlər də dövlət və ictimai həyatın milliləşdirilməsi siyasəti ilə bağlı idi. Hökumətin təşəbbüsü ilə 1919-cu ilin sentyabrında Azərbaycan dilinin öyrənilməsi üzrə kurslar təşkil olundu. Bu kursların təşkilinə 351 000 manat vəsait ayrıldı.[105]

Azərbaycan hökumətinin ən mühüm təşəbbüslərindən biri- əlifba islahatı da onun maarifçilik fəaliyyətinin və xalq təhsili üzrə proqramlarının reallaşdırılmasına xidmət edirdi.

1919-cu ilin martında X.Məlik-Aslanovun sədrliyi altında əlifba islahatı üzrə xüsusi komissiya yaradıldı.[106] Təqdim olunmuş layihələrdən ancaq müəllim Abdulla bəy Əfəndiyevin variantı parlament tərəfindən bəyənildi və yeni əlifba üçün əsas kimi qəbul edildi.

Azərbaycan Cümhuriyyəti hökuməti tərəfindən iqtisadiyyat, idarəçilik və mədəniyyətin bütün sahələri üzrə kadrlar hazırlanmasına dair cür'ətli proqramlar işlənib hazırlanmışdır. Bu vəzifələrin həlli üçün hər cür mümkün



formalardan istifadə olunur, kompleks tədbirlər görülür və xeyli vəsait xərclənirdi.

*Azərbaycan hökuməti təhsil sistemini kökündən* yeniləşdirmək üçün pedaqoji kadrların hazırlanmasına birinci dərəcəli əhəmiyyət verirdi. Pedaqoji kadrlara olan ehtiyacın ödənilməsi üçün maarif nazirliyi tərəfindən hər il respublikanın müxtəlif məntəqələrində dörd seminariya açılması nəzərdə tutulurdu.[107] Qori seminariyasının müsəlman şö'bəsi Qazaxa köçürüldü və müstəqil seminariyaya çevrildi. 1919-cu ilin sentyabrında Bakıda kişi seminariyası açıldı. Lakin zəruri qədər pedaqoji kadrlar hazırlanması üçün bu seminariyalar kifayət deyildi. Parlament tərəfindən 1919-cu il iyulun 19-da qəbul olunmuş qanuna əsasən Qazax, Nuxa, Şuşa, Quba, Zaqatala, Səlyan, Gəncə və Bakıda (sonuncu iki şəhərdə ayrı-ayrı - həm kişi, həm də qadın) ikiaylıq pedaqoji kurslar açıldı. Bu məqsədlər üçün dövlət xəzinəsindən 2.390 min manat vəsait ayrıldı.[108] Bu kursların hər birində ən azı 50 müəllim hazırlanmışdır.

Xaricdən, əsasən Türkiyədən müəllimlər də'vət olunurdu.

Texniki təhsilin təşkili üçün tədbirlər görülürdü. Gəncə stansiyasında dəmiryolu və teleqraf xidməti işçilərin hazırlanması üzrə kurslar açılmışdı. Səlyanda hidrotexniki təhsil müəssisəsinin açılması layihəsi işlənib hazırlanmışdı.[109]

Peşə təhsili almaq üçün azərbaycanlılara müəyyən güzəştlər verilirdi. Maarif nazirinin Bakı Politexnik Məktəbinin direktoruna 1919-cu il 30 avqustlu tarixli sərəncamında təklif olunurdu ki, qəbul şəraitinə cavab verən bütün azərbaycanlı şagirdlər məktəbə imtahansız qəbul olunsunlar.[110]

Orta kənd təsərrüfatı təhsilinin təşkili də mühüm məsələ idi. 1919-cu ilin noyabrında Əkinçilik Nazirliyinin kənd təsərrüfatı şö'bəsi tərəfindən kənd təsərrüfatının müxtəlif sahələri və balıqçılıq üzrə tə'limatçılar hazırlayacaq ikiillik kənd təsərrüfatı kurslarının təşkili

haqqında qanun layihəsi işlənib hazırlandı.[111] Gəncədə orta, Nuxa və Zaqatalada isə ibtidai kənd təsərrüfatı məktəblərinin açılması qərara alındı.[112]

İxtisaslı fəhlə kadrlarının hazırlanması üçün texniki kurslardan istifadə olunurdu. Qadınların peşə hazırlığının təşkili üzrə də bə'zi tədbirlər görülürdü.

Respublikada ali təhsilin təşkili Azərbaycan hökumətinin qarşısında tə'xirəsalınmaz vəzifə kimi dururdu. Bu məsələ siyasi xadimlər və ziyalılar arasında, ticarət-sənaye dairələrində qızğın surətdə müzakirə olunurdu.

Hələ 1918-ci ilin avqustunda Azərbaycan hökuməti Tiflis Politexnik İnstitutunun maliyyələşdirilməsində iştirak etmək haqqında məsələni nəzərdən keçirmişdir. Bununla əlaqədar olaraq, maarif naziri N.Usubbəyov təklif etdi ki, institutun Azərbaycan ərazisinə köçürülməsi şərti ilə, Azərbaycan hökuməti onun maliyyələşdirilməsini bütövlükdə öz üzərinə götürsün.[113] Bakıda pedaqoji institutun açılması barəsində Maarif Nazirliyi tərəfindən qanun layihəsi işlənib hazırlanmışdı. Bakı musiqi məktəbinin bazasında konservatoriyanın açılması məsələsi də gündəlikdə dururdu.[114]

Azərbaycan Cümhuriyyətinin ən mühüm mədəni tədbirlərindən biri Bakı Dövlət Universitetinin təşkili oldu. Hökumət Universitetin maddi-texniki təchizi, pedaqoji kadrların cəlb olunması, müvafiq binaların ayrılması üçün böyük sə'ylər göstərirdi. Həm universitetin açılmasına, həm də burada təhsilin rus dilində təşkil olunmasına qarşı çıxan mühafizəkar qüvvələrin müqavimətini dəf etmək lazım gəlirdi. 1919-cu il sentyabrın 1-də parlament Bakı Dövlət Universitetinini təşkili barəsində qanun qəbul etdi. Şəxsi hey'ətin saxlanılması, tədris hissəsi və təsərrüfat xərcləri üçün 10.857.500 manat vəsait ayrılırdı.[115]

Azərbaycan hökuməti eyni zamanda 100 tələbəni xarici tədris müəssisələrinə göndərdi. Bu məqsədlə Xalq Maarif Nazirliyinə 7000000 manat ayrılmışdı. Dövlət təqaüdü



alan tələbələr təhsili başa vurduqdan sonra hökumətin tə'yinatı ilə 4 il işləməli idilər.[116]

Beləliklə, Azərbaycan Xalq Cümhuriyyətində ən müxtəlif sahələr üzrə ixtisaslı mütəxəssislər hazırlamaq üçün müxtəlif imkanlardan istifadə edilirdi.

1918-20-ci illər Azərbaycan teatrının inkişafında mühüm keyfiyyət dəyişiklikləri, teatr işinə dövlətin fəal müdaxiləsi, teatrların repertuarlarında Azərbaycan tarixi və milli müstəqillik uğrunda hərəkatla bağlı olan yeni səhnə əsərlərinin görünməsi və ictimai həyatda teatrın rolunun artması ilə səciyyəvidir. Azərbaycan teatrının qabaqcıl nümayəndələri cəmiyyətin mütərəqqi dairələrinin yardımına arxalanaraq, teatrın ideya-bədii səviyyəsini qaldırmaq və təşkilati cəhətdən onu möhkəmləndirmək üçün pərakəndə teatr qruplarının birləşdirilməsi naminə cəhdlər göstərirdilər. "Nicat" və "Səfa" maarifçilik cəmiyyətlərinin qüvvəsi ilə aktyorların mədəni və yaradıcılıq inkişafına qayğı göstərən "Müsəlman aktyor cəmiyyəti" yaradıldı.[117]

Azərbaycan teatr truppasının yaradılması üçün göstərilən cəhdlər tezliklə öz bəhrəsini verdi. 1918-ci ilin oktyabrında Bakıda "Hacıbəyov qardaşları"nın müdiriyyəti tərəfindən yeni teatr truppası təşkil olundu. Müsəlman səhnə sənətinin istisnasız olaraq bütün xadimləri bunun tərkibinə daxil oldular.

Azərbaycanın digər şəhər və qəzalarında da belə teatr truppaları təşkil olundu. Şuşada Hacıbəyov qardaşlarının teatr müdiriyyətinin filialı təşkil edildi.[118]

Azərbaycan hökuməti müsəlman teatr truppasını öz himayəsi altına götürməyi qərara aldı. Nazirlər Şurası 1919-cu il noyabrın 17-də öz iclasında maarif nazirinin türk-opera-dram teatrının təşkili haqqında mə'ruzəsini dinləyərək, Dövlət Türk Opera-Dram Tetarının təşkil olunmasını nəzərdə tutan qanun layihəsini bəyəndi.[119]

Beləliklə, türk teatrı milliləşdirildi və dövlətin himayəsinə verildi. 1919-cu il oktyabrın 10-da Dövlət teatrının direktoru Q.N.Şərifzadə e'lan etdi ki, Azər-

baycan Cümhuriyyəti Xalq Maarif Nazirliyinin tapşırığına əsasən, bu gündən e'tibarən türk dilində opera, operetta və dram tamaşaları dövlətin ixtiyarına keçəcəkdir. Bağlanılan müqavilələrin və dövlət xidmətinin şərtləri ilə tanış olmaq üçünn aktyor və aktrisalar Dövlət teatrına də'vət edilirdilər.[120]

Nazirlər Şurasının 1919-cu il 8 noyabr tarixli iclasında Dövlət teatrının bərpası üçün 300605 manat vəsait ayrıldı.[121]

Aktyorların bədii ustalığının və peşəkarlığın yüksəldilməsi əvvəlki tək mühüm problemlərdən biri olaraq qalırdı. Çünki H.Ərəblinski istisna olunmaqla qalan aktyorlar xüsusi təhsil almamışdılar. Ona görə də aktyorların peşə hazırlığının yüksəldilməsi məqsədilə dram dərnəklərinin açılması məsələsi kəskin şəkildə qarşıda dururdu.

Avropa aktyorlarından fərqli olaraq, Azərbaycan aktyorları səhnə məharəti kursları keçməmişdilər, tarixin keçmiş ictimai və siyasi mərhələləri, xalqın musiqi irsi barəsində kifayət qədər mə'lumata malik deyildilər.

Tələsik surətdə hər yerdən toplanılmış belə həvəskar aktyorlar üçün, onların öz millətlərinin ədəbiyyatı, dili və mədəniyyəti ilə bilavasitə tanış edilməsi məqsədi ilə kurs açılması zəruri idi. Onlar incəsənətin hikmətləri və incəliklərini mənimsəməli, habelə incəsənətlə bağlı olan psixologiya, tarix, dil və digər bu cür elm sahələri ilə tanış olmalı idilər. Ona görə də teatr haqqında qanunların qəbul edilməsi ilə yanaşı milli səhnə kurslarının açılması barəsində məsələni də qoymaq lazım idi.[122] Hələ 1918-ci ilin əvvəllərində A.Şərifzadənin təşəbbüsü ilə Bakıda incəsənət məktəbi yaradılmışdı.[123] Burada incəsənətin bu və ya digər növləri üzrə ibtidai, ilkin biliklər verilirdi. 1919-cu ilin sentyabrında Hacıbəyov qardaşlarının müdiriyyəti "Türk aktyorlar ittifaqı" ilə birlikdə musiqi şö'bələri olan türk dram kursları açdı.[124]

Dram şö'bəsinə Abbas Mirzə Şərifzadə, H.Sarabski, komediya şö'bəsinə M.A.Əliyev, musiqi şö'bəsinə Z. və Ü.Hacıbəyovlar, M.Maqomayev, Qurban Primov, ədəbi



şö'bəyə isə Əliabbas Müznib və Rza Zəki Əfəndi müəllim kimi də'vət olundular. Kurslara azərbaycanlı həvəskar aktyorlar, habelə müxtəlif millətlərdən olan aktrisalar cəlb edilmişdilər.[125]

Teatr kollektivləri və digər mədəni müəssisələr üzərinə qoyulmuş vergilər incəsənətin müxtəlif növlərinin inkişafına mane olurdu. Məsələn, teatrlar və kinomatoqraf kütləvi tamaşalardan gəlirin çox hissəsini vergi kimi verməyə məcbur olur, ziyanla işləyir və öz kollektivlərini saxlamağa qadir olmadıqları üçün fəaliyyət çərçivələrini daraldırdılar. Biletlərdən alınan bu vergilər Bakı şəhər upravasının 1917-ci ilin dekabrında qəbul olunmuş qərarı ilə qoyulmuşdu.[126] Sahibkarlar şəhər idarəsinin bu hədsiz vergilərinin ləğv olunmasını xahiş edirdilər.[127]

Maarif Nazirliyi teatrın inkişafına qayğı göstərərək parlamentə teatr vergisinin ləğv olunması barəsində mə'ruzə təqdim etdi. Mə'ruzədə bu verginin hədsiz miqyasına dəlalət edən faktlar gətirilirdi.

Nəticədə parlament "Müsavat" fraksiyası tərəfindən təklif olunmuş qanun layihəsini qəbul etdi. Teatr tamaşalarına və digər kütləvi tamaşalara qoyulmuş dövlət vergisi yarıbayarı azaldıldı.[128]

1919-cu il oktyabrın 24-də Azərbaycan Dövlət Dram Teatrının opera və operetta truppası teatr mövsümünü açdı. Açılışda parlament və hökumət üzvləri, dövlət idarələrinin qulluqçuları iştirak edirdilər. Dövlət truppasının kiçik nitqlə çıxış edən inzibatçısı Rza Zəki tamaşaçıları son 15 il ərzində Azərbaycanda səhnə sənətinin formalaşması tarixi ilə tanış edərək, Dövlət truppasının yaradılması ideyasının həyata keçirilməsindən danışdı. Sonra böyük müvəffəqiyyətlə İsa bəy Aşurbəyovun "Azərbaycan" tarixi pyesi oynanıldı.[129]

Azərbaycan teatrının repertuarında N.Nərimanovun "Nadir şah", Ə.Haqverdiyevin "Bəxtsiz cavan", türk yazıçısı Namiq Kamalın "Akif bəy və ya namus", habelə Ü.Hacıbəyovun "Dəmirçi Gavə", "Yağışdan çıxdıq, yağmura düşdük", "O olmasın, bu olsun", "Arşın mal

alan", Z.Hacıbəyovun "50 yaşında cavan", "11 yaşında gəlin" kimi əsərləri mühüm yer tutmuşdu. Xeyriyyə tamaşalarının təşkili teatrın praktikasında tez-tez baş verən hadisəyə çevrildi. "Azərbaycan" qəzetində tez-tez həlak olmuş döyüşçü ailələrinin xeyrinə təşkil olunan teatr tamaşaları barəsində e'lanlar verilirdi.

Bu işdə Üzeyir və Zülfüqar Hacıbəyov qardaşlarının truppası xüsusi fəallıq göstərirdi. Məsələn, Dövlət teatrının direktoru Zülfüqar Hacıbəyov tərəfindən həlak olmuş döyüşçü ailələrinin xeyrinə təşkil edilmiş tamaşadan Azərbaycan ordusunun bölməsinə 22292 manat 80 qəpik pul vəsaiti verilmişdir.[130] 1919-cu ilin martında Qazax seminariyasının şagirdləri tərəfindən N.Nərimanovun "Nadir şah" pyesi oynanılarkən qadınlar kasıb şagirdlərin xeyrinə 4485 manat pul toplamışdılar.[131] Ağdaşda yerli ziyalıların təşkil etdikləri xeyriyyə tamaşasından toplanmış vəsait Dağıstanın "Qırmızı Aypara Cəmiyyəti"nə göndərilmişdi.[132]

Azərbaycanın müstəqilliyi uğrunda mübarizə tarixinə həsr olunmuş dram əsərləri yaradılırdı. Bu və ya digər tarixi hadisələrin yubileyləri münasibəti ilə Mirzəbala Məmmədzadənin "Bakı uğrunda müharibə", İ.Aşurbəyovun "Azərbaycan", C.Cabbarlının "Bakı müharibəsi", "Ədirnənin fəthi" kimi vətənpərvərlik ruhunda əsərlər oynanılırdı.

Teatrda tamaşaya qoyulan əsərlərin keyfiyyətinə, cəmiyyətdə düzgün bədii zövqün formalaşmasına ciddi diqqət yetirilirdi. Opera teatrı tərəfindən səhnə əsərlərinin seçilməsi və onların ədəbi və bədii keyfiyyətlərinə lazımi diqqət yetirilməsi üçün xüsusi ədəbi komissiya yaradılmışdı.[133]

Azərbaycanın mədəni həyatında teatr çox böyük rol oynayırdı. Rəsmi hökumət qəzetlərinin səhifələrində böyük e'lanlar, rolların ifaçıları barəsində mə'lumatlar və digər zəruri informasiyalar çap olunurdu. Hüseyn Ərəblinskinin ölümünün cəmiyyət və hökumət dairələrində doğurduğu əks-səda burada teatra necə əhəmiyyət verildiyinə dəlalət edir. Hüseyn Ərəblinskinin vəfatı



münasibəti ilə təşkil olunmuş matəm mərasimində çıxış etmiş M.Rəsulzadə aktyorun səhnədə və ədəbiyyatda misilsiz fəaliyyətinə yüksək qiymət vermiş, Azərbaycanda səhnə sənətinin inkişafı və çiçəklənməsində onun böyük xidmətlərini qeyd etmişdir. Natiq xüsusi olaraq qeyd edirdi ki, H.Ərəblinskinin ən böyük xidməti xalqa Azadlıq və Müstəqillik ruhu və ideyalarının aşılanması ilə əlaqədardır, Azərbaycanın müstəqillik ideyası mədəniyyət xadimlərinin hesabına reallaşmışdı.[134]

H.Ərəblinskinin dəfnində Molla Əbdürrəhim Hadızadə, Bakı qubernatoru Rəşid bəy Axundzadə, İran konsulu Mirzə Məhəmməd xan və başqaları iştirak etdilər.[135] "Azərbaycan" qəzeti bir çox nömrəsini bu kədərli hadisəyə həsr etdi. H.Ərəblinskinin qəbirüstü abidəsinin qoyulmasına və artistin anasına maddi yardım göstərmək məqsədi ilə Zülfüqar və Üzeyir Hacıbəyov qardaşlarının müdiriyyəti "Nadir şah" faciəsinin tamaşasını təşkil etməyi qərara aldı.[136]

Azərbaycan teatrının qonşu ölkələrin incəsənət xadimləri ilə tarixi əlaqələri davam edir və genişlənirdi. 1918-ci ilin oktyabrında Tiflisdəki Azərbaycan artistlərinin truppası Türkiyəyə qastrola yola düşdü. Onun tərkibində S.Kirmanşahlı, M.Mərdanov, İsfahanlı və başqaları kimi səhnə xadimləri çıxış edirdilər.[137] Təkcə İstambulda azərbaycanlı artistlərinin qastrolları 3 aydan çox davam etdi. Türkiyə qəzetlərindən biri yazırdı ki, "Qafqazın zəngin səhnələrində, rusların və azərbaycanlıların köməyi ilə tamaşalar verməyə alışmış bu aktyorlar, bizim sınıq-salxaq dekorasiyalı kasıb səhnələrimizdə, qətiyyən Avropanı yamsılamadan, öz milli xəzinələrindən götürülmüş və bizim ruhumuza tamamilə uyğun olan tamaşalar verirlər".[138]

Həmin günlərdə Azərbaycan incəsənəti Türkiyədə yüksək qiymət aldı. Türkiyə jurnallarından biri yazırdı: Bu kompaniya (söhbət Azərbaycan artistlərinin Türkiyədə qastrollarından gedir - *red.*) bizdə bizə qonşu olan, son illər ərzində xeyli mə'nəvi inkişaf iste'dadı nümayiş

etdirmiş millətin həyatı haqqında təsəvvür yaranmasına kömək göstərəcəkdir... Bu qastrollar bizim üçün Azərbaycanın teatrı və onun həyatının digər tərəfləri barəsində mə'lumatlar almaq üçün gözəl vasitədir. Hər bir nadir səpgili Azərbaycan teatrı da özündə, şübhəsiz inkişaf və artım meylini təzahür edən sənəti təcəssüm etdirir."[139]

Ü.Hacıbəyovun başçılıq etdiyi artistlər truppası İranda oldu, bə'zi çətinliklərə və fanatiklərin müqavimətinə baxmayaraq, Rəşt və Ənzəli şəhərlərində teatr tamaşaları verdi. 1920-ci ilin yazında Bakıdan Təbrizə teatr xadimləri qrupu göndərildi. Təbrizdə Şeyx Məhəmməd Xiyabani onları qəbul etdi və onlara xeyli kömək göstərdi.[140]

Lakin 1918-20-ci illərdə Azərbaycan teatrının inkişafını ziddiyyətlərdən xali olan hamar proses kimi təsəvvür etmək düzgün olmazdı. Ayrı-ayrı səhnə ustaları arasında mövcud olan ixtilaflar, hətta toqquşmalar kifayət qədər tez-tez baş verən hadisələrə çevrilmişdi. Hətta Mirzağa Əliyev kimi aktyor Hacıbəyov qardaşlarının müdiriyyəti ilə yola getməyərək səhnəni tərk etdi.[141] Müxalifət qəzetləri Hacıbəyov qardaşlarını teatr işini inhisara almaqda, iste'dadlı aktyorları sıxışdırmaqda təqsirləndirirdilər. Teatr və kino işçilərinin maddi vəziyyəti ağır idi. İş tə'tillərə qədər gedib çıxırdı.

1919-cu ilin aprelində teatr işçilərinin ümumi yığıncağında qərara alındı ki, əgər teatr və kinematoqraf sahibləri əmək haqqını qaldırmasalar qə'ti tədbir kimi tə'tilə əl atılsın. Lakin bütün bu çətinliklərə və ziddiyyətlərə baxmayaraq Azərbaycan teatr sənəti bütövlükdə əz inkişafının yeni mərhələsinə qədəm basırdı.

Bu dövrdə kinematoqrafiya sənəti də inkişaf edirdi. Bakıda 16 kinematoqraf fəaliyyət göstərirdi. Bunlardan ancaq ikisini ("Muza" və "Mars" kinematoqraflarının) sahibləri azərbaycanlılar idi.[142] 1918-ci ildə Ü.Hacıbəyovun "O olmasın, bu olsun" operettası ekranlaşdırıldı.[143]



Arxitektura və heykəltaraşlıq sənəti sahəsində də müəyyən iş aparılırdı. Məsələn, Bakı Texniki Məktəbinin nəzdində heykəltaraşlıq sinfinin açılması nəzərdə tutulmuşdu. 1920-ci ilin yanvarın 1-də Azərbaycan Aktyorlar İttifaqının yığıncağında H.Ərəblinskinin qəbri üzərində monumental abidənin ucaldılması qərara alındı.[144] 1918-ci ildə Bakının azad edilməsi zamanı həlak olmuş azərbaycanlı və türkiyəli döyüşçülərin şərəfinə ucaldılacaq abidənin (arxitektura kompleksinin) layihəsi işlənib hazırlandı. Bakı "Xeyriyyəçilik" cəmiyyətinin təşəbbüsü ilə bu kompleksin tikinti işləri 1919-cu il sentyabrın 15-də başlamalı və 1920-ci ilin sentyabrınadək başa çatmalı idi. Belə abidələrin təkcə Bakıda yox, Gəncədə də ucaldılması nəzərdə tutulurdu. Bu işin təşəbbüskarı Azərbaycan hökuməti idi.[145] Gəncədə o dövr üçün müasir stildə Nizami Gəncəvinin abidəsinin ucaldılması nəzərdə tutulurdu. Azərbaycan hökumətinin xarici işlər nazirinin müavini Adilxan Ziyadxanlı özünün Tehranda nəşr olunmuş memuarlarında bu abidənin layihəsinin mövcud olduğunu xatırlayır.[146]

Digər bir qaynaqda Maarif Nazirliyi tərəfindən Gəncədə Nizaminin mavzoleyinin tikintisinə yarım milyon manat vəsait ayrılmasından danışılır.[147]

Respublikanın yaradılması ədəbiyyatda canlanmaya, milli ruhun güclənməsinə səbəb oldu. Bu dövrü haqlı olaraq çoxəsrlik Azərbaycan ədəbiyyatının inkişafında yeni mərhələ adlandırmaq olar. "Yaşıl qələm" ədəbi cəmiyyəti özündə görkəmli yazıçıları, şairləri və ictimai xadimləri birləşdirirdi. Əhməd Cavad, C.Cabbarlı, Üzeyir Hacıbəyov, Əliabbas Müznib, Salman Mümtaz, Ümgülsüm və b. sənətkarlar milli ruhun və müstəqillik ideyasının nümayəndələri və daşıyıcıları idilər. Abdulla Şaiq və Məmmədəmin kimi şairlər öz əsərlərində Azərbaycan ordusunun qəhrəmanlığı və qələbələrini tərənnüm edirdilər. C.Cabbarlının "Azərbaycan bayrağına" və "Sevgilim" şe'rlərində müstəqillik mövzusu tərənnüm olunurdu. Əhməd Cavad tərəfindən Azərbaycan Cümhuriyyəti dövlət himninin mətni yazıldı. "Azərbaycançılıq"

ideyası əhalinin xeyli hissəsinin şüurunda hakim ideyaya çevrildi.

Beləliklə, ağır iqtisadi vəziyyətə və siyasi vəziyyətin bütün mürəkkəbliyinə baxmayaraq, Azərbaycan Cümhuriyyəti, incəsənətin bütün növlərinin inkişaf etdirilməsinə sə'y göstərir, bu sahədə mühüm tədbirlər həyata keçirirdi.

Azərbaycan Cümhuriyyətində milli ruhun və milli ideyaların güclənməsi nəticəsində milli mədəniyyətin təbliği və tədqiqinə, tarixi və milli irsin ən'ənələrinə maraq fövqəl'adə dərəcədə artdı. Bunlardan hər birinin öyrənilməsi və təbliği peşəkar səviyyədə təşkil olunmuşdu, bu yöndə ardıcıl siyasət yürüdülməsi ilə yanaşı hökumətin və ictimai təşkilatların imkanlarından istifadə edilirdi.

1918-ci ilin oktyabrında Bakıda yaradılmış "Türk ocağı" cəmiyyətinin fəaliyyətini xüsusi qeyd etmək olar. Cəmiyyətin məqsədi Azərbaycan və Osmanlı türkləri, habelə keçmiş Rusiya imperiyası ərazisində yaşayan xalqlar arasında mədəni əlaqələri inkişaf etdirməkdən və onları bir-biri ilə yaxınlaşdırmaqdan ibarət idi. "Azərbaycan" qəzetində cəmiyyətin 22 bənddən ibarət proqramı dərc olundu.[148] Yenə "Azərbaycan" qəzeti bununla əlaqədar olaraq yazırdı: "Millət və vətən naminə sə'ylərimizin birləşdirilməsi üçün biz vahid məqsəd ətrafında sıx birləşməliyik. Belə məqsəd ancaq "Türk ocağı" kimi ola bilər."[149] "Müsavat" partiyasının Bakı Komitəsinin təşəbbüsü ilə, 1919-cu ilin dekabrında "Türk ocağı"nın siyasi klubunun açılması qərar alındı. Bu məqsədlə tərkibinə M.Rəsulzadə, R.R.Şərifzadə, Ş.Rüstəmbəyov, R.Ağabəyov, Seyid Hüseyn və M.Şeyxzamanov kimi məşhur siyasi xadimlər və mədəniyyət nümayəndələrinin daxil olduqları komissiya yaradıldı.

"Müsavat" partiyası üzvlərinin iştirakı ilə "Türk gecələri" adı altında təntənəli Azərbaycan musiqisi konsertləri təşkil olunurdu. Konsert proqramlarının hazırlanması və tərtibi üçün komissiya tə'yin olunmuşdu. Proqramlar kifayət qədər maraqlı və orijinal şəkildə



tərtib olunurdu. Bunlarda türk xalqları musiqisinin rəngarəng motivləri öz əksini tapır, habelə tatarlar, osmanlı türkləri, Azərbaycan və Türkiyə şairləri, artistləri və rəssamları təmsil olunurdular. Gecələrin bədii hissəsinə rəssam Ə.Əzimzadə rəhbərlik edirdi. Ədəbi vokal hissəyə yazıçı və publisistlərin "Yaşıl qələm" ittifaqı cavabdeh idi. Səhnədə isə dövlət truppasının aktyorları çıxış edirdilər. Türk xalqlarının milli həyatından bəhs edən əsərlər tamaşaya qoyulurdu. Bu əsərlərdən "Azərbaycanın müstəqilliyi", "Türk tipləri", "Türk qadını dünyası", "Milli birlik" və b. göstərmək olar. Bu əsərlərin bə'zilərinin adları onların məzmunundan tamamilə müəyyən şəkildə xəbər verirdi. "Türk otağı", "Türkmən çadrası", "Atəşgah", "Şərq salonları" kimi türk xalqlarının etnoqrafiyası və məişətinə həsr olunmuş sərgilər təşkil olunurdu. Bu konsertlərdə M.Rəsulzadə mə'sul müdir kimi çıxış edirdi.[150] "Müsavat" partiyasının və Azərbaycan hökumətinin bir çox üzvü də bu konsertlərin keçirilməsində bilavasitə iştirak edirdilər.

Azərbaycan mədəniyyətinin və milli irsinin öyrənilməsinə maraq fövqəl'adə şəkildə artdı. Azərbaycan tarixi, ədəbiyyatı, iqtisadiyyatı, təbiətşünaslığı və coğrafiyası üzrə çoxlu əsərlər meydana çıxdı. Xaricdə Azərbaycanı təbliğ etmək üçün fransız dilində broşüralar, sənədlər və materiallar nəşr olunurdu.

Bunların içərisində Adilxan Ziyadxanlının "Azərbaycan" kitabını, Əkbərağa Şeyxülislamovun 1919-cu ildə Parisdə fransız dilində nəşr olunmuş "Qafqaz Azərbaycan Cümhuriyyəti broşürasını, Ü.Hacıbəyov tərəfindən Versal konfransı üçün hazırlanmış materialları və b. fərqləndirmək olar. Adilxan Ziyadxanovun kitabından Azərbaycan tarixi, mədəniyyəti barəsində materiallar gətirilir. Bunların içərisində Azərbaycan Cümhuriyyətinin yaradılması və möhkəmləndirilməsi, hökumətin iqtisadi və mədəni tədbirləri haqqında mə'lumatlar diqqəti cəlb edir. M.Rəsulzadənin tarixi tematikaya həsr olunmuş "İran və Azərbaycan", "Azərbaycanın paytaxtı" məqalə-

lərində Azərbaycan xalqının mənşəyi, onun qonşu dövlətlər və xalqlarla qarşılıqlı münasibətləri haqqında, Bakımn yaranması və inkişafı barəsində qədim tarixçilər və coğrafiyaçılara istinad edən, bu gün də öz aktuallağını itirməmiş bir sıra fikirlər vardı.[151]

Bununla bərabər, Azərbaycanın tarixi və mədəniyyəti barədə ümumiləşdirici materialları özündə birləşdirəcək milli toplunun zəruriliyi kəskin surətdə hiss olunurdu. Milli topluya bütövlükdə Azərbaycana aid olan materiallar daxil olmalı idi. Məşhur xadim və yazıçı Yusif Vəzirov bununla əlaqədar yazırdı: "Allaha şükür ki, bizim tariximiz, ədəbiyyatımız, musiqimiz, teatrımız və b. mədəni nailiyyətlərimiz vardı. Əgər bütün bunlar haqqında yazılsa, onda biz özümüzü dərk edərik və əcnəbilərə bizi dərk etmək imkanı verərik. Bizim vətənimizdə çoxlu tarixi abidələr var. Bunların hər biri haqqında, hər nömrədə ətraflı mə'lumat vermək zəruridir."[152]

1919-cu ildə cəmi 6 nömrəsi çıxmış "Övraqi-nəfisə" jurnalı belə bir toplu oldu. Bu jurnal Azərbaycan mətbuatı tarixində ədəbiyyat və incəsənət məsələlərinə həsr olunmuş ilk dövrü mətbuat orqanı oldu. Burada musiqi, teatr və me'marlıq abidələri barəsində məqalələr və fotoqrafiyalar çap olunurdu.

Milli özünüdərkin dirçəldilməsi (bu, Azərbaycan hökumətinin fəaliyyətinin başlıca istiqamətlərindən biri idi) çərçivəsində tarixi yerlərin, şəhərlərin və digər yaşayış məntəqələrinin adları bərpa olunurdu. Hökumətin 1918-ci il 30 iyun qərarı ilə Yelizavetpol şəhəri yenidən Gəncə adlandırılmağa başladı. Karyagin qəzası isə Cəbrayıl qəzası adını aldı.[153] Milli xüsusiyyətlərə müvafiq olaraq şəhərlərə, küçələrə görkəmli şəxsiyyətlərin, yazıçıların və şairlərin adları verilirdi. Məsələn, Qazax Şəhər Dumasının 1920-ci ilin martında olmuş iclası şəhər küçələrinin adlarının dəyişdirilməsini müzakirə edərək, onların çoxuna Qazaxlı şairlərin - Samiqin, Arifin, Vaqifin və Nasirin adlarının verilməsini qərara aldı.[154] Respublikanın məktəblərində "Türk xalqlarının tarixi"



fənninin o dövrdə böyük ruh yüksəkliyi ilə həyata keçirilən tədrisi də cəmiyyətin həyatında baş verən proseslərlə əlaqədar idi.

Orta təhsil müəssisələrində nəzərdə tutulan islahatla əlaqədar olaraq şərqşünas A.A.Zimin tərəfindən türk xalqları tarixinin Şərqin ümumi tarixi ilə əlaqələndirilmiş proqramı işlənib hazırlandı. Bu proqramda başlıca diqqət milli və ictimai hərəkatlara verilirdi. 1919-cu il oktyabrın əvvəllərində Maarif Nazirliyi rusdilli orta məktəblər üçün türk xalqları tarixi üzrə epizodik və sistematik kursların, habelə türk xalqlarının coğrafiyası proqramının tərtib edilməsi üzrə müsabiqə e'lan etdi. Ən yaxşı layihə hökumət mükafatını alacaqdı.

Müstəqillik dövründə Azərbaycanın mədəni həyatında "Səfa", "Nicat", "Nəşri maarif", "İran", "Tərəqqi" cəmiyyətləri kimi mədəni-maarif cəmiyyətləri görkəmli rol oynayırdı. 1920-ci ilin əvvəlində Bakıda "Əməkçi maariflənmiş müsəlman qadınları ittifaqı"nın yaradılmasına cəhd göstərildi. "İttifaq" mədəni-maarif işi aparmaq və savadsız qadınlar içərisində bilikləri yaymaq niyyətində idi.[155] Lənkəranda öz qarşısına əhali içərisində mədəni-maarif işi aparmağı məqsəd qoymuş "Lənkəran şəhəri tələbələri və abituriyentləri ittifaqı" yaradıldı.

Qeyd etmək lazımdır ki, bütövlükdə Azərbaycan Cümhuriyyəti hökumətinin ictimai birliklərə və ittifaqlara münasibətdə yürütdüyü siyasət və onun mövcudiyyətinin demokratik xarakterinin özü liberal istiqamətli mədəni maarif cəmiyyətləri şəbəkəsinin geniş yayılmasına və inkişafına şərait yaradırdı. Bu işdə Bakı ümumtəhsil kursları və "Xalq əyləncələri" cəmiyyəti xüsusi fəallıq və təşəbbüskarlıq göstərirdi. Xəzəryanı "Kooperasiya"cəmiyyətinin idarə hey'əti açılmaqda olan xalq universitetinə maliyyə köməyi çərçivəsində həmin universitetin bürosuna 10000 manat pul göndərdi.[156] 1919-cu ilin əvvəllərində Bakı və onun rayonlarının mədəni-maarif cəmiyyətlərinin birləşdirilməsi üçün müəyyən addımlar atıldı. Mədəni-maarif cəmiyyətlərinin konfranslarının çağrılması üçün təşkilat komissiyası seçildi və bir

müddətdən sonra "Bakı şəhəri mədəni-maarif müəssisələri ittifaqının nizamnaməsi" təsdiq olunmaq üçün hökumətə göndərildi.[157] Nizamnamədə deyilirdi ki, mədəni-maarif cəmiyyətləri ittifaqının məqsədi Bakı əhalisinin mədəni səviyyəsini yüksəltmək məqsədi ilə şəhərin bütün mədəni qüvvələrini birləşdirməkdən ibarətdir.[158] Azərbaycan Cümhuriyyətinin mövcudluğu dövründə Bakıda "Şagirdlər ittifaqı", "Müsəlman tələbələr komitəsi" kimi mədəni-maarif cəmiyyətləri də mə'lum idi. Milli azlıqların da öz mədəni-maarif cəmiyyətləri var idi.

Maarif Nazirliyi orqanları respublikada kitabxana işinin inkişafına diqqət yetirirdilər. 1919-cu ildə Bakı ictimai məclisinin texniki cəmiyyətləri fəaliyyət göstərirdi. Belinski adına kitabxana şəhər özünüidarəsinin qulluqçularına, Bakı şəhər yəhudi kitabxanası əhalinin yəhudi hissəsinə xidmət göstərirdi, həmçinin "Erməni insanpərvər cəmiyyəti"nin kitabxanası da işləyirdi.

1919-cu ildə Balaxanı - Sabunçu, Bibiheybət və Ağşəhər fəhlələri üçün kitabxanalar açıldı.[159] Həmkarlar ittifaqlarının nəzdində kitabxanalar təşkil olunurdu.

Əsasən gənclərin və yeniyetmələrin birləşdikləri mətbəə işçiləri həmkarlar ittifaqının nəzdində Bakıdakı həmkarlar ittifaqı kitabxanalarının ən böyüyü (kitab fondu 2000 cild) açıldı.

1919-cu ilin iyulunda bolşeviklər mətbəə işçiləri həmkarlar təşkilatının rəhbərliyini öz əllərinə keçirməyə və ittifaqın kitabxanasından kütlələr içərisində partiya-siyasi işi üçün istifadə etməyə nail oldular.

Maariflənmiş kütlələr üçün "İqla" cəmiyyəti nəzdindəki kitabxana az əhəmiyyətə malik deyildi. "Kooperasiya ittifaqı"nın kitabxanası da mühüm əhəmiyyət kəsb edirdi. Bu mərkəzi kitab anbarı bütün şəhərdə özünün rayon şö'bələrini açırdı.

Müxtəlif nazirliklər öz əməkdaşları üçün kitabxanalar açırdılar. Məsələn, Ədliyyə Nazirliyi öz nəzdində əməkdaşları üçün hüquq kitabxanası yaratmaq məqsədi ilə hökumətin öz fondundan 50000 manat ayırmasına



nail oldu.160 Səhiyyə Nazirliyi öz nəzdində kitabxananın açılmasına 10000 manat ayırdı.[161]

Azərbaycan hökuməti tərəfindən kitabxana işinin inkişafına böyük yardım göstərilirdi.

Azərbaycan Cümhuriyyəti parlamentinin 1919-cu il sentyabrın 16-da qəbul etdiyi qanuna görə, xalq məktəbləri kitabxanalarına türk dilində yeni kitablar almaq üçün dövlət xəzinəsindən Xalq Maarifi Nazirliyinin sərəncamına 1000000 manat buraxılırdı.[162]

1920-ci ilin apreli ərəfəsində Azərbaycan Cümhuriyyətində kitab fondu artıq 95000 nüsxə olan 11 kitabxana vardı.

Muzey işinin inkişaf etdirilməsi üçün bünövrə qoyulurdu. Ədəbi cəmiyyətin üzvləri Q.M.Camalov və M.Ağayevin təşəbbüsü ilə parlament tərəfindən "İstiqlal" adlı milli muzeyin təşkil olunması barəsində qərar qəbul edildi. Azərbaycan hökuməti tərəfindən fəhlələr içərisində texniki biliklərin yayılmasına qayğı göstərilirdi. Maarif Nazirliyi fəhlələrin öz biliklərini artırmaq arzusunu və Azərbaycanda, xüsusən də müsəlman əhalisi içərisində, texniki təhsilli ustaların kifayət qədər olmamasını nəzərə alaraq, müsəlman fəhlələri üçün tədrisi türk dilində olan texniki kursların açılması barəsində qərar verdi. Bu kurslar iki yarımşö'bəsi-maşınqayırma və elektrotexnika yarımşö'bələri olan mexaniki şö'bədən ibarət idi. Kurslarda təhsil müddəti 10 ay idi.[163] Bu kursların saxlanılmasına Xalq Maarifi Nazirliyi tərəfindən 32400 manat vəsait ayrılmışdı.[164]

Bakının azad edilməsindən sonra, əsasən 1919-cu ilin başlanğıcı ərəfəsində həmkarlar ittifaqları nəzdində mədəni-maarif müəssisələri öz fəaliyyətini bərpa etdilər. Onlar, bu vaxt artıq Bakı proletariatının başlıca nümayəndəli orqanına çevrilmiş Mərkəzi Bakı fəhlə konfransının nəzarəti dairəsində fəaliyyət göstərirdilər. Müsavatçılar, bolşeviklər, menşeviklər və eserlər arasında nüfuz uğrunda mübarizə bu konfransın mədəni-maarif təşkilatlarının fəaliyyətinə əhəmiyyətli dərəcədə tə'sir

göstərirdi. Bu mübarizədə müvəffəqiyyət, əsasən, mədəni-maarif təşkilatlarını ideyalaşdırmaqla onları sinfi mübarizə alətinə çevirməyə çalışan bolşeviklərə tərəf meyl edirdi.

Bakı fəhlə konfransında seçilən, rayon mədəni-maarif komissiyalarının nümayəndələri ilə əlavə olunan Mərkəzi mədəni-maarif komissiyası, kütlələr arasında öz fəaliyyətini genişləndirdi.

Mərkəzi fəhlə klubunun yeni idarə hey'ətinin siyahısı Bakı bolşevik təşkilatının, bolşevik "Hümmət" təşkilatının, İran kommunist "Ədalət" təşkilatının və Beynəlmiləlçi Gənclər İttifaqının keçmiş üzvləri adından təklif edilmişdir. Seçkilər nəticəsində bolşeviklərin nüfuzu möhkəmləndi. İdarə hey'əti bütünlükdə bolşeviklərdən ibarət idi.[165]

Bakı bolşeviklərinin təşəbbüsü ilə, 1919-cu il iyunun 24-də fəhlə klubları idarə hey'ətinin konfransı çağırıldı. Konfrans Mərkəzi klubun idarə hey'ətinin tərkibinin seçilməsi barəsində bolşeviklərin təklif etdikləri qətnaməni qəbul etdi. Bu qətnaməyə görə, üzvlərinin sayından asılı olmayaraq hər bir rayon idarə hey'əti Mərkəzi klubun idarə hey'ətinin dörd nəfər nümayəndəsini seçirdi.[166]

Əslində Mərkəzi fəhlə klubu Bakıda bolşevik hərəkatının mənzil-qərargahına çevrildi.[167]

Qafqaz diyar komitəsinin və Bakı bolşevik komitəsi bürosunun iclasları elə bu binada keçirilirdi.

Fəhlə klubları və digər belə təşkilatlar, bolşeviklərin təşviqat işinin ocaqlarına və onların partiya yığıncaqlarının keçirilmə yerinə çevrildiyi üçün, hökumət, bu fəaliyyətin qarşısını almaq məqsədi ilə tədbirlər görməyə məcbur oldu. Dəfələrlə edilmiş xəbərdarlıqlardan sonra hökumətin göstərişinə əsasən daxili işlər naziri tərəfindən 1919-cu il dekabrın 9-da Bakıda mövcud olan bütün fəhlə klublarının bağlanılması haqqında sərəncam verildi.[168]



Buna cavab olaraq fəhlə konfransının rəyasət hey'əti fəhlələri tə'tilə çağırdı, ertəsi gün bu tə'til başlandı. Bu, polis hakimiyyət orqanlarını fəhlə klubunun binasını açmağa, lakin burada siyasi mövzularda mühazirələr oxunmasını qadağan etməyə məcbur etdi. Fəhlə klubunun idarə hey'əti bir sıra mühazirələrin oxunması üçün icazə almaq məqsədilə Bakı general-qubernatoruna müraciət etdi. General-qubernator buna belə cavab vermişdi: "Yaşadığımız məqam, Bakı şəhəri və onun rayonlarında qüvvədə olan hərbi vəziyyətlə əlaqədar olaraq, mən mühazirəçinin istək və arzusundan asılı olmayaraq hər hansı siyasi mövzuda oxunan mühazirələrin hazırkı dövrdə dövlət qayda-qanununa, ictimai sabitliyə və cəmiyyətin qeyri-sabit elementlərinə edəcəyi mənfi tə'siri nəzərə alaraq bunu mümkün saymıram".[169]

Lakin 1920-ci il martın 15-də, bir sıra uğursuz xəbərdarlıqdan sonra hökumət yenidən fəhlə klublarını bağlamalı oldu. 1920-ci il martın 23-də Bakı fəhlə konfransının rəyasət hey'əti və Həmkarlar İttifaqları Şurasının idarə hey'əti fəhlə klublarının bağlanması ilə əlaqədar olaraq hökumətə e'tirazlarını bildirdilər. 1920-ci il martın 25-də hökumət, mərkəzi fəhlə klubundan başqa, bütün klubların işlənməsinə icazə verdi.

Beləliklə, əslində kütlələrin maarifləndirilməsi aləti olan fəhlə mədəni-maarif təşkilatları bolşeviklər tərəfindən kəskin siyasi mübarizəyə cəlb olundu.

Kütləvi fəhlə maarifçilik təşkilatlarının ən başlıca formalarından biri rayon fəhlə klubları idi. Onların fəaliyyət növləri müxtəlif idi.

Zavağzal fəhlə klubunda həmkarlar ittifaqlarının işçiləri üçün həmkarlar və siyasi-iqtisad kursları açılmışdı. Kurslar ay yarım üçün nəzərdə tutulmuşdu.

Balaxanı rayon klubunun nəzdində Azərbaycan dilində dram dərnəyi təşkil edilmişdi. Burada öz qüvvələri ilə tamaşalar səhnəyə qoyulurdu.

Beləliklə, nəzərdən keçirilən dövrdə fəhlə klublarının qismətinə kifayət qədər ikili, ziddiyyətli və mürəkkəb bir rol düşmüşdü.

Bir tərəfdən onlar mütərəqqi maarifçilik meylinin daşıyıcıları idilər, digər tərəfdən isə onların fəaliyyəti mürtəce xarakter daşıyırdı, çünki bolşeviklər maarifçilik pərdəsi altında Azərbaycana düşmən olan, onun müstəqilliyinə qarşı yönəlmiş ideyaları yayırdılar.

Azərbaycan Cümhuriyyətinin sosial-mədəni sahədə fəaliyyəti ölkənin çoxmillətli əhalisi ilə sıx qarşılıqlı əlaqədə həyata keçirilirdi. Milli azlıqların mədəni-maarif ehtiyaclarının ödənilməsi üçün müxtəlif imkanlardan (dövlət xərcləri, ictimai təşkilatların və xeyriyyəçilik cəmiyyətlərinin qüvvələri) istifadə olunurdu. Nazirlər Şurasının qərarı ilə yeni məktəblər açmaq və dərsliklər almaq üçün Rus Milli Şurasına 500 min manat ayrılmışdı.[170] Yəhudi Milli Şurası və yəhudi dini və mədəni təşkilatları sərbəst şəkildə fəaliyyət göstərməkdə davam edirdilər. Hökumət Yəhudi məktəblərinə müntəzəm olaraq maddi yardım göstərirdi. Erməni əhalisinə münasibətdə də eyni prinsiplər tətbiq olunurdu. 1919-cu il oktyabrın 1-dən e'tibarən Qarabağın erməni xalq məktəbləri xüsusi müfəttişliyə ayrıldı. Qarabağ haqqında müvəqqəti sazişə əsasən həmçinin Qarabağ ermənilərinin mədəni tə'yini müqəddəratı haqqında əsasnamə işlənilib hazırlandı.[171] Nazirlər Şurasının 1918-ci il 7 sentyabr tarixli sərəncamına müvafiq olaraq, respublikanın bütün ali, ibtidai və orta məktəblərində qeyri-müsəlmanlar üçün ilahiyyatın tədrisi tətbiq olunmağa başladı.[172] Beləliklə, hökumətin incə və ehtiyatlı siyasəti hesabına, müxtəlif milli mənafelərin ahəngdarlığı və ilk vaxtlarda hökumətin tədbirləri ilə əlaqədar olan bə'zi anlaşılmazlıqlara, narazılıqlara baxmayaraq, respublikanın mədəni həyatında bütün millətlərin fəal iştirakı tə'min edildi.

Azərbaycanın milli azlıqları özlərinin mədəni-maarifçi cəmiyyətləri ilə təmsil olunmuşdular. Rus, erməni, yəhudi, polyak, alman, fars və başqa milli icma və koloniyalara məxsus "Bakı rus xeyriyyə cəmiyyəti", "Serafim komitəsi",



"Bakı erməni mədəni birliyi", "Erməni Miutsyun şagird birliyi" və digər cəmiyyətlər sərbəst fəaliyyət göstərirdilər. Beləliklə, Azərbaycan hökumətinin həyata keçirdiyi demokratik siyasət nəticəsində liberal təmayüllü mədəni-maarif cəmiyyətləri böyüyür və inkişaf edirdi.

Azərbaycan Xalq Cümhuriyyətinin mövcudluğu ərzində milli dirçəliş maarif və mədəniyyətin inkişafı üçün mümkün olan hər bir şey edilmişdir. Daxili sabitlik möhkəmləndikcə, müstəqillik qüvvətləndikcə, sosial-mədəni sahədə, maarifin, xüsusi təhsilin, incəsənətin, mətbuatın inkişafı və bunun həyata keçirilməsi üçün konkret, məqsədyönlü siyasət işlənib hazırlandı. Dünyəvi dövlət, dünyəvi təhsil və mədəniyyət kimi prinsiplər ardıcıl həyata keçirilirdi. Milli özünüdərkin inkişafı güclənir, onun yüksəlişi düzgün, yaradıcı yola istiqamətləndirilirdi. Sosial-mədəni problemlərin həlli zamanı milli mənafelər gözlənilir, meydana çıxan ziddiyyət və çətinliklər mədəni üsullarla həll edilirdi.

Azərbaycan Cümhuriyyətinin xalq maarifi və mədəniyyət sahəsindəki fəaliyyətinin təhlili, belə qənaətə gəlməyə imkan verir ki, onun bu istiqamətdə gördüyü iş tarixi və mədəni inkişafının qanunauyğun nəticəsi, Azərbaycan maarifçilərinin çoxdankı arzularının yeni şəraitdə gerçəkləşməsi olmuşdur.

## *§ 4. Azərbaycan ordusunun yaradılması. Azərbaycanın ərazi bütövlüyü uğrunda mübarizə*

Xarici təhlükənin daim mövcudluğu, ərazi bütövlüyünün qorunması problemi Azərbaycan Cümhuriyyəti qarşısında özünün silahlı qüvvələrini yaratmaq vəzifəsi qoymuşdur.

1918-ci il oktyabrın 28-də respublika hökumətinin iclasında Müdafiə nazirliyi yaratmaq haqqında qərar qəbul olundu. Nazirlər Şurasının 1918-ci il 7 noyabr tarixli qərarı ilə Hərbi Nazirlik tə'sis edildi və ona ilk vaxtlar F.Xoyskinin özü başçılıq etdi. Dekabrın 25-də

artilleriya generalı S.Mehmandarov hərbi nazir tə'yin edildi, dekabrın 29-da isə general-leytenant Ə.Şıxlinski nazirin köməkçisi oldu. 1918-ci il noyabrın 22-də Hərbi Nazirlik Gəncəyə köçdü və əvvəllər Qafqaz İslam Ordusuna daxil olmuş Azərbaycan hissələrinin bazası əsasında nizami ordunun yaradılmasına başlanıldı.[173]

1919-cu il yanvarın 15-də aşğıdakı şö'bələri olan Baş qərargah yaradıldı: artilleriya, intendant, mühəndis, baş kvartirmeyster, növbətçi general, hərbi-sanitar, hərbi-tə'lim, topoqrafiya və nəzarət. 1919-cu ilin martında aparılan yenidənqurma nəticəsində general kvartirmeyster şö'bəsi Baş qərargahın tərkibindən çıxarıldı və onun bazasında Baş qərargahın aşağıdakı şö'bələri olan Baş idarəsi təşkil edildi: general-kvartirmeyster, hərbi rabitə rəisi idarəsi, hərbi topoqrafiya şö'bəsi, qoşunların yerdəyişməsi müdiri. General-leytenant M.A.Sulkeviç Qərargahın rəisi tə'yin edildi. Qərargahın nəzdində özünün mətbəəsi var idi. Bundan əlavə hərbi məhkəmə və hərbi prokuror nəzarəti də yaradılmışdır.[174] 1919-cu ilin martında Baş qərargahla Baş qərargahın Baş idarəsinin birləşdirilməsi yolu ilə başda general-mayor H.Səlimov olmaqla Azərbaycan Ordusunun Əlahiddə qərargahı yaradıldı.

Hərbi Nazirliyin nəzdində hərbi qanunvericilik və maliyyə-təsərrüfat məsələlərini həll etmək üçün ordunun yüksək rütbəli şəxslərindən ibarət Hərbi Şura yaradılmışdı.[175] Respublika paytaxtının mühüm hərbi-strateji vəziyyəti nəzərə alınaraq Ələtdən Qızılburuna qədər Bakı quberniyası ərazisini əhatə edən Bakı möhkəmləndirilmiş rayonu hərbi general-qubernatorluğu yaradıldı. Onun rəhbərliyinə general-mayor M.Q.Tlexas tə'yin edildi.

Parlament və hökumət hərbi idarənin ehtiyaclarına xüsusilə diqqət yetirirdilər. Parlamentin fəaliyyəti müddəti ərzində - 1918-ci il dekabrın 7-dən 1920-ci il aprelin 27-dək onun iclaslarında respublikada hərbi quruculuğun müxtəlif sahələrinə aid olan və Hərbi Nazirlik tərəfindən təqdim olunmuş doqquz qanun



layihəsi müzakirə edilmişdir. Hökumət sənədlərində göstərildiyi kimi Hərbi Nazirlik "dövlətin pul ehtiyatının ən iri məsrəfçisi idi".[176] 1919-cu ildə Nazirliyin xərcləri 400 milyon rubldan artıq, yə'ni dövlət büdcəsinin dörddə birindən çox olmuşdur. Lakin bu vəsait də kifayət deyildi, çünki ordunu əslində müvafiq hərbi-maddi baza və milli zabitlər korpusu kadrlarının olmadığı boş yerdə yaratmaq lazım gəlirdi. Həm də, əgər 1919-cu ildə 25 minlik ordu yaratmaq planlaşdırılırdısa, 1920-ci ildə onun sayını 40 minlik piyada və süvariyə çatdırmaq nəzərdə tutulurdu.[177]

Ordunu genişləndirmək məqsədilə komandir hey'əti kadrlarının hazırlığı üzrə tədbirlər görülürdü. Hələ 1918-ci ilin iyununda türk zabitlərinin köməkliyi ilə Gəncə şəhərində hərbi praporşik məktəbi açıldı və həmin ilin oktyabrında onun ilk buraxılışı oldu. 1919-cu ilin noyabrında o 250 zabit üçün nəzərdə tutulan üç şö'bəli - ümumi, artilleriya və mühəndis (amma sonuncunu açmaq mümkün olmamışdır) - hərbi məktəbə çevrildi. Zabitlərin hazırlanması üçün Bakıda yunker məktəbi açılmışdır. 1919-cu ilin sonu - 1920-ci ilin əvvəllərində süvari, artilleriya və istehkam hərbi məktəbləri, aviasiya və hərbi-feldşer məktəbləri də açılmışdır.[178] Nuxa (Şəki) şəhərinin nümayəndələri hərbi nazirə müraciətdə şəhər xəzinəsi hesabına orada Gəncədəki zabit məktəbi kimi bir məktəb açmağı xahiş edərək yazırdılar: "Biz, Vətənin müdafiəsini hər bir azərbaycanlının müqəddəs borcu hesab edərək istəyirik ki, bizim məktəbyaşlı uşaqların çoxu hərbi məktəbdə tə'lim keçərək Vətənin keşikçiləri sırasında olsunlar".[179]

Milli zabit kadrlarının hazırlanması üçün müəyyən vaxt lazım olduğundan, hərbi mütəxəssislərə artan ehtiyacı tə'min etmək üçün hökumət bir çox rus və gürcü zabitlərini bura cəlb etmişdir. Unter-ofiser (kiçik zabit) hey'ətinin hazırlanmasını yaxşılaşdırmaq məqsədilə 1920-ci ilin aprelindən orduda 4 aylıq tə'lim kursu ilə batalyon və alay məktəblərinin yaradılması planlaşdırılırdı.

1918-1920-ci illər ərzində Azərbaycanda piyada və süvari alayları, topçu briqadaları və divizionları, digər hərbi-texniki bölüklər təşkil edilmişdir. 1919-cu ilin sonunda Azərbaycan Ordusu iki piyada və bir süvari diviziyasından ibarət idi. Qərargahı Gəncədə olan birinci piyada diviziyasına 1-ci Cavanşir, 2-ci Zaqatala, 3-cü Gəncə alayları və Kürd atıcı batalyonu daxil idi. Qərargahı Bakıda olan ikinci diviziyaya isə - 4-cü Quba, 5-ci Bakı və 6-cı Göyçay alayları daxil idi. 7-ci Şirvan alayının yaradılması ilə 3-cü piyada diviziyanın təşkilinə başlanılmışdı. Süvari diviziyasının da qərargahı Gəncədə idi və ona 1-ci Tatar, 2-ci Qarabağ, 3-cü Şəki atlı alayları, habelə Kürd atlı divizionu daxil idilər.

Bundan əlavə, Lənkəran ehtiyat batalyonu, polis yardım alayı, parlamentin mühafizəsi üzrə xüsusi dəstə də təşkil olunmuşdur. Orduya daha iki topçu briqadası, yüngül artilleriya divizionu, üç zirehli qatar, beş aeroplan və zirehli maşınlar da daxil idi.[180]

İngilislər Azərbaycandan gedəndən sonra Hərbi Nazirlik hərbi liman təşkil etmiş və iki kanoner qayığından - "Ərdəhan" və "Qars", bir neçə xidmətçi və yardımçı qayıqlardan - "Astrabad", "Araz", "Nargin" və s. ibarət olan Xəzər dəniz donanmasını yenidən qurmuşdur.[181]

Azərbaycan Cümhuriyyəti Silahlı Qüvvələrinin ümumi sayı 1920-ci ilin aprelində 30 minə qədər piyada və süvaridən ibarət idi.[182]

Özünün hərbi sənayesinin yaradılması üçün də tədbirlər görülürdü. 1920-ci ilin yanvarında Hərbi Nazirlik artilleriya toplarının tə'miri və qoşunu həmin qəbildən ehtiyat hissələrlə təchiz etmək üçün Gəncədə tikilməsi nəzərdə tutulan hərbi zavodun layihə ştat smetası işlənilib hazırlamış və parlamentin təsdiqinə vermişdir. Fevralın 23-də parlament bu zavodun yaradılması haqqında xüsusi qanun qəbul edərək, onun üçün vəsait ayırdı.[183] Lakin, hökumətin gördüyü bütün tədbirlərə baxmayaraq, ordu silah və hərbi mütəxəssislər sarıdan xeyli çətinlik çəkirdi.



Orduda ideoloji iş də qaydaya düşürdü. Hökumət ziyalıları və ruhaniləri bu işə cəlb etməyə çalışırdı. Qoşun hissələrinin ştat cədvəlinə imam və mollalar daxil edilmişdilər. Hərbi Nazirin 1919-cu il 2 aprel tarixli mə'ruzəsində göstərilirdi ki, "ziyalılarımızın ən mühüm vəzifələrindən biri xalqımızı və qoşunu öz keçmişi ilə tanış etməkdən ibarətdir."[184] Dahi bəstəkar Üzeyir Hacıbəyov Azərbaycan Ordusu üçün marş yazmışdır. Orden və medal eskizləri üçün müsabiqə də e'lan olunmuşdu.

Şimali Azərbaycanın dövlət müstəqilliyi e'lan edildikdən sonra qarşıda duran başlıca vəzifələrdən biri qonşu ölkələrlə sərhəd mübahisələri və ixtilaflarının aradan qaldırılması, Azərbaycan Xalq Cümhuriyyətinin ərazi bütövlüyünün tə'min edilməsi idi. Bu məsələ ətrafında həm Gürcüstanla, həm də Ermənistanla mübahisələr olsa da, ən ciddi problem və çətinliklər onlardan ikincisi ilə əlaqədar yaranmışdı. İlkin olaraq Zaqatala məsələsi Gürcüstanla aparılan danışıqlar yolu ilə həll edildi. Əhalisinin 91,9 faizini müsəlmanlar təşkil edən və Azərbaycanın əzəli torpağı olan Zaqatala mahalı 1918-ci il iyunun 26-da Xalq Cümhuriyyəti ilə birləşdi.

Azərbaycan hökuməti regiondakı mübahisəli sərhəd məsələlərini siyasi yollarla həll etmək niyyətilə hələ 1918-ci ilin iyun ayında qonşularına, o cümlədən də Ermənistana, danışıqlara başlamağa təklif etdi. Azərbaycan Milli Şurası müstəqilliyini e'lan etmiş qonşu dövlətə xeyirxah yardım məqsədi və gələcəkdə onunla müvafiq konfederasiyaya girmək mülahizəsi ilə 1918-ci il mayın 29-da İrəvanı Ermənistan Respublikasının paytaxtı kimi tanıdı. Lakin bu addım iki dövlət arasındakı münasibətlərin kəskinləşərək hərbi münaqişəyə çevrilməsinin qarşısını ala bilmədi. Çünki bu dövrdə Qafqazda yaranmış vəziyyəti və beynəlxalq şəraiti, "Böyük Ermənistan" ideyasının reallaşdırılması üçün əlverişli sayan ermənilər Azərbaycana qarşı ərazi iddiaları irəli sürərək, onun Naxçıvan, Qarabağ və Zəngəzur mahallarında "etnik təmizləmə" siyasəti həyata keçirməyə

başlamışdılar. Bu məqsədlə Andronik, Dro və Njdenin quldur dəstələri tərəfindən Azərbaycamn bir sıra bölgələrində, xüsusi ilə də yuxarıda göstərilən mahallarda dinc əhali genişmiqyaslı genosidə mə'ruz qalmışdı.

S.Şaumyan və digərləri vasitəsilə Sovet Rusiyasının himayə etdiyi Andronik və digərlərinin silahlı qüvvələri 1918-ci ilin iyun-avqust aylarında Naxçıvan bölgəsində, may-avqustda isə Zəngəzurun Sisyan mahalında çoxsaylı zorakılıq hərəkətləri və vəhşiliklər törətdilər.

Naxçıvanda azərbaycanlı əhalisinin ciddi müqaviməti ilə üzləşən və Osmanlı qoşun hissələri tərəfindən əzilərək 1918-ci ilin avqustunda Zəngəzura soxulan Andronikin silahlı dəstəsi Sisyan və Qafan rayonlarında da "etnik təmizləmə" işinə girişmişdi. Azərbaycan Cümhuriyyəti Fövqəl'adə İstintaq Komissiyasının (FİK) istintaq materiallarında[185] göstərildiyi kimi, Andronikin silahlı dəstəsi tərəfindən 1918-ci ilin payızında dağıdılan 58 kənddən 32-də ev və digər tikililərdən 495-i yandırılmış, 492-si dağıdılmış, onlarda yaşayan 2254 nəfər öldürülmüş və 304 nəfər diri-diri tonqala atılmışdı. 1918-ci ilin yayında və payızında Zəngəzur qəzasında 115 kənd dağıdılmış, 10068 nəfər azərbaycanlı öldürülmüş və yaralanmışdı. Azərbaycan əhalisinə üst-üstə bir milyard manata yaxın maddi ziyan dəymişdi.[186]

Müxtəlif xarici siyasi himayədarlığa can atan Andronik hərbi-maliyyə əlaqələri yaratmaq məqsədilə 1918-ci ilin yayında bir tərəfdən S.Şaumyan vasitəsi ilə Sovet Rusiyası ilə yaxınlaşmağa, digər tərəfdən isə ermənilərin katolikosunun araçılığı ilə ingilislərlə ittifaq yaratmağa çalışırdı.[187] "...Bizim yeganə dostumuz Rusiyadır...Rusiyanın qapılarını üzümüzə bağlamayın"[188] deyən Andronik 1918-ci ilin yayında Naxçıvam Sovet Rusiyasının ayrılmaz hissəsi e'lan edərək burada Şura hakimiyyətinin qurulduğunu bildirmiş, iyunun 4-də isə S.Şaumyana xüsusi teleqram göndərərək öz dəstəsi ilə birlikdə Mərkəzi Rusiya hökumətinin sərəncamına keçməyə və Bakı Kommunasına yardım göstərməyə hazır olduğunu xəbər vermişdi.[189] Həmin teleqram barədə Leninə mə'lumat



verən S.Şaumyan Andronikə cavabında yazırdı: "Culfa, Xalq rəhbəri Andronikə. Sizin 577 N-li teleqramınızı aldım. Tam mətnini Moskvaya-Mərkəzi hökumətə xəbər verdim. Öz tərəfimdən Sizin şəxsinizdə əsl xalq qəhrəmanını salamlayıram."[190]

"İzvestiya", "Veçerniye izvestiya Moskovskoqo Soveta" və s. qəzetlər Andronikin Sovetlərə meylini alqışlayaraq onun Naxçıvana dair mövqeyini və yürütdüyü siyasəti "Sovet Rusiyasının böyük qələbəsi" kimi qiymətləndirirdilər. Andronikin Sovet Rusiyasına istiqamətlənməsi və Bakı Kommunasını müdafiə etməsini daşnak liderlərindən A.Camalyan 1918-ci il avqustun 16-da alman hərbi missiyasının başçısı general fon Kresslə görüşündə təsdiqləmişdi: onun fikrincə, Andronik Zəngəzurdan Qarabağa keçmək, türklərə arxadan zərbə endirmək və Bakıya yol açmaq istəyirdi.[191]

Andronikin L.Biçeraxov və A.Denikinlə əlaqələri var idi, o, bir sıra dövlətlərdən hərbi-siyasi və maliyyə yardımı alırdı.[192]

Andronik Azərbaycan torpaqlarında soyqırımı siyasəti yeridərkən Ermənistan rəhbərliyi ilə sıx əlaqələrə malik olmuş və hətta xaricə getdikdən sonra belə bir sıra məclislərdə daşnak hökumətini təmsil etdiyini söyləmişdi.[193]

Ermənistan silahlı qüvvələrinin, ilk növbədə isə Andronikin quldur dəstəsinin Naxçıvan və Zəngəzurdakı qəsbkarlıq hərəkətlərinin genişləndiyi bir dövrdə Azərbaycanın ərazi bütövlüyü ilə bağlı daha bir mürəkkəb problem Qarabağın dağlıq hissəsilə əlaqədar yarandı. Belə ki, Ermənistanın fəal təbliğatı və güclü siyasi-hərbi yardımı sayəsində Qarabağın dağlıq hissəsində yaşayan ermənilərin Şuşada keçirilən I qurultayı (iyul 1918-ci il) bu mahalın müstəqilliyini e'lan etdi. Bunun ardınca isə 1918-ci ilin payızında Zəngəzurun bir hissəsində möhkəmlənən Andronik burada bir növ erməni "qubernatorluğu" təşkil edərək Gorusu onun "mərkəzi"nə çevirdi, sonra da "paytaxtı" Şuşa olacaq "Kiçik Ermənistan" dövlətini yaratmağa çalışdı.[194]

1918-ci ilin sentyabrında Osmanlı hərbi-siyasi yardımı vasitəsilə Bakıdakı hərc-mərcliyə son qoyan Azərbaycan rəhbərliyi dövlətin ərazi bütövlüyünə edilən qəsdlərə, təbiidir ki, biganə qala bilməzdi. Buna görə də dövlət müstəqilliyinin saxlanması və möhkəmləndirilməsi, ölkənin ərazi bütövlüyünün tə'min olunması, əhalinin mə'ruz qaldığı soyqırımının qarşısının alınması məqsədilə bir sıra hərbi-siyasi və iqtisadi-maliyyə tədbirləri görüldü. Bu tədbirlər arasında Azərbaycan korpusunun təşkili, ümumi səfərbərlik e'lan edilməsi, Hərbi Nazirliyin yaradılması, bə'zi dövlətlərlə aparılan diplomatik danışıqlar xüsusi əhəmiyyətə malik idi.

Qeyd etmək lazımdır ki, Mudros müqaviləsinə əsasən Türkiyə qoşun hissələrinin Azərbaycandan, o cümlədən də Naxçıvan, Qarabağ, Zəngəzur mahallarından çıxması ilə ölkəmizin ərazi bütövlüyü və onun əhalisinin taleyi yenidən təhlükə qarşısında qalmışdı. Çünki Türkiyə silahlı qüvvələri bölgəni tərk etdiyi zaman, azərbaycanlı əhali özünü və torpağını qorumaq üçün hələlik qüvvətli dövlət qurumlarına, nizami hərbi hissələrə malik deyildi. Regiona gələn müttəfiqlərin, ilk növbədə isə ingilislərin ziddiyyətli siyasət yürütdükləri bir şəraitdə ermənilərin fəallaşması ağır nəticələr verə bilərdi. Buna görə də istər Azərbaycan hökuməti, istərsə də Naxçıvan, Qarabağ və Zəngəzur bölgələrindəki milli vətənpərvər siyasi qüvvələr, ayrı-ayrı tanınmış şəxslər tərəfindən Azərbaycanın ərazi bütövlüyünün müdafiəsinə yönələn bə'zi addımlar atıldı. Bu addımların bə'zisi məhəlli səciyyə daşısa da yaranmış şəraitdən çıxış yolu kimi müəyyən əhəmiyyət kəsb edirdi.

Azərbaycan Cümhuriyyətinin ərazi bütövlüyünün qorunub saxlanmasına xidmət edən tədbirlər sırasında məhəlli səciyyəli siyasi dövlət birliyinin, yə'ni Naxçıvan bölgəsində yaradılan Araz-Türk Respublikasının sanballı yeri və dəyəri vardır. Araz-Türk Respublikasının yarandığı tarixi şərait Osmanlı qoşunlarının bölgəni tərk etmələri ilə bağlı yerli əhali üçün törənən ciddi təhlükə ilə səciyyələnir. Respublika 1918-ci ilin noyabrmda



yaranmış və təxminən 1919-cu ilin martınadək fəaliyyət göstərmişdir. Onun ərazisi Naxçıvan, Şərur-Dərələyəz və Ordubad qəzalarını, habelə Sərdarabad, Uluxanlı, Verdibasar, Qəmərli, Mehri və s. əhatə etmiş, mərkəzi isə Naxçıvan şəhəri olmuşdur.[195]

Araz-Türk Respublikası Azərbaycan Cümhuriyyəti ilə də sıx əlaqələr yaratmağa çalışmış, onunla birləşmək üçün yollar aramışdı. Azərbaycan tərəfindən də müəyyən qarşılıqlı tədbirlər görülmüşdü. Belə ki, Cümhuriyyət parlamenti yaradılarkən, Naxçıvan bölgəsi - Araz Respublikası ilə bağlı məsələlər də nəzərə alınmışdı. "Azərbaycan parlamentinin yaradılması haqqında qanun"da yazılırdı ki, Azərbaycanın ərazisini... İrəvan quberniyasının bə'zi hissələri (burada Naxçıvan bölgəsi də nəzərdə tutulurdu. - red.) təşkil edir. Parlamentə Zəngəzurdan iki və İrəvan quberniyasının Azərbaycan hissəsindən (Naxçıvan, Şərur, Ordubaddan söhbət gedir; - red.) üç nəfər millət vəkili seçilməli idi.[196] Araz-Türk Respublikasının süqutu isə əsasən bu kimi səbəblərdən irəli gəlmişdi: a) bölgənin ermənilərin güclü hərbi və siyasi diplomatik təzyiqinə mə'ruz qalması; b) o dövrdə Azərbaycanda sözü keçən başlıca xarici qüvvə sayılan ingilislərin respublikanı dəstəkləməməsi və ermənipərəst mövqe tutmaları; v) Azərbaycan Cümhuriyyətinin bölgə və oradakı dövlət quruluşu ilə kifayət qədər əlaqələr yaratmaması, ona yetərincə hərbi-siyasi yardım göstərə bilməməsi və s. ilə bağlı idi. Respublikanın əhəmiyyətinə və onun qısamüddətli fəaliyyətinin nəticələrinə gəldikdə isə o, Azərbaycan üçün çox gərgin bir dövrdə bölgənin azərbaycanlı əhalisinin qüvvələrinin düşmənlərə qarşı birgə mübarizə aparılması məqsədilə birləşdirilməsində mühüm rol oynadı və ən başlıcası isə mahalın ermənilərə keçməsinə imkan verməməklə onun toxunulmazlığını və bununla da, Azərbaycanın ərazi bütövlüyünü tə'min etdi.

Birinci dünya müharibəsi başa çatdıqdan sonra Qafqazda, o cümlədən də Azərbaycanda, möhkəmlənmək sahəsində təşəbbüsü ələ alan ingilislər öz məqsədlərinə

çatmaq üçün ermənilərdən də istifadə etməyə başladılar. Öz növbəsində lord Kerzonun "...əlahəzrət hökumətinin başlıca məqsədi ermənilərin azad edilməsidir" - fikrindən ruhlanan ermənilər də ingilislərin siyasətindən faydalanmağa çalışırdılar. Qarşılıqlı mənafe və maraqların üst-üstə düşdüyü bir şəraitdə - 1919-cu ilin yanvarında Naxçıvan mahalına çox az sayda ingilis hərbi qüvvələri gətirildi. Bununla eyni vaxtda isə Ermənistanın qoşun hissələri Zəngəzur Naxçıvan-Qarabağ bölgələrinə qarşı təcavüzü daha da genişləndirdilər. Bu dövrdə Şərurda erməni nizami qoşunları üzərində mühüm qələbə qazanılsa da (yerli sakin Məşədi Ələsgərin başçılıq etdiyi silahlı qüvvələr ermənilərə divan tutmuşdu və onlar 15 gün meyidlərin və yaralıların yığışdırılması ilə məşğul olmuşdular) bölgədə vəziyyət gərginləşməkdə idi. Belə bir şəraitdə ingilislər Naxçıvan mahalını müvəqqəti bitərəf zona e'lan edərək burada öz general-qubernatorluqlarını yaratdıqlarını bildirdilər. Ermənilər üzərindəki Şərur qələbəsindən sonra Naxçıvan mahalında yeni diktatura hökumətinin yaradıldığı e'lan olunmuşdu. Bu hökumət isə mövcud gərgin vəziyyətdə Azərbaycan Cümhuriyyəti ilə geniş əlaqələrin qeyri-mümkünlüyü və s. səbəblərə görə İranla birbaşa münasibətlər yaratmağa cəhdlər göstərmişdi. Yeni hökumətin başçısı Cəfərqulu xanın Naxçıvan-Şərur dairəsinin ingilis general-qubernatoruna yolladığı 1919-cu il 26 fevral tarixli məktubdan da göründüyü kimi, İranla yaxınlaşmaq cəhdləri Osmanlı qoşunlarının getməsindən sonra bölgə üçün ermənilər tərəfindən yaradılan təhlükədən və onun Azərbaycandan təcrid olunmasından irəli gəlmişdi.[197]

Və məktubda ingilis general-qubernatorundan mahalın ana torpaqla-Azərbaycanla birləşməsi üçün şərait yaradılması xahiş olunurdu.

Bütün fəaliyyəti boyu olduğu kimi, ingilislərin Naxçıvanda qaldıqları müddət ərzində də Azərbaycan Cümhuriyyəti rəhbərliyi bu əraziyə dair öz suveren hüquqlarını müdafiə etdi. Onun təhlükəsizliyinin tə'minatına yardım göstərmək və bölgə əhalisinə qarşı ermənilərin törətdikləri vəhşiliklərin qarşısını almaq, mahalı Şimali Azərbaycanın digər torpaqları ilə birləşdirmək sahəsində hökumət müəyyən tədbirlər həyata keçirdi. Azərbaycan parlamentinin 1919-cu il yanvarın 8-i və 25-də olan iclaslarında Naxçıvan bölgəsi və ümumiyyətlə keçmiş İrəvan quberniyasının azərbaycanlı əhalisinin vəziyyəti ilə bağlı məsələlər müzakirə edildi.[198] Yanvarın 25-dəki iclasda xüsusi bəyanatla çıxış edən M.Rəsulzadə Ermənistan hökumətinin Naxçıvan və digər qəzaların azərbaycanlı əhalisinə düşmən münasibət bəsləməsinə qarşı çıxaraq qəti tədbirlər görməyə çağırdı.

Keçmiş İrəvan quberniyası türk-müsəlman əhalisinin vəziyyətinin öyrənilməsi, ermənilərin onlara qarşı törətdikləri vəhşiliklərin qarşısının alınması, Azərbaycanın cənub-qərb bölgələrinin ərazi toxunulmazlığının tə'min olunması istiqamətində müəyyən tədbirlər görüldü. Azərbaycanın Ermənistanda diplomatik nümayəndəliyinin açılması bu işlərdə çox mühüm rol oynadı. Azərbaycan FİK-in üzvü Məmmədxan Təkinski 1919-cu il yanvarın 29-da İrəvana səfir tə'yin edildi.[199]

Azərbaycan Hökuməti ilə Naxçıvan bölgəsi arasında əlaqələrin yaradılması və inkişafında, mahalın azərbaycanlı əhalisinin problemlərinin həllində keçmiş İrəvan quberniyasından olan ictimai xadimlərin, ziyalıların və onlarm yaratdıqları müxtəlif təşkilatların sə'yləri də mühüm rol oynamışdır. İrəvan quberniyası ictimai xadimlərinin 1919-cu il yanvarın 2-də Araz-Türk Respublikasının nümayəndəsi P.Bayrambəyovun iştirakı ilə müşavirəsi keçirildi. Keçmiş İrəvan quberniyasında, o cümlədən də Naxçıvan bölgəsində yaşayan azərbaycanlıların nümayəndələrinin yanvarın 5-də Bakıda parlamentin binasında fövqəl'adə iclası oldu. Burada quberniya müsəlmanlarının həmyerlilər cəmiyyəti yaradıldı. Sabahısı gün isə T.Makinskinin sədrliyi ilə onun idarə hey'əti seçildi. İrəvan quberniyasından olan qaçqınlar üçün bir milyon manat vəsait ayrıldı.[200]

Həmyerlilər cəmiyyəti İdarə Hey'ətinin üzvü Mirabbas Mirbağırovun 1919-cu ilin yanvar-fevral aylarında Naxçıvan səfəri və onun yekunları barədə mə'ruzəsi[201] Azərbaycan hökuməti ilə mahalın azərbaycanlı əhalisi arasında əməli və faktiki əlaqələrin yaradılması yolunda birinci ciddi addım hesab oluna bilər.

Azərbaycan hökumətinin Naxçıvan bölgəsinə dair hüquqlarının, mahalın idarə olunmasında onun iştirakının tə'min edilməsi zəruri məsələ idi. Bu addım yerli müsəlman əhalisinin çevik həllini burada xüsusi general-qubernatorluğun təşkilini də şərtləndirirdi. Cənubi-Qərbi Azərbaycanın (Naxçıvanın) Müvəqqəti hökumətinin işlər müdiri B.Naxçıvanskinin 1919-cu il fevralın sonlarında Bakıda olduğu zaman öz missiyasının məqsədlərini açıqlayaraq belə bir vacib məsələyə toxunmuşdu ki, Naxçıvan, Şərur və Ordubad qəzaları Azərbaycan torpağı olduğundan Müvəqqəti hökumət həmin ərazilərin Cənub-Qərbi Azərbaycan Cümhuriyyəti ilə birləşməsi üçün onun rəhbərliyinə və ingilis komandanlığına müraciət etməyi qərara almış və onların razılığını əldə etmişdi.[202]

Bütün bu cəhətləri nəzərə alan Azərbaycan hökuməti özünün 1919-cu il 28 fevral tarixli qərarı ilə Naxçıvan general-qubernatorluğunu (arxiv sənədlərində o, Cənubi-Qərbi Azərbaycan general-qubernatorluğu, habelə Naxçıvan, Ordubad, Şərur-Dərələyəz və Verdibasar rayonlarının müvəqqəti general-qubernatorluğu kimi də gedir) yaratdı.[203] Həmin qərara əsasən də Bəhramxan Naxçıvanski general-qubernator, Kərimxan İrəvanski, Hacı Mehdi Bağırov isə onun köməkçiləri tə'yin olundular, həmçinin yerli hakimiyyətin təşkili və qoşun hissələrinin saxlanması üçün DİN-nin 20 milyon manatlıq fondundan 500 min manat pul ayrıldı.[204] General-qubernatorluğun nəzdində 7 nəfərdən ibarət Şura formalaşdırıldı.

Daha sonra respublika hökumətinin 1919-cu il 3 mart tarixli qərarına müvafiq surətdə bölgədə nə qədər silahlı qüvvənin olmasını, onun necə təşkil edilməsi və



saxlanmasını aydınlaşdırmaq məqsədilə general-qubernatorluğa nümayəndə göndərməsi hərbi nazirliyə tapşırıldı və əlavə daha 500 min manat vəsait buraxılması razılaşdırıldı. Hökumətin 1919-cu il 28 fevral və 30 mart tarixli sərəncamları ilə bölgədə idarəçiliyin təşkili üçün daha 1 milyon manat ayrıldı.[205] Doğrudur, Naxçıvan general-qubernatorluğu müəyyən obyektiv və subyektiv səbəblərə görə geniş və səmərəli fəaliyyət göstərə bilməsə də, hər halda onun yaradılması və bə'zi tədbirləri bölgənin Azərbaycan hökuməti ilə əlaqələrinin möhkəmlənməsində müəyyən rol oynadı.

Osmanlı qoşunları getdikdən sonra Naxçıvan bölgəsində olduğu kimi, Zəngəzur mahalında da siyasi-hərbi vəziyyət xeyli kəskinləşdi, azərbaycanlılar yenidən zorakılıq və məhrumiyyətlərə mə'ruz qaldılar. Müttəfiqlərin Azərbaycana gəlişilə bağlı fəallaşan ermənilər yaranmış şəraiti özlərinin ərazi iddialarının reallaşması üçün əlverişli məqam sayaraq müəyyən təxribatlara əl atdılar. Ermənistan hökuməti tərəfindən ruhlandırılan, maliyyələşdirilən və təchiz olunan Andronik və onun quldur dəstəsi Zəngəzurda yeni-yeni özbaşınalıq və vəhşiliklər törətdi.

Andronikin Zəngəzurdakı "etnik təmizləmə" fəaliyyəti 1918-ci il noyabrın ikinci yarısında özünün yeni - daha ağır mərhələsinə qədəm qoydu. Onun quldur dəstəsinin 1918-ci il noyabrın 22-də Zəngəzur qəzasının mərkəzi olan Gorusa gəlməsi qəzanın kəndlərinin viran edilməsi, əhaliyə divan tutulması ilə nəticələndi. Qısa müddətdə burada onun dəstəsi tərəfindən 30-dan çox azərbaycanlı kəndi dağıdıldı.[206] "Azərbaycan" qəzeti Zəngəzurdan aldığı teleqrama əsasən mə'lumat verirdi ki, Ordubaddan 15 verstlikdə Zəngəzur qəzasında yerli ermənilər Andronikin dəstəsilə birlikdə 10-dan çox azərbaycanlı kəndini (Kilit, Lehvaz, Tey, Buğakər, Aşağı Vərtənəzur, Yuxarı Vərtənəzur və s.) dağıdaraq Əldərə, Nüvədi, Tuğut və b. kəndləri mühasirəyə almağa hazırlaşırlar, əhali İrana qaçır.

Osmanlı qoşunları getdikdən sonra Zəngəzur və Qarabağ mahallarında yaranan gərgin siyasi - hərbi vəziyyət, Andronikin quldur dəstəsinin törətdiyi qanlı hadisələr, ingilislərin ziddiyyətli mövqeyi və hərəkətləri, Azərbaycan torpaqlarının itirilməsi təhlükəsi və s. məsələlər respublika parlamentinin 1918-ci il dekabrın 20-də keçirilən fövqəl'adə iclasında müzakirə olundu.[207] Hökumətin gördüyü tədbirlərə dair F.Xoyskinin çıxışı və müzakirələrdən sonra torpaqlarımızın bütövlüyü və əhalinin müdafiəsinə aid siyasi-hərbi və maliyyə- mə'nəvi səciyyəli işlərin daha da qüvvətləndirilməsi barədə qərar qəbul edildi.

Azərbaycanın Cənub-Qərb bölgələrində Azərbaycan Cümhuriyyəti hakimiyyətinin bərqərar edilməsi sahəsində görülən işlər arasında ən başlıcası Cavanşir, Şuşa, Cəbrayıl və Zəngəzur qəzalarını əhatə edən ayrıca Qarabağ general-qubernatorluğunun yaradılması hesab olunmalıdır. Bu general-qubernatorluğun təşkilinin zəruriliyi aşağıdakı amillərlə şərtlənirdi: a) rəsmi İrəvanın hərtərəfli dəstəklədiyi bölgə ermənilərinin separtçılıq hərəkətləri və yerli müsəlman əhalisinə qarşı törətdikləri zorakılıqlar; b) Andronikin silahlı dəstəsinin mahallara soxulmasından sonra burada vəziyyətin daha da ağırlaşması; v) qəzaların, xüsusilə də Zəngəzurun, Gəncə qubernatoru vasitəsilə idarəçiliyi ilə bağlı çətinliklər və s. Azərbaycan hökumətinin 1919-cu il yanvarın 15-i və 29-da keçirilən iclaslarında bu general-qubernatorluğun yaradılması, Xosrov bəy Sultanovun general-qubernator tə'yin olunması, ilkin məsrəflər üçün hələlik 5 milyon manat vəsait ayrılması qərara alınırdı.[208]

Azərbaycan hökumətinin öz tarixi ərazisində general-qubernatorluq yaratması və X.Sultanovu ora başçı tə'yin etməsini Ermənistan hökuməti geniş miqyaslı siyasi-diplomatik qalmaqalla qarşıladı. Ermənistan XİN-in beynəlxalq təşkilatlara və dövrün sözükeçən dövlətlərinə, Azərbaycan rəhbərliyinə ünvanladığı çoxsaylı teleqram və e'tiraz notlarında, daşnak mətbuatında ("Vpered", "Aşxatavor" və s.) Azərbaycan hökuməti "Ararat



Respublikasının hüquqlarına qəsd etməkdə", qonşu xalqlar arasındakı münasibətləri pozmaqda suçlandırılırdı. Vəziyyətdən "yeganə ağıllı çıxış yolu kimi bölgə ermənilərinə ya hər hansı bir general-qubernatorsuz yaşamaq imkanı verilməsi, ya da heç olmazsa burada müvəqqəti ingilis-qubernatorluğu yaradılması" məsləhət görülürdü".[209]

Ermənistanın bölgələrəmizin idarəçiliyi işlərinə kobudcasına müdaxilə cəhdlərinə Azərbaycan hökuməti biganə qalmamışdı. Respublika xarici işlər naziri əvəzi A.Ziyadxanlının Ermənistan hökumətinə e'tiraz notalarında, "Azərbaycan" qəzetinin çoxsaylı materiallarında Azərbaycan tərəfi özünün, Qarabağ və Zəngəzura dair tarixi-etnik hüquqlarını bir daha xatırlatmış, onun daxili işlərinə hər hansı müdaxiləyə yol verilməyəcəyini bildirmişdi.

Bölgələrdə ziddiyyətli siyasət yürüdən ingilislər əvvəlcə Zəngəzurun bir hissəsinin Ermənistana verilməsini bildirsələr də, az sonra Azərbaycan hökumətinin Qarabağ general-qubernatorluğunu yaratmasını himayə etmişdilər. Bu hal erməniləri xeyli çaşdırmış və narazı salmışdı. Onlar "müxtəlif dəlillər" gətirməklə və cürbəcür tədbirlərlə Böyük Britaniya hökumətini öz "tarixi hüquqları"na inandırmağa cəhdlər göstərmiş, müəyyən şərtlər irəli sürmüşdülər.

Lakin ingilislər ermənilərin şərtlərini bə'zən diplomatik üsulla, bir sıra hallarda isə hədə yolu ilə qəbul etməmişdilər. Onlar X.Sultanovun general-qubernator tə'yinatını, Şatelvortun 1919-cu il 3 aprel tarixli bəyanatını[210] tanımaqla, onun Andronikin silahlı dəstəsinin mahallardan çıxarılmasında israr etməsilə təsdiqləmiş oldular.

Ümumiyyətlə, Qarabağ və Zəngəzura dair ingilis siyasəti bütövlükdə ikibaşlı və olduqca ziddiyyətli səciyyə daşımışdır. Bunu X.Sultanovun apardığı təhlil və gəldiyi nəticələr də daha yaxşı açıqlayır. İngilislər və'dlərinə xilaf çıxaraq bölgələrdə hakimiyyəti əslində Azərbaycana deyil, erməni Milli Şurasına vermiş, hətta ermənilərin

Qarabağ və Zəngəzurda möhkəmlənməsinə manc olan bir şəxs kimi Xosrov bəyi vəzifəsindən kənarlaşdırmağa cəhd göstərmiş, bütün bunlarla da ermənilərin bölgədə çoxlu zorakılıq hərəkətlərinə yol vermələrinə, Azərbaycan hökumətini tanımamalarına şərait yaratmışdılar.

Ermənilər həm də ingilislərin himayəçiliyi ilə Naxçıvan mahalında öz "idarəçiliyini" yaratmağa cəhdlər göstərmişdilər. 1919-cu il aprelin 15-dən başlayaraq bölgənin ermənilərin "idarəçiliyinə" keçməsi ilə bağlı xəbərlərin yayılması mahalda həyəcanlar yaratdığından Azərbaycan Xalq Cümhuriyyətinin İrəvandakı diplomatik nümayəndəliyi rəsmi Bakı qarşısında müəyyən məsələlər qaldırmışdı.[211] Bir sıra ingilis-erməni birgə hazırlıq tədbirlərindən (general Devinin Naxçıvana səfəri, onun və Dronun imzaladıqları əmr, Ermənistanın Baş naziri Q.Xatisyanın bölgəyə gəlişi və s.)[212]

Belə bir şəraitdə mahalın azərbaycanlı əhalisi həm müxtəlif ünvanlara (Qafqazdakı Britaniya qoşunlarının komandanı general Koriyə, müttəfiq dövlətlərə, T.Xatisyana və Azərbaycan xarici işlər naziri M.Y.Cəfərova) yazılı e'tirazlar, Təbrizə nümayəndə hey'əti göndərdi, həm də Ordubadda, Şahtaxtıda və s. ərazilərdə erməni "idarəçiliyinə" müqavimət göstərdi.[213] Qısa müddətli erməni "idarəçiliyi" zamanı bölgədə törədilən özbaşınalıqlar, bir qədər sonra daşnakları qovmaq üçün yaranan əlverişli şərait (ingilislərin getmələri xəbəri; Azərbaycan Ordusu zabitlərinin yerli əhalini hərbi cəhətdən təşkil etmələri; Türkiyə qoşunlarınm toplanması ilə bağlı Ermənistanın öz qərb sərhədlərini möhkəmləndirmək məcburiyyətində qalması, Vedibsar rayonunda ermənilərin məğlubiyyəti və s.) əməli addımlar atılmasını şərtləndirirdi.

Müəyyən hərbi-maliyyə və siyasi-mə'nəvi səciyyəli hazırlıq işlərindən sonra 1919-cu il iyulun 19-25-də aparılan uğurlu döyüşlər erməni "idarəçiliyi"nin bölgədən qovulması ilə nəticələndi. Mahalda daşnak "ağalığı"na son qoyulduqdan sonra siyasi şəraitin normalaşmasına müsbət tə'sir göstərən bir proses getdi,



yə'ni erməni icmaları yığıncaqlar keçirərək rəsmi sənədlərlə[214] Azərbaycan hökumətini tanıdılar. Qarabağ general-qubernatorluğunun müəyyən siyasi-hərbi səciyyəli tədbirlərinin nəticəsində bu bölgədə də analoji proses baş verdi. Belə ki, Qarabağ ermənilərinin 1919-cu ilin avqustunda keçirilən VII qurultayında Azərbaycan Cümhuriyyəti hakimiyyətinin tanınması barədə akt qəbul edildi. 1919-cu ildə Muğan və Lənkəranda Azərbaycanın ərazi bütövlüyünü pozmağa yönəlmiş məkrli cəhdlər göstərildi. Vaxtı ilə buraya köçürülən rus kəndlilərindən (molokanlardan) istifadə edərək bölgəni öz tə'sir dairələrinə çevirməyə çalışan Denikinin könüllü ordusu və Sovet Rusiyası hökuməti burada siyasi vəziyyəti gənginləşdirməklə Azərbaycan dövləti üçün daha bir problem yaratdılar. Denikinçi polkovnik İlyaşeviçin "Lənkəran Diyar İdarəsi" qurumu ilə bolşeviklərin qarşıdurması və silahlı toqquşması Muğan Sovet Respublikasının e'lanı ilə nəticələndi. Belə ki, 1919-cu il aprelin 25-də başlanan hücum sayəsində denikinçilərin "hökumətini" devirən bolşevik silahlı dəstələri mayın 15-də Muğan Sovet Respublikasının yaradıldığını bildirdilər. Bu hadisə (ona "molokan qiyamı" da deyirlər - *red.*) əslində bolşevik Rusiyasının Azərbaycanı işğal etmək planının bir halqası idi. Bunu "Sovet Həştərxanından" "Sovet Muğanı"na edilən hərtərəfli yardım (Xüsusi hərbi Ekspedisiyanın təşkili, qızıl Ordunun 200 əsgər və zabitinin, xeyli sursatın, 1 mln. man. pulun Lənkərana göndərilməsi, XI Ordunun hərbi-səhra tribunalının sədr müavini T.Ulyantsevin (Otradnevin) Muğandakı Şura hökumətinə başçılıq etməsi, S.Kirovun və N.Nərimanovun yerli bolşeviklərlə sıx əlaqə saxlaması və s.)[215] da təsdiqləyir.

Təbiidir ki, Azərbaycan hökuməti özünün suveren hüquqlarına və ölkənin ərazi bütövlüyünə edilən bu qəsdə biganə qala bilməzdi. Tezliklə general H.Səlimovun komandanlığı altında olan qoşun hissələri (dörd min nəfərlik iki alay) əvvəlcə "denikinçi desantı"nı silahı yerə qoymağa məcbur etdi, iyulun 25-də isə "Muğan

Sovet Respublikası"nın axırına çıxdı. T.Ulyantsev, İ.Kolomiytsev və b. məhv edildi, Qırmızı Ordunun 1 təyyarəsi, 24 topu, 60 pulemyotu ələ keçirildi, bölgəyə Azərbaycan hökumətinin valisi tə'yin olundu.[216] Beləliklə, Azərbaycanın ərazi bütövlüyünün pozulmasma və dövlət müstəqilliyinin itirilməsinə yönəldilən fitnələrdən birinin də qarşısı alındı.

1919-cu ilin yayında Paris Sülh konfransmda "Böyük Ermənistan" uğrundakı fitnə-fəsadların davamına və İranın "öz tarixi torpaqlarının Şimali Azərbaycanı ilk növbədə isə Qarabağ, Naxçıvan, Zəngəzur mahallarını "geri qaytarmaq" cəhdlərinə qarşı ardıcıl siyasi-diplomatik mübarizə aparıldı. Azərbaycan diplomatiyası Versalda həm ermənilərin, həm də İranın Azərbaycan dövlətinə qarşı irəli sürdükləri ərazi iddialarım dəf etməyə müvəffəq ola bildi.

İngilislərin Şimali Azərbaycandakı mövqelərinin zəiflədiyi zaman, yə'ni 1919-cu ilin ikinci yarısında fəallaşan ABŞ hökuməti mə'lum bölgələr, xüsusilə də Naxçıvan bölgəsi ətrafındakı erməni-azərbaycanlı münaqişəsindən faydalanmağa çalışdı. Naxçıvan bölgəsi ilə bağlı məsələlərdə əsasən ermənipərəst mövqe tutan ABŞ müəyyən mülahizələrə: regiona kifayət qədər hərbi qüvvə gətirə bilməməsi, mahalın azərbaycanlı əhalisinin çox güclü müqaviməti, Azərbaycan hökumətinin barışmaz mövqeyi və s. görə ikili siyasət yürüdürdü. "Modus vivende" yaratmağı özünün Cənubi Qafqazdakı missiyasının başlıca vəzifələrindən biri sayan müttəfiqlərin Ermənistandakı Ali komissarı polkovnik Haskelin Zəngəzur və Qarabağı Azərbaycanın tərkib hissələri kimi tanıyaraq ermənilərlə müsəlmanlar arasında normal münasibətlər yaradılması adı altında Naxçıvan və Şərur-Dərələyəz qəzalarının müvəqqəti olaraq xüsusi bitərəf zona e'lan edilməsini və burada Amerika general-qubernatorluğunun yaradılması təklifini irəli sürmüşdü.[217] Lakin mahalın azərbaycanlı əhalisinin inadlı müqaviməti, Azərbaycan hökumətinin hərtərəfli ciddi



sə'yləri sayəsində ABŞ-ın müəyyən diplomatik gedişlərlə Naxçıvan bölgəsində möhkəmlənmək siyasəti boşa çıxdı. Ermənilərin amerikalılar vasitəsilə Naxçıvana yiyələnmək niyyətləri baş tutmadı.

1919-cu ilin payızında Ermənistanın Zəngəzurda növbəti və daha genişmiqyaslı döyüş əməliyyatlarına hazırlıq tədbirlərini, o cümlədən onların təbliğat-ideoloji tə'minatını (xüsusilə də mətbuat vasitəsilə), diplomatik gedişləri (Versal konfransına və Qərb dövlətlərinin Qafqazdakı nümayəndəliklərinə tə'sir göstərilməsinə cəhdlər, "mübahisəli məsələlərin həlli" məqsədilə konfrans keçirilməsi təşəbbüsü) gücləndirildi. Rəsmi İrəvanın Zəngəzur ermənilərini Azərbaycan hökumətini tanımamağa təhrik edən müxtəlif səpkili hərəkətləri, buradakı qiyamçı silahlı qüvvələri açıq-aşkar siyasi-hərbi cəhətdən dəstəkləməsi Azərbaycan rəhbərliyini Qarabağ general-qubernatorunun sərəncamına verilən məhdud miqdarda qoşun hissəsini general-mayor H.Şıxlinskinin komandanlığı altında 1919-cu il oktyabrın sonlarında bölgəyə göndərdi.

Azərbaycan hökumətinin bu addımını Zəngəzurun daxili işlərinə müdaxilə və dinc əhaliyə qarşı silahlı əməliyyatlar aparılması kimi qələmə verən Ermənistan, Qafqazın hüdudlarından da kənara çıxan beynəlxalq diplomatik qalmaqal saldı. Bu arada Ermənistanın Bakıdakı diplomatik nümayəndəsi Bekzadyan Ermənistan-Azərbaycan konfransının çağırılması ilə əlaqədar 1919-cu il oktyabrın 12-13-də N.Usubbəyovla və M.Y.Cəfərovla görüşərkən ərazi mübahisələri ilə bağlı məsələlərə də toxundu.[218] Erməni tərəfinin konfrans çağırmaq təşəbbüsündə Zəngəzur və Naxçıvana yiyələnmək niyyətini duyan Azərbaycan Cümhuriyyəti rəhbərliyi artıq İrəvanın və Eçmədzin qəzasının güzəştə gedildiyini xatırlatmaqla Azərbaycanın digər əzəli torpaqlarının, yə'ni Qarabağ, Naxçıvan və Zəngəzurun ona mənsubiyyəti barədə söhbətin belə ola bilməməsini qəti bildirmişdi.

Müəyyən əlavə görüş və müzakirələrdən sonra 1919-cu il noyabrın 23-də amerikalıların vasitəçiliyi ilə Tiflisdə

Azərbaycanla Ermənistan arasında beş maddədən ibarət saziş imzalandı.[219] Əslində bu saziş müvəqqəti xarakter daşıyırdı. Çünki yalnız qarşıdakı Ermənistan-Azərbaycan konfransı dövlətlərarası mübahisəli məsələlərin bütün kompleksini və hissələrini həmin sazişə uyğun surətdə həll edə bilərdi. Sazişin nəticələrinə gəldikdə isə, bu akt Azərbaycan tərəfi üçün faydalı olmadı, əksinə, onun siyasi-hərbi mənafe və mövqelərinə xələl gətirdi. Azərbaycan hökuməti bu müvəqqəti sazişə inanaraq və müttəfiqlərin müraciətlərini əsas tutaraq razılaşdırılan məsələlər həll olunmamış öz qoşun hissələrini Zəngəzurdan çıxartdı. Saziş ərəfəsində və onun bağlandığı günlərdə belə Zəngəzurda hərbi əməliyyatları davam etdirən Ermənistan hökuməti bu şəraitdən faydalanaraq dərhal bölgəyə əlavə nizami silahlı qüvvələr yeridib orada hərbi əməliyyatların yeni və daha irimiqyaslı mərhələsinə başladı.

1919-cu il dekabrın 14-ü ilə 21-i arasında Bakıda keçirilən Azərbaycan-Ermənistan konfransında F.Xoyskinin ilk növbədə ərazi problemlərini müzakirə etmək təklifi və M.Hacınskinin 23 noyabr sazişinə uyğun olaraq sərhəd mübahisələrinin həllini konfransın əsas vəzifəsi sayması erməni tərəfinin (Arutunyants və Bekzadyan) ərazi mübahisələrinin qəti həlli üçün hələ lazımi şərait və vaxtın yetişməməsi mülahizəsi ilə qarşılaşdı.[220] Ümumiyyətlə isə, bu konfrans da iki dövlət arasındakı gərgin münasibətlərə heç bir aydınlıq gətirmədi, mübahisəli sərhəd-ərazi məsələlərinin, o cümlədən də Zəngəzur probleminin həllində əməli işlər görə bilmədi.

Azərbaycanın ərazi bütövlüyünə Zəngəzurda yaranan ciddi təhlükəni aradan qaldırmaq məqsədilə respublika hökuməti tərəfindən bir sıra tə'cili tədbirlər həyata keçirildi. Belə ki, müsavatçı deputatların təklifi ilə 1920-ci il yanvarın 22-də parlamentdə Zəngəzur hadisələri ilə bağlı məsələ müzakirə edildi. Həmçinin Tiflisdə Ermənistan XİN-in nümayəndələri ilə danışıqlar aparıldı. Dövlət Müdafiə Komitəsinin 1920-ci il yanvarın 6-da



keçirilən iclasında hərbi-maliyyə yönümlü işlərin görülməsi planlaşdırıldı.[221] Tezliklə yerli əhalidən partizan dəstələrinin təşkili üçün 5 mln. man. vəsait ayrıldı, bölgəyə əlavə hissələr gətirildi.[222] "Müsavat" partiyasının II qurultayının 4-cü iclasında (4 dekabr 1919-cu il) Zəngəzur mahalını qəti surətdə Azərbaycan Cümhuriyyətinə birləşdirmək məqsədilə bütün qüvvələri səfərbər etməyin zəruriliyi vurğulandı.[223]

1920-ci ilin əvvəlində Ermənistanın Azərbaycan torpaqlarını zəbt etmək cəhdləri güclənsə də, Azərbaycan hökumətinin siyasi sə'yləri və hərbi sahədəki tədbirləri daşnakların planlarının reallaşmasına imkan vermədi. Erməni silahlı qüvvələri 1920-ci il yanvarın 19-u ilə 25-i arasında Zəngəzurda 51 azərbaycanlı kəndini dağıtsalar da[224] Novruz bayramı günlərində Naxçıvan, Qarabağ və Zəngəzurdakı döyüşlərdə çox ağır məğlubiyyətə düçar oldular. Erməni nizami ordusu hissələrinin mart ayında Şərur və Ordubada hücumları Kəlbalı xanın silahlı dəstələri, yerli əhalinin və Türkiyənin mahaldakı kiçik döyüş dəstəsinin birgə sə'yləri nəticəsində dəf olundu, onlar xeyli itki verərək geri çəkildilər.[225]

Milli hökumətin gərgin mübarizəsi, düşünülmüş tədbirlərin nəticəsində Azərbaycanın suveren hüquqları, torpaq bütövlüyü onun bütün ərazisində əsasən tə'min edildi. Gənc respublikanın ərazi bütövlüyünə qarşı yönəlmiş cəhdlərin qarşısı alındı. Həmin dövrdə Azərbaycanın ərazisi 97.297,67 kv.km mübahisəsiz, 16.598,30 kv.km mübahisəli zonaları əhatə etməklə 113.895,97 kv.km olmuşdur. Lakin 1920- ci il aprelin 27-də Sovet Rusiyasının XI ordusu tərəfindən Bakıda həyata keçirilən dövlət çevrilişi və sonrakı aylarda Azərbaycanın digər ərazilərinin işğalı ölkəmizin torpaq bütövlüyünün tamamilə tə'min edilməsinə imkan vermədi. Sovet işğalından sonra Zəngəzur, Qarabağ və s. bölgələr üçün çox faciəli olan bir dövr başladı.

QEYDLƏR

### § 1. Azərbaycan cəmiyyətində demokratik dəyişikliklərin başlanması. Azərbaycan parlamentinin təşkil edilməsi. F.Xoyskinin üçüncü hökumət kabinetinin yaradılması.

1. Каспий, 1918, 7 ноября.
2. Азербайджан, 1918, 15 ноября.
3. Знамя труда, 1918, 3 декабря.
4. Единая Россия, 1918, 17 декабря.
5. Азербайджан, 1918, 2 декабря
6. Там же, 28 декабря.
7. Там же, 3 декабря.
8. ARDA, f.895, s.1, iş 36, v.2.
9. Yenə orada.
10. Народное знамя, 1919, 28 февраля.
11. Искендеров М.С. Указ.соч., с.345.
12. Знамя труда, 1918, 8 декабря.
13. ARDA, f.895, s.1, iş 13, v.78.
14. Азербайджан, 1919, 31 января.
15. ARDA, f.895, s.1, iş 25, v.2.
16. Yenə orada, iş 202, v.4; Азербайджан, 1918, 10 декабря.
17. ARDA, SPİHDA, f.277, s.1, iş 53, v.5.
18. Знамя труда, 1918, 17 декабря.
19. ARDA, f.895, s.1, iş 10, v.53.
20. Yenə orada, iş 13, v.10.
21. Азербайджан, 1918, 28 декабря.
22. Знамя труда, 1918, 29 декабря.
23. Азербайджан, 1918, 29 декабря.
24. ARDA, f.894, s.10, iş 98, v.10.
25. Yenə orada, s.1, iş 54, v.10.
26. Yenə orada, f.970, s.3, iş 4, v.8.
27. Yenə orada, f.894, s.9, iş 7, v.4.
28. Yenə orada, f.970, s.3, iş 4, v.8.
29. Знамя труда, 1918, 26 декабр.



30. ARDA, f.1134, s.1, iş 39, v.8.
31. Yenə orada, f.895, s.1, iş 13, v.25.
32. Yenə orada.
33. Yenə orada.
34. Азербайджан, 1919, 19 января.
35. ARDA, f.895, s.1, iş 48, v.82.
36. Yenə orada.
37. Каспий, 1919, 29 января.
38. Искра, 1919, 24 января.
39. ARDA, f.895, s.1, iş 18, v.188.
40. Заря, 1919, 7 января.
41. ARDA, f.895, s.1, iş 11, v.108.

### § 2. N.Usubbəyovun başçılığı ilə dördüncü hökumət kabineti

42. ARDA, f.895, s.1, iş 13, v.74-75.
43. Yenə orada, v.83-84.
44. Азербайджан, 1919, 9 февраля.
45. ARDA, f.895, s.1, iş 13, v.114.
46. Yenə orada.
47. Yenə orada, v.3.
48. Наш путь, 1919, 7 апреля.
49. Там же.
50. Заря, 1919, 28 марта.
51. Там же, 12 апреля.
52. ARDA, f.895, s.1, iş 13, v.103.
53. İttihad, 1919, 21 mart.
54. Заря, 1919, 17 апреля.
55. Адрес-календарь, с.24.
56. Заря, 1919, 4 мая.
57. Азербайджан, 1919, 14 апреля.
58. ARDTA, f.509, s.1, iş 332, v.89.
59. Азербайджан, 1919, 1, 19 февраля.
60. Там же, 16 апреля.
61. Грузия, 1919, 7 мая.
62. ARDA, f.7, s.2, iş 1, v.29.
63. Азербайджан, 1919, 10 мая.

64. Там же, 19 апреля.
65. ARDA, f.7, s.2, iş 1, v.32.
66. Заря, 1919, 8 апреля.
67. ARDA, f.894, s.10, iş 98, v.11.
68. Yenə orada, f.77, s.1, iş 9, v.223-224.
69. Балаев А. Указ. соч., с.50.
70. Там же, с.51.
71. Исаев Н.И. Некоторые аспекты социальной политики Азербайджанской Республики. В кн.: Труды научной конференции, посвященной дню восстановления Азербайджанской государственности. Баку, Элм, 1991, с.133.
72. Адрес-календарь, с.80.
73. Исаев Н.И. Указ. соч., с.133.
74. Светоховский Т. Русский Азербайджан, с.43.
75. Балаев А. Там же, с.45.
76. Там же, с.46.
77. ARDA, f.970, s.1, iş 166, v.3.
78. Yenə orada, a.895, s.1, iş 84, v.68.
79. Yenə orada, f.970, s.1, iş 9, v.105-106.
80. Набат, 1919, 15 июня.
81. Азербайджан, 1919, 7 июня; ARDA, f.895, s.1, iş 84, v.100-101.
82. ARDA, f.970, s.1, iş 166, v.2.
83. Yenə orada, f.895, s.1, iş 84, v.107.
84. Заря, 1919, 12 июня.
85. Həsənov C. Azərbaycan beynəlxalq münasibətlər sistemində, s.193.
86. Набат, 1919, 15 июня.
87. Заря, 1919, 1 июня.
88. Azərbaycan arxivi, 1988, N 1-2, s.160.
89. Искра, 1919, 3 августа.
90. Светоховский Т. Русский Азербайджан, с.44.
91. ARDA, f.2905, s.1, iş 20, v.2.
92. Yenə orada, f.970, s.1, iş 144, v.9.
93. Ziyadxanov A. Azərbaycan. Bakı, 1919, s.44.
94. Черчилль У. Указ. соч., с.247.
95. ARDA, f.2905, s.1, iş 20, v.2.



## § 3. *Respublikada mədəni quruculuq*

96. Народное образование в Азербайджане. 1920-1927. Баку, 1928, с.14.
97. ARDƏİA, f.51, s.1, iş 1, v.27.
98. Yenə orada, v.83.
99. Краткие сведения о деятельности Министерства народного просвещения за 1919 год. / Известия АН Азербайджанской ССР. *История, Философия, Право.* 1990, N 2, с.86-87.
100. ARDƏİA, f.51, s.1, iş 2, v.319, 359.
101. Народное образование в Азербайджане, с.16.
102. Азербайджан, 1920, 16 февраля.
103. Назарли А. Деятельность правительства АДР в области среднего образования. Институт истории АН Азербайджанской Республики. Труды научной конференции, посвященной Дню восстановления Азербайджанской государственности. Баку, 1991, с.127.
104. ARDƏİA, f.51, s.4, iş 1, v.18-19.
105. Yenə orada, s.1, iş 2, v.352.
106. Yenə orada, s.2, iş 4, v.29.
107. ARDA, f.895, s.3, iş 1, v.34.
108. Yenə orada, iş 78, v.15.
109. Азербайджан, 1919, 16 марта.
110. ARDA, f.314, s.1, iş 475, v.36.
111. Азербайджан, 1919, 6 ноября.
112. Там же, 1920, 26 февраля; İttihad, 1920, 5 mart.
113. ARDƏİA, f.51, s.4, iş 3, v.34.
114. Yenə orada, s.2, iş 7, v.250-253.
115. Учреждение Бакинского Государственного Университета (Сборник документов и материалов). Баку, 1989, с.70-71.
116. ARDA, f.895, s.3, iş 102, v.1.
117. ARDƏİA, f.489, s.1, iş 4, v.226.
118. Yenə orada, f.218, s.2, iş 10, v.311.
119. Yenə orada, f.51, s.2, iş 4, v.98.
120. Азербайджан, 1919, 10 октября.
121. ARDƏİA, f.51, s.2, iş 4, v.81.

122. Азербайджаи, 1919, 21 октября.
123. ARDƏİA, f.218, s.1, iş 13, v.9.
124. Yenə orada, v.10.
125. Азербайджан, 1919, 21 сентября.
126. Знамя труда, 1919, 20 февраля.
127. ARDƏİA, f.8, s.1, iş 34, v.41.
128. ARDA, f.895, s.3, iş 140, v.9.
129. Азербайджан, 1919, 26 октября.
130. Там же, 1918, 15 ноября.
131. Там же, 1919, 11 апреля.
132. Al bayraq, 1920, 31 mart.
133. İstiqlal, 1920, 10 fevral.
134. Азербайджан, 1919, 8 марта.
135. Там же.
136. Там же, 15 мая.
137. ARDƏİA, f.218, s.1, iş 13, v.9.
138. Yenə orada, s.4, iş 6, v.233.
139. Yenə orada, s.3, iş 17.
140. Yenə orada, s.1, iş 6, v.231.
141. Азербайджаи, 1919, 10 апреля.
142. ARDƏİA, f.8, s.1, iş 34, v.36 və arx.
143. Yenə orada, f.218, s.1, iş 4, v.14.
144. Азербайджан, 1920, 3 января.
145. Абдульгасанли Э. Помощь наших соотечественников. Республика, 1991, 19 января.
146. Rəsulzadə M. Azərbaycan şairi Nizami. Bakı, 1991, s.30.
147. Şeypur, 1934, 30 noyabr.
148. Азербайджан, 1918, 6 ноября.
149. Там же, 14 ноября.
150. Там же, 1920, 27, 28 февраля.
151. Там же, 1918, 2 декабря; 1919, 7 февраля, 1 июля.
152. Там же, 1919, 29 июня.
153. Там же, 1920, 25 марта.
154. Там же, 1919, 8 октября.
155. Там же, 1920, 14 марта.



156. Там же, 1918, 12 декабря; Искра, 1919, 18 января.
157. Знамя труда, 1919, 14 февраля; ARDƏİA, f.896, s.2, iş 8 v.33.
158. ARDƏİA, f.896, s.2, iş 8, v. 1,3.
159. Yenə orada, f.57, s.2, iş 324, v.88 və arx.
160. Знамя труда, 1919, 25 июня.
161. ARDA, f.84, s.4, iş 9, v.25.
162. ARDƏİA, f.51, s.2, iş 4, v.54.
163. Азербайджан, 1919, 10 августа.
164. Там же, 3 ноября.
165. ARDSPİHDA, f.276, s.2, iş 24, v.26.
166. Yenə orada, v.16.
167. Yenə orada, v.52.
168. ARDA, f.1134, s.1, iş 7, v.35.
169. Искра, 1920 6 март.
170. ARDƏİA, f.51, s.2, iş 6, v.19.
171. Известия АН Азербайджанской ССР. Серия: История, Философии, Право. 1990, N 2, с.92-93.
172. ARDƏİA, f.51, s.1, iş 1, v.34.

## *§ 4. Azərbaycan Ordusunun yaradılması. Azərbaycanın ərazi bütövlüyü uğrunda mübarizə*

173. Агамалиева Н., Худиев Р.Указ соч., с.27-28.
174. Адрес-календарь, с.27-28.
175. ARDA, f.2894, s.2, iş 4, v.4.
176. Стеклов А. Армия мусаватского правительства Азербайджана. Баку, 1927, с.62.
177. Азербайджан, 1918, 11 ноября.
178. Адрес-календарь, с.292.
179. Вышка, 1991, 31 октября.
180. RODA, f.195, s.3, iş 206, v.15.
181. ARDA, f.1051, s.2, iş 1, v.71; 74; f.2894, s.2, iş 1, v.1; iş 3, v.8, 9, 11.
182. Адрес-календарь, с.22-25.
183. ARDA, f.894, s.2, iş 3, v.1, 13, 17.

184. Стеклов А.Указ. соч., с.48.
185. ARDA, f. 1061, s.1. iş 7-10, 13,17,20,30,32-35, 37-39,42-51,54-78,80,82,88,90
186. Yenə orada, f.100, s.2, iş 791, v.82-85, 132; f.970, s.1, iş 161, v.7-9.
187. MRDA, f.314, s.5, iş 63, v.183.
188. Агаян Н. Роль России в исторических судьбах армянского народа. Москва, 1978, с.267.
189. Там же, с.268-269.
190. Бакинский рабочий, 1918, 18 июля.
191. Агаян Н. Указ.соч., с.269.
192. Шахдин И.Дашнакцутюн на службе русской белогвардейщины и английского командования на Кавказе. Тифлис, 1931, с.13.
193. Азербайджанская беднота, 1920, 28 сентября.
194. Азербайджан, 1918, 17 ноября.
195. ARDA, f.970, s.1, iş 215, v.9,9(arx).
196. Азербайджан, 1918 8 декабря.
197. ARDSPİHDA, f.277, s.2, iş 57,v.2,2(arx.)
198. Азербайджан, 1919, 28 января.
199. ARDA, f.970, s.1, iş 149, v.13.
200. Yenə orada, f.894, s.2, iş 94, v.2.
201. Yenə orada,s.10, iş 76, v.2-6.
202. Азербайджан, 1919, 28 февраля.
203. ARDA, f.894, s.2,iş 102,v.2.
204. Yenə orada,s.3, iş 75, v.2.
205. Yenə orada,s.3,12.
206. Yenə orada,s.4, iş 65, v.131.
207. Yenə orada,s.10, iş 37, v.1-2.
208. Yenə orada, s.1, iş 43, v.13-14; s.9, iş 5, v.1,8,11,13,17-19, f.970,s.1, iş 247, v.10.
209. Yenə orada, s.4, iş 90, v.7; a.970, s.1, iş 152, v.1-2; Азербайджан, 1919, 28, 31 января.
210. ARDA, f.970, s.1, iş 66, v.66; iş 152, v.19.
211. Yenə orada, iş 54, v.4,9; iş 57, v.27; iş 149, v.27; iş 151, v.16.
212. Азербайджан, 16 мая 1919; ARDSPİHDA, f.276, s.9, iş 1, v.30-32.



213. ARDA, f.894, s.10, iş 80, v.34-37: iş 103, v.5,21, iş 134, v.23; f.970, s.1, iş 167, v.1-3; Азербайджан, 1919, 22 июня и 18 июля.
214. ARDA, f.970, s.1,iş 90, v.1-11; iş 104, v.1-3,5,38; iş 200, v.2.
215. Дарабади П. Указ.соч., с.143-145.
216. Nəsibzadə N. Azərbaycanın xarici siyasəti (1918-1920-ci illər) Bakı, 1996, s.234.
217. Azərbaycan SSR EA Tarix İnstitutunun əsərləri. XIII cild. Bakı, 1958, s.353.
218. ARDA, f.2905, s.1, iş 13, v.45(arx).
219. Yenə orada, f.970, s.1, iş 190, v.9.
220. Yenə orada, v.21-43.
221. Yenə orada, f.897, s.1, iş 112, v.48.
222. Yenə orada, f.894, s.7, iş 21, v.26,53.
223. Азербайджан, 1919, 11 декабря.
224. ARDA, f.2898, s.1, iş 6,v.34; f.894, s.4, iş 119, v.14-15, 41; f.897, s.1, iş 112, v.27-28.
225. Yenə orada, f.970, s.1, iş 1156 vv.36-37.

# DÖRDÜNCÜ FƏSİL

## AZƏRBAYCAN XALQ CÜMHURİYYƏTİNİN İQTİSADİ SİYASƏTİ

Azərbaycan Xalq Cümhuriyyətinin yaradılması və inkişafı təkcə yeni siyasi sistemin əsaslarının qurulmasının deyil, həm də yeni iqtisadiyyatın təməlinin qurulmasını nəzərdə tuturdu. Bu iki anlayış siyasət və iqtisadiyyat bir-biri ilə ayrılmaz surətdə bağlıdır. İqtisadi dəyişikliklərin müvəffəqiyyəti ölkədə siyasi islahatların nə dərəcədə aparılmasından çox asılı idi. Öz növbəsində, iqtisadi sahədəki sabitləşmə də siyasi sabitliyi tə'min edir. Müstəqil Azərbaycan dövlətinə qalmış mirasın (birinci dünya müharibəsinin nəticələri, Cənubi Qafqazda, eləcə də Azərbaycanın özündə, ikihakimiyyətlilik dövründə iqtisadiyyatdakı anarxiya və hərc-mərclik, ölkənin varidatının Azərbaycan xalqının düşmənləri - Bakı kommunarları və "Sentrokaspi"çi güruh tərəfindən talan edilməsi və nəhayət, müstəqil cümhuriyyətin ərazisində əvvəlcə türk, sonra isə ingilis qoşunlarının olması) ötəri nəzərdən keçirilməsi iqtisadiyyatın, demək olar ki, tam dağılmasının və bununla bağlı məsələlərin həll edilməsində hökumətin qarşısında duran çətinliklərin böyüklüyü haqqında fikir söyləməyə imkan verir. Gənc cümhuriyyətin qarşısında duran vəzifə təkcə bütün dağılmış təsərrüfatı bərpa etməkdən deyil, həm də yeni iqtisadi sistemin prinsiplərini müəyyənləşdirməkdən, başqa sözlə desək, iqtisadi islahatlar keçirməyə başlamaqdan ibarət idi.

Azərbaycan Cümhuriyyətinin iqtisadi sahədə gördüyü tədbirləri nə sırf burjua, nə də sırf sosialist tədbirləri kimi səciyyələndirmək olar.



Azərbaycan Cümhuriyyətinin iqtisadi və siyasi platforması bütün vətəndaşların həqiqi bərabərliyinin bərqərar olduğu bir cəmiyyətin yaradılmasını nəzərdə tuturdu. Bu məqsədə çatmağın əsas vasitəsi mülkiyyət formasının müxtəlifliyi prinsipini fe'lən həyata keçirməkdən ibarət idi. Dövlət, xüsusi, səhmdar və bələdiyyə mülkiyyət formalarının inkişafı üçün bərabər şərait yaradılırdı.

Bununla yanaşı, hökumət bu mövqedə idi ki, mülkiyyət formalarının müxtəlifliyi, iri mülkiyyətin, xüsusilə də dövlət iqtisadiyyatının özəyini təşkil edən iri fabrik və zavodların parçalanmasına gətirib çıxarmamalıdır.

Mülkiyyət formalarının müxtəlifliyi üçün bərabər şəraitin yaradılması ideyası cümhuriyyətin iqtisadiyyat üzrə ilk qanunverici aktların əsasını təşkil edirdi. Müasir zamanda inkişaf etmiş ölkələr məhz bu üsulun tətbiq edilməsi hesabına nəhəng iqtisadi uğurlar qazanmışlar.

Azərbaycan Cümhuriyyəti hökumətinin inflyasiyanın qarşısının alınması, inflyasiya şəraitində maaşların və pul tədavülünün tənzimlənməsi, təcrübəsi qonşu ölkələrlə iqtisadi əlaqələrin səhmana salınması, öz valyutasını yaratmaq planları, vergi üsulu ilə dövlət və sahibkarlar arasında qarşılıqlı münasibətlər yarada bilməsi diqqətə layiqdir.

Azərbaycan kəndli ölkəsi olduğundan torpaq məsələsi ən kəskin iqtisadi, sosial və siyasi məsələlər sırasına daxil idi. Kənd təsərrüfatı neft sənayesindən sonra iqtisadiyyatın əsas özəyini təşkil edirdi. Ona görə də aqrar məsələnin həll edilməsi təkcə ölkənin sosial-iqtisadi vəziyyətini yaxşılaşdırmağa deyil, həm də əhalinin 76 %-dən çoxunu təşkil edən çox böyük kəndli kütləsini hökumət tərəfinə cəlb etməyə imkan verə bilərdi.[1]

Yuxarıda göstərildiyi kimi, Azərbaycanın kənd təsərrüfatına ciddi zərbə vurulmuşdu. Ümumiyyətlə, respublikada aqrar islahatların keçirilməsinə başlanılan dövrdə Azərbaycan kəndindəki istehsal münasibətlərini kəndlilərin təbəqələşməsi ilə müşaiyət olunan kapitalist

münasibətlərinin inkişafı kimi səciyyələndirmək olar. 1917-ci ildə kəndli sektorunun sosial strukturu aşağıdakı kimi idi: yoxsul təsərrüfatları - 54,4%, ortabablar - 34%, qolçomaqlar - 6%.[2] Mülkiyyət formalarından dövlət və mülkədar torpaq sahibliyi üstünlük təşkil edirdi. Mülkədarların mülkiyyətində 29,6%, dövlətin payında isə 68,8% torpaq olduğu halda, bütün kənd təsərrüfatı sahəsinin yalnız 1,8%-i kəndlilərə məxsus idi.[3] Torpaqsız və aztorpaqlı kəndlilər mülkədarlardan torpaq icarə etməyə və ya muzdur kimi işləməyə məcbur idilər. İcarə Azərbaycanın bütün qəzalarında torpaqdan adi istifadə forması idi.[4] Mülkədar təsərrüfatlarında muzdlu əməkdən geniş istifadə olunurdu.[5] İslahatların keçirilməyə başlandığı dövrdə Azərbaycanda torpaq mülkiyyəti formalarının qısa xarakteristikası bundan ibarət idi. İslahatların əsas özəyini məhz kəndliyə torpaq vermək"[6] məqsədi güdən aqrar islahat təşkil etməli idi.

Hələ Zaqafqaziya Seyminin fəaliyyəti zamanı, bolşeviklərin Qafqaz cəbhəsində fəallaşdığı günlərdə, bolşevizm məddahlarının demaqoq şüarlardan bəhrələndiyi bir dövrdə Qafqaz demokratiyası populist bolşevik şüarlarına qarşı tə'cili olaraq öz şüarlarını irəli sürməyə, o dövrün inqilabi coşqunluq tələblərinə cavab verə biləcək aqrar tezislərini ümumi şəkildə yazmağa məcbur oldu.Bu iş "torpaq layihəsi" deyilən bir sənədin müəllifləri tərəfindən yerinə yetirildi və 1918-ci il martın 7-də Zaqafqaziya Seymi tərəfindən təsdiq edildi.[7]

Bu qanunun qeyri-mükəmməlliyi, Qafqaz dövlətləri müstəqilliklərini e'lan edəndən dərhal özünü büruzə verdi. Azərbaycan hökuməti başa düşürdü ki, bu "qanunla" kütlə arasına çıxmaq mümkün deyil və dövlətin həyatı maraqlarına cavab verə biləcək daha ciddi sənəd lazımdır. Məhz buna görə də F.Xoyskinin birinci hökuməti hələ 1918-ci il iyunun 22-də Seymin aqrar qanunun şərtlərinin Azərbaycan Cümhuriyyətinin ərazisinə şamil edilməməsi haqqında fərman vermişdi. Həmin dekretin icra hissəsində deyilirdi: 1.Zaqafqaziya Seyminin



qəbul etdiyi torpaq islahatı haqqında qanunun icrası Müəssislər Məclisi çağırılana qədər dayandırılsın; 2.İndiyədək həm xüsusi, həm də dövlət torpaqlarının tutulması halları aradan qaldırılsın; 3.Torpaq pulu ödənişləri haqqında mə'ruzə təqdim edilsin; 4.Yaxın müddətdə torpaq komitələrinin yenidən qurulması və ya ləğv edilməsi haqqında mə'ruzə təqdim edilsin.[8]

Zaqafqaziya aqrar qanununun ləğv olunması ilə yanaşı Bakı Xalq Komissarları Sovetinin bu vaxtadək Bakı quberniyasına aid edilən torpaq haqqında dekreti də ləğv edildi.[9]

Üçüncü hökumət kabinetinin formalaşmasından sonra ilk çıxışında baş nazir F. Xoyskinin millətin tərəqqisi üçün siyasi və təsərrüfat sərbəstliyinin zəruriliyini qeyd etməsi dövlətin ictimai tərəqqini aqrar məsələnin uğurla həll edilməsi ilə bilavasitə bağlandığını sübut edir. Zəhmətkeşlərin mənafeyinin tə'min edilməsi bəyanatda xüsusi yer tutdu. "Kəndli və fəhlə ünsürlərinin tə'minatı qayğısı hökumətin ən başlıca vəzifəsi olmalıdır... Torpaq kəndliyə havayı verilməlidir".[10] Lakin, mə'lum oldu ki, belə sosial islahatın istiqamətini nəzərdə tutmaq, müvafiq qanunvericiliyin qəbul edilməsindən daha asan imiş.

Bu sahədə, cüzi zaman fərqilə, iki istiqamətdə - parlament komissiyası çərçivəsində və hökumət səviyyəsində iş gedirdi.

Torpaq islahatı haqqında qanun layihəsinin hazırlanması ilə əlaqədar olaraq 1919-cu il fevralın 4-də menşevik-hümmətçi Səməd bəy Ağamalıoğlu başda olmaqla müxtəlif siyasi fraksiyalarının nümayəndələrindən olan 9 nəfərdən ibarət parlament aqrar komissiyası yaradıldı. Onlardan dördü müsavatçı - Mustafa Mahmudov, Məmməd bəy Şeyxzamanov, Murtuz Axundzadə və Nəriman bəy Nərimanbəyov, qalanları-ittihadçı Bəhram bəy Vəzirov, sosialist blokundan İrzabəy Qaraşarov, "Əhrar"dan Hacı Hüseyn Əfəndiyev, "Daşnaksütyun"dan Arşak Malxazyan, "Rus-slavyan cəmiyyəti"ndən Vinoqradov idi.[11] Komissiyanın rəngarəng siyasi

tərkibi qanun layihəsini lap əvvəldən müvəffəqiyyətsizliyə məhkum etmişdi, çünki mə'lum olduğu kimi, yuxarıda adları çəkilən partiyaların aqrar məsələ üzrə vahid nöqteyi-nəzəri yox idi. Ona görə də layihənin alternativ variantına malik olmayan komissiya, Seymin 1918-ci il martın 7-də qəbul olunmuş aqrar qanunun əsasları ilə kifayətlənməli olmuşdu. Həm də komissiyanın sədri S.Ağamalıoğlu vaxtı ilə Seym variantının tərtib olunmasında iştirak etmişdi. Görünür, bu səbəbdən yeni layihə, əvvəlcə qeyd olunduğu kimi dövrün tələbinə cavab verməyib Azərbaycan hökuməti tərəfindən imtina edilən Zaqseym layihəsinin köhnə modelinə bənzəyirdi. Komissiya üzvləri arasında onun işini ləngidən sonsuz müzakirələr kənddə vəziyyətin kəskinləşməsi ilə paralel aparılırdı. O dövrün kütləvi informasiya vasitələrində vaxtaşırı kəndlilərin torpaqları özbaşına zəbt etməsi, mülkədar malikanələrini talan etməsi, qiyamlar etməsi faktlarına təsadüf edilirdi.

Bütün bunlar parlamentdə olduğu kimi, bütövlükdə ölkədə də vəziyyəti kəskinləşdirir və hökumət böhranlarına səbəb olurdu. Qanun layihəsinin müvəffəqiyyətsizliyə məhkum olması, artıq parlament komissiyasının 1919-cu il 23 aprel tarixli iclasında aqrar komissiya üzvlərinin layihənin mühüm bəndlərindən birini müzakirə etməyə cəhd göstərdikləri zaman aydın olmuşdur. Komissiya gündəliyə mülkədar, xüsusi sahibkar və digər torpaqların müsadirəsi və ya ləğv edilməsi məsələsini qoymuşdu. Müxtəlif partiya orqanlarının iclasda iştirak edən nümayəndələri elə o andaca bir-birinə qarşı anlaşılmazlıq və e'timadsızlıq atmosferi yaratdılar. "İttihad" fraksiyası adından çıxış edən Bəhram bəy Vəzirov qeyd etdi ki, onun fraksiyası mülkədar və xüsusi sahibkar torpaqlarının pulla satın alınmasını israr edir. Bitərəflərin bir qrupu da ittihadçılara qoşuldu. Onların fraksiyasının nümayəndəsi, torpaq sahiblərinə dəyən maddi zərəri ödəmək məqsədi ilə xüsusi fondun yaradılması zəruriliyini qeyd etdi. Müsavatçıların sol



cinahı bitərəflərin torpağı satın almaq haqqındakı ideyalarını müdafiə edərək bildirdilər ki, müsadirə məsələsi torpaq sahiblərinin ciddi e'tirazına səbəb olacaq və bu da öz növbəsində aqrar aktyorun dağılmasını stimullaşdıra bilər. "Müsavatın" sol cinahının nümayəndəsi Mustafa Mahmudov partiya yoldaşına sübut etmək istədi ki, o görünür partiyanın proqramı ilə kifayət qədər yaxşı tanış deyil və orada heç bir torpaq pulu haqqında söhbət getmir. Sosialist bloku və hümmətçi menşeviklərin platforması bir idi, torpaq müsadirə edilməli və ödəncsiz olaraq onun həqiqi sahiblərinə - kəndlilərə verilməli idi. Uzun müzakirələrdən sonra sosialistlərin xeyrinə nəticələnən[12] səsvermə keçirilməsinə baxmayaraq, ümumiyyətlə parlament iclasının bu qərarı layihənin sonrakı taleyinə heç bir tə'sir göstərməmişdir.

1919-cu il avqustun sonu-sentyabrın əvvəllərində nəhayət torpaq komissiyası layihə üzərində işini tamamladı. Layihənin əsas tezisləri aşağıdakılardan ibarət idi: 1) respublika ərazisindəki bütün torpaqlar dövlətin mülkiyyətidir; 2) torpaq əvəzsiz olaraq dövlətin ixtiyarına keçir; 3) əvvəlki mülklərinin müəyyən hissəsi aşağıdakı normalar üzrə əsas sahibkarlara onların istifadəsi üçün saxlanılır: 1-ci kateqoriya torpaqlar - 7 desyatin (bağlar və becərilən torpaqlar), 2-ci kateqoriya torpaqlar-15 desyatindən 29 desyatinədək (əkin yerləri); 3-cü kateqoriya - 40 desyatindən 50 desyatinədək (otaqlar). Bütün qalan torpaqlar dövlət torpaq fonduna daxil edilir. Torpaq haqqında qanunun sol variantı Azərbaycan Müəssislər Məclisi tərəfindən təsdiq olunmalı idi.[13]

Lakin layihə olduğu şəkildə də havadan asılı vəziyyətdə qaldı. Yalnız 1919-cu il oktyabrın 2-də həmin layihə müzakirə üçün parlamentin 81-ci iclasının gündəliyinə çıxarıldı. Lakin özünün qanun layihəsi variantını hazırlamış Ziraət nazirinin müavini H. Sultanovun tələbi ilə ona baxılması dayandırıldı. O, qeyd etmişdi ki, "torpaq məsələsi" kimi mürəkkəb bir məsələnin bütün vüs'əti ilə parlament qarşısında qoyulmasından ötrü, Ziraət Nazirliyi torpaq komissiya-

sının köhnə layihəsi ilə yanaşı işin xeyri üçün özünün qanun layihəsini də təqdim etməyi münasib bilir". Buna görə də o, parlament qarşısında məsələ qaldıraraq xahiş etmişdi ki, Nazirliyin qanun layihəsi daxil olanadək bu məsələyə baxılması tə'xirə salınsın.[14]

Məsələ burasındadır ki, yuxarıda göstərildiyi kimi aqrar məsələnin işlənib hazırlanması ilə paralel olaraq nazirliyin xüsusi komissiyası da məşğul idi. Özünün qanun layihəsini işləyib hazırlamazdan əvvəl, Ziraət Nazirliyi komissiyasının işə başlaması məqamınadək aqrar bölmənin vəziyyəti haqqında daha ətraflı təsəvvür əldə etmək məqsədilə, torpaq fondunu ciddi təftiş etmişdir. Bunu, qanun layihəsinə əlavə edilmiş izahat məktubu habelə çoxlu statistik mə"lumatlar da sübut edir (onların əsasında 1-ci cədvəl tərtib edilib).[15]

Aqrar məsələnin həll olunması istiqamətində layihənin hazırlanmasına başlanılana qədər atılan başqa bir addım yenə də Nazirliyin köçürülən ruslar və ermənilərin tərk etdikləri torpaqları, həmçinin yiyələri tərəfindən atılmış xüsusi sahibkar malikanələrini müvəqqəti olaraq dövlətin sərəncamına keçməsindən ibarət idi.

Bunun üçün qəzalarda Ziraət, Daxili işlər və Maliyyə Nazirlikləri nümayəndələrindən ibarət komissiyalar yaradılardı. Həmin torpaqlar komissiya tərəfindən kənd icmalarına və ayrı-ayrı kəndlilərə, yalnız bələləri olmadıqda bu ərazidə yaşamayan kənar şəxslərə icarəyə verilirdi. Məsələn, Ziraət Nazirliyinin sərəncamına uyğun olaraq Muğandan 5 min desyatinlik suvarılan torpaqlar 1919-cu ildə kənd icmalarına bir illiyə satışsız icarəyə verilmişdi.[16] Həm də bu halda icarə haqqı natura ilə ödənilmişdir. Lakin bu təcrübə ümidləri doğrultmadı. Xəzinə gözlənilən gəliri ala bilmədi, həm də kəndlilərin özləri də icarəyə maraqlı deyildilər. Onlar icarə müddətinin azlığı ucbatından torpağı bütün qüvvəsi ilə istifadə edə bilmirdilər. Radikal islahatlar keçirmək lazım idi. Məhz buna görə də 1919-cu il iyunun 6-da Nazirliyin nəzdində aqrar islahatlar şö'bəsi tə'sis edildi[17] və ona tapşırıldı ki, bir ay müddətinə aqrar islahatlar



## AZƏRBAYCAN CÜMHURİYYƏTİ ƏRAZİSİNİN TƏRKİBİ

**(ayrı-ayrı kateqoriyalar üzrə torpaq sahibliyinin bölünməsi)**

desyatinlə (1 des. = 1,0982 ha)

| Quberniyalar | Ərazi | Yararlı torpaq (k/t və meşə üçün) | Yararsız torpaq (şəhərlər, yaşayış məntəqələri və s.) | Nadel torpaqları | Dövlət torpaqları | İcarə kəndli torpaqları | Xüsusi mülkiyyətdə olan 25 des. artıq kəndli torpaqları | Nadel, dövlət, kəndli və xüsusi mülkiyyət torpaqlarının ümumi sahəsi | Meşələr |
|---|---|---|---|---|---|---|---|---|---|
| Bakı | 3.570.235 | 2.590.453 | 979.782 | 1.424.270 | 94.958 | 5.546 | 241.785 | 1.766.559 | 823.894 |
| Gəncə | 4.054.078 | 3.317.923 | 736.155 | 1.400.010 | 43.961 | 35.858 | 544.118 | 2.138.956 | 1.178.967 |
| Zaqatala | 364.793 | 289.566 | 75.226 | 140.865 | 464 | 1.569 | 50.659 | 193.558 | 96.008 |
| Yekun: | 7.989.106 | 6.197.942 | 1.791.198 | 2.965.145 | 139.383 | 42.973 | 836.562 | 4.099.073 | 2.098.869 |

layihəsini bəyənilmək üçün Nazirlər Kabinetinə təqdim etsin.[18] Nazirlikdə işlər kifayət qədər sür'ətlə aparılırdı və artıq 1919-cu ilin avqustunda ziraət nazirinin müavini Hidayət bəy Sultanovun rəhbərliyi altında 2 qanun layihəsi başa çatdırıldı: 1) "Azərbaycan Cümhuriyyəti əhalisinin torpaq tə'minatı haqqında" və 2) "Xüsusi sahibkar meşələrinin dövlətin mülkiyyətinə çevrilməsi haqqında".[19]

Qanun layihələrində qoyulan əsas məsələlər xüsusi sahibkar torpaqlarının əhalinin hansı kateqoriyasından nə qədər və hansı şərtlərlə dövlət torpaq fonduna keçirilməsi haqqındakı məsələlər idi. Bu məsələlərdən birincisini Ziraət Nazirliyi xüsusi sahibkar torpaqlarını, torpağın istismar zamanı verdiyi gəlir qədər əvəzi ödənilməklə özgələşdirilməsi yolu ilə həll etməyi nəzərdə tuturdu.[20] Nazirlik belə hesab edirdi ki, xüsusi sahibkar torpaqlarını əvəzi ödənilmədən müsadirə etmək xüsusi mülkiyyəti ləğv etməyə bərabərdir. Buna görə də qanun layihəsi torpağın əkinçi əhaliyə yalnız istehlak norması üzrə xüsusi mülkiyyətə verilməsini nəzərdə tuturdu.[21] Eyni zamanda sahibin saxladığı sahənin ölçüsü malikanənin özünün, dəyəri və xarakterindən asılı olaraq müəyyən edilirdi. Kəndlərdə əkinçiiik təsərrüfatlarımn sahəsi 100 desyatindən, əkinə yararlı olmayan təsərrüfatlarda 150 desyatindən, şəhər yerlərində isə 5-7 desyatindən artıq olmamalı idi. Özü də bu zaman həyətyanı torpaq sahələri buraya daxil edilmirdi.[22]

Lakin bu qanun layihələrinin də taleyi parlament qanun layihəsinin taleyini təkrar etdi. Azərbaycanda baş vermiş hökumət böhranı onların heç müzakirə olunmasına da imkan vermədi.

Baş nazir Nəsib bəy Usubbəyovun Cümhuriyyətin kifayət qədər radikal dünyagörüşlü daha gənc siyasi xadimlərindən təşkil etdiyi yeni hökumət kabineti özünün yeni aqrar kurs işləyib hazırlamaq əzmində olduğunu bəyan etdi. Ziraət Nazirliyinin işləri sosialist Əhməd-Cövdət bəy Pepinova həvalə edildi. O, ləngimədən qanun



layihəsini təkmilləşdirilmək üçün onun Nazirliyə qaytarılmasını tələb etdi.[23]

1920-ci il martın əvvəllərində Nazirlik "Xüsusi sahibkar torpaqlarının dövlət torpaq fonduna keçirilməsi və Azərbaycan Cümhuriyyəti əhalisinin torpaqla tə'min olunması haqqında qanunun yeni layihəsi[24] üzərində işi başa çatdırıb, onu baxılmaq üçün hökumətə təqdim etdi.

Bu qanun layihəsinin əsasında Azərbaycan sosial-demokratiyası tərəfindən bəyənilən Gürcüstan sosial-demokrat hökumətinin aqrar qanunu dururdu. Bu layihədə əsasən kənd yerlərində olan xüsusi sahibkar hüquqi şəxslərin bütün torpaqları, o cümlədən monastır, vəqf, məscid və kilsə torpaqları, habelə şəhər yerləri hüdudunda olan və şəhər mülkiyyətinə daxil olmayan torpaqlar sahiblərindən alınır və əvəzsiz olaraq dövlət torpaq fonduna verilirdi.[25] Bu zaman mülkiyyəti əlindən alınmış sahibkarlar üçün saxlanılan torpaq sahəsinin ölçüsü kənd yerlərinin becərilmə şəraitinə uyğun olaraq müəyyən edilirdi: a) Mədəni bitki təsərrüfatları üçün 7-10 desyatin; b) taxılçılıq təsərrüfatı üçün 15-20 desyatin; v) maldarlıq təsərrüfatları üçün 40-50 desyatin. Şəhər yerləri üçün bu cür sahənin ölçüsü müvafiq olaraq 1,5-3 desyatin; 3-5 desyatin; 10-12 desyatin müəyyən edilirdi. Sahibkar üçün saxlanılan sahəyə mülk və bağlar da daxil idi.[26]

Sosial-demokratların fəaliyyəti haqqında hesabat parlamentin aqrar komissiyası çərçivəsində ilk dəfə 1919-cu il sentyabrın 25-də Qazax qəzası kəndlilərinin hökumətin torpaq siyasətini müdafiə edən I qurultayının keçirildiyi vaxtda dinlənilmişdi. Qurultayda iştirak edən bolşeviklərlə sosial-demokratlar arasında mübarizə qızışdı. Qurultay bütünlüklə sosial-demokratları müdafiə etdi. Qurultayın qəbul etdiyi qətnamədə deyilirdi: "...Rusiya inqilabının ən böyük nailiyyətlərindən birisi torpağın zəhmətkeşlərə verilməsi şüarı idi. Ona görə də biz parlament və hökumətdən tələb edirik ki, ən yaxın

müddətdə bu məsələni həll etsin və kəndlilərin tələbini yerinə yetirsin".[27]

Beləliklə, parlament komissiyası torpağın əvəzsiz olaraq alınması şüarı israrında davam edirdi. Bu layihənin parlamentə təqdim olunması təəccüb doğurmur. Ölkədə vəziyyət gərginləşmişdi. Hökumət hələ də aqrar qanunun müzakirəsinə başlamamışdı. Bununla belə, bu hədsiz ləngiməni təkcə partiyalar arasında gedən kəskin siyasi mübarizə ilə, bütövlükdə, ölkənin ağır iqtisadi vəziyyəti ilə izah etmək olmaz, hərçənd bu amillər də əsaslı idi. Nəzərə almaq lazımdır ki, bu məsələ həddən ziyadə mürəkkəb məsələdir. Hələ "Müsavat" partiyasının II qurultayının keçirildiyi dövrdə, partiyanın rəhbərliyi öz partiya funksionerləri tərəfindən kəskin tənqid edildiyi vaxtda partiyanın lideri M.Rəsulzadə çox haqlı olaraq göstərmişdi ki, bu məsələdə tələskənlik, eləcə də onu həddən ziyadə uzatmaq eyni dərəcədə mənfi nəticələrə gətirib çıxara bilər.[28] Partiya qurultayı aqrar məsələyə təkrar baxaraq, onun aqrar komissiyada müzakirəyə qoyulması haqqında qətnamə çıxarsa da, əslində bu icra olunmadı. Yalnız, 1920-ci il fevralın 16-da parlamentin növbəti 123-cü iclasında "Müsavat" fraksiyası öz partiyasına aqrar məsələ üzrə qurultayda bəyənilmiş qanun layihəsini təqdim etdi.

"Müsavat" partiyasının qanun layihəsi də xüsusi sahibkar torpaqlarının əvəzsiz olaraq alınıb dövlət torpaq fonduna verilməsini nəzərdə tuturdu. Lakin burada göstərilirdi ki, sahibkarların mülkiyyətində bağ və həyətlər də daxil olmaqla, 25-75 desyatin torpaq saxlanılır; şəhər yerlərində isə onun sahəsi, becərilən bitkilərin xüsusiyyətindən və eləcə də əhalinin torpağa olan ehtiyacından asılı olaraq 5 desyatindən 71,5 desyatinədək məhdudlaşdırılır.[29]

Torpaqların alınması, özəlləşdirilməsi məsələsinə ehtiyatlı münasibət tamamilə düzgün idi. Çünki torpaqların əvəzini əvəzsiz müsadirəsi məsələsi düşünülmüş münasibət tələb edən çox mürəkkəb bir məsələ idi. Unutmaq



olmaz ki, "xüsusi torpaq sahibləri" məfhumu arxasında konkret fiziki şəxslər dururdu və onların taleyi hökuməti maraqlandırmaya bilməzdi. Hökumətin proqramı o dərəcədə çevik qurulmalı idi ki, cəmiyyətin aqrar bölmədə bütün təbəqələrinin marağını maksimum ifadə edə bilsin.

Bu nöqteyi-nəzərdən, sonuncu (sayca dördüncü) qanun layihəsini o dövr üçün əlbəttə ki, tam mükəmməl, daha müasir və sərfəli qanun layihəsi hesab etmək olar.

Göstərilən qanun layihəsinin ciddi öyrənilməyə və müzakirəyə ehtiyacı olduğundan, parlament aqrar komissiyaya təklif etmişdir ki, 10 gün müddətində onu müzakirə etsin.[30] Amma aqrar komissiyanın bu dövrdə fəaliyyəti tamamilə səmərəsiz idi. Hökumət böhranları ilə əlaqədar olaraq bu komissiyanın üzvləri artıq xeyli vaxt idi ki, bir yerə yığışmırdılar və buna görə də onun dəyişilməz sədri Ağamalıoğlu komissiyanın işini bərpa etmək məqsədilə onun tərkibində əlbəttə ki, sosialistlərdən ibarət yeni üzvlərin cəlb edilməsi ilə dəyişikliklər aparılıb möhkəmləndirilməsini təklif etmişdir. Lakin parlament onun təklifini qəbul etmədi, hətta aqrar komissiyanın "Müsavat" partiyasının qanun layihəsini müzakirə etdiyi birinci iş günündə Şəfi bəy Rüstəmbəyov ("Müsavat" partiyasından)[31] komissiyanın sədrinin müavini seçildi. Əlbəttə bu addım komissiyada müsavatçıların mövqeyini gücləndirdi. Ağamalıoğlunun komissiyadakı siyasi qüvvələrin tarazlığını pozmaq cəhdi və Nazirliyin layihəsinin təkrar müzakirəsinə qayıtmaq təklifi uğur qazanmadı və "Müsavat"ın layihəsi komissiyanın işlək əsası kimi saxlanıldı.[32] Komissiyanın işləri Azərbaycana günəş şüaları əvəzinə şimaldan qara buludlar gətirən yaza qədər uzandı. Bu, praktiki olaraq, iqtisadiyyat sahəsindəki işləri dayandırdı. Beləliklə, mövcud aqrar qanun layihələri variantlarından heç biri qanun statusu almadı. Hərçənd, aqrar bölmədəki durğunluq bilavasitə Azərbaycan Xalq Cümhuriyyətinin süqutuna səbəb olamamışdı, amma, eyni zamanda, o,

ölkə iqtisadiyyatındakı böhranlı hadisələrin hamısında əsas katalizatorlardan biri olmuşdur.

Dövlətin maliyyə vəziyyəti də çox ağır idi. Siyasi sabitsizliyin, işsizliyin, manatın dəyərinin aşağı düşməsi ölkə əhalisinin hökumətə inamsızlığını artırdı. Bu məs'uliyyətin bir hissəsi həm də parelamentin üzərinə düşürdü. O isə iqtisadi məsələlərə deyil, əksinə olaraq, sırf siyasi məsələlərə qapılmışdı. Parlament yalnız 4 aylıq işdən sonra dağılmış iqtisadiyyatı bərpa etmək məqsədi ilə bir sıra qanunverici aktlarını həyata keçirməyə başladı. Bu aktlar ilk növbədə kredit, vergi, bank və gömrük sahələrinə aid idi.

Dövlət vergi siyasətinin formalaşmasına yardım edən qanunlar paketi hazırlanmırdı. İlk vaxtlar bu sahədə iş keçmiş Rusiya imperiyasının müvafiq qanunlarına düzəlişlər və əlavələr edilməkdə məhdudlaşırdı, sonralar isə müxtəlif vergilər haqqında ayrı-ayrı qanun layihələri müzakirə olunmuş və qəbul edilmişdi. Təəssüf ki, bu zaman parlament başlıca olaraq ən'ənəvi vergi sistemindən istifadə edirdi və xəzinənin ehtiyaclarımn ödənilməsində dolayı vergilər-inhisar yığımları, kömrük vergiləri və aksizlər mühüm rol oynayırdılar. Bu vergilər zəhmətkeşlərin üzərində ağır bir yük idi. Bütün siyasi partiyalar, o cümlədən "Müsavat", dolayı vergilərin ləğv edilməsi və mütərəqqi gəlir vergisinin tətbiq edilməsini istəsələr də, hökumət və parlament əlavə vəsait əldə etmək məqsədi ilə tez-tez dolayı vergilərə üz tuturdular. 1919-cu ilin əvvəlinədək dövlətin gəliri 600 mln. manat idi ki, bunun da 400 mln. manatı dolayı vergilərin, xüsusilə də, neft məhsullarının payına düşürdü.[33] Hamı ağırlıq mərkəzinin birbaşa vergilərə keçirilməsi zəruriyyətini başa düşsə də, Azərbaycan şəraitində, iqtisadiyyatın əsas özəyini əkinçiliyin təşkil etdiyi bir vəziyyətdə əhalini müstəqil vergilərə cəlb etmək çox çətin məsələ idi. Bunun üçün gəlirlərin yeni minimum həddini müəyyən etmək, bütün vergiyə cəlb etmə dərəcələrini nəzərdən keçirmək lazım idi. Büdcə qanunun olmamasını da nəzərə almaq lazımdır. Bu da dövlət smetasının



bölüşdürülməsinə mənfi tə'sir göstərirdi. Vergi siyasətindəki vəziyyət bir də onunla ağırlaşmışdı ki, yerlərdə vergilərin tə'yin edilməsi və yığılmasına məs'ul orqanlar yox idi, vergiləri qəza rəisləri yığırdılar. Maliyyə Nazirliyi nəzdindəki müvafiq vergi şö'bəsi obyektiv səbəblərə görə bütün vergi növlərini və ölkənin bütün ərazisini əhatə edə bilməmişdi. Buna görə də nə qədər olacağı smetada qabaqcadan dürüst tə'yin edilə bilməyən yığım və inhisarlar şö'bəsini tə'sis etmək məqsədəuyğun hesab edildi.[34] 1919-cu il martın 17-də parlamentin qəbul etdiyi yeni qanun layihəsi yerlərdə vergi yığmaq hüququ, üzvləri zemstvo yığıncaqlarında və icmada seçilən gəlir vergisi üzrə quberniya və qəza idarələrinə verilirdi. Bundan əlavə, iyulun 16-da parlament Maliyyə Nazirliyi nəzdində vergi müfəttişi vəzifəsini tə'sis etdi və ona vergi inspektorlarının fəaliyyətinə nəzarət etmək və vergi məntəqələrini təftiş etmək həvalə olundu.[35] Oktyabrın 20-də "Maliyyə naziri yanında müxtəlif vergilər qoyulması üzrə şikayətlərə baxan ali instinsiya olan Şura haqqmda" daha bir qanun qəbul olundu. Qanuna görə, Şuraya daimi üzvlərdən əlavə məhkəmə və prokurorluq orqanlarının müvəqqəti nümayəndələri və vergi ödəyənlərin nümayəndələri də daxil edilmişdilər.[36]

1919-cu ilin aprelində sonralar dövlət vergi siyasətinin formalaşmasında əsas rol oynamış ən mühüm qanun da Maliyyə Nazirliyindən daxil olmuşdur. Qanun cəmi iki bənddən ibarət olsa da onun böyük əhəmiyyəti var idi, çünki ilk dəfə olaraq bu qanunla kapital vergisinin (o "Ödəniş möhlətinin başqa vaxta keçirilməsi və tarif dərəcəsinin dəyişdirilməsi haqqında qanun" adlanırdı) müstəqil vergilərin qəti tə'yin olunmuş vaxt və tarif dərəcələri müəyyən edilirdi. Kapital vergisi hər 100 manat 30 manat olmaqla ilin başlanğıcında ancaq fevralın 1-dən gec olmayaraq ödənilirdi, gəlir vergisi isə ilin sonunda, gəlirin həcmi aydınlaşdıqdan sonra ödənilirdi.[37] Qanun mayın 15-də qəbul olundu, iyulun 23-də isə parlament öz qanunu ilə gəlirin yaşayış minimumunun

dövlət vergisinə cəlb olunmayan səviyyəsi 1000 rubldan 5000 rubladək artırdı.[38]

Qəbul olunmuş qanunlar dövlətin maliyyə vəziyyətini yaxşılaşdırmaq və vergi sistemini formalaşdırmaqla yanaşı zəhmətkeşlərin maddi vəziyyətini də müəyyən qədər yaxşılaşdırmalı idi.

Bu qanunlarla yanaşı, hökumətin tələbi ilə, parlament dəfələrlə torpaq vergisi, sənət vergisi, spirtli içkilərə, kənd təsərrüfatı məhsullarına, neft məhsullarına qoyulan aksizləri, tərpənməz əmlak vergisi və s. tariflərin artırılmasına əl atırdı. Lakin bu dolayı vergi tariflərinin qəbul edilməsi əks nəticəyə gətirib çıxarırdı, çünki onların qəbul olunması ilə daxili bazarda qiymətlər qalır, inflyasiya artırdı və son hesabda, bu da əhalinin güzəranına pis tə'sir edirdi. Buna görə də, əsas maliyyə məsələlərindən biri də Cümhuriyyətin müstəqil kağız pullarının buraxılması idi.

Təkcə çarizmdən qalan ağır mirasın deyil, həm də kifayət qədər milli maliyyəçi kadrların olmaması gənc dövlətin ağır maliyyə vəziyyətini daha da gərginləşdirərək maliyyə sistemində ciddi böhrana səbəb oldu. Pulun sür'ətli emissiyası hökuməti (Bakı bonu adlanan) yeni pullar kəsmək yolunu tutmağa vadar edirdi. Tədavüldə 4 valyuta var idi. Çar hökuməti tərəfindən kəsilmiş (nikolayevski adlandırılan) rubllar. Müvəqqəti hökumətin kəsdiyi (kerenkilər) pullar, Tiflisdə buraxılmış Zaqafqaziya hökuməti bonları və nəhayət, Bakı bonları. Bütün bu valyutalar qanuni ödəniş vasitəsi olaraq dövriyyədə idilər.

Yaranmış şəraitlə əlaqədar olaraq 1918-ci il sentyabrın 22-də hökumət Bakı bonlarının dövriyyəyə buraxılması haqqında qərar çıxardı. Qərara uyğun olaraq 40 manat (Bakı bonu) I Türkiyə lirəsinə bərabərləşdirilirdi. Başqa pul vahidlərinin dövriyyədən çıxarılması hələ nəzərdə tutulmurdu.

Kağız pullar haqqında bir-birinin ardınca xeyli hökumət fərmanları verilirdi. Bakı bonunun dövriyyəyə daxil edilməsi haqqında birinci hökumət fərmanından üç gün sonra, sentyabrın 25-də hökumət 10, 25 və 50



bon nominal dəyərində daha 30 milyon bon-manat çap etmək haqqında qanun verir və onların kəsilməsi üçün 150.000 manatlıq kredit ayırır. Tezliklə bu pulların həqiqi kominal dəyəri mə'lum oldu və F.Xoyski o dövrdə İstanbulda olan M.Rəsulzadəyə göndərdiyi xüsusi sənəddə bu haqda mə'lumat vermişdi. Baş nazir kursu dəyərləndirərkən 20 manat da aşağı düşmüşdür. Göründüyü kimi hökumətin nəzərdə tutduğu 40 manat kursunu qoruyub saxlamaq mümkün olmamışdı. Növbəti fərman 1918-ci il oktyabrın 26-da verilmişdi. Müxtəlif maliyyə işlərində yerli bonlardan istifadə edilməsi hesabına öz mövqeyini bir qədər möhkəmlədə bilən Maliyyə Nazirliyi əlavə olaraq daha 50 min manat buraxa bilmişdi və bu da öz növbəsində F.Xoyski hökumətinə dövlət qulluqçularının maaşını 100% artırmağa eləcə də xüsusi olaraq Maarif Nazirliyinin ehtiyacları üçün 22 min manat ayırmağa imkan vermişdir. Hökumətin bir sıra tədbirlər görməsinə baxmayaraq, inflyasiya prosesini dayandırmaq mümkün olmamışdır. Vəziyyət bir də onunla çətinləşmişdir ki, qonşu Gürcüstan Azərbaycan hökumətinə təzyiq göstərərək tələb edirdi ki, o, Zaqafqaziya bonları buraxsın. 1918-ci il oktyabrın 28-də Azərbaycan Cümhuriyyəti Nazirlər Şurasının iclasında Gürcüstan hökumətinin xahişi ilə növbəti Zaqafqaziya bonlarının kəsilməsi haqqında məsələ müzakirə olundu. Azərbaycan hökuməti əlavə olaraq daha 80 milyon kağız pul kəsməyə razılıq verdi və bunun əvəzində, tələb etdi ki, onun borcları ödənilsin və eləcə də, bu valyutanın bir hissəsi Cümhuriyyətdə qalsın.[39]

Belə şəraitdə öz xüsusi pulunun yüksək kursunu qoruyub saxlamaq çox çətin idi. Xeyli zəif iqtisadi potensiala malik olan hər iki qonşu respublika sərt maliyyə siyasəti apararaq çalışırdılar ki, ixrac etdikləri mal üçün qoyulan ödəniş pulunu öz valyutaları ilə alsınlar.[40]

Azərbaycan hökuməti uzun müddət buna nail ola bilmədi, hərçənd ki, o mühüm strateji xammala malik idi, lakin hökumət ixrac olunan maldan gələn gəliri müxtəlif valyutalarla almaq məcburiyyətində qalırdı.

Əlbəttə ki, əsas vəzifə inflyasiyanı dayandırmaq idi, lakin iqtisadiyyatın böhranlarla müşayiət olunan o dövrkü vəziyyətində bunu sübut etmək mümkün deyildi. 1919-cu ilin lap əvvəllərində, yanvar ayında maliyyə naziri İ.Y.Protasyev baş nazir F.Xoyskiyə öz izahat məktubunda əvvəlcə 100 manat nominal dəyərində olan bonların dövriyəyə buraxılması və bundan sonra başqa nominalların kəsilməsi zərurətini qeyd edirdi. Bu pulların saxtakarlıqdan qorunması üçün o, təklif edirdi ki, pul kağızı üzərində Baş nazir və baş maliyyəçinin imzaları həkk olunsun. Nazirin pul üzərində saxtakarlıq ehtimalı haqqındakı təşvişi təsadüfi deyildir, belə ki, saxta bon kəsilməsi və onların böyük miqdarda dövriyyədə olması faktı mə'lum idi.

Lakin kağız pulla münasibətdə əsas məsələlərdən biri dövriyyədəki paralellikdən ibarət idi. Bu paralellik getdikcə daha çox bon kəsməyi tələb edən Gürcüstanın daim təzyiqi ilə müşayiət olunurdu. 1920-ci il yanvarın 27-də Azərbaycan hökuməti daha 20 milyon Zaqafqaziya bonu kəsməyə razılıq verərək, Gürcüstan qarşısında şərt qoydu ki, bu kəsilmiş bon son Cənubi Qafqaz kağız pulu olacaq, belə ki, hər bir dövlətin dövriyyədə özünün valyutası olmalıdır. Bununla bərabər xarici işlər naziri Məmməd Yusif Cəfərov hökumətdən əlavə olaraq daha 70 milyon Zaqafqaziya bonu kəsməyi xahiş etmiş və fikrini onunla əsaslandırmışdır ki, 20 milyon Gürcüstan dövlətinin yalnız bir günlük xərclərini ödəyir. M.Y.Cəfərov bu tələbini həm də siyasi motivlə əsaslandıraraq göstərmişdir ki, əks təqdirdə, qonşu Gürcüstan və Ermənistan separat müqavilə bağlaya bilərlər. Az sonra, doğrudan da belə bir müqavilə bağlandı. 1919-cu il fevralın 12-də Gürcüstan və Ermənistan 320 milyon Zaqafqaziya bonu kəsmək haqqında razılığa gəldilər.[41] Azərbaycan hökuməti bu hadisədən ciddi narahat olduğunu bildirdi. İş o yerə çatdı ki, qonşu respublikalarda Bakı bonunu qəbul etmirdilər, amma Ermənistan və Gürcüstanın pulları Azərbaycanda sərbəst işlədilirdi. Dövlətin ərazisində dörd pul vahidinin qeyri-bərabər bazar qiymətilə işlədilməsi və emissiya



hüququndan həddən ziyadə istifadə edilməsi kimi qeyri-normal vəziyyət ölkədə maliyyə iflasına səbəb ola bilərdi.

1919-cu il aprelin 14-də baş nazir N. Usubbəyov özünün parlamentdəki çıxışında göstərirdi ki, pul-maliyyə siyasətini düzgün qurmaq üçün pul kəsilməsi məsələsində mütləq Bakı ilə Tiflis arasındakı paralelliyi aradan qaldırmaq lazımdır. O, belə hesab edirdi ki, əgər Azərbaycan pulunun kursunu ixrac olunan malların köməyi ilə tənzimləmək mümkün olsa, onda əlavə pul kəsməyə ehtiyac qalmayacaq. Dəyər qaldırmaq məqsədilə o, ilkin olaraq təklif edirdi ki, neftin yalnız Azərbaycan puluna satılmasına keçilsin. Əlavə olaraq quyd edək ki, hökumət yalnız 1920-ci ilin yazında bu məsələni müəyyən qədər həll edə bildi. Azərbaycan dəmir yolları nazirinin maliyyə nazirinə mə'lumatında göstərilirdi ki, Maliyyə Nazirliyinin 1920-ci il 22 aprel tarixli qərarına uyğun olaraq, Batuma aparılan neft və neft məhsulları üçün gömrükdən aksiz haqqını ancaq Azərbaycan manatı ilə alırlar.[42]

1919-cu ilin iyulunda Azərbaycan birjasında respublika valyutasının kursu xarici valyutalara münasibətdə aşağıdakı kimi idi:

| | |
|---|---|
| 1000 rubl ("kerenka") | - 1850 manat, |
| 500 rubl ("romanovka") | - 1600 manat, |
| 100 rubl ("romanovka") | - 350 manat, |
| 1 funt sterlinq | - 310-315 manat, |
| 1 dollar | - 250 manat, |
| 1 frank | - 8-10 manat, |
| 1 italyan lirəsi | - 7 manat, |
| 1 iran tüməni | - 125-130 manat, |
| 1 türk qızıl lirəsi | - 390 manat, |
| 1 rus qızıl rublu | - 420 manat, |
| 1 nobel aksiyası | - 16,500 manat[43] |

Sonrakı dövrlərdə inflyasiya gücləndi. Bakı bonunun kursunun funt sterlinqə münasibətdə düşməsi haqqında rəqəmlər mə'lumdur: 1919-cu ilin oktyabrında 1 funt - 525 manat, noyabrın əvvəlində isə 730 manat oldu.[44]

Buna görə də hökumətin maliyyə siyasətində başlıca vəzifəsi emissiyanı dayandırmaq, dövriyyədən pulları çıxarmaq üçün başqa mənbələr və başqa üsullar tapmaqdan ibarət idi. Parlament pul emissiyasını öz nəzarəti altına almağa cəhd göstərdi. 1919-cu ilin aprelində Maliyyə Nazirliyi, emissiya hüququnu 510 milyon manata qədər artırmaq haqqında qanun layihəsi təqdim etdi və bu, parlament üzvlərinin kəskin e'tirazına səbəb oldu.[45] Deputatların bir qismi hökumətə parlamentin icazəsi olmadan pul kəsməyi qadağan etdi. Məsələ əvvəlcə qanun layihəsini parlamentin müzakirəsinə çıxarmaq əleyhinə çıxış edən maliyyə - büdcə komissiyasında müzakirə olundu. Komissiya üzvləri bir məsələdə yekdil idilər ki, pullar tə'yinatı üzrə xərclənmir. Aylıq xərclər 135 milyon manat təşkil edirdi ki, bunun da 60 milyonu neft sənayesini maliyyələşdirməyə, 35 milyonu ingilis komandanlığına, 40 milyonu isə digər dövlət ehtiyaclarına xərclənirdi. Buna görə də xərclərin mütəmadi artması hökuməti çap dəzgahının xidmətindən yararlanmağa məcbur edirdi. 1919-cu il mayın 5-də keçirilən iclasda parlament tələb olunan məbləğdə pul kəsilməsinə icazə verən qanun qəbul etdi və bunu da bildirdi ki, parlamentin sanksiyası olmadan əlavə kağız pul kəsmək olmaz, eyni zamanda Dövlət Bankının təşkil olunmasına baxmayaraq pul kəsilməsinin başlanması haqqında göstəriş verdi.[46] Bundan 7 ay keçdikdən sonra hökumət parlament qarşısında təkrar emissiya haqqında məsələ qaldırdıqda (bu dəfə söhbət 600 milyon manatdan gedirdi) aydın oldu ki, artıq parlamentin razılığı olmadan yüz milyon manat buraxılıb.

Sollar hökumətin maliyyə siyasətini tənqid edirdilər. "Əhrar", "İttihad" və erməni fraksiyası da onlarla həmrə'y oldular. Parlamentin üç iclası bu məsələnin müzakirəsinə həsr olundu. Ə.Qarayevin fikrincə, hökumət təkcə ölkəni iflasa gətirib çıxaran pul kəsmək işi ilə məşğul olurmuş. Maliyyə Nazirliyinin vəzifəsi isə dolayı vergilərin sonsuz sayda artırılmasından ibarət imiş. Ə.Pepinov bildirdi ki, 600 milyon manat 3 aya bəs eləyər, bundan sonra isə



hökumət yenə də pul emissiyası haqqında icazə tələbini irəli sürəcək. Alternativ siyasət kimi, onlar yenə də ticarəti inhisarlaşdırmağı təklif edirdilər.[47]

"İttihad" sosialistlərin ticarəti inhisarlaşdırmaq haqqında mövqeyini müdafiə etdi. A.Malxazyan (erməni fraksiyası) isə xammalın ölkədən sərbəst çıxarılmasını tələb edirdi. Həm sollara, həm də sağlara e'tiraz edən M.Rəsulzadə, pulun əhalidən alınması yollarından biri kimi daxili istiqrazın buraxılmasını təklif etdi.[48] Qarayevin dolayı vergilər barədə məsələ haqqında mövqeyini rədd edən Rəsulzadə bildirdi: "Mən Qarayevə məsləhət görürəm ki, Sovet Rusiyasının maliyyə işlərini yaxşılaşdıra biləcək bir qanun layihəsi hazırlayıb, bu zəhməti üçün onu kifayət qədər mükafatlandıra biləcək Leninə göndərsin".[49]

Dövlətin xərclərini yalnız vergilərlə ödəmək mümkün olmadığı bir şəraitdə nağd pul, sadəcə olaraq çatışmırdı. Onun üçün də qeyri-istehsal xərclərini azaltmaq və yeni gəlir mənbələri axtarıb tapmaq lazım gəlirdi. Ölkənin xarici valyutaya böyük ehtiyacı var idi və onu əldə etmək üçün ixracın həcmini artırmaq lazım idi.

Müzakirələr zamanı maliyyənin sağlamlaşdırılması yolları haqqında müxtəlif mülahizələr ortaya çıxdı. "İttihad" istiqraz buraxılması ideyasını rədd etməsə də, iddia edirdi ki, xalq, hökumətə inanmayaraq, onları almayacaq.

Uzun müzakirələrdən sonra, sosialistlərin və ittihadçıların onun əleyhinə olmasına baxmayaraq 600 milyon emissiya haqqında qanun layihəsi qəbul olundu. Elə həmin iclasda parlament yüksələn gəlir vergisinin artımı haqqında qanun layihəsini rədd etdi və təklif etdi ki, hökumət ticarət-sənaye müəssisələrinin, eləcə də komersiya ilə məşğul olan ayrı-ayrı adamların həqiqi gəlirinin vergiyə cəlb olunması haqqında və yaşayış minimumunun artırılması barədə tə'cili olaraq qanun layihəsi təqdim etsin.[50]

Ümumiyyətlə, parlamentin baxdığı qanun layihəsinin 1/3 hissəsi maliyyə vəziyyətinin möhkəmləndirilməsinə xidmət edirdi. Dövlətin maliyyə siyasətini həyata keçirəcək maliyyə-təsərrüfat aparatı yaratmaqdan ötrü Dövlət Bankı və dövlət əmanət bankları təşkil olunmuşdu.

Bankın tə'sis edilməsi ölkənin iqtisadi-təsərrüfat həyatını möhkəmləndirmək zərurətindən irəli gəlmişdi. Kredit banklarına ümidini itirən əhali əmanətlərini oraya qoymurdu və əhalidə çox böyük məbləğdə dövriyyədən çıxmış pul yığılıb qalmışdı. Bu da əlavə kağız pul kəsilməsi zərurətini doğurur, manatın alıcıhq qabiliyyətinə mənfi tə'sir göstərirdi.

Dövlət Bankının yaradılması zəruriyyətini bütün siyasi fraksiyalar dərk etsələr də, əslində parlament daxilində bə'zi qüvvələr bu qanun layihəsinin keçirilməsini hər vəchlə ləngidir və bu münasibətlərini də sinfi maraqlarla əlaqələndirirdilər. 1919-cu il avqustun 18-də müzakirəyə təqdim olunan qanun layihəsi 1919-cu il avqustun 28-də üçüncü oxunuşdan sonra qəbul olunmuşdu. Azərbaycan Dövlət Bankının məqsədi pul tədavülünün asanlaşdırılması, milli ticarət, sənaye və kənd təsərrüfatına yardım etmək, habelə pul sistemini möhkəmləndirməkdən ibarət idi. İlk vaxtlar bankın əsas kapitalı 500 milyon manata, ehtiyat kapitalı isə 20 milyona bərabər idi. Əsas kapitalı yaratmaq üçün hökumət 50 milyonluq Azərbaycan və Cənubi Qafqaz kağız pulunu bankın ixtiyarına verdi. İndi bank kağız pul kəsmək üçün müstəsna hüquqa malik idi.[51]

Qanuna görə bankın başlıca vəzifəsi emissiyanı yerinə yetirmək, valyuta məsələsini tənzimləmək və özəl banklara nəzarət etməkdən ibarət idi. Banka bankirlər şurası rəhbərlik edirdi. Sentyabrın 18-də Dövlət Bankının nizamnaməsi təsdiq olundu və sentyabrın 30-da onun təntənəli açılışı oldu. Oktyabrın 25-də verilmiş qanunla Gəncə şəhərində Dövlət Bankının şö'bəsi açıldı, hərçənd bank artıq 1919-cu il sentyabrın 1-dən işləyirdi.[52]



Azərbaycan Dövlət Bankının yaradılması ilə bağlı əmanət bankları və xırda-kredit şirkətləri haqqında məsələ də ortaya çıxdı. Əmanət bankları bu vaxta qədər də mövcud idi, lakin faktik olaraq fəaliyyət göstərmirdilər. 1919-cu il oktyabrın axırında parlament 12 mərkəzi və 70 yerli əmanət kassaları və 200-ə qədər xırda kredit müəssisələrinin açılması haqqında qanun layihəsi qəbul etdi.

Parlament 1920-ci il yanvarın 15-də kənd sahibkarlarına, sənətkarlara, sənayeçilərə və onların təşkil etdikləri artellərə, şirkətlərə, inventar, mal-qara, toxum almaqda yardım etmək və onları zəruri pul vasitəsi ilə tə'min etmək üçün kredit haqqmda qanun və xırda kredit tə'sis olunması üçün qayda qəbul etmişdi.

Qanunun qəbul edilməsi ilə Rusiyanın kooperativ birlikləri və onların ittifaqları haqqında qaydalar öz qüvvəsini itirirdi. Bunun əvəzində xırda kredit tə'sis edilirdi. Ssuda verilməsi və əsas kapital artırmaq üçün onlara dövlət xəzinəsindən iki milyon manat pul təxsis edilmişdi.[53]

Azərbaycanda bu dövrdə Dövlət Bankından başqa bir sıra özəl banklar da mövcud idi: məşhur kapitalistlər - həqiqi mülki müşavir Hacı Zeynalabdin Tağıyev, birinci Bakı gildiyası taciri Musa Nağıyev, kommersiya müşaviri Dmitri Vasilyeviç Sirotkin, Həştərxan taciri İvan Fyodoroviç Skripnitski və Həştərxan taciri İvan Matveyeviç Lbovun[54] tə'sis etdikləri Bakı ticarət bankı, Bakı-İran bankı,[55] Tiflis ticarət bankının Bakı filialı,[56] idarə Hey'əti Moskvada yerləşən Birləşmiş bankın filialı və başqaları.[57]

Dövlət Bankının, əmanət banklarının, xırda kredit və digər maliyyə strukturlarının tə'sis edilməsi maliyyə-kredit siyasətini möhkəmləndirdi, pul tədavülü üzərində nəzarəti gücləndirdi.

Lakin milli valyutanın möhkəmləndirilməsi üçün tədbirlər görülməsinə baxmayaraq, onu Azərbaycan ərazisində yeganə ödəniş vasitəsi etmək mümkün olmamışdı. 1920-ci ilin əvvəlində Azərbaycan Cümhuriy-

yətində 269736 rubl dəyərində Ümumrusiya kredit bileti və "kerenki"lər, Zaqafqaziya Komissarlığının 104,436 r. pulu, 746.836 dəyərində müxtəlif marka və nişanla, 28.564.244 manatlıq Bakı bonları tədavüldə idi.[58]

Azərbaycan hökuməti kömrük qanunvericiliyinin yaradılması sahəsində də bir sıra real addımlar atmışdı. Özünün mövcudluğu ərzində parlament kömrük sahəsində 20-dək qanun qəbul etmişdir. Nəticədə 1920-ci ilin əvvəlində respublikada formalaşmış dövlət kömrük xidməti mövcud idi. Bu qanunlara görə, bir sıra sərhəd məntəqələrində kömrük postları təşkil etmək nəzərdə tutulurdu. Parlamentin qərarı ilə 1919-cu il martın 27-də kömrük idarəsi yenidən quruldu. 1919-cu il 23 iyun qanunu ilə Maliyyə Nazirliyinin nəzdində gömrük rüsumu şö'bəsi təşkil edildi. Bu şö'bə gömrük rüsumunu tənzimləməli idi.[59]

Dəfələrlə idxal və ixrac edilən mallar üçün yeni qayda və taariflər müəyyən edən qanunlar qəbul olunmuşdu. Hökumət "kömrük sərhəd xidmətinin təşkil edilməsi haqqında" qanun qəbul etmişdi. Bu qanunda, Azərbaycan Cümhuriyyətini qeyri-leqal ticarətdən qorumaq və qaçaqmalçılıqla mübarizə məqsədilə, Azərbaycanın sərhədlərində kömrük işlərində e'tibar ediləcək yerli əhalidən öz paltarı, silahı və atı ilə ştatdan kənar xidmətçi kimi 992 keşikçidən ibarət 99 sərhəd postunun tə'sis edilməsi nəzərdə tutulurdu. Bütün sərhəd xidmətinin təşkilinə rəhbərlik etmək üçün və onun fəaliyyətinin dövlət kömrük idarəsi ilə uzlaşdırmaq üçün mərkəzi orqan kimi Maliyyə Nazirliyinin xüsusi sərhəd keşiyi şö'bəsi tə'sis edilmişdi. Qanun sərhəd dəstələrinin ştatı və smetasını müəyyən etmişdi.[60]

Hökumət və parlament iqtisadiyyatındakı ağır vəziyyətdən əsas çıxış yollarından birini qonşu ölkələrlə, ilk növbədə istehsal olunan neftin əsas hissəsinin daxil olduğu Sovet Rusiyası ilə xarici ticarət əlaqələrini yaxşılaşdırmaqda görürdü. Bu ölkələrlə əlaqələrin pozulması ona gətirib çıxarmışdı ki, Bakının ambarlarında çoxmilyonlarla ton strateji xammal yığılıb qalmışdı.



Xammalın ilk növbədə neft məhsullarının ixracına qoyulan qadağanların götürülməsinə kəskin ehtiyac yaranmışdı. 1919-cu ilin dekabrında parlament bu məsələni özünün iki iclasında müzakirə edərək "Azərbaycan Cümhuriyyəti ərazisindən xammalın ixracı şərtləri haqqında" qanun layihəsi qəbul etdi.

Parlamentin özündə bu məsələyə iki münasibət mövcud idi. Azad ticarət tərəfdarları ixraca qoyulmuş bütün qadağanların götürülməsini tə'kid edirdilər. Belə olduqda ölkə daxilində mal qıtlığı yarana bilərdi. Ticarət azadlığı verilməsinin ilk nəticələri doğrudan da acınacaqlı oldu: ixrac olunan malların-taxıl, pambıq və s. əvəzində Azərbaycan bazarı heç bir dəyəri olmayan kağız pulla doldurulurdu.

Sosialist fraksiyasının bir hissəsi və "İttihad" ticarət üzərində dövlət inhisarı ideyasını müdafiə edirdilər. Bu qərarın qəbul olunması da ağır nəticələr verə bilər və istehsalı stimullaşdırmadığına görə sənayenin və ticarətin tam tənəzzülünə səbəb ola bilərdi.

Nəticədə parlament azad ticarətlə dövlət ticarəti arasında aralıq mövqe nəzərdə tutan, daha optimal bir qərar qəbul etdi. İxracatçı malın dəyərinin yarısını xarici valyuta ilə ödəməli idi. 1919-cu il dekabrın 11-də qəbul olunmuş qanunla siyahısı ciddi müəyyənləşdirilmiş malların (əsasən kənd təsərrüfatı məhsulları və neft məhsullarının) sərbəst ixracına icazə verildi. Aparılan mallardan - dövlət xəzinəsinə 95 % rüsum ödənilməsi də müəyyən edildi.[61]

Neft və neft sənayesi Azərbaycan iqtisadiyyatının əsas özəyini təşkil edirdi. Məhz neft məsələsində iqtisadiyyat hər şeydən çox siyasət ilə, özü də dünya siyasəti ilə bağlı idi. Mə'lumdur ki, keçən əsrin 90-cı illərindən Rusiya imperiyasında istehsal olunan neftin ümumi həcminin 85 %-i Bakının payına düşmüşdü. Bu rəqəm dünya neft istehsalının təxminən yarısını təşkil edirdi. Birinci dünya müharibəsinin ilk 4 ili ərzində, yəni 1914-cü ildən 1917-ci ilə qədər Bakı ildə 7 milyon ton neft istehsal etmişdi ki, bu da dünyada istehsal olunan

neftin ümumi həcminin 75 %-nə bərabər idi. Müharibə edən bütün ölkələrin Bakı regionuna olan təbii marağı da buradan irəli gəlirdi. 1918-ci ilin yazında XKS Rusiyanın Bakıdakı mənafeyinin müdafiəçisi kimi çıxış edərək özünün 4 aylıq hakimiyyəti ərzində Bakıdan Sovet Rusiyasına 1,3 milyon ton pulsuz neft göndərilmişdi. Birinci dünya müharibəsinin sonlarında Bakının əldən-ələ keçməsi nəticəsində neft sənayesi ciddi itkilərə mə'ruz qalmışdı, neft hasilatı xeyli azalmışdı. Bu, xüsusilə, bolşeviklərin neft sənayesindəki talançı istismarına aiddir. 1918 və 1919-cu illərdə müvafiq olaraq hasil olunan 3,376 min ton və 3,690 min ton neftin ümumi həcmi 1916-cı il hasilatının yalnız yarısına bərabər idi.[62]

Neft sənayesini böhrandan çıxarmaq yolunu tutan Azərbaycan Xalq Cümhuriyyəti hökuməti yarandığı ilk gündən bu sahədə konkret addımlar müəyyənləşdirdi. Azərbaycan parlamenti neft istehsalı və satışını öz nəzarəti altına aldı, bununla bağlı olaraq dəfələrlə hökumətin mə'ruzələrini dinlədi, neft sənayesinin rentabelliyinin yüksəlməsinə yardım edən bir sıra qanunverici sənədlər qəbul etdi.

Bu məqsədlə müxtəlif idarələrdə neft məhsulları ilə bağlı sui istifadə və cinayətləri təhqiq etmək üçün xüsusi təftiş-istintaq komissiyası tə'sis olunmuşdu. 1919-cu il iyulun 27-də qəbul olunmuş qanunla komissiyaya bütün hökumət müəssisələri və vəzifəli şəxslərdən, ictimai təşkilatlardan istənilən zəruri mə'lumatları almaq hüququ, hər bir şəxsin çağırılan zaman gəlməsinin tə'min edilməsi, hər bir şəxsə qarşı cinayət təhqiqatı qaldırmaq hüququ, poçt-teleqraf yazışmasına baxış və zəbt etmə hüququ, təhqiqat müddəti ərzində vəzifədən kənar etmək hüququ nəzərdə tutulurdu. Bütün bunlar həmin məsələnin hökumət üçün strateji əhəmiyyətli olduğunu təsdiq edir. Vaxtilə S.Şaumyan hökuməti Sovet Rusiyasının arzusu naminə neft stansiyasının milliləşdirilməsini e'lan etdiyindən, indi milli hökumətin ilk zəruri addımı 1918-ci il oktyabrın 6-da neft sənayesinin özəlləşdirilməsi



haqqında qərar verməsi oldu. 1918-ci il oktyabrın 7-də hökumətin neft mə'dənləri və zavodlarını, Xəzər ticarət donanması gəmilərini neft firmaları və gəmi sahiblərinə qaytarmağı nəzərdə tutan dekreti nəşr olundu və bununla da hökumət neft sənayesində xüsusi mülkiyyət prinsipini bərpa etdi.[63] 8 günlük iş saatı, müştərək müqavilə və "istehsal üzərində fəhlə nəzarəti" ləğv edildi.

Neft Azərbaycanın ixracatının əsas mənbəyi olduğundan hökumət onun müxtəlif istiqamətlərdə ixracını bərpa etməyə çalışırdı. Mə'lum səbəblərə görə, Rusiya bazarı Cümhuriyyət üçün itirildiyindən bütün diqqəti Azərbaycanı dünya bazarı ilə birləşdirən Bakı-Batum neft kəmərinin işini bərpa etməyə yönəltmək lazım idi. Neft kəmərinin taleyi çox mürəkkəb idi. Onun tikintisinə hələ XIX əsrin sonlarında, 1897-ci ildə başlanmış, 1907-ci ilin iyulunda isə başa çatmışdır. Neft kəmərinin ümumi uzunluğu 830 km idi və onun marşrutu Zaqafqaziya dəmiryolu boyunca keçirdi.

1917 və 1918-ci illərdə neft kəməri üzərində iş aparılması haqqında rast gəlinən müxtəlif mə'lumatlar, mahiyyət e'tibarı ilə məhz həmin neft kəmərinin fəaliyyətinə aid idi. Mə'lumdur ki, ilk başlanğıcda Bakı neft sənayeçiləri onun məhz neft kəməri kimi inşa edilməsinə e'tiraz edirdilər. Uzun və gərgin mübarizədən sonra Zaqafqaziya dəmiryolu idarəsinə yol boyu Bakı-Batum magistral boru xəttini inşa etməyə icazə verilmişdi. Amma bu dəfə kəmərlə ağ neftin ötürülməsi nəzərdə tutulduğundan onun inşasına neft sənayeçiləri e"tiraz etmədilər. Bununla Bakı neft zavodları sahiblərinə Qara dəniz sahillərində rəqiblərin meydana gəlməsi təhlükəsi sovuşmuş olurdu. Bu ağ neft kəməri neft e'maletmə sənayesi mərkəzi kimi Bakının mövqeyini möhkəmlətdi.

Təəssüflər ki, sonralar, məhz 1917-ci il iyulun 1-də ağ neft kəməri qara neft ötürən kəmərə çevrildi.[64] Azərbaycanın müstəqilliyi e'lan olunduğu məqamda neft kəməri işləmirdi. Bakı-Batum marşrutu ilə neft ötürülməsi yalnız 1918-ci il dekabrın 12-də bərpa olundu.

Bunun ardınca, 1918-ci il dekabrın 26-da Azərbaycanla Gürcüstan arasında "Azərbaycan dəmiryolunun Zöyəm stansiyasından Gürcüstan dəmiryolunun Saloğlu stansiyasınadək neft ötürülməsinin müvəqqəti qaydaları" haqqında tranzit müqaviləsi bağlandı.[65] Neft sənayeçiləri ittifaqı yanında neft kəmərinin ehtiyatı üçün firmalar arasında neftin pay bölgüsü siyahısını müəyyən edən xüsusi Şura mövcud idi. Neft sənayesi işlərinin bərpa olunduğu dövrdə Azərbaycanda Bakıda, Biləcəridə, Hacıqabulda, Yevlaxda, Dalmalıoğluda, Gəncədə, Şamaxıda və Ağstafada 25 ambar var idi.[66]

Neftin əsas ötürülməsi Bakı-Batum kəməri ilə həyata keçirilirdi. Neft kəmərinin işlədiyi müddət ərzində Azərbaycan Gürcüstana külli miqdarda neft göndərmişdi. Gürcüstanla Azərbaycan arasında tranzit müqavilənin imzalanmasının hər iki dövlətin həyatında həm siyasi, yəm də böyük iqtisadi əhəmiyyəti var idi. Neftlə zəngin Azərbaycan üçün, birinci növbədə, əhalinin ilkin zəruri ərzaq məhsulları və kağız pula tələbatını tə'min etmək lazım idi. Buna görə də hökumət nefti ərzağa dəyişməyi qərara aldı. Azərbaycan Gürcüstandan neftin əvəzində puldan başqa odun kömürü, lobya, kələm, şəkər, habelə avtomobil şinləri alırdı. Gürcüstanın Azərbaycanı kifayət qədər şəkər və taxılla tə'min edə bilməməsindən Azərbaycan hökuməti uzaq Ukraynaya müraciət etməli olmuşdur və bu dəfə də Gürcüstanın ərazisindən Qara dənizədək tranzit kimi istifadə olunmuşdur.[67] Həmin səbəblərdən də Azərbaycanla İtaliya arasında ticarət münasibətləri meydana gəlməyə başladı. 1920-ci ilin əvvəllərində Bakı-Tiflis dəmiryolu və ardınca Qara dənizə çıxmaqla barter sövdələrinin həyata keçirilməsinə başlanıldı. İtaliya Azərbaycana manufaktura malları, ayaqqabı və sairə gündəlik tələbat mallarım göndərib əvəzində xam neft və xam neft məhsulları alırdı.[68] Tranzit müqaviləyə qayıdaraq qeyd etmək lazımdır ki, o, Gürcüstan üçün çox əlverişli şərtlərlə bağlanmışdı. Belə ki, müqaviləyə görə, neftin Qara dənizədək ötürülməsində Gürcüstan ərazisindən tranzit kimi istifadə edildiyindən neftin bir hissəsini qonşu dövlət müftə alırdı. Neft kəməri ilə Qafqazdakı Britaniya komandanlığına da neft ötürülürdü. Belə ki, yalnız 1918-ci il oktyabrın 1-dən 1919-cu il aprelin 1-dək Bakı stansiyalarından Saloğlu stansiyasınadək (Gürcüstan ərazisi) 6.168.000 pud neft ötürülmüşdü. Bunun 3.220.754 pudu ingilis komandanlığına, 281.160 pudu isü Gürcüstan hökumətinə göndərilmişdir.[69] Neft kəmərinin fəaliyyətinin bərpa edilməsindən sonra isə, yə'ni 1918-ci il dekabrın 12-dən 1919-cu il aprelin 1-dək, Gürcüstan dəmir yoluna 3.882.808 neft verilmişdi.[70] Bu vaxtadək alınmış neftə görə Gürcüstamn Azərbaycana borcu 15.940.364 rubl. 44 qəpiyə çatmışdı.[71] Ümumiyyətlə, yuxarıda göstərildiyi kimi, qara neftin kəmərlə daşınması sərfəli gəlir mənbəyi deyildi. Sözsüz ki, ağ neftin daşınması sərfəli idi. Neft sənayeçiləri ittifaqı Şurasının tələbi və İngilis komandanlığı nümayəndələrinin iştirakı ilə 1919-cu il mayın 20-də Şuranın iclası oldu. Orada neft kəmərinin ilkin funksiyasma - yə'ni ağ neftin daşınması-qayıtması məsələsi xüsusi olaraq müzakirəyə qoyuldu. Bu, həm də kifayət qədər xam neftin varlığını tələb edən çox mürəkkəb bir texniki proses idi. 1919-cu il mayın ortalarında Azərbaycanm ambarlarında 15 milyon pud ağ neft ehtiyatı, 70 milyon pud isə ağ neft e'mal etmək üçün xam neft ehtiyatı var idi.[72] Bu, ağ neft ötürülməsi işlərinin bərpa olunmasına potensial imkanların varlığı demək idi. Təəssüflər olsun ki, Cümhuriyyətin mövcudluğu müddətində bu layihəni axıradək başa çatdırmaq mümkün olmamışdı. Hətta əksinə, bütün neft sənayesində tənəzzül baş vermişdi. Əgər müharibəyə qədərki 1913-cü il göstəricilərin 100 %-ə kimi qəbul etsək, onda 1920-ci ilin rəqəmləri müharibədən əvvəlki rəqəmlərlə müqayisədə belə idi: quyu qazılması - 3,49 %, neft hasilatı -39,18 %, neft e'malı - 34,54 %.[73] Mə'lumdur ki, Azərbaycan üçün Rusiya bazarının itirilməsi neft sənayesindəki böhramn əsas səbəbi idi. Azərbaycan neftinə kəskin ehtiyacı olan Rusiya ilə

iqtisadi münasibətlərin bərpa olunmasını nəzərdə tutaraq, respublikanın iqtisadi yönümünün dəyişilməsini e'lan edən dördüncü hökumətin başçısı edən N.Usubbəyovun cəhdlərinə baxmayaraq, bu dönüşü həyata keçirmək mümkün olmamışdı. Bolşevik Rusiyasımn xarici siyasətinin təcavüzkar, ekspansionist xarakteri Azərbaycana bu dövlətlə normal iqtisadi əlaqələr yaratmağa imkan verməmişdi. Rusiya dövləti işğal yolu ilə Azərbaycan neftinə sahib olmağa üstünlük verdi.

Mövcud olduğu ilk günlərdən Azərbaycan hökuməti zəhmətkeşlərin sosial vəziyyətinə ciddi diqqət yetirirdi. İstehsalın tənəzzülü, neft sənayesinin böhranı, əsas ərzaq məhsullarının qiymətlərinin artması, əmək haqqının aşağı olması fəhlə və qulluqçularm onsuz da ağır olan vəziyyətini daha da ağırlaşdırırdı. Buna görə də, demək olar ki, parlamentin bütün iclaslarında işçi məsələsinə bu və ya digər dərəcədə baxılmışdı. Bolşeviklər və xırda burjua partiyaların liderləri demaqoq şüarlardan istifadə etməklə aldadıcı iqtisadi tələblər irəli sürərək fəhlələri qanuni hökumətə qarşı qızışdırır, onun sosial problemlərin həll edilməsində aciz qaldığını göstərirdilər. Aydındır ki, məhz sosial problemlərin həll olunmaması hökumət böhranları və siyasi partiyalar arasındakı ixtilafların əsas səbəblərindən biri olmuşdur. Hökumət problemin kəskinliyini azaltmaq üçün zəhmətkeş kütlələrin milli dövlət quruculuğu prosesinə cəlb edilməsini, istehsalın aşağı düşməsinin, qiymətlərin və inflyasiyanın artmasının qarşısının almmasını zəruri hesab edirdi. Lakin bu istiqamətdə atılan ilk addımlar gözlənilən nəticəni vermədi. Sosial məsələlərin tənzimlənməsi ilə paralel olaraq həm parlamentin fəhlə komissiyası, həm də Əmək Nazirliyi vasitəsilə hökumət məşğul olurdu.

Hökumətin sosial siyasətdəki əsas vəzifəsi fəhlə qanunvericiliyinin formalaşdırılmasından ibarət idi. Əmək Nazirliyinin tələbi ilə parlament 1919-cu il martın 19-da Nazirliyin nəzdində fəhlə məsələsi üzrə Xüsusi məşvərət şurası yaratmaq haqqında qanun qəbul etdi və bu



məşvərət şurası əməyin mühafizəsi, fəhlə və sahibkarlar arasındakı münasibətlərin tənzimlənməsi məsələləri ilə məşğul olmağa başladı. Məşvərət şurası beş nəfər fəhlə və beş nəfər də sahibkarlardan olmaqla on nəfərdən ibarət idi. Onun əməyin mühafizəsi və zəhmətkeşlərin maddi vəziyyətinin yaxşılaşdırılmasına yönəldilən bütün tədbirlər üzrə qüvvədə olan qanunların icra olunmasına nəzarət etmək hüququ var idi.[74]

Özünün fəaliyyəti müddətində parlament Əmək Nazirliyinin işçi və qulluqçuların maddi vəziyyətinin yaxşılaşdırılması ilə bağlı təqdim etdiyi bir neçə qanun layihəsini qəbul etmişdi. Onların hamısı bu qanunların qəbul olunması ilə bağlı bazarda qiymətlərin yenidən qalxacağı və bunun da zəhmətkeşlərin real yaxşılığa gətirməyəcəyini iddia edən sosialist partiyaları tərəfindən tənqid edilirdi.

Hökumətin dəqiq düşünülmüş sosial siyasətinin olmaması onunla nəticələnirdi ki, qulluqçuların maaşını artıran hökumət tarifləri də artırmağa məcbur olurdu. Digər tərəfdən maaşların artırılması dövlət büdcəsinin kəsirinə səbəb olurdu. Kəsir yerinin doldurulması isə, əsasən, yenə də pul emissiyası hesabına həyata keçirilirdi. 1919-cu il fevralın 4-də də belə olmuşdu. Hökumət parlamentdə dəmiryolu fəhlələrinin maaşınm artırılması haqqında qanunun qəbul olunmasına nail olduqdan cəmi on gün sonra dövlət tariflərinin artırılması haqqında başqa bir qanun layihəsi təqdim etməyə məcbur olmuşdu. Çünki maaşlarm artırılması ilə Azərbaycan dəmiryolunun kəsiri ayda 8 milyon manat təşkil edirdi.[75]

Həmin il oktyabrın 20-də dəmiryol tariflərinin parlamentdə yenidən artırılması müzakirə ediləndə yolun 18 milyonluq mədaxili və 30 milyonluq məxarici şəraitində bu məbləğ artıq ayda 12 milyon rubl təşkil edirdi.

Beləliklə, fəhlə və dövlət qulluqçularının məvacibinin həcminin dəfələrlə qaldırılması haqqında hökumətin qəbul etdiyi qərarlar büdcədə böyük kəsir yaradırdı və bu kəsirin də ödənilməsi tarif normalarının artırılması

və əlavə kağız pulların kəsilməsi hesabına həyata keçirilirdi. Bütün bunlar həm də bahalığa və inflyasiyaya, zəhmətkeşlərin sosial vəziyyətinin pisləşməsinə səbəb olurdu.

1919-cu ilin dekabrında Azərbaycanın dövlət müəssisələrində 39705 nəfər (bunun 60%-i ailəli idi) işləyirdi. Onların saxlanılması xərci ildə 7.889.641 rubl təşkil edirdi. Qeydə alınmış qiymətlərlə subay adama ərzaq üçün ayda 231 rubl 75 qəp., ailəlilər üçün 418 rubl 50 qəpik, hamısına birlikdə ayda 13.650.379 ildə isə 163.804.948 rubl lazım idi. Həmin ərzaq məhsullarının dəyəri 1920-ci il yanvarın birinci yarısında bazar qiymətləri ilə ayda 35.150.038 rubl təşkil edirdi.[76]

Nazirliyin statistika şö'bəsinin mə'lumatına görə, 1919-cu ilin son altı ayı ərzində çörəyin qiyməti 100%, yağın 56%, balığın 150%, yumurtanın 96%, ətin 200% öartmışdır.[77] Beləliklə, göstərilən dövr üçün orta bahalaşma faizi 100% və daha çox idi, əmək haqqı isə cəmi 30% artırılmışdır. Bu fərqi nəzərə alan Ticarət, ərzaq və sənaye Nazirliyi 1920-ci ilin yanvarmda hökumətə problemin həll olunması üçün başqa yol təklif etdi. Nazirlik fəhlə və qulluqçuların çörək, çay, qənd, düyü, bez və s. əsas ərzaq məhsulları və ilkin tələbat malları ilə möhkəm (qəti müəyyən edilmiş) qiymətlərlə tə'min etməyin məqsədəuyğun olduğunu e'tiraf edirdi. Bunun üçün Nazirliyin nəzdində qulluqçuların ərzaqla təchizatını təşkil etməkdən ötrü xüsusi idarə yaratmaq nəzərdə tutulurdu.

Hökumət fəhlə məsələsi üzrə qanun layihələri paketini hazırlayıb müzakirə üçün parlamentə təqdim etmişdir. Lakin bu layihələr uzun müddət deputatların diqqətindən kənarda qalmış və parlamentin ümumi iclaslarına çıxarılmamışdı.

Hökumətin bu çoxsaylı cəhdlərinə baxmayaraq fəhlə məsələsi tam bütövlüyü ilə həll olunmamış, son nəticədə, fəhlə sinfinin özünün vəziyyətini yenidən pisləşdirmişdi.



Siyasi sabitsizlik, daimi xarici təhlükə şəraitində ölkənin iqtisadiyyatında əsaslı dəyişikliklərə nail olmaq çətin idi, hərçənd, o qədər də az iş görülməmişdi. Milli dövlətin başlıca nailiyyəti ondan ibarət idi ki, çoxukladlılıq zəminində yeni iqtisadiyyatın inkişaf modeli qurulmuşdu.

## QEYDLƏR


1. История Азербайджана, т. III, с.4.
2. Отчет IV Всеазербайджанскому съезду Советов. Баку,1925.с.18.
3. 20 лет Азербайджанской ССР. Статистический сборник. Баку, 1940,с.44.
4. Караев А. Г. Из недавнего прошлого. Баку, 1926, с.5.
5. ARDA, f.77, s.1, iş.47, v.43-45.
6. Азербайджан, 1919, 16 апреля.
7. ARDSPİHDA, f.276, s.8. iş.542, v.4.
8. Адрес-календарь, ч.2, с.31.
9. Грузия, 1918, 4 октября.
10. Азербайджан, 1918, 29 декабря.
11. Там же, 1919, 7 февраля.
12. Заря, 1919, 29 апреля.
13. Там же, 12 июля, Знамя труда, 1919, 12 июля.
14. ARDSPİHDA, f.277, s.2, iş.92, v.420-424.
15. ARDTA, f.22, s.1, iş.1793, v.4-17; ARDSPİHDA, f.456, s.10, iş.54, v.25-27.
16. Азербайджан, 1918, 22 ноября.
17. ARDA, f.77, s.1, i.118, v.138.
18. Азербайджан, 1919, 13 июля.
19. ARDA, f.77, s.1, iş.310, v.21.
20. ARDTA, f.22, s.1, iş.1793, v.5.
21. Yenə orada.
22. ARDA, f.2788, s.1, iş.71, v.47.
23. Искра, 1920, 13 января.
24. ARDSPİHDA, f.456, s.10, iş.54, v. 26.
25. Yenə orada.
26. Yenə orada.

27. Агамалиева Н., Худиев Р, Указ. соч, с.66.1. История Азербайджана, т. III, с.4.
28. Азербайджан, 1919, 7 декабря.
29. ARDSPİHDA, f.895, s.3, iş.306, v.2-6.
30. Yenə orada, f.277, s.2, iş.92, v.551.
31. Азербайджан, 1920, 19 февраля.
32. Искра, 1920, 26 февраля.
33. ARDA, f.895, s.1, iş.13, v.201.
34. Вестник правительства, 1919, 22 января.
35. Там же, 2 августа.
36. ARDA, f.895, s.1, iş.161, v.23-24.
37. Вестник правительства, 1919, 22 января.
38. Там же, 19 июля.
39. Азербайджан, 1918, 29 октября.
40. Yeni fikir, 1990, 30 may. Elm, 1991, 25 may.
41. Kərimli Ə. Azərbaycan Demokratik Respublikası öz maliyyə sistemini necə qururdu. Azərbaycan, 1994, 13 may.
42. ARDA, f.90, s.3, iş.4, v.161.
43. Kərimli Ə. Göstərilən məqalə.
44. ARDA, f. 90, s.1, iş. 84, v.103.
45. Yenə orada, f.895, s.1, iş.84, v.4.
46. Yenə orada, f.84, s.1, iş.34, v.8.
47. Азербайджан, 1919, 2 декабря.
48. Там же.
49. Там же.
50. Вестник правительства, 1919, 20 декабря,
51. Там же, 4 октября.
52. ARDA, f.84, s.1, iş.34, v:218.
53. Вестник иравнтельства, 1920, 24 января.
54. ARDA, f.84, s.1, iş.1, v.1-23.
55. Yenə orada, iş.172, v.2-18.
56. Yenə orada. iş.2, v.2-26.
57. Yenə orada. iş.7, v.1-19.
58. Yenə orada, iş.531, v.213.
59. Вестник правительства, 1919, 19 июля.
60. Там же. 13 сентября.
61. Там же.



62. Həsənov C. Birinci dünya müharibəsinin qurtarması ərəfəsində Bakı nefti ətrafında mübarizənin kəskinləşməsi. Azərbaycan neft sənayesinin tarixi üzrə birinci beynəlxalq konfransın əsərləri, Hyuston nəşri, 1996, s.38 (ingilis, rus, Azərbaycan dillərində).
63. Азербайджан, 1918, 7 октября.
64. ARDA, f.90, s.1, iş.82, v.219.
65. Yenə orada, v.234.
66. Yenə orada, v.55.
67. Yenə orada, f.24, s.1, iş. 116, v.1-2.
68. Азербайджан, 1920, 22 января.
69. ARDA, f.90, s.2, iş.3, v.72-73.
70. Yenə orada, v-234.
71. Yenə orada,
72. Yenə orada, v.219.
73. Кадырли А. Из истории развития дореволюционной бакинской нефтеперерабатывающей промышленности. Баку, 1970, с.72.
74. ARDA, f.895, s.1, iş. 13, v.62.
75. Yenə orada, v.126.
76. Yenə orada, f. 894, s.1, iş.69, v.15.
77. Yenə orada, v.14.

# V FƏSİL

## AZƏRBAYCAN SÜLH NÜMAYƏNDƏ HEY'ƏTİ PARİSDƏ

### *§ 1. Versalda Ali Şura tərəfindən Azərbaycanın tanınması*

Azərbaycan Cümhuriyyətinin müstəqil yaşamasının ilk ili inadlı mübarizə və ağır sınaqlarla müşayiət edilirdi. Hökumət çoxsaylı çətinliklərlə bağlı olan daxili problemləri həll etməyə çalışdığı bir vaxtda Azərbaycan diplomatları Parisdə toplanmış qalib dövlətlər tərəfindən tanınma və kömək əldə etmək üçün ağır mübarizə aparırdılar. Azərbaycan parlamenti Paris sülh konfransında iştirak etmək üçün aşağıdakı tərkibdə: Ə.Topçubaşov-sədr, M.H.Hacınski-sədrin müavini, nümayəndə hey'ətinin üzvləri - Ə.A.Şeyxülislamov, Ə.Ağayev və müşavirlər M.Məhərrəmov və C.Hacıbəyovdan ibarət nümayəndə hey'ətini təsdiq etdi.[1] "Avropa və Amerikanın sivil dövlətlərinin ictimai fikrini bu ölkələrin işgüzar dairələrilə ticarət əlaqələri yaradılmasına ən çox kömək edən istiqamətə hazırlamaq" üçün nümayəndə hey'ətinə əlavə səlahiyyətlər verilmişdi.[2] 1919-cu il yanvarın 18-də Azərbaycan hey'əti İstambula yola düşdü. Burada onlar 1919-cu il yanvarın 20-də Parisə getmək üçün viza almalı idilər. İstambula gəldikdən sonra nümayəndə hey'əti 1919-cu ilin aprelinə qədər burada qalmalı oldu, çünki müttəfiq komandanlığı azərbaycanlıların Paris sülh konfransında iştirakına manc olmaq üçün bütün vasitələrə əl atırdı.

İngiltərə-Fransa komandanlığının nümayəndələri Azərbaycan nümayəndə hey'ətinin üzvü Əhməd bəy Ağayevi



"utopizmə qapılmaqda, mətbuatda və parlamentdə Antantaya qarşı çıxışlarda" və s. ittiham edərək həbsə aldılar.[3] Azərbaycan nümayəndə hey'ətinin başçısı Əlimərdan bəy Topçubaşovun Ə.Ağayevi azad etmək üçün göstərdiyi bütün səylər nəticəsiz qaldı. Hətta Bakı və onun rayonlarının general qubernatoru Tomsonun Ə.Ağayevin adına verdiyi e'tibarnamə də nəzərə alınmadı.

Nümayəndə hey'ətinin başçısı Əlimərdan bəy Topçubaşovun İstambuldan göndərdiyi mə'lumatlar onun Parisə getməyə viza almaq üçün böyük əmək sərf etdiyini sübut edirdi. Yalnız mayın ortalarında Azərbaycan diplomatları Fransaya gələ bildilər, bu da onların qarşısında duran məsələlərin həllinə köməyi tə'min etmək üçün lazımi hazırlıq işləri görməyə imkan vermədi.

Lakin artıq 1919-cu il mayın 28-də Azərbaycan nümayəndə hey'əti ABŞ prezidenti V.Vilsonla görüşə bildi. Görüşün nəticələri çox da ümidverici deyildi. ABŞ prezidenti qeyd etdi ki, dünyanın kiçik ərazilərə parçalanmasını sülh konfransı istəmir və Azərbaycan məsələsinə Rusiya məsələsi həll olunduqdan sonra baxıla bilər. Eyni zamanda V. Vilson Azərbaycan nümayəndə hey'ətini əmin edirdi ki, "... bundan sonra Azərbaycan xalqı öz azadlıq və müstəqilliyini qoruyub saxlamaq kimi müqəddəs işində böyük Amerikanın köməyini və yardımını alacaqdır".[4] O, azərbaycanlılara cənubi Qafqaz xalqları konfederasiyası ideyasını müzakirə etməyi məsləhət gördü, Millətlər cəmiyyətinin himayəsinə veriləcək ölkə kimi konfederasiya böyük dövlətlərdən birinin himayəçiliyinə ümid edə bilərdi.[5]

Azərbaycan nümayəndə hey'ətinin başçısı Ə.Topçubaşov Paris sülh konfransına təqdim edilmiş memorandumun surətini ABŞ prezidenti Vilsona təqdim etdi. Sənəd aşağıdakı 3 maddədən ibarət idi:

1. Xüsusi xəritəli vərəqədə sərhədləri göstərilməklə Qafqaz Azərbaycanının müstəqilliyinə dair memorandum;
2. İqtisadi xəritə ilə birlikdə Azərbaycanın iqtisadi vəziyyəti və maliyyəsinə dair memorandum;

3. Etnoqrafik xəritə və diaqramlarla birlikdə Azərbaycan əhalisinin etnik tərkibinə dair memorandum.[6]

Paris konfransının iştirakçılarını respublikadakı siyasi vəziyyətlə tanış etmək üçün Azərbaycan nümayəndə hey'əti böyük işlər görürdü. Məsələn, 1919-cu il mayın 23-ü və 28-də İngiltərə nümayəndəsi A.Mallet və Amerika nümayəndəsi Q.Morqentau ilə görüşlər keçirilmişdi.

Paris sülh konfransmda keçmiş Rusiya imperiyası ərazisində yaranmış bütün müstəqil dövlətlərin nümayəndələri iştirak edirdilər. Bu konfransın gedişində onlar görüşlər keçirir və öz müşahidələri barədə fikir mübadiləsi aparırdılar. Bə'zi məsələlər üzrə onlar eyni tələblərlə çıxış edirdilər.

1919-cu il iyunun 13-də V. Vilson, Lloyd-Corc, B. Klemanso, V. Orlando və baron Makinonun imzası ilə Rusiya ərazisində admiral Kolçakın ali hakimiyyətinin qismən tanınmasına dair sənəd dərc olundu. Bununla əlaqədar olaraq Azərbaycan, Gürcüstan, Latviya, Estoniya, Şimali Qafqaz, Belorusiya və Ukrayna nümayəndələri 1919-cu il iyunun 13-də Paris konfransının sədrinə e'tiraz notası təqdim etdilər.[7]

Parisdə Azərbaycan nümayəndə hey'əti İranla münasibətlər məsələsi üzrə xeyli iş gördü. Mə'lum olduğu kimi, Azərbaycan Xalq Cümhuriyyəti yarandıqdan sonra İran Azərbaycana qarşı ərazi iddiaları irəli sürür və onun İran dövlətinə birləşdirilməsini tələb edirdi.

1919-cu il avqustun 19-da Londonda İngiltərə-İran müqaviləsi bağlandıqdan sonra İran Azərbaycana qarşı ərazi iddialarından əl çəkdi. 1919-cu il noyabrın 1-də Parisdə Azərbaycanla İran arasında Azərbaycanın müstəqilliyinin tanınması haqqında müqavilə bağlandı və iki ölkə arasında diplomatik münasibətlər yaradılmasına dair razılıq əldə edildi.[8] Bu müqavilənin bağlanması beynəlxalq səhnədə Azərbaycan diplomatiyasının böyük qələbəsi idi.

Lakin Azərbaycan nümayəndə hey'ətinin, həmçinin digər yeni yaranmış dövlətlərin nümayəndə hey'ətlərinin



fəaliyyəti onunla mürəkkəbləşirdi ki, Paris sülh konfransında bu dövlətlərin müstəqilliyinin tanınması məsələsi açıq-aşkar ləngidilirdi. Bu məsələnin müzakirəsi konfransın gündəliyində duran "Rusiya məsələsi" ilə əlaqələndirilirdi. Bu da beynəlxalq hüququn subyektləri kimi tanınmasını şübhə altında qoyurdu. 1919-cu il oktyabrın 8-də Azərbaycan, Gürcüstan, Latviya, Litva, Estoniya müstəqil respublikalarının, Şimali Qafqaz dağlıları və Ukraynanın nümayəndələri 1919-cu il 7 iyul tarixli birgə bəyannaməyə əlavə olaraq sülh konfransının sədri Klemansoya məktub göndərdilər. Məktubda bu respublikalara münasibətdə böyük dövlətlərin mövqeyi kəskin şəkildə pislənilirdi. Keçmiş Rusiya imperiyası ərazisində yaranmış siyasi vəziyyətə toxunan məktubda göstərilirdi ki, burada bir tərəfdən "... Rusiya bolşevikləri proletariat və kommunizm diktaturası yaratmağa çalışır, Rusiyanın irticaçı dairələri isə həmin ərazidə özünün hərbi diktaturasını qurmağa və xalqları əsarət altına almaqla keçmiş Rusiyanı bərpa etməyə cəhd göstərirlər".[9]

Yuxarıda göstərilən dövlətlərin nümayəndə hey'ətləri onların beynəlxalq hüququn subyektləri kimi tanınması məsələsinin həllini təxirə salmamağı xahiş edirdilər. Müraciətdə göstərilirdi ki, bu məsələnin həllini qeyri-müəyyən vaxta təxirə salınması müstəqilliyə can atan xalqlar üçün ağır nəticələr verə bilər. Klemansoya göndərilən məktubda Ali Şuranın müzakirəsinə təqdim edilən iki məsələ: "Birincisi - hər bir respublikanın müstəqil dövlət kimi tanınması və ikincisi - ərazi, maliyyə, iqtisadi və digər məsələlərin dərhal müzakirə edilməsi" məsələləri irəli sürülürdü.[10]

Bolşevik təhlükəsi nəticəsində Qafqazda yaranmış vəziyyət Antanta ölkələrini ciddi şəkildə düşünməyə və real praktiki addımlar atmağa məcbur etdi. Qırmızı Ordunun Qafqaza təcavüzünün bütün Yaxın və Orta Şərqi təlatümə gətirməklə bolşevik ideyalarının İranda və Yaxın Şərqdə yayılmasına kömək edəcəyi aydın idi. Bununla əlaqədar olaraq Avropanın bir çox siyasətçiləri Azərbaycan və Gürcüstanın Sovet ekspansiyasına qarşı

çıxmasını tə'min etmək məqsədilə onları müvafiq müdafiə vasitələrilə təchiz etmək və onların müdafiə qabiliyyətini gücləndirməyin zəruriliyi ideyasına tərəfdar çıxırdılar. Lakin müharibədən sonra bərqərar olunmuş beynəlxalq münasibətlərin əksinə olaraq suverenliyi tanınmayan ölkələrin hökumətlərinə yardım göstərmək işi müəyyən çətinliklərlə qarşılaşırdı. Eyni zamanda, bu respublikaların beynəlxalq birlik tərəfindən tanınmasına mane ola biləcək "Vahid və bölünməz Rusiya" ideyası artıq yeni yaranmış şəraitdə öz əhəmiyyətini itirmişdi. Bu ideya tərəfdarlarının ümidləri özünü doğrultmadı. Məhz buna görə də hadisələrin belə sür'ətlə inkişaf etdiyi dövrdə Azərbaycan və Gürcüstanın müstəqilliyinin tanınması təxirəsalınmaz məsələyə çevrildi.

Bu məqsədlə 1920-ci il yanvarın 10-da Böyük Britaniyanın təşəbbüsü ilə Paris sülh konfransı Ali Şurasının sessiyası çağırıldı. Sessiyada İngiltərə, Fransa və İtaliyanın hökumət başçıları və xarici işlər nazirləri, ABŞ və Yaponiya tərəfindən isə onların sülh konfransındakı nümayəndələri və Parisdəki səfirləri iştirak edirdilər. Ked'orsedə keçirilən sessiyada Cənubi Qafqaz respublikaları problemi geniş və hərtərəfli müzakirə edildi.[11]

Qafqazda vəziyyət haqqında ətraflı mə'lumat verən Britaniya baş naziri bolşeviklərin Xəzərə doğru irəlilədiyini, Denikini darmadağın ediləcəyi və Xəzər dənizinin tutulacağı halda onların türklərin köməyinə ümid edə biləcəklərini (burada Türkiyədə başlanmış və M. Kamalın başçılıq etdiyi hərəkat nəzərdə tutulur) qeyd etdi. Bu halda Qafqaz dövlətləri çıxılmaz vəziyyətdə qalacaqları bildirildi. Buna görə də D. Lloyd-Corc bu dövlətlərin silah və hərbi sursatla təchiz olunmasının ən sərfəli variantını işləyib hazırlamağı təklif etdi. Onun təklifilə Ali Şura qərar qəbul etdi. Qərara uyğun olaraq hərbi ekspertlər Qafqaz respublikalarına kömək etmək üçün təkliflər hazırlamalı idilər. Lloyd-Corcun bəyanatını tamamilə müdafiə edən Jorj Klemanso Qafqaz işlərində böyük təcrübəsi olan Britaniya nümayəndələri tərəfindən



"Qafqaz respublikalarına kömək etmək haqqında" memorandum hazırlanmasının zəruriliyini qeyd etdi.[12]

Ali Şuranın gündüz iclası Lloyd-Corc və Klemansonun iştirakı olmadan xarici işlər nazirləri səviyyəsində davam etdirilirdi. İngiltərə xarici işlər naziri Lord Kerzonun təklifilə Qafqaz respublikalarına münasibət probleminin siyasi tərəfləri müzakirə edildi.

Öz çıxışında Kerzon Lloyd-Corcun Azərbaycan və Gürcüstanın müstəqilliyinin tanınması məsələsini Ali Şuranın gündəliyinə salmaq niyyətində olduğunu bildirdi. "Erməni məsələsinə" gəldikdə isə onu "Türkiyə məsələsilə" bir yerdə həll etmək nəzərdə tutulurdu. Xarici işlər nazirləri Azərbaycan və Gürcüstana üçtərəfli təhlükə ilə bağlı eyni fikirdə olduqlarını bildirdilər.[13] Nazirlər, əvvələn, bolşevik Rusiyası qoşunlarının cənuba doğru irəliləməsini, ikincisi, geri çəkilən Denikin qoşunlarının bu respublikalara soxula biləcəyini və üçüncüsü, Rusiya ilə sazişə əsasən bu respublikalara daxil ola biləcək kamalçıları nəzərdə tuturdular. Vəziyyətin böhranlı olması nəticəsində Azərbaycan və Gürcüstan hökumətləri kömək üçün Antanta ölkələrinə müraciət etdilər.

Bu xahişlər barədə Ali Şuraya mə'lumat verən Kerzon Azərbaycan və Gürcüstanın de-fakto dərhal tanınması təklifini irəli sürdü. Versal konfransında yaranmış vəziyyət real fəaliyyət göstərən dövlətlərin tanınması üçün zəruri olan bütün şərtlərin olmasından xəbər verirdi. Yalnız bir təkan lazım idi, bu təkanı isə sülh konfransının nümayəndəsi, Britaniya işlər naziri Lord Kerzon verdi.[14]

Kerzonun fikrincə, Britaniya qoşunlarının Qafqaz hüdudlarına daxil olması Mudros barışığından sonra İngiltərə hökumətinə çox böyük üstünlüklər verirdi. Bir qədər sonra, yanvarın 11-də Lord Kerzonun təklifilə müttəfiqlərin Ali Şurası aşağıdakı məzmunda qərar qəbul etdi: "Müttəfiq və birləşmiş dövlətlər Azərbaycan və Gürcüstan hökumətlərini de-fakto səviyyəsində birgə tanıyırlar".[15]

ABŞ və Yaponiya nümayəndələri bildirdilər ki, Azərbaycan və Gürcüstanın tanınması aktına qoşulmaq üçün onlar öz hökumətlərinin rə'yini öyrənməlidirlər.[16] Az sonra Yaponiya Ali Şuranın 11 yanvar tarixli qərarına qoşuldu. Amerika Birləşmiş Ştatları rəsmi olaraq qərara qoşulmaqdan imtina etdi. ABŞ-ın bu qərarı müxtəlif səbəblərlə izah edilirdi. Məsələn, Amerika hökuməti Qafqazda Böyük Britaniyanın nüfuzunun güclənməsindən qorxurdu. Eyni zamanda sülh konfransının yekun mərhələsində ABŞ və onun Avropa müttəfiqləri arasında ciddi ixtilaflar yaranmışdı. Güman etmək olar ki, ABŞ-ın Azərbaycanın müstəqilliyini tanımaq istəməməsi təkcə İngiltərə-Amerika ziddiyyətlərinin nəticəsi deyildi. Amerika senatının Versal müqaviləsini təsdiq etməməsi, Vilson hökumətinin həyata keçirdiyi geniş beynəlxalq əməkdaşlıq siyasətinin və ümumiyyətlə Vilson siyasətinin bütövlükdə tənqidi ABŞ-ın Qafqaz siyasətinə də öz tə'sirini göstərdi.

Yanvarın 13-də ABŞ-ın Parisdə səfiri Valles İngiltərə və Fransanın Azərbaycan və Gürcüstanın müstəqilliyini de-fakto tanıması və onlara yardım göstərməyə hazırlaşmaları barədə Vaşinqtona mə'lumat verdi.

ABŞ-ın Fransadakı səfirliyinə cavab məktubunda deyilirdi ki, Birləşmiş Ştatlar İngiltərə və Fransanın Qafqaz dövlətlərinə kömək etmək ideyası ilə razılaşsa da, onların müstəqilliyinin tanınmasını Rusiyanın dağılmasının başlanğıcı kimi qiymətləndirir.

Bununla yanaşı, yanvarın 19-da müttəfiqlər tərəfindən Ermənistanın müstəqilliyinin tanınmasını ABŞ heç də Rusiyanın dağılması kimi qiymətləndirmədi. Nəticədə, 1920-ci il aprelin 23-də ABŞ de-fakto olaraq Ermənistanı tanıdı.

Yanvarın 15-də Azərbaycanın və Gürcüstanın nümayəndələri Fransa Xarici İşlər Nazirliyinə də'vət olundular. Azərbaycan (Ə.Topçubaşov və M.Məhərrəmov) və Gürcüstan (İ.Sereteli və Z.Avalov) nümayəndələri Nazirliyin birinci katibi Jül Kambon, İngiltərə nümayəndəsi Filip Kerr və İtaliya nümayəndəsi Markiz de



la Torreta tərəfindən qə'bul edildilər.[17] Jül Kambon Azərbaycanın Ali Şura üzvləri və müttəfiqq dövlətlər tərəfindən de-fakto tanınması haqqında Paris sülh konfransının rəsmi qərarını Ə.Topçubaşova təqdim etdi. Azərbaycan və Gürcüstan nümayəndələrini təbrik edən Kambon bildirdi ki, bundan sonra Azərbaycan və Gürcüstan müstəqil dövlətlər kimi bu və ya digər məsələlərin həllində rəsmi şəkildə Sülh konfransına müraciət edə bilərlər. Bu vaxtdan e'tibarən hər iki ölkə rəsmi şəkildə Ali Şura ilə əlaqəyə girə bilər, həmçinin öz ehtiyaclarınm qeydə alınmasını, qanuni hüquqlarının və konfransmın iclaslarında bərabərhüquqlu üzvlüyünün tə'min olunmasını tələb edə bilər.

Bundan əlavə, Kambon həmçinin bildirdi ki, bu dövlətlərin hökumətlərinin tanınması aktı onların Rusiyadan ayrılması faktının tanınması ilə bir vaxtda baş verməlidir.[18] Sonra Kambon nümayəndələrin xahişi və təkliflərini dinlədi. Azərbaycan Cümhuriyyəti adından çıxış edən Ə.Topçubaşov, Azərbaycanın siyasi quruluşu haqqında qısa mə'lumat verərək qeyd etdi ki, Azərbaycan Cümhuriyyəti böyük dövlətlər tərəfindən həm kömək, həm də özünün de-yure tanınmasım gözləyir.

Yanvarın 15-də Versalda Hərbi ekspertlər Şurası Azərbaycana və Gürcüstana hərbi kömək göstərməklə bağlı məsələləri müzakirə etdi. Şuranın işində iştirak etmək üçün Böyük Britaniyanın hərbi naziri U. Çörçill, Britaniya imperiya ordusu baş qərargahının rəisi feldmarşal Q. Vilson, admirallığın birinci lordu U. Lanq, lord-admiral A. Bitti və başqaları tə'cili olaraq Londondan Parisə gəldilər.[19]

Yanvarın 16-da hərbi ekspertlərin işi davam etdirildi. Hərbi ekspertlərin iclasına J.Klemanso sədrlik edirdi. Bir gün əvvəl Azərbaycan və Gürcüstan nümayəndələrilə cörüşən J.Klemanso, J.Kambondan Qafqazda vəziyyət haqqında mə'lumat verməyi xahiş etdi. Qafqaz respublikalarının müdafiə qabiliyyəti haqqında iclas iştirakçılarına mə'lumat verən J.Kambon qeyd etdi ki, onlar maliyyə, hərbi və digər yardımlara ciddi ehtiyac hiss

edirlər. Lakin J.Kambonun və F.Kerrin mə'lumatları Klemansonu qane etmədi. Qərara alındı ki, Azərbaycan və Gürcüstan nümayəndələrinin iştirakı ilə sabahkı iclası feldmarşal Q.Vilson aparacaqdır.

Yanvarın 17-də Azərbaycan nümayəndələrinin yaşadığı "Klaric" mehmanxanasının binasında Q.Vilsonun sədrliyi altında admiral Bitti, İngiltərə Xarici İşlər Naziriliyinin nümayəndəsi Robert Vansittart həmçinin Azərbaycan və Gürcüstan nümayəndələrinin iştirak etdiyi müşavirə keçirildi.

Müşavirənin əsas məqsədi bolşevik basqını təhlükəsi qarşısında qalan Azərbaycana və Gürcüstana maddi kömək göstərilməsi məsələlərinin aydınlaşdırılması idi. Bununla belə iclasda Qafqaza müttəfiq qoşunların göndərilməsi məsələsi müzakirə edilmədi. Yalnız hərbi sursat və ərzaq məhsulları göndərilməsi çərçivəsində yardım göstərmək məsələsinə toxunuldu. Admiral Bittinin Azərbaycanın xaricdən kömək olmadan Xəzər dənizi sahillərini qorumaq üçün öz hərbi-dəniz qüvvələrini yarada bilməsi sualına Ə.Topçubaşov mənfi cavab verdi.

1920-ci il yanvarın 19-da Paris sülh konfransı Ali Şurasının hökumət başçılarının iştirakı ilə keçirilən iclasında Cənubi Qafqaz respublikaları problemi ətraflı müzakirə edildi. Həmin gün Paris sülh konfransında o dövrün Lloyd-Corc, Klemanso, Nitti, Kambon, Matei, Kerzon, Çörçill, Foş, Bitti, Vilson və digər görkəmli siyasətçilərinin iştirakı ilə keçirilən iclasında Azərbaycan nümayəndələri tam hey'ətdə iştirak edirdi. İclasda Ali Şuranın 10 yanvar tarixli tapşırığına əsasən ingilis nümayəndələri tərəfindən tərtib edilmiş memorandum e'lan olundu. Memorandumda aşağıdakı tələblər nəzərdə tutulurdu:

1. Azərbaycan və Gürcüstanın tanınması (bu tədbir həyata keçirilmişdi),

2. Əvvəllər Denikinə verilmiş və Potidə olan silah və sursatın Azərbaycan, Gürcüstan və Ermənistana verilməsi,



3. Azərbaycan və Gürcüstana əlavə ərzaq, maliyyə və hərbi (silah və geyim) yardım göstərilməsi,

4. Bakının müdafiəsinin möhkəmləndirilməsi üçün əlavə tədbirlərin görülməsi.

5. Xəzər sahillərinin müdafiəsinin tə'min olunması, bolşevik ordusunun Xəzər dənizinə və Xəzər donanmasına buraxılmaması. Denikin dəniz donanmasının müttəfiqlərin ümumi istifadəsinə qaytarılması, mümkün olmadıqda isə onun batırılması.[20]

İclasda müttəfiqlərin hərbi ekspertləri adından mə'ruzə ilə Ferdinand Foş çıxış etdi. Cənubi Qafqaz respublikalarına necə kömək etmək və bu köməyi hansı formada göstərmək məsələsi kəskin mübahisələrə səbəb oldu. Hərbi ekspertlər hey'ətinin başçısı marşal Foş Qafqaza bir neçə diviziya göndərməyi zəruri hesab etdi. Ferdinand Foşla həmrə'y olan feldmarşal Q.Vilson əlavə etdi ki, Britaniya donanması Xəzər dənizində təşəbbüsü öz əlinə almazsa, Qafqazı saxlamaq mümkün olmayacaqdır. Hərbi nazir U. Çörçill Q.Vilsonun fikrilə razılaşdı və bildirdi ki, İngiltərə Xəzər dənizində hökmranlığı ələ keçirməzsə Qafqaza göndərilən bütün silahlar bolşeviklər tərəfindən ələ keçiriləcəkdir.[21]

Hərbi ekspertlərin təkliflərinə qətiyyətlə e'tiraz edən Lloyd-Corc qeyd etdi ki, hərbçilər siyasətdə heç nə başa düşmürlər. "Əgər ordu göndərmədən Qafqazı saxlamaq mümkün deyilsə və göndərilən silahlar itiriləcəksə, deməli, məntiqə əsasən,köməkdən imtina etmək lazımdır. "Hərbçilərin qərarını məhz bu məzmunda başa düşmək gərəkdir?" deyə, Lloyd-Corc marşal Foşa müraciətlə soruşdu. Marşal Foş isə haqlı olaraq hesab edirdi ki, yalnız qoşun göndərməklə Qafqazı bolşevik basqınından xilas etmək olar.[22]

Beləliklə, Klemanso və Çörçill Qafqaza bilavasitə qoşun göndərmək tərəfdarı olduqları halda Lloyd-Corc və Nitti köməyi hərbi sursat göndərməklə məhdudlaşdırmağı nəzərdə tuturdular.

Azərbaycan və Gürcüstana hərbi yardım göstərməyin zəruriliyini qeyd edən Lloyd-Corc, eyni zamanda, bu

respublikalar tərəfindən yardımın səmərəli istifadə edilməsi imkanlarını aydınlaşdırmağa çalışırdı. O, əmin olmaq istəyirdi ki, Denikinə göndərilmiş yardım kimi bu yardım da bolşeviklərin əlinə keçməyəcəkdir. Azərbaycan və Gürcüstan nümayəndələrinə müraciət edən konfransın sədri J.Klemanso onlardan ölkələri üçün hansı təhlükənin olduğunu və Lloyd-Corcun qaldırdığı məsələ ilə bağlı olaraq müttəfiqlərin etdiyi yardımdan səmərəli istifadə edə bilmək imkanlarını xəbər aldı.[23]

Bu suallara cavab almaq üçün Azərbaycan və Gürcüstan nümayəndələrini dinləmək qərara alındı. Əldə olunmuş razılığa görə hər iki nümayəndə hey'əti adından çıxış edən İ.Sereteli Gürcüstan və Azərbaycanın müttəfiqlərin yardımına böyük ehtiyacı olduğunu bildirdi. Klemansonun "Siz qoşun istəyirsinizmi?" sualına cavab olaraq Sereteli bildirdi ki, bu çox yaxşı olardı, çünki bolşeviklər gec-tez Qafqaza soxulacaqlar.[24]

Sonra Lloyd-Corc Azərbaycan silahlı qüvvələri haqqında suallar verdi. Bu barədə mə'lumat verən Azərbaycan nümayəndə hey'ətinin müşaviri M.Məhərrəmov bildirdi ki, lazımi miqdarda silah və sursat olarsa, Azərbaycanda qısa müddətdə orduya 100 min nəfər səfərbər etmək mümkündür. İclasda çıxış edən Ə.Topçubaşov qeyd etdi ki, Azərbaycan Cümhuriyyətinin nə bolşeviklərə, nə də Denikinə qarşı heç bir iddiası yoxdur. Azərbaycan Rusiyasının daxili işlərinə qarışmaq fikrində deyildir. Bununla bərabər o, hesab edirdi ki, hər iki qüvvənin Azərbaycanın müstəqilliyi üçün törətdiyi təhlükədən müdafiə olunmaq üçün bütün imkanlardan, o cümlədən müttəfiqlərin yardımından səmərəli istifadə olunmalıdır.

Əlimərdan bəyin fikrincə, müttəfiqlər İngiltərənin Ənzəlidəki donanmasından istifadə etməklə Bakının müdafiə qabiliyyətini xeyli gücləndirə bilərdilər. Ə.Topçubaşov müttəfiqlərə şimaldan hərəkət edən ordu ilə Qafqaz respublikaları arasında bufer rolu oynayan Dağlı Respublikasını da de-fakto tanımağı təklif edirdi.



İclasa yekun vuran Lloyd-Corc Qafqaz respublikalarına silah, sursat və geyim formasında tə'cili yardım göstərməyi zəruri hesab etdi. Azərbaycana və Gürcüstana qoşun göndərmək məsələsinə toxunan Lloyd-Corc bu addımın qeyri-mümkünlüyünü e'tiraf etdi. Onun fikrincə, Qafqaz respublikaları öz silahlı qüvvələri hesabına öz müdafiə qabiliyyətini, xüsusilə Bakının müdafiə qabiliyyətini, gücləndirməlidirlər.[25]

Lloyd-Corc Dağlı Respublikasını de-fakto tanımaq haqqında Ə. Topçubaşovun irəli sürdüyü təklifi bəyəndi.[26] Nəticədə müzakirə olunan məsələlərlə əlaqədar olaraq Ali Şura Qafqaza aid dörd maddədən ibarət olan qərar qəbul etdi:

1. Ermənistan və Dağıstanın de-fakto tanınması. Bu qərarda Ermənistanın sərhədlərinin müəyyənləşdirilməsi məsələsinə toxunularaq qeyd edilirdi ki, bu məsələyə "Türkiyə məsələsilə" birlikdə baxılacaqdır.
2. Müttəfiq dövlətlərin Qafqaz respublikalarına qoşun göndərmək imkanları yoxdur.
3. Müttəfiqlər Qafqaz respublikalarına silah, döyüş sursatı və ərzaq göndərməklə yardım edəcəklər.
4. Hərbi materialların nədən ibarət olması və onların Qafqaz respublikalarına çatdırılması yollarının dəqiqləşdirilməsilə bağlı məsələlərə baxılması marşal Foş və feldmarşal Vilsondan xahiş edilsin.[27]

Beləliklə, 1920-ci ilin yanvarında Paris sülh konfransında Azərbaycan Cümhuriyyətinin siyasi cəhətdən tanınması Ə.Topçubaşovun rəhbərlik etdiyi Azərbaycan nümayəndələrinin uğurlu diplomatik fəaliyyətlərinin nəticəsi kimi qiymətləndirilməlidir. Böyük çətinliklər və məhrumiyyətlər hesabına qazanılmış qələbə ilə əlaqədar olaraq Ə.Topçubaşov Parisdən Azərbaycan hökumətinin başçısı N.Usubbəyova göndərdiyi məktubunda yazırdı: "Siyasət kimi elastik və dəyişkən heç bir şey yoxdur. Buna görə də onun qabarması və çəkilməsi həmişə gözlənilməzdir. Buna baxmayaraq, hər hansı real bir formada bizim də azad və müstəqil yaşamaq ümidlərimizin möhkəmləndiyi bir dövr başlanır. Biz heç vaxt

ümidimizi itirmirik və hətta keçmiş Rusiyanın bütün xalqları üçün ən ağır günlərdə, bizə əməyimizin əbəs olduğu deyilən günlərdə belə ümidlərimizi itirmirdik. Biz ona görə belə hərəkət edirdik ki, xalqımızın müstəqil yaşaya biləcəyinə, hər hansı yolla müstəqillik qazana biləcəyimizə inanırdıq. Bununla yanaşı biz digər kiçik xalqların ibrətamiz mübarizlərini də unutmuruq. Öz azadlıqlarını əldə etmək üçün bu xalqlar yarım il, bir il yox, on illərlə və daha çox mübarizə aparmış, çoxlu insan və maddi itkilər hesabına arzularına çatmışlar. Belə dəyərli xoşbəxtliyin qarşısında biz heç vaxt geri çəkilməmişik və çəkilməyəcəyik də, çünki biz bu səadətə bərabər olan heç nə tanımırıq".[28]

1920-ci il yanvarın 20-də hökumətin fövqəl'adə iclası keçirildi. Yanvarın 14-də bütün Azərbaycan ərazisində bayram şənlikləri keçiriləcəyi e'lan edildi, respublikanın paytaxtında mitinqlər və nümayişlər, həmçinin Azərbaycan Ordusunun hərbi paradı və Azərbaycan parlamentinin təntənəli iclasının keçirilməsi haqqında qərar qə'bul edildi. Azərbaycanda yanvarın 14-ü istirahət günü e'lan olundu. Həmin gün Cümhuriyyətin Baş naziri N. Usubbəyovun Azərbaycan vətəndaşlarına müraciəti dərc olundu. Müraciətdə deyilirdi: Vətəndaşlar 1918-ci sənənin mayis ayının 28-də Azərbaycan millətinin əzmi qərarı ilə müstəqil e'lan edildi. Şiddətli hadisələr və fəlakətlər içərisində Cümhuriyyət doğmuşdu. Bütün məmləkət canlı ictimai və fəlakətə mə'ruz qalaraq təxrib və təxriş edilməkdə idi. Kəndi müqəddəratı tə'yin etmiş və öz müqəddəs hüququna imal etmiş millət az bir zamanda iğtişaşa xitam verib dövlət əsasını müvəffəqiyyətlə qurdu. Gələcəkdə milli qayə və amalımızın fe'lən icrayə qonulması üçün müşkülata baxmayaraq Azərbaycan öz hissəsinə düşən ağır imtahanlardan şərəflə çıxmağa müvəffəq oldu. Müstəqil həyata və kəndisini idarəyə müqtədir olduğunu göstərən millət kəndi iradəsilə hürr və demokratik yeni Azərbaycan Cümhuriyyətini tə'sis və davamına təntənəli surətdə müvəffəq oldu. Azərbaycan istiqlaliyyəti haqqında böyük müttəfiqlər Şuraya Alisi tərəfindən müttəhimən rə'y qəbul edilmişdir. Azərbaycan bütün hüquqa malik olaraq Qərbin pişrov millətləri ailəsinə daxil olması onun tarixində ən işıqlı bir gündür. Bu gündən e'tibarən ruhən və mə'nən tərəqqi edərək millətin nüvveyi-mənəviyyəsi gün-gündən nəşvü-nüma edəcəyinə şübhə yoxdur. Yenidən nəncv maneə və xatirələr baş versə də hürr və müstəqil məmləkətin səadətini tə'min etmək yolunda bütün vətəndaşların yegvücud olaraq müavintəq və müzahirətdə bulunacaqlarına hökmən iman ediyor. Yaşasın müstəqil Azərbaycan xalqı".[29]

Azərbaycanın müstəqilliyinin tanınması beynəlxalq aləmdə ona marağın artmasına kömək edirdi. Bir çox ölkələr - Belçika, İsveçrə, Hollandiya, Çexiya və Slovakiya Bakıda öz konsulluqlarını açmağa başladılar. İtaliya isə burada öz nümayəndəliyini yaratdı.[30]

Fevral ayında Denikin ordusunun məğlubiyyəti respublikanın dinc nəfəs alması üçün vacib hadisə oldu. Qonşu Gürcüstan və İranla hərtərəfli əməkdaşlıq yaradılması prosesi başlandı. 1920-ci il martın 20-də Azərbaycanla İran arasında sülh və dostluq haqqında müqavilə bağlandı. Müqaviləyə əsasən İran hökuməti Azərbaycanın müstəqilliyini de-yure tanıdı. Tərəflər dostluq və iqtisadi əlaqələrin yaradılması və inkişaf etdirilməsi, həmçinin Tehranda Azərbaycan səfirliyinin, Bakıda isə İran səfirliyinin açılması barədə öhdəliklər götürdülər.[31] Bundan əlavə, həmin gün Azərbaycanla İran arasında gömrük, ticarət, poçt-teleqraf və konsul əlaqələri haqqında saziş imzalandı.[32] Bir qədər sonra Tehranda Azərbaycan səfirliyi açıldı, Təbrizdə isə Azərbaycanın baş konsulluğu fəaliyyət göstərməyə başladı.[33]

1920-ci il aprelin ortalarında Azərbaycan parlamenti Böyük Britaniya, Fransa, İtaliya, ABŞ, İsveçrə, Polşa, Latviya, Litva, Estoniya, Finlandiya, Ukrayna, Rumıniya, Almaniya və Rusiyada diplomatik nümayəndəliklərin yaradılması haqqında qanun qəbul etdi.[34] Türkiyə, Gürcüstan və Ermənistan kimi qonşu ölkələrlə diplomatik

əlaqələr genişləndi. Bu dövrdə Bakıda 20-dən çox ölkənin diplomatik missiyaları fəaliyyət göstərməyə başladı.

Göründüyü kimi, 1920-ci il aprel işğalı ərəfəsində beynəlxalq aləmdə Azərbaycan Cümhuriyyətinin təcrid olunması aradan qaldırılmışdı. Müstəqil Azərbaycanın diplomatik cəhətdən geniş tanınması və hərtərəfli beynəlxalq əlaqələr sisteminə daxil olması prosesi başlanmışdı.

### QEYDLƏR

1. Адрес-календар, с.24
2. ARDA, f. 895, s.1, iş.48, v.56
3. А. Топчубашев. Дипломатические беседы в Стамбуле 1918-1919гг. Баку,1994, с.145.
4. ARDA, f.970, s.1, iş.5, v.7.
5. Светоховский Русский Азербайджан, с.44.
6. ARDA, f.970, s.1, iş.5, v.7.
7. Раевский А. Донесение мусаватской делегации на Парижской мирной конференции. Ваку, 1930, с.64.
8. Həsənov C. "Ağ ləkələr"in qara kölgəsi, Bakı, 1991, s.88-90.
9. ARDA, f.970, s.1, iş.13, v.8.
10. Yenə orada. v.9.
11. Paris peace confrence. Wach, 1947, Vol. IX, p.851.
12. Ibid.
13. Mir-Jacoub. Le probleme du Caucase, Paris. 1933, p.121.
14. Ibid.
15. Paris peace confrence, p.959.
16. Həsənov C. Azərbaycan beynəlxalq münasibətlər sistemində, s.320.
17. Авалов З. Независимость Грузии в междуиародной политике, Париж, 1924, с.241.
18. Mir-Jacoub. Le probleme du Caucase, p.122.
19. Авалов З. Указ.соч, с.243-244.
20. Paris peace confrence, p.903-904.



21. Ibid. p.903
22. Ibid, p.891.
23. Ibid, p.893.
24. Həsənov C. Azərbaycan beynəlxalq münasibətlər sistemində, s.324.
25. Paris peace confrence, p.901-902.
26. Mir-Jacoub. Le probleme du Caucase, p.123.
27. Paris peace confrance, p.902.
28. ARDA, f.970, s.1, iş.146, v.27-28.
29. İstiqlal, 1920, 18 yanvar.
30. ARDA. f.397, s.1, iş.69, v.55-57.
31. Yenə orada, f.894, s.10, iş.128, v.7.
32. Yenə orada, v.27-28.
33. Yenə orada, f.970, s.1, iş.221, v.30.
34. Yenə orada, iş.224, v.4.

# VI FƏSİL

## 1919-CU İLİN SONU - 1920-Cİ İLİN ƏVVƏLLƏRİNDƏ AZƏRBAYCAN XALQ CÜMHURİYYƏTİNDƏ SOSİAL-SİYASİ VƏZİYYƏT

Respublikada iqtisadi və siyasi vəziyyət mürəkkəb olaraq qalmaqda davam edirdi. İri Azərbaycan sənayeçisi H.Z.Tağıyev Azərbaycanın Baş naziri N.Usubbəyova göndərdiyi 1919-cu il iyun tarixli mə'lumat-qeydlərində maliyyə və ticarət-sənaye sahəsində hökumət kursunun qəti şəkildə dəyişdirilməsini təklif edirdi. Onun fikrinə görə, bu, gənc respublika üçün təhlükə törədən fəlakətin qarşısını almağın yeganə mümkün yolu idi.[1]

H.Z.Tağıyev kağız pulların kursunun görünməmiş dərəcədə aşağı düşməsi faktını göstərirdi: Qərbi Avropa bazarlarında milli manat[2] qəpikdən də az qiymətləndirilirdi. Aydındır ki, pulun kursunun aşağı düşməsi qismən hökumət nəzarəti və idarəsindən kənarda olan ümumi səbəblərdən irəli gəlirdi, lakin dünya bazarında pulların qiymətdən düşməsinə gətirib çıxaran bu səbəblərdən əlavə məs'uliyyətin böyük hissəsi dövlət xərclərinin ancaq yeni kağız pulların buraxılması hesabına ödənilməsini də görən dövlət maliyyə siyasətinin üzərinə düşürdü.

Daha sonra H.Z.Tağıyevin qeydlərində hökumətin xarici ticarət siyasətinə dair maraqlı mülahizələr irəli sürülürdü. H.Z.Tağıyev bu siyasəti kəskin tənqid edirdi. O sübut edirdi ki, Azərbaycandan mal aparılmasına qarşı qoyulan qadağalar sistemi xaricdə Azərbaycan valyutasının qiymətdən düşməsinə gətirib çıxarmışdı. Bunun da nəticəsində xarici kapital respublika ilə iqtisadi əlaqələrə maraq göstərmirdi.



Daxili siyasi vəziyyət də mürəkkəbləşirdi. Ölkədə yaranmış siyasi şərait və iqtisadi vəziyyətlə əlaqədar olaraq, 1919-cu il sentyabrın 12-də "Müsavat" partiyasının parlament fraksiyası hökumətə e'timad məsələsini irəli sürdü: son nəticədə, Hökumətə e'timad məsələsinə dair səsvermə zamanı partiya bitərəf mövqe tutdu. "Əhrar" və "İttihad" fraksiyaları isə hökumətə e'timad göstərmədiklərini açıq şəkildə e'lan etdilər.

Artıq parlament açıldıqdan bir neçə gün sonra Ə.Şeyxülislamov tərəfindən yazılmış bəyanatla çıxış edən "Hümmət" partiyasının fraksiyası bildirdi ki, yeni yaradılmış respublikalar öz müqəddəratını tə'yinetmə prinsipinə uyğun olaraq müstəqillik əldə etmiş və yaranan dövlətlərin hökumətlərində sosialistlərin iştirakı zəruriliyini qəbul etmişlər. Sosialistlər N.Usubbəyovun hökumətini bir sıra demokratik xarakterli tədbirləri, o cümlədən zemstvo idarəçiliyini, həyata keçirə bilməməsində günahlandırırdılar. Buna görə də sosialistlər də hökumətə e'timad etmədiklərini bildirdilər.

Koalisyon hökumətə e'timad barədə sorğunun nəticələri göstərdi ki, hökumətdə partiyalar arasında blok yoxdur və hökumət təsadüfi çoxluğa arxalanır.

1919-cu il sentyabrın 13-də Nazirlər Şurasının sədri N.Usubbəyov məktubla parlament sədrinə müraciət etdi. O, bu məktubda göstərirdi ki, koalisiyaya girdiyi partiyalarla hökumətə e'timadsızlıq bildirən sosialistlər arasında dərin ixtilaflar meydana çıxdığına görə bundan sonra özünün baş nazir vəzifəsində qalmasını mümkünsüz hesab edir.

Bu vəziyyətin xüsusiyyəti, bütövlükdə hökumətin deyil, yalnız Baş Nazirin iste'faya getməsindən ibarət idi. Rusiya ilə iqtisadi əlaqələrin, xüsusilə neft sənayesində böhranı dərinləşdirən, işsizliyin artmasına və fəhlələrin vəziyyətinin daha da pisləşməsinə səbəb olan neftin şimala göndərilməsi məsələsinin və aqrar məsələnin həll edilməsini bu iste'fanın əsas səbəbləri hesab etmək olar. Müxtəlif siyasi partiyalar arasındakı ziddiyyətlər koalisyon hökumət yaratmaq imkanını məhdudlaşdırırdı. Buna görə də hökumət böhranı uzun sürən xarakter aldı və

sentyabrın ortalarından dekabrın sonlarına qədər davam etdi.

Heç bir partiya məs'uliyyəti öz üzərinə götürü koalisyon hökumət yaratmağa cəsarət etmirdi. Eyni vaxtda parlament və bütün nazirliklər fəaliyyət göstərməkdə davam edirdilər. Göstərilən dövr ərzində respublikanın siyasi həyatında bir sıra mühüm hadisələr baş verdi. Bunlardan biri 1919-cu il sentyabrm 25-də Qazaxda açılan və hökumətin aqrar siyasətini müzakirə edən Qazax qəzası kəndlilərinin I qurultayı idi. Qurultayda bolşeviklərlə sosial-demokratlar arasında kəskin mübarizə başlandı. Bu qəzada nüfuzu zəif olan müsavatçılar qurultaya gəlmədilər.

Sosial-demokratlar özlərinin parlament aqrar komissiyasında həyata keçirdikləri aqrar siyasətin şərhilə çıxış etdilər. Özlərinin aqrar proqramını təqdim etməyən bolşeviklər yalnız sosialistləri tənqid etməklə kifayətləndilər. Kəndli qurultayı sosial-demokratları müdafiə etdi. Qurultayın qəbul etdiyi qətnamədə deyilirdi: "... Torpağın zəhmətkeşlərə verilməsi şüarı Rusiya inqilabının ən iri nailiyyətlərindən biri idi. Buna görə də biz parlamentdən və hökumətdən ən qısa vaxt ərzində bu məsələni həll etməyi və kəndlilərin tələblərini yerinə yetirməyi tələb edirik".[3]

Aqrar məsələ "Müsavat" partiyasının 1919-cu il dekabrın 12-də keçirilmiş II qurultayında da diqqət mərkəzində dururdu. Qurultayda partiyanın 140 nümayəndəsi və başqa siyasi partiyalarm nümayəndələri iştirak edirdilər. Qurultayı "Müsavat" partiyası MK-nın sədri M.Rəsulzadə açdı. M.Rəsulzadə öz hesabat mə'ruzəsində qurultayın açılması ərəfəsində Azərbaycanda yaranmış siyasi vəziyyəti şərh etdi və I qurultaydan sonrakı dövr ərzində partiyanın fəaliyyəti haqqında danışdı. O, partiya üzvlərinin Azərbaycanın müstəqilliyini qorumaq sə'ylərini xüsusi vurğuladı və bütün türk xalqları ilə həmrə'y olduğunu e'lan etdi.[4] Öz partiyasının siyasi platformasından danışan M.Rəsulzadə e'tiraf etdi ki, belə qısa vaxt ərzində aqrar məsələni həll etmək mümkün deyildi,



lakin hökumət parlamentə "Müsavat" fraksiyası tərəfindən müdafiə edilən geniş qanun-layihəsi təqdim etmişdir.

Sədrin mə'ruzəsi ciddi müzakirələrə səbəb oldu. Ondan sonra çıxış edən partiya üzvləri aqrar və fəhlə məsələləri üzrə partiya siyasətinin kifayət qədər öz əksini tapmadığı hesabat mə'ruzəsini tənqid etdilər. O da xüsusi qeyd olundu ki, hökumət bu sahədə hələ də ciddi bir qərar qəbul etməmişdir.

Hökumətin aqrar siyasətinin əsasını təşkil edən "Müsavat" partiyası aqrar proqramının heç bir maddəsi həyata keçirilməmişdi. Buna görə də çıxış edənlər öz partiya yoldaşlarından Azərbaycanda vəziyyəti yaxşılaşdırmaq üçün hökumət orqanlarında öz fəaliyyətlərini gücləndirməyi tələb edirdilər. Partiyanın liderlərindən biri olan Mirzəbala Məmmədzadə aqrar siyasət sahəsində parlamentin fəaliyyətini tənqid edərək göstərirdi ki, "... əksəriyyəti müsavatçılar olan və öz bəyanatında bəylərlə kəndlilər arasındakı bütün münaqişələri aradan qaldıracağını və'd etmiş hökumət öz və'dini yerinə yetirmədi".[5] Mirzəbala Məmmədzadə bəylərin kəndlilərlə vəhşicəsinə davranışı haqqında çoxlu faktlar göstərirdi. "Müsavat" partiyası aqrar məsələ tam həll edilənə qədər torpağın bəylərin əlində saxlanmasını zəruri hesab etdiyinə görə o, heç olmazsa bəylərin kəndlilərdən vergi toplamasmı dayandırmağı təklif edirdi.[6]

Öz opponentlərinin tənqidinə cavab verən M.Rəsulzadə dedi: "Əgər indiyə qədər hökumət və parlament aqrar məsələni həll edə bilməmişsə, onda heç bir vəsaitə malik olmayan partiya bu işin öhdəsindən gələ bilməzdi".[7]

Hesabat mə'ruzəsində aqrar məsələ öz ciddi əksini tapmadığına görə nümayəndələrin tələbi ilə qurultay yenidən partiyanın aqrar proqramınm müzakirəsinə qayıtdı. 1919-cu il dekabrın 8-də partiya qurultayının 4-cü iclası tamamilə aqrar məsələnin müzakirəsinə həsr olundu və dörd saatlıq müzakirələrdən sonra aqrar komissiyamn təklifi ilə qətnamə qəbul etdi:

"1. Xəzinəyə, keçmiş çar ailəsinə, həmçinin mülkədarlara və xüsusi sahibkarlara məxsus olan torpaqlar əvəzsiz olaraq onların əlindən alınır və zəhmətkeş kəndlilər arasında bölüşdürülür;

2. Torpaqların zəhmətkeşlərə verilməsilə əlaqədar olaraq suvarma qurğuları və motorlar alınır və onların dəyəri varlı sinfin üzərinə qoyulan gəlir vergisi hesabına yaranan fonddan ödənilir".[8] Aqrar məsələnin qalan maddələri II qurultayda dəyişiklik edilmədən qəbul edildi və əvvəlki şəkildə qaldı.

Öz hesabat mə'ruzəsində fəhlə məsələsindən danışan M.Rəsulzadə qeyd etdi ki, partiya müəssisələrin milliləşdirilməsinin tərəfdarı deyil və Partiyanın Mərkəzi Komitəsi hökumətə ciddi kömək göstərməklə fəhlə məsələsi üzrə mümkün olan hər şeyi etmişdir.[9] Çıxış edənlər fəhlələrin və onların ailələrinin yaşadığı ağır şəraitdən, onların çoxunun evlərinin olmaması və baraklarda yaşamalarından danışdılar. Qurultayda çıxış edən "Müsavat" partiyasının üzvü Cəfər Cabbarzadə (məşhur Azərbaycan dramaturqu Cəfər Cabbarlı) qeyd edirdi ki, partiya proqramında siyasi məsələlərdən başqa iqtisadi məsələlər də var və bu sahədə partiya heç bir iş görməmişdir. O göstərirdi ki, öz proqramını həyata keçirmək üçün hər bir partiya hökuməti ələ keçirməyə çalışır, bizim partiya da Azərbaycanda hakimiyyəti ələ keçirəndən sonra öz partiya məqsədlərini unutdu.[10] Fəhlə məsələsi üzrə müzakirələrdə çıxış edən bütün nümayəndələr fəhlələrin sosial-iqtisadi vəziyyətini yaxşılaşdırmaq üçün partiya rəhbərliyindən tə'cili tədbirlər görməyi tələb etdilər. Qurultayda böyük nitqlə çıxış edən partiya üzvü Cavad Məlik-Yeganov fəhlə məsələsi üzrə partiyanın fəaliyyətini kəskin şəkildə tənqid etdi. Müstəqil Azərbaycan dövlətinin yaradılmasında və onun ərazi bütövlüyünün qorunmasında Azərbaycan fəhlələrinin rolunu qeyd edən natiq bildirdi ki, "...vətənpərvərlik nümayiş etdirən fəhlələrə heç də yaxşı şərait yaradılmayıb. Buna baxmayaraq fəhlələr "Müsavat"ın



arxasınca gedir və inanırdılar ki, bu partiya onların iqtisadi vəziyyətini yaxşılaşdıracaqdır".[11]

II qurultay həmçinin Denikin hücum təhlükəsi barəsində qətnamə qəbul etdi və ağqvardiyaçı Denikin ordusunu dəf etmək üçün Azərbaycan xalqını öz hökuməti ətrafında birləşməyə çağırdı.

1919-cu il dekabrın 11-də "Müsavat" partiyasının II qurultayı öz işini başa çatdırdı. Partiyanın aşağıdakı hey'ətdə Mərkəzi Komitəsi seçildi: M.Rəsulzadə - partiya MK-nın sədri, partiya MK-nın üzvləri: Həsən bəy Ağayev, Məmməd Həsən Hacınski, Şəfi bəy Rüstəmbəyov, Mehdi bəy Hacınski.[12]

Partiyanın II qurultayı Azərbaycanda yaranmış mürəkkəb sosial-iqtisadi və siyasi vəziyyət şəraitində keçirdi. Buna baxmayaraq, qurultay Azərbaycan əhalisinin əsas təbəqələrini öz ətrafında birləşdirə bildi və respublikanın müstəqilliyini möhkəmləndirməyə çağırdı. Respublikanın daxili-siyasi həyatına aid olan sosial-iqtisadi və siyasi məsələlərdən başqa, qurultay Qafqaz xalqları konfederasiyasının yaradılması məsələsinə xüsusi diqqət verdi və Qafqaz respublikalarının azad Qafqaz konfederasiyası ittifaqında birləşməsi prinsipini məqsədəuyğun hesab etdi, bütün Qafqaz demokratiyasını, həmçinin qonşu respublikaların hökumətlərini bu amalı həyata keçirməyə çağırdı.[13]

Hakimiyyət böhranının davam etməsinə baxmayaraq, hökumət və parlament vətəndaşların hüquq və azadlıqlarının real müdafiəsi istiqamətində əhəmiyyətli addımlar atırdı. 1919-cu il oktyabrın 30-da parlament tərəfindən qəbul edilmiş Mətbuat haqqında nizamnamə məhz bu məqsədə xidmət edirdi. Oktyabrın 23-də nizamnamə layihəsi parlamentin iclasında müzakirə edildi və dərhal sosialistlərin simasında müxalifətlə toqquşdu. Sosialistlərin əsas tənqid hədəfi layihənin mətbuat orqanlarının açılması şərtləri haqqında maddəsi oldu. Bu maddə yerli hakimiyyət tərəfindən naşirin səlahiyyətlərini yoxlamağı nəzərdə tuturdu. Layihəni mətbuat nizamnaməsi deyil, "buruntaq" adlandıran sosialist fraksiyası mətbuat azad-

lığına zidd olduğuna görə ümumiyyətlə mətbuat haqqında qanun qəbul edilməsinə qarşı çıxdı.[14] Layihənin birinci oxunuşunda digər fraksiyalar - "Əhrar", "İttihad" və bitərəflərin bir hissəsi sosialistləri müdafiə etdilər. Nizamnamənin əcnəbi təbəələrə mətbu orqanları buraxmağı qadağan edən maddəsi daha kəskin mübahisələrə səbəb oldu. Nizamnamənin bu maddəsinə qarşı çıxan sosialistlər sırf partiya mənafeyindən çıxış edirdilər.

Əslində senzuranın, demək olar ki, olmamasından istifadə edən Azərbaycan dövlətçiliyinin düşmənləri özlərinin "İskra", "Znamя truda", "Trudovoe znamя", "Vpered" və bir başqa mətbuat orqanlarının səhifələrində öz ideyalarını açıq şəkildə təbliğ edirdilər.

Qanun layihəsini, baş nazirin özündən başqa, "Müsavat" partiyasının üzvləri M.Rüstəmbəyov, M.Rəsulzadə, K.Kazımzadə, Y.Əhmədov müdafiə etdilər.

Opponentlərin ümumi fikrini ifadə edən Ə.Pepinov, S.Ağamalıoğlunun ardınca çıxış edərək, nizamnamədəki məhdudlaşdırıcı tədbirlər haqqındakı maddələri çıxarmaqla onu yenidən işlənmək üçün komissiyaya qaytarmağa təklif etdi.[15] Səsvermə zamanı 27 səsə qarşı 39 səslə sosialistlərin qətnaməsi keçsə də, qanun layihəsini qəbul etməyin tərəfdarları əlavə səsvermə keçirə bildilər və o ilkin variantda qəbul edildi.

Ciddi müzakirələrdən sonra qəbul edilən "Mətbuat haqqında Nizamnamə" bir sıra nöqsanlarına baxmayaraq demokratik və azad mətbuatm inkişafı üçün real imkanlar açırdı. Nizamnaməyə görə, mətbu orqanlarm açılması üçün hökumətin razılığı tələb olunmurdu. Həddi-buluğa çatmış və məhkum olunmamış hər bir savadlı Azərbaycan vətəndaşı mətbu orqan aça bilərdi. Bu orqan yalnız məhkəmənin qərarı əsasında və cinayət törətdiyi halda məs'uliyyətə cəlb oluna bilərdi.[16] Axırıncı müddəa əslində mətbuat üzərində senzuranın ləğv edilməsi demək idi. Bu qanunun qəbul edilməsi söz azadlığı sahəsində Azərbaycanı qabaqcıl dünya ölkələrilə bir sıraya qoyurdu. Onu da qeyd etməliyik ki, Azərbaycan Xalq Cümhuriyyəti dövründə qəbul olunmuş



bu nizamnamənin ümumi ruhu, kütləvi informasiya vasitələri haqqında müasir təsəvvürlərə və normalara tam uyğundur.

Bununla bərabər, yeni hökumətin formalaşdırılması prosesi davam edirdi və bu iş yenə N.Usubbəyova həvalə edilmişdi. O, partiyaların nümayəndələri ilə danışıqlar aparırdı. Yaranmış vəziyyət koalisiyanın indi digər qüvvələrdən ibarət olacağını göstərirdi. N.Usubbəyov tərəfindən tənqid edilən namizədlər siyahısından görünürdü ki, o, "Müsavat"dan sonra ən böyük parlament fraksiyasına malik olan "İttihad" partiyasının nümayəndələrini hökumətə cəlb edirdi. İttihadçıların hökumətə cəlb edilməsi təsadüfi xarakter daşımırdı. Nazirlər kabinetində əksəriyyət təşkil edən Müsavat partiyası üzvləri indiyə qədər onlara müxalifətdə olan digər siyasi qüvvədən istifadə etməyə çalışırdı.

"İttihad" yeni hökumətin "Müsavat", "İttihad" və bitərəflər bloku əsasında formalaşdırılmasını təklif edirdi.[17]

Lakin "Müsavat" iri burjuaziyanm nümayəndələri olan bitərəflərlə ümumi dil tapa bildi və 1919-cu il oktyabrm 23-də onlar "Müsavat və bitərəflər" adı altında bir fraksiyada birləşdilər.[18] Bu birləşmə, müsavatçıların mövqeyini gücləndirdi və "İttihad" əslində oyundan kənarda qaldı. Kabinetin tərkibi məsələsi təkrar müzakirə edildikdən sonra "İttihad" daxili və xarici siyasətdə "Müsavatın" taktikası ilə özünün prinsipial ixtilaflarını nəzərə alaraq, yeni hökumətin tərkibinə daxil olmamağı qərara aldı. Eyni zamanda, N.Usubbəyovu bitərəf hökumət yaratmağa qadir olmayan məhdud partiya lideri hesab edən "İttihad" onun təşkil etdiyi hər cür hökumətə e'timadsızlıq bildirmək haqqında qərar qəbul etdi.

Sosialistlər də hökumətə daxil olmaq təklifini rədd etdilər, lakin bu qərar qəti deyildi və onlar tələblərinin yerinə yetiriləcəyi halda hökumətə daxil olmaq imkanını istisna etmirdilər.

Bu tələblər aşağıdakılardan ibarət idi:

1. Denikinə qarşı mübarizə aparan dağlı xalqlarına fəal kömək göstərmək;

2. Qonşu respublikalar arasında bütün mübahisəli məsələləri həll etmək;

3. Fəhlə təşkilatlarının tə'qib edilməsini dayandırmaq və siyasi motivlərə görə həbs olunanları azad etmək;

4. Ölkədə mövcud olan qanunsuzluqların, özbaşınalıqların və siyasi hüquqların məhdudlaşdırılmasının qarşısını almaq;

5. Torpağın dərhal kəndlilərə verilməsini dekretləşdirmək, məsələ tam həll edilənə qədər bütün torpaq icarə müqavilələrini ləğv etmək və torpaqları kəndlilərdə saxlamaq;

6. Ərzaq məsələsini nizama salmaq üçün qəti tədbirlər görmək.[19]

Millətlərarası razılıq əldə etməyə çalışan N.Usubbəyov erməni fraksiyasının nümayəndələrini də hökumətə cəlb etməyə hazır idi. Vəzifələrin əhalinin milli tərkibinə uyğun bölüşdürülməsini və erməni millətindən olan vətəndaşlar üçün xüsusi şərait yaradılmasını təklif edən və hökuməti erməniləri sıxışdırmaqda günahlandıran erməni fraksiyası əslində yerinə yetirilməsi mümkün olmayan şərtlər irəli sürürdü.[20] N.Usubbəyovun erməni deputatlarına müraciəti digər fraksiyalar tərəfindən e'tirazla qarşılansa da, N.Usubbəyov bu addımı ilə ermənilərin ittihamlarının mə'nasızlığını sübut etməyə çalışırdı.

Dekabrın əvvəllərində N.Usubbəyovun fraksiyalarla danışıqları gedişində yeni koalisiya haqqında bütün Azərbaycan partiyalarının prinsipial razılığı əldə edildi. Nazir vəzifələrinin bölüşdürülməsi həll olunmamış qaldı. Ən çox mübahisəyə səbəb olan daxili işlər naziri vəzifəsi idi. "Müsavat" və sosialistlər bu vəzifəni özlərində saxlamağa, "İttihad" isə bitərəf adama verməyə çalışırdı. Bütün fraksiyaların bu vəzifəni ələ keçirmək cəhdləri onun dövlət idarəçilik sistemində xüsusi vəziyyəti ilə bağlı idi. Bu güc nazirliyinə təkcə polis orqanları deyil, həm də inzibati orqanlar, gömrük və vergi strukturları



tabe idi. Son nəticədə bütün fraksiyalar M.H.Hacınskinin namizədliyi ilə razılaşdılar.

Beləliklə, növbəti kabineti formalaşdırmaq məsələsi ətrafında fraksiyaların mübahisələri 1919-cu il dekabrın ortalarına qədər davam etdi və nəhayət, yeni hökumət üzvlərinin siyahısı parlamentə təqdim edildi.

1919-cu il dekabrın 22-də parlament hökumətin aşağıdakı tərkibini təsdiq etdi: Nəsib bəy Usubbəyov - Nazirlər Şurasının sədri ("Müsavat"), Məmmədhəsən Hacınski - daxili işlər naziri ("Müsavat"), Xəlil bəy Xasməmmədov - ədliyyə naziri ("Müsavat") Həmid Şahtaxtinski - xalq təhsili naziri ("İttihad") Rəşid Kaplanov - ticarət, sənaye və ərzaq naziri ("Əhrar"), Əhməd bəy Pepinə - Təmək və əkinçilik naziri (sosialist), Camo Hacınski - poçt və teleqraf naziri (sosialist), Sultan Məcid Qənizadə - dövlət nəzarətçisi ("İttihad"), Səməd bəy Mehmandarov - hərbi nazir (bitərəf), Xudadat bəy Məlik-Aslanov - yollar naziri (bitərəf).[21]

Göründüyü kimi, hökumətə, demək olar ki, bütün fraksiyaların nümayəndələri daxil oldu, lakin bu dəfə onlardan heç biri çoxluq təşkil etmədi.

Öz fəaliyyətinin ilk günlərindən yeni hökumət bolşeviklərin fəaliyyətinin güclənməsi kimi yeni siyasi amili ciddi şəkildə nəzərə almalı oldu. Bolşeviklərin 1918-ci ilin yayında minimum səviyyəyə enmiş nüfuzu 1919-cu ilin sonlarında bir qədər gücləndi. Hələ 1918-ci ilin noyabrında Ümumrusiya Kommunist (bolşeviklər) partiyası ÜRK(b)P-ı adlanış partiyanın sağ qalan yerli üzvləri sonralar Bakı komitəsinə çevrilmiş müvəqqəti büro yaratdılar. 1919-cu ildən sonra büronun ideya rəhbəri Anastas Mikoyan oldu.

Bolşeviklər ilk növbədə mə'dən-zavod komitələrinin nümayəndələrindən ibarət daim fəaliyyət göstərən orqan olan Bakı fəhlə konfransını ələ aldılar. Bakı fəhlə konfransı (BFK) adlanan təşkilat ilk dəfə 1918-ci il dekabrın 15-də toplandı. Təşkilat seçkili orqan idi, səsvermə hüququndan yalnız Bakı şəhərinin fəhlə və qulluqçuları istifadə edirdilər. Bundan əlavə BFK-na

gəmi və idarə komitələrinin nümayəndələri göndərilirdi. Həmkarlar ittifaqları da 2-3 nəfər nümayəndə göndərdilər.[22]

BFK öz fəaliyyətini iqtisadi məsələlərdən başladı, sonra isə bolşeviklərin tə'siri altında siyasi mübarizə yoluna keçdi.

BFK-da şərait hamınm liderliyə can atdığı dediqoduluq, təhqirlər, fəhlələrin, eserlərin, menşeviklərin, bolşeviklərin nəzərində bir-birini nüfuzdan salmaq cəhdlərilə xarakterizə olunurdu. Son nəticədə, inadlı mübarizədən sonra BFK-da rəhbərlik bolşeviklərin əlinə keçdi, bu da dərhal BFK-nın çıxardığı qərarların xarakterini müəyyənləşdirdi.

Parlament quruluşu bərqərar olduqdan sonra yenidən canlanmış Azərbaycan sosialist hərəkatını da nəzərdən qaçırmaq olmazdı. Bu dövrdə bolşeviklərə əl uzadan və onlarla sıx ittifaqa girən ilk təşkilat Azərbaycanın sol eserləri idi. Bu partiya inqilabi sosializm və Sovet hakimiyyəti mövqeyində dururdu. Onlar Rusiya sol eserlərindən milli məsələdə Azərbaycan Cümhuriyyətinin tam müstəqilliyinin tanınması və onun müstəqil sovet respublikasına çevrilməsi tələbləri ilə fərqlənirdilər. Ruhulla Axundov, Əhməd Əhmədov, Rəhim Hüseynov, Həbib Cəbiyev, Əli Bayramov və başqaları bu partiyanın fəal üzvləri idilər.[23]

Azərbaycan sol eserlər partiyasmın yaranması 1918-ci ilin noyabrından başlanır.[24] Bu partiya əsasən Bakı fəhlələri içərisində fəaliyyət göstərirdi.

Doğrudur, Azərbaycan sol eserlər partiyası və digər müsəlman sosialist partiyaları müsəlman zəhmətkeş kütlələri içərisində böyük nüfuza malik deyildilər, çünki fevral inqilabının başlanmasından 1919-cu ilə qədər olan dövrlərdə türk əhalisi içərisində dərin siyasi ayrılıq nəzərə çarpmırdı və əgər "Müsavatın" müəyyən uğurlarından danışmaq mümkün idisə, sosialistlərin kütlələrə tə'sirindən heç bir söhbət gedə bilməzdi.

1919-cu ilin noyabrında Bakıda "Xalqçı" müsəlman eserlər partiyasının Mərkəzi Komitəsi tam formalaşana



qədər bu partiya qrupunun nümayəndələri müsəlman eser təşkilatına daxil idilər.[25]

"Xalqçı" partiyası əsasən ziyalılardan ibarət idi. Onun, demək olar ki, bütün nümayəndələrinin ali və orta təhsili var idi. Partiyanın sədri A.Səfikürdski idi.

1919-cu ilin sonuT1920-ci ilin əvvəllərində "Xalqçı" artıq müstəqil partiya kimi fəaliyyət göstərirdi və Müsəlman sosialist fraksiyasının üzvü hüququnda parlamentə daxil idi. Partiya, demək olar ki, bütün məsələlərdə "Müsavat"a qarşı tənqidlə çıxış edirdi. Buna görə də, bütövlükdə Müsəlman sosialistlər bloku hökumətin tərkibində qaldığı halda "Xalqçı" partiyasının üzvləri N.Usubbəyovun başçılıq etdiyi kabinetə daxil olmadı. "Xalqçı" kommunistlərlə heç bir əlaqə saxlamırdı.[26]

Kommunistlərlə əlaqədə hərəkət edən digər müsəlman sosialist partiyası "Hümmət" idi.

Hakimiyyətə can atan bolşeviklər müsəlman sosialist hərəkatı amilini nəzərə almaya bilməzdilər. Bu hərəkatın yerli əhali ilə ciddi və möhkəm əlaqələrinin olmadığını düzgün başa düşən bolşeviklər müsəlman sosialistlərinin işini bu istiqamətə yönəltməyə, eyni zamanda bu işə rəhbərliyi qeyri-rəsmi olaraq öz əlinə keçirməyə çalışırdılar. Bundan ötrü "Hümmət", "Əkinçi", "Ədalət" partiyaları daxil olmaqla, bütün ifrat sol müsəlman təşkilatlarının fəaliyyətini səmərəli şəkildə idarə etmək lazım görünürdü. "Hümmət"ə münasibətdə bu partiyanın ən'ənələrini, rəhbərliyində menşeviklərin üstünlüyünə və onun sadə üzvlərinin Rusiya ilə bağlı olan hər şeyə e'tibar etmədiyini nəzərə alsaq, bu vəzifə çox da sadə məsələ deyildi. 1919-cu ilin mayında rus bolşeviklərinin azərbaycanlılara tə'sirinin məhdudluğu barədə A. Mikoyan Moskvaya yazırdı: "Bizim partiyamızda ağıllı, işə sədaqətli və fəal müsəlman nümayəndələrinin kəskin çatışmazlığı müsəlman sosialistlərinin millətçi ruhlu sağ qanadına müsəlman fəhlələrinin bir hissəsini öz tə'siri altında saxlamağa imkan verir. Sovet tipli hökuməti

qəbul edənlər qorxurlar ki, bu, əcnəbi rus hökuməti olacaq və onların özləri hakimiyyətə gələ bilməyəcəklər".[27]

"Hümmət"i özlərinə tamamilə tabe edənə qədər bolşevik liderləri "Hümmət" rəhbərliyinin radikal və mülayim əhval-ruhiyyəli qanadları arasında daxili ziddiyyətləri qızışdırmaq yolu ilə partiyanı ikinci və bu dəfə qəti parçalanmaya gətirib çıxartdılar. Bu hadisə iyulun sonlarında baş verdi. Partiyanın əvvəllər Tiflis mərkəzilə bağlı olan üzvləri öz təşkilatının köhnə adını (sosial-demokrat fəhlə partiyası - "Hümmət") saxlamaqla özlərini sağ təşkilat kimi qələmə verirdilər. Onlar parlament sisteminin tərəfdarları kimi qalırdılar və 1919-cu ilin dekabrında onların liderlərindən biri Ə.Pepinovun əmək naziri kimi N.Usubbəyovun hökumətinə daxil olması bunu sübut edirdi. "Hümmət"in sol qanadı isə Azərbaycanda hakimiyyətin Sovetlərə keçməsi məsələsini açıq şəkildə qoyurdu.

### QEYDLƏR


1. Вышка, 1920, 30 сентября.
2. Азербайджан, 1919, 14 сентября.
3. Там же, 7 декабря.
4. Там же.
5. Там же.
6. Там же.
7. Там же.
8. Там же, 10 декабря.
9. Там же, 7 декабря.
10. Там же.
11. Там же.
12. Там же.
13. Там же, 13 декабря.
14. Агамалиева Н., Худиев Р. Указ. соч. с.71.
15. Азербайджан, 1919, 11 ноября.
16. Адрес-календарь, с.19.
17. Иттихад, 1919, 5 октября.
18. Там же, 12 декабря.





19. Знамя труда, 1919, 14 ноября.
20. Вперед, 1919, 13 сентября.
21. Азербайджан, 1919, 23 декабря.
22. Байрамов К.М. Массовые рабочие организации Азербайджана в борьбе за победу Советской власти. Баку, Элм, 1983, с.34.
23. ARDA, f.894, s.1, iş 98, v.13.
24. Yenə orada.
25. Агамалиева Н.А. К вопросу о мусульманской эсеровской партии "Халгчи". Материалы научной конференции. Баку, 1989, с.80.
26. Yenə orada.
27. Светоховский Т. Русский Азербайджан. с.43.

# VII FƏSİL

## BAKIDA APREL ÇEVRİLİŞİ VƏ 1920-Cİ İLDƏ AZƏRBAYCANIN RSFSR XI ORDUSU TƏRƏFİNDƏN İŞĞAL OLUNMASI

Cümhuriyyətin ərazi bütövlüyünə qarşı daşnak Ermənistanının təcavüzkar qəsdləri Azərbaycanda siyasi vəziyyəti əhəmiyyətli dərəcədə mürəkkəbləşdirdi.

1919-cu ilin noyabrında başlamış Ermənistan-Azərbaycan müqaviləsinin şərtlərini kobud şəkildə pozan erməni ordusu hissələri və silahlı quldur dəstələri general Dronun ümumi komandanlığı altında Zəngəzurda geniş miqyaslı hücuma keçərək qırxa qədər azərbaycanlı kəndini məhv etmişdir. 1920-ci ilin əvvəllərində onlar Şuşa qəzasının bir neçə kəndini darmadağın etmişdir. Yalnız Azərbaycan hökumətinin əhalinin müdafiəsi ilə bağlı gördüyü cavab tədbirləri sayəsində qırğını dayandırmaq mümkün olmuşdur.[1]

1920-ci il yazın əvvəli Qarabağ, Zəngəzur, Gəncə və Qazax qəzalarını əhatə edən münaqişənin yenidən başlaması ilə əlamətdar oldu. Hadisələr martın 22-də Novruz bayramı günü, erməni silahlı dəstələrinin Şuşa qarnizonuna qəfil hücumu ilə başlamışdır. Şuşakənd istiqamətində Şuşanın atəşə tutulmasına baxmayaraq 23 martda, saat 5 radələrində Azərbaycan qoşunları erməniləri tutduqları mövqelərdən çıxarmağa və şəhər hücuclarından uzaqlaşdırmağa nail oldular.[2]

Martın 22-dən 23-nə keçən gecə Şuşa əməliyyatının keçirilməsi ilə eyni vaxtda Xankəndi və Əsgəran erməni dəstələrinin hücumuna mə'ruz qalmışdı. Bununla da onlar Şuşa və Ağdam arasındakı əlaqəni kəsərək kiçik saylı qaraovulla mühafizə olunan Əsgəran qalasını və



ətraf yüksəklikləri tutmağa müvəffəq oldular. Erməni dəstələrinin Tərtərə hücumu isə 3-cü Şəki atlı alayı tərəfindən dəf edildi. Əks-hücuma keçən bu alay martın 26-da Çaylı və Vruc kəndlərini ələ keçirdi və düşməni qərbə tərəf gerlyə oturtdu. Lakin Əsgəranın itirilməsi ona gətirib çıxardı ki, Qarabağda və Zəngəzurda yerləşən Azərbaycan ordusunun keşik dəstələri Yevlax-Ağdam-Şuşa baş əməliyyat xəttindən ayrı düşdülər. Qarabağda Azərbaycan qoşunlarının komandanı general-mayor H.Səlimov Əsgəranı nəyin bahasına olursa-olsun qaytarmağı qərara aldı.

Martın 23-də Azərbaycan yığma (partizan) qoşunları 3360 yüksəkliyinə, Parlament mühafizə dəstəsi Xaramurt kəndinə, 5-ci Bakı piyada polku Daşbaşi kəndi üzərinə hücum etdilər. Bu istiqamətdə hərbi vəziyyət Azərbaycanın xeyrinə deyildi.

General Səlimov hərbi nazir general Mehmandarovla birbaşa telefon söhbətində ermənilərdən fərqli olaraq zəif tə'lim görmüş yığma partizan dəstələrinin döyüş qabiliyyətinin aşağı olduğunu qeyd edirdi, həm də onlar silah sursatını boş yerə sərf edərək xəzinəyə çox böyük ziyan verirdilər. Aydın idi ki, əlavə qüvvəsiz Əsgəranı tutmaq mümkün olmayacaqdır. Martın 31-də Səlimovun dəstəsinə min nəfər piyada, 50 atlı və dağ-atlı artileriya zavodundan ibarət yardım gəldi.[3]

Eyni vaxtda düşmənin qüvvələrinin yenidən qruplaşdırılması və artırılması gedirdi. Aprelin 3-də azərbaycanlı hissələr Xankəndinə daxil oldular. Elə həmin gün Kətik, Aranzəmin və Naxçivanik kəndləri ələ keçirildi.

Düşmən öz qarşısında əks-hücuma keçərək Şuşa-Xankəndi yolunu kəsmək və Azərbaycanlı hissələrin Şuşada mühasirəyə almaq məqsədini qoydu. Aprel 9-11-də Azərbaycan hissələri bu yüksəkliklərə nəzarəti ələ keçirdi.

Qarabağda müvəffəqiyyətli döyüşlərdən sonra Azərbaycan hissələri qarşısında Zəngəzur istiqamətində döyüşlərin aparılması vəzifəsi qoyuldu. Bütövlükdə 1920-ci ilin aprelin sonunda Azərbaycan ordusu dövlətin ərazi

bütövlüyünü tə'min edərək və bölgədə 1919-cu ilin 23 noyabrında vəziyyəti bərpa edərək öz vəzifəsini şərəflə yerinə yetirdi. Eyni zamanda hərbi münaqişə Azərbaycan hökuməti ordunun əsas qüvvələrinin respublikanın qərb sərhədlərində yerləşdirməyə vadar etdi ki, bu da şimal sərhədlərinin xeyli zəifləməsinə gətirib çıxardı.

Belə fərz etmək olar ki, Qarabağda qiyam Ermənistan hökuməti tərəfindən təşkil edilmişdir. Bu qiyam Yerevan və Sovet komandanlığının Azərbaycana hücum edən XI Qızıl Ordunun əməliyyatlarının asanlaşdırmaq məqsədini güdən müştərək planın nəticəsi idi. Bu fakt sonralar Ermənistan hökumətinin 1920ci ilin iyununda Moskvaya Millətlərin işi üzrə Komissarlığa və Kommunist Partiyasının MK-ına təqdim etdiyi məktubunda təsdiq edilmşdir.[4] Bu sənədə əsasən Azərbaycanın sovetləşməsində ermənilərin rolu olmalı idi. Ermənistan hökuməti və Qarabağ inqilab komitəsi XI Qızıl Ordu ilə bilavasitə əlaqə yaratmışdı və ikitərəfli razılığa əsasən Azərbaycan hərbi qüvvələrin böyük bir hissəsini Qarabağa cəlb etmək əvə rus qoşunlarının Bakıya yücumunu yüngülləşdirmək məqsədilə Novruzun 1-ci günü Qarabağda üsyan qaldırmaq qərarına alınmışdı. Beləliklə Qarabağ münaqişəsinə dövlətin qüdrətini zəiflədən səbəblərdən biri kimi baxılmalıdır.

1920-ci ilin yazında "Müsavat", "Əhrar", "İttihad", sosialistlər, bitərəflər qrupu və s. müsəlman partiya və təşkilatları arasında mübarizənin güclənməsi respublikada siyasi sabitsizliyi dərinləşdirən mühüm amillərdən biri idi. Fraksiya üzvlərinin sayına görə parlamentdə ikinci yerdə olan "İttihad" partiyası qəbul edilən qərarların xarakterinə ciddi tə'sir göstərirdi. Hakim "Müsavat" partiyasında ziddiyyətlərin başlanması və dövlətin daxili və xarici siyasətinə dair məsələlərdə fikir birliyi olmadığı bir şəraitdə "İttihad"ın parlamentdə rolu güclənir və o parlamentə öz şərtlərini diktə etməyə başlayırdı. Bu vəziyyəti nəzərə alan "Müsavat" partiyası hələ 1919-cu ilin dekabrında sonuncu hökuməti təşkil edərkən sol müxalifəti təcrid etmək niyyətilə ittihadçıları koalisiyaya



də'vət etməyi lazım bilmişdi. Bu zaman "Müsavat" konkret siyasi məqsəd - "İttihad" partiyasının simasında parlamentin sağ hissəsini öz tərəfinə çəkmək məqsədi güdürdü.[5] Bu məqsədlə "Müsavat" panislamizmlə bolşevizmin barışmazlığından istifadə etməyə çalışırdı. Lakin hadisələrin gedişi "Müsavat" liderlərinin ümidlərini doğrultmadı. Hökumətə daxil olmaq üçün "İttihad" 3 şərtT1) bütün müsəlman partiyalarının koalisiyasına riayət olunması; 2) daxili işlər naziri portfelinin M.H.Hacınskiyə verilməsi; 3) dövlət nəzarəti vəzifəsinin bu partiyanın nümayəndəsinə verilməsi tələblərini irəli sürdü. Axırıncı vəzifəni ələ keçirən "İttihad" bununla da hökumətdə öz gələcək fəaliyyətinin əsas istiqamətini-dövlət strukturundakı qanunsuzluqlara qarşı mübarizə aparmaq istiqamətini müəyyənləşdirdi. Bu qanunsuzluqları törədən şəxslərin üzə çıxarılması üçün geniş miqyaslı, daha çox təbliğat xarakterli kampaniya başlandı. Onların fikrincə, pozuntular və korrupsiyanın daha çox baş verdiyi struktur ticarət və sənaye Nazirliyi idi. Bu səbəbdən Nazirlik xüsusi hücumlara mə'ruz qaldı. Nəticədə 1919-cu ilin fevralından əleyhinə kampaniya aparılan nazir müavini Y.A.Əliyev işdən getməyə məcbur oldu. Digər sahələr üzrə geniş yoxlamalar və təhqiqatlar aparılmağa başlandı. "İttihad" bu kampaniyanın hökumətdən daha çox "Müsavat" partiyasına qarşı yönəldiyini gizlətmirdi, çünki onun nəzərinə bu partiyanın üzvləri sui-istifadə məsələlərində daha çox məs'uliyyət daşıyırdılar. Hücumlar o səviyyəyə çatdı ki, "İttihad" öz siyasi rəqibini dövlət vəsaitini qanunsuz olaraq öz partiya təbliğatı üçün istifadə etməkdə təqsirləndirdi.[6] "İttihad"ın başladığı kampaniyanın M.H.Hacınski öz Nazirliyində davam etdirdi. Onun həyata keçirdiyi təmizləmələr nəticəsində çoxlu mə'murlar xidmətdən kənarlaşdırıldı. M.H.Hacınskinin bu hərəkətləri, fəhlə liderləri və bolşeviklərlə yaxınlaşması parlamentin "Müsavat və bitərəflər" fraksiyası içərisində narazılığa səbəb oldu. Onu bolşevizmdə ittiham etməyə başladılar. Lakin yoxlamaların nəticələri

bir sıra dövlət orqanlarının işində biabırçı özbaşınalıq və korrupsiya faktlarının olduğunu göstərirdi. Xarici işlər naziri F.Xoyskinin qohumu, Qazax general-qubernatoru A.Xoyski hücum hədəfinə çevrildi. İttihadçıların tələbilə "Müsavat və bitərəflər" fraksiyasının razılığı olmadan M.H.Hacınski tərəfindən vəzifədən kənarlaşdırıldı. Bu cür hərəkətləri onun nazir vəzifəsindən geri çağırılması üçün daha bir bəhanə oldu.

"İttihad" partiyası Sovet Hakimiyyətinə münasibətdə bir qədər bolşevikpərəst mövqe tutdu. "İttihad" qəzeti yazırdı: "Bolşevizm müsəlmanlardan kənarda güclü qüvvə olduğuna və bütün bəşəriyyəti, o cümlədən müsəlmanları, əsarət və zülmün bütün formalarından Avropa kapitalizmi və imperializmindən azad etmək uğrunda mübarizə apardığına görə partiya tərəfindən müdafiə edilir."[7] Partiya qəzetində sosializmlə islamın, "təkcə dini tə'lim deyil, həm də müsəlmanların siyasi və ictimai həyatının çıxış nöqtəsi olan" e'tiqadın birliyinin mümkünlüyü haqqında məqalələr dərc olunurdu.[8] Əslində bu, Azərbaycanın müstəqilliyinə qarşı çevrilmiş siyasət idi. Bununla da "İttihad", təkcə hökumət böhranı deyil, həm də bütün dövlət hakimiyyəti böhranının güclənməsinə kömək edirdi.

"İttihad" inanırdı ki, qərb imperializminə qarşı mübarizədə kommunizmin müsəlman dünyasına göstərdiyi kömək, onun qeyri-dini xarakterinin əvəzini kifayət qədər ödəyir. Bolşeviklərlə ittifaqa çağıran ittihadçılar Antantaya qarşı mübarizə aparan Türkiyə ilə birləşmək üçün rus qoşunlarının Azərbaycana buraxılmasını tələb edirdilər. Bir-birinə əks cəbhələrə parçalanmış Türkiyənin özündə də müəyyən qüvvələr belə mövqe tuturdular. Bu hadisələlə bağlı olaraq, Azərbaycanın Türkiyə ilə müharibədən sonrakı münasibətləri yeni şəkildə qurulurdu.

Qeyd etmək lazımdır ki, Mudros müqaviləsinə görə, türk qoşunları Azərbaycandan çıxarıldıqdan sonra burada Türkiyə amili qalmaqda idi. Mustafa Kamalın müttəfiqlərə qarşı çıxması ilə Türkiyənin Azərbaycanda nüfuzu yenidən yüksəldi, gənc türklər özləri də qərb imperializminə qarşı mübarizədə Sovet Rusiyası ilə əməkdaşlığın mümkün üstünlüklərini görürdülər. Buna görə də həm gənc türklər, həm də kamalçılar bolşeviklərlə əlaqə yaratmağa çalışırdılar. Azərbaycan isə bu əlaqələrin yaradılması üçün ən əlverişli yer hesab olunurdu, çünki bu körpü vasitəsilə Sovet köməyi müharibə edən Anadoluya çatdırıla bilərdi. Buna görə də Mustafa Kamal, müttəfiqlər tərəfindən Cənubi Qafqaz respublikalarının tanınmasını çox narahatlıqla qarşıladı. Buna baxmayaraq, Türkiyənin azadlıq müharibəsi Azərbaycan cəmiyyətinin ən geniş təbəqələrində getdikcə daha çox tərəfdar tapırdı.

Azərbaycan cəmiyyətində sabitliyi pozan amillərdən biri də aparıcı "Müsavat" partiyasının sıralarındakı qeyri-müəyyənlik idi. Partiyada onun sol qanadı kifayət qədər güclü şəkildə ayrılmağa başladı. Bu qanad hökumətin daxili və xarici siyasətini kəskin şəkildə tənqid edirdi. Bitərəflər qrupunun lideri Behbud xan Cavanşir və "Müsavat" partiyasının üzvü Məhəmmədhəsən Hacınski də Rusiya ilə dostluq münasibətləri yaradılmasının tərəfdarı idilər.[9]

Azərbaycanın siyasi xadimlərinin dövlət və siyasi təcrübəsinin olmaması da özünü göstərirdi. Bütün göstərilən amillər bolşeviklərin uğurlarına əhəmiyyətli dərəcədə kömək edirdilər. Onların sonrakı fəaliyyəti üçün yeganə zəruri şərt-bütün kommunist qruplarının bir partiyada birləşdirilməsi şərti çatışmırdı. Onların birləşməsi hansı zəmində baş verdi?

Yuxarıda nəzərdə tutulan birləşmədən bir qədər əvvəl ən iri müsəlman sosialist partiyası olan "Hümmət"də qəti parçalanma baş verdi. Parçalanmadan sonra sol hümmətçilər R.Axundovun başçılıq etdiyi Azərbaycan eserlər partiyası ilə birləşməyə cəhd göstərdilər. Təşəbbüs uğursuzluqla nəticələndi. Müsəlman eserlərinin bolşeviklərlə əlaqə yaratmaq cəhdi də baş tutmadı, çünki

eserlərin fikrincə formalaşmaqda olan Azərbaycan kommunist partiyasının tərkibində yalnız onlar tərəfindən milləti mənafeyin yeganə ifadəçiləri hesab edilə azərbaycanlılar daxil olmalıdır .

Ədalətçilərin bir çoxu da birləşmənin əleyhinə çıxdı. Lakin bolşevik təşkilatı üzvlərinin, xüsusilə V.Naneyşvili, A.Mikoyan, D.Bünyatzadənin çoxsaylı müdaxilələri, gizli təzyiqi və hədələri nəticəsində ədalətçilərin parçalanmasının qarşısı alındı və onların ümumi konfransında B.Ə.Ağayev, M.D.Ağayev, R.Kərimov, İ.Basin, S.C.Cavadzadə və Pişəvəridən ibarət yeni bolşevikpərəst MK seçildi.[10]

Bütün müsəlman təşkilatlarının sıralarında ciddi "təmizlik" aparmış bolşeviklər 1920-ci ilin 11-12 fevralında Bakı şəhərində keçirilən I qurultayda birləşmə prosesini Azərbaycan Kommunist Partiyasının yaradılması ilə başa çatdıra bildilər.[11] Bu vaxtdan e'tibarən, kommunistlərin silahlı üsyana hazırlığı başlandı. Onlar özlərinin Bakıda uğurlu silahlı çıxışını Qızıl Ordunun Şimali Qafqazda qələbələri, Xəzərdə gəmiçiliyin bərpa edilməsi və Həştərxan-Xəzər donanmasınm göstərə biləcəyi köməklə bağlayırdılar. Həştərxan-Xəzər donanmasının komandanlığı isə öz növbəsində Sovet qoşunları tərəfindən Petrovsk limanı tutulduğu halda Bakıda sonrakı əməliyyat hərəkətlərini genişləndirməyi planlaşdırırdı.[12]

Respublikada siyasi vəziyyətin qeyri-sabit olması parlamentin və hökumətin işində də öz əksini tapdı. Yeni hökumətdə əmək və əkinçilik naziri vəzifəsini tutmuş Ə.Pepinov 1919-cu il dekabrın 28-də həmkarlar təşkilatlarının iştirakı ilə fəhlə məsələsinə dair müşavirə keçirdi. Nazir toplaşanlara həmkarlar təşkilatlarının işlərinə nazirliyin qarışmayacağını vurğulamaqla öz nazirliyinin proqramını şərh etdi. O, fəhlələri əmin etdi ki, fəhlə klubuna və fəhlə təşkilatlarına polis basqınları dayandırılacaq, Bakı hərbi general-qubernatorluğu ləğv ediləcək, tam yığıncaq azadlığı veriləcək və əmək haqqı artırılacaqdır. Nazir fəhlələrdən ona kömək göstərilməsini



xahiş etdi və fəhlələr bütün və'dlərə əməl edildiyi halda kömək göstərəcəklərini bildirdilər.[13]

Sosialist nazirin fəhlə klubları ilə bağlı bəyanatı təsadüfi xarakter daşımırdı. Hökumət Mərkəzi fəhlə klubunu bağlamaq üçün dəfələrlə cəhd göstərmişdi. İlk dəfə 1919-cu il dekabrın 9-da MFK-nın binası möhürlənmişdi.[14] Buna cavab olaraq fəhlə konfransının rəyasət hey'əti ertəsi günə nəzərdə tutulan e'tiraz tə'tilinə çağırmış və hökumət orqanlarını Mərkəzi Fəhlə klubu binasını açmağa məcbur etmişdi.

Fəhlə sinfinin mənafeyini müdafiə etmək bayrağı ilə pərdələnən bolşeviklər milli hökumətə qarşı mübarizə aparırdılar. Bu siyasəti əslində Moskva diktə edirdi və respublikanın əsl mənafelərinə zidd olmaqla, Azərbaycanın müstəqilliyinin əsaslarına təhlükə yaradırdı. Bolşevik təbliğatçıları Daxili İşlər Nazirliyinin fəhlələrin öz hüquqları uğrunda mübarizə aparmasına mane olduğu barədə fəhlələr içərisində şayiələr yayırdılar. Bununla əlaqədar olaraq respublikanın daxili işlər naziri M.Vəkilov bildirdi ki, Nazirlik fəhlələrin öz iqtisadi və hüquqi vəziyyətini yaxşılaşdırmaq uğrunda mübarizəsinə qarışmaq fikrində deyil, eyni zamanda dövlətə qarşı bütün çıxışları hər cür vasitələrlə yatıracaqdır.[15]

Bunula əlaqədar olaraq, 1920-ci il martın 15-də polis bolşevik təbliğatçıları D.Bünyatzadə, K.İsmayılov, S.Fətəlizadə və başqalarını həbs etdi və fəhlə klubunu yenidən bağladı.[16]

Bakı möhkəmləndirilmiş rayonu general-qubernatoru Murad-Girey Tlexasın mə'lumatından aydın olurdu ki, keçirilmiş həbslər bolşevik qəsdinə qarşı yönəldilmişdir və dövlətə qarşı fəaliyyətin mərkəzi silahlı üsyan hazırlamaq və qanuni hakimiyyəti devirmək üçün işlər görən fəhlə klublarıdır. Tlexas qeyd etdi ki, hökumət fəhlələrin həqiqətən də ağır olan maddi vəziyyətini yüngülləşdirmək üçün ən qəti tədbirlər görəcəkdir. Hökumət belə hesab edirdi ki, bu məsələlər qanlı döyüşlərdə, hətta xaricdən düşmən qüvvələri cəlb etməklə

deyil, bütövlükdə cəmiyyətin qanunlara riayət edəcəyi və bütün münaqişələri dinc yolla nizamlayacağı şəraitdə həll oluna bilər.

Parlamentdə çoxsaylı siyasi partiyaların olması və onlar arasındakı daimi mübarizə müstəqil Azərbaycanın mövcud olduğu bütün müddət ərzində hökumətin vəziyyətini son dərəcə ağırlaşdırırdı. Şəxsi və partiyalararası çəkişmədən irəli gələn daimi və uzunmüddətli hökumət böhranları, hamını öz iradəsinə tabe edə bilən qətiyyətli rəhbərlərin başçılıq etdiyi nizamlı siyasi qrupların olmaması hökumətə öz inzibati aparatını möhkəmləndirməyə və sakit normal dövlət işi ilə, xüsusən ölkənin müdafiəsinə hazırlıq kimi ən mühüm məsələ ilə məşğul olmağa imkan vermirdi.

Ələmli 28 aprel günündən düz 4 ay əvvəl "Müsavat" partiyasının görkəmli üzvləri və bitərəflər qrupu (cəmi 12 nəfər) F.Xoyskinin kabinetində toplaşdılar. Toplantıda baş nazir N.Usubbəyov başda olmaqla müsavatçı nazirlər də iştirak edirdilər. Bu tarixi müşavirədə ölkədə vəziyyətin son dərəcə ciddi olması yekdilliklə e'tiraf olundu və dərhal tə'xirəsalınmaz tədbirlər görülməsi tələb edildi. Hökumətə aşağıdakı proqram təklif edildi:

1. M.H.Hacınskini daxili işlər naziri vəzifəsindən kənarlaşdırmaq və onun yerinə kommunistlərlə mübarizə aparmağa qabil olan adam tə'yin etmək;

2. M.H.Hacınski ilə birlikdə digər sosialist - nazirlərin gedəcəyi halda dərhal onları başqaları ilə əvəz etmək;

3. Parlamenti buraxmaq və hökumətə xarici siyasət və ölkənin müdafiəsi işində ən geniş səlahiyyətlər vermək;

4. 6 aydan sonra Müəssislər Məclisinə seçkilər keçirmək.[17]

Bütün bu tədbirlər ağlabatan və zərurətdən irəli gələn tədbirlər idi. Lakin bunları bir qədər əvvəl həyata keçirmək lazım idi.

Sovet Rusiyası tərəfindən təhlükə getdikcə artırdı. Buna görə də 1920-ci il yanvarın 2-də RSFSR xalq



xarici işlər komissarı Q.V.Çiçerini ağqvardiyaçı Denikin ordusuna qarşı hərbi ittifaq bağlamaq təklifilə[18] xarici işlər naziri F.Xoyskiyə göndərdiyi nota, Azərbaycanı Rusiyanın daxili münaqişələrə cəlb etmək və bununla da gələcəkdə Azərbaycanı işğal etmək üçün nəzərdə tutulan siyasi manevrədən başqa bir şey deyildi. Çiçerin notasının əsas məqsədini düzgün başa düşən Azərbaycan xarici işlər naziri F.Xoyski, bu təklifi Azərbaycanın Rusiyanın daxili işlərinə müdaxiləsi kimi qiymətləndirərək rədd etdi. F.Xoyski özünün 1920-ci il 14 yanvar tarixli cavab məktubunda məhz bu faktı vurğulayırdı ki, Denikin məsələsi Rusiya dövlətinin daxili işidir və Azərbaycan suveren dövlət kimi başqa suveren dövlətin daxili işlərinə müdaxiləyə yol verə bilməz. Bununla da nazir, müstəqil Azərbaycanın daxili işlərinə qarışmamağı tələb etdi.

Bolşevik təcavüzünü nəzərə alan F.Xoyski hökumətdən respublikada fövqəl'adə vəziyyət tətbiq etməyi, parlamentin buraxılmasını, yaxın vaxt ərzində Müəssislər Məclisinə seçkilər keçirilməsini tələb etdi.[19]

Sovet Rusiyasına münasibət məsələsi Azərbaycanın siyasi partiyaları arasında əsas əngələ çevrildi. Rusiya bolşevik hakimiyyətilə qarşılıqlı münasibətlər yaradılması məsələsində partiya mövqelərinin kəskin qütbləşməsi baş verdi. 1920-ci il yanvarın 15-də A.Səfikürdski sosialist fraksiyası adından xarici işlər naziri F.Xoyskiyə Sovet Rusiyasının notasına hökumətin münasibəti barədə sorğu göndərdi və Azərbaycan hökumətinin cavabını fraksiyaların nümayəndələrilə birlikdə müzakirə etməyi təklif etdi. Bu təklifin qəbul olunmasının hökuməti yaranmış problemin həllindən uzaqlaşdıracağını və parlamentin fəaliyyətində ixtilaflar yaradacağını nəzərə alan çoxluq, hökuməti müdafiə etməyi qərara aldı.[20]

Sorğunun müzakirəsi partiya fraksiyaları arasında Denikin təhlükəsinə münasibətdə mövcud olan birliyin Rusiya ilə münasibət məsələsində olmadığını göstərdi. Sosialistlər və "İttihad" Çiçerinin notasına müsbət cavab vermək tərəfdarı idilər.

Hökumətin siyasətinə qarşı onun bə'zi üzvləri də müxalifətçi mövc tutdular. Əsas mübarizə liberal xəttin tərəfdarı daxili işlər naziri M.H.Hacınski ilə radikal tədbirlər tərəfdarı xarici işlər naziri F.Xoyski arasında baş verdi. Radikallar qalib gəldilər və 1920-ci il fevralın 18-də M.H.Hacınski daxili işlər naziri vəzifəsindən getdi, o, yeni nazir vəzifəsi - ticarət, sənaye və ərzaq naziri vəzifəsini aldı. "Müsavat" partiyasının üzvü M.Vəkilov daxili işlər naziri tə'yin edildi.[21]

Martın ortalarında "Müsavat və bitərəflər" fraksiyasının birgə iclasında bu məsələ tam kəskinliyi ilə qoyuldu. M.H.Hacınski öz baxışlarını şərh etdi. F.Xoyski başda olmaqla digər qrup M.H.Hacınskinin mə'ruzəsini mənfi qarşıladı. F.Xoyski qeyd edirdi ki, "heç bir rus partiyası, heç bir Rusiya hökuməti heç vaxt Cənubi Qafqaz respublikalarının müstəqilliyini tanımayacaq və yalnız Qafqaz xalqlarının güclü ordusu və əldə silah müstəqilliyini qorumaq əzmi olduğu zaman Qırmızı Moskva bizimlə hesablaşacaq və bizim sərhədlərimizi keçməyəcəkdir". Buna görə də sərt xəttin tərəfdarları respublikanı müdafiə etmək üçün bütün zəruri tədbirləri görməyə və ölkəni kommunist ünsürlərindən və onlara rəğbət bəsləyənlərdən təmizləməyə çağırırdı. Bu tədbirləri həyata keçirmək üçün onlar hökumətə fövqəl'adə səlahiyyətlər verməyə və vaxt itirmədən qonşu respublikaları Qafqazın birgə müdafiəsinə çağırmağı təklif edirdilər. Lakin bu dəfə sərt kurs tərəfdarlarının təklifləri qəbul edilmədi.

Azərbaycan hökumətində daxili mübarizənin davam etdiyi bütün dövr ərzində Sovet Rusiyası tərəfindən təzyiq hiss olunurdu. Xarici işlər naziri F.Xoyskinin Rusiya ilə hərbi ittifaqından imtina etməsinə cavab olaraq 1920-ci il yanvarın 23-də Q.V.Çiçerin ikinci notanı göndərdi və Azərbaycanı Rusiyadakı hərbi münaqişəyə cəlb etmək üçün yenidən təşəbbüs göstərdi. Yeni notada Azərbaycan hökumətinin müstəqil siyasətindən Rusiya Xalq Xarici İşlər Komissarlığının narazılığı açıq



görünürdü. Nazir "onun notasının Azərbaycan hökuməti tərəfindən hər hansı bir əks-səda doğurmasından şikayətlənir" və ümid etdiyini bildirirdi ki, onun atdığı addım uğursuz qalmayacaqdır.[22] Sovet Rusiyasının Azərbaycan Cümhuriyyətinə münasibətdə bu cür xarici siyasət fəallığı həm iqtisadi, həm də siyasi amillərlə izah olunurdu. 1920-ci ilin əvvəllərində Rusiyanın özündə vətəndaş müharibəsi qurtardıqdan sonra Sovet hökuməti qarşısında dağılmış xalq təsərrüfatını bərpa etmək kimi çox mürəkkəb bir vəzifə dururdu, bu vəzifənin yerinə yetirilməsi isə neft amilindən daha çox asılı idi. 1920-ci ilin yanvar-mart aylarında iki ölkə arasında baş vermiş diplomatik qarşıdurmanın əsasında məhz neft amili dayanırdı. 1920-ci il martın 17-də V.İ.Leninin Qafqaz cəbhəsi hərbi-inqilabi şurası adına göndərdiyi teleqram Sovet hökumətinin Azərbaycanla münasibətdə əsl niyyətlərindən xəbər verir: "Bizim üçün Bakını ələ keçirmək son dərəcə vacibdir. Bütün sə'yləri bu istiqamətə yönəldin, həm də bəyanatlar sırf diplomatik olmalıdır, yerli möhkəm Sovet hakimiyyətinin hazırlanmasında maksimum yəqinlik əldə edilməlidir".[23]

F.Xoyski Q.Çiçerinin yeni notasını cavabsız qoymadı və 1920-ci fevralın 1-də Azərbaycan xarici işlər nazirinin daha qətiyyətli şəkildə tərtib olunmuş notası göndərildi. F. Xoyski rus və Azərbaycan xalqları arasında mehriban qonşuluq münasibətlərinin yaradılmasının vacibliyini e'tiraf edərək bildirdi ki, danışıqlar məhz bu istiqamətdə aparıla bilər. Həm də o, qeyd etdi ki, RSFSR tərəfindən heç bir qeyd-şərt qoyulmadan Azərbaycan Cümhuriyyətinin suverenliyinin tanınması bu danışıqların başlanmasının şərti ola bilər.[24] F.Xoyski qeyd edirdi ki, mehriban qonşuluq münasibətlərinin yaradılması yalnız hər iki tərəfin suverenliyi əsasında həyata keçirilə bilər və məhz bu cəhətdən Azərbaycan hələ Sovet Rusiyası tərəfindən heç bir həmrə'ylik görməmişdir.[25]

Siyasi dairələrdə hamı Rusiya ilə əlaqələr yaratmağın vacibliyini əla başa düşürdü. Rusiya ilə əlaqələrin

pozulması nəticəsində Azərbaycan iqtisadiyyatı, xüsusən neft sənayesi, ağır böhran keçirirdi. 1920-ci il yanvarın əvvəllərində Bakı ambarlarında neft ehtiyatları (25 milyon puddan çox) şəhərin adi ehtiyat normasından üç dəfə çox idi. Nəticədə hasil edilən neftin miqdarı ixrac edilən neftin miqdarına uyğun gəlmirdi. Bakıda orta hesabla ayda 18-19 milyon pud neft çıxarılır və həmin müddətdə cəmi 5-6 milyon pud ixrac edilirdi.[26]

Buna görə də Sovet Rusiyası ilə əlaqələr yaradılması və əmtəə mübadiləsinin başlanması qaçılmaz zərurətə çevrilmişdi. Lakin belə əmtəə mübadiləsi yalnız xalqların hüququ bərabərliyi və suverenliyi əsasında mümkün idi. Deməli, obyektiv reallığın özü, Rusiya ilə münasibət məsələsini qarşıya qoyurdu. Qeyd etmək lazımdır ki, Antanta hökumətləri, müttəfiqlərin Sovet hakimiyyəti və bolşeviklərə münasibət siyasətində heç bir dəyişiklik etmədən, 1920-ci il yanvarın 16-da Rusiyaya qarşı iqtisadi blokadanı dayandırmaq və onunla ticarətə icazə vermək haqqında qərar qəbul etdilər.

Belə şəraitdə sərt siyasət kursunun tərəfdarları öz xətlərini davam etdirməklə getdikcə daha çox çətinlik çəkirdilər. Sovet Rusiyası xeyrinə tez-tez çıxışlar səslənirdi.

"Müsavatın" M.H.Hacınskini daxili işlər naziri vəzifəsindən geri çağırmaq niyyətindən xəbər tutan "İttihad" hökumət koalisiyası haqqında öz razılaşmasını ləğv etmək və hökumətdəki nümayəndəsini geri çağırmaq haqqında qərar qəbul etdi.[27]

Daxili işlər naziri vəzifəsinə yeni namizəd məsələsində "Müsavat" heç bir güzəştə getmək istəmədi və həmin nazir vəzifəsini özündə saxlayacağını bildirdi. Bu, hökumətin tərkibi haqqında partiyalar arasında bağlanmış müqavilənin pozulması demək idi, lakin bolşeviklərin və digər qüvvələrin dövlətə zidd fəaliyyətinə qarşı qətiyyətli mübarizə aparmaq zəruriyyətindən irəli gəlirdi. Kompromisə meylli olan M.H.Hacınski bu vəzifənin öhdəsindən gələ bilmirdi. Daxili İşlər Nazirliyi isə hökumətdə



bolşevik təbliğatına mə'ruz qalmamış yeganə orqan idi. Daxili İşlər Nazirliyini gücləndirmək üçün partiya fevralın 23-də bu vəzifəyə hökumətin ən gənc naziri olan M.Vəkilovu onun müavini vəzifəsinə isə partiyanın radikal liderlərindən olan Ş.Rüstəmbəyovu məsləhət gördü. Məhz onların sə'yi ilə dövlətə zidd ünsürlərə qarşı fəal mübarizə başlandı, bolşeviklər içərisində həbslər keçirildi, fəhlə klubları və ən irticaçı qəzetlər ("Edinaя Rossiя", "Novый mir" və s.) bağlandı.

Lakin, bu tədbirlər digər parlament fraksiyalarının kəskin narazılığına səbəb oldu. Müvafiq tə'yinatlardan narazı qaldığını bildirən "İttihad" partiyası, Baş nazir Usubbəyova partiyalarla məsləhətləşməyi və Hacınskinin nazir vəzifəsində saxlamağı təklif etdi.[28]

Ancaq partiya fraksiyaları arasında danışıqlar heç bir nəticə vermədi. "İttihad" partiyası "Müsavat"ı hakimiyyəti zorla ələ keçirməkdə ittiham edərək bildirdi ki, "Müsavat" parlamentdə çoxluğu təsadüfən qazanmışdır. "Müsavat"ın hökmran mövqeyinin qanunsuz olduğunu sübut etməyə çalışan "İttihad" partiyasının mətbu orqanı yazırdı: "Yalnız xalqın öz iradəsini sərbəst bildirilməsi şəraitində keçirilən seçkilər nəticəsində çoxluq qazanan partiya özünü hakim partiya hesab edə bilər. "Müsavat" partiyası isə özünün say çoxluğunu Tiflisdən gətirmiş və polis satranlarının şallaqları ilə artırmışdır.[29] Bolşeviklərin rəğbətini qazanmağa çalışan "İttihad", bolşeviklərə qarşı hökumət tədbirlərinin də əleyhinə çıxır və bildirirdi ki, bolşeviklərlə qamçı yox, kökə dilində danışmaq olar və lazımdır.[30] Martın 20-də sosialist nazir Ə.Pepinov parlamentin növbəti iclasında fəhlə klubunun bağlanması və keçirilmiş həbslərlə bağlı öz e'tirazını bildirdi. Onun bu bəyanatı tə'cili müzakirə etmək təklifi hökumət üzvlərinin əksəriyyəti tərəfindən rədd edildi. Parlamentin sonrakı iclasında Ə.Pepinov öz partiyasının qərarına əsasən iste'faya getdiyini bildirdi.[31] 1920-ci il martın 23-də Ə.Pepinov nazir səlahiyyətlərindən əl çəkdi.[32] Bu hadisə, vəziyyəti mürəkkəbləşdirdi. Ə.Pepi-

novun ardınca aprelin 9-da digər sosialist nazir Camo Hacınski də iste'fa verdi.[33] Sosialistlərin və "İttihad" nümayəndələrinin getməsi hökumət böhranını kəskinləşdirdi. Hökumətdə qalan müsavatçılar artıq Nazirlər Kabinetinin süqutunun qarşısını almaq iqtidarında deyildilər. Sosialist fraksiyası radikal-sosialist hakimiyyətinin yaradılmasında təkid edirdi. Baş nazir kimi M.Y.Cəfərov, M.H.Hacınski, M.Rəsulzadənin adları çəkilirdi. Əhrarçılar da yeni hakimiyyətin yaradılması mövqeyində dururdular. Onlar göstərirdilər ki, "..hadisələr hökumət üzvlərinin əksəriyyətinin nəinki radikallaşma yolunu tutmaq istəmədiyini, hətta onların vəziyyəti daha da kəskinləşdirdiyini və pisləşdiyini sübut edir".[34] 1920-ci il aprelin 15-də Aslan bəy Qardaşov "Əhrar" fraksiyası adından koalisiyadan çıxdığını və öz nümayəndələrini hökumətdən geri çağırdığını bəyan etdi.[35]

Beləliklə, müstəqillik mövqeyində duran bütün siyasi qüvvələrin səmərəli işbirliyinə bəslənilən ümidlər özünü doğrultmadı. Sovet təhlükəsinə qarşı mübarizə üçün ümumi platforma hazırlamaq mümkün olmadı, nəticədə sovet qoşunlarının Azərbaycan sərhədlərinə yaxınlaşması haqqında alınan ilk xəbərlər hökumətin dağılmasına gətirib çıxartdı.

Usubbəyov kabineti üzvlərinin iste'fası vəziyyəti dəyişdirmədi. Yaranmış vəziyyətdən üç çıxış yolu görünürdü: 1) Hökumət təkcə "Müsavat" partiyası üzvlərindən təşkil olunur; 2) Birgə yaradılmış platforma əsasında bütün siyasi fraksiyaların koalisiyası; 3) "Müsavat"ın hakimiyyətdən getməsi və digər partiyaların hökumət təşkil etməsi. Lakin bu variantlar icra hakimiyyətinin sabitliyinə tə'minat vermirdi. "Müsavat"ı siyasi səhnədən çıxarmağa çalışan "İttihad" üçüncü varianta nail olmağa çalışır, əks halda hökumətdə iştirakda imtina etməklə hədələyirdi.

Birpartiyalı hökumət haqqında heç bir söhbət gedə bilməzdi. Çünki ən böyük fraksiya - "Müsavat və



bitərəflər" fraksiyasında parçalanma baş vermişdi. Parçalanmanı aradan qaldırmaq və yaradılan kabinetdə liderliyi saxlamaq üçün hakim partiya yeni hökumətin təşkilini M.H.Hacınskiyə tapşırdı və ona bütün parlament fraksiyaları ilə danışıqlarda hərəkət sərbəstliyi verdi.

Özlərinin hökumət başçısı vəzifəsini almaq imkanı olmayan "Əhrar" və "İttihad" müsavatçıların ən loyal nümayəndəsi saydıqları M.H.Hacınskinin namizədliyi ilə razılaşdılar. Sosialistlər üç nazir vəzifəsi tələb edərək, daxili xarici işlər və hərbi nazir vəzifələrinə C.Hacınskini, A.Səfikürdskini və B.Rzayevi təklif edirdilər.

M.H.Hacınski bu vəzifələri verməkdən imtina etdiyinə görə, sosialistlər nazir vəzifələrinin konkret bölüşdürülməsini müzakirə etmədən gələcək hökumətin ümumi platformasını hazırlamağı təklif etdilər.[36]

Yeni hökumətin təşkili prinsipləri ilə razılaşmayan "Müsavat" partiyası üzvlərinin bir hissəsi Hacınskinin hökumətə daxil olmaq təklifindən imtina etdi. Müsavatçıların mövqelərinin zəifləməsilə bərabər, hakimiyyəti ələ keçirmək üçün fəal şəkildə silahlı üsyana hazırlaşmağa başlayan kommunistlərin nüfuzu güclənirdi.

Kommunist partiyası bütün gücü fəhlələrin və döyüş dəstələrinin silahlanmasına sərf edir, silahlı üsyanın hazırlaşmasını özünün ən yaxın məqsədi hesab edirdi. Bakı kommunistlərinin Həştərxanla əlaqəsi bu sahədə işi yüngülləşdirdi. Həştərxan vasitəsilə Moskvadan göstərişlər daxil olur, fəal işçilər, silah ehtiyatları və pul vəsaiti gətirilirdi.

Bakıdan Həştərxana çox böyük təhlükə altında benzin, neft və s. aparan qayıqlar göndərilirdi. Bakı radiostansiyası orada işləyən kommunistlərin vasitəsilə Həştərxan, Moskva, Krasnovodsk və s. ilə əlaqə yaratmışdı.[37] 1920-ci ildə Xəzərdə Naviqasiya başlandıqdan sonra Bakı limanı ərazisinnin güclü nəzarət altında saxlanmasına baxmayaraq silah gətirilməsi daha da gücləndi.[38] Bu dövrdə V.İ.Leninin göstərişilə RK(b)P-nın Bakı Komitəsinin sərəncamına "Hərbi məqsədlər üçün" 15 milyon manat

pul göndərilmişdi.[39] Silah Həştərxandan başqa Orta Asiyadan da gətirilirdi. 1920-ci ilin mart ayı ərzində Türküstan cəbhəsi komandanlığının köməyilə Krasnovodskdan Bakıya qayıqlarla 2 minə yaxın tüfəng, çoxlu döyüş sursatı və pul vəsaiti gətirilmiş, bunlar Qara şəhərdə və Bayılda düzəldilmiş xüsusi ambarlarda gizlədilmişdi.[40] Rusiya ordusunun durmadan cənuba irəliləməsi və Qərbdən kömək almağa ümidlərin getdikcə azalması şəraitində Azərbaycanda yaranmış vəziyyət nikbinlik üçün heç bir əsas varmirdi. Yeni hökumət təşkil etmək cəhdləri, müxtəlif partiyalar arasında kəskin siyasi mübarizə fonunda baş verirdi.

Hökumət yaratmağa səlahiyyət almış M.H.Hacınski bolşeviklərlə danışıqlara girərək, onlara nazir vəzifələri təklif etdi. Lakin bolşeviklər bu təklifə razı olmadılar. Həmin dövrdə artıq bolşevik təşkilatının üzvü olan Ə.Qarayev bəyan etdi ki, "... Siz Azərbaycanda Kommunist Hərəkatına münasibətdə fəal siyasət yeritməsəniz, biz yaxın vaxtlarda sizin hökumətinizin əleyhinə çıxmayacağıq.[41]

Həmin Ə.Qarayev 1920-ci il martın 30-da Dağıstanda Sovet qoşunlarının komandanı B.Şeboldayevə tamamilə başqa məzmunda teleqram göndərdi: "Ən yaxın günlərdə Bakıda çerilişə hazırlaşırıq. Hərəkət başlanandan əvvəl öz yürüşümüzün məqsədləri haqqında Azərbaycan fəhlələrinə və kəndlilərinə müraciətnamə buraxacağıq.[42]

Beləliklə, yerli bolşeviklər yaxınlaşan hadisələr barədə xəyallara qapılmırdılar.

1920-ci il aprelin 15-də F.Xoyskinin Q.Çiçerinə sonuncu notasında göstərilirdi ki, "... Azərbaycan Cümhuriyyəti sərhədləri yaxınlığında Dərbənd rayonunda Rusiya Hökumətinin xeyli Hərbi qüvvələrinin cəmlənməsi müşahidə olunur. Sovet hökumətinin niyyətlərindən xəbərsiz olan Azərbaycan hökuməti göstərilən rayonlarda qoşunların cəmlənməsinin səbəb və məqsədləri haqqında tə'cili xəbər verməyi xahiş edir".[43] Bu nota, cavabsız qaldı. Yaxınlaşan bolşevik təhlükəsinin bütün ciddiliyini



başa düşən F.Xoyski özünün gürcü həmkarı Y.P.Qeqeçkoriyə hələ 1919-cu ilin yazında Gürcüstanla Azərbaycan arasında general Denikinə qarşı bağlanmış, lakin kağız üzərində qalmış müdafiə ittifaqının şərtlərini reallaşdırmaq üçün zəruri tədbirlər görməyi təklif etdi. Lakin Azərbaycanla hərbi əlaqələrin belə konkretləşdirilməsi artıq o dövrdə Gürcüstanın menşevik hökumətinin mənafeyinə uyğun gəlmirdi. Həmin dövrdə Gürcüstan nümayəndəsi Uraçadze Moskvada öz hökuməti adından Çiçerinlə Gürcüstanın bolşeviklər tərəfindən tanınması barədə danışıqlar aparırdı.

Tə'cili hərbi tədbirlər barədə F.Xoyskinin konkret təklifinə cavab olaraq Gürcüstanın xarici işlər naziri Y.P.Qeqeçkorinin başladığı diplomatik oyun, Gürcüstan hökumətinin real şəraiti və öz mənafeyinin Azərbaycan xalqının taleyi ilə bağlılığını başa düşməkdən nə qədər uzaq olduğunu göstərdi. Qeqeçkori bildirdi ki, Azərbaycan hökuməti xüsusi bəyanatla Batuma və Batum əyalətinə Gürcüstanın tam hüquqlarını tanıdığı halda Gürcüstan hökuməti bu məsələni müzakirə edə bilər. Əlbəttə, F.Xoyski öz təklifilə Y.P.Qeqeçkorinin qaldırdığı məsələ arasında heç bir əlaqə görmürdü, lakin, bununla belə öz hökuməti adından Azərbaycanın Batuma və Batum əyalətinə heç bir ərazi iddiası olmadığı barədə bəyanat verməyə hazır olduğunu bildirdi. Ancaq bu cavab, menşevik nazirini qane etmədi. Hər iki respublikanın üstünü almış böyük təhlükə qarşısında Gürcüstan və Azərbaycan hərbi qüvvələrini real əlaqələndirmək cəhdləri nəticəsiz qaldı.

İki həftə sonra, 1920-ci il aprelin əvvəllərində Tiflisdə keçirilən Zaqafqaziya konfransında Azərbaycanın konfederasiya yaratmaq və onun sərhədlərini birgə müdafiə etmək haqqında təklifinə cavab olaraq Ermənistan nümayəndəsi A.Aqoranyan açıq şəkildə bildirdi: "Ermənistan İrəvan qəzasından ibarət olan müstəqil Ermənistanın indiki sərhədlərilə razılaşa bilməz".[44]

1920-ci ilin yazında Qızıl Ordunun Qafqaza çıxmasının Yaxın və Orta Şərqdə İngiltərənin mənafeyinə ciddi təhlükə törətməsinə baxmayaraq, Lloyd-Corc hökuməti Sovet Rusiyası ilə ticarət-iqtisadi əlaqələri qaydaya salmaq xətti götürdü. Eyni zamanda 1920-ci ilin aprelində Cənubi Qafqaz respublikalarına hərbi kömək planlarını müzakirə edən Antanta liderləri belə nəticəyə gəldilər ki, onların bu köməyi göstərmək imkanları yoxdur.[45]

Öz müstəqilliyi uğrunda Qərb dövlətləri ilə mübarizə aparan və Sovet Rusiyasının hərbi və diplomatik yardımına ehtiyacı olan Türkiyə isə, Şimal qonşusu ilə sıx əlaqələr yaratmağa çahşırdı. Ankara hökumətinin RSFSR hökumətinə ilk rəsmi müraciətində - Mustafa Kamalın V.İ.Leninə 1920-ci il 26 aprel tarixli məktubunda qeyd edilirdi ki, "... Sovet qüvvələri Gürcüstana qarşı hərbi əməliyyatlara başlamaq və ya diplomatik yolla, öz nüfuzu vasitəsilə, Gürcüstanı ittifaqa girməyə və ingilisləri Zaqafqaziyadan qovmağa məcbur etsə, Türkiyə imperialist Ermənistana qarşı hərbi əməliyyatları öz üzərinə götürür və Azərbaycan Cümhuriyyətini Sovet dövləti dairəsinə girməyə məcbur etməyi öhdəsinə alır".[46] Bunun müqabilində, Türkiyə Sovet Rusiyasından ilk yardım kimi qızılla 5 milyon türk lirəsi, həcmi danışıqlar zamanı müəyyən ediləcək silah və sursat, həmçinin bə'zi hərbi-texniki vasitələr, sanitar materialları və ərzaq xahiş edirdi.[47] Tərkibində keçmiş türk hərbi əsirlərindən təşkil olunmuş hərbi hissələr olan XI Ordunun Bakıdan yan keçməklə Antanta qoşunlarına qarşı mübarizə aparmaq üçün Qarabağ və Ermənistandan keçərək Anadoluya gəlməsi nəzərdə tutulurdu.[48] Buna görə də Azərbaycanın sovetləşməsi xəbəri Ankarada böyük razılıq hissilə qarşılandı. Uzağa gedən geopolitik məqsədlərini həyata keçirməyə çalışan Sovet Rusiyası isə, öz növbəsində, hər vasitə ilə hərbi strateji cəhətdən çox mühüm olan regionu, ilk növbədə Bakı neft-sənaye rayonunu ələ keçirməyə, Yaxın və Orta Şərqin qapısında möhkəmlənməyə çalışırdı.



Cənubi Qafqazda hadisələrin inkişafını diqqətlə izləyən V.İ.Lenin və RSFSR hökuməti neft Bakısına xüsusi diqqət yetirdi. Qafqaz cəbhəsi İnqilabi Hərbi Şuraya 1920-ci il 17 mart tarixli şifrələnmiş teleqramında V.İ.Lenin bütün sə'yləri "Bakını ələ keçirməyin" hazırlığına yönəltməyi tə'kidlə tələb edirdi.[49] Eyni zamanda RSFSR Silahlı Qüvvələri Baş komandanlığının V.İ.Leninə göndərilmiş 20 mart tarixli məktubunda göstərilirdi ki, Cənub istiqamətində fəal hücum əməliyyatları keçirmək üçün Qafqaz cəbhəsi qoşunlarının kifayət qədər hazırlıqlı olmaması ilə əlaqədar, həmçinin Gürcüstanla Azərbaycanın inadlı mübarizəyə hazılandığı halda bizim hücumların ilk mərhələsi məğlubiyyətlə qurtara bilər". Daha sonra sənəddə qeyd edilir ki, bizim əlimizdə Gürcüstan və Azərbaycanın və ya heç olmazsa bu respublikaların birinin daxili vəziyyəti haqqında dəqiq mə'lumatlar olmalıdır. Əgər Sovet Rusiyası qoşunlarının bu ölkələrin sərhədlərində görünməsi daxildə inqilabi hərəkata səbəb olacaqsa o zaman uğurlu hücum imkanı istisna edilmir. Başqa sözlə, əgər Gürcüstan və Azərbaycanda inqilabi vəziyyət varsa Qafqaz cəbhəsinin vəziyyətdən asılı olmayaraq bizim hücumumuzu ləngitmək doğru olmazdı".[50] Artıq martın 23-də Baş komandan S.S.Kamenev Qızıl Ordunun Qafqazda Bakı istiqamətində əməliyyatlarının genişlənməsi barədə hökumət direktivinin həyata keçirilməsinə başladığı haqda Fəhlə-kəndli Müdafiə Şurasına mə'lumat verirdi.[51] RK(b)P MK-nın Vilayət büroları yaratmaq haqqında qərarına müvafiq olaraq 1920-ci il aprelin 8-də partiya Mərkəzi Komitəsinin plenumu RK(b)P MK-nın Qafqaz bürosunun yaradılması haqqında qərar qəbul etdi. Büronun tərkibinə S.M.Kirov, A.M.Nazaretyan, N.N.Nərimanov, Q.K.Orconikidze, Y.D.Stasova və digər rəhbər partiya xadimləri daxil oldular.[52]

Bakıda üsyan başlandığı halda birgə hərəkatı əlaqələndirmək məqsədilə bütün aprel ayı ərzində RK(b)P Qafqaz diyar komitəsinin Bakı bürosu, AK(b)P

və Kirovun, XI Ordunun komandanlığı ilə yazışmaları bütün aprel ayı ərzində davam edirdi. XI Ordu komandanlığı, RK(b)P Qafqaz diyar komitəsi və AK(b)P nümayəndələrinin iştirakı ilə aprelin 22-də Bakıda və aprelin 25-də Port-Petrovskda keçirilən müşavirələrdə gələcək birgə əməliyyatların planı təfsilatı ilə müzakirə edildi. Bu plan, aprelin 27-də Bakıda kommunistlərin silahlı çıxışını və həmin gün XI ordunun Azərbaycan sərhəddindən keçməsini nəzərdə tuturdu. AK(b)P rəhbərliyi dövlət çevrilişi planının reallaşdırılması üçün vaxtın yetişdiyini qət etdi. Aprelin 25-də bütün partiya komitələri hərbi komandanlığın tabeliyinə keçirildi və xəbərdarlıq olundu ki, komandanlığın əmrinə tabe olmayanlara ölüm cəzası verəcəkdir.

Aprelin 27-də səhər tezdən kommunistlərin silahlı dəstələri həm şəhər daxilində, həm də onun kənarlarında ən mühüm obyektləri: dəmiryol vağzalı, poçt, teleqraf, radiostansiya, polis məntəqələri, iri neft mədənləri və sənaye müəssisələri, hərbi və ticarət limanı və s. yerlər ələ keçirməyə başladılar. Təxribatçı qrupların köməyilə Bakının şimal sərhəddi və Gəncə arasında telefon və teleqraf əlaqəsi kəsildi, bu da hökumətə əyalətlərdə yerləşən özünə sadiq hərbi hissələri vaxtında köməyə çağırmağa imkan vermədi. Bakı qarnizonu isə, əslində, Azərbaycan İnqilab Komitəsinin tərəfinə keçdi. Eyni zamanda hərbi nazir S.Mehmandarov zabitlərə yeni hakimiyyətə tabe olmağı əmr etdi.

1920-ci ilin aprelində Bakıda hərbi çevrilişin hazırlanması və keçirilməsində burada olan türk hərbi xidmətçiləri və kommunistləri fəal rol oynadılar. Məhz onların köməyi nəticəsində şəhərdə bir çox ən mühüm obyektlər, o cümlədən dəmiryol vağzalı tutuldu, şəhərin hərbi qubernatoru M.G.Tlexas həbs edildi.[53] Məhz türk zabitləri və əsgərləri hökumətin Bakını tərk etmək cəhdinin qarşısını aldılar.[54]

Bakıda baş verən aprel hadisələrində Xəzər Hərbi donanması əhəmiyyətli rol oynadı. Donanma gəmilərinin



hey'əti bu dövrdə kommunistlərdən və onlara rəğbət bəsləyən matroslardan ibarət idi. Hakimiyyəti 2 saat ərzində Azərbaycan İnqilab Komitəsinə təhvil vermək barədə ultimatum verən hərbi gəmilər sahildə düzülərək öz toplarını hökumət orqanları binalarına tuşladılar.

Aprelin 27-də günorta, artıq hərbi drujinaların, faktiki olaraq, şəhərdə vəziyyətə tam nəzarət etdiyi və XI Ordunun ön hissələrinin Azərbaycan Cümhuriyyəti ərazisinə daxil olduğu bir vaxtda, Azərbaycan İnqilab Komitəsi hakimiyyəti ələ keçirməyinə qanuni don geydirməyə çalışırdı. Bu məqsədlə aprelin 27-də saat 11-də başda H.Sultanov olmaqla kommunistlərin nümayəndə hey'əti, AK(b) MK, RK(b)P Qafqaz diyar komitəsinin Bakı bürosu və Mərkəzi fəhlə konfransı adından hakimiyyəti N.Nərimanov başda olmaqla Sovet fəhlə-kəndli hökumətinə təslim etmək barədə parlamentə Ç.İldırım tərəfindən tərtib olunmuş ultimatum verdi. Cavab iki saat ərzində verilməli idi, əks halda bolşeviklər atəş açmaqla hədələyirdilər.[55]

Verilən ultimatumu müzakirə etmək üçün parlament iclasından əvvəl M.H.Hacınski, M.Rəsulzadə, Q.Qarabəyov, A.Səfikürdski, A.Qardaşovdan ibarət komissiya yaradıldı. Komissiya ultimatuma cavab olaraq, öz şərtlərini hazırladı və bu şərtlər parlamentin müzakirəsinə verildi.

N.Usubbəyovun yanında məhdud dairədə keçirilmiş müşavirədə Ş.Rüstəmbəyov bə'zi deputatlara qan tökülməsinə yol verməmək üçün Bakıdan çıxmağı və bolşeviklərə qarşı mübarizəni təşkil etmək üçün Gəncəyə keçməyi təklif etdi. Lakin, onun təklifini toplantı iştirakçıları qəbul etmədilər.[56] Saat 20.45-də Azərbaycan parlamentinin tə'cili iclası açıldı. Gündəlikdə bir məsələ - hakimiyyəti təhvil vermək barəsində Azərbaycan İnqilab Komitəsinin ultimatumu məsələsi dururdu. Məsələnin müzakirəsindən əvvəl çıxış edən hərbi nazir S.Mehmandarov parlamentə silahlı müqavimətin mümkün olmadığını bildirdi. M.Rəsulzadənin tə'kidi ilə "xalqdan xəbərsiz

qərarların qəbul olunmaması və xalqın bizim hansı vəziyyətdə olduğumuzu bilməsi üçün" parlamentin açıq iclasını keçirmək qərara alındı.[57]

Ultimatumun mətnini oxuyan və öz təslimçilik mövqeyini bir daha nümayiş etdirən M.H.Hacınski, ultimatumun şərtlərini qəbul etməyi təklif etdi və deputatları inandırmağa çalışdı ki, Qızıl Ordu Bakıya girmədən, Türkiyəyə köməyə getmək niyyətindədir.[58] Qızğın müzakirələrin gedişində çıxış edən müxtəlif parlament fraksiyalarının nümayəndələri: S.Ağamalı oğlu, ("Hümmət"), Q.Qarabəyov ("İttihad"), A.Səfikürdski (sosialist bloku), A.Qardaşov ("Əhrar") M.H.Hacınskinin hakimiyyəti vermək təklifini müdafiə etdilər.

"Müsavat" fraksiyası adından, onun sədri M.Rəsulzadə çıxış etdi. O, dedi: "Bizə kobud ultimatum verilmişdir. Bizim xilaskarımız, bizim hörmət etdiyimiz Türkiyədir. Biz öz müstəqilliyimizin tapdalanmaması şərti ilə Türkiyəyə köməyə gedən qüvvələri müdafiə edirik. Lakin cənablar, bizim razılığımızı soruşmadan sərhədlərimizi keçən qüvvələr bizə dost deyil, düşməndir. Bu ultimatumun qəbul edilməsi, hakimiyyəti dost maskası geymiş düşmənə vermək deməkdir. Biz buraya millətin iradəsi və arzusu ilə gəlmişik və bizi buradan yalnız güc və süngü ilə çıxarmaq olar".[59] Lakin vətəndaş müharibəsi təhlükəsini nəzərə alan "Müsavat", Azərbaycanın müstəqilliyinin saxlanacağı şərti ilə, bolşeviklərin ultimatumunu qəbul etmək haqqında çoxluğun fikrinə qoşulmağa məcbur oldu.

Səsverməə nəticəsində (əleyhinə-1, bitərəf qalanlar-3, səsvermədə iştirak etməyənlər-3 nəfər) 1920-ci il aprelin 27-də saat 11 radələrində palament hakimiyyətin Azərbaycan İnqilab komitəsinə verilməsi haqqında qərar qəbul etdi. Parlament sədrinin müavini M.Y.Cəfərov və işlər idarəsinin direktoru M.Vəkilov tərəfindən imzalanmış sənəddə hakimiyyətin verilməsi şərtləri göstərilirdi: "Nəzərinizə çatdırırıq ki, biz aşağıdakı şərtlərlə hakimiyyəti təhvil veririk: 1) Sovet hakimiyyəti tərəfindən



idarə edilən Azərbaycanın tam müstəqilliyi saxlanılır; 2) Azərbaycan Kommunist Partiyasının yaratdığı hökumət müvəqqəti orqan olacaqdır; 3) Hər cür xarici təzyiqlərdən asılı olmayaraq, Azərbaycanın qəti idarə formasını Azərbaycan fəhlə, kəndli və əsgər deputatları Soveti simasında Azərbaycanın ali qanunvericilik orqanı müəyyən edəcəkdir; 4) Hökumət idarələrinin bütün xidmətçiləri öz yerlərində qalır və yalnız mə'sul vəzifə tutan şəxslər dəyişdirilir; 5) Yeni təşkil olunan müvəqqəti kommunist hökuməti və parlament üzvlərinin həyatının və əmlakının toxunulmazlığına tə'minat verir; 6) hökumət Qızıl Ordunun döyüşlə Bakıya girməsinin qarşısını almaq üçün tədbirlər görəcəkdir; 7) Yeni hökumət kimin tərəfindən təşkil edilməsindən asılı olmayaraq Azərbaycanın müstəqilliyinə son qoymaq məqsədi güdən bütün xarici qüvvələrə qarşı qəti tədbirlərlə və bütün vasitələrlə mübarizə aparacaqdır". Qərarın yekun hissəsində göstərilirdi: "Azərbaycan parlamenti özünün fövqəl'adə iclasında səs çoxluğu ilə bu şərtləri qəbul etmişdir və onu Sizin nəzərinizə çatdırırıq".[60]

1920-ci il aprelin 27-dən 28-ə keçən gecə parlament buraxıldı. N. Nərimanov (sədr), A.A.Alimov, D.H.Bünyatzadə, M.D.Hüseynov, Ə.Qarayev, Q.M.Musayev və H.Sultanovdan ibarət olan Müvəqqəti İnqilabi Komitə həmin gün Azərbaycanı Sovet Sosialist Respublikası e'lan etdi və əvvəlcədən razılaşdırıldığı kimi, radio vasitəsilə RSFSR hökumətinə Qızıl Ordu hissələrini göndərmək yolu ilə dərhal real kömək göstərmək" haqqında rəsmi xahişlə müraciət etdi.[61]

Lakin XI Ordunun ön dəstələri artıq aprelin 27-ə keçən gecə, Bakıdakı kommunistlərin çıxışlarının başlanmasına qədər, planı əvvəlcədən Q.K.Orconokidzenin fəal iştirakı ilə M.Q.Tuxaçevski və qərargahın rəisi S.A.Puqaçovun rəhbərliyi altında Qafqaz cəbhəsi qərargahı tərəfindən hazırlanmış Bakı əməliyyatının həyata keçirilməsinə başladı. Qafqaz cəbhəsi komandanlığının 490 No-li 1921-ci il aprel tarixli direktivinə əsasən XI Ordunun komandanı M.K.Levandovski aprelin 27-də

Azərbaycan sərhəddini keçməli və ən qısa müddətdə Bakı quberniyası ərazisini tutmalı idi. Gürcüstan və ya Şimali İran ərazisində yerləşən ingilis qoşunlarınm Azərbaycan Cümhuriyyətinə kömək etməsinin qarşısmı almaq üçün, əməliyyatı 5 gün ərzində başa çatdırmaq nəzərdə tutulurdu. Volqa-Xəzər hərbi donanmasının komandanı F.F.Raskolnikova XI Ordunun hissələri yaxınlaşarkən Bakıda neftdaşıma donanmasını ələ keçirmək və neft mə'dənlərinin dağıdılması imkanını aradan qaldırmaq üçün Ələt stansiyası rayonunda hərbi -dənizçilərdən ibarət desant çıxarmaq tapşırığı verilmişdi. 490 saylı direktivə əlavə olaraq, aprelin 23-də XI Ordunun son vəzifəsi kimi Azərbaycan Cümhuriyyətinin bütün ərazisinin ələ keçirilməsi irəli sürülürdü.[62]

Hələ aprelin ortalarında XI Ordunun birlikləri və hissələrinin Azərbaycan sərhəddində cəmləşməsi başlandı. Gələcək əməliyyatlarda iştirak etmək üçün 20-ci, 28-ci və 32-ci atıcı diviziyaları (20 minə yaxm süngü), sonralar 2-ci süvari korpusda birləşdirilən 7-ci və 8-ci süvari diviziyaları və Taman süvari briqadası (cəmi 7 min qılınc) ayrılmışdılar. Ordunun sərəncamına Dərbənddə yerləşən 5 zirehli qatar, həmçinin bir neçə aviasiya dəstəsi verilmişdi.[63] Ordu komandiri M.Levandovski 25 aprel tarixli əmrlə hərbi hissələrə konkret tapşırıqlar verdi: 2-ci korpus özünün əsas qüvvələrilə aprelin 30-a qədər Şamaxı-Ağsu rayonunu ələ keçirməli və Kürdəmir stansiyasında Bakı-Gəncə dəmir yolunu bağlamalı idi. Qızılburuna çatdıqda atıcı diviziyalarla birgə Bakıya hücum etmək üçün öz qüvvələrinin bir hissəsini ayırmalı idi. 3 atıcı diviziyaları isə öz növbəsində dəmir yol xətti boyunca Bakıya hücum etməli və 1920-ci il mayın 1-ə qədər bütün Bakı neft rayonunu ələ keçirməli idi.

Nəzərdə tutulan əməliyyatda, ordunun tərkibinə daxil olan zirehli qatarlar qrupuna xüsusi əhəmiyyət verilirdi. Dəmir yolu döyüş məntəqəsinin rəisi M.Q.Yefremova 4 zirehli qatarı və 28-ci diviziyanın 299-cu atıcı polkunun 2 alayından ibarət desantla birlikdə (cəmi 350 qızıl əsgər) sür'ətli hərəkətlə Bakıya soxulmaq tapşırığı



verilmişdi. Qızılburun, Giləzi və Sumqayıt stansiyaları ərazisində dəmir yolunun dəniz sahilinə və topların atəşinə lap yaxın olduğu nəzərə alınsa, Azərbaycan donanmasının cəmi bir döyüş gəmisi, dəmir yol xəttini dağıtmaq və sovet zirehli qatarlarmın irəliləməsinin qarşısını almaq üçün tamamilə kifayət idi. Gəmilərdə 3 uzaqvuran sahil artileriyası topları qoyulmuşdu. Lakin donanma Azərbaycan İnqilab Komitəsinin tərəfinə keçdiyinə görə döyüş gəmiləri reyddə görünmədilər.

Samur sərhəd körpüsünün minalanması barədə Sovet komandanlığımn narahatçılıqları əsassız idi. Belə mühüm obyekti cəmi bir vzvod Azərbaycan əsgərləri qoruyurdular. Cəmisi isə şimal sərhəddindən Bakıya qədər Azərbaycan Ordusunun çox az qüvvələri 3 min nəfərlik nizami qoşun dəstələri və ehtiyat batalyonu (onlara verilmiş zirehli qatarlarla birlikdə cəmi 5 min süngü və qılınc) yerləşdirilmişdi. Yalama-Xudat rayonunda həmçinin iki cərgə tikanlı çəpərlə 2 möhkəmləndirmiş məntəqə, Bakı yaxınlığında isə 3 cərgə tikanlı çəpərlər yaradılmışdı.[64]

Aprelin 27-də saat 1-ə 5 dəqiqə işləmiş, Azərbaycan parlamentinə ultimatum verilməsindən 12 saat əvvəl A.Mikoyan, Q.Cəbiyev və Q.Musabəyovun da olduğu "III Beynəlmiləl" zirehli qatarı Samur körpüsündən keçdi və yol boyu qəflətən yaxalanmış azsaylı və pərakəndə Azərbaycan Ordusu hissələrinin müqavimətini qırmaqla Bakıya hərəkət etdi. İki saatlıq qanlı döyüşlərdən sonra zirehli qatarlar Yalama stansiyasını ələ keçirdilər. Stansiyanı 4 top və 10 pulemyotla Quba polkunun 2 alayı, süvari divizionu (300-ə qədər qılınc), jandarm dəstəsi (200 nəfərə yaxın) qoruyurdular. Bu döyüşdə Sovet əsgərlərinin 6 nəfəri öldürüldü və 8 nəfəri yaralandı.

Süvari - dağ divizionu (3 top), kürd batalyonunun 2 rotasının (2 top), gücü ilə mühafizə olunan Xudat stansiyası yaxınlığında 1 N-li Azərbaycan zirehli qatarının qırmızı zirehli qatarların irəliləməsini dayandırmaq üçün yeni cəhdi də uğursuzluqla qurtardı. Sovet zirehli

qatarlarının hərəkətini gecikdirmək məqsədilə geri çəkilən əsgərlər Xaçmaz stansiyası yaxınlığında körpünü yandırdılar və yol dəyişdiricisini sıradan çıxardılar. Lakin yanğın tezliklə söndürüldü, dəyişdirici düzəldildi və bundan sonra zirehli qatarlar əslində heç bir müqavimətə rast gəlmədən Bakıya hərəkət etdilər. Sonuncu qısa-müddətli döyüş Xırdalan və Biləcəri stansiyaları arasında baş verdi və bundan sonra Azərbaycan zirehli qatarı Keşlə, sonra isə Bakı stansiyasından uzaqlaşdı.[65] Aprelin 27-də axşam saat 11-də Biləcəri stansiyası sovet zirehli qatarları tərəfindən tutuldu, səhər saat 4-də isə "III Beynəlmiləl" zirehli qatarı Bakı stansiyasına gəldi.

Aprelin 30-da XI Ordunun əsas hissələri şəhərə daxil oldular. Onların irəliləməsi zamanı başda Xəlil-paşa olmaqla yerli əhali içərisində təbliğat aparan və əhalini Qızıl Orduya müqavimət göstərməməyə çağıran türk zabitləri qrupu Sovet qoşunlarına fəal kömək edirdi.[66] Həmin gün 7-ci süvari diviziyasının hissələri Şamaxı və Ağsuya daxil oldular, mayın 1-də isə Azərbaycan hissələrinin müqavimətini aradan qaldıran sovet zirehli qatarları Gəncə stansiyasını ələ keçirdilər.

Mayın 1-də Volqa-Xəzər hərbi donanmasının gəmiləri Bakı limanına daxil oldular. Mayın 3-də və 4-də Lənkəran və Astaraya hərbi dəniz desantı çıxarıldı. Mayın 5-də XI Ordunun süvari dəstələri Qazağa, mayın 7-də Yevlax rayonlarına daxil oldular. 1920-ci il mayın ortalarında XI Ordu Azərbaycan Xalq Cümhuriyyətinin, demək olar ki, bütün ərazisini nəzarət altına aldı.

Beləliklə, Rusiya müdaxiləsi nəticəsində milli Azərbaycan hökumətinin hakimiyyəti devrildi.

QEYDLƏR:


1. Азербайджан, 1920, 6 марта.
2. Азизбекова П.А. АДР и межнациональные отношения (1918-1920 гг.). Известия АН АР. Серия История, философия и право, 1991, N 1, с.20.
3. Там же, с.22





4. Рустамбейли Ш. Из печального прошлого. Журнал, "Северный Кавказ", 1934, ноябрь, с.9.
5. Rəsulzadə M. Azərbaycan Cümhuriyyəti, s.54.
6. Иттихад, 1919, 11 декабря.
7. Там же. 1920, 2 января.
8. Светоховский Т. Руский Азербайджан, с.52.
9. ARDA, f. 894, s.10, iş.98, v.21.
10. Агамалиева Н. А. По поводу деятельности мусулманских политических партий накануне созыва I сьезда АКП(б), В Кн. Проблемы истории Азербайджана. Баку 1982, с.135.
11. Очерки истории Коммунистической партии Азербайджана Баку, 1986, с.432.
12. Дарабади П. Указ. соч.с.139.
13. Ağamalıyeva N.Ə. Azərbaycan parlamentinin fəaliyyətinə dair. Azərbaycan Demokratik Respublikası parlamentinin fəaliyyətinə dair. Azərbaycan Demokratik Respublikası (tarix, ictimai-siyasi və ədəbi-mədəni həyat), s.89.
14. Абдуллаева А. Ф. Культурно-просветительская деятельность массовых рабочих организаций в Баку и его районах (конец 1918 - начало 1920 года). Труды научной конференции, посвященной дню восстановления Азербайджанской государственнос-ти,с.123.
15. ARDA, f.894, s.9, 19, iş.188, v.1.
16. Абдуллева А. Ф. Указ. соч. с.123.
17. Рустамбейли Ш. Из печального прошлого. Северный Кавказ (журнал), 1934, ноября, с.8.
18. ARDA, f.894, s.19, iş.107, v.5.
19. Yenə orada.
20. Yenə orada, iş 249, v.4-6.
21. Адрес калеидарь. с.27.
22. ARDA f. 894, s.10, iş.107, v.8.
23. Леиин В. И. ПСС, т.51, с.163.
24. ARDA, f.894, s.10, iş.107, v.8.
25. Yenə orada. v.14.
26. Новый мир 1920, 19 февраля.
27. Иттихад, 1920, 20 февраля.

28. Там же.
29. Там же. 20 января.
30. Там же. 4 апрел.
31. Ağamalıyeva N. Azərbaycan parlamentinin fəaliyyətinə dair. s.90.
32. Yenə orada.
33. Искра, 1920, 9 апреля.
34. Там же. 17 апреля.
35. Там же.
36. ARDA, f. 28, s.1, iş.226, v.33-34.
37. Yenə orada, f.894, s.10, iş.10, v.17.
38. Дарабади П. Указ соч. с.151.
39. Там же.
40. Там же.
41. Караев А. Г. Из недавиого прошлого. Баку, 1926, с.115.
42. ARDA, f.894, s.10, iş.6, v.215.
43. Балаев А. Указ соч. с.66.
44. Rüstəmbəyli Ş. Göst. əsər: s.10.
45. Михайлов Я. П. Экспансия Британского империализма в Азербайджане в 1918-1920-годах. Авт. канд. дисс.,Баку, 1985,с.23.
46. Хейфец А. Н. Советская Россия и сопредельные страны Востока в 1918-1920 годах. Москва, Наука, 1964, с.107.
47. Там же.
48. Ленин В. И. ПСС. т.51, с.163-164.
49. Директивы Главного командования фронтов Красной Армии 1917-1920 гг. Сб. документов. Москва, 1969, с. 734-735.
50. Там же. с.738.
51. Дарабади П. Указ соч. с.158.
52. Очерки истории Коммунистической партии Азербайджана, т. 1. с.437.
53. Azərbaycan arxivi, 1988, N-1-2, s.153.
54. Хейфец А. Н. Указ соч. с.108.
55. Бакинский рабочий, 1922, 28 апреля.
56. Rustambeyli Ş. B. 27 nisan 1920 hatirasi. "Azerbaycan yurd bilgisi", 1931, N-6.



57. За семью печатями. Сборник документов. Баку, 1992, с.4.
58. Там же. с.3
59. Там же. с.5
60. Azərbaycan arxivi, 1988, N1-2, s.193.
61. Борьба за победу Советской власти в Азербайджане, 1918-1920гг. с.462-463.
62. Директивы главного командования фронтов, т.III, М., 1974, с.310.
63. Там же, с.309, VI эилд. М., 1978, с.148.
64. Дарабади П. Указ. соч. с.162.
65. Бакинская операция XI Армии. EA Xəbərləri (tarix, fəlsəfə, hüquq seriyalı) 1992, N-5, s.31.
66. Дарабади П. Указ. соч.

# AZƏRBAYCAN CÜMHURİYYƏTİNİN TARİXİ ƏHƏMİYYƏTİ

## *(Nəticə)*

Azərbaycanın ta qədim çağından bəri çoxəsrlik tarixinə idrakın məntiqi zirvəsindən nəzər salsaq, ümdə bir nəticəyə gəlmək olar ki, bu günkü suveren Azərbaycan dövləti ikinci minilliyin XIX-XX əsrlərində Azərbaycan millətinin bərqərarlaşmasının qanunauyğun labüd nəticəsidir. Azərbaycan coğrafi məfhum, təbii məkan kimi, həm də Azərbaycan xalqı ictimai - sosial, siyasi varlıq kimi çox əzablı, çətin və mürəkkəb yol keçmiş, ancaq dünya cəmiyyəti tərəfindən tam tanınmış müstəqil ölkə kimi, əsl azad Azərbaycan xalqının bəşəriyyətin tam hüquqlu üzvü kimi əbədiyyəti bu iki yüzilliyin bəhrəsi, tarixi şansıdır. Azərbaycan xalqının salnaməsində bu əlamətdar hadisənin dominantı, birinci növbədə, XX əsrdə yaranmış üç Respublikadır: Azərbaycan Cümhuriyyəti (1918-28 may - 1920-28 aprel), Azərbaycan SSR (1920-28 aprel - 1991-18 oktyabr) və əsl Prezidenti, lideri H.Ə.Əliyev olan Azərbaycan Respublikası. Möhtərəm Prezident H.Ə.Əliyev qeyd edir: "Əgər XX əsrin əvvəlində xalqımız milli azadlıq, dövlət müstəqilliyi yolunda ilk dəfə böyük addım atıbsa, XX əsrin sonunda milli azadlığa, dövlət müstəqilliyinə tam nail olubdur".

Azərbaycan Cümhuriyyətinin görkəmli ictimai - siyasi xadimi M.Rəsulzadə göstərirdi ki: "28 may ilk dəfə olaraq, Türk və İslam dünyasında Cümhuriyyət e'lan etmişdir: 28 may ilk dəfə olaraq Azərbaycan xalqının siyasi vəhdətini təsbitlə Türk Narsi (Harsi) və millət məfkurəsi uzerine muesses demokratik bir Cümhuriyyət əsasını qoymuşdur. 28 may Azərbaycan gəncliyinin



hərarət və həyacanla müqəddəs idealı sevgidən şanlı istiqlal bayrağını yüksəltmişdir. Nəhayət, 28 may, Azərbaycan tarixində tamamilə yeni bir nəsil yetişdirən bir dövr açmışdır".

İyirmi üç ay ömür sürmüş Cümhuriyyətin Azərbaycan həyatında yeni dövr açdığı definisyasını əsaslandırmaq, onun tarixi əhəmiyyətini elmi cəhətdən təsbit etmək üçün bu ayların ümdə hadisələrini qısaca nəzərdən keçirmək kifayət edərdi. Azərbaycan Cümhuriyyətinin çoxəsrlik tariximizdə taleyüklü əhəmiyyətini, bunlar elmi və hüquqi nöqteyi - nəzərdən təkzib edilməz amil və həqiqət kimi təsdiqləyir.

Taleyin Azərbaycan Cümhuriyyətinə bəxş etdiyi zamanın kiçik bir xronoloji çərçivəsində, Azərbaycan tarixinin, milli - dövlətçilik oyanışı, milli ərazi bütövlüyünün müdafiəsi, bəşəriyyətin Azərbaycanı tanıması, Azərbaycan cəmiyyətində başlanan yenilik sosial - iqtisadi, mədəni dəyişikliklərlə zənginləşən bir dövrü olmuşdur. Azərbaycan Cümhuriyyətinin tarixi əhəmiyyəti də ən ümdə bundadır.

80 il bundan əvvəl axşam, Rusiya imperatorunun Qafqazı idarə edən vəkilinin sarayında, Zaqafqaziya Seyminin müsəlman qrupuna ayrılan Mavi Salonunda Azərbaycan Milli Şurasının üzvləri doktor Həsən bəy Ağa oğlunun sədrliyi ilə iclasa toplaşdılar. Doktor Həsən bəy Ağa oğlu Zaqafqaziya Seyminin dağılması, diyarda yaranmış daxili və xarici vəziyyət haqqında mə'lumat verdikdən sonra Azərbaycanın azad və müstəqil bir dövlət olması haqqında məsələni rə'yə qoyur. Uzun və hərtərəfli müzakirədən sonra katib Müstafa Mahmudi adları oxuyur: 24 səslə, 2 nəfərin bitərəf qalması ilə, Azərbaycan müstəqil dövlət e'lan edilməsi haqqında Bəyannamə qəbul olunur.

İstiqlal Bəyannaməsinin qəbulunda Seymdə və sonra Milli Şurada təmsil olunan "Müsavat" və ona qoşulan bitərəf demokratik qrupu fraksiya sayca hamısından çox idi (30 nəfər): Müsəlman sosialistlər bloku (7 nəfər); "İttihad" partiyası (3 nəfər); Sosial - demokrat (menşevik)

"Hümmət" partiyasının (4 nəfər), (əlbəttə bu siyahılar sonralar dəyişdirildi), aşağıdakı nümayəndələri iştirak edirdi: Həsən bəy Ağa oğlu, (Azərbaycan Milli Şurasının sədri M.Rəsulzadənin müavini), Mustafa Mahmudi katib, F.X.Xoyski, Xəlil bəy Xasməmmədov, Nəsib bəy Yusifbəyov, Mir Hidayət Seyidov, Nəriman bəy Nərimanbəyov, Heybət Qulu Məmmədbəyov, Mehdi bəy Hacınski, Əli Əsgər bəy Mahmudbəyov, Aslan bəy Qardaşov, Soltan Məcid Qənizadə, Əkbər Ağa Şeyx-ul İslamov, Mehdi bəy Hacıbababəyov, Məmməd Yusif Cəfərov, Xudat bəy Məlik-Aslanov, Rəhim bəy Vəkilov, Həmid bəy Şahtaxtınski, Firudin bəy Köçərli, Camo Hacınski, Şəfi bəy Rüstəmbəyov, Xofov-paşa Sultanov, Cəfər Axundov, Məhəmməd Məhərrəmov, Cavad Məlikyeqanov.

Azərbaycan millətinin bu şərəfli pleyadası Şimali Azərbaycanın Rusiya imperiyası tərkibinə XIX və XX əsrlərdə keçdiyi ictimai - siyasi, iqtisadi, sosial və mədəni inkişaf yolunda qazandığı yüksək intellektual sərvətidir. Bu şəxslərin əksəriyyəti Moskva, Sankt-Peterburq, Kiyev və başqa ölkələrin universitetlərində təhsil almış əsl zadəgan zümrəsini təmsil edirdilər. Demək olar zəmini yetişməkdə olan demokratik Cümhuriyyətin dan ulduzları idi. Onlardan doqquzuna ilk müstəqil demokratik Azərbaycan hökumətini təşkil etmək şərəfi mənsub olmuşdur.

28 mayda Milli Şuranın iclasında X. Xoyskinin e'lan etdiyi Azərbaycan Cümhuriyyətinin ilk hökuməti - demokratik timsalı olan koalision hökumət idi: yeddisi "Müsavat" və bitərəf qrupu, biri "Hümmət"i və biri də sosialistlər blokunu təmsil edirdi.

Azərbaycan Cümhuriyyəti mövcud olduğu dövrdən 5 kabinə dəyişilmiş, onun əvvəlki üçünə ali hüquq təhsilli X. Xoyski, sonrakı iki kabinəyə isə yenə ali hüquq təhsilli N. Yusifbəyov başçılıq etmişdir. Bütün kabinələr koalision olmuş, hətta parlament fəaliyyətə başlanandan sonra 3-cü kabinədə "Slavyan-rus" cəmiyyətinin üç nümayəndəsi (Pratasov - mailiyyə naziri; Qindes - Xalq



Səhiyyə naziri; Lizqar - Ərzaq naziri). 4-cü kabinədə isə "Slavyan-rus" cəmiyyətinin 2 nümayəndəsi; portfelsiz nazir kimi "Daşnaksütyun" nümayəndəsi X.Amaspur var idi.

İngilislər Azərbaycanı tərk edəndən sonra beşinci kabinə ancaq azərbaycanlılardan ibarət idi.

Azərbaycan Cümhuriyyəti, onun hökuməti, başqa dövlət idarələri və təşkilatları çox mürəkkəb, olduqca çətin daxili və xarici şəraitdə bərqərar olmağa başlamış və fəaliyyət göstərmişdir.

Demək olar ki, Azərbaycan Cümhuriyyəti e'lan olandan ilyarımdan çox Türkiyə və Antanta hökumətləri himayəsi (mandatı) altında olmuş, yeddi aya kimi ölkədə iki hakimiyyətlilik mövcud olub, Bakıda sovet hökuməti, Gəncədə isə milli hökumət fəaliyyət göstərib, Qərb dövlətləri tərəfindən də de-yure tanınmamışdır, de-fakto isə 1920-ci il 11 yanvarda e'tiraf edilmişdir.

Beləliklə, AC qarşısında ümdə vəzifə daxildə bütün Azərbaycan ərazisində tam hakimiyyətə nail olmalı və xarici siyasətdə isə onun dünya dövlətləri tərəfindən tanınması idi.

Ölkə əsl mə'nada birinci dünya müharibəsi aparan qüvvələrin və daxildə vətəndaş müharibəsi törədənlərin məngənəsində dözülməz vəziyyətdə olmuşdur.

Azərbaycan Milli Şurası və ilk hökumət iyunda Tiflisdən Gəncəyə köçdü. Gəncədə soyuq qarşılanan Azərbaycan Milli Şurası və ilk hökumət onlara qarşı əks qüvvələrin və bu vaxtı Gəncəyə öz dəstəsi ilə gəlmiş Ənvər Paşanın qardaşı Nuru Paşanın təzyiqinə mə'ruz qaldılar. Milli Şura buraxıldı, birinci hökumət kabinəsi dəyişildi, X.Xoyski sədr qalmaqla ancaq "Müsavat" və bitərəflərdən ibarət yeni ikinci kabinə yaradıldı. Birinci kabinədə olan "Hümmət" və sosialistlər blokunun nümayəndələri kənarda qaldılar.

Yeni hökumət iyunun 19-da Azərbaycanda hərbi vəziyyət e'lan etdi.

Azərbaycanın Şərqində hakimiyyətdə olan Bakı Komissarları sovetinin vəziyyəti də ağırlaşmışdı. İyulun

31-də Bakı xalq komissarları soveti iste'faya çıxdı və Bakıda hakimiyyəti ələ alan eserlər, menşeviklər, daşnaklar "Əksinqilabi Sentrokaspi Diktaturası" deyilən hökumət təşkil etdilər və ingilis müdaxiləçilərini Bakıya də'vət etdilər.

Azərbaycan hökuməti respublikanın bütün ərazisində hakimiyyətini təsbit etmək üçün milli qoşun hissələrinin yaradılmasına başladı. Azərbaycan milli qoşun dəstələri və könüllüləri Qafqaz İslam ordusunun köməyi ilə sentyabrın 15-də Bakıya daxil oldular. İki gündən sonra Azərbaycan hökuməti paytaxtı Bakıya köçürdü.

Osmanlı Türkiyəsinin qoşunlarının Azərbaycan Cümhuriyyəti ərazisində hakimliyi, Osman ordu komandanlığının, ələlxüsus Nuri paşanın, Azərbaycan hökumətinin daxili işlərinə bə'zən müdaxilə etməsi Azərbaycan Cümhuriyyətinin suverenliyinə toxunurdu. Osman ordu komandanlığı ilə Azərbaycan hökuməti arasında ixtilaflar yaranırdı. Belə vəziyyətin kəskinləşməsinə həmçinin qara qüvvələr tərəfindən ortaya atılan "ilhaqçılıq" məsələsi səbəb olurdu. Guya Azərbaycan Osmanlı dövlətinə ilhaq olunacaq, bu dövlətin bir vilayəti şəklində idarə ediləcək.

Bununla əlaqədar olaraq N. Yusifbəyovun bir Türkiyə hərbi xadimi ilə qonuşmasından gətirilən bir parça diqqəti cəlb edir: - Nəsib bəy demişdir: "Osmanlı Ordusunun Azərbaycana gəlməsi lazımdır, amma bizi qorxudan odur ki, türklər bizi İstambuldan idarə etməyə qalxmasınlar... bizim ədəmi mərkəziyyət üzərində qurulmuş Proqramımız var... Azərbaycanın sosial quruluşu başqadır - Sultan rejimi buradakı əhvala uymaz. Milli və demokratik bir idarə istəyirik".

Çox maraqlıdır ki, M.Rəsulzadə 1920-ci illərin axırlarında erməni jurnalisti A. Xondkaryanın Kerenskinin orqanı "Dni" qəzetində "Na slujbe u Turtsii" məqaləsinə İstambulda çıxartdığı "Odlu Yurd" qəzetində, azərbaycanlılara (indiki kimi) erməni ziyalılarının "pantürkizm"i əlaqədar iftirasına cavab olaraq yazmışdır: "Türk xalqları, onların irqi mənşəyinin birliyinin nəticəsi olaraq bir neçə mədəni sərvətləri saxlamaq arzularına



baxmayaraq, mübahisəsiz ayrı milli müstəqil dövlətlər yaratmağa can atırlar".

Mə'lumdur ki, birinci dünya müharibəsində Sultan Türkiyənin məğlubiyyətindən sonra Mudros barışığının şərtlərinə görə Türk qoşunları 1918-ci il noyabrın əvvəllərində Azərbaycanı tərk etdilər.

Bununla belə onu da qeyd etmək lazımdır ki, o dövrdə Azərbaycan xalqının ən ağır günlərində, Türkiyənin müvəqqəti qüvvələri, Türk xalqı, Azərbaycan xalqına böyük qardaşlıq köməyi göstərmişdilər. Türkiyənin çox nümayəndələri Azərbaycanda qalıb, onun ictimai-siyasi və mədəni quruculuğu həyatında yaxından iştirak etmişlər.

Beynəlxalq müqavilə əsasında Azərbaycan Antantanın nüfuz dairəsinə daxil edildi. Antanta adından ingilis qoşunları Bakıya daxil oldular. Bakının neft sərvətinə sahib olmaq Qərb imperialistlərinin çoxdankı arzusu idi.

Noyabrın 17-də general Tomsonun komandanlığı altında Ənzəlidən gələn ingilis - fransız - amerika hərbi dəstəsinin Bakı portunda xarici işlər nazirinin müavini Azərbaycan hökuməti adından təbriklə qarşıladı.

Azərbaycan Cümhuriyyətinin həyatında yeni çox ziddiyyətli vəziyyət yaranmışdı. İngilislərin işğal rejimi şəraitində, AC öz müstəqilliyi, istiqlaliyyəti uğrunda çətin mübarizə aparırdı.

Antanta və başqa ölkələr hələ AC-ni rəsmən tanımamışdılar. Hərçənd ki, Bakıda, İngiltərənin, ABŞ, Fransanın, İtaliyanın, Avropanın ondan çox başqa ölkələrin müxtəlif sahədə və səlahiyyətdə nümayəndələri, konsulları var idilər. Amma Antanta hakimləri Azərbaycana müttəfiqləri Rusiyanın "vahidliyi və bölünməzliyi" mövqeyindən onun bir ucqar hissəsi kimi baxırdılar.

Müttəfiqlərin Azərbaycan Cümhuriyyətini tanımamaq siyasəti, Bakıda Azərbaycan Cümhuriyyətinə düşən qüvvələrin fəallığını artırdı. Hətta Azərbaycan hökumət dairələrinin bə'zi üzvlərində təslimçilik əhval - ruhiyyəsi yaranmışdı. Bu mürəkkəb və ağır vəziyyətdə Azərbaycan Cümhuriyyətinin mübariz vətənpərvərləri inadkarlıq və

müdriklik göstərərək, Azərbaycan milli şurasını bərpa edib, ingilis dairələri ilə kontakt yaradaraq diplomatik vasitələrlə Tomson tərəfindən Azərbaycan ərazisində Azərbaycan hökumətinin de-faktor tanımağa nail oldular. Bu Azərbaycan Cümhuriyyətinin liderlərinin mühüm uğurlarından biri idi.

Həmçinin 1918-ci il dekabrın 7-də açılan parlamentidə (diplomatik nümayəndələr lojasında general Tomsonun nümayəndəsinin Kokkerel və başqa qonaqlar oturmuşdular) müsəlman Şərqinin ilk parlamentin yaradılmasını Azərbaycan milli - demokratik qüvvələrin böyük qələbəsi hesab etmək olar. Parlamenti təbrik nitqi ilə açan M.Rəsulzadə parlamentdə təmsil olunan partiyalara, 11 fraksiya və qruplara xitabən demişdir: "firqə ehtirasları, şəxsiqərəzləri və bütün bu kimi vətən və millət qayəsi qarşısında sofla qalan qərəzləri atıb, vətən qayğısı və millət duyğusunu hər şeydən yüksək tutmağa" çağırmışdı.

Hüquqşünas Əli Mərdan bəy Topçubaşov parlamentin sədri, müsavat partiyasının üzvü d-r Həsən bəy Ağayev isə onun müavini seçildi. 1918-ci il 26 dekabrda X.Xoyskinin sədrliyi ilə yeni koalisyon hökumət təsdiq olundu. Bu əslində Azərbaycan Cümhuriyyətinin üçüncü hökumət kabinəsi idi, general Tomson bu münasibətlə verdiyi bəyanatda qeyd etmişdir: "Azərbaycanın cənab F.Xoyskinin sədrliyi ilə koalision hökumətinin yaranmasını nəzərə alaraq mən e'lan edirəm ki, Müttəfiq Komandanlıq, Azərbaycan hüdudlarında yeganə yerli hakimiyyət kimi bu hökumətə tam kömək edəcəkdir".

Azərbaycan parlamenti burjua demokratik prinsipinə əsasən uyğun parlament idi. Vaxtı ilə əsas tərkibi məclisi - müəssana seçilmiş müsəlman nümayəndəliyi yaranmış, Azərbaycan milli Şurasının təməlində və kooptasiya yolu ilə meydana gəlmiş parlament Azərbaycan xalqının siyasi şüurunun, onun milli demokratik qüvvələrinin dövrünün mütərəqqi ictimai - siyasi səviyyəsində olduğunu təsdiq edən mühüm amildir.

1918-ci il dekabr parlamenti adi parlament deyildi, o, əsl mə'nada xarakterik Azərbaycan parlamenti idi. O, tarixi xariqələr yaratmış bəşəriyyətə böyük dəyərlər



vermiş müsəlman Şərqində, çoxəsrlik Azərbaycan salnaməsində fövqəl'adə bir hadisə idi. Onun elmi prinsipləri əsasında obyektiv öyrənilməsi tarixi təcrübə baxımından bu günümüz üçün də aktualdır.

Azərbaycan parlamentinin bir əhəmiyyəti də onda idi ki, Qərbi Avropa hakim dairələrinə Azərbaycan Cümhuriyyətinin respublika üsuli - idarəsi yaratmaq, başqa dövlətlərlə sülh, dostluq siyasəti yeridən humanist, milli demokratik əhval - ruhiyyə olduğunu gördülər. Heç də təsadüfi deyildir ki, Qərbi Avropa hakim dairələrini təmsil edən general Tomson Azərbaycan Cümhuriyyətinin suverenliyini məhdudlaşdıran bir neçə tədbirləri ləğv etmiş və ya da zəiflətmişdir.

M.Rəsulzadə "Azərbaycanın müstəqilliyi haqqında" başlığı ilə görkəmli ictimai - siyasi, dövlət və partiya xadimlərinə paylanmış anketaya belə bir qeyd etmişdir: "Azərbaycan - müsəlman aləmində birinci respublika və türk aləmində birinci dövlətdir". Bu bəyanatı M.Rəsulzadə belə aydınlaşdırır: "Bütün başqa əsl türk mənşəli dövlətlər meydana gələndə başlıca olaraq dinə əsaslanmışlar. Azərbaycan Cümhuriyyəti halbuki milli - mədəni tə'yin müqəddəratın müasir təməli türk milli demoktarik dövlətçiliyi zəminində tə'sis edilir və bu baxımdan bizim Cümhuriyyət ilk türk dövlətidir". M.Rəsulzadə göstərdi ki, Azərbaycan xalqı "mənim dərin əqidəmə görə, dünyaya orjinal mədəni nümunəsi verir".

M.Rəsulzadənin bu kəlamları, fikirləri diqqəti cəlb edir, onların dərin mə'nalı qatlarına var gəlmək həvəsi oyadır.

Bu cəhətdən "Müsavat" partiyasının ikinci qurultayının (1919-cu il dekabr) üç rəngli bayraqlarla bəzədilmiş iclas salonunda "Yaşasın Azərbaycan Cümhuriyyətinin demokratiyası!" sözləri ilə asılmış şüar da fövqəl'adə mə'na kəsb edir!

Azərbaycan parlamentinin mühüm tədbirlərindən biri Versal sülh konfransına, Parisə Ə.Topçubaşovun başçılığı ilə səlahiyyətli nümayəndələr hey'ətinin göndərilməsi idi. Tərkibə görkəmli ziyalı xadimlər M.H.Hacınski, Ə.Ağa-

oğlu, Ə.Şeyxülislamov, C.Hacıbəyli və başqaları daxil idi. Nümayəndə Hey'ətinin əsas məqsədi Azərbaycan Cümhuriyyətinin de-yure tanınmasına hər vəchlə nail olma idi.

Lakin bu məsələnin həlli ümumdünya miqyasında hakim dairələrinin, ələlxüsus Antantanın daxilində və onun keçmiş müttəfiqi çar Rusiyasının, "vahid və bölünməz Rusiyanın" bərpası siyasətinin gedişatından, həmçinin Qafqazda mövcud dövlətlərin qarşılıqlı münasibətindən və sovet Rusiyanın vətəndaş və xarici müdaxiləçilərə qarşı apardığı müharibənin nəticələrindən çox asılı idi. İranın hakim dairələrində, hətta dövlətin "Azərbaycan" adlandırılmasına e'tiraz səsləri, hətta "Qafqaz Azərbaycanı" öz "tarixi ərazisi" kimi iddialar eşidilirdi.

Çox maraqlıdır ki, Fevral inqilabını Kerzon və Qərb ölkələrinin başçıları Rusiyanın daxili məsələsi kimi qarşılamışdılar. Oktyabr inqilabını isə Rusiyanın daxili yox, beynəlxalq cəmiyyəti narahat edən məsələ e'lan etmişdilər.

Zaqafqaziya respublikaları arasında da həqiqi səmimi münasibətlər yox idi, ziddiyyətlər, ələlxüsus sərhəd, torpaq mübahisələri mövcud idi. Bu nöqteyi - nəzərdən Azərbaycan Cümhuriyyətinin bərqərarlaşdığı dövrünün zamanımız üçün çox aktual mühüm əhəmiyyət kəsb edən ibrət dərəsləri vardır.

Hal-hazırda respublikamızın, Zaqafqaziyada yaranmış vəziyyəti əlimizdə olan sənəd və materiallar əsasında o dövrün vəziyyəti ilə tutuşduranda elə bil tarix təkrar olunur. Ələlxüsus erməni - azərbaycan münasibətlərində. Ancaq dövrünə, hadisələrin necə cərəyan etməsinə və nəticələrinə görə fərqlər də var. Çox qəribədir ki, bə'zi məqamlarda bu fərqlər müasirlərimizin xeyrinə deyil. Bunu təsdiq etmək üçün Azərbaycan parlamentinin 1 aprel 1920-ci il iclasında Qarabağ hadisələrinin müzakirəsinin stenoqrammasına baxmaq kifayətdir. Daxili işlər naziri Mustafa bəy Vəkilovun Qarabağ hadisələri haqqında mə'ruzəsində və başqa çıxışlarda erməni



qəsbkarlığının nə qədər məkrli, hiyləgər və düşünülmüş, vahid bir mərkəzdən idarə olunması, hətta "İrandan Qarabağa milyonların" gəlməsi, Denikin ordusunun ermənilərə hərtərəfli kömək etməsi, Qarabağ münaqişəsinin həllində Rusiyanın rolu, partiyaların məsələyə müxtəlif mövqedən yanaşması və s. barədə söylənənlər bu günün olaylarını xatırladır.

Eyni zamanda iclasda, erməni təcavüzkarlarına qarşı azərbaycanlıların qəhrəmancasına, mərdliklə vuruşmaları onların şəhər və kəndlərimizdən çıxarılmasında fədakarlıq göstərmələri, Qarabağ müdafiəsinə bütün Azərbaycan xalqının qalxması, "erməni hücumlarının Şuşada, Xankəndində dəf edilməsindən", "Qarabağın Cavanşir, Zəngəzur qəzalarında ermənilərə hər yerdən böyük zərbələr vurulduğundan" və s. bəhs olunurdu. Nazir çıxışında vurğulayırdı: "Məmləkətin hər tərəfindən camaat sel kimi könüllü sifətilə axıb məhəlli hadisəyə gəlməkdədir. Hazırda bu xalq axınının qarşısını almaq müşkül bir hal olmuşdur. Hər yerdən cəbhəyə qoşaraq kəndi qardaşlarının imdadına gəlirlər".

Bu ibrət dərsi xalqın yaddaşındanmı, yoxsa milli qeyrətdənmi, bizim dövrdə ermənilərə qarşı başlanmış ümumxalq hərəkatında nümayiş etdirilmişdir! Fəqət xain qüvvələr, səriştəsiz başçılar, milli mənsəblərini itirmişlər bu vətənpərvərlərin birliyinə, qəddar düşmənə qarşı vahid cəbhədə birləşməsinə mane oldular.

Çox maraqlıdır ki, erməni tərəfi Azərbaycan gürcü və başqa dövlət qurumlarının birliyə doğru yönəldilmiş konfranslar keçirməsində, hətta Qafqaz konfederasiyasına münasibətdə, Zaqafqaziya respublikalarının müstəqilliyinə ciddi təhlükə yaradan Denikinə münasibətdə ikiüzlü, hiyləgər və təhlükəli siyasət yeritmişdir. Qəribədir ki, Denikin qərərgahında, həmçinin, Antanta dairələrində erməni tərəfə hüsn-rəğbət var idi. O vaxt Ermənistanda və Amerika yardım komitəsinin fəaliyyət göstərməsi də təsadüfi deyildir. RSFSR Xalq xarici işləri komissarı G.Çiçerinin, indiki kimi, 1918-20-ci illərdə Azərbaycan qaçqınlarının baisi Andronikі haqlı olaraq "Antantanın

agenti" kimi qeyd etmişdir. "Qarabağ" torpaq iddiasını isə o vaxtı Qafqaz kommunistləri öz qərarlarında "Qərb imperializminin Qarabağ siyasəti" kimi qiymətləndirmişdilər.

Nümayəndə hey'ətinin başçısı Ə.M.Topçubaşov məktublarının birində yazırdı: "Onlar (ermənilər - *C.Q.*) bəlkə də bütün ölkələrin paytaxtlarında bizim əleyhimizə iş aparır, bizi dövlət həyatına, başqa xalqlarla yanaşı yaşamağa qadir olmayan millət kimi qələmə verirlər".

Azərbaycan Cümhuriyyətində, xaricdə Azərbaycan nümayəndəliyinin bilavasitə fəaliyyəti nəticəsində, əlxüsus, Azərbaycanın istiqlal gününün ildönümü münasibəti ilə Azərbaycanın tarixinə aid, Azərbaycan adı haqqında, onun iqtisadiyyatı, təbiəti və ictimai-siyasi qüvvələri, dövlət siyasəti və məqsədləri barəsində çoxlu məqalələr, broşüralar, xəritələr və mə'lumat kitabçası, mühazirələr, milli gecələr keçirilirdi. Parlament nəzdində isə "İstiqlaliyyət muzeyi" açılmışdır.

Xaricdə, Cenevrədə və başqa şəhərlərdə, nümayəndə hey'əti görüşlər tə'yin edir, müxtəlif Avropa dillərində bülleten və broşüralar buraxır, Azərbaycanı təbliğ edirdilər. İldönümü münasibətilə 1919-cu ildə Fransız dilində "Azərbaycan Respublikası" kitabçası buraxılmışdır.

Mə'lum olduğu kimi, 1919-cu ilin axırları və 1920-ci ilin əvvəlində Sovet Rusiyasında əks-inqilabi qüvvələrin məğlubiyyəti Antanta dairələrinin Sovet Rusiyasına, həmçinin onun ətrafında e'lan olmuş kiçik dövlətlərlə münasibətini dəyişdi. Versal konfransının Ali Şurası 1920-ci il yanvarın 11-də Azərbaycanın və Gürcüstanın istiqlaliyyətinin de-fakto tanınması haqqında qərar qəbul etdi. De-fakto tanınması, de-yure olmasa da, əlbəttə, dövri baxımından, AC-nin o zamankı real vəziyyəti baxımından çox mühüm ictimai-siyasi hadisə idi. Birinci növbədə tarixin yeni dövründə dünya miqyasında Azərbaycan dövlətinin mövcud olduğu rəsmən e'lan olunmuş oldu.

Şübhəsiz, konkret yaranmış situasiyada Antanta hakim dairələrinin Sovet Rusiyası ətrafında onun tə'siri, nüfuzu dairəsində olan hərbcə qüvvətli dövlətlərin olması niyyəti də nəzərə alınmalıdır.



Bu amillə əlaqədar olaraq elmi və siyasi cəhətdən Sovet Rusiyasının Azərbaycan müstəqilliyini tanımaq məsələsinə o dövrdəki Azərbaycanda mövcud olan siyasi partiyaların müxtəlif və hətta, bir-birinə zidd münasibətini konkret - tarixi baxımdan düzgün təhlil və şərh etmək prinsipial əhəmiyyət kəsb edir. Bununla əlaqədar, 1919-cu il 22 dekabrda Parlamentdə Baş Nazir N.Yusifbəyovun e'lan etdiyi Yeni Kabinetin bəyannaməsindən aşağıda gətirilən sitat diqqətəlayiqdir: "Təəssüf ki, Rusiyada mübarizə aparan qüvvələrdən heç biri inana bilmir və ya inanmaq istəmir ki, o, Rusiyanın əvvəlki sərhədlərinə nail ola bilməz və öz müqəddəratını tə'yin etmiş xalqlar üzərində yenidən böyük dövlətçilik hökmranlığı - bu boş xülyadır. Bizimlə Rusiya arasında olan ixtilafın səbəbi bundan ibarətdir".

Kəlam var ki, "tarixi təcrübə həyatın daimi müəllimidir". Azərbaycan Cümhuriyyətinin təqribən ikiillik varlığı dövründə Azərbaycan xalqının iqtisadi, siyasi və mədəni həyatında dövrünə görə çox mühüm mütərəqqi milli demokratik dəyişikliklər baş vermişdir. Həmçinin də onu da qeyd etmək lazımdır ki, AC-də hakimiyyət burjua-mülkədar hakimiyyəti idi. Eyni zamanda AC-nin yaranması Azərbaycan millətinin inkişafı timsalı idi, onun tarixin yeni dövrünün türk, müsəlman aləmində ilk respublika dövlət qurumu və qabaqcıl millətlərdən biri olduğunu təsdiq edirdi.

Azərbaycan xalqının tarixin yeni dövründə 3 respublikası olub, Azərbaycan Cümhuriyyəti - ADR, Azərbaycan SSR və Müstəqil Azərbaycan Respublikası.

Azərbaycan Cümhuriyyəti, 70 yaşlı Azərbaycan SSR tariximizin təkzib olunmaz əbədi keçmiş və salnaməsinin silinməz səhifələridir.

Vətəndaşı olduğumuz Azərbaycan Respublikası isə zəmanəmizin bu günkü həqiqətidir.

Bu üç respublika xalqımızın ictimai-siyasi yaradıcılığının, onun tarixi magistralı ilə keçdiyi yolun müxtəlif dövrlərinin məhsuludur.

Bu baxımdan üç respublika millətin inkişaf rəmzi olan dərin siyasi qütbiləşmənin, sinfi təbəqələşmənin təzahürüdür.

Azərbaycan Cümhuriyyəti, Azərbaycan SSR və Suveren Azərbaycan Respublikasının tarixi mövcudluğu xalqımızı "bütöv" xalq, bir kütlə-köçəri məxluq kimi qələmə verən düşmənlərimizə əsaslı cavabdır.

Həqiqətdir ki, tarixin mürəkkəb, ziddiyyətli, təlatümlü gedişində hər bir millətin gələcəyə doğru inkişaf yolunu ayırd etmək, ona istiqamət verməkdə millətin siyasi, ictimai qüvvələrinin bir-birinə qarşı duran cəbhələrə bölür, alternativ qarşısında qoyur. Bu mübahisəsiz həqiqətdir.

AC-nin mühüm əhəmiyyəti ondadır ki, iri dövlətlərin, çəkişmələrin qurbanı olub iki hissəyə parçalanmış yüz ildən artıq çar imperiya köləsində, ucqar vilayətdə yaşamış bir millətin siyasi, milli şüurunun ifadəsi, millətin öz mənliyi, müqəddəratı uğrunda ictimai-siyasi həyata oyanması, əməli mübarizəyə başlanması rəhni idi.

AC-i eyni zamanda zəhmətkeşlərin, sinfi, siyasi, şüurunun inkişafında da mühüm rol oynadı. Xalqın əksəriyyətinin milli mənafeyini hansı siyasi qüvvələr ardıcıl qoruyub həyata keçirə bilər məsələsini müəyyən dərəcədə aydınlaşdırdı.

Bu baxımdan, bizim fikrimizcə, AC, həmçinin Azərbaycan SSR-nin meydana gəlməsi üçün obyektiv və subyektiv amillərdən ibarət zəminin yaranmasında mühüm rol oynadı və həmçinin bu iki Respublikanın özləri də yeni üçüncü respublikanın, əsl müstəqil Azərbaycan Respublikasının, suveren Azərbaycan dövlətinin bərqərar olması tarixi şansının özəli oldu.

Bəlkə də AC olmasaydı Azərbaycan SSR də yaranmazdı, indi Azərbaycanın taleyi çox pis olardı. Tarixi hadisələrin sonrakı gedişi bunu sübut edir. İndi müstəqil Azərbaycan Respublikası da olmazdı.



Beləliklə, bu üç respublikanı bir-birinə qarşı qoymaq, siyasi alver predmetinə çevirmək, ekstremist məqsədlər üçün istifadə etmək cəhdləri qəti pislənməli və rədd edilməlidir.

1918-1920-ci illər tarixən qısa olsa da tariximizin ən mürəkkəb, çox ziddiyyətli, çətin düyünlü dövrlərindən biridir. Mə'lumdur ki, tarix bölünməzdir, tarixin gedişində fasilə, pauza olmur. Tarix daim irəliyə doğru hərəkətdədir. Tarix dönməz, geriyə qayıtmaz kateqoriyadır.

Tarixi hadisələr, etaplar ümumi tarixi zəncirin bir-biri ilə sıx bağlı həlqəsidir. Onları bir-birindən əlaqəsiz tədric olunmuş şəkildə tədqiq etmək, öyrənmək və şərh etmək elmilikdən uzaqdır. Əlbəttə, tarixi silsilədə dövrləri ayıran nisbi sədlər də mövcuddur. Amma sədlərin özləri də keçicidir. Tarixi həqiqətin əsas açarı isə tarixi dövrdə konkret - dialektik elmi münasibətdir. Tarixi hadisələri və faktları cəm, məcmu halında götürmək, onların yaranması, inkişafı və nəticəsi - bu əsas üç amil vəhdətliyi məntiqidir.

1918-1998-ci illər arasında Azərbaycan xalqının həyatında baş verən hadisələrin bir növ təkrarı, oxşarlığı müşahidə olunur. Bu kədərli irsiyyət AC-nin taleyindən ibrət dərsi götürməyi daha da aktual edir. Fəqət Hegelin kəlamı da yada düşür - insanların tarixdən götürdükləri əsas ibrət dərsi, heç bir ibrət dərsi götürməməkdir!

Ələlxüsus milli-azadlıq hərəkatına, onun əhəmiyyətinə və roluna konkret tarixi nəzərdən baxmaq, mövcud dövrün dərin qatlarına nüfuz etmək, ictimai-sosioloji və siyasi qarşılıqlı münasibətlər kompleksini açmaq əvəzinə, ümumi ibarələr, konyunktur mühakimələr yürütmək çox zərərli ciddi nöqsandır.

Azərbaycanın tarixində 1917-1920-ci illər elə çətin bir labirintdir ki, bundan çıxmaq üçün ancaq haqq, həqiqət kompası kömək edə bilər. Bu dövr elə bir tarixi düyün nöqtəsidir ki, elə bir tarixi düyündür ki, onu açmaq üçün hissiyyat, emosiya açarı yox, yalnız elmi açar lazımdır. Belə olmasa tarixi dolağın düyünü daha da

dolaşar, həqiqət meydana çıxmaz, yenə də biz uduzarıq. Bizə indi ancaq həqiqət lazımdır.

Tarix elmi nüfuzdan düşmüşdür. Bu bizim günahımız deyil, bəlamızdır. Elmimizin nüfuzunu ancaq prinsipial elm əsasında qaldıra bilərik. Tənqid və mübahisələrlə yanaşı artıq konstruktiv tədbirlər və real işlər tələb olunur. Bunun üçün birinci növbədə qruppabazlıqdan, intriqadan, təkəbbürlükdən və təhqiranə ibarələrdən uzaq olmaq lazımdır, elmi həyatımızın ekologiyasını bu zəhərlərdən təmizləmək vacibdir.

Elmi baxışlarda bir tərəfliliyin, qərəzçiliyin, aradan götürülməsi üçün ancaq sənədlərə və faktlara istinad etmək, onları obyektiv təhlil etmək, oponentlərin fikirlərinə hörmətlə yanaşmaq, onlara təhqiranə ittihamlar yağdırmağa, damğalar yapışdırmağa yol verməmək lazımdır.



# XRONOLOGİYA

## *1917-ci il*

| | |
|---|---|
| 27 fevral | Rusiyada Fevral burjua-demokratik inqilabının baş verməsi. |
| 3 mart | Bakı şəhəri İctimai təşkilatları İcraiyyə komitəsinin təşkili. |
| 6 mart | Əsgər, fəhlə və zabit deputatları Sovetlərinin təşkili. |
| 9 mart | Müvəqqəti hökumət tərəfindən Qafqaz canişinliyinin ləğvi və Xüsusi Zaqafqaziya Komitəsinin təşkili. |
| 27 mart | Müsəlman ictimai təşkilatları Şurasının və onun müvəqqəti komitəsinin təşkili |
| 15-20 aprel | Bakıda Qafqaz müsəlmanlarının qurultayının keçirilməsi |
| 11-17 may | I Ümumrusiya müsəlman qurultayının Moskvada keçirilməsi. |
| İyun | "Müsavat" partiyasının və "Türk-Ədəmi Mərkəziyyət" partiyasının "Türk-Ədəmi-Mərkəziyyət Müsavat" adı altında birləşməsi. |
| Sentyabr | "İttihad - Rusiyada müsəlmanlıq" partiyasının təşkili. |
| 22 oktyabr | Bakı fəhlə və hərbi deputatları Sovetinə seçkilər keçirilməsi. |

| | |
|---|---|
| 25-29 oktyabr | "Müsavat" partiyasının I qurultayı. |
| 25 oktyabr | Petroqradda bolşevik çevrilişinin baş verməsi. |
| 27 oktyabr | Bakı fəhlə və hərbi deputatları Sovetinin geniş iclası. |
| 31 oktyabr | Bakı fəhlə və hərbi deputatları Sovetinin yeganə inqilabi və qanunverici orqan e'lan edilməsi. |
| 2 noyabr | Bolşeviklər tərəfindən Bakı Soveti İcraiyyə Komitəsi rəhbərliyinin ələ keçirilməsi. |
| 15 noyabr | Zaqafqaziya Komissarlığının təşkili. |
| 22 noyabr | Bakı şəhəri İctimai təşkilatları İcraiyyə komitəsinin ləğv edilməsi. |
| 26 noyabr | Azərbaycanda və bütün Cənubi Qafqazda Müəssisələr Məclisinə seçkilər keçirilməsi. |
| 5 dekabr | Osmanlı Ordusu Qafqaz cəbhəsi komandanlığı və Zaqafqaziya Komissarlığı arasında barışığın imzalanması. (Ərzincan barışığı). |
| 12-13 dekabr | Bakı fəhlə və hərbi deputatları Sovetinə seçkilərin keçirilməsi. |
| 18 dekabr | V.İ.Lenin tərəfindən S.Şaumyanın Qafqazın Fövqəl'adə komissarı tə'yin edilməsi. |



## *1918-ci il*

| | |
|---|---|
| 7-9 yanvar | Rusiya ordusunun əsgərləri və Cənubi Qafqaz hərbi hissələri arasında Şamxor və Dəllər stansiyalarında toqquşma. |
| 23 fevral | Zaqafqaziya Seyminin açılması. |
| 7 mart | Zaqafqaziya Seymi tərəfindən aqrar qanunun qəbulu. |
| 14-20 mart | Zaqafqaziya Seymi və Türkiyə arasında Trabzon konfransının keçirilməsi. |
| mart-aprel-may | Bakı Soveti tərəfindən azərbaycanlıların kütləvi qırğınının təşkili. |
| 10 aprel | Qosinskinin dəstəsinin Bakı Soveti qoşunları tərəfindən məğlub edilməsi. |
| 13 aprel | Zaqafqaziya Seymi tərəfindən Türkiyəyə müharibə e'lan edilməsi. |
| 20 aprel | Knyaz Maqalovun komandanlığı altında Cənubi Qafqaz qoşunlarının Kürdəmirə geri çəkilməsi. |
| 22 aprel | Zaqafqaziya Seymi tərəfindən Cənubi Qafqazın müstəqilliyinin e'lan edilməsi. |
| 25 aprel | Bakı Soveti Xalq Komissarları Şurasının təşkili. |
| 26 aprel | Zaqafqaziya Seymi tərəfindən Cənubi Qafqaz hökumətinin təsdiqi. |
| 30 aprel | Bakı şəhər Dumasının ləğvi. |
| 1 may | Qubanın Bakı Soveti qoşunları tərəfindən tutulması. |
| 11 may-4 iyun | Batum sülh konfransı. |

| | |
|---|---|
| 26 may | Bakı qəzası kənd deputatları sovetlərinin qurultayı. Zaqafqaziya Seyminin son iclası. |
| 27 may | Azərbaycanın Milli Şurasının təşkili. |
| 28 may | Azərbaycanın Müstəqilliyi aktının qəbulu. Azərbaycan Xalq Cümhuriyyətinin e'lan edilməsi. |
| 28 may-17 iyun | F.Xoyskinin I Hökumətinin fəaliyyəti. |
| 4 iyun | Azərbaycan və Osmanlı imperiyası arasında Sülh və Dostluq müqaviləsinin imzalanması. |
| 5 iyun | Türk ordusunun Yelisavetpola daxil olması. |
| 16 iyun | Azərbaycan Cümhuriyyəti Milli Şurasının və hökumətinin Gəncəyə köçməsi. |
| 17 iyun | Milli Şuranın buraxılması. |
| 8 iyun-7 dekabr | F.Xoyskinin II Hökumətin fəaliyyəti. |
| 23 iyun | Azərbaycanda hərbi vəziyyətin e'lan edilməsi. |
| 26 iyun | Zaqatala quberniyasının yaranması. |
| 27 iyun | Qafqaz İslam Ordusunun Göyçay yaxınlığında Bakı Soveti qoşunları üzərində qələbəsi. |
| 27 iyun | Azərbaycan türk dilinin Azərbaycan Cümhuriyyətinin dövlət dili e'lan edilməsi. |
| 30 iyun | Yelisavetpol şəhərinə Gəncə adının qaytarılması. |



| | |
|---|---|
| 10 iyul | Kürdəmirin və Şamaxının Qafqaz İslam Ordusu tərəfindən azad edilməsi. |
| 25 iyul | Bakı Soveti tərəfindən ingilislərin Bakıya də'vət edilməsi haqqında qərarın qəbul edilməsi. |
| 31 iyul | Bakı xalq Komissarları Şurasının süqutu |
| 1 avqust | Sentrokaspi diktaturasının və Bakı fəhlə və əsgər deputatları Soveti Müvəqqəti Komitəsi Rəyasət Hey'əti Hökumətinin yaranması. |
| 4 avqust | İlk ingilis dəstəsinin Bakıya gəlməsi. |
| 11 avqust | Azərbaycan hökumətinin ümumi səfərbərlik haqqında qərar qəbul etməsi. |
| 28 avqust | Azərbaycan (türk) dilinin tədris edilməsii haqqında Nazirlər Şurasının qərarı. |
| 4 sentyabr | İngilis qoşunlarının Bakını tərk etməsi. |
| 9 sentyabr | Azərbaycan Respublikasının üçrəngli Dövlət Bayrağı haqqında qanunun qəbul edilməsi. |
| 15 sentyabr | Bakı şəhərinin Qafqaz İslam Ordusu tərəfindən azad edilməsi. |
| 17 sentyabr | Azərbaycan hökumətinin Bakıya köçməsi. |
| 5 oktyabr | Azərbaycan hökumətinin neft sənayesinin dövlətsizləşdirilməsi haqqında qərarı. |
| 18 oktyabr | Bakı şəhərində "Türk Ocağı" cəmiyyətinin yaranması. |

| | |
|---|---|
| 30 oktyabr | Türkiyə və Antanta ölkələri arasında Mudros sülh müqaviləsinin imzalanması. |
| 7 noyabr | Azərbaycanın Hərbi Nazirliyinin tə'sis edilməsi. |
| 16 noyabr | Azərbaycan Milli Şurasının bərpası. |
| Noyabr | Qori seminariyasının Azərbaycan bölməsinin Qazağa köçürülməsi. |
| 17 noyabr | Azərbaycana müttəfiq qoşunlarının daxil olması. |
| 19 noyabr | Azərbaycan Cümhuriyyəti Parlamentinin yaradılması haqqında qanunun qəbulu. |
| 29 noyabr | Xəzər donanması ticarət gəmilərinin ingilis komandanlığının ixtiyarına keçməsi. "İngilis dəniz transportunun" yaranması. |
| 7 dekabr | Azərbaycan parlamentinin açılışı. |
| 12 dekabr | Bakı-Batum neft kəmərinin neft kəməri kimi fəaliyyətə başlaması. |
| 15 dekabr | Bakı Fəhlə Konfransı təşkilatının bərpası. |
| 24-26 dekabr | Bakı Fəhlə Konfransının başçılığı ilə ümumi tə'tilin keçirilməsi. |
| 26 dekabr | F.Xoyskinin başçılığı ilə III kabinetin təşkili Gürcüstan və Azərbaycan arasında tranzit müqaviləsinin bağlanması. |
| 28 dekabr | Azərbaycan hökumətinin yeganə qanuni hökumət kimi tanınması haqqında Bakı general qubernatoru Tomsonun deklorasiyası. |



## 1919-cu il

| | |
|---|---|
| 15 yanvar | Qarabağ general qubernatorluğunun yaradılması. Azərbaycan Cümhuriyyəti Silahlı qüvvələri Baş Qərargahının təşkili. |
| 4 fevral | Parlamentin aqrar komissiyasının təşkili. |
| 6 fevral | "İttihad"ın lideri Q.Qarabəyovun hökumətə e'timadsızlıq votumu ilə çıxışı. |
| 25 fevral | F.Xoyski hökumətinin iste'fası. |
| 19 mart | Fəhlə məsələsi üzrə xüsusi müşavirənin parlament tərəfindən təsdiqi. |
| 14 aprel | Azərbaycan Respublikası parlamenti tərəfindən N.Usubbəyov başda olmaqla IV hökumət kabinetinin yaradılması. |
| 24 aprel | General Tomsonun Cənubi Qafqazda müttəfiq qanunlarının baş komandanı vəzifəsində general Şatervortla əvəz edilməsi. |
| 6-13 may | Bakı Fəhlə konfransının Ümumi tə'tilinin keçirilməsi. |
| 28 may | Azərbaycan nümayəndələrinin Paris sülh konfransında ABŞ prezidenti Vilsonla görüşü. |
| 11 iyun | Hökumətin Dövlət Müdafiə Komitəsinin təşkili haqqında qərarı. |
| 13 iyun | Bakıda ingilislərə qarşı nümayişlərin keçirilməsi. |

| | |
|---|---|
| 14 iyun | Dövlət Müdafiə Komitəsi tərəfindən Azərbaycan ərazisində hərbi vəziyyət e'lan edilməsi. |
| 27 iyun | Ərazi bütövlüyünün birlikdə qorunması haqqında Azərbaycan-Gürcüstan müqaviləsinin Parlament tərəfindən təsdiqi. |
| 11 avqust | Azərbaycan Parlamenti tərəfindən Azərbaycan vətəndaşlığı haqqında qanunun qəbulu. |
| 19 avqust | İngiltərə-İran müqaviləsinə görə İran Azərbaycana olan ərazi iddialarından əl çəkdiyini bəyan etmişdir. |
| 24 avqust | İngilislərin Bakını tərk etməsinin başlanması. |
| 28 avqust | Azərbaycan Dövlət Bankının yaradılması haqqında qanunun qəbul edilməsi. |
| 1 sentyabr | Bakı Dövlət Universitetinin açılması haqqında qanunun qəbul edilməsi. |
| 13 sentyabr | N.Usubbəyovun parlamentin sədrinə iste'fa haqqında müraciəti. |
| 25 sentyabr | Qazax qəzası kəndlilərinin I qurultayının açılışı. |
| 25 oktyabr | Azərbaycan Dövlət Bankının açılışı. |
| 23 noyabr | Tiflisdə Azərbaycan və Ermənistanın tərəflər arasında baş verən bütün münaqişələrə son qoyulmasını və sərhəd məsələlərinin sülh yolu ilə həll edilməsini nəzərdə tutan müqavilənin imzalanması. |
| 2-11 dekabr | "Müsavat" partiyasının II qurultayı. |



| | |
|---|---|
| 22 dekabr | Parlament tərəfindən hökumətin yeni tərkibinin təsdiq edilməsi. |

## *1920-ci il*

| | |
|---|---|
| 2 yanvar | Sovet Rusiyasının Azərbaycan Respublikasına Denikinə qarşı birgə mübarizə haqqında I notası |
| 11 yanvar | Azərbaycanın müstəqilliyinin Paris sülh konfransının Ali Şurası tərəfindən de-fakto tanınması. |
| 14 yanvar | F.Xoyskinin Çiçerinə Rusiyanın daxili işlərinə qarışmayacağı barədə I cavab notası. |
| 23 yanvar | Q.Çiçerinin II notası |
| 1 fevral | F.Xoyskinin Çiçerinə RSFSR ilə Azərbaycan Respublikası arasında danışıqların başlanması üçün bir-birlərinin müstəqilliyini və suverenliyini qeyd-şərtsiz tanıması haqqında II cavab notası. |
| 11-12 fevral | Azərbaycan Kommunist Partiyasının I tə'sis qurultayı. |
| 18 fevral | M.H.Hacınskinin Daxili İşlər Naziri vəzifəsindən iste'fası. |
| 20 mart | Azərbaycan-İran müqaviləsinin bağlanması. Bu müqaviləyə əsasən Azərbaycanın İran tərəfindən de-yure tanınması. |
| 23 mart | Əmək və Ziraət Naziri Ə.Pepinovun iste'fası. |
| 23 mart | Azərbaycan və Gürcüstan arasında ticarət müqaviləsi imzalanması. |

| | |
|---|---|
| 9 aprel | Poçt və teleqraf naziri C.Hacınskinin iste'fası. Azərbaycan, Gürcüstan və Ermənistanın iştirakı ilə Tiflisdə konfrans keçirilməsi. |
| 15 aprel | A.Qardaşovun "Əhrar" partiyasının hökumət koalisiyasından çıxması haqqında bəyannaməsi. F.Xoyskinin Q.Çiçerinə Rusiya qoşun hissələrinin Azərbaycan sərhədlərində cəmləşməsi ilə bağlı Azərbaycan dövlətinin narahatlığının ifadə edən notası. |
| 27 aprel | XI Qızıl Ordunun AXC-nin ərazisinə hərbi təcavüzü |
| 28 aprel | Azərbaycan İnqilab Komitəsinin hakimiyyətin ona təhvil verilməsi haqqında ultimatumunun Azərbaycan parlamenti tərəfindən qəbul edilməsi. |

## Mündəricat

SÖZÖNÜ . . . . . . . . . . . . . . . . . . . . . . . . . . . 5

REDAKTORDAN . . . . . . . . . . . . . . . . . . . . 13

GİRİŞ: Müstəqilliyə doğru: Yolun başlanğıcı . . . . 16

I FƏSİL: Müstəqillik ərəfəsində Azərbaycanda və Cənubi Qafqazda siyasi vəziyyət . . . . . . . 29

*§ 1. Azərbaycan fevral inqilabından sonra . . . 29*

*§ 2. Rusiyada Oktyabr çevrilişi və Azərbaycan . . . . . . . . . . . . . 50*

*§ 3. Zaqafqaziya Seymi tərəfindən diyarın müstəqilliyinin e'lan edilməsi . . . . 60*

*§ 4. 1918-ci ilin yazı: Azərbaycan xalqının soyqırımı . . . . . . . . 65*

*§ 5. Bakı kommunarlarının antiazərbaycan fəaliyyəti . . . . . . . . . . . 81*

II FƏSİL: Azərbaycan Xalq Cümhuriyyətinin e'lan edilməsi . . . . . . . . . . . . . . . . . 92

*§ 1. Birinci dünya müharibəsinin başa çatması dövründə böyük dövlətlərin Azərbaycan uğrunda mübarizəsi . . . . . . . 92*

*§ 2. Azərbaycanın istiqlaliyyəti və ərazi bütövlüyü uğrunda müharibənin başlanması. Osmanlı ordusunun Bakıdakı düşmən qüvvələrin məhv edilməsində köməyi . . . 99*

*§ 3. Azərbaycan Cümhuriyyəti Hökumətinin Azərbaycanın bütün ərazisində hakimiyyətinin bərqərar edilməsi . . . . . . . . . . . . 107*



*§ 4. Böyük Britaniya qoşunlarının Azərbaycana gəlməsi . . . . . . . . . . . 118*

III FƏSİL: Azərbaycan milli dövlətçiliyin təşəkkülü və inkişafı dövründə . . . . . . . . . . 127

*§ 1. Azərbaycan cəmiyyətində demokratik dəyişikliklərin başlanması. Azərbaycan parlamentinin formalaşması. F.Xoyskinin ikinci hökumət kabinəsinin yaradılması . . . . . . . . . . . . . . . 127*

*§ 2. N.Usubbəyovun başçılığı ilə dördüncü hökumət kabinəsi . . . . . . . 140*

*§ 3. Respublikada mədəni quruculuq . . . . . 159*

*§ 4. Azərbaycan Ordusunun yaradılması. Azərbaycanın ərazi bütövlüyü uğrunda mübarizə . . . . . . . . . . . 181*

IV FƏSİL: Azərbaycan Xalq Cümhuriyyətinin iqtisadi siyasəti . . . . . . . . . . . . . . . . . 210

V FƏSİL: Azərbaycan sülh nümayəndə Hey'əti Parisdə, Versalda Ali Şura tərəfindən Azərbaycanın tanınması . . . . . . . . . 244

VI FƏSİL: 1919-cu ilin sonu - 1920-ci ilin əvvəllərində Azərbaycan Cümhuriyyətində sosial-siyasi vəziyyət . . . . . . . . . . . . . 260

VII FƏSİL: Bakıda Aprel çevrilişi və 1920-ci ildə Azərbaycanın RSFSR XI ordusu tərəfindən işğal olunması . . . . . . . 274

Nəticə . . . . . . . . . . . . . . . . . . . . . . . . . 304

Xronologiya . . . . . . . . . . . . . . . . . . . . . 319

Fotoşəkillər . . . . . . . . . . . . . . . . . . . . . 330

Azərbaycan Cümhuriyyəti
(1918-1920)

Bakı - "Elm" - 1998

"Elm" Redaksiya-Nəşriyyat və Poliqrafiya Mərkəzi
(İstiqlaliyyət küç. 10)

Mərkəzin direktoru: Ş.Alışanlı
Baş redaktoru: T.Kərimli
Rəssamı: V.Ustinov
Texniki redaktoru: T.Ağayev
Kompüter tərtibatı: S.Səfərli, Ə.Kərimov

Yığılmağa verilmiş 30.03.1998. Çapa imzalanmış 12.08.1998. Formatı 84x108 1/32. Həcmi 21 ç.v. Ofset çapı. Tirajı 500. Sifariş 583 Qiyməti müqavilə ilə.

Azərbaycan Respublikası Mətbuat və İnformasiya Nazirliyinin "Qızıl Şərq" icarə mətbəəsi (H.Aslanov küç. 80.